Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2005

II hissə

5629

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2009

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:
XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2005. İkinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 688 səh.

ISBN 978-9952-8129-4-7

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin beşinci buraxılışı 2005-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışın böyük hissəsini "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda, "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda, "Azərbaycan Respublikasının normativ aktlarının bülleteni"ndə və digər mənbələrdə nəşr edilmiş xarici siyasətə dair Azərbaycan Respublikasının normativ hüquqi aktları təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin beşinci buraxılışı 2005-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir. Məcmuənin **ikinci hissəsi** xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının normativ hüquqi aktlarının rəsmi mətnlərini özündə əks etdirir.

2005-ci ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq arenada nüfuzunun və mövqeyinin möhkəmlənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir. İl ərzində Azərbaycan dünyadakı mövqeyini daha da möhkəmləndirə bilmişdir. İkitərəfli və çoxtərəfli müstəvidə bütün ölkələrlə, əsasən dost ölkələrlə çox səmərəli əlaqələr qurmuşdur. Bu əlaqələr Azərbaycana dünyadakı mövqelərini daha da möhkəmləndirməsinə və dünya birliyində öz yerini daha da gücləndirməsinə imkan vermişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü çərçivəsində diplomatik vasitələrlə həlli məsələsi ölkənin xarici siyasətinin öncül istiqaməti olaraq qalmışdır. 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatı bu məsələni öz gündəliyinə salmışdır. Eyni zamanda, Avropa Şurası 2005-ci ilin əvvəlində bu məsələyə dair çox dəyərli qətnamə qəbul etmişdir və bu qətnaməyə əsasən, Ermənistan işğalçı dövlət kimi tanındı. ATƏT öz faktaraşdırıcı missiyasını işğal olunmuş ərazilərə göndərmişdir və missiya orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Eyni zamanda, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz işlərini daha da fəallaşdırmışlar.

2005-ci ildə Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində keçirilmiş iki görüş, habelə iki dövlətin xarici işlər nazirlərinin Praqa prosesi çərçivəsində apardıqları danışıqlar silahlı münaqişənin nəticələrinin aradan qaldırılması və siyasi problemlərin həlli üçün normal şərait yaradılması məsələlərini müzakirə etməyə imkan vermişdir.

Azərbaycan malik olduğu bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığını aydın və birmənalı şəkildə nümayiş etdirməyə davam etmişdir.

2005-ci il ərzində Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə və digər növ təhlükəli cinayətlərə qarşı BMT və Avratlantik tərəfdaşlığı çərçivəsində beynəlxalq mübarizədə iştirakını davam etdirmişdir.

Avropa dəyərlərinə sadiq olan və Avropada təhlükəsizlik, azad bazar və demokratiya üçün vahid məkanın formalaşdırılmasına yönəldilən siyasi xəttə riayət edən Azərbaycan NATO və Avropa İttifaqı ilə tərəfdaşlığı genişləndirməyi davam etdirmişdir.

Azərbaycan Prezidenti və NATO rəhbərliyinin təsdiqlədiyi Fərdi Tərəfdaşlıq Əməliyyatı Planı Azərbaycanın NATO ilə inteqrasiya əlaqələrinin inkişafı və onun Avroatlantika strukturu ilə qarşılıqlı fəaliyyət göstərməsi qabiliyyətinin yüksəlməsi prosesində mühüm mərhələ olmuşdur. NATO-nun Azərbaycanda Beynəlxalq məktəbi yaradılmışdır.

Avropa Qonşuluq Siyasəti çərçivəsində fəaliyyət planının işlənib hazırlanması Avropa İttifaqı ilə tərəfdaşlığın inkişaf etdirilməsi və ona daha da yaxınlaşmaq baxımından böyük əhəmiyyətə malikdir. Avropa İttifaqı Nazirlər Şurasının müvafiq qərarından və Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Avropa İnteqrasiyası üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra fəaliyyət planının Avropa Komissiyası ilə razılaşdırılması başlanmışdır.

İl ərzində Azərbaycan Avropa Şurasının müxtəlif qurumlarında fəaliyyətini davam etdirmişdir. AŞ-nin baş katibi T.Devisin Azərbaycana səfəri və insan hüquqları, seçkilər və demokratik təsisatların möhkəmləndirilməsi sahəsində fəaliyyət planının gerçəkləşdirilməsinə başlanması bu təşkilatla münasibətlərin inkişafında mühüm mərhələ olmuşdur.

İslam ümmətinin tərkib hissəsi olan Azərbaycan İslam Konfransı Təşkilatının (İKT) fəaliyyətində iştirakına xüsusi diqqət ayırmışdır. İKT, 2005-ci ildə keçirilən III Fövqəladə zirvə toplantısı və təşkilatın üzvü olan ölkələrin xarici işlər nazirlərinin 32-ci Konfransı zamanı Ermənistanın davamlı təcavüzünü pisləyərək və Azərbaycanın işğal altındakı torpaqlarının tamamilə və qeyri-şərtsiz azad edilməsinə çağıraraq öz prinsipial mövqeyini və ölkəmizlə həmrəyliyini növbəti dəfə təsdiqləmişdir.

2005-ci ildə Azərbaycan xarici iqtisadiyyat istiqamətində də fəal tədbirlər görmüşdür. Qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadi sisteminə tam inteqrasiyasını dəstəkləməklə Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmağa çalışmaqda davam etmiş, aktiv ikitərəfli və çoxtərəfli üzvlük danışıqlarını aparmışdır. Bununla yanaşı, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB, GUAM və başqa təşkilatlarla çox səmərəli əməkdaşlığını davam etdirmişdir.

İl ərzində Azərbaycan özünün uzunmüddətli inkişaf strategiyasını müəyyən edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, habelə Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun tikintisi layihəsinin həyata keçirilməsi üçün səylərini davam etdirmişdir.

Azərbaycan növbəti uğurlarını beynəlxalq qurumlarda daha yaxşı təmsil edilməsində qazanılmışdır. Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi yekdilliklə təşkilatın Baş Məclisinin xüsusi siyasi və müstəmləkələrin ləğv edilməsi məsələləri ilə məşğul olan IV Komitəsinin sədri seçilmişdir. Bundan əlavə, Azərbaycan BMT-nin İqtisadi və Sosial Şurasının sessiyasında İnsan Hüquqları Komissiyanın üzvü seçilmişdir.

2005-ci ildə Azərbaycan həm də ikitərəfli münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf etdirmişdir. İl ərzində dövlət və hökumət başçıları, parlamentlərin və xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər reallışdırılmış, hökumətlərarası birgə komissiyaların və işçi qruplarının iclasları keçirilmişdir. 2005-ci ildə həmçinin əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. Blokada şəraitində yaşayan Naxçıvan əhalisinin təbii qazla təmin edilməsinə və Muxtar Respublikanın əhalisinin Azərbaycan-İran sərhədini keçmələri qaydalarının sadələşdirilməsinə dair mühüm razılaşmalar əldə olunmuşdur. Qonşu dövlətlərlə sərhədlərin delimitasiyası və Xəzərin hüquqi statusu haqqında Konvensiya layihəsinin hazırlanmasına dair danışıqlar gedişində də müəyyən keyfiyyət irəliləyişləri müşahidə olunmuşdur.

2005-ci ildə Bolqarıstan, İndoneziya, İspaniya, Latviya, Moldova və Yaponiyada səfirliklərini, habelə Los-Ancelesdə baş konsulluğunu təsis edən Azərbaycan diplomatik nümayəndəliklərin davamlı genişləndirilməsi işini uğurla davam etdirmişdir.

Xarici işlər Nazirliyinin infrastrukturunun təkmilləşdirilməsi, diplomatik xidmətin normativ-hüquqi bazasının inkişafı, onun orqanlarının kadr potensialının möhkəmləndirilməsi və diplomatların peşəkarlığının artırılması prosesi ilboyu dayanmamışdır. Diplomatik nümayəndəliklərin rəhbərlərinin və əməkdaşlarının rotasiyası prinsipinin məqsədyönlü həyata keçirilməsini, habelə ölkəmizin xarici siyasət idarəsinin təcrübəsində ilk dəfə tətbiq edilən kadrların test sistemi ilə seçilməsini qeyd etmək olar.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında sərhədyanı ticarət sahəsində əməkdaşlığa dair Memorandum;

1.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti arasında Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol-Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum;

1.4. Azərbaycan Respublikası və İran İslam Respublikası dəmir yolları arasında əməkdaşlıq haqqında Protokol;

1.5. "İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC (Borcalan) arasında İmişli-Əli Bayramlı-Astara EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsi;

1.6. İran İslam Respublikası İxracatın İnkişaf Bankı tərəfindən Azərbaycan Respublikasında Bakı-Astara avtomobil yolunun bir hissəsinin maliyyələşdirilməsinə dair Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 yanvar 2005-ci il

№591

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında sərhədyanı ticarət sahəsində əməkdaşlığa dair Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

20 may 2002-ci ildə, müvafiq olaraq 29 ordibehişt 1381-ci ildə imzalanmış Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Müqavilənin müddəalarını rəhbər tutaraq,

sərhədyanı ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər sərhədyanı ticarəti, milli qanunvericilikləri əsasında icazə verilən malların ixrac və idxal əməliyyatlarını hər iki ölkənin müvafiq orqanları tərəfindən təsdiq edilən əmtəə nomenklaturuna uyğun olaraq həyata keçirəcəklər.

Maddə 2

İki ölkə arasında sərhədyanı ticarət bu Memorandum çərçivəsində, mülkiyyət formasından asılı olmayaraq fiziki və hüquqi şəxslər arasında imzalanmış müqavilələr əsasında və hər bir Tərəfin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq sərhədyanı ticarətin inkişaf etdirilməsinə və alğı-satqı həyata keçirilərkən fiziki və hüquqi şəxslər arasında birbaşa kommersiya əlaqələrinin qurulmasına kömək göstərəcəklər.

Maddə 4

Tərəflər sərhədyanı ticarəti tənzimləmək məqsədilə idxal və ixracın illik həcmini razılaşdıracaqlar. Buna uyğun olaraq Tərəflər bütün sərhədyanı bazarlar üzrə ümumilikdə 5 mln. ABŞ dolları həcmində illik ticarət dövriyyəsi kvotasını təyin edirlər. Zərurət yarandığı təqdirdə, Tərəflərdən hər hansı birinin xahişi ilə Tərəflər sərhədyanı ticarətin həcmi ilə bağlı məsələlər barədə məsləhətləşmələr aparacaqlar.

Maddə 5

Tərəflər Azərbaycan Respublikası Milli Bankı ilə İran İslam Respublikası Mərkəzi Bankı arasında hər iki ölkənin milli valyutalarının dəyişdirilməsi barədə Sazişə sərhədyanı ticarətdə riayət edilməsinin təmin olunması barədə razılığa gəldilər.

Maddə 6

Tərəflər insanların sərhədyanı bazarlara daxil olmasını təmin etmək məqsədilə onların sərhəddə hərəkətini sadələşdirəcəklər. Bu sadələşdirmələr hər iki Tərəfin milli qanunvericiliyi əsasında sərhəd xidməti orqanları tərəfindən onların səlahiyyətləri çərçivəsində tənzimlənəcəkdir.

Maddə 7

Sərhədyanı ticarətdə iştirak edənlər arasında baş verən bütün mübahisələr və iddialar dostcasına və mübahisənin və iddianın baş verdiyi ərazinin məxsus olduğu Tərəfin milli qanunvericiliyi əsasında həll ediləcəkdir.

Maddə 8

Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alınması tarixindən qüvvəyə minir və bir il müddətində qüvvədə qalacaqdır.

Bu Memorandum, Tərəflərdən hər hansı birinin digər Tərəfi onun qüvvəsinin uzadılmasını istəmədiyi barədə bu Memorandumun müddətinin bitməsindən üç ay əvvəl məlumatlandırmayana qədər avtomatik olaraq növbəti birillik müddətlərə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində 5 avqust 2004-cü ildə, müvafiq olaraq 15 mordad 1383-cü ildə Azərbaycan, fars və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Təfsirində mübahisələr yaranacağı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*ƏLİ SUFİ*
İqtisadi inkişaf naziri	*Kooperasiya naziri*

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti,

ölkələri arasında dostluq münasibətlərinin genişləndirilməsi və ətraf mühit və təbiətin qorunması sahəsində əməkdaşlığın dərinləşdirilməsini arzu edərək,

dövlətlərində insan mühitinin və təbii mühitin mühafizəsi və yaxşılaşdırılması üçün ümumi maraq və öhdəliklərin, habelə qlobal ətraf mühitin mühafizəsi sahəsində ümumi maraqlarını bölüşdürərək,

iqtisadiyyatın davamlı inkişafı üçün təbii sərvətlərin ətraf mühit cəhətdən sağlam idarəçiliyi tələb etdiyini qəbul edərək,

indiki və gələcək nəsillərin sağlamlığı və əmin-amanlığı üçün ətraf mühitin mühafizəsinin və yaxşılaşdırılmasının əhəmiyyətinə əmin olaraq,

ətraf mühit cəhətdən davamlı texnologiyalar sahəsində səmərəli əməkdaşlığın vacibliyini vurğulayaraq,

xüsusi ətraf mühit ərazilərində tədqiqat, monitorinq, mühafizə və təkmilləşdirmə sahələri üzrə əməkdaşlıqdan irəli gələ bilən qarşılıqlı faydalılığın əhəmiyyətliliyini etiraf edərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

I. ÜMUMİ MÜDDƏALAR

Tərəflər bərabərlik prinsipi və qarşılıqlı maraq əsasında ətraf mühit sahəsində əməkdaşlıq edəcəklər.

II. ƏMƏKDAŞLIĞIN SAHƏ VƏ FORMALARI

Tərəflər qarşılıqlı maraq kəsb edən aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

1. ətraf mühit təhsili və məlumatı sahələrində təcrübə, elmi nailiyyətlər və texniki üsullar mübadiləsi;

2. ətraf mühitin mühafizəsi və təbiətin qorunması mövzularında kitab və nəşrlərin mübadiləsi və paylanması;

3. təbii ehtiyatların idarə olunması sahəsində bacarıq və ekspertiza mübadiləsinin aparılması (misal üçün, landşaft sahələrinin idarə edilməsi üzrə və s.)

4. xüsusi mühafizə olunan ərazilərin, xüsusilə milli parkların və vəhşi təbiət nümunələrinin idarə edilməsi;

5. ictimaiyyətin iştirakı metodu üzrə informasiya və təcrübənin mübadiləsi;

6. aşağıda göstərilmiş maraq sahələrinə müvafiq olaraq, birgə tədqiqatların aparılması, layihələrin həyata keçirilməsi, məlumat və ekspertiza mübadiləsi, birgə seminarların aparılması:

su bataqlıq ərazilərinin idarə edilməsi;

içməli su ehtiyatlarının keyfiyyətinin mühafizəsi (yeraltı və səth suları);

tullantıların və təhlükəli tullantıların idarə edilməsi;

ekoloji cəhətdən təmiz texnologiyaya əsaslanmış davamlı inkişaf;

alternativ enerji mənbələrinin istifadəsinin genişləndirilməsi (günəş, külək və s.);

7. geoloji və geomorfoloji dəyərlərin qorunması və nümayiş etdirilməsi;

8. proqram və ekoloji siyasət ilə əlaqədar məsələlərin müzakirəsi üçün səfərlərin və görüşlərin təşkil olunması;

9. hər iki ölkənin xüsusi diqqət mərkəzində olan kökü kəsilmək təhlükəsi ilə rastlaşan quş növlərinin miqrasiyası başda olmaqla, vəhşi təbiətin idarəçiliyi, miqrasiya təhqiqatları, beynəlxalq konsensiyalar çərçivəsində bitkilərin və heyvanların qorunub-saxlanılması üzrə təcrübə mübadiləsi;

10. müxtəlif bioloji varlıqlardan davamlı istifadə, eləcə də ümumi sərhədyanı ərazilərdə ceyranların (mühüm bioloji növ kimi) potensial sahələrinə yenidən qaytarılması üçün birgə tədqiqatların həyata keçirilməsinə xüsusi diqqət yetirməklə canlı təbiətin sərvətlərindən istifadə sahəsində əməkdaşlıq.

III. ƏMƏKDAŞLIQ BARƏDƏ RAZILAŞMA

1. Əməkdaşlığın həyata keçirilməsi üçün Tərəflər ekspertlər səviyyəsində əlaqələndiriciləri təyin etməlidirlər. Gələcək əməkdaşlığın hazırlığını müzakirə etmək üçün həmələqələndiricilər alternativ şəkildə ya İran İslam Respublikasında, ya da Azərbaycan Respublikasında ildə bir dəfə (xüsusilə zəruri olduğu qədər ekspert görüşləri) görüşəcəklər.

2. Bu Memorandumla əlaqədar müxtəlif tədbirlərdə səmərəli və tam iştirak etmək üçün hər iki Tərəf zəruri ola bilən müvafiq inzibati razılaşmaları təmin edəcəkdir.

3. Hər bir Tərəf, digər şəkildə razılaşdırılmazsa, görüşlərdə iştirak ilə bağlı öz xərclərini ödəyəcəkdir.

IV. YEKUN MÜDDƏALAR

1. Bu Memorandum Tərəflərin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və vəzifələrinə təsir etmir.

2. Tərəflər bu Memorandumun təfsiri və tətbiqi ilə əlaqədar mübahisələri məsləhətləşmələr və danışıqlar vasitəsilə həll edəcəklər.

3. Tərəflər qarşılıqlı razılıq əsasında Memoranduma onun ayrılmaz hissəsi olan və V Maddəyə uyğun olaraq qüvvəyə minən Protokollar formasında dəyişikliklər və əlavələr edə bilərlər.

V. QÜVVƏYƏ MİNMƏ

1. Bu Memorandum onun qüvvəyə minməsi üçün tələb olunan müvafiq dövlətdaxili prosedurların başa çatmasını təsdiqləyən son yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı gündən qüvvəyə minir.

2. Bu Memorandum beş il müddətinə bağlanılır və Tərəflərdən birinin ən azı 6 ay əvvəlcədən diplomatik kanallar vasitəsilə onun ləğv edilməsi niyyəti haqqında yazılı bildirişi olmazsa, avtomatik olaraq növbəti beş il müddətlərinə qüvvədə olacaqdır.

3. Bu Memorandumun ləğv edilməsi onun əsasında razılaşdırılmış mövcud proqram və layihələrə təsir etməyəcəkdir.

4. Bakı şəhərində 5 avqust 2004-cü ildə, uyğun olaraq 15 mordad 1383-cü ildə iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olarsa, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ ƏTRAF MÜHİT DEPARTAMENTİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*KAMAL XƏRRAZİ*
Ekologiya və təbii sərvətlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol-Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum

İran İslam Respublikasının Prezidenti Zati-Aliləri cənab Xatəminin avqust 2004-cü il tarixində Azərbaycan Respublikasına səfəri gedişində iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin və İran İslam Respublikası Yol-Nəqliyyat Nazirliyinin rəhbərləri arasında danışıqlar aparılmışdır.

Bu danışıqlar olduqca dostluq, xoş məram və qarşılıqlı anlaşma şəraitində keçmişdir. Danışıqların nəticəsi olaraq hər iki tərəf aşağıdakı məqamlar haqda razılığa gəlmişlər:

1. Tərəflər qarşılıqlı nəqliyyat əlaqələrini müsbət qiymətləndirdilər və belə müzakirələrin davam etdirilməsinin vacibliyini vurğulayaraq, nəqliyyat sahəsində problemlərin

aradan qaldırılması məqsədilə iki ölkənin Birgə Nəqliyyat Komissiyasının yaradılması və onun iclaslarının hər il iki ölkədə növbəli olaraq keçirilməsi barədə razılığa gəldilər. İki ölkənin Birgə Nəqliyyat Komissiyasının ilk iclasının keçirilməsi yeri və tarixi diplomatik kanallar vasitəsilə Tərəflərə çatdırılacaqdır.

2. Dəmir yolu nəqliyyatı sahəsində:

Tərəflər Qəzvin-Rəşt-Ənzəli-Astara dəmir yolu xəttinin tikintisinin reallaşmasını hərtərəfli dəstəklədiklərini bəyan edərək, bu məqsədlə İran-Azərbaycan-Rusiya birgə Konsorsiumunun yaradılması prosesinin gedişindən razı qaldıqlarını bildirdilər.

Tərəflər iki ölkənin dəmir yolu qurumlarının rəhbərliyi arasında 2 iyun 2004-cü il (13.03.1383) tarixində əldə olunmuş razılaşmalara uyğun olaraq Astara - Astara dəmir yolunun tikintisinin başlanmasının vacibliyini qeyd etdilər.

Tərəflər "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dəmir yolu sərhəd keçidi haqqında Saziş"in bu ilin sonuna kimi imzalanması barədə razılığa gəldilər.

3. Avtomobil nəqliyyatı sahəsində:

Tərəflər iki ölkə arasında imzalanmış "Beynəlxalq avtomobil daşımaları haqqında Saziş"in müvafiq müddəalarının icrasını təmin etmək məqsədilə, İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə sərnişin daşımaları üçün avtobus marşrutlarının təşkil edilməsinin sürətləndirilməsini zəruri hesab etdilər.

Tərəflər "Beynəlxalq avtomobil daşımaları haqqında Saziş"in 13-cü maddəsinə uyğun olaraq birgə Komissiyanın növbəti iclasının 1 ay ərzində Bakı şəhərində keçirilməsi barədə razılığa gəldilər.

4. Layihələr (körpülər və avtomobil yolları)

Tərəflər razılığa gəldilər ki, Pöldəşt və Culfa körpülərinin inşasına tezliklə başlanılması üçün maliyyələşdirmə məsələlərini həll etsinlər;

Tərəflər Biləsuvar (Azərbaycan) - Biləsuvar (İran) avtomobil yolunun Azərbaycan hissəsində tikintisi istiqamətində görülmüş tikinti-tamamlama işlərinin gedişini müsbət qiymətləndirmişlər.

Bu Memorandum 2004-cü il 5 avqust tarixində Azərbaycan və fars dillərində iki nüsxədə Bakı şəhərində imzalanmışdır. Hər iki nüsxə eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ YOL-NƏQLİYYAT NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*SƏİD NEJAT*
Nəqliyyat naziri	*Yol-Nəqliyyat nazirinin müavini*

Azərbaycan Respublikası və İran İslam Respublikası dəmir yolları arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Dövlət Dəmir Yolunun və İran İslam Respublikası Dəmir Yolunun rəhbərləri

dəmir yolu daşımaları sahəsinin inkişafına əhəmiyyət verərək,

həmçinin mövcud qaydalara, sazişlərə əsaslanaraq,

aşağıdakılar haqqında razılaşdılar:

1. Tərəflər arasında sərnişin və yük daşımaları sahəsində əməkdaşlığın inkişaf etdirilməsi.

2. Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası arasında Qəzvin-Rəşt-Astara dəmir yolu xəttinin tikintisində üçtərəfli Konsorsiumun yaradılmasında əldə olunan nailiyyətləri müsbət qiymətləndirərək, Tərəflər göstərilən layihənin həyata keçirilməsi üzrə işlərin tezləşdirilməsi razılığına gəldilər.

3. Azərbaycan Tərəfinin "Şimal-Cənub" beynəlxalq tranzit dəhlizi Sazişində, İran tərəfinin "TRASEKA" nəqliyyat dəhlizində üzvü olmalarında maraqlı olmaları ilə əlaqədar Tərəflər bir-birlərini dəstəklədiklərini elan edirlər.

4. 05.10.1382 bərabərdir 26.12.2003 ildə Tehran şəhərində "ADDY" və "RAİ" dəmir yollarının nümayəndələri tərəfindən Sərhəd sazişi layihəsi əsasında hazırlanmış "ADDY" və "RAİ" arasında Sərhəd dəmir yolu Sazişinin təsdiq olunmasının tezləşdirilməsi qərarına gəldilər və 10 sentyabr 2004-cü ilədək Bakı şəhərində ekspert-nümayəndələrin görüşünün təşkil olunması razılığına gəldilər.

5. İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) regionda nəqliyyatın inkişafında mühüm rolunu qeyd edərək, Tərəflər İƏT iclaslarında öz nümayəndələrinin iştirakının vacibliyini elan etdilər.

6. Tərəflər Naxçıvan-Təbriz sərnişin qatarının Tehran şəhərinə kimi hərəkət etməsinə öz razılıqlarını təsdiq etdilər.

7. Tərəflər Azərbaycan Dövlət Dəmir Yolunun Naxçıvan hissəsində İran İslam Respublikasının dəmir yollarına vaqonları icarəyə vermək məsələsinə baxılması barədə razılığa gəldilər.

8. Bu Protokol 7 maddədən tərtib olunmuş və 5 avqust 2004-cü ildə, müvafiq olaraq 15 mordad 1383-cü ildə Bakı şəhərində iki nüsxədə Azərbaycan, fars və rus dillərində imzalanmışdır. Hər bir nüsxə eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DƏMİR YOLU ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ DƏMİR YOLU ADINDAN
ZİYA MƏMMƏDOV	*SƏİD NEJAT*
Nəqliyyat naziri	*Yol-Nəqliyyat nazirinin müavini*

"İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC (Borcalan) arasında İmişli - Əli Bayramlı - Astara EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsi

Giriş

Bu Maliyyə Müqaviləsi 1500PFA AZER-01 ("Müqavilə")

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, yaradılmış "Azərenerji" ASC (Borcalan)

və

İran İslam Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış İran Eksport İnkişaf Bankı (İEİB) arasında 2004-cü il avqustun 5-də bağlanmışdır.

İEİB bu Müqavilə əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və İran Eksport Zəmanət Fondu tərəfindən zəmanət verilmiş kredit hesabına İmişli-Əli Bayramlı-Astara EVX-lərin və müvafiq yarımstansiyaların layihələndirilməsi və tikintisinin Borcalanla "Təchizat" şirkəti arasında imzalanacaq Kontraktda göstərilmiş dəyərinin 85%-i həcmində və eləcə də Bankın sənədli krediti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti əsasında İran Eksport Zəmanəti Fondunun (İEZF) sığorta məbləğinin 85%-nin maliyyələşdirilməsinə razılaşmışdır.

Beləliklə, aşağıdakılar qarşılıqlı surətdə razılaşdırılmışdır:

Maddə 1

İfadələr

Aşağıdakı ifadə və təbirlər bu Maddədə göstərilən mənada işlədilməlidir: "Müqavilə" - İEİB və Borcalan arasında imzalanmış № 1500PFAAZER-01 saylı 2004-cü il 5 avqust tarixli Maliyyə sənədidir.

"İstifadə müddəti" - Müqavilənin qüvvəyə minməsi ilə başlayan və bu tarixdən 30 ay müddətindən sonra başa çatacaq müddət ərzində Müqavilə əsasında ödənişlərin aparılacağı müddətdir.

"Bank" - Azərbaycan Respublikasının Beynəlxalq Bankıdır.

"Bank günü" - London şəhərində Bankların açıq olduğu istənilən gündür.

"Ödəmələr" - bu Müqavilə əsasında sənədli kredit üzrə tələb olunan sənədlərlə 85%-lik maliyyələşdirmə çərçivəsində veriləcək məbləğlər deməkdir.

"Sənədli akkreditiv" - bu Müqavilənin 4-cü maddəsi və təchizat kontraktına uyğun olaraq Bank tərəfindən Borcalan üçün açılacaq kredit xəttidir.

İEİB - İran Eksport İnkişaf Bankıdır.

İEZF - İran Eksport Zəmanət Fondudur.

"Qüvvəyə minmə tarixi" - 3-cü maddəyə uyğun olaraq, İEİB-nin Borcalana bu Müqavilənin ibtidai şərtlərinin yerinə yetirilməsi barədə göndərdiyi bildirişin tarixidir.

"LİBOR" - Pul Vəsaitlərinin Xərclənməsi müddətinə uyğun gələn dövrdə Reuter agentliyinin LİBOR 01 səhifəsində (və ya Reuter agentliyinin nəşr etdiyini ekvivalent səhifədə) London vaxtı ilə saat 11.00-da Pul Vəsaitlərinin Xərclənməsi dövrünün 1-ci günündən 2 bank günü əvvəl çap olunmuş USD depozitlərinin 1/16%-nə bərabər olan illik faiz dərəcəsidir.

"Eksport Zəmanəti" - İEZF tərəfindən verilmiş kredit zəmanətidir.

"Xərclər" - Borcalanın ödəmələrlə əlaqədar 7-ci maddəyə uyğun olaraq, ödəyəcəyi xərclərdir.

"Xərclərin Ödənməsi Tarixi" - 7-ci maddəyə uyğun olaraq, xərclərin İE-İB ödənilməsi müddətinin son günüdür.

"Pul Vəsaitlərinin Xərclənməsi Müddəti" - 7-ci maddədə müəyyən edilən müddət deməkdir.

"Zəmanət Verən" - Azərbaycan Respublikasının Hökuməti adından İEİB-in xeyrinə ödəniş zəmanəti vermək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyidir.

"Layihə" - təchizat kontraktında göstərildiyi kimi, aşağıdakıları əhatə edir:

a) 330 kV-luq İmişli-Parsabad EVX və 330 kV-luq İmişli yarımstansiyasının genişləndirilməsi;

b) 330 kV-luq İmişli-Əli Bayramlı DRES EVX və 330 kV-luq İmişli və Əli Bayramlı DRES y/s-in genişləndirilməsi;

c) 220 kV-luq Əli Bayramlı-Salyan EVX;

d) 220 kV-luq Salyan y/s;

e) 220 kV-luq Salyan-Masallı EVX;

f) 220 kV-luq Masallı-Astara EVX;

g) Astara y/s-nın layihələndirilməsi və genişləndirilməsi.

"Təchizatçı" - İran İslam Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış İran şirkətidir.

"Təchizat kontraktı" - Layihənin yerinə yetirilməsi barədə Təchizatçı ilə Borcalan arasında imzalanası kontraktdır.

"ABŞ dolları" və ya "USD" - Amerika Birləşmiş Ştatlarının qanuni valyutasıdır.

"Borcalan" - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış və Bakı şəhəri, Ak. Ə.Əlizadə küçəsi, 10 ünvanda yerləşən "Azərenerji" ASC-dir.

Maddə 2

Pul vəsaitləri

2.1. Bununla İEİB Borcalanın xahişi ilə təchizat kontraktı dəyərinin 85%-i və İEZF-in sığorta haqqının 85%-i həcmində 68.500.000,00 ABŞ dollarından çox olmayaraq, bu Müqavilə əsasında maliyyələşdirmə həyata keçirməyə razılaşır.

Maddə 3

Pul vəsaitlərindən istifadə şərtləri və prosedurları

3.1. Bu Müqavilə üzrə İEİB-nin öhdəlikləri məqbul sayılan forma və məzmunda aşağıdakı sənədlərin İEİB tərəfindən qəbul edilməsi ilə şərtlənir:

3.1.1. Təchizat kontraktı.

3.1.2. Eksport zəmanəti.

3.1.3. Maddə 4-ə uyğun olaraq, Bank tərəfindən verilmiş sənədli kredit.

3.1.4. Maddə 8.2-yə uyğun olaraq inzibati xərclər.

3.1.5. Bu müqaviləni Borcalanın adından imzalamaq hüququna malik olan şəxsin kimliyini və onun imzasını, eləcə də bu Müqavilə əsasında bildirişlər, sertifikatlar və digər sənədləri imzalamaq hüququna malik olan digər şəxslərin kimliyini təsdiq edən etibarnamə.

3.2. Maddə 3.1-də tələb olunan sənədlərə və məlumatlara əlavə olaraq Borcalan İEİB-yə Təchizat kontraktı ilə bağlı olan və vaxtaşırı İEİB tərəfindən tələb olunan məlumatları təqdim etməlidir.

3.3. İEİB Borcalana bütün bu müddəaların yerinə yetirildiyi barədə rəsmi sənəd təqdim edəcəkdir ki, bu sənədin tarixi Müqavilənin qüvvəyə minmə tarixi hesab ediləcəkdir.

Maddə 4

Kredit sənədləri üzrə tələblər

4.1. Pul vəsaitlərinin istifadəsi üzrə akkreditiv sənədləri aşağıdakı şəkildə olmalıdır:

4.1.1. Bank tərəfindən lazımi formada verilməlidir.

4.1.2. Beynəlxalq ticarət palatasının son tələblərinə, Bankın və İEİB-nin istifadə etdiyi akkreditiv sənədlərinin nümunəsinə uyğun tərtib edilməlidir.

4.1.3. Müqavilənin imzalanmasından sonra 4 ay ərzində hazırlanmalıdır.

4.1.4. İEİB ilə müzakirə və məsləhətləşmələr kifayət etməlidir.

4.1.5. Borcalanın və İEİB-nin razılığı olmadan heç bir dəyişikliyin edilməyəcəyini təsbit etməlidir.

4.1.6. İstifadə müddətinin son günü də daxil olmaqla qüvvədə olmalıdır.

4.1.7. Aşağıdakı xüsusi maddəni əhatə etməlidir:

Kredit sənədləri üzrə kompensasiyalar İEİB ilə "Azərenerji" ASC arasındakı 1500PFAAZER-01 saylı 2004-cü il 5 avqust tarixli Maliyyə müqaviləsi əsasında həyata keçirilməlidir.

4.1.8. Sənədli Kreditin ən azı 15 faizinin İEİB tərəfindən avans ödənişi zəmanəti verildikdən dərhal sonra Borcalan tərəfindən nağd şəkildə ödənilməsini təsbit etməlidir.

Maddə 5

Sənədli Akkreditiv üzrə məsləhətləşmələr və ödənişlər

5.1. 4.1-ci maddəyə uyğun olaraq İEİB-nin tövsiyə etdiyi müvafiq kredit sənədlərinin müzakirəsindən sonra İEİB Kredit sənədlərinin şərtlərinə müvafiq şəkildə ödəniş aparmağa başlayacaq və Borcalana aşağıdakıları bildirəcəkdir:

5.1.1. Sənədli kreditin və ödənişin nömrəsi.

5.1.2. Ödənişin tarixi, məbləği və valyutası.

5.1.3. Bu Müqavilənin 7-ci Maddəsinə uyğun olaraq Xərclərin Ödənilmə-si Tarixləri və onların məbləği.

5.1.4. Əsas məbləğin qaytarılması tarixləri və bu ödənişlərin məbləğləri;

5.1.5. Kreditin tam istifadəsindən sonra və ya istifadə müddətinin sonun-da (hansı hal tez baş verərsə) kreditin qaytarılması qrafiki və hər bir ödənişin məbləği.

5.2. İEİB müqavilə üzrə bütün ödənişlər haqqında qeydləri özündə saxla-malıdır. Bu qeydlər mütləq, səhvsiz və tam olmalıdır. İEİB hər Ödəniş və Xərclərin ödənilməsi tarixlərində müqavilə üzrə bütün ödənilməmiş məbləğlər və onların tarixi haqqında sənədləri təqdim etməlidir. Lakin Borcalan tərəfindən bu cür bildirişlərin alınmaması onu bu ödənişlərin vaxtında həyata keçirilməsi öhdəliyindən azad etmir.

Maddə 6

Kreditin qaytarılması

6.1. Təchizat kontraktının bütün tərəflərinin öhdəliklərinin yerinə yetiril-məsindən asılı olmayaraq Borcalan bu müqavilənin şərtləri əsasında İEİB tərəfindən ödənilmiş bütün məbləğləri İEİB-yə qaytarmalıdır.

6.2. Borcalan tərəfindən İEİB-yə müqavilə üzrə qaytarılmalı olan əsas məbləğ ABŞ dolları ilə, eksport zəmanətinin şərtlərinə uyğun olaraq 10 bərabər yarımillik ödənişlər şəklində qaytarılmalı və ilk bu cür ödəniş istifadə müddətinin son günündən 6 ay sonra və ya qüvvədə olma müddətinin son günündə həyata keçirilməlidir.

6.3. İEİB müqavilə üzrə hər ödənişdən 30 gün əvvəl Borcalana yazılı bildiriş göndərəcəkdir. Lakin bu cür bildirişlərin alınmaması sifarişçini bu ödənişlərin vaxtında həyata keçirilməsi öhdəliyindən azad etmir.

Maddə 7

Kreditdən istifadə xərcləri

7.1. Kreditdən istifadə xərcləri müqavilə üzrə ödəniş günündən başlayaraq, bütün ödənişlərin payına düşməlidir və tam şəkildə ödənilənə qədər davam etməlidir. Borcalan bu xərcləri İEİB-yə müqavilə üzrə xərclərin ödənilməsi tarixinə illik LİBOR + 1% həcmində ödəməlidir.

7.2. Kreditdən hər hansı istifadə xərcinin ilk dövr bu istifadənin tarixindən başlayaraq və uyğun olaraq martın 15-də və ya sentyabrın 15-də (hansı tarix daha tez gələrsə) başa çatır.

7.3. Kreditdən istifadə xərcinin hər bir sonrakı dövrü özündən əvvəlki dövr qurtaran zaman başlayır və uyğun olaraq martın 15-də və ya sentyabrın 15-də (hansı tarix daha tez gələrsə) başa çatır.

7.4. Əgər hər hansı dövrün sonu istirahət gününə təsadüf edirsə, bu halda ödəniş sonrakı ən yaxın iş gününə keçirilir. Lakin bu iş günü növbəti aya keçərsə, ödəniş müddəti istirahət günündən əvvəlki iş gününə salınır.

7.5. Yuxarıdakı 7.2, 7.3 və 7.4-cü maddələrə baxmayaraq, kreditdən istifadə xərcləri növbəti ödəniş tarixindən əvvəlki 30 gün ərzində ödənilərsə, ödəniş dövrü növbəti ödəniş tarixindən sonrakı 6 aya təsadüf edən ödəniş tarixinə qədər uzadılmalıdır.

7.6. Kreditdən istifadə xərcləri 360 günlük il ərzində yığılaraq xərclərin hər ödəniş tarixinə olan borc kimi hesablanmalıdır. Əgər heç bir səhv olmazsa, İEİB bu müqaviləyə görə xərclərin ödəniş məbləğinin düzgün olması və ödənilməli olduğu haqda bildiriş göndərməlidir.

7.7. İstifadə dövrünün sonunda sığorta məqsədilə xərclərin ödənilməsi tarixi Maddə 6-ya uyğun olaraq kreditin qaytarılma tarixi ilə üst-üstə düşməlidir.

7.8. İEİB Borcalana 30 gün əvvəldən müqaviləyə görə ödənilməli olan xərclərin məbləği barədə yazılı hesab təqdim edir. Buna baxmayaraq, hesabın alınmaması Borcalanı ödənişi vaxtında yerinə yetirməkdən azad etmir.

7.9. Bu müqaviləyə görə ödənişlər tam şəkildə vaxtında həyata keçirilmədikdə, hər hansı məhkəmə qaydasında xəbərdarlıq olmadan, gecikdirilmiş dövr üçün ödənilməyən məbləğə kreditin istifadə xərclərinə illik LİBOR + 2% həcmində cərimə ödənilir.

5629

Maddə 8

Komissiya xərcləri

8.1. Borcalan İEİB-yə illik 0,25% həcmində:

sənədli kreditin qüvvəyə mindiyi gündən başlayaraq

a) tam məbləğin ödənildiyi tarixə qədər;

b) sənədli kreditin istifadə müddəti başa çatana qədər;

c) sənədli kreditin tam təqdim edildiyi tarixə qədər;

d) müqavilə üzrə hər hansı sonrakı ödəmə ilə əlaqədar İEİB-nin öhdəliklərinin ləğv edilməsinə qədər;

müqavilə üzrə kreditin istifadə edilməmiş hissəsinə görə komissiya haqqı ödəyir. Komissiya haqqı kreditin istifadə xərclərinin ödəniş tarixi ilə eyni vaxtda ödənilməlidir.

8.2. Borcalan İEİB-yə müqavilə üzrə nəzərdə tutulmuş vəsaitin 0,25%-i həcmində birdəfəlik inzibati xərc ödəməlidir. Bu ödəniş sənədli kreditin təqdim edildiyi ta-

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

rixdən 30 gün ərzində, kreditdən ilk istifadə tarixindən əvvəl həyata keçirilməlidir.

8.3. Borcalan İEİB-yə eksport zəmanəti üçün müqavilədə nəzərdə tutulmuş şərtlərlə 5.450.000 (beş milyon dörd yüz əlli min) USD həcmində mükafat ödəməlidir.

Maddə 9

Vergilər, rüsumlar və digər xərclər

9.1. İran İslam Respublikası və Azərbaycan Respublikası əraziləri daxilindəki bütün vergi, rüsum və xərclərin ödənilməsi bu ölkələrin milli qanunvericiliyi ilə tənzim olunur.

9.2. Bu müqavilə üzrə yaranmış hər hansı mübahisənin 15.2-ci maddəyə uyğun olaraq, məhkəmədə baxılması təqdirində məhkəmə xərcləri məhkəmənin qərarına müvafiq şəkildə ödəniləcəkdir.

9.3. Borcalan tərəfindən həyata keçirilməli olan bütün ödənişlər heç bir tutulma və çıxarış olmadan tam şəkildə yerinə yetirilməlidir. Əgər Borcalan hər hansı hüquqi və ya qanuni akt əsasında bu və ya digər tutulma tətbiq edərsə, bu halda o, tutulma tətbiq edilən məbləğlə birlikdə tutulma və çıxarış olmadan tam məbləğin İEİB tərəfindən qəbul edilməsi üçün tələb olunan əlavə məbləğ də ödəməlidir.

Maddə 10

Zəmanətlərin təqdim edilməsi

10.1. Azərbaycan Hökumətinin müəyyən etdiyi Zəmanətçi öz adından müstəqil şəkildə qeydsiz-şərtsiz zəmanət vermək hüququna malikdir və Borcalan və ya Zəmanətçi İEİB-yə aşağıdakılar barədə zəmanət verir:

10.2. Borcalan, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun təsis olunub və qanuni surətdə fəaliyyət göstərməkdədir və bu Müqaviləyə uyğun öhdəlikləri yerinə yetirmə səlahiyyətinə malikdir.

10.3. Bu Müqavilə Borcalanın həqiqi, qanuni və məcburi öhdəliklərindən ibarətdir və bu Müqavilənin yerinə yetirilməsi heç bir qanuna, qaydaya və Borcalana aid olan öhdəliklərə zidd olmamalıdır.

10.4. Hər hansı bir və ya bütün dövlət və başqa idarələr, bu Müqavilənin Azərbaycan Respublikasında yerinə yetirilməsi, həqiqiliyi, məcburiliyi və icrası ilə əlaqədar tələb olunan qeydiyyat tanınmış və qüvvədədir. Borcalan İEİB-yə, qeydiyyata və icazəyə təsir göstərəcək gələcəkdəki dəyişikliklər barəsində məsləhət verəcək.

10.5. Hər hansı tamamlanmayan və ya yerinə yetirilmə mərhələsində olan və ya məhkəmə, arbitraj, inzibati tribunal qarşısında olan fəaliyyət maddi cəhətdən Borcalana və onun işinə, aktivlərinə və maliyyə vəziyyətinə və ya onun Müqavilə üzrə öhdəliyi yerinə yetirmə qabiliyyətinə arzuolmayan şəkildə təsir göstərə bilməz.

10.6. İEİB-yə Müqavilə üzrə Borcalan və ya onun adından təqdim edilən bütün məlumatlar tam və etibarlı olmalıdır.

10.7. Müqaviləyə daxil olarkən, Borcalan bu Müqaviləyə görə öz öhdəliklərinə uyğun

olaraq mülki və ticarət hüququ üzrə cavabdehlik daşıyır. Bu Müqavilənin yerinə yetirilməsi və icrası, dövlət işi olmayaraq, xüsusi və kommersiya xarakteri daşıyır. Borcalan bu Müqavilə üzrə öz öhdəliklərinə görə hüquqi qanunlar əsasında məhkəmə təhqiqatına məruz qala bilər. Hər hansı halda, Borcalan "hüquqi toxunulmazlıq" hüququndan imtina edir.

10.8. Azərbaycan Respublikası qanunlarına görə, İEİB-yə Müqavilə üzrə öz hüquqlarından istifadə etmək və Azərbaycan Respublikasında biznes həyata keçirmək üçün lisenziya almaq və ya öz kvalifikasiyasını dəyişmək məcburi deyil.

10.9. Bu Müqavilə üzrə Borcalanın öhdəlikləri onun digər təmin olunmamış öhdəlikləri ilə hər zaman ekvivalent olmalıdır. Bu məqsədlə Borcalanın xarici öhdəliyi, Azərbaycan Respublikasının xaricində yerləşən xarici hüquqi şəxsə, xarici valyuta ilə ödənilməli olan təmin olunmamış borcların qaytarılması üzrə öhdəliklərini ifadə edir.

10.10. Borcalan, Təchizat Kontraktı ilə əlaqədar olan zəruri dövlət icazə və razılıqlarının alındığını təsdiq edir.

10.11. Borcalanın, onun nümayəndələrinin və ya agentlərinin İEİB-yə təqdim etdiyi bütün məlumatlar bu Müqavilənin yerinə yetirildiyi dövr üçün doğru və etibarlıdır; Borcalan İEİB-yə yanlış məlumat təqdim etməməlidir.

10.12. Borcalan bu Müqavilə üzrə bütün ödənişləri ABŞ dolları ilə həyata keçirməlidir. Əgər ödəniş digər valyuta ilə həyata keçirilərsə, Borcalan valyuta mübadiləsi ilə əlaqədar bütün ödəmə və xərclərlə bağlı məsuliyyət daşıyır.

10.13. Digər Müqavilə və ya razılaşmadan irəli gələn hər hansı sorğu və ya tələb bu Müqavilə üzrə Borcalanın öhdəliklərinə təsir edə bilməz, çünki bu öhdəliklər mütləq və qeyd-şərtsiz xarakterə malikdir.

10.14. Borcalan, yuxarıda qeyd olunmuş bütün müddəa və zəmanətlərin doğruluğunu təsdiq edir. Bu zəmanətlərin hər hansı şəkildə dəyişməsi barədə Borcalan İEİB-yə məlumat verməyi və bu cür xoşagəlməz dəyişikliklərin İEİB-yə təsir göstərməməsi üçün zəruri tədbirlər görməyi öhdəsinə götürür.

Maddə 11

Öhdəliklər

Kredit vəsaitlərinin istifadə edildiyi və ya müqavilə üzrə hər hansı məbləğin hələ istifadə edilmədiyi dövrdə Borcalan öz üzərinə aşağıdakı öhdəlikləri götürür:

11.1. İEİB-yə:

11.1.1. Hər maliyyə ilinin sonundan, 9 aydan gec olmayaraq, Azərbaycan Respublikası ərazisində qüvvədə olan mühasibat uçotu prinsiplərinə uyğun olan maliyyə audit hesabatlarının surətini təqdim edəcəkdir.

11.1.2. İEİB-nin tələb edə biləcəyi hər hansı əlavə məlumatı operativ şəkildə İEİB-yə təqdim edəcəkdir.

11.2. Öz fəaliyyətində müvafiq qanun, qayda, qərar, göstəriş və öhdəlikləri rəhbər tutacaqdır.

11.3. Maddə 10.4-ün bütün müddəalarını rəhbər tutaraq həyata keçirəcəkdir.

11.4. Maddə 12-də nəzərdə tutulmuş və ya özünün maliyyə vəziyyətinə maddi cəhətdən mənfi təsir göstərə bilən, müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə mane ola bilən bütün hadisələr haqqında İEİB-ni dərhal xəbərdar edəcəkdir.

Maddə 12

Ödənişin dayandırılması

Aşağıdakı hallarda İEİB müqavilə üzrə ödənişləri dayandırmaq, məhdudlaşdırmaq və ya bütün məbləğlərin dərhal geri qaytarılmasını tələb etmək hüququnu özündə saxlayır:

12.1. Borcalan ödənilməmiş öhdəliyin olması barədə İEİB-dən yazılı bildiriş aldıqdan sonra 30 (otuz) gün ərzində Müqavilənin şərtlərinə uyğun olaraq hər hansı məbləği ödəməzsə.

12.2. Borcalan bu Müqavilə üzrə öz öhdəliklərini vaxtında və dəqiqliklə yerinə yetirməzsə, ya da bu barədə İEİB-dən yazılı bildiriş aldıqdan sonra 30 gün ərzində bu vəziyyəti aradan qaldırmazsa.

12.3. Borcalan tərəfindən Müqavilədə və ya hər hansı bir başqa sənəddə göstərilən hər hansı bir təqdimat və ya zəmanətlər etibarlı sayılmır.

12.4. Borcalanın İEİB qarşısındakı borcu, hər hansı məqbul güzəştli müddət prinsiplərinə uyğun olaraq, öz vaxtında ödənilmir.

12.5. Əgər borc mövcuddursa və müəyyən müddət sonra onun ödənilməsi tələb olunursa, Borcalan və ya Zəmanətçi tərəfindən, borcların dayandırılması ilə əlaqədar İEİB-yə və ya İran Eksport Zəmanət Fonduna (İEZF) verilən hər hansı bir zəmanət və kompensasiya alqışlanmır.

12.6. Borcalanın aktivlərinin vergiyə cəlb olunması və ya tətbiq edilən digər hüquqi proseslərin yerinə yetirilməsi 30 gün ərzində tənzimlənmirsə, maddi cəhətdən və arzu olunmayan şəkildə Borcalanın Müqavilədə qeyd olunan öhdəliklərini yerinə yetirmə qabiliyyətinə təsir göstərə bilər.

12.7. Borcalan əleyhinə tətbiq edilən və onun aktivlərinə, maliyyə vəziyyətinə təsir göstərən məhkəmə prosesi, arbitraj və ya inzibati tədbirlər maddi cəhətdən və arzu olunmayan şəkildə Borcalanın Müqavilə üzrə öhdəliklərini yerinə yetirmə qabiliyyətinin itirilməsinə səbəb ola bilər.

12.8. Müqaviləyə uyğun olaraq tələb olunan və müəyyən bir səbəbdən dayandırılan hər hansı bir sanksiya, maddi cəhətdən və arzu olunmayan şəkildə Borcalanın Müqavilə üzrə öhdəliklərini yerinə yetirmə qabiliyyətinin itirilməsinə səbəb ola bilər.

12.9. Maddi cəhətdən və arzu olunmayan şəkildə Borcalanın Müqavilə və Ödəniş Zəmanəti üzrə öhdəliklərini yerinə yetirmə qabiliyyətinin itirilməsinə səbəb ola bilən hər hansı bir hadisə baş verir.

12.10. Azərbaycan Respublikası məhkəməsinin qərarı ilə Borcalan iflasa uğramış elan olunmuşdur.

12.11. Zəmanətçi ödəniş üzrə öhdəliklərini yerinə yetirə bilmir və ya Ödəniş Zəmanəti üzrə öz öhdəliklərindən hər hansı birinin yerinə yetirilməsi Zəmanətçi üçün qeyri-mümkün və qeyri-qanuni olur.

12.12. Borcalanla Təchizatçı arasında təchizat Kontraktı əsasında yaranmış və 30 gün müddətində həll olunmayan hər hansı anlaşılmazlıq və ya qanuna müraciəti tələb edən mübahisələrə buna səlahiyyətli məhkəmələr tərəfindən baxılır.

Maddə 13

Öhdəliklərin verilməsi

13.1. Borcalan, Müqaviləyə uyğun olan öz hüquq və öhdəliklərindən heç birini təhvil verə bilməz.

13.2. İEİB, Borcalanın razılığı tələb olunmadan bu Müqaviləyə uyğun olan hüquq və ödəniş tələblərinin bir hissəsini və ya hamısını İEZF-ə təhvil vermə hüququna malik olmalıdır.

Maddə 14

Əlaqə

14.1. Müqaviləyə uyğun olan hər bir əlaqə Borcalan və İEİB arasında olmalıdır. Ünsiyyət yazılı şəkildə və ingilis dilində olmalıdır və məktub, faks, teleks vasitəsilə aşağıda qeyd olunan ünvanlara göndərilməlidir:

İran Eksport İnkişaf Bankı

Ünvan: No 4, Qandi küç., Tehran 15167-47913

İran İslam Respublikası

SWIFT : EDBIIRTN

Teleks No 226895 EDBIIR

Faks No: 0098 21 876979

Doktor Novruz Koxzadinin diqqətinə

Prezident və İdarəedici Direktor

Borcalan üçün:

"Azərenerji" ASC, Azərbaycan

Ünvan: Bakı AZ 1005, Ə. Əlizadə küçəsi, 10

Azərbaycan Respublikası

SWIFT : Bik IBAZAZ2X

Faks No: (99 4 12) 98 55 23

Prezident cənab E.S. Pirverdiyevin diqqətinə.

14.2. Əgər Müqaviləyə uyğun sənədin ingilis dilində təqdim olunması tələb olunursa, o zaman bu sənəd Borcalanın Rəhbəri və ya meneceri İran Eksport İnkişaf Bankı (İEİB) tərəfindən təsdiqlənən ingilis dilində tərcümə ilə birlikdə təqdim olunmalıdır və tərcümə tamamilə əslinə uyğun olmalıdır.

Maddə 15

Qanun və qanunvericilik

15.1. Müqavilənin müvafiq bəndlərinin icrası İran İslam Respublikasının bütün qanunlarına uyğunlaşdırılmalıdır.

15.2. Borcalan və İEİB bütün mübahisəli məsələlərin dostluq yolu ilə həll olunacağını öhdələrinə götürürlər. Əgər onlar problem haqqında hər hansı bir tərəfin nümayəndəsindən digər tərəfə rəsmi elanın verilməsindən sonra 45 gün ərzində razılığa gəlməsələr, o zaman məsələnin həllinə İsveçrə Beynəlxalq Arbitraj Məhkəməsində baxılmalıdır.

Maddə 16

Digər müddəalar

16.1. Müqaviləyə əsasən, hər hansı bir hüququn, hakimiyyətin və ya vasitənin həyata keçirilməsi sırasında, Bankın imkansızlığı və ya gecikməsi rədd edilmə üçün səbəb təşkil edə bilməz.

16.2. Bu Müqaviləyə əsasən, Banka hər hansı bir ödəmə, gecikdirilmiş ödəniş (əgər belələri varsa), ödəmə, vəsaitlərin sərfi və əsas məbləğin ödənilməsi üzrə lazımi şəkildə həyata keçirilməlidir. Bu cür ödənişlər İEİB-yə ABŞ dolları ilə ödənilməlidir.

16.3. Əgər hər hansı bir vaxt, bu Müqavilənin hər hansı bir şərti, qanuni əsasa və ya məhkəmə qərarına görə qeyri-qanuni və ya etibarsız sayılarsa, bu, Müqavilənin başqa şərtlərinə təsir göstərməməlidir.

16.4. Əgər Borcalan kreditorlara, tələbləri irəli sürmək imkanı verən istənilən hüququ təqdim etməlidirsə, Borcalan ləngimədən İEİB-yə xəbər verməlidir. Onun sorğusu, Müqavilə üzrə İEİB-nin tələblərinin yerinə yetirilmə-məsi haqqında zəmanəti göstərir.

16.5. Müqavilə üzrə, Borcalanın ödənişi ABŞ dolları ilə həyata keçirmə öhdəliyi toxunulmaz olaraq qalmalıdır.

Əgər məhkəmə təhqiqatı, ABŞ dollarından savayı xarici pul vahidi ilə ödəmə imkanı tanıyırsa və mübadilə kursu, qərarın qəbul edilmə tarixindən etibarən dəyişmişsə və İEİB pul məbləğini başqa pul vahidi ilə almışsa, bu zaman:

1. Borcalan İEİB-ya valyutanın mübadilə kursları arasındakı fərqi ödəməlidir;

2. İEİB Borcalana bu müddət ərzindəki valyutanın mübadilə kursları arasındakı fərqi ödəməlidir.

16.6. Bu Müqaviləyə dəyişikliklər, ancaq hər iki tərəf - İEİB və Borcalanın yazılı şəkildə imzalamasından sonra edilə bilər.

Bu Müqavilə yuxarıda qeyd olunan tarixdə tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən Azərbaycan və ingilis dillərində imzalanmışdır.

Müqavilənin təfsirilə əlaqədar fikir ayrılığı yaranarsa, ingilis mətni üstünlük təşkil edir.

İEİB (KREDİTOR)	ZƏMANƏTÇİ	BORCALAN
NOVRUZ KOHZADİ	*ƏVƏZ ƏLƏKBƏROV*	*ETİBAR PİRVERDİYEV*
Prezident və idarəedici direktor	*Azərbaycan Respublikasının maliyyə naziri*	*"Azərenerji" ASC-nin prezidenti*

İran İslam Respublikası İxracatın İnkişafı Bankı tərəfindən Azərbaycan Respublikasında Bakı-Astara avtomobil yolunun bir hissəsinin maliyyələşdirilməsinə dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və İran İslam Respublikası İxracatın inkişafı Bankı iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədilə aşağıdakılar barədə sözügedən Anlaşma Memorandumunu imzaladılar:

Maddə 1

Sözügedən Anlaşma Memorandumunun mövzusu Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin dövlət zəmanəti verəcəyi və İranın İxracatın Zəmanət Fondunun sığortalayacağı Bakı-Astara avtomobil yolunun bir hissəsinin inşasının İran İslam Respublikası İxracatın İnkişafı Bankı tərəfindən maliyyələşdirilməsinə dairdir.

Maddə 2

Aşağıdakı şərtlər əsasında Bakı-Astara avtomobil yolunun bir hissəsinin tikintisi:

1. Məbləğ:

40.000.000 ABŞ dollarından çox olmamaq şərtilə İran podratçısı və Azərbaycanın müvafiq orqanları arasında imzalanacaq müqavilənin məbləğinin 85%-ə qədəri.

2. Tikinti müddəti:

İran İxracatın İnkişafı Bankı və Azərbaycan tərəfi arasında imzalanacaq maliyyələşdirmə sazişinin qüvvəyə minməsindən 3 il ərzində.

3. Vəsaitin qaytarılması müddəti:

9 il ərzində, 18 yarımillik ödənişlərlə, birinci hissənin ödənilməsinin başlanğıcından 6 ay sonra həyata keçirilməsi şərtilə.

4. Kreditin faiz dərəcəsi:

illik LİBOR + 0,5%;

birdəfəlik ödənilmə şərtilə inzibati xərclər 0,25%

illik 0,25% həcmində kredit məbləğinin istifadə edilməmiş hissəsinin faiz dərəcəsi;

İran İxracatın Zəmanət Fondunun mükafatı 11,9% bir dəfə ödəmə şərtilə.

5. Akkreditiv yolu ilə.

Maddə 3

Sözügedən layihəni maliyyələşdirmə ilə bağlı Saziş layihəsi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir və daxili prosedurlar və Azərbaycan

Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Azərbaycanın əlaqədar orqanları arasında müzakirələr bitdikdən sonra bu layihə üzrə iş tamamlanmalı və İran İxracatın İnkişafı Bankı ilə Azərbaycanın müvafiq tərəfi arasında imzalanmalıdır. Zərurət yarandığı təqdirdə, Tərəflər bununla əlaqədar əlavə görüşlər keçirməyə razılaşırlar.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 5 avqust 2004-cü ildə Azərbaycan, fars və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

Təfsirdə fərqlərin yarandığı təqdirdə ingilis dilində olan mətn üstün götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI İXRACATIN İNKİŞAFI BANKI ADINDAN
ZİYA MƏMMƏDOV	*NOVRUZ KOHZADİ*
Nəqliyyat naziri	*İran İxracatın İnkişafı Bankının sədri və icraçı direktoru*

2004-cü il dekabrın 8-də Bakı şəhərində imzalanmış "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il dekabrın 8-də Bakı şəhərində imzalanmış "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Danimarka Krallığı Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 yanvar 2005-ci il

№592

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlayışma Memorandomu (AM)

Azərbaycan Respublikası Hökuməti, bu Memorandumun məqsədləri üçün Azərbaycanın səlahiyyətli orqanı olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi şəxsində (bundan sonra - Azərbaycan Tərəfi)

və

Danimarka Krallığı Hökuməti, bu Memorandumun məqsədləri üçün Danimarkanın səlahiyyətli orqanı olan Ətraf Mühitin Mühafizəsi Nazirliyi, Ətraf mühitin mühafizəsi üzrə Danimarka Agentliyi şəxsində (bundan sonra - Danimarka Tərəfi)

hər iki Tərəfin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (BMTİDÇK) iştirakçıları olduqlarını və hər iki Tərəfin Konvensiyanın Kioto Protokolunu ratifikasiya etdiklərini nəzərə alaraq,

Kioto Protokolunun 12-ci maddəsinin müddəalarını və Protokolun həyata keçirilmə təlimatları üzrə Kioto Protokolu Tərəflərinin işçi görüşü (TK/Tİ) olan BMTİDÇK Tərəflər Konfransının qəbul etdiyi qərarların icrasını, Konvensiyanın 1 №-li əlavəsinə daxil olmayan Tərəfin 1 №-li əlavəyə daxil olan Tərəfə Təmiz İnkişaf Mexanizmi (TİM) layihə fəaliyyətlərindən əldə olunan sertifikatlaşdırılmış tullantıları (AST) ötürməklə və bununla da, Kioto Protokolunun 3-cü maddəsi ilə müəyyən edilmiş tullantıların azaldılması və məhdudlaşdırılmasının kəmiyyət öhdəliklərini yerinə yetirməyə yardım edərək həyata keçirmək məqsədilə,

Kioto Protokolunda nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi məqsədilə daxili siyasət və tədbirlərin, Protokolun 12-ci maddəsinə əsaslanan fəaliyyətlərin əlavə rolunun vacibliyini xüsusilə qeyd edərək,

Tərəflər Konfransı/Tərəflər İclası Kioto Protokolunun 12-ci maddəsinə əsaslanaraq gələcəkdə hazırlanacaq rəhbər göstərişlərini qəbul edərək və həmçinin TİM-in operativ və əhəmiyyətli tətbiqinə aid olan TKTİ-nin gələcək qərarlarını nəzərə alaraq,

Kioto Protokolunun qüvvəyə minməsini gözləyərək,

Kioto Protokolunun 12-ci bəndinə uyğun olaraq TİM sahəsində əməkdaşlığın davamlı inkişafa və istilik effekti yaradan qazların (İEYQ) tullantılarının azaldılmasına əhəmiyyətli töhfə verməsini nəzərə alaraq,

Təmiz İnkişaf Mexanizminin (TİM) operativ, əhəmiyyətli və əməli həyata keçirilməsi və onun həyata keçirilməsinə yardım etmək sahəsində uzunmüddətli əməkdaşlığa başlamaq və onu həyata keçirmək sahəsində siyasi iradə göstərməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Məqsəd

Bu Memorandum, Kioto Protokolunun 12-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında İEYQ-nin tullantılarının azaldılmasına yönəlmiş TİM layihələrinin hazır-

lanmasına və həyata keçirilməsinə və Danimarka Tərəfinə həmin layihələrin həyata keçirilməsi nəticəsində alınmış AST-nin razılaşdırılmış hissəsinin ötürülməsinə yardım edən prosedurlara tətbiq edilir.

Maddə 2

Səlahiyyətli orqanlar

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Danimarka Krallığının Ətraf Mühitin Mühafizəsi Nazirliyi, Ətraf Mühitin Mühafizəsi üzrə Danimarka Agentliyi layihələrin həyata keçirilməsi haqqında sazişlər üzrə səlahiyyətli orqanlardır. Hər bir TİM layihəsi üçün konkret layihələrin həyata keçirilməsini təmin etmək məqsədilə bütün əlaqədar məsələləri əhatə edən layihə müqaviləsi hazırlanacaqdır.

Maddə 3

Azərbaycan Tərəfinin töhfəsi

Azərbaycan Tərəfi layihələrin hazırlanmasına və həyata keçirilməsinə, TİM layihələrinin həyata keçirilməsində maraqlı olan potensial benefisiarları dəstəkləməklə, informasiya mübadiləsi və Kioto Protokolunun 12-ci maddəsinə uyğun olaraq, TİM layihələri qismində tanınan və bu növ layihələr üçün ölkə qanunvericiliyinin tələblərinə uyğun olaraq layihələrin rəsmən razılaşdırılması yolu ilə yardım edəcəkdir.

Layihə üzrə müqavilə özündə Azərbaycan Tərəfinin mütləq təsdiqini əks etdirməlidir ki, Azərbaycan Tərəfi müqavilə üzrə Kioto Protokolunun 12-ci maddəsinə uyğun olaraq və TK/Tİ-nin rəhbər prinsiplərinə uyğun olaraq, müqavilə üzrə layihədən əldə olunmuş AST-ni Danimarka Tərəfinə ötürəcəkdir.

Müqavilə belə bir mütləq təsdiqi özündə əks etdirəcək ki, Azərbaycan Tərəfi razılaşdırılmış və əvvəlcədən ödənilmiş AST həcmlərinin layihə üzrə müqavilədə göstərildiyi kimi, razılaşdırılmış müddət ərzində ötürülməsini təmin edəcəkdir, o şərtlə ki, TİM layihələri AST-ni hasil etməyə davam edəcək və bu, müstəqil qanunla təsdiq oluna bilər.

Layihə üzrə müqavilə həmçinin özündə TİM üzrə həyata keçirilən layihələri ötürülmüş AST-yə görə razılaşdırılmış ödəmələrdən əlavə, digər hər hansı bir xüsusi ödəmələrdən azad olmanı əks etdirəcəkdir.

Azərbaycan Tərəfi sərbəst qərar qəbul edəcək və Danimarka Tərəfinə maliyyələşmə üçün seçilmiş layihələrini təqdim edəcək. Prioritetlər qarşılıqlı məsləhətləşmələr yolu ilə müəyyən olunacaqdır.

Maddə 4

Danimarka Tərəfinin töhfəsi

Danimarka Tərəfi verilmiş layihələrin həyata keçirilməsi nəticəsində alınan AST-nin tədarükü yolu ilə və ya Azərbaycan Tərəfindən AST-nin əsas sahibkarları olan fərdi tərəflərdən ötürülmüş AST-nin qəbul edilməsi və qeydiyyatı yolu ilə AST layihələrinin təkmilləşdirilməsinə və həyata keçirilməsinə yardım edəcəkdir. Danimarka Tərəfi Kioto Protokolunun 12-ci maddəsinə uyğun olaraq, layihə üzrə müqaviləni imzalayaraq TİM layihələrini təsdiq edir.

Danimarka Tərəfi Azərbaycan Tərəfmi özəl şirkətlərə müvafiq etibarnamələr verilməsi barədə məlumatlandıracaqdır.

Etibarnaməni qəbul edən ölkədə Danimarka Tərəfinin xüsusi layihələrə münasibətdə töhfəsi ancaq xüsusi layihələrə münasibətdə tətbiq oluna bilər.

Maddə 5

Ödəniş sxemi

TİM layihələri üzrə ödəniş sxemi hər bir ayrıca vəziyyət üçün razılaşdırılacaq və layihələr üzrə müqavilələrdə rəsmi əksini tapacaqdır.

Maddə 6

Layihələrin müstəqil təsdiqi, yoxlanılması və sertifikatlaşdırılması

Layihələrin təsdiqi, yoxlanılması və sertifikatlaşdırılmasını BMTİDÇK-nin İcraçı Komitəsi tərəfindən akkreditə olunmuş müstəqil təşkilatlar həyata keçirəcəklər. Hər iki Tərəf bu təşkilatların işinə yardım göstərəcəkdir.

Maddə 7

Qüvvəyə minmə

Bu Memorandum 5 il müddətinə bağlanır və dövlətdaxili prosedurları yerinə yetirdikdən sonra sonuncu məlumat alındığı tarixdən qüvvəyə minir.

Əgər Tərəflərdən biri bu Memorandumun qüvvədə olmasının başa çatmasına qalan 6 (altı) aydan gec olmayaraq öz yazılı bildirişi ilə onun ləğv olunması haqqında niyyətini bildirməzsə, Memorandum növbəti beş illik dövrlərə avtomatik olaraq uzadılacaqdır.

Maddə 8

Əlavələr və fəaliyyətin vaxtından əvvəl dayandırılması

Azərbaycan Respublikasının və Danimarka Krallığının milli siyasətində əhəmiyyətli dəyişikliklər baş verdiyi halda və bu dəyişikliklər layihə icraçıları və (və ya) investorlar tərəfindən AST-nin alınmasında və verilməsində çətinliklər yaradarsa, onda hər iki Tərəf müqavilələrdə razılaşdırılmış AST-nin praktiki olaraq verilməsi üçün tam qüvvələrini sərf edəcəkdir.

Tərəflər bu Memorandumun fəaliyyətinin dayandırılması və ya təklif olunan dəyişikliklər barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmək hüququna malikdirlər. Bu Memorandum çərçivəsində həyata keçirilən layihələr müqavilələrdə təmin olunan AST-nin sonuncu ötürülməsinə qədər qüvvədədir. Memorandum verilmiş layihələr üçün qüvvəyə malikdir.

Bu Memorandum 2004-cü il dekabrın 8-də Bakı şəhərində ingilis və Azərbaycan dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Memorandumun müddəalarının təfsiri və tətbiqi zamanı hər hansı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	DANİMARKA KRALLIĞI HÖKUMƏTİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*KONNİ HEDEQAARD*
Ekologiya və təbii sərvətlər naziri	*Ətraf mühit naziri*

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidrotexnika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidrotexnika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 yanvar 2005-ci il

№594

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 yanvar 2005-ci il

№595

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 yanvar 2005-ci il

№596

"Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 yanvar 2005-ci il

№597

"Azərbaycan Dövlət Dəmir Yolu və İran İslam Respublikası Dəmir Yolu arasında qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Dəmir Yolu və İran İslam Respublikası Dəmir Yolu arasında qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Dəmir Yolunun rəisi Arif Nəriman oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Dəmir Yolunun rəisi Arif Nəriman oğlu Əsgərova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 yanvar 2005-ci il

№598

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 14 saylı Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 14 saylı Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəsi Aqşin Şəfayət oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəsi Aqşin Şəfayət oğlu Mehdiyevə verilməsi barədə Avropa Şurasına bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 yanvar 2005-ci il

№599

"Azərbaycan Respublikasının Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərinə dair səlahiyyətlərin həyata keçirilməsi haqqında" Sazişin qüvvədə olma müddətinin uzadılması barədə Protokolu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2000-ci il iyunun 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərinə dair səlahiyyətlərin həyata keçirilməsi haqqında" Sazişin qüvvədə olma müddətinin uzadılması barədə Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Qızıl Xaç Komitəsinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 yanvar 2005-ci il

№600

BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 2005-ci il fevralın 21-dən martın 11-dək Cenevrə şəhərində keçiriləcək 66-cı sessiyasında Birləşmiş Millətlər Təşkilatının "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin üçüncü dövri məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 2005-ci il fevralın 21-dən martın 11-dək Cenevrə şəhərində keçiriləcək 66-cı sessiyasında Birləşmiş Millətlər Təşkilatının "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin üçüncü dövri məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Nümayəndə heyətinin başçısı

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Nümayəndə heyətinin üzvləri

Ramiz Rzayev - Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

ahir Budaqov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Müzəffər Talıblı - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının milli siyasət şöbəsinin böyük məsləhətçisi

Samir Vəliyev - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Aparatının rəhbəri

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 yanvar 2005-ci il

№603

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "2005-ci il üçün Gender Münasibətlərinə dair Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat"ın hazırlanması layihəsi üzrə Məktub Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "2005-ci il üçün Gender Münasibətlərinə dair Azərbaycan Respubli-

kasında İnsan İnkişafı haqqında Hesabat"ın hazırlanması layihəsi üzrə Məktub Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Qadın Problemi üzrə Dövlət Komitəsinin sədri Zəhra Tahir qızı Quliyevaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Tahir qızı Quliyevaya verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2005-ci il

№608

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti adından çıxış edən Natexis Banques Populaires arasında Kredit Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti adından çıxış edən Natexis Banques Populaires arasında Kredit Müqaviləsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Fransa tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2005-ci il

№609

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişaf Təşkilatı arasında Əməkdaşlıq üzrə Çərçivə Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidenti Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişaf Təşkilatı arasında Əməkdaşlıq üzrə Çərçivə Proqramı"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Çərçivə Proqramını Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişaf Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2005-ci il

№610

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Sazişi (2003-2004)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Sazişi (2003-2004)" Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Almaniya Federativ Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2005-ci il

№611

2004-cü il oktyabrın 7-də Buxarest şəhərində imzalanmış "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın birinci iclasının Protokolu"nun və "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 7-də Buxarest şəhərində imzalanmış "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın birinci iclasının Protokolu" və "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2005-ci il

№613

"Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın birinci iclasının Protokolu

2004-cü il oktyabrın 7-dən 8-dək Buxarest şəhərində Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın (bundan sonra "Müştərək Komissiya" adlandırılacaqdır) birinci iclası keçirildi.

İclasda Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Müştərək Komissiyanın Azərbaycan hissəsinin sədri Yaqub Eyyubov, Rumıniya nümayəndə heyətinə isə Rumıniyanın nəqliyyat, tikinti və turizm naziri, Müştərək Komissiyanın Rumıniya hissəsinin sədri Miron Tudor Mitrea başçılıq edirdilər.

Müştərək Komissiyanın iclasında Rumıniyanın nəqliyyat, tikinti və turizm naziri, Müştərək Komissiyanın Rumıniya hissəsinin sədri Miron Tudor Mitrea sədrlik edirdi.

İclasın işində iştirak etmiş şəxslərin siyahısı bu Protokola əlavə edilmişdir (Əlavə № 1 və Əlavə № 2).

Müştərək Komissiya aşağıdakı Gündəliyi qəbul etdi:

1. "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə"nin qəbul edilməsi və imzalanması.

2. Azərbaycan Respublikasının və Rumıniyanın iqtisadi inkişafı, Rumıniya-Azərbaycan ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və perspektivləri haqqında qarşılıqlı informasiya mübadiləsi.

3. İkitərəfli mal dövriyyəsi.

4. Fəaliyyət sahələri üzrə ikitərəfli iqtisadi əməkdaşlıq

4.1. Nəqliyyat sahəsində əməkdaşlıq

4.1.1. Avtomobil nəqliyyatı sahəsində

4.1.2. Dəmir yolu və kombinə edilmiş nəqliyyat sahəsində

4.1.3. Dəniz və çay nəqliyyatı sahəsində

4.1.4. Hava nəqliyyatı sahəsində

4.1.5. TRASEKA sahəsində çoxtərəfli əməkdaşlıq

4.2. Sənaye sahəsində əməkdaşlıq

4.2.1. Neft və qaz sənayesi sahəsində

4.2.2. Kimya və neft-kimya sənayesi sahəsində

4.2.3. Energetika sahəsində

4.2.4. Avtomobil nəqliyyatı vasitələrinin istehsalı sahəsində

4.2.5. Sənayenin digər sahələrində

4.3. Kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində əməkdaşlıq

4.4. Kiçik və orta müəssisələr sahəsində əməkdaşlıq

5. Qarşılıqlı maraq doğuran digər məsələlər

5.1. Turizm sahəsində əməkdaşlıq

5.2. Özəlləşdirmə sahəsində əməkdaşlıq

5.3. Bank sahəsində əməkdaşlıq

5.4. Gömrük sahəsində əməkdaşlıq

5.5. Elm və təhsil sahəsində əməkdaşlıq

6. Müştərək Komissiyanın ikinci iclasının keçirilməsi haqqında.



Müştərək Komissiya Gündəlikdəki məsələləri nəzərdən keçirdi:

1. "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə"nin qəbul edilməsi və imzalanması.

Tərəflər Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnaməni müzakirə, qəbul etdilər və imzaladılar.

2. Azərbaycan Respublikasının və Rumıniyanın iqtisadi inkişafı, Rumıniya- Azərbaycan ikitərəfli ticarət-iqtisadi əməkdaşlığının vəziyyəti və perspektivləri haqqında qarşılıqlı informasiya mübadiləsi

Tərəflər iki dövlət arasında ticarət-iqtisadi əməkdaşlığın indiki vəziyyəti və onların iqtisadi inkişaf perspektivləri barədə, həmçinin hər iki dövlət arasındakı bazar münasibətlərinin möhkəmləndirilməsi üçün görülmüş tədbirlər haqqında informasiya mübadiləsi etdilər. Tərəflər öz dövlətlərinin əsas iqtisadi inkişaf göstəricilərini təqdim etdilər və ikitərəfli ticarət-iqtisadi münasibətlərin inkişafına və dərinləşməsinə kömək edən amilləri aşkarladılar.

Bu zaman Tərəflər beynəlxalq ticarətdə qloballaşma və regionlaşma proseslərində iki dövlətin iştirakı ilə bağlı fikir mübadiləsi etdilər.

3. İkitərəfli mal dövriyyəsi

Tərəflər qeyd etdilər ki, ikitərəfli mal dövriyyəsi yüksələn xətlə inkişaf edir, lakin onun səviyyəsi iki ölkənin iqtisadi potensialına uyğun deyildir.

* Rumıniya Tərəfinin statistik məlumatlarına əsasən, 2003 -cü ildə Rumıniya-Azərbaycan mal dövriyyəsinin həcmi 7,2 mln. ABŞ dolları təşkil etmiş, bu zaman Rumıniyanın ixracatı 5,8 mln. ABŞ dolları, Azərbaycan Respublikasından idxal isə 1,4 mln. ABŞ dolları olmuşdur.

Əvvəlki ilə nisbətən 2003-cü ildə ikitərəfli mal dövriyyəsinin təxminən 14,3 faiz artması nəzərə çarpır, həm də bu artımın əsasını yalnız Azərbaycan Respublikasından idxalın artması (7 dəfə) təşkil etdiyi halda, ixrac 4,9 faiz azalmışdır.

2004-cü ilin ilk 7 ayı ərzində ikitərəfli mal dövriyyəsinin həcmi 42,9 mln. ABŞ dolları (bütövlükdə 2003 -cü il ərzindəki mal dövriyyəsindən 6 dəfə çox, başlıca olaraq böyük

həcmdə neft idxalı nəticəsində - bu, bütün idxal həcminin 99.0 faizi deməkdir) olmuşdur. Rumıniyanın ixracatı 3,4 mln. ABŞ dollarına çatdığı halda, idxal 39,5 mln. ABŞ dolları olmuşdur.

* Azərbaycan Tərəfinin statistik məlumatlarına əsasən, 2003-cü ildə Azərbaycan Respublikası ilə Rumıniya arasında mal dövriyyəsinin həcmi 7,8 mln. ABŞ dolları təşkil etmiş, bu zaman Azərbaycan Respublikasından ixrac 1,6 mln. ABŞ dolları, Rumıniyadan idxal isə 6,2 mln. ABŞ dolları olmuşdur.

2004-cü ilin ilk 7 ayı ərzində Azərbaycan Respublikası ilə Rumıniya arasında mal dövriyyəsinin həcmi 21,5 mln. ABŞ dolları təşkil etmiş, bu zaman Azərbaycandan ixrac 16,7 mln. ABŞ dolları, Rumıniyadan idxal 4,8 mln. ABŞ dolları olmuşdur.

Tərəflərin statistik məlumatlarının nəzərdən keçirilməsi qeyd etməyə imkan verdi ki, ikitərəfli mal dövriyyəsinin həcmi iki ölkənin iqtisadi potensialına uyğun gəlmir və hər iki ölkənin təsərrüfat subyektləri arasında təsadüfi qısamüddətli tərəfdaşlığa əsaslanır ki, bu da Tərəflərin birgə narahatlığına səbəb olur.

İki ölkə arasında mal nomenklaturunu genişləndirmək və mal dövriyyəsi həcmini artırmaq üçün Rumıniya Tərəfi Rumıniyadan ənənəvi malgöndərmələri - vaqon-sisternlər və yük vaqonları, dizel elektroteplovozları, dəmir yollarının tikintisi və təmiri üçün materiallar, avtobuslar, hər yerdə gedən ARO maşınları, neft və qaz hasilatı və nəqli üçün avadanlıq, neft üçün baklar, kənd təsərrüfatı maşınları, yüksək gərginlikli xətlər üçün elektrik avadanlığı, transformator stansiyaları və yarımstansiyaları, istilik və su elektrik stansiya-ları üçün avadanlıq, tikiş və trikotaj məmulatları, ayaqqabı, şərab, aqrar-ərzaq məhsulları və i. a. göndərilməsini bərpa etməyi təklif edir.

İkitərəfli ticarət-iqtisadi əlaqələrin inkişafı üçün mövcud potensialın aşkar-lanması məqsədilə:

Müştərək Komissiya tövsiyə edir:

- Tərəflər sənaye və aqrar-ərzaq məhsullarının göndərilməsi həcmlərinin artırılması və eyni zamanda onların nomenklaturunun genişləndirilməsi üzrə təkliflər mübadiləsi etsinlər;
- Tərəflərin müvafiq nazirlik və idarələri ikitərəfli mal dövriyyəsi üzrə statistik məlumatlardan çıxış edərək, ikitərəfli mal dövriyyəsinin inkişafı barədə vaxtaşırı olaraq bir-birini məlumatlandırsınlar və əlaqələr qurulmasında hər iki ölkənin işgüzar adamlarına kömək etsinlər;
- Komissiyanın ikinci iclasının gedişində iki ölkənin işgüzar dairələri təmsilçilərinin iştirakı ilə Biznes-Forum keçirilsin;
- Tərəflər Rumıniya limanların azad iqtisadi zonalarında Azərbaycanın kommersiya nümayəndəliklərinin açılması ilə bağlı Rumıniya Tərəfinin təklifinin öyrənilməsi üçün birgə ekspertlər qrupu yaradılması məsələsini 2004-cü il dekabrın 31-dək nəzərdən keçirsinlər.

4. Fəaliyyət sahələri üzrə ikitərəfli iqtisadi əməkdaşlıq

4.1. Nəqliyyat sahəsində əməkdaşlıq

4.1.1. Avtomobil nəqliyyatı sahəsində

Tərəflər razılaşdılar ki, avtomobil nəqliyyatı sahəsində ikitərəfli münasibətləri tənzimləyən əsas sənəd 1996-cı il martın 27-də Bakı şəhərində imzalanmış və 1998-ci il fevralın 12-də qüvvəyə minmiş Beynəlxalq avtomobil nəqliyyatı üzrə hökumətlərarası Sazişdir.

Tərəflər qeyd etdilər ki, ikitərəfli Sazişin qüvvəyə mindiyi tarixdən bu günədək avtomobil nəqliyyatı üzrə Müştərək Komissiyanın bircə iclası belə keçirilməmişdir, lakin 1997-ci ildən başlayaraq, avtomobil yollarından istifadə üzrə gömrük haqqından azad edilmiş avtomobil yol icazələrinin, ildə 100 icazə hüdudunda, illik mübadiləsi keçirilmişdir.

2004-cü ilədək Tərəflər 100 ədəd miqdarında avtomobil yol icazəsi kontingentini mübadilə etmişlər.

Tərəflər avtomobil nəqliyyatı sahəsində hər iki dövlətin milli qanunvericiliyinə uyğun müvafiq sənəd və informasiya mübadiləsi etdilər.

Rumıniya Tərəfi Ro-vinyetka haqqında Qanunun 2002-ci il iyulun 1-dən qüvvəyə minməsinə dair əlavə informasiya verdi.

Tərəflər həmçinin avtomobil yol vergilərinin səviyyəsinə və onların dövlətlərində qiymətyaratma metoduna dair informasiya mübadiləsi etdilər; bunların dəyişiləcəyi təqdirdə isə Tərəflər operativ olaraq bir-birini məlumatlandıracaqlar.

Tərəflər özlərinin milli nəqliyyat operatorlarını müvafiq qaydada məlumatlandırmaq məqsədilə hər bir dövlətdə avtomobil nəqliyyatı infrastrukturunun hazırkı konfiqurasiyası barədə informasiya mübadiləsi etmək barədə razılığa gəldilər.

Tərəflər avtomobil nəqliyyatı ilə daşınan əsas mal kateqoriyaları barədə də informasiya mübadiləsi etdilər.

Müştərək Komissiya tövsiyə edir:

- Tərəflərin maraqları nəzərə alınmaqla, qarşılıqlıq əsasında 2005-ci il üçün avtomobil icazələri kontingenti 2004-cü il noyabrın 1-dək razılaşdırılsın;
- Tərəflərin avtomobil nəqliyyatı infrastrukturunun hazırkı vəziyyəti barədə informasiya mübadiləsi edilsin.

4.1.2. Dəmir yolu və kombinə edilmiş nəqliyyat sahəsində

Tərəflər razılaşdılar ki, dəmir yolu və kombinə edilmiş nəqliyyat sahəsində fəaliyyəti tənzimləyən əsas sənədlər aşağıdakılardır:

1998-ci il iyunun 30-da Bakı şəhərində imzalanmış və 2002-ci il martın 29-dan qüvvədə olan "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında beynəlxalq kombinə edilmiş nəqliyyat üzrə Saziş" və 1998-ci il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin inkişafı üzrə əsas çoxtərəfli Saziş" - "Beynəlxalq dəmir yolu nəqliyyatı üzrə Əsas Sazişə Texniki Əlavə".

Tərəflər qeyd etdilər: baxmayaraq ki, dəmir yollan administrasiyaları səviyyəsində əməkdaşlıq uğurla həyata keçirilir və hətta hər iki ölkənin ərazisində nümayəndəliklər açılmışdır, dəmir yolu ilə daşınan yüklərin həcmi çox cüzi olaraq qalır və hər iki ölkənin dəmir yollarının imkanlarına uyğun deyildir.

Bununla bağlı Tərəflər razılaşdılar ki, indiyədək kommersiya mübadilələrinin inkişafına mane olan səbəblərin aşkar edilməsi və dəmir yolu ilə, o cümlədən Konstansa (Rumıniya) - Batumi (Gürcüstan) bərə-dəmir yolu xəttindən istifadə etməklə daşınan yüklərin həcminin artırılmasına kömək edən tədbirlər axtarışı üçün hər iki ölkənin dəmir yolları administasiyalarının ekspertləri səviyyəsində görüş təşkil edilməsi zəruridir.

Rumıniya Tərəfi Konstansa (Rumıniya) və Batumi (Gürcüstan) limanları arasında bərə-dəmir yolu xəttinin inkişafı üzrə görülmüş tədbirlər, xüsusən aşağıdakılar barədə Azərbaycan Tərəfini məlumatlandırdı:

- iki dəmir yolu idarəsinin sahibi olan Dəmiryol Yükdaşımaları Milli Cəmiyyəti "ÇFR Marfe" SC ("CFR Marfa" -S.A.) Konstansa-Batumi bərə-dəmir yolu xəttindən istifadə edən ixrac yükləri üçün Rumıniya ərazisindən tranzit daşımaları zamanı idxal-ixrac tarifində (TİET) 50% güzəşt edir, dəniz hissəsində nəqliyyat tarifləri isə ölkənin öz nəqliyyat xərclərinin ödənməsi səviyyəsindən artıq deyildir;
- Rumıniya Tərəfi bu xəttin saxlanması üçün ayda bir reysi təmin etməyi öhdəsinə götürür.

Rumıniya Tərəfi Batumi (Gürcüstan) limanında Avropa dəmir yolu terminalı layihəsinin hansı mərhələdə olduğu barədə Azərbaycan Tərəfinə məlumat verdi.

Tərəflər razılığa gəldilər ki, Batumi (Gürcüstan) limanında Avropa dəmir yolu terminalının başa çatdırılmasını sürətləndirmək üçün Gürcüstan Tərəfinə birgə müraciət etsinlər.

Müştərək Komissiya tövsiyə edir:

- indiyədək kommersiya mübadilələrinin inkişafına mane olan səbəblərin aşkar edilməsi və dəmir yolu ilə daşınan yüklərin həcminin artmasına kömək edən tədbirlər müəyyən edilməsi üçün hər iki ölkənin dəmir yollan administrasiyalarının ekspertlərinin görüşü təşkil edilsin;
- Konstansa (Rumıniya) - Batumi (Gürcüstan) - Bakı (Azərbaycan Respublikası) bərə-dəmir yolu xətti üzrə Avropa və Asiya ölkələrindən yük axınlarının cəlb edilməsi üçün müvafiq tədbirlər görülsün;
- yük axınlarının hər iki istiqamətdə hərəkətinə dair müntəzəm məlumat mübadiləsi aparılsın;
- Batumi (Gürcüstan) limanında Avropa dəmir yolu terminalı layihəsinin başa çatdırılmasını sürətləndirmək üçün Gürcüstan Tərəfinə birgə vəsatət göndərsinlər.

4.1.3. Dəniz və çay nəqliyyatı sahəsində

Tərəflər vurğuladılar ki, hazırkı mərhələdə dəniz nəqliyyatı sahəsində iki-tərəfli münasibətləri tənzimləyən əsas sənəd 1996-cı il martın 27-də Bakı şəhərində imzalanmış və 1998-ci il fevralın 12-də qüvvəyə minmiş Dəniz ticarət gəmiçiliyi haqqında hökumətlərarası Sazişdir.

Rumıniya Tərəfi:

- Konstansa (Rumıniya) limanının anbar imkanları;

- Gürcüstanın Supsa neft terminalından Konstansa limanının neft terminalı vasitəsilə Avropaya neftin nəqli barədə məlumat verdi.

Müştərək Komissiya tövsiyə edir:

Tərəflərin səlahiyyətli orqanları Avropadan Asiyaya və əks istiqamətdə neft məhsullarının, xüsusən xam neftin və digər malların daşınması üzrə konkret tədbirlərin təklif edilməsi üçün Gürcüstan Tərəfini, yaxud Mərkəzi Asiyanın digər maraqlı ölkələrini cəlb etməklə, nəqliyyat nazirliklərinin ekspertləri səviyyəsində birgə işçi qrupunun yaradılması imkanlarını öyrən-sinlər.

4.1.4. Hava nəqliyyatı sahəsində

Tərəflər qeyd etdilər ki, hazırkı mərhələdə hava nəqliyyatı sahəsində iki-tərəfli münasibətləri tənzimləyən əsas sənəd 1996-cı il martın 27-də Bakı şəhərində imzalanmış və 1997-ci il iyulun 19-da qüvvəyə minmiş Hava əlaqələrinə dair hökumətlərarası Sazişdir.

Müştərək Komissiya tövsiyə edir:

İki dövlət arasında əlaqə yaradılması imkanları təhlil edilsin.

Hər iki dövlətdən keçən tranzit reyslərin açılması imkanları təhlil edilsin.

Rumıniyanın digər ölkələrlə imzaladığı ikitərəfli sazişlərin dəyişdirilməsi ilə bağlı Rumıniyanın Avropa İttifaqı ilə danışıqları başa çatdıqdan sonra "Tərəflərin aviasiya hakimiyyət orqanları arasında əməkdaşlığın genişləndirilmə-si haqqında Protokol" nəzərdən keçirilsin.

4.1.5. TRASEKA sahəsində çoxtərəfli əməkdaşlıq

Tərəflər 1998-ci il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə əsas çoxtərəfli Saziş" və onun texniki əlavələri çərçivəsində, həmçinin TRASEKA beynəlxalq proqramı çərçivəsində əməkdaşlığı bundan sonra da davam etdirməyə qarşılıqlı razılıq bildirdilər.

Müştərək Komissiya qeyd etdi ki, Tərəflər nəqliyyat dəhlizinin işinin yaxşılaşdırılması, yükdaşıma tariflərinin aşağı salınması və uzlaşdırılmasının aktual məsələlərinin müzakirə edildiyi TRASEKA konfranslarında və HK-nın TRASEKA üzrə işçi qruplarının iclaslarında fəal iştirak etmişlər.

Tərəflər TRASEKA-nın "Tranzit daşımalarının ümumi hüquqi əsası" layihəsi çərçivəsində də öz fəaliyyətlərini əlaqələndirmək barədə razılığa gəldilər.

Tərəflər həmçinin öz dövlətlərində nəqliyyat fəaliyyətini əlaqələndirən nazirliklərin təşkilati strukturu barədə məlumat mübadiləsi etdilər.

Azərbaycan Tərəfi Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Rumıniyanın Nəqliyyat, Tikinti və Turizm Nazirliyi arasında nəqliyyat sahə-sində əməkdaşlıq haqqında Memorandum layihəsini müzakirə üçün təqdim etdi.

4.2. Sənaye sahəsində əməkdaşlıq

Tərəflər əmin olduqlarını bildirdilər ki, sənaye sahəsində ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı üçün böyük imkanlar mövcuddur; onlar belə hesab edirlər ki, 2002-ci ildə

Rumıniya Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Sazişin, həmçinin Rumıniya ilə Azərbaycan Respublikası arasında ikiqat vergi-tutmanın və mənfəət vergisinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Sazişin imzalanması qarşılıqlı faydalı əsasda ticarətin və kooperasiyanın inkişafı üçün ən yaxşı şəraiti təmin edəcəkdir.

Bununla bağlı Tərəflər Rumıniya Tərəfinin Azərbaycan Respublikasına təşkil etdiyi, sənaye sahəsində kooperasiyanın konkret obyektlərinin müəyyənləşdirilməsinə imkan vermiş üç iqtisadi missiyanın əhəmiyyətini vurğuladılar.

İşgüzar və investisiya mühitinə dair iki ölkənin iqtisadi potensialının və qanunvericiliyinin öyrənilməsi üçün informasiya mübadiləsinə, iqtisadi missiyaların təşkil edilməsi, Rumıniyada və Azərbaycan Respublikasında keçirilən beynəlxalq yarmarka və sərgilərdə iştirakın stimullaşdırılması yolu ilə təsərrüfat subyektləri arasındakı əlaqələrə kömək və onların dəstəklənməsinə, nümayəndəliklərin açılmasına və birgə müəssisələrin yaradılmasına xüsusi diqqət yetirilməlidir.

Qarşılıqlı maraq doğuran iri kooperasiya layihələrinin müəyyən edilməsi üçün inzibati səviyyədə müntəzəm əlaqələr yaradılmasının mühümlüyü qeyd olundu.

Tərəflər kommersiya münasibətlərinin və kooperasiyanın inkişaf imkanları barədə qarşılıqlı məlumatlandırıldıqdan sonra müəyyən etdilər:

4.2.1. Neft və qaz sənayesi sahəsində

Tərəflər Azərbaycan Respublikasının qurudakı yataqlarından birində birgə iş haqqında danışıqların aparılması üçün PETROM və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) nümayəndələrindən ibarət işçi qrupunun yaradılması barədə PETROM şirkətinin təkliflərini nəzərdən keçirdilər.

Azərbaycan Tərəfi Rumıniyanın və Azərbaycanın müəssisələri və təşkilatları arasında neft sahəsində əməkdaşlığın genişləndirilməsinə marağını ifadə etdi və eyni zamanda:

- Rumıniya Tərəfinin diqqətini Azərbaycan neft sektorunun bütün sahələrində işlərin tender əsasında həyata keçirilməsinə cəlb etdi;
- Bakı şəhərində sürtkü yağları istehsalı üzrə kombinə edilmiş müasir qurğunun tikintisinə dair danışıqlar aparmağa hazır olduğunu vurğuladı;
- Rumıniya şirkətlərini Azərbaycan neftinin Rumıniya neft emalı zavodlarında emal məqsədilə alınması üçün tenderlərdə iştiraka dəvət etdi;
- Rumıniyanın müəssisə və təşkilatlarından tender əsasında neft profilli məhsulların (neft emalı zavodları üçün, hasilat, qazma, tikinti və sair müəssisələri üçün avadanlıq və cihazlar) alınmasının mümkünlüyünü və bununla bağlı buraxılan məhsula dair informasiya verilməsinin zəruriliyini qeyd etdi;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Rumıniya ərazisində neft və qazın kəşfiyyatı, hasilatı və emalı üzrə layihələrdə birgə iştirakının mümkünlüyünü nəzərdən keçirmək təklifi ilə Rumıniya Tərəfinə müraciət etdi.

Müştərək Komissiya tövsiyə edir:

- Rumıniya Tərəfi Azərbaycan Respublikasının qurudakı yataqlarından birində birgə iş barədə ARDNŞ-lə danışıqlar aparmaq üçün Azərbaycan Respublikasına nümayəndə heyəti ezam etsin. Nümayəndə heyətinin səfər tarixi sonradan dəqiqləşdiriləcəkdir.
- Rumıniya Tərəfi Bakı şəhərində sürtkü yağları istehsalı üzrə kombinə edilmiş müasir qurğunun tikintisinə dair danışıqlar aparmaq üçün mütəxəssislər qrupu göndərsin.

4.2.2. Kimya və neft-kimya sənayesi sahəsində

Tərəflər öz ölkələrinin kimya və neft-kimya sənayesinin müxtəlif sahələrində, o cümlədən sintetik kauçuk, etilen, polietilen və digər kimya məhsullarının birgə istehsalı və satışı üçün müştərək müəssisələr yaradılması yolu ilə əməkdaşlıq etmək arzusunu bildirdilər.

Müştərək Komissiya tövsiyə edir:

- İstehsalatda kooperasiyanın konkret obyektlərinin axtarılıb-tapılması, o cümlədən Sumqayıt Kimya Kombinatındakı istehsalat qurğularının modernləşdirilməsi üçün AZƏRİKİMYA - Sumqayıt şirkətindən olan Azərbaycan mütəxəssisləri ilə Rumıniya mütəxəssisləri arasında Rumıniya və Azərbaycan Respublikasında görüşlər təşkil edilsin.

4.2.3. Energetika sahəsində

Tərəflər qeyd etdilər ki, ROMELECTRO S.A. və AZƏRENERJİ şirkətləri arasındakı ilk görüş olmuş, onlar Azərbaycan Respublikasının milli energetika sisteminin modernləşdirilməsi və inkişafı üzrə layihələrdə Rumıniya şirkətinin Azərbaycan şirkəti üçün ya baş podratçı, ya da subpodratçı kimi iştirakı imkanlarını müzakirə etmişlər.

Müştərək Komissiya tövsiyə edir:

- Azərbaycan Tərəfi (AZƏRENERJİ) energetika sahəsində prioritet layihələrə dair lazımi informasiyanı göndərsin; bundan sonra Rumıniya Tərəfi maraq doğuran layihələrə dair konkret təklifləri və sənədləri təqdim edəcəkdir.
- Rumıniya Tərəfi Azərbaycan Tərəfindən energetika sahəsində prioritet layihələrin təqdim edilməsi üçün Buxarest şəhərində seminar təşkil etsin.

4.2.4. Avtomobil nəqliyyatı vasitələrinin istehsalı sahəsində

Tərəflər qeyd etdilər ki, Azərbaycanın və Rumıniyanın işgüzar adamlarının bu sahədə çoxsaylı görüşləri keçirilmiş, nəticədə mal dövriyyəsinin və kooperasiyanın inkişafının aşağıdakı istiqamətləri aşkar edilmişdir:

a) Avtomobil sənayesi sahəsində:

1. S.C.ARO S.A. kommersiya cəmiyyəti tərəfindən Azərbaycanın sərhəd qoşun hissələrinin və digər inzibati vahidlərinin təchiz edilməsi üçün yüksək keçmə qabiliyyətinə malik (hər yerdə gedən) avtomobillərin göndərilməsi;
2. Cənubi Qafqazın və Mərkəzi Asiyanın bütün ölkələrini məhsulla təmin etmək məqsədilə Azərbaycan Respublikasında hər yerdə gedən ARO maşınlarının yığılması üçün xəttin yaradılması;

3. ROMAN S.C. kommersiya cəmiyyəti tərəfindən Bakı şəhər meriyası üçün EURO-2 mühərrikləri ilə təchiz edilmiş avtomaşınların göndərilməsi.

b) Dəmir yolu nəqliyyat vasitələri sahəsində:

1. ROMARC S.C. kommersiya cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Dövlət Dəmir Yolu üçün dəmir yolu vaqon-sisternlərinin göndərilməsi;
2. ROMARC S.C. kommersiya cəmiyyətinin dizel elektrovozlarının təmirində və modernləşdirilməsində iştirakı.

Müştərək Komissiya tövsiyə edir:

Azərbaycanın və Rumıniyanın belə kommersiya əməliyyatları keçirən şirkətləri kontraktlar bağlamaq məqsədilə danışıqlara yenidən başlasınlar.

4.2.5. Sənayenin digər sahələrində

Rumıniya Tərəfi yüngül sənaye, ağac emalı sənayesi, əczaçılıq sənayesi sahələrində istehsalat qurğularının modernləşdirilməsində iştirak həcminin mebel, toxuculuq məhsulları və ayaqqabı istehsalı və satışı üçün birgə müəssisələr yaradılması məqsədilə kooperasiya imkanları Azərbaycan Tərəfi ilə birlikdə müzakirə etməyə maraq göstədiyini və hazır olduğunu bildirdi.

Müştərək Komissiya tövsiyə edir:

- mebel, toxuculuq məhsulları, tikiş və trikotaj məmulatı, ayaqqabı isteh- salı sahəsində kooperasiyanın Konkret Obyektlərinin axtarılıb tapılması üçün Azərbaycan Respublikasının iqtisadi inkişaf və Rumıniyanın iqtisadiyyat və ticarət nazirləri və nazir müavinləri səviyyəsində görüş təşkil edilsin.

4.3. Kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində əməkdaşlıq

Tərəflər 1996-cı il martın 27-də Bakı şəhərində imzalanmış və 1998-ci il dekabrın 14-də qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında bitki mühafizəsi və fitosanitar karantin sahəsində əməkdaşlıq haqqında Saziş"in və 1996-cı il martın 27-də Bakı şəhərində imzalanmış və 1998-ci il fevralın 12-də qüvvəyə minmiş "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında baytarlıq sahəsində əmək-daşlıq haqqında Saziş"in imzalanması müsbət qiymətləndirdilər. Bu sənədlər aqrar ərzaq məhsulları ticarətini və fitosanitariya və baytarlıq sahəsində əməkdaşlığı tənzimləyir.

İki ölkənin kənd təsərrüfatı və yeyinti sahəsində vəziyyəti nəzərdən keçirərək:

Müştərək Komissiya tövsiyə edir:

İki ölkənin bu profilli nazirlikləri, yaxud səlahiyyətli orqanları iki ölkənin təsərrüfat subyektləri və elmi tədqiqat institutları arasındakı birbaşa əlaqələrə yardım etmək yolu ilə kənd təsərrüfatında əməkdaşlığın təşviqi üçün konkret tədbirlər görsünlər. Əməkdaşlığın başlıca sahələri aşağıdakılar ola bilər:

- iki ölkənin kənd təsərrüfatı nazirlikləri arasında əməkdaşlıq haqqında sazişin hazırlanması və imzalanması;
- bitki məhsulları: çöl bitkilərinin, tərəvəz və meyvələrin yeni növlərinin tətbiqi;

- heyvandarlıq: heyvandarlıqda təcrübə mübadiləsi, o cümlədən heyvan cinslərinin yaxşılaşdırılmasında əməkdaşlıq;
- irriqasiya və meliorasiya işləri;
- kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi;
- kənd təsərrüfatı və heyvandarlıq sahəsində elmi tədqiqat;
- kənd təsərrüfatı məhsullarının emalı üzrə müəssisələrin modernləşdirilməsi sahəsində informasiya mübadiləsi;
- kənd təsərrüfatı məhsullarının marketinqi sahəsində əməkdaşlıq;
- yeni iqtisadi şəraitdə kənd təsərrüfatında tədqiqat işlərinin və islahatların əlaqələndirilməsi sahəsində informasiya və təcrübə mübadiləsi;
- kənd təsərrüfatı və elmi tədqiqat işi üzrə mütəxəssislərin hazırlanması sahəsində birgə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi;
- müasir kənd təsərrüfatı texnologiyaları sahəsində təcrübə mübadiləsi;
- bitki mühafizəsi və karantini, baytarlıq təbabəti sahəsində əməkdaşlığın genişləndirilməsi.

Tərəflər həmçinin hesab edirlər ki, kənd təsərrüfatı məhsullarının və hər iki ölkənin mexanizasiya, irriqasiya və meliorasiya işləri üçün avadanlığın təqdimi məqsədilə Azərbaycan Respublikasında və Rumıniyada təşkil edilən kənd təsərrüfatı yarmarkalarında iştirak etmək zəruri və məqsədəuyğundur.

4.3. Kiçik və orta müəssisələr sahəsində əməkdaşlıq

Kiçik və orta müəssisələr sahəsində əməkdaşlıq məqsədilə Müştərək Komissiya hər iki ölkənin bu profilli idarə və təşkilatlarına əməkdaşlığın aşağıdakı mövzularını nəzərdən keçirməyi tövsiyə edir:

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığın İnkişafı üzrə Departamenti ilə Rumıniya kiçik və orta müəssisələr və kooperasiya Milli Agentliyi arasında kooperasiyanın başlanması;

Azərbaycan Respublikasında və Rumıniyada ticarət-sənaye palatalarının təşkil etdiyi yarmarkalarda, sərgilərdə və iqtisadi missiyalarda və digər həvəsləndirici tədbirlərdə Azərbaycanın və Rumıniyanın kiçik və orta müəssisələrinin iştirakına kömək göstərilməsi;

qarşılıqlı maraq doğuran prioritet sahələrdə Azərbaycan-Rumıniya birgə müəssisələrinin yaradılmasının təşviqi üçün proqramların tətbiqi, habelə Rumıniyada Azərbaycan investisiyalarının təşviqi;

kiçik və orta müəssisələr sektoruna yardım göstərilməsi üçün qanunvericilik, siyasət və strategiyalar sahəsində informasiyanın, təcrübənin, müsbət praktikanın mübadiləsinin həyata keçirilməsinə kömək;

kiçik və orta müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə müsbət praktikanın qarşılıqlı mübadiləsi;

işgüzar inkubatorların birgə yaradılması və inkişaf etdirilməsi;

kiçik və orta müəssisələr arasında, kiçik və orta müəssisələri təmsil edən assosiasiyalar arasında sahibkarlıq mədəniyyətinin inkişafı;

Azərbaycan Respublikasının və Rumıniyanın kiçik və orta müəssisələri arasında işgüzar əlaqələrin qurulması və inkişafı;

müvafiq hökumət idarələri tərəfindən kömək göstərilən həmkarlar ittifaqı assosiasiyaları, işəgötürənlər assosiasiyaları və qeyri-hökumət təşkilatları arasında fəaliyyətin müxtəlif sahələrində Azərbaycan və Rumıniya sahibkarları arasında mal dövriyyəsi ilə bağlı ikitərəfli fəal tərəfdaşlığın təşviqi;

kiçik və orta müəssisələr üzrə müxtəlif proqramların birgə hazırlanması, başlanması və tətbiqi, kiçik və orta müəssisələr üzrə biznes və tədbirlərin keçirilməsi imkanları;

kiçik və orta müəssisələrə kömək xidmətləri üzrə, kiçik və orta müəssisələrin assosiasiyaları, ümumi tədbirlər və sair üzrə çap nəşrlərinin, məlumat bazalarının qarşılıqlı mübadiləsi;

qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə Azərbaycan və Rumıniya sahibkarları arasında tərəfdaşlığın və əmtəə dövriyyəsinin təşviqi;

qadınlar və gənclər arasında sahibkarlığın təşviqi sahəsində müsbət praktikanın yayılması üçün seminarların, görüşlərin, dəyirmi masaların təşkili və bu məqsədlə proqramların yaradılması;

Azərbaycan və Rumıniya investorlarına kömək məqsədilə milli, regional və yerli səviyyədə biznes aparılması imkanları ilə bağlı məlumat bazaları yaratmaq yolu ilə, qarşılıqlı maraq doğuran informasiya mübadiləsinin asanlaşdırılması.

5. Qarşılıqlı maraq doğuran digər məsələlər

5.1. Turizm sahəsində əməkdaşlıq

Tərəflər:

- hər iki ölkənin turizm sahəsində rəsmi orqanları, yaxud turizm firmaları və ya agentlikləri arasında əlaqələr və əməkdaşlıq yaradılmasında bir-birini dəstəkləmək;
- turizm sahəsində qanunvericilik və nizamasalmaya dair informasiyanın, turizmin inkişafına kömək edən statistik məlumatın, sənədlərin və elmi işlərin qarşılıqlı mübadiləsini təşviq etmək;
- turizmin təşviqi üzrə materialların qarşılıqlı mübadiləsini və hər iki ölkədə keçirilən turizm sahəsində sərgi xarakterli tədbirlərdə qarşılıqlı iştirakı təşviq etmək;
- beynəlxalq təşkilatlar, o cümlədən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığı genişləndirmək;
- turizm inkişafı üzrə regional layihələrdə birgə iştirak etmək barədə razılığa gəldilər.

5.2. Özəlləşdirmə sahəsində əməkdaşlıq

Tərəflər hər iki ölkədə özəlləşdirmə proseslərinin trendi ilə bağlı fikir mübadiləsi etdilər.

Rumıniya Tərəfi Dövlət Aktivlərindən İstifadə üçün Avtoritetin (Agentliyin) (AVAS) fəaliyyəti ilə, səhmlərin əksəriyyətinin AVAS-a məxsus olduğu və özəlləşdirmə üçün təklif olunacaq, əsas etibarilə yüngül sənaye sahəsinə aid olan kommersiya təşkilatlarının özəlləşdirilmə strategiyası və biznes imkanları ilə bağlı aspektləri Azərbaycan Tərəfinə açıqladı.

Azərbaycan Tərəfi bəzi sənaye sektorlarının özəlləşdirilməsi, restrukturizasiyası və inkişafı sahəsində Rumıniyanın təcrübəsinin öyrənilməsində, özəlləşdirmə prosesinə Rumıniya şirkətlərinin cəlb edilməsində maraqlı olduğunu bildirdi.

Müştərək Komissiya tövsiyə edir:

özəlləşdirmədə və dövlətin iştirakının idarə olunması sahəsində əməkdaş-lığın inkişafına kömək üçün müvafiq idarələrin rəhbərlikləri səviyyəsində müntəzəm görüşlər və ikitərəfli məsləhətləşmələr təşkil edilsin.

5.3. Bank sahəsində əməkdaşlıq

Tərəflər iki ölkənin maliyyə-bank sahəsində vəziyyət və trend barədə bir-birini məlumatlandırdılar; onlar Rumıniya və Azərbaycan bankları arasında ikitərəfli işgüzar münasibətlərin inkişafına kömək göstərilməsi imkanlarını nəzərdən keçirəcəklər.

Həmçinin Rumıniyanın İxrac-İdxal Bankı - EXİMBANK S.A. Azərbaycan Respublikasının maliyyə-bank təşkilatları, başlıca olaraq, ECA tipli banklarla bank müxbir münasibətlərinin yaradılmasında maraqlıdır.

5.4. Gömrük sahəsində əməkdaşlıq

Tərəflər Rumıniya Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 2004-cü il oktyabr ayının birinci yarısında Buxarest şəhərində imzalanacaq sazişin fay-dalı xarakterlərini vurğuladılar.

5.5. Elm və təhsil sahəsində əməkdaşlıq

Tərəflər Rumıniya Təhsil və Tədqiqat Nazirliyi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2004-cü il oktyabr ayının birinci yarısında Buxarest şəhərində imzalanacaq sazişin faydalı xarakterini vurğuladılar.

6. Müştərək Komissiyanın ikinci iclasının keçirilməsi haqqında

Müştərək Komissiya tövsiyə edir ki, ikinci iclas 2005-ci ildə Azərbaycan Respublikasında keçirilsin. Onun keçirilmə tarixi diplomatik kanallarla razılaşdırılmalıdır.

Bu Protokol 2004-cü il oktyabrın 7-də Buxarest şəhərində rus dilində iki əsl nüsxədə tərtib edilmişdir, həm də hər iki mətn eyni qüvvəyə malikdir.

MÜŞTƏRƏK KOMİSSİYANIN AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ	MÜŞTƏRƏK KOMİSSİYANIN RUMİNİYA HİSSƏSİNİN SƏDRİ
YAQUB EYYUBOV	*MİRON TUDOR MİTREA*
Baş nazirinin birinci müavini	*Nəqliyyat, tikinti və turizm naziri*

Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə

Buxarest şəhərində 2 iyul 1995-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında Saziş"in (bundan sonra "Saziş" adlanacaq) Saziş Bağlayan Tərəfləri qismində Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti, Sazişin 11 -ci maddəsinə müvafiq şəkildə, "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiya" (bundan sonra "Müştərək Komissiya" adlanacaq) yaratmağı qərara aldılar və bunun üçün hər iki dövlətin qanunvericiliyinə uyğun surətdə Müştərək Komissiyanın Azərbaycan Tərəfini və Rumın Tərəfini (bundan sonra "Tərəflər" adlanacaq) təyin etdilər.

Maddə 1

Əsas müddəalar

(1) Bu Əsasnamə Müştərək Komissiya tərəfindən, Sazişin bərabərhüquqluluq və qarşılıqlı mənfəət prinsipləri əsasında həyata keçirilməsi üzrə onun fəaliyyətinin təşkili məqsədilə işlənib hazırlanmışdır.

(2) Müştərək Komissiya daimi fəaliyyət göstərən orqan olmaqla, Saziş Bağlayan Tərəflərin onun üzərinə qoyduğu vəzifələrə müvafiq surətdə ikitərəfli ticarət-iqtisadi və elmi-texniki sazişlər üzrə meydana çıxan öhdəliklərin yerinə yetirilməsini təmin edir.

(3) Müştərək Komissiya öz fəaliyyətini ikitərəfli ticarət-iqtisadi sazişlər, hər iki ölkənin qanunvericiliyi, həmçinin bu Əsasnamə əsasında həyata keçirir.

Maddə 2

Müştərək Komissiyanın vəzifələri

Müştərək Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

(1) İki dövlət arasında iqtisadiyyat sahəsində mövcud olan hökumətlərarası sazişlərin, müqavilələrin və s. sənədlərin yerinə yetirilməsi vəziyyətinin təhlili, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı və genişləndirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi üçün təkliflərin verilməsi.

(2) Sazişin yerinə yetirilməsi prosesində meydana çıxan məsələlərin həllinin araşdırılması, iki dövlət arasında əmtəə dövriyyəsinin və ticarət-iqtisadi əməkdaşlığın səviyyəsinin təhlili.

(3) Azərbaycanın və Rumıniyanın ticarət sferasında, sənaye sahəsində, qarşılıqlı sərmayə qoyuluşlarında, birgə müəssisələr yaratmaqda, kooperasiyanın dünya praktikasında qəbul olunmuş yeni formalarının inkişaf etdirilməsində və tətbiqində maraqlı olan təsərrüfat subyektlərinə, bu zaman ekoloji təhlükəsizliyin təmin edilməsi və ətraf mühitin çirklənməsinin qarşısının alınması şərti ilə yardım göstərilməsi.

(4) İkitərəfli əməkdaşlığın konkret imkanları və istiqamətləri üzrə qarşılıqlı məlumat mübadiləsi və məsləhətləşmələrin keçirilməsi.

(5) Hər iki ölkənin imkanlarının və maraqlarının nəzərə alınması və ilk növbədə bazar mexanizmlərindən istifadə olunması şərti ilə iki ölkə arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın əsas istiqamətlərinin nəzərdən keçirilməsi.

(6) İki dövlətin nazirlik və idarələrinə, bütün mülkiyyət formalarına aid olan təşkilat və müəssisələrinə əməkdaşlığın üstün istiqamətləri üzrə yardım göstərilməsi, habelə onların Müştərək Komissiyanın işçi orqanlarında (işçi ekspert qruplarında) iştirak etmək üçün cəlb olunması.

Maddə 3

İclasların çağırılması və onlara rəhbərlik

(1) Müştərək Komissiya sədrlərdən, katiblərdən və üzvlərdən ibarətdir.

(2) Hər bir Sədr öz işində Sədr müavininin yardımından istifadə edir.

(3) Müştərək Komissiya özünün növbəti iclasını ildə bir dəfədən az olmayaraq, növbə ilə, Saziş Bağlayan Tərəflərdən hər birinin ərazisində keçirir. Zəruri hallarda Müştərək Komissiyanın Tərəflərindən birinin Sədrinin xahişi ilə Müştərək Komissiyanın növbədənkənar iclasını çağıraraq olar.

(4) Dövlətinin ərazisində iclasın keçirildiyi Tərəfin Sədri iclasa sədrlik edir. Xüsusi hallarda, müvafiq Saziş Bağlayan Tərəfin səlahiyyətli şəxsi (bir qayda olaraq, həmin Tərəfin Sədrinin müavini) iclasa sədrlik edir.

(5) İclasın ilkin gündəliyi, vaxtı və keçirilmə yeri barədə Müştərək Komissiyanın Tərəfləri kifayət qədər əvvəlcədən, lakin iclasın başlanmasından ən azı 30 gün əvvəl razılığa gəlirlər.

(6) İclaslarda gündəliyə daxil edilmiş məsələlərə, həmçinin hər iki Tərəfin Sədrlərinin müzakirə edilməsi barədə razılığa gəldikləri digər məsələlərə baxılır.

(7) Müştərək Komissiyanın iclasını təşkil edən Tərəfə, iclasın başlanmasından ən azı 15 gün əvvəl digər Tərəfin nümayəndə heyətinin tərkibi barədə məlumat verilir.

(8) Zəruri hallarda Müştərək Komissiyanın iclaslarında hər iki dövlətin ekspertləri və maraqlı təsərrüfat subyektlərinin nümayəndələri iştirak edə bilərlər.

Maddə 4

Müştərək Komissiyanın Tərəflərinin katiblərinin fəaliyyəti

(1) Müştərək Komissiyanın iclaslarında əldə olunmuş razılaşmaların yerinə yetirilməsi vəziyyətinin nəzərdən keçirilməsi məqsədilə, həmçinin Müştərək Komissiyanın iclaslarının hazırlanması üçün Müştərək Komissiyanın Tərəflərinin katiblərinin işçi görüşləri təşkil oluna bilər.

(2) Müştərək Komissiyanın fəaliyyətinə aid olan təşkilati xarakterli məsələlərlə bağlı əlaqə, bir qayda olaraq, Müştərək Komissiyanın Tərəflərinin katibləri tərəfindən həyata keçirilir.

(3) Müştərək Komissiyanın Tərəflərinin katibləri Müştərək Komissiya tərəfindən qəbul olunan Protokolların və digər sənədlərin müddəalarının yerinə yetirilməsi vəziyyətinə nəzarət edir və yoxlayır, baxılması zəruri olan məsələlərə dair Tərəflərin Sədrlərini məlumatlandırırlar.

Maddə 5

İcra orqanları

(1) Müştərək Komissiya öz səlahiyyətləri çərçivəsində, hər iki dövlətin iqtisadiyyatlarının inkişafının üstün istiqamətlərindən asılı olaraq, müxtəlif fəaliyyət sahələrindən olan, hər iki Tərəfin təyin etdiyi üzvlərdən ibarət işçi qrupları (yarımqrupları) yarada bilər.

(2) Bu maddənin 1-ci bəndində göstərilən işçi qrupları (yarımqrupları) Müştərək Komissiyanın təkliflərinə müvafiq surətdə yaradılır və fəaliyyət göstərirlər.

(3) Müştərək Komissiyanın Sədrləri qarşılıqlı olaraq bir-birlərini, öz fəaliyyətləri barədə Sədrlər qarşısında hesabat verən müvafiq işçi qruplarının (yarımqruplarının) işi barədə məlumatlandırırlar.

(4) Müştərək Komissiyanın növbəti iclasından en azı 30 gün əvvəl işçi qruplarının (yarımqruplarının) rəhbərləri yazılı şəkildə Sədrlərə axırıncı iclasdan keçən dövr ərzində görülmüş işlər barədə hesabat verirlər, həmçinin Müştərək Komissiyanın növbəti iclasının ilkin gündəliyinə daxil edilmək və müzakirə olunmaq üçün bütün zəruri materialları və təklifləri təqdim edirlər.

Maddə 6

Xərclər

(1) Müstəsna olaraq Müştərək Komissiyanın və onun işçi qruplarının (yarımqruplarının) iclaslarının təşkili və keçirilməsi ilə əlaqədar olan xərcləri iclası təşkil edən Tərəf ödəyir.

(2) Müştərək Komissiyanın, yaxud onun işçi qruplarının (yarımqruplarının) iclasına öz nümayəndələrini göndərən Tərəf həmin nümayəndələrin nəqliyyatdan istifadə ilə, mehmanxanada yaşayışla, ezamiyyətlə əlaqədar olan xərclərini ödəyir.

Maddə 7

Müştərək Komissiya tərəfindən qəbul edilən sənədlər

(1) Müştərək Komissiya iclaslarda hər iki Tərəfin Sədrlərinin razılığı əsasında təkliflər verir.

(2) Təkliflər, Müştərək Komissiyanın hər iki Tərəfinin Sədri tərəfindən imzalanan Müştərək Komissiyanın iclaslarının Protokoluna daxil edilir.

(3) Müştərək Komissiyanın iclaslarının Protokolları iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və rus dillərində olmaqla imzalanır, bütün mətnlər eyni qüvvəyə malikdirlər. Protokolun təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətnə istinad olunur. Tərəflər arasında razılaşma əsasında, Müştərək Komissiyanın iclaslarının Protokolları eyni qüvvəyə malik olan iki əsl nüsxədə olmaqla rus dilində imzalana bilər.

(4) Müştərək Komissiyanın iclaslarının Protokolları hər iki dövlətin, hər bir konkret halda Müştərək Komissiya tərəfindən müəyyənləşdirilən və təkliflərin yerinə yetirilməsində iştirak etməli olan müvafiq səlahiyyətli orqanlarına və təşkilatlarına verilir.

(5) Xüsusi hallarda, Tərəflərdən birinin xahişi əsasında, zəruri tədbirlərin görülməsi məqsədilə bəzi təkliflər Saziş Bağlayan Tərəflərin baxması üçün qəbul edilə bilər. Daha sonra bu istiqamətdə həyata keçirilən tədbirlər barədə Tərəflər bir-birlərini qarşılıqlı şəkildə məlumatlandırırlar.

(6) Müştərək Komissiyanın iclasları arasındakı dövrdə Müştərək Komissiyanın Sədrləri qarşılıqlı razılıq əsasında, təxirəsalınmaz məsələlər üzrə işçi qaydasında təkliflər qəbul edə bilərlər. Daha sonra, qəbul edilmiş təkliflər katiblər tərəfindən Müştərək Komissiyanın növbəti iclasının Protokoluna daxil edilir.

Maddə 8

Mübahisəli məsələlərin həlli

Mübahisəli məsələlər Müştərək Komissiyanın Tərəfləri arasındakı danışıqlar vasitəsilə müzakirə və həll olunur.

Maddə 9

Dəyişikliklər və əlavələr

Bu Əsasnamə Tərəflərin razılığı ilə Müştərək Komissiyanın iclaslarında dəyişdirilə və/və yaxud ona əlavələr oluna bilər.

Maddə 10

Yekun müddəalar

(1) Müştərək Komissiyanın iclaslarının işçi dili rus dilidir. Hər bir Tərəf özünün milli dilindən rus dilinə və müvafiq şəkildə rus dilindən özünün milli dilinə tərcüməni təmin edir.

(2) Bu Əsasnamə Müştərək Komissiyanın iclasında qəbul edildiyi gündən qüvvəyə minir.

Müştərək Komissiyanın Buxarest şəhərində, 2004-cü il oktyabr ayının 7-də keçirilmiş birinci iclasında iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və rus dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Əsasnamənin mətninin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətnə istinad olunur.

MÜŞTƏRƏK KOMİSSİYANIN AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ	MÜŞTƏRƏK KOMİSSİYANIN RUMİNİYA HİSSƏSİNİN SƏDRİ
YAQUB EYYUBOV *Baş nazirinin birinci müavini*	*MİRON TUDOR MİTREA* *Nəqliyyat, tikinti və turizm naziri*

E. H. Zeynalova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Elman Hidayət oğlu Zeynalova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2005-ci il

№614

E.H.Zeynalovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elman Hidayət oğlu Zeynalov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2005-ci il

№615

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Səfiri E. O. Əmirbəyovun eyni zamanda Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda (Vatikan Dövlətində) Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Səfiri Elçin Oktyabr oğlu Əmirbəyov eyni zamanda Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda (Vatikan Dövlətində) Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2005-ci il

№616

Azərbaycan Respublikası ilə Rumıniya arasında 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rumıniya Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rumıniya Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol;

1.5. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Rumıniya Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.6. Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Rumıniya Televiziya Qurumu arasında əməkdaşlıq Sazişi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rumıniya tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 fevral 2005-ci il

№618

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rumıniya Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rumıniyanın Kəşfiyyat Xidməti,

27 mart 1996-cı ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilənin müddəalarını rəhbər tutaraq,

Azərbaycan Respublikası və Rumıniyanın milli təhlükəsizliyinə xələl gətirə bilən təhdidlərin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədilə qarşılıqlı səmərəli əməkdaşlığı inkişaf etdirmək əzmini təsdiqləyərək,

dövlətlərinin qanunvericiliklərinə müvafiq qaydada öz vəzifələrini yerinə yetirmək məqsədilə,

beynəlxalq normalara, Azərbaycan Respublikası və Rumıniyada qüvvədə olan qanunvericiliyin müddəalarına əsasən,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər onların milli təhlükəsizliyinin qorunması, vəzifə və fəaliyyət dairələrinə daxil olan əməllərin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədilə əməkdaşlıq edəcəklər.

Maddə 2

Tərəflər öz səlahiyyətləri çərçivəsində aşağıda göstərilən cinayətkar fəaliyyətin qabaqlanması və ona qarşı mübarizədə əməkdaşlıq edəcəklər:

a) beynəlxalq terrorçuluq;

b) sadalanan əsas təzahürlərdə transmilli mütəşəkkil cinayətkarlıq:

- narkotik vasitələr və psixotrop maddələrin qeyri-qanuni istehsalı, istifadəsi və daşınması;
- pul əskinasları və digər ödəniş vasitələrinin saxtalaşdırılması və onların dövriyyəsi;
- silah, sursat, partlayıcı və zəhərləyici, radioaktiv maddələrlə qeyri-qanuni əməliyyatlar;
- qeyri-qanuni beynəlxalq iqtisadi, maliyyə və bank fəaliyyəti;
- ekstremist-terrorçu dəstələrin yararlandığı kanallar daxil olmaqla qeyri-qanuni miqrasiya məqsədləri üçün istifadə olunan marşrut və şəbəkələr;

c) qarşılıqlı qaydada razılaşdırılmış digər qeyri-qanuni fəaliyyət.

Maddə 3

Tərəflər arasında əməkdaşlıq aşağıdakı vasitələrlə həyata keçiriləcək:

a) məlumat, informasiya və təhlillərin mübadiləsi;

b) əməkdaşlığın təxirəsalınmaz aspektlərinin araşdırılması və peşəkar təcrübənin mübadiləsi üçün xüsusi sahələr üzrə mütəxəssislərin görüşləri;

c) sənəd, məcmuə və qüvvədə olan milli qanunvericilik aktlarının mübadiləsi.

Maddə 4

(1) Məlumat Tərəflərin təşəbbüsü və ya hər hansı Tərəfin xüsusi sorğusu əsasında mübadilə ediləcək.

(2) Tərəflərdən hər biri milli qanunvericiliyinə zidd olduğu təqdirdə, digər Tərəfdən alınmış sorğuların icrasından imtina edə bilər.

(3) Sorğunun icrası qeyri-mümkün olduğu təqdirdə, sorğu alan Tərəf bu barədə sorğu verən Tərəfi dərhal məlumatlandıracaq.

Maddə 5

(1) Tərəflər əməkdaşlıq predmetini təşkil edən fəaliyyətlə bağlı məxfilik qaydalarına ciddi riayət etməyi öhdələrinə götürürlər.

(2) Mənbələri və digər maraqları qorumaq məqsədilə, bir Tərəf təqdim etdiyi məlumat üzərində olan məhdudiyyətlərlə bağlı xüsusi qeydlər barədə qarşı Tərəfi xəbərdar etməyi öhdəsinə götürür.

(3) Tərəflər bu Sazişin müddəalarına əsasən, aldığı məlumat və yaxud sənədləri təqdim edən Tərəfin qabaqcadan razılığı olmadan üçüncü tərəfə verə bilməz.

Maddə 6

(1) Birbaşa əlaqə yaratmaq məqsədilə hər bir Tərəf əlaqələndirici şəxsləri təyin edərək, bu Saziş qüvvəyə mindikdən sonra 30 gün ərzində onlar barədə şəxsi məlumatları (adları, soyadları, vəzifələri, telefaks nömrələri) mübadilə edəcək. Bu məlumatlarda hər hansı dəyişikliklər barədə Tərəflər bir-birini dərhal xəbərdar edəcəklər.

(2) Qarşılıqlı razılıq əldə olunduğu təqdirdə, Tərəflər birgə tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi məqsədilə işçi qrupları yaradacaq və yaxud qarşıya çıxan məsələlərin həlli üçün ekspertlərin mübadiləsini aparacaqlar.

Maddə 7

(1) Əməkdaşlığın vəziyyətini təhlil etmək məqsədilə, razılaşdırılmış vaxtda növbə ilə Azərbaycan Respublikası və Rumıniyada Tərəflərin rəhbərlərinin və ya təyin olunmuş nümayəndələrinin görüşləri keçiriləcəkdir.

(2) Görüşü təşkil edən Tərəf öz ölkəsinin ərazisində, beynəlxalq nəqliyyat istisna olmaqla, xarici nümayəndə heyətinin bütün xərclərini ödəyəcək.

Maddə 8

Tərəflər bu Sazişin 2-ci maddəsində qeyd olunmuş sahələrə dair Protokollar imzalaya bilər. Həmin Protokollar bu Sazişin tərkib hissəsi kimi onun 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 9

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

(1) Bu Saziş qeyri-müəyyən müddət ərzində qüvvədə olacaq.

(2) Tərəflərdən hər biri digər Tərəfi yazılı surətdə xəbərdar etməklə bu Sazişi ləğv edə bilər. Bu halda Saziş həmin yazılı bildirişin alındığı tarixdən üç ay sonra qüvvədən düşmüş hesab edilir.

Maddə 11

(1) Bu Saziş hər bir Tərəfin milli qanunvericiliyinə müvafiq qaydada təsdiq olunacaq. Saziş zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə son yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

(2) Bu Saziş 11 oktyabr 2004-cü ildə Buxarest şəhərində iki əsl nüsxədə (hər Tərəfə bir nüsxə) Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn əsas kimi götürüləcək.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN	RUMINİYANIN MİLLİ KƏŞFİYYAT XİDMƏTİ ADINDAN
ELDAR MAHMUDOV	*ALEKSANDRU RADU TİMOFTE*
Milli təhlükəsizlik naziri	*İnformasiya xidmətinin rəisi*

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa Gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi,

iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsini arzu edərək, ədliyyənin cəmiyyətdə əhəmiyyətli rolunu dərk edərək, hüquq sahəsində təcrübə və bilik mübadiləsinin hər iki dövlətin maraqlarına xidmət etdiyini nəzərə alaraq,

beynəlxalq öhdəliklərə, milli qanunvericiliklərə və Razılığa Gələn hər iki Tərəfin səlahiyyətlərinə hörmət edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa Gələn Tərəflər aşağıdakı sahələrdə qarşılıqlı fəaliyyəti həyata keçirəcəklər:

a) hüquqi sahədə məlumat mübadiləsi;

b) Razılığa Gələn Tərəflərin fəaliyyəti və təşkili barədə təcrübə mübadiləsi;

c) hakimlərin, prokurorların və məhkəmə orqanlarının yardımçı heyətinin tədrisinə qarşılıqlı dəstək;

d) qanunvericiliyin, habelə onların səlahiyyətləri üzrə fəaliyyətinə və strukturuna dair digər sənədlərin mübadiləsi;

e) qanun layihələrinin beynəlxalq standartlara uyğun işlənib hazırlanması üzrə təcrübə mübadiləsi;

f) Razılığa Gələn Tərəflərin məqsəd və müstəsna səlahiyyətlərinə aid olan digər sahələr üzrə təcrübə mübadiləsi.

Maddə 2

Razılığa Gələn Tərəflər bu Sazişdə nəzərdə tutulan niyyətlərə nail olunması məqsədilə illik xüsusi proqramların müzakirə edəcəklər.

Maddə 3

Razılığa Gələn Tərəflər əməkdaşlıqla bağlı məsələlərin həlli, əməkdaşlıq proqramlarının işlənib hazırlanması və həyata keçirilmiş proqramlara yekun vurulması məqsədilə ekspert qrupları yaradacaqlar.

Maddə 4

Razılığa Gələn Tərəflər ümumi maraq kəsb edən məsələlər üzrə məsləhətləşmələr, seminarlar və elmi konfransların təşkilinə qarşılıqlı yardım göstərəcəklər.

Maddə 5

Razılığa Gələn Tərəflər ümumi maraq kəsb edən məsələlərin tədqiqi məqsədilə ekspertlər və nümayəndə heyətlərinin mübadiləsinə qarşılıqlı yardım göstərəcəklər.

Maddə 6

Razılığa Gələn Tərəflər əməkdaşlığı həyata keçirərkən nəzərdə tutduqları dildən istifadə edəcəklər.

Maddə 7

Razılığa Gələn Tərəflər Sazişdən irəli gələn xərclərin ödənilməsi üzrə razılıq əldə edəcəklər.

Nümayəndə heyətlərinin səfərləri olduğu halda xərclər aşağıdakı qaydada ödəniləcəkdir:

Qəbul Edən Razılığa Gələn Tərəf onun ölkəsinin ərazisində qalma və nəqliyyat xərclərini ödəyəcəkdir.

Göndərən Razılığa Gələn Tərəf yol xərclərini ödəyəcəkdir.

Maddə 8

Bu Saziş qeyri-müəyyən müddətdə qüvvədə qalır.

Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər. Saziş digər Tərəfin belə bildirişi aldığı tarixdən üç ay sonra öz qüvvəsini itirir.

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birini məlumatlandıran sonuncu yazılı bildirişinin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Buxarest şəhərində 11 oktyabr 2004-cü il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	RUMINİYANIN ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*KRİSTİAN DYAKONESKU*
Ədliyyə naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Təhsil Nazirliyi və Rumıniyanın Təhsil və Tədqiqatlar Nazirliyi bərabərhüquqluluq prinsipləri, müstəqillik və hər iki dövlətin təhsil sisteminin bütövlüyü prinsipləri əsasında gələcək əməkdaşlığı möhkəmləndirmək və inkişaf etdirməkdə qarşılıqlı maraqlarını ifadə edərək,

təhsilə xüsusi əhəmiyyət verməklə, təhsil alanların vətəndaşlığı və etnik mənsubiyyətindən asılı olmayaraq hər iki dövlətin vətəndaşlarının təhsil və mədəni ehtiyaclarını ödəmək istəyi ilə,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi və ali təhsil sahələrində əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 2

Bu Sazişin məqsədi aşağıdakılardır:

- ixtisasca yaxın olan müəssisələr arasında birbaşa əlaqələrin qurulması və qarşılıqlı faydalı əməkdaşlıq üçün şərait yaradılması;
- qarşılıqlı maraq kəsb edən mövzular üzrə birgə elmi tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın yaradılması;
- ali məktəblərdə uzunmüddətli və qısamüddətli əsaslarla mühazirələr aparmaq üçün müəllim kadrlarının qarşılıqlı mübadiləsi.

Maddə 3

Tərəflər aşağıdakıları məqsədəuyğun hesab edirlər:

- beynəlxalq təşkilatlarla elm və təhsil məsələlərində əməkdaşlığın inkişaf etdirilməsinə kömək göstərilməsi;
- qarşılıqlı maraq kəsb edən sahələrdə mütəxəssislər hazırlanması məqsədilə Tərəflərin ali məktəblərində yerlərin ayrılması;
- müəllim kadrların birgə hazırlanması işinin həyata keçirilməsi;
- hər iki ölkənin alimlərinin elmi əsərləri və məqalələrinin ali məktəblərin məcmuələrində nəşrinə şərait yaradılması;
- tədris plan və proqramları, dərsliklər və dərs vəsaitləri daxil olmaqla ədəbiyyat mübadiləsi.

Maddə 4

Tərəflər qarşılıqlı razılaşma əsasında müəllim kadrların və təhsil sahəsində mütəxəssislərin hazırlanması və yenidən hazırlanması sahəsində əməkdaşlıq edirlər. Tərəflər ali məktəblərin müəllim kadrlarının Tərəflərin keçirdiyi beynəlxalq konfrans və simpoziumlarda iştirakını dəstəkləyirlər.

Tərəflər həmçinin hər iki dövlətin ali təhsil müəssisələri arasında tədrisin keyfiyyətini

yüksəltmək, metodika və tədris prosesinin təşkili sahəsində təcrübə mübadiləsi apararaq məqsədilə müəllim və elmi tədqiqat işləri üzrə mütəxəssislərin mübadiləsi haqqında birbaşa müqavilələrin bağlanmasını dəstəkləyirlər.

Maddə 5

Tərəflər hər il tələbə, aspirant və stajçılann qarşılıqlı mübadiləsini aşağıdakı şəkildə həyata keçirirlər:

- ali məktəbin tam təhsil müddəti və ya ali məktəbdən sonrakı təhsil üçün üç təqaüd;
- aspirantura təhsili üçün iki təqaüd;
- elmi staj keçmə üçün 30 aylıq təqaüd; bu təqaüd 3-9 nəfər - ay müddətinə bölünə bilər.

Birinci iki bənddə nəzərdə tutulmuş təhsil formasının iştirakçıları qəbul edən dövlətin dilini bilmirlərsə, onlar pulsuz dil hazırlığı kurslarına yazılırlar.

Sonuncu bənddə göstərilən iştirakçıların qeydiyyatı onları qəbul edən dövlətin dilini və ya istifadədə olan beynəlxalq dillərdən birini (ingilis, fransız, alman, rus) bilmələri ilə şərtləndirilir.

Maddə 6

Tərəflər hər il hər iki dövlətin ali məktəbləri tərəfindən dil, ədəbiyyat və mədəniyyəti öyrənmək üçün təşkil olunmuş yay kurslarında iştirak məqsədilə qarşılıqlı əsaslarla üç yer ayırır.

Maddə 7

Tərəflər Rumıniyanın ali məktəblərinin birində Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti, həmçinin Azərbaycan Respublikasındakı ali məktəblərin birində rumın dili, ədəbiyyatı və mədəniyyətini öyrənmək məqsədilə lektoriya-mərkəzlərin yaradılması ilə bağlı lazımi vəsatətlər qaldıracaqlar.

Maddə 8

Tərəflər dünya standartlarına uyğunlaşdırılmış vahid tələbatı təmin etmək məqsədilə təhsil məsələləri üzrə normativ hüquqi sənədlərin mübadiləsini həyata keçirir, təhsilin dövlət standartlarına dair qanunvericilik və digər normativ aktların, elmi-pedaqoji tədqiqatlar, pedaqoji kadrların attestasiya sistemi, təhsil menecerlərinin hazırlanması, distant təhsilin təşkili haqqında məlumatların alınması və mübadiləsi, o cümlədən təhsil problemləri üzrə birgə elmi proqramların işlənilməsi sahəsində mübadilələr həyata keçirirlər.

Maddə 9

Tərəflər təhsil sahəsində işçi qüvvəsinin hazırlanması məsələlərində əməkdaşlıq edir, birgə sosioloji tədqiqatlar aparır, birgə elmi-praktiki konfransların. təşkilinə şərait yaradır, qarşılıqlı şəkildə tələbə festivalları, yaradıcılıq və idman müsabiqələri təşkil edirlər.

Maddə 10

Təhsil sistemlərinin təkmilləşdirilməsi və inkişafı məsələlərinin, o cümlə-dən qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və təh-

sil müəssisələrinin nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini həyata keçirir, qarşılıqlı konfrans, seminar və digər tədbirlər təşkil edirlər. Bu məqsədlə Tərəflər hər il 10 gün müddətinə nəzərdə tutulmuş ekspert mübadiləsi və mütəxəssislərin görüşlərini təşkil edirlər.

Ümumi və maliyyə məsələləri

Maddə 11

Göndərən Tərəf yuxanda göstərilmiş mübadilələrin iştirakçılarının qəbul edən Tərəfin dövlətinin paytaxtına qədər və geriyə olan yol xərclərini öz üzərinə götürür, qəbul edən Tərəf isə öz dövlətinin ərazisində iştirakçıların hərəkətini təmin edir.

Maddə 12

Bu Sazişin 10-cu maddəsində nəzərdə tutulmuş mübadilələr zamanı qəbul edən Tərəf yemək və yaşayış xərclərini öz üzərinə götürür.

Maddə 13

Bu Sazişin 5-ci maddəsində nəzərdə tutulmuş təqaüdçüləri qəbul edən Tərəf onlara öz qanunlarına uyğun olaraq təhsil vergisi ödəmədən aylıq təqaüd təqdim edir, öz tələbələri üçün nəzərdə tutulmuş şərtlərlə tələbə yataqxanası, yeməkxanası və təcili tibbi yardımdan istifadə etməyə şərait yaradır.

Maddə 14

Bu Sazişin 6-cı maddəsində nəzərdə tutulmuş yay kurslarında iştirak edən şəxsləri qəbul edən Tərəf aşağıdakıları təmin edir:

- təhsil haqqından azad olunma;
- pulsuz yaşayış və yemək;
- öz dövlətinin vətəndaşları üçün nəzərdə tutulmuş şərtlərlə təcili tibbi yardım;
- tədris proqramı çərçivəsində təşkil olunmuş pulsuz səyahətlər.

Maddə 15

Qəbul edən Tərəf bu Sazişin 7-ci maddəsində nəzərdə tutulmuş müəllimləri elmi dərəcə və iş stajı nəzərə alınmaqla öz müəllimlərinə verilən məbləğdə aylıq maaşla, elektrik enerjisi, istilik və sudan istifadə xərcləri daxil olmaqla, qəbul edən müəssisənin yataqxanasında normal şəraitdə pulsuz mənzillə, öz vətəndaşları üçün nəzərdə tutulmuş şərtlər əsasında təcili tibbi yardımla təmin edir. Telefondan istifadə xərcləri müəllimin öz hesabına ödənilir.

Maddə 16

Bu Sazişin 5-ci, 6-cı və 7-ci maddələrində nəzərdə tutulmuş təqaüdlərə namizədlərin sənədləri qəbul edən Tərəfə cari təqvim ilinin may ayının 1-nə kimi göndərilir. Sənədlərə baxılmanın nəticələri haqqında məlumat tədris proqramının başlanmasına ən azı bir ay qalmış bildirilir.

Maddə 17

Bu Saziş əvvəlcədən razılaşdırılmış birgə tədbirlərin həyata keçirilməsini istisna etmir.

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında, onun 18-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən və onun ayrılmaz hissəsi olan ayrıca əlavə protokollarla tərtib olunan dəyişiklik və əlavələr edilə bilər.

Bu Sazişin icrası zamanı yaranmış hər hansı mübahisə danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaq.

Maddə 18

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır. Tərəflərdən heç biri yuxanda göstərilən müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış digər Tərəfi bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə xəbərdar etməzsə, bu Saziş avtomatik olaraq növbəti 1 (bir) illik müddətlərə uzadılır.

Bu Saziş Buxarest şəhərində 11 oktyabr 2004-cü ildə iki əsl nüsxədə hər biri Azərbaycan, rumın və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	RUMINİYANIN TƏHSİL VƏ TƏDQİQATLAR NAZİRLİYİ ADINDAN
YAQUB EYYUBOV	*ALEKSANDRU ATANASİU*
Baş nazirin birinci müavini	*Təhsil və elmi tədqiqatlar naziri*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rumıniya Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniya Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi (bundan sonra - Tərəflər),

öz aralarında dostluq münasibətlərinə sosial və iqtisadi sahələrdə mövcud qarşılıqlı faydalı əlaqələrə əsaslanaraq,

əmək və sosial müdafiə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əsasən informasiya və təcrübə mübadiləsi yolu ilə aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) əmək, məşğulluq və sosial müdafiə sahəsində milli qanunvericilik;

b) əmək münasibətlərinin və əməyin təhlükəsizliyinin tənzimlənməsi sahəsində

milli qanunvericiliyin tətbiq olunması mexanizmlərinə dair;

c) əlillərə xidmət göstərilməsi, onların reabilitasiyası;

d) ailə məsələləri sahəsində həyata keçirilən tədbirlər üzrə;

e) əmək bazarının təhlili, məlumatların toplanması və peşə hazırlığı sahəsi üzrə;

f) milli əmək bazarı və milli əmək bazarında xarici işçi qüvvəsinin iştirakının tənzimlənməsi üzrə;

g) sosial tərəfdaşlığın inkişafı və sosial yardım sistemində islahatların həyata keçirilməsində;

h) sosial müdafiə sistemində idarəetmənin təkmilləşdirilməsi məqsədilə informasiya texnologiyalarının tətbiqinə dair.

Maddə 2

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda inkişaf etdirəcəklər:

a) ekspertlərin mübadiləsi;

b) ekspertlərin məsləhətləşmələri və əlavə hazırlıqları;

c) hər iki Tərəfin fəaliyyəti ilə əlaqədar, xüsusilə də əmək, məşğulluq, sosial yardım, sosial müdafiə və risk qruplarının sosial inteqrasiyası ilə bağlı siyasət və proqramların həyata keçirilməsi, qanunvericiliklə bağlı təkliflərin və digər məlumatların informasiya mübadiləsi;

d) beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən layihələrlə bağlı əməkdaşlığın dəstəklənməsi;

e) Tərəflərin tabeliyində olan icraedici təşkilat və qurumlar arasında əməkdaşlığın dəstəklənməsi.

Maddə 3

Bu Protokol, Tərəflərin maliyyə imkanlarından asılı olaraq, ikiillik müddətlərə nəzərdə tutulmuş birgə iş planları çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 4

1. Bu Protokolun çərçivəsində razılaşdırılmış planların həyata keçirilməsi ilə bağlı xərclər aşağıda göstərildiyi kimi ödənilir:

a) beynəlxalq yol xərclərini göndərən Tərəf ödəyir;

b) qalma və təşkili xərclər: tədbir proqramı ilə təsdiq edilmiş mehmanxana, qida, tərcümə və ölkədaxili nəqliyyat xərclərini qəbul edən Tərəf ödəyir.

Maddə 5

Bu Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin yazılı surətdə ikinci bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Protokol beş il müddətinə qüvvədə qalacaq və Tərəflərin onu ləğv etməyəcəkləri təqdirdə, müddəti avtomatik növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Protokol ləğv edildikdə, onun müddəti ləğv edilməsi barədə diploma-tik kanallarla

göndərilən yazılı bildirişin alındığı tarixdən 6 ay sonra qüvvəsini itirəcəkdir.

Bu Protokol Buxarest şəhərində 11 oktyabr 2004-cü il tarixində, bütün mətnlər eyni qüvvəyə malik olmaqla, iki əsl nüsxədə Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır. Bu Protokolun müddəalarının təfsiri zamanı fikir ayrılığı yaranarsa, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN	RUMINİYANIN ƏMƏK, SOSİAL HƏMRƏYLİK VƏ AİLƏ İŞLƏRİ NAZİRLİYİ ADINDAN
YAQUB EYYUBOV	*DAN MİRÇA POPESCU*
Baş nazirin birinci müavini	*Əmək, sosial həmrəylik və ailə işləri naziri*

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Rumıniya Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Rumıniya Milli Arxivi hər iki tərəfin arxiv işi sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmaq və onu inkişaf etdirmək səylərini nəzərə alaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər dövlətlərinin qanunvericiliyi çərçivəsində arxiv işi sahəsində təcrübə mübadiləsi edəcəkləri barədə razılığa gəlirlər.

Maddə 2

Tərəflər razılığa gəlirlər ki, dövlət arxivlərində tədqiqat işləri aparmaq üçün onun müddəti barəsində hər il Tərəflərin ümumi razılığı ilə müəyyən edilən mütəxəssislər mübadiləsi etsinlər. Dövlətlərinin qanunvericiliyinə uyğun olaraq qəbul edən Tərəf yaşayış və yemək, göndərən Tərəf isə beynəlxalq nəqliyyat xərcləri ilə təmin edəcəklər.

Maddə 3

Tərəflər razılığa gəlirlər ki, dövlətlərinin qanunvericiliyinə uyğun olaraq onlardan hər birinin dövlət arxivlərinə, digər Tərəfin tarixini, yaxud dövlətləri arasındakı münasibətləri əks etdirən sənədlərdən istifadə işinin asanlaşdırılmasını təmin edəcəklər.

Maddə 4

Tərəflər iki aydan gec olmayaraq aparılacaq tədqiqat işlərinin tarixi və mövzuları, habelə mütəxəssislərin sayı barədə razılığa gələcəklər.

Maddə 5

Arxiv fondlarını zənginləşdirmək və hər iki ölkədə elmi tədqiqatların tələblərinə daha yaxşı cavab vermək məqsədilə, Tərəflər dövlətlərinin qanunvericiliyinə uyğun olaraq qarşı Tərəfin tarixinə, yaxud dövlətləri arasındakı əlaqələrə dair arxiv sənədlərinin pulsuz mübadiləsi barədə razılığa gəlirlər.

Tərəflər bu yolla əldə edilmiş sənədləri müstəsna olaraq elmi-praktiki məqsədlər üçün

istifadə edəcəklər və yalnız qarşı Tərəfin razılığı ilə dərc edə bilərlər.

Maddə 6

Tərəflər razılığa gəlirlər ki, əvvəlcədən razılaşdırılmış mövzular üzrə birlikdə sənəd sərgiləri təşkil edəcək, habelə onların ölkələrinin qarşılıqlı əlaqələrinə aid arxiv sənədlərinin nəşri və yayımını reallaşdıracaqlar.

Maddə 7

Tərəflər razılığa gəlirlər ki, dövlətlərinin qanunvericiliyinə uyğun olaraq siyahılar, məlumat kitabları, kataloqlar, sənəd məcmuələri kimi materialları, habelə başqa xüsusi ədəbiyyatları pulsuz mübadilə edəcəklər.

Maddə 8

Hər iki Tərəf dövlətlərinin qanunvericiliyinə uyğun olaraq Saziş çərçivəsində əməkdaşlığın qarşılıqlı razılıq əsasında digər peşə yönümlü əlaqə formalarından da istifadəni istisna etmir.

Maddə 9

Bu Saziş 5 il müddətinə bağlanır və əgər Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə 6 ay qalmış onu ləğv etmək niyyəti haqqında yazılı şəkildə bildirməsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı gündən qüvvəyə minir.

Bu Sazişə hər hansı düzəliş Tərəflərin ümumi razılığı ilə yalnız bu maddənin ikinci abzasına uyğun olaraq qüvvəyə minir.

Hər bir Tərəf bu Sazişi digər Tərəfə yazılı rəsmi məlumat göndərməklə ləğv edə bilər. Bu halda Saziş qarşı Tərəfdən məlumatın alındığı tarixdən qüvvədən düşür.

Bu Saziş Buxarest şəhərində 11 oktyabr 2004-cü il tarixində iki əsl nüsxədə Azərbaycan, rumın və rus dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

Sazişin təfsirində fikir ayrılığı yarandıqda, rus dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ARXİV İDARƏSİ ADINDAN	RUMİNİYANIN MİLLİ ARXİVİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*İON OROS* *Arxiv İdarəsinin baş direktoru*

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Rumıniya Televiziya Qurumu arasında Əməkdaşlıq Sazişi

Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Xudiyev, Rumıniya Televiziya Qurumunun prezidenti - baş direktoru Valentin Nikolau, təmsil etdikləri televiziyalar arasında əməkdaşlıq əlaqələri yaratmaq niyyətini ifadə edir, bu məqsədlə

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Rumıniya Televiziya Qurumu (bundan sonra "Tərəflər" adlandırılacaqlar) arasında aşağıdakı maddələrə dair razılığa gəlirlər:

Maddə 1

Tərəflər qeyri-kommersiya əsasında təklif ediləcək, müəllif hüquqları azad olan, mübadilə edilən və ya satılan televiziya proqramları ilə bağlı kataloqların, informasiya mübadiləsinin aparılmasını təmin edəcəklər.

Proqram və materiallar kommersiya və qeyri-kommersiya əsasında, öncədən Tərəflər arasındakı razılaşmaya uyğun olaraq təklif ediləcək.

Maddə 2

Kommersiya və qeyri-kommersiya yolu ilə mübadilə edilən proqramlar aşağıdakı kateqoriyalara görə müəyyənləşdiriləcək:

- xəbərləri qəbul edən Tərəf üçün azad hüquqlu proqramlar;
- nümayiş hüquqları müəyyənləşmiş proqramlar: sənədli filmlər, musiqili və əyləncəli proqramlar, bədii filmlər, seriallar və uşaq proqramları;
- nümayiş hüquqları alınacaq proqramlar. Eksklüziv hüquqlara görə mümkün əlavə xərclər nəzərə alınmaqla xüsusi idman tədbirlərinin nümayişi.

Qeyri-kommersiya mübadiləsində qəbul edən Tərəf video yazılış vasitələrinin (kasetlərin) təminatını öz üzərinə götürəcək.

Göndərən Tərəf isə köçürmə və göndərmə xərclərini ödəyəcək, göndərilən proqramların ingilis dilindəki mətnlərini əlavə edəcək.

Proqramların kommersiya əsasında ötürülməsi və yayımlanması şərtləri hər dəfə ayrıca sənədlərlə müəyyənləşdiriləcək.

Maddə 3

Tərəflər proqram və materialları yalnız ölkə daxilində istifadə edə bilərlər.

Qəbul edən Tərəf, göndərən Tərəfin yazılı razılığı ilə, proqramın orijinal məzmununa və ya dəyərinə xələl gətirmədən təklif edilən proqramda redaktə işləri apara bilər.

Tərəflərin qəbul etdikləri proqramları üçüncü Tərəfə satmaq və ya təklif etmək hüquqları yoxdur.

Maddə 4

Tərəflər, aşağıdakı şərtlər əsasında, qarşılıqlı olaraq televiziya ekspertlərinin mübadiləsini aparacaqlar:

- kommersiya əsaslı mübadilə;
- ildə 15 gün olmaqla əməkdaşların qarşılıqlı mübadiləsi.

Bu halda, göndərən Tərəf qəbul edən ölkənin paytaxtına gediş-gəliş nəqliyyat xərclərini ödəyəcək. Qəbul edən Tərəf mehmanxana, iaşə xidmətləri, tərcüməçi və daxili nəqliyyat xərclərini öz üzərinə götürəcək.

Maddə 5

Tərəflər proqramların hazırlanmasında televiziya yaradıcı qruplarına və jurnalistlərə lazımi kömək göstərəcəklər.

Kommersiya əsasında göstərilən xidmətlərə görə qəbul edən Tərəf xərclərlə bağlı fakturaları, CİRAP - EBU tariflərinə uyğun olaraq, göndərən Tərəfə təqdim edəcək; belə fakturalar 15 gün ərzində ödənilməlidir.

Xidmət xərclərini Tərəflər öncədən razılaşdıracaqlar.

Maddə 6

Göndərən Tərəf digər Tərəfə öz nümayəndələrinin gəlişi, onların gündəlik işi və hərəkət marşrutu, o cümlədən texniki tələbləri haqqında iki həftə öncə məlumat verməlidir.

Bu vaxt məhdudiyyəti rəsmi səfərlərə, siyasi tədbirlərə aid deyil.

Maddə 7

Tərəflər bir-birlərinin ölkəsində film çəkən yaradıcı qruplara və jurnalistlərə ödənişsiz əsaslarla qarşılıqlı surətdə maddi-texniki dəstək verəcək və bunun şərtləri əvvəlcədən razılaşdırılacaq. Qarşılıqlı əsasda həyata keçiriləcək bu cür işbirliyinin müddəti ildə 15 iş günündən artıq olmamalıdır.

Maddə 8

Tərəflər ümumi maraqlara cavab verən mövzulara dair müştərək proqramların hazırlanması mümkünlüyünü nəzərə alacaqlar.

Müştərək proqramların xüsusi şərtləri və aspektləri ayrıca saziş əsasında müəyyənləşdiriləcək.

Maddə 9

Bu Sazişdə nəzərdə tutulmayan məsələlər yarandığı halda, Tərəflər məsləhətləşmələr yolu ilə dostcasına razılığa gəlmək üçün bütün lazımi cəhdləri göstərəcəklər.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 3 il müddətinə etibarlıdır. Sazişin bitməsinə ən azı 3 ay qalmış Tərəflərdən birinin bu Sazişi ləğv etmək və ya onun hər hansı hissəsini yenidən nəzərdən keçirmək istəyi olmadığı halda, Saziş avtomatik olaraq daha 3 il müddətində qüvvədə qalır.

Bu Saziş iki əsl nüsxədən ibarət olub ingilis dilində 11 oktyabr 2004-cü il tarixində Buxarest şəhərində imzalanmışdır. Hər iki nüsxə eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ ŞİRKƏTİ ADINDAN	RUMINİYA TELEVİZİYA QURUMU ADINDAN
NİZAMİ XUDİYEV	*VALENTİN NİKOLAU*
Sədr	*Prezident - Baş direktor*

2004-cü il oktyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 fevral 2005-ci il

№619

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Hökuməti və Çin Xalq Respublikasının Hökuməti (bundan sonra "Tərəflər" adlandırılan), iki ölkə arasında dostluq münasibətlərinin və texniki-iqtisadi əməkdaşlığın gələcək inkişafı məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Azərbaycan Respublikası Hökumətinin xahişi ilə Çin Xalq Respublikasının Hökuməti Azərbaycan Respublikası Hökumətinə 10 (on) milyon Çin Yuanı məbləğində qrant təqdim edir.

Maddə 2

Yuxarıda adı çəkilən qrant iki ölkənin Hökumətləri tərəfindən razılaşdırılan layihənin həyata keçirilməsi üçün təyin olunmuşdur. Müvafiq konkret məsələlər Tərəflər arasında əlavə olaraq razılaşdırılacaqdır.

Maddə 3

Bu Saziş üzrə hesabların aparılması qaydası əlavə olaraq Azərbaycan Respublikası Milli Bankı və Çin Bankı arasında razılaşdırılacaq və imzalanacaqdır.

Maddə 4

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və Tərəflər bu Sazişdən irəli gələn öhdəlikləri tam yerinə yetirənədək qüvvədə qalır.

Bu Saziş 23 oktyabr 2004-cü ildə Bakı şəhərində, hər birinin mətni eyni qüvvəyə malik olmaqla, iki nüsxədə Azərbaycan, Çin və rus dillərində imzalanmışdır. Mətn üzrə fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətnə üstünlük veriləcək.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*Lİ ÇJAOSİN*
İqtisadi inkişaf naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası ilə Qatar Dövləti arasında 2004-cü il noyabrın 30-da Doha şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il noyabrın 30-da Doha şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qatar Dövlətinin Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qatar Dövlətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 fevral 2005-ci il

№620

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti iki ölkə arasında qarşılıqlı dostluq əlaqələrinin gücləndirilməsi və mədəniyyət sahəsində əməkdaşlıq əlaqələrinin genişlən-dirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Hər iki Tərəf "Daimi Mədəni Əməkdaşlığa" əsasən iki ölkə arasında mədəni əməkdaşlığın əlaqələndirilməsi və dəstəklənməsi məqsədilə bədii sərgilərin və mədəniyyət həftələrinin keçirilməsinə, yaradıcı kollektivlərin qarşılıqlı səfərlərinin təşkilinə, təsviri sənət, teatr və musiqi sahəsində mübadilə aparılmasına, habelə əl işləri sənəti nümu-

nələrindən ibarət sərgilər keçiril-məsinə şərait yaradacaqdır.

Hər iki Tərəf həmçinin öz ölkələrində keçiriləcək festivallarda və digər mədəni tədbirlərdə iştirak etmək üçün dəvətlərin mübadiləsini həyata keçirəcək, habelə beynəlxalq toplantı və konfranslarda iştirak edərək bütün mədə-niyyət məsələlərini əlaqələndirəcəkdir.

Maddə 2

Hər iki Tərəf mədəniyyətə aid məlumatlar, mətbu materiallar, broşüralar, fotoşəkillər və nadir nəşrlər və onların mikrofilm surətlərinin mübadiləsi, yaradıcılıq mübadiləsinin fəallaşdırılması, habelə bərpa işləri və əlyazmalar sahəsində təlim kurslarının təşkili vasitəsilə iki ölkənin milli kitabxanaları arasında əməkdaşlığın gücləndirilməsi üçün iş aparacaqdır.

Hər iki Tərəf, həmçinin müvafiq milli kitabxanalar və institutların iştirakı vasitəsilə hər iki ölkədə keçirilən kitab sərgilərində təmsil olunacaqdır.

Maddə 3

Hər iki Tərəf muzey direktorlarının və tədqiqatçıların qarşılıqlı səfərlərini təşviq edəcək, daşınan və daşınmaz sərvətlərin bərpasını, arxeoloji sərgilərin keçirilməsinin, müvafiq nəşrlər və broşüraların mübadiləsinə və hər iki ölkədə mövcud qanunlar əsasında tarixi əhəmiyyət kəsb edən əsərlərin fraqmentlərinin muzeylər arasında mübadiləsinə şərait yaradacaqdır. Hər iki Tərəf tədris kurslarının keçirilməsini, muzey və tarixi abidələrə aid emalatxanaların yaradılmasını, Azərbaycan və Qatar kadrlarının hazırlanmasını dəstəkləyəcək, arxeologiya və muzeylərə aid olan beynəlxalq konfranslarda birgə əlaqələndirmə və məşvərət işi aparacaqdır.

Maddə 4

İki ölkə arasında mədəniyyət əməkdaşlığını gücləndirmək və inkişaf etdirmək məqsədilə bu Sazişin icrası üçün Birgə Komissiya yaradılacaqdır.

Maddə 5

Bu Saziş qüvvəyə mindiyi tarixdən üç il müddətinə etibarlı olacaq. Tərəflərdən biri Sazişin müddətinin bitməsinə ən azı üç ay qalmış yazılı surətdə onun ləğv edilməsini bildirməsə, o, avtomatik olaraq növbəti müvafiq müddətə uzadılacaqdır.

Bu Sazişin ləğv edilməsi hər iki ölkənin qaydalarına uyğun olaraq tərtib edilmiş proqram və layihələrə təsir etməyəcəkdir.

Maddə 6

Bu Saziş, Razılığa gələn Tərəflərin Sazişin qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların başa çatdırıldığını təsdiqləyən sonuncu yazılı bildirişi aldığı tarixdə qüvvəyə minir.

Dohada 30 noyabr 2004-cü ildə iki nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

QATAR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN

HƏMƏD BİN CASİM BİN CABİR AL TANİ
Xarici işlər naziri

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti (bundan sonra tək şəkildə "Tərəf", cəm şəkildə "Tərəflər" adlandırılan),

Azərbaycan və Qatar üçün bərabərlik və qarşılıqlı fayda əsasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, dostluq münasibətlərinin gücləndirilməsi və tarixi və mədəni irsin tanıtdırılmasının təşviq edilməsi zərurətini nəzərə alaraq, turizmin hər iki ölkə arasında qarşılıqlı anlaşmanın və xoş niyyətlərin gücləndirilməsində mühüm vasitə olduğunu dərk edərək, aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın təşviqi

1. Tərəflər öz dövlətlərinin qüvvədə olan milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq, öz milli büdcə imkanları çərçivəsində, onların qarşılıqlı faydası əsasında, turizm sənayesinin davamlı dəstəklənməsi və inkişafı üçün səylərini əlaqələndirəcəklər.

2. Tərəflər bir-birinin mədəniyyəti, həyat tərzi və tarixi haqqında biliklərini artırmaq məqsədilə öz ölkələri arasında turizm əlaqələrinin inkişafına və genişləndirilməsinə xüsusi diqqət yetirəcək, öz vətəndaşlarının bir-birinin ölkəsinə səfər etməsini təşviq edəcək, öz ölkələrinin qüvvədə olan milli qanunvericiliyinə uyğun olaraq gömrük rəsmiləşmələrini asanlaşdıracaqlar.

Maddə 2

Daxil olma rəsmiləşdirmələri və prosedurları

Tərəflər ölkələr arasında turizm mübadiləsini gücləndirmək məqsədilə öz dövlətlərində qüvvədə olan milli qanunvericiliyə və iştirakçısı olduqları beynəlxalq razılaşmalara uyğun olaraq sərhəd giriş rəsmiləşmələri və prosedurlarını asanlaşdıracaqlar.

Maddə 3

Məlumat mübadiləsi

1. Tərəflər öz dövlətlərində qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq turizm məlumatı və nəşr materiallarının, filmlər və sərgi materiallarının qarşılıqlı mübadiləsini dəstəkləyəcəklər. Həmin materiallar kommersiya məqsədi daşımırsa, milli qanunvericiliyə uyğun olaraq, gömrük rüsumlarından azad edilir.

2. Tərəflər məlumat və öz mütəxəssisləri və ekspertlərinin təcrübə mübadiləsini təşviq edəcəklər. Bu mübadilələr hər bir ölkənin səlahiyyətli orqanı tərəfindən müəyyən edil-

məli olan çərçivə daxilində həyata keçiriləcəkdir.

Maddə 4

İnvestisiya

Tərəflər bir-birinin iqtisadiyyatının dövlət və özəl sektorlarına investisiya qoyuluşunu təşviq edəcəklər.

Maddə 5

Turizm təlimi və texniki yardım

Tərəflər, lazım gəldikdə, turizm təlimləri, turizm üzrə ekspertlərin mübadiləsi və texniki yardımın digər formaları vasitəsilə əməkdaşlıq edəcəklər. Bu mübadilələr hər bir ölkənin səlahiyyətli orqanı tərəfindən müəyyən edilməli olan çərçivə daxilində həyata keçiriləcəkdir.

Maddə 6

Anlaşma Memorandumuna görə məsul olan səlahiyyətli orqanlar

Bu Anlaşma Memorandumunun həyata keçirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

a) Azərbaycan tərəfindən - Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi;

b) Qatar tərəfindən - Qatar Turizm Təşkilatı.

Bu Sazişdə təsbit edilmiş məqsədlərə nail olmaq marağından çıxış edərək, Tərəflərin səlahiyyətli orqanlarının nümayəndələri qarşılıqlı maraq kəsb edən məsələləri müzakirə etmək üçün, lazım gəldikdə, görüşlər təşkil edəcəklər.

Memorandumun tətbiqi zamanı Tərəfin səlahiyyətli orqanı eyni zamanda öz turizm sənayesi ilə məsləhətləşmə apararaq fəaliyyət göstərə bilər.

Maddə 7

Qüvvəyə minmə

Anlaşma Memorandumu Tərəflərin onu imzaladığı tarixdən qüvvəyə minir.

Maddə 8

Düzəlişlər

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı ilə, Tərəflər arasında diplomatik kanallarla notalar mübadiləsi vasitəsilə, istənilən zaman düzəlişlər edilə bilər.

Maddə 9

Ləğv etmə

Bu Anlaşma Memorandumu, Tərəflərdən birinin diplomatik kanallarla digər Tərəfə əvvəlcədən onun qüvvəsini ləğv etmək niyyəti barədə ən azı altı ay qalmış yazılı bildiriş təqdim etməzsə, qüvvədə qalacaqdır.

Maddə 10

Mübahisələrin həlli

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə bağlı yaranan hər hansı mübahisə Tərəflər arasında dostcasına məsləhətləşmələr və danışıqlar vasitəsilə həll edilir.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət almış aşağıda imza edənlər bu Anlaşma Memorandumunu iki əsl nüsxə-də Azərbaycan, ərəb və ingilis dillərində imzaladılar. Təfsirdə fikir ayrılığı olduqda, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

Dohada 30 noyabr 2004-cü ildə tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QATAR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*HƏMƏD BİN CASİM BİN CABİR AL TANİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti,

qarşılıqlı anlaşma və faydaya əsaslanan mövcud olan mətin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi əzmində olaraq,

Tərəflər arasında möhkəm dostluq əlaqələrinin daha da gücləndirilməsi məqsədilə səhiyyə və tibb xidmətləri sahəsində ikitərəfli əməkdaşlığın qurulmasını və əhatə dairəsinin genişləndirilməsini arzulayaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Məlumat mübadiləsi

Tərəflər aşağıdakı sahələrdə məlumat mübadiləsini həyata keçirəcəklər:

1. Hər iki ölkədə tətbiq edilən səhiyyə qanunvericiliyi və qaydaları, normativ aktlar və prosedurlar, habelə səhiyyə sahəsində mövcud olan statistik məlumatlar və bülletenlər.

2. Xəstəliklərin müayinəsi üçün tibbi avadanlıq və dərman preparatları.

3. Ətraf mühit səhiyyəsi və peşə xəstəlikləri.

4. Hər iki ölkədə səhiyyə və əlaqəli sahələrdə keçirilən kurslar və konfranslar.

Maddə 2

Təcrübə mübadiləsi

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

1. Ümumilikdə, kiçik tibbi personal və səhiyyə işçi qüvvəsinin inkişaf etdirilməsi, habelə hər iki ölkənin sistemlərinə uyğun olaraq qeyd olunan sahələrdə vakant olan iş yerlərinin təmin edilməsi.

2. Səhiyyə işçilərinin və mütəxəssislərinin, onların ixtisaslarına və hər iki ölkənin səhiyyə tələbatlarına uyğun olaraq səfər mübadiləsi.

Maddə 3

Birgə tədqiqatlar və elmi araşdırmalar

Tərəflər hər iki ölkənin qarşılıqlı faydası üçün birgə səhiyyə tədqiqatlarının və elmi araşdırmaların həyata keçirilməsini öhdələrinə götürürlər.

Maddə 4

Tərəflər sərəncamlarında olan səhiyyə sahəsinə aid qanun və prosedurlar, statistik məlumat, informasiya və bülletenlərin qarşılıqlı mübadiləsini həyata keçirəcəklər.

Maddə 5

Tərəflər hər hansı görüş və beynəlxalq tədbirlərdən öncə birgə məsləhətləşmələr keçirməklə, beynəlxalq səhiyyə sahələrində əməkdaşlıq edəcəklər.

Maddə 6

Tərəflər bu Anlaşma Memorandumu üçün icra proqramları müəyyən etmək məqsədilə növbə ilə Bakı və Dohada görüşməli olan Birgə Komitə təsis edəcəklər.

Maddə 7

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir, bir illik müddət ərzində qüvvədə qalır və tərəflərdən biri digər tərəfə bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə altı ay öncə yazılı bildiriş təqdim etməzsə, o, avtomatik olaraq hər dəfə müvafiq növbəti müddətə uzadılır.

Bu Anlaşma Memorandumu iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı olduqda ingilis mətni əsas götürülür.

Bu Anlaşma Memorandumu Dohada 30 noyabr 2004-cü ildə Azərbaycan Respublikası Hökumətinin və Qatar Dövləti Hökumətinin nümayəndələri tərəfindən imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QATAR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*HƏMƏD BİN CASİM BİN CABİR AL TANİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qatar Dövlətinin Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qatar Dövlətinin Xarici İşlər Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) ikitərəfli əlaqələrin möhkəmləndirilməsini və müxtəlif sahələrdə məsləhətləşmələrin və əməkdaşlığın genişləndirilməsini arzulayaraq, aşağıdakılar barəsində razılığa gəldilər:

1. İkitərəfli münasibətləri müzakirə etmək və onların genişləndirilməsi barədə fikir mübadiləsi aparmaq və Tərəflərə aidiyyəti olan beynəlxalq və regional məsələlərə dair məlumat mübadiləsini təmin etmək üçün onların xarici işlər nazirliklərində yüksək rəsmilər arasında mütəmadi görüşlər keçirmək.

2. Onların nümayəndə heyətlərinin səviyyəsi və görüşlərinin tarixləri diplomatik kanallar vasitəsilə müəyyən edilir.

3. Tərəflər arasında məsləhətləşmələrin sahələrinə beynəlxalq və regional məsələlər və Tərəflər üçün ümumi maraq kəsb edən mövzular, habelə iqtisadi, elmi, texnoloji və ticarət sahəsində əməkdaşlıq və onların gündəliyə daxil edə biləcəkləri digər hər hansı məsələ aiddir.

4. Hər iki Tərəf arasında beynəlxalq forumlara dair əlaqələndirmənin və məsləhətləşmələrin keçirilməsi.

5. Bu Memorandumun müddəalarının tətbiq edilməsi məqsədilə Tərəflər növbə ilə Bakıda və Dohada razılaşdırılmış tarixdə zərurət yaranan zaman görüşlər keçirmək üçün birgə işçi qrupu yaradırlar.

6. Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqinə dair hər hansı mübahisə yarandıqda, həmin mübahisə Tərəflərin yüksək rəsmilərinə təqdim edilir.

7. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və Tərəflərdən biri onu ləğv etməyənə qədər qüvvədə qalır.

Dohada 30 noyabr 2004-cü ildə iki nüsxədə, hər bir nüsxə eyni qüvvəyə malik olmaqla, Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətndən istifadə olunur.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QATAR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*HƏMƏD BİN CASİM BİN CABİR AL TANİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

2004-cü il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qırğız Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 fevral 2005-ci il

№621

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi,

Razılığa gələn Tərəflər arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə səy göstərərək,

Razılığa gələn Tərəflərin dövlətləri arasında sərnişin və yük daşımalarının inkişafına və sürətləndirilməsinə əməkdaşlıq yolu ilə yardım etməyi arzu edərək,

gömrük qanunvericiliyinin pozulmasının iki dövlətin iqtisadi, sosial və maliyyə maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

gömrük qanunvericiliyinin daha effektiv surətdə həyata keçirilməsi və gömrük hüquqpozmaları ilə mübarizənin Razılığa gələn Tərəflərin əməkdaşlığı yolu ilə daha uğurla yerinə yetiriləcəyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün tətbiq olunan terminlər aşağıdakıları bildirir:

"gömrük qanunvericiliyi" - malların, sərnişinlərin əl yüklərinin və baqajının, valyuta və digər sərvətlərin, beynəlxalq poçt göndərişlərinin gətirilməsi, aparılması və tranziti qaydalarını, gömrük rüsumlarının, yığımlarının və digər ödənişlərin tutulmasını, güzəştlərin verilməsi, qadağanların və məhdudiyyətlərin qoyulmasını, həmçinin Razılığa gələn Tərəflərin dövlətlərinin gömrük sərhədlərindən keçirilən mallar üzərində nəzarəti tənzimləyən, razılığa gələn Tərəflərin dövlətlərinin hüquqi normalarının məcmusu;

"mallar" - hər hansı daşınan əmlak, o cümlədən valyuta, valyuta sərvətləri, elektrik, istilik və enerjinin digər növləri və sərnişinlərin və malların beynəlxalq daşımalarında istifadə olunan nəqliyyat vasitələri, o cümlədən konteynerlər və digər nəqliyyat avadanlığı istisna olmaqla, nəqliyyat vasitələri;

"gömrük hüquqpozması" - gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması, yaxud pozulmasına yönəldilmiş cəhd;

"şəxs" - fiziki və ya hüquqi şəxs;

"narkotik vasitələr" - 1972-ci il tarixli Protokolla düzəlişlər edilmiş Narkotik Vasitələr haqqında 1961-ci il tarixli Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik mənşəli maddələr;

"psixotrop maddələr" - Birləşmiş Millətlər Təşkilatının Psixotrop Maddələr haqqında 1971-ci il tarixli Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik mənşəli maddə, yaxud digər təbii mənşəli maddə;

"prekursorlar" - Birləşmiş Millətlər Təşkilatının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qeyri-qanuni Dövriyyəsinə qarşı Mübarizə haqqında 1988-ci il tarixli Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalında nəzarət altında istifadə olunan kimyəvi maddələr və onların duzları.

Maddə 2

Sazişin tətbiq dairəsi

1. Razılığa gələn Tərəflər bu Saziş əsasında öz imkanları və səlahiyyətləri çərçivəsində aşağıdakı məqsədlər üçün bir-birinə qarşılıqlı yardım göstərirlər:

a) gömrük ödənişlərinin düzgün tutulmasının, həmçinin gömrük güzəştlərinin tətbiqinin təmin edilməsi;

b) Razılığa gələn Tərəflərin dövlətlərinin gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, araşdırılması və aradan qaldırılması.

2. Razılığa gələn Tərəflər bu Saziş çərçivəsində ikitərəfli əməkdaşlığı inkişaf etdirir və möhkəmləndirir, gömrük işi sahəsində təcrübə mübadiləsi aparırlar.

Maddə 3

Tranzit

Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən tranzitlə keçən malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı Razılığa gələn Tərəflər iştirakçısı olduqları beynəlxalq müqavilələrin norma və standartlarına riayət edirlər.

Maddə 4

Narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə

1. Razılığa gələn Tərəflər narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin qanunsuz dövriyyəsi faktlarının qarşısının alınması, araşdırılması və aradan qaldırılması üzrə tədbirlərin fəallaşdırılması məqsədilə, öz təşəbbüsləri ilə və ya sorğu əsasında və mümkün qədər qısa müddətdə bir-birinə aşağıdakılara dair məlumatı bildirirlər:

a) narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin qanunsuz dövriyyəsinə cəlb olunduqları məlum olan və ya şübhəli bilinən şəxslər;

b) narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin qanunsuz dövriyyəsi üçün istifadə olunduğu məlum olan nəqliyyat vasitələri, o cümlədən konteynerlər və poçt göndərişləri, həmçinin onlar üzərində nəzarətin yeni metodları.

2. Razılığa gələn Tərəflər öz təşəbbüsləri ilə narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin qanunsuz dövriyyəsinin tətbiq olunan üsulları, həmçinin qaçaqmalçılıqla effektiv mübarizənin yeni metodları barədə bir-birinə məlumat verirlər.

3. Razılığa gələn Tərəflər bu maddənin tətbiqini narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların və radioaktiv maddələrin istehsalında istifadə olunan maddələrə münasibətdə də genişləndirə bilərlər.

Maddə 5

Təcrübə mübadiləsi

1. Razılığa gələn Tərəflər qarşılıqlı anlaşmaya nail olmaq məqsədilə aşağıdakı sahələrdə təcrübə mübadiləsi aparır:

a) gömrük qanunvericiliyi;

b) mallara, baqaj əşyalarına və poçt göndərişlərinə gömrük nəzarətinin təşkili və tətbiqi metodları;

v) gömrük nəzarətinin texniki vasitələrindən istifadə;

q) qaçaqmalçılıq fəaliyyəti, onun növləri, gizlətmə üsulları, hüquqpozmaların törədilməsinin yeni metodları, aşkar etmə metodları və onların nəticələri;

d) iki ölkə üçün maraq kəsb edən digər məsələlər;

e) gömrük əməkdaşlarının təlimi.

Maddə 6

Məlumat mübadiləsi

1. Razılığa gələn Tərəflər öz təşəbbüsləri ilə və ya sorğu əsasında aşağıdakılar barədə malik olduqları bütün məlumatı bir-birinə təqdim edirlər:

a) gətirilən, yaxud aparılan mallardan və nəqliyyat vasitələrindən gömrük ödənişlərinin düzgün tutulmasını, həmçinin gömrük güzəştlərinin tətbiqini təmin edən şərtlər barədə;

b) aşağıdakıların keçirilməsi ilə bağlı törədilmiş və ya hazırlanan hüquqpozmalar barədə:

ətraf mühit və ya əhalinin sağlamlığı üçün təhlükə yaradan mallar və ya əşyalar;

narkotik vasitələr, psixotrop maddələr və prekursorlar;

silahlar, sursatlar, partlayıcı maddələr və partladıcı qurğular;

tarixi, bədii, mədəni, yaxud arxeoloji və ya digər dəyər kəsb edən əşyalar;

v) Razılığa gələn Tariflərin dövlətlərinin ərazisinə gətirilməsi, aparılması və tranziti qadağan olunan və ya məhdudlaşdırılan mallar və əşyalar barədə.

Maddə 7

Əsliliyin təsdiq edilməsi

1. Razılığa gələn bir Tərəfin sorğusu əsasında Razılığa gələn digər Tərəf aşağıdakılara aid olan məlumatı təqdim edir:

a) yük gömrük bəyannaməsinin, yükü müşayiət edən sənədlərin və malların gömrük rəsmiləşdirilməsi üçün zəruri olan digər sənədlərin əsliyi;

b) malların Razılığa gələn Tərəfin dövlətinin ərazisinə/ərazisindən gətirilməsi/aparılmasının qanunauyğunluğu.

Maddə 8

Sorğunun forma və icrası

1. Bu Sazişə uyğun olaraq yardım göstərilməsi barədə sorğular yazılı formada göndərilir. Sorğuya onun yerinə yetirilməsi üçün zəruri olan sənədlər əlavə olunur. Fövqəladə vəziyyət hallarında şifahi sorğular qəbul edilə bilər, lakin sorğu göndərən tərəf təxirə salınmadan onları yazılı formada təsdiq etməlidir.

2. Sorğular sorğu alan Razılığa gələn Tərəfin dövlətinin rəsmi dilində, yaxud rus dilində və ya sorğu alan Razılığa gələn Tərəfə münasib olan dildə göndərilir.

3. Sorğuya əsasən göstərilən hər hansı yardım sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirir. Sorğu alan Razılığa gələn Tərəf sorğunun icrası üçün zəruri tədbirlər görür.

4. Məlumatın, sənədlərin və digər materialların təqdim edilməsi sorğunun icrasının növlərindən biridir. Sorğu alan Razılığa gələn Tərəf təqdim olunan bütün məlumat, sənədlər və digər materiallar üzrə sorğu göndərən Razılığa gələn Tərəfə müvafiq təsdiq göndərməlidir.

5. Əgər sorğunun icrasından imtina edilmişdirsə, sorğu alan Razılığa gələn Tərəf sorğu göndərən Razılığa gələn Tərəfə imtinanın səbəbləri göstərilməklə bu barədə yazılı formada məlumat verir. Sorğu alan Razılığa gələn Tərəf belə sorğuda göstərilən işin gələcək icraatı üçün faydalı ola bilən bütün mövcud məlumatı təqdim edir.

Maddə 9

Konfidensiallıq

Bu Sazişə uyğun olaraq alınan hər hansı informasiya, sənədlər və ya məlumatlar konfidensial xarakter daşımalı və sorğu göndərən Razılığa gələn Tərəfin ərazisində bu cür informasiya, sənədlər və ya məlumatlara şamil edilən eyni müdafiə səviyyəsinə malik olmalıdır.

Maddə 10

Mübahisəli məsələlərin həlli

Razılığa gələn Tərəflər arasında bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiqi ilə bağlı yaranan bütün mübahisəli məsələlər danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

Maddə 11

Ayrı-ayrı müddəalar

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin digər beynəlxalq razılaşmalara uyğun olaraq qəbul etdiyi hüquq və öhdəliklərinə toxunmur.

Maddə 12

Dəyişiklik və əlavələrin edilməsi

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə ayn-ayn Protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər. Protokollar bu Sazişin ayrılmaz hissəsi olaraq, bu Sazişin 13-cü maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

Maddə 13

Qüvvəyə minmə və ləğv etmə

Bu Saziş Razılığa gələn Tərəflərin dövlətlərinin qanunvericiliyində nəzərdə tutulmuş zəruri dövlətdaxili prosedurları Razılığa gələn Tərəflərin yerinə yetirdiyi barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarix-dən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Bu Saziş Razılığa gələn bir Tərəfin Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə Razılığa gələn digər Tərəfin yazılı bildirişini diplomatik kanallarla aldığı gündən etibarən altı ay başa çatanadək qüvvədə olur.

Bakı şəhərində 3 dekabr 2004-cü ildə Azərbaycan, qırğız, rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı halda, rus dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	QIRĞIZ RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ YANINDA GƏLİRLƏR KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qazaxıstan Respublikasının Baş Prokurorluğu arasın-da əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qazaxıstan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2005-ci il

№637

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatı və aradan qaldırılması üzrə qarşılıqlı inzibati yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatı və aradan qaldırılması üzrə qarşılıqlı inzibati yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə İtaliya Respublikası Hökuməti tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№639

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyannaməni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№640

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin bərpası sahəsində əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin bərpası sahəsində əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyannaməni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№641

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA) arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA) arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) Baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) Baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№642

"Bakı Şəhər İcra Hakimiyyəti və Roma şəhəri Meriyası arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı Şəhər İcra Hakimiyyəti və Roma şəhəri Meriyası arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№643

"Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti və "RAİ" İtaliya Radio-Televiziya Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti və "RAİ" İtaliya Radio-Televiziya Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əməkdaşlıq Sazişini imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№644

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və İtaliya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və İtaliya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2005-ci il

№645

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№824-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

dostluq münasibətlərini o cümlədən gömrük işi sahəsində əməkdaşlıq vasitəsilə inkişaf etdirməyi arzulayaraq,

Tərəflərin dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin inkişafına və genişləndirilməsinə gömrük orqanlarının əməkdaşlığı vasitəsilə imkan yaratmağa səy göstərərək,

gömrük qanunvericiliyinə riayət edilməsinin və gömrük hüquqpozmaları ilə mübarizənin Tərəflərin dövlətlərinin gömrük orqanlarının əməkdaşlığı ilə daha müvəffəqiyyətlə həyata keçirilə biləcəyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün tətbiq olunan terminlər aşağıdakıları ifadə edir:

gömrük qanunvericiliyi - Tərəf dövlətlərin malların gətirilməsi, aparılması və tranziti, sərnişinlərin əl yükləri və baqajlarının, valyuta və başqa qiymətlilərin, beynəlxalq poçt göndərişlərinin, malların gömrük rəsmiləşdirilməsini, gömrük rüsumları, yığımları və digər ödənişlərin tutulmasını, imtiyazların verilməsini, qadağan və məhdudiyyətlərin qoyulmasını, həmçinin Tərəf dövlətlərin gömrük sərhədlərindən malların keçirilməsinə nəzarət qaydalarını tənzimləyən hüquqi normaların məcmusu;

səlahiyyətli gömrük orqanları:

Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi;

Belarus Respublikasında - Belarus Respublikasının Dövlət Gömrük Komitəsi;

sorğu göndərən gömrük orqanı - gömrük məsələləri üzrə yardım göstərilməsi barədə sorğu göndərən Tərəf dövlətin səlahiyyətli gömrük orqanı;

sorğu alan gömrük orqanı - gömrük məsələləri üzrə yardım göstərilməsi barədə sorğu alan Tərəf dövlətin səlahiyyətli gömrük orqanı;

gömrük hüquqpozması - gömrük qanunvericiliyinin normalarının pozulması;

narkotik vasitələr - 1961-ci il tarixli Narkotik vasitələr haqqında BMT-nin Vahid Konvensiyasının siyahılarına daxil edilmiş maddələr;

psixotrop maddələr - 1971-ci il tarixli psixotrop maddələr haqqında BMT-nin Konvensiyasının siyahılarına daxil edilmiş maddələr;

prekursorlar - 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında BMT-nin Konvensiyasının siyahılarına daxil edilmiş maddələr;

nəzarətli göndəriş - Tərəflərin dövlətlərinin ərazisinə Tərəf dövlətlərin səlahiyyətli orqanlarının razılığı ilə və onların nəzarəti altında qanunsuz, yaxud şübhə doğuran narkotik vasitə partiyalarının, psixotrop maddə və prekursorların, həmçinin digər qanunsuz keçirilən malların, əşyaların və maddələrin onların qanunsuz dövriyyəsinə cəlb olunmuş şəxslərin müəyyən edilməsi məqsədilə gətirilməsi, tranziti və ya aparılmasına yol verilən göndəriş;

gömrük təminatlı - plomblar, möhürlərin, ştampların şəkilləri.

Maddə 2

Sazişin tətbiq dairəsi

Tərəflər bu Sazişə əsasən və öz dövlətlərinin səlahiyyətli gömrük orqanları vasitəsilə və Tərəflərin dövlətlərinin qanunvericiliyinə riayət edərək aşağıdakı məqsədlər üçün əməkdaşlıq edəcəklər:

a) Tərəflərin dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsi;

b) gömrük rüsumlarının, yığımlarının və digər ödənişlərinin düzgün yığılmasının təmin edilməsi, həmçinin gömrük imtiyazlarının tətbiqi;

c) gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasında qarşılıqlı fəaliyyət.

Maddə 3

Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi

Səlahiyyətli gömrük orqanları:

a) gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üzrə zəruri tədbirləri Tərəf dövlətlərin qanunvericiliyinə müvafiq olaraq qarşılıqlı razılaşma əsasında qəbul edirlər;

b) bir-birinin gömrük təminatlarını və gömrük sənədini tanıyırlar, zərurət yarandıqda isə keçirilən mallara öz xüsusi gömrük təminatlarını qoyurlar.

Maddə 4

Təsdiqedici sənədlərin təqdim edilməsi

Səlahiyyətli gömrük orqanları bir-birlərinə sorğu əsasında bir Tərəfin dövlətinin ərazisindən aparılan və ya ərazisinə gətirilən malların qanuni əsaslarla digər Tərəfin dövlətinin ərazisinə gətirildiyini və ya onun ərazisindən aparıldığını təsdiqləyən sənədləri təqdim edirlər; Təsdiqedici sənədlərdə malların rəsmiləşdirildiyi gömrük prosedurlarının növü və nəticələri göstərilir.

Maddə 5

Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə

1. Səlahiyyətli gömrük orqanları narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınması, araşdırılması və aradan qaldırılması üzrə hərəkətlərin fəallaşdırılması məqsədilə yardım haqqında ilkin sorğu verilmədən və mümkün qədər qısa müddətdə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi üçün istifadə olunduğu məlum olan nəqliyyat vasitələri, o cümlədən konteynerlər və poçt göndərişləri haqqında bir-birinə məlumat verirlər.

2. Səlahiyyətli gömrük orqanları yardım haqqında ilkin sorğu verilmədən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin tətbiq olunan üsulları haqqında bir-birini məlumatlandırırlar.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq alınmış məlumat, xəbər və sənədlər Tərəf dövlətlərin qanunvericiliyinə uyğun olaraq narkomaniya və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan hüquq mühafizə orqanlarına və başqa orqanlara verilə bilər.

Maddə 6

Nəzarətli göndəriş

1. Səlahiyyətli gömrük orqanları qarşılıqlı icazə və razılaşma əsasında Tərəf dövlətlərin digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətdə nəzarətli göndərişdən istifadə edə bilərlər.

2. Nəzarətli göndərişdən cinayət törədilməsi aləti, yaxud vasitəsi olan digər əşyalara və ya cinayət yolu ilə əldə edilmiş əşyalara və ya hüquqazidd əməllərin qaçaqmalçılıq olduğu əşyalara münasibətdə istifadə oluna bilər.

3. Nəzarətli göndərişdən istifadə və onun həyata keçirilmə formaları barədə qərar ayrılıqda hər bir halda Tərəf dövlətlərin qanunvericilikləri ilə müəyyən edilmiş qaydada qəbul edilir və zərurət yarandıqda maliyyə məsələlərinə və onların həyata keçirilməsi qaydasına dair razılaşmalar nəzərə alına bilər.

Maddə 7

Məlumatların verilməsi

1. Səlahiyyətli gömrük orqanları yardım haqqında sorğu üzrə, o cümlədən məlumatların, protokolların və digər materialların və ya onların təsdiq olunmuş surətlərinin göndərilməsi yolu ilə sərəncamlarında olan aşağıdakı məlumatları bir-birinə verirlər:

a) gömrük rüsumlarının, yığımlarının və digər ödənişlərin yığılması ilə, həmçinin gömrük imtiyazlarının tətbiqi ilə bağlı hallar haqqında;

b) sorğu alan Tərəfin dövlətinin qanunvericiliyinə zidd olan törədilmiş, yaxud hazırlanan hərəkətlər haqqında.

2. Səlahiyyətli gömrük orqanları mümkün qədər qısa müddətdə, o cümlədən ilkin sorğu verilmədən Tərəf dövlətlərin mübarizə aparılmasına xüsusi maraq göstərdiyi mümkün gömrük hüquqpozması barədə məlumatı bir-birinə verirlər. Bu, ilk növbədə aşağıdakıların keçirilməsi zamanı gömrük hüquq pozuntularına aiddir:

a) ətraf mühitə və ya əhalinin sağlamlığına təhlükə törədə biləcək mallar;

b) silah, döyüş sursatı, partlayıcı və zəhərləyici maddələr, partlayış qurğuları;

c) mühüm tarixi, bədii, mədəni və ya arxeoloji əhəmiyyət kəsb edən əşyalar;

d) xüsusi əhəmiyyət kəsb edən və Tərəf dövlətlərin qanunvericiliklərinə uyğun surətdə gömrük orqanları tərəfindən yığılan, gömrük rəsmiləşdirilməsi zamanı üzərinə yüksək gömrük rüsumlarının, aksizlərin və digər vergilərin qoyulduğu mallar.

Maddə 8

Sənədlərin verilməsi

1. Tərəf dövlətlərin səlahiyyətli gömrük orqanları gömrük məsələləri üzrə qanunvericilik və ya digər normativ aktların surətlərini öz aralarında mübadilə edirlər və gömrük qanunvericiliyinə edilmiş bütün dəyişikliklər və əlavələr barədə təxirə salınmadan bir-birini məlumatlandırırlar.

2. Bir Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanı digər Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanının yardım barədə sorğusu üzrə gömrük qanunvericiliyinin pozuntuları haqqında işlər üzrə inzibati orqanların qərarlarının surətlərini göndərir.

3. Bu maddəyə uyğun olaraq sənədlərin verilməsi haqqında sorğularda bu Sazişin 12-ci maddəsinin 2-ci bəndinin "f" yarımbəndində nəzərdə tutulan tələbdən fərqli olaraq, məsələnin mahiyyəti təsvir olunmaya bilər.

4. Sənədlərin alınması sorğu göndərən səlahiyyətli gömrük orqanı tərəfindən alınma tarixi göstərilməklə təsdiq edilir.

Təcrübə mübadiləsi və yardım göstərilməsi

1. Səlahiyyətli gömrük orqanları aşağıdakılar barədə məlumat mübadiləsi edirlər:

a) özünün fəaliyyət təcrübəsi və texniki nəzarət vasitələrinin tətbiqi barədə;

b) gömrük hüquq pozuntularının törədilməsinin yeni vasitə və üsulları barədə;

c) hər iki Tərəf üçün maraq doğuran digər gömrük məsələləri üzrə.

2. Səlahiyyətli gömrük orqanları gömrük işi sahəsində aşağıdakılar daxil olmaqla bir-birinə yardım göstərirlər:

a) qarşılıqlı maraq kəsb edən hallarda, eləcə də səlahiyyətli gömrük orqanları tərəfindən istifadə edilən texniki vasitələrlə tanış olmaq məqsədilə əməkdaşların mübadiləsi;

b) əməkdaşların təlimi və onların xüsusi vərdişlərinin təkmilləşdirilməsi;

c) gömrük məsələləri üzrə ekspertlərin mübadiləsi;

d) gömrük məsələlərinə aid olan peşə, elmi və texniki məlumatların mübadiləsi.

Maddə 10

Araşdırma

1. Bir Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanının yardım haqqında sorğusu üzrə digər Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanı bu Sazişin 2-ci maddəsinin "b" və "c" yarımbəndlərində nəzərdə tutulmuş məsələlər üzrə yoxlama və ya araşdırma aparır. Yoxlama və ya araşdırmanın nəticələri barədə sorğu göndərən səlahiyyətli gömrük orqanına məlumat verilir.

2. Yoxlama və ya araşdırma sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq aparılır. Sorğu alan səlahiyyətli gömrük orqanı öz adından hərəkət edərək yoxlama və ya araşdırma aparır.

3. Sorğu alan səlahiyyətli gömrük orqanı sorğu göndərən səlahiyyətli gömrük orqanının vəzifəli şəxslərinə belə yoxlama və ya araşdırmalarda iştirak etməyə icazə verə bilər.

4. Bu Sazişdə nəzərdə tutulmuş hallarda bir Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanının vəzifəli şəxsləri digər Tərəfin dövlətinin ərazisində olduqları dövr ərzində öz rəsmi səlahiyyətlərini təsdiq edən sənədə malik olmalı, geyim forması daşımamalı və silahlı olmalıdırlar.

Maddə 11

Ekspertlər və şahidlər

1. Əgər baxılan gömrük hüquqpozmaları ilə bağlı bir Tərəfin dövlətinin məhkəmə və ya inzibati orqanları yardım haqqında müvafiq sorğu ilə müraciət edirlərsə, digər Tərəfin dövlətinin səlahiyyətli gömrük orqanı öz əməkdaşlarına belə məhkəmə və ya inzibati araşdırmalarda şahid və ya ekspert qismində iştirak etmək səlahiyyəti verə bilər. Bu əməkdaşlar öz xidməti vəzifələrini yerinə yetirdikləri zaman müəyyən etdikləri faktlar üzrə ifadə və ya rəy verirlər. Məhkəmə və ya inzibati araşdırmalarda iştirak barədə sorğuda sorğu alan səlahiyyətli gömrük orqanının əməkdaşının hansı iş üzrə və hansı qisimdə çıxış etmələri göstərilməlidir.

Maddə 12

Sorğunun forması və məzmunu

1. Yardım haqqında sorğular yazılı şəkildə, onların yerinə yetirilməsi üçün zəruri olan sənədlərin rəsmən təsdiq olunmuş surətləri və ya kserosurətləri əlavə olunmaqla göndərilir. Müstəsna hallarda şifahi sorğu qəbul edilə bilər, lakin o, təxirə salınmadan yazılı formada təsdiq edilməlidir.

2. Bu Sazişə əsasən verilmiş yardım haqqında sorğularda aşağıdakı məlumatlar olmalıdır:

a) sorğunu göndərən səlahiyyətli gömrük orqanının adı;

b) sorğunu alan səlahiyyətli gömrük orqanının adı;

c) yardım haqqında sorğunun mövzusu və səbəbi;

d) prosedurun növü;

e) soyadlar, ünvanlar və prosedurun iştirakçıları haqqında digər məlumatlar;

f) işin mahiyyətinin qısa təsviri və onun hüquqi tövsifi;

g) yardım haqqında sorğunun icrası üçün zəruri olan digər məlumatlar.

3. Yardım haqqında sorğu, sorğu göndərən səlahiyyətli gömrük orqanının hüquqi səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və gerbli möhürlə təsdiq edilməlidir.

Maddə 13

Sorğuların icrası

1. Səlahiyyətli gömrük orqanları öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində sorğuların icrası yolu ilə bir-birinə yardım göstərirlər.

2. Sorğunun icrasının sorğu alan səlahiyyətli gömrük orqanının dövlətinin suverenliyinə, təhlükəsizliyinə zərər gətirə biləcəyi, yaxud onun qanunvericiliyinə və ya beynəlxalq öhdəliklərinə zidd olduğu halda yardım haqqında sorğunun icrasından imtina olunur.

3. Sorğu göndərən səlahiyyətli gömrük orqanına yardım haqqında sorğunun yerinə yetirilməsindən imtina, eləcə də imtinanın səbəbləri haqqında yazılı formada bildirilir.

Maddə 14

Sənədlər

1. Yardım haqqında sorğu üzrə sənədlərin əslinin göndərilməsi rəsmi təsdiq edilmiş surətlərin və ya kserosurətlərin kifayət etmədiyi hallarda həyata keçirilir.

2. Sənədlərin əsli mümkün qədər qısa müddətdə sorğu göndərən səlahiyyətli gömrük orqanına qaytarılmalıdır.

Maddə 15

Alınmış məlumatlardan və sənədlərdən istifadə

1. Səlahiyyətli gömrük orqanları öz protokollarında, məlumatlarında və digər materiallarında, nəzərdən keçirilən gömrük hüquqpozmaları ilə bağlı araşdırmalar apararkən, məhkəmə və ya inzibati araşdırmalarda bu Sazişə müvafiq surətdə alınmış məlumatlardan və sənədlərdən sübut kimi istifadə edə bilərlər. Bu məlumatların məhkəmə və ya inzibati araşdırmalarda qiymətləndirilməsi sorğu göndərən səlahiyyətli gömrük orqanının dövlətinin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

2. Bu Sazişin həyata keçirilməsi zamanı alınmış informasiya, sənədlər və digər məlumatlardan yalnız bu Sazişin məqsədləri üçün istifadə olunur. Onlar yalnız bu sənədləri verən səlahiyyətli gömrük orqanının yazılı razılığı ilə Tərəflərin dövlətlərinin cinayətkarlığa qarşı mübarizə ilə bağlı olmayan digər dövlət orqanlarına verilə və ya onların tərəfindən istifadə edilə bilər.

3. Bu Sazişə müvafiq surətdə Tərəflərdən birinin dövlətinin səlahiyyətli gömrük orqa-

nına verilmiş hər hansı formalı sorğular, informasiya, ekspertiza aktları və digər məlumatlar onları almış səlahiyyətli gömrük orqanı tərəfindən onun dövlətində milli qanunvericiliyinə müvafiq surətdə, analoji xarakterli və məzmunlu, öz informasiyası üçün mövcud olan konfidensiallıq rejimi ilə təmin olunur.

Maddə 16

Xərclərin ödənilməsi

1. Sorğu göndərən səlahiyyətli gömrük orqanı sorğu alan səlahiyyətli gömrük orqanına bu Sazişin yerinə yetirilməsi zamanı sorğunu alan səlahiyyətli gömrük orqanında işləməyən ekspert və tərcüməçilərin əməkhaqqının verilməsinə sərf edilən xərcləri ödəyir.

2. Bu Sazişin 9-cu maddəsinin müddəalarının icrası ilə bağlı xərclərin ödənilməsi Tərəflərin dövlətlərinin səlahiyyətli gömrük orqanları arasında ayrı-ayrı razılaşmaların mövzusu ola bilər.

Maddə 17

Sazişin həyata keçirilməsi

1. Bu Sazişdə nəzərdə tutulan əməkdaşlıq bilavasitə səlahiyyətli gömrük orqanları arasında həyata keçirilir.

2. Səlahiyyətli gömrük orqanları öz səlahiyyətləri çərçivəsində bu Sazişin həyata keçirilməsi üçün zəruri normativ aktları dərc edirlər.

3. Tərəflərin dövlətlərinin səlahiyyətli gömrük orqanları bu Sazişin həyata keçirilməsi üçün ikitərəfli gömrük əlaqələrinin bütün kompleksi üzrə, o cümlədən bu Sazişlə nəzərdə tutulmuş sorğuların icra mexanizmi barədə ayrıca sazişlər bağlaya bilərlər.

Maddə 18

Ünsiyyət

Bu Sazişin yerinə yetirilməsi zamanı Tərəflərin dövlətlərinin səlahiyyətli gömrük orqanları bir-biri ilə ünsiyyətdə rus dilindən istifadə edirlər.

Maddə 19

Sazişin dəyişdirilməsi

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 20-ci maddəsi ilə müəyyən olunmuş qaydaya uyğun olaraq qüvvəyə minən Protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 20

Yekun müddəalar

1. Bu Sazişin müddəaları Tərəf dövlətlərin onların iştirakçısı olduqları digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur.

2. Tərəflər bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar bütün mübahisəli məsələləri danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

3. Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alınması tarixindən otuz təqvim günü sonra qüvvəyə minir və beş il müddətində qüvvədə olur, bundan sonra əgər Tərəflərin heç biri müvafiq müddətin bitməsinə altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyətini yazılı şəkildə bildirməzsə, Saziş avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 5 noyabr 2004-cü ildə Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda rus dilindəki mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№825-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti (bundan sonra - "Tərəflər"),

bundan sonra "təşkilatlar" adlanacaq sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının iqtisadi, istehsalat və elmi-texniki əməkdaşlığı üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müəssisə və sahələrinin istehsalat kooperasiyasının inkişafını dəstəkləməyin ümumi şərtləri və mexanizmi haqqında 23 dekabr 1993-cü il tarixli Sazişdə nəzərdə tutulmuş prinsipləri rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər təşkilatlar arasında istehsal və elmi-texniki kooperasiyanın aşağıdakı sahələrdə qarşılıqlı fayda əsasında saxlanılmasına və inkişafına kömək göstərəcəklər:

hərbi-texniki təyinatlı məhsulların işlənib hazırlanması və istehsalında;

hərbi-texniki təyinatlı xidmətlərin göstərilməsində;

silahların və hərbi texnikanın istehsalı üçün zəruri olan xüsusi ehtiyaclar üçün materialların, yarımfabrikatların, dəstləşdirici məmulatların, tədris və köməkçi vəsaitlərin göndərilməsində.

Maddə 2

Silah və hərbi texnikanın istehsalı, təmiri və xidmətlər üçün zəruri materialların, yarımfabrikatların, dəstləşdirici məmulatların və digər material ehtiyatlarının təşkilatlar arasında qarşılıqlı göndərilməsi göndərilən məhsulların nomenklaturunu və həcmini, tədarükçü və istehlakçı müəssisələrin siyahılarını özündə əks etdirən razılaşdırılmış siyahılara uyğun həyata keçirilir.

Göstərilən siyahılar hər il Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları tərəfindən razılaşdırılmalıdır.

Maddə 3

Bu Saziş çərçivəsində məhsulların, xidmətlərin və yardımçı vəsaitin qarşılıqlı göndərilməsi Azərbaycan və Belarus təşkilatları arasındakı kontraktlar (müqavilələr) əsasında həyata keçirilir.

Qarşılıqlı hesablaşmalar Tərəflərin dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq razılaşdırılmış qiymətlərlə həyata keçirilir.

Kontraktların (müqavilələrin) yerinə yetirilməsi üzrə məsuliyyəti onları bağlayan təşkilatlar daşıyır.

Maddə 4

Tərəflər bu Sazişin ikinci maddəsində göstərilən siyahı üzrə göndərilən mallara Tərəflərin dövlətlərinin gömrük və vergi orqanlarının tutduğu idxal-ixrac rüsumlarını, vasitəli vergiləri, həmçinin idxal və ixrac kvotasını və lisenziyasını tətbiq etməməyi öhdələrinə götürürlər.

Maddə 5

Tərəflər kooperasiya üzrə göndərilən mallara qoyulmuş rentabellik dərəcələri hədlərinin yaxınlaşdırılması məqsədilə məsləhətləşmələr aparırlar.

Maddə 6

Tərəflərin təşkilatlarının iştirakı ilə silah və hərbi texnikanın yeni nümunələrinin işlənib hazırlanması və istehsalı qaydaları ayrıca hökumətlərarası sazişlərlə müəyyən edilir.

Maddə 7

Tərəflər qarşılıqlı göndərilən hərbi məhsulları, onlar haqqında elmi və texniki məlumatları, köməkçi vəsaitləri digər Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə, həmçinin xarici fiziki, hüquqi şəxslərə, yaxud beynəlxalq təşkilatlara sata və ya verə bilməzlər.

Tərəflər bu Saziş çərçivəsində məhsulların və xidmətlərin qarşılıqlı göndərilməsi həyata keçirilərkən müəllif hüquqlarının və kommersiya sirlərinin qorunmasına riayət edirlər.

Tərəflər bu Saziş çərçivəsində alınan məxfi xarakterli məlumatların Tərəflərin dövlətlərinin qanunvericiliklərinin və beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq qorunmasını öz öhdələrinə götürürlər.

Maddə 8

Tərəflər, Azərbaycan Respublikası və Belarus Respublikası müdafiə nazirliklərinə, öz müəssisələrində qüvvədə olan texniki və normativ sənədlərə uyğun olaraq hərbi təyinatlı məhsulların işlənib hazırlanmasının və istehsalının keyfiyyətinə, həmçinin qəbuluna nəzarətin həyata keçirilməsini tapşırırlar.

Maddə 9

Bu Sazişə uyğun olaraq məhsulların tədarükü zamanı təşkilatlar arasında yarana biləcək bütün mübahisəli məsələlər, Tərəflərin dövlətlərinin qanunvericiliklərində və kontraktlarda nəzərdə tutulan qaydada həll edilir.

Maddə 10

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin nəzarəti və əlaqələndirilməsi Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarına tapşırılır:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinə;

Belarus Respublikası tərəfindən - Belarus Respublikası Dövlət Hərbi Sənaye Komitəsinə.

Maddə 11

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı mübahisəli məsələləri Tərəflər məsləhətləşmə və danışıqlar yolu ilə həll edirlər.

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 12-ci maddəsinə uyğun qüvvəyə minən dəyişiklik və əlavələr edilə bilər.

Bu Saziş Tərəflərin digər beynəlxalq sazişlər üzrə qəbul edilmiş öhdəliklərinin icrasına zərər yetirmir.

Maddə 12

Bu Saziş, Tərəflərin həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

Bu Saziş üç il müddətinə bağlanır və avtomatik olaraq növbəti illik müddətlərə uzadılır.

Saziş Tərəflərdən birinin digər Tərəfin onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş aldığı tarixdən altı ay sonra qüvvədən düşür.

Bu Sazişin qüvvəsinin ləğv edilməsindən sonra təşkilatlar arasında Sazişin qüvvədə olduğu zaman bağlanılmış, yerinə yetirilməsinə başlanılmış, lakin bu Sazişin qüvvəsinin ləğv edildiyi tarixdə tam başa çatdırılmamış kontraktlara münasibətdə onun müddəaları qüvvədə qalacaqdır.

Bakı şəhərində 5 noyabr 2004-cü il tarixində hər biri Azərbaycan və rus dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda Tərəflər rus dilində olan mətni əsas götürəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№826-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə beynəlxalq əməkdaşlığın və qarşılıqlı yardımın vacibliyindən çıxış edərək, bu məqsədlə bir-birinə daha geniş yardım etmək istəyi ilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Terminlərin anlayışı

Bu Sazişin məqsədləri üçün tətbiq edilən terminlər aşağıdakıları ifadə edir:

"vergi qanunvericiliyi" - Tərəfin dövlətinin ərazisində vergiləri, yığımları (rüsumları) və onların tutulması qaydalarını müəyyən edən və vergi öhdəliklərinin yaranması, dəyişilməsi və ləğv edilməsi ilə bağlı münasibətləri tənzimləyən normativ hüquqi aktlar sistemidir;

"Vergi qanunvericiliyinin pozulması" - vergi ödəyicisi (vergilərin yığımların (rüsumların) ödəyicisi) tərəfindən vergi qanunvericiliyinin normalarının yerinə yetirilməməsi, yaxud lazımi qaydada yerinə yetirilməməsi ilə ifadə olunan və barəsində hüquqi məsuliyyət müəyyən edilmiş qeyri-qanuni hərəkət və yaxud hərəkətsizlikdir;

"səlahiyyətli vergi orqanları":

Azərbaycan Respublikasına münasibətdə - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;

Belarus Respublikasına münasibətdə - Belarus Respublikasının Vergilər və Yığımlar Nazirliyi;

"sorğu edən vergi xidməti" - vergi məsələləri üzrə yardım göstərilməsi barədə sorğu (bundan sonra - "yardım haqqında sorğu") verən Tərəfin səlahiyyətli vergi orqanı;

"sorğu edilən vergi xidməti" - yardım haqqında sorğu alan Tərəfin səlahiyyətli vergi orqanı.

Maddə 2

Sazişin tətbiq dairəsi

Vergi qanunvericiliyinə lazımi qaydada əməl olunmasını təmin etmək məqsədilə Tərəflər səlahiyyətli vergi orqanları vasitəsilə bir-birinə aşağıdakı məsələlər üzrə qarşılıqlı yardım göstərirlər:

vergi qanunvericiliyinin pozulmasının qarşısının alınması və aradan qaldırılması;

sorğu və ya təşəbbüs əsasında hüquqi və fiziki şəxslər tərəfindən vergi qanunvericiliyinə əməl edilməsi barədə məlumatların təqdim edilməsi;

milli vergi sistemləri və vergi qanunvericiliyinə cari dəyişikliklər barədə məlumatların təqdim edilməsi;

vergi orqanlarının işini təmin edən kompüter sistemlərinin yaradılması və işlənilməsi,

vergi qanunvericiliyinə əməl edilməsinə nəzarətin təmin edilməsi üzrə metodiki tövsiyələrin işlənməsi də daxil olmaqla, vergi ödəyiciləri (vergilərin, yığımların (rüsumların) ödəyiciləri) və vergi orqanları ilə işin təşkili;

kadrların hazırlanması və mütəxəssis mübadiləsi;

birgə fəaliyyət tələb edən digər məsələlər üzrə.

Bu Sazişin müddəaları Tərəflər arasında bağlanmış digər sazişlərə müvafiq olaraq səlahiyyətli vergi orqanlarının əməkdaşlığına mane olmur.

Maddə 3

Yardımın göstərilməsi haqqında sorğunun forması və məzmunu

Yardım haqqında sorğu onun baxılması üçün zəruri olan sənədlər əlavə edilməklə yazılı formada göndərilir. Fövqəladə hallarda yardım haqqında sorğu mümkün qədər qısa müddətdə yazılı surətdə təsdiq edilməklə şifahi formada edilə bilər.

Yardım haqqında sorğuya aşağıdakılar daxil edilməlidir:

sorğu edən vergi xidmətinin adı;

sorğu edilən vergi xidmətinin adı;

sorğunun məqsədi və səbəbi;

barəsində sorğu edilən vergi ödəyicisinin (vergilərin, yığımların (rüsumların) ödəyicisinin) adı (soyadı, adı, atasının adı), ünvanı (olduğu yer, yaxud yaşadığı yer) və/və ya identifikasiya nömrəsi;

baxılan dövr və konkret vergi (yığım, rüsum) növləri göstərilməklə, sorğunun və onunla bağlı hüquqi şəraitin məğzinin qısa şərhi.

Yardım haqqında sorğu rus və ya ingilis dillərində tərtib edilməlidir.

Sorğu edilən vergi xidməti aldığı yardım haqqında sorğu üzrə əlavə məlumat tələb etmək hüququna malikdir.

Maddə 4

Yardım haqqında sorğunun icrası qaydası

Səlahiyyətli vergi orqanları milli qanunvericiliyə müvafiq olaraq və öz səlahiyyətləri çərçivəsində bir-birinə yardım edirlər.

Sorğu edən vergi xidməti onun xahişi əsasında, yardım haqqında sorğunun icrası ilə bağlı həyata keçirilən hərəkətlərin vaxtı və həyata keçirilməsi yeri haqqında məlumatlandırıla bilər, onun nümayəndələri isə əlavə razılıq əsasında onların həyata keçirilməsində iştirak edə bilərlər.

Əgər yardım haqqında sorğu, sorğu edilən vergi xidməti tərəfindən icra edilə bilmirsə, o, sorğu daxil olduğu gündən otuz gün ərzində yardım göstərilməsindən imtinanın səbəbi göstərilməklə sorğu edən vergi xidmətinə bu barədə yazılı məlumat verir.

Yardım haqqında sorğunun icrası sorğu edilən Tərəfin milli qanunvericiliyinə və inzibati təcrübəsinə ziddirsə, bu halda onun icrasından imtina edilə bilər.

Yardım haqqında sorğunun icrası ilə bağlı öz dövlətinin ərazisindəki bütün xərcləri sorğu edilən Tərəf çəkir.

Yardım haqqında sorğuya cavab, həmçinin sorğu üzrə materiallar rus və ya ingilis dilində təqdim edilir.

Maddə 5

Təqdim edilən məlumatın tərtibi

Səlahiyyətli vergi orqanları öz təşəbbüsləri və ya yardım haqqında sorğu əsasında bir-birinə aşağıdakılar barədə məlumatları təqdim edirlər:

olduğu yer, tabeliyi, mülkiyyət forması və başqa məlumatlar da daxil olmaqla, hüquqi şəxslərin, onların filiallarının və nümayəndəliklərinin qeydiyyatı barədə;

olduğu yer barədə məlumatlar da daxil olmaqla, fərdi sahibkarların qeydiyyatları barədə;

hüquqi və fiziki şəxslər tərəfindən dövlət və kommersiya banklarında hesabların açılması, habelə bu hesablardakı pul vəsaitlərinin mövcudluğu və hərəkəti barədə, əgər bu məlumatların təqdim edilməsi Tərəflərin milli qanunvericiliyinə zidd deyilsə;

fiziki və hüquqi şəxslərin bu Tərəfin dövlətinin ərazisində əldə edilmiş bütün vergitutma obyekti növləri, ödənilmiş vergi (rüsum) məbləğləri və ya vergitutma ilə bağlı olan digər məlumatlar barədə.

Maddə 6

Sənədlərin və digər materialların təqdim edilməsi

Sorğu edilən vergi xidməti yardım haqqında sorğu əsasında yardım haqqında sorğunun icrası üçün zəruri olan normativ hüquqi aktları, sənədlərin təsdiq edilmiş surətlərini və digər materialları təqdim edir.

Sənədlərin və digər materialların əsli, təsdiq edilmiş surətlər kifayət etmədiyi halda tələb oluna bilər. Sənədlərin və digər materialların verilmiş əsli razılaşdırılmış müddətlərdə geri qaytarılmalıdır.

Materiallar, onların sonradan rəsmi təsdiq edilməsi şərtilə bu materialların şərhi üçün zəruri olan əlavə müşayiətedici məlumat verilməklə, faksimil və ya elektron rabitə vasitələri ilə təqdim edilə bilər.

Zəruri hallarda bir Tərəfin vergi orqanları, hüquqi və fiziki şəxslərin digər Tərəfin dövlətinin ərazisində vergiyə cəlb edilməsi üçün tələb olunan sənədlərini təsdiq edirlər.

Maddə 7

Məlumatın verilməsi qaydası

Məlumatın verilməsi qaydası səlahiyyətli vergi orqanlarının razılaşması əsasında müəyyən edilir.

Yardım, səlahiyyətli vergi orqanlarının rəhbərləri tərəfindən təyin edilən vəzifəli şəxslərin birbaşa əlaqələri çərçivəsində həyata keçirilir.

Maddə 8

Məxfiliyə əməl edilməsi

Konkret vergi ödəyicilərinə aid olan məlumat məxfi sayılır və Tərəfin milli qanunvericiliyinə və sorğu edilən səlahiyyətli vergi orqanının tələblərinə müvafiq olaraq mühafizə rejimi ilə təmin edilir.

Alınmış məlumatdan, sorğu edən vergi xidməti yalnız bu Sazişdə nəzərdə tutulan məqsədlər, o cümlədən inzibati və məhkəmə təhqiqatı üçün istifadə edə bilərlər. Məlumatdan başqa məqsədlər üçün yalnız sorğu edilən vergi orqanının razılığı ilə istifadə edilə bilər.

Maddə 9

Sazişin icrası

Tərəflər arasında əməkdaşlığın və qarşılıqlı yardım göstərilməsinin konkret forma və üsulları səlahiyyətli vergi orqanları tərəfindən təyin edilən vəzifəli şəxslərin birbaşa əlaqələri yolu ilə müəyyən edilir və həyata keçirilir. Bu məqsədlə, səlahiyyətli vergi orqanları öz vəzifəli şəxslərini təyin edir və onlar barədə bir-birinə məlumat verirlər.

Tərəflərin səlahiyyətli vergi orqanları bu Sazişin şərhi və tətbiqi zamanı yarana bilən mübahisəli məsələlərin həllində qarşılıqlı razılığa nail olmağa çalışacaqlar.

Tərəflərin səlahiyyətli vergi orqanları zəruri hallarda bu Sazişin həyata keçirilməsinin və ona dəyişikliklər edilməsinin məqsədə müvafiqliyinin qiymətləndirilməsi ilə bağlı məsləhətləşmələr aparacaqlar. Bu cür məsləhətləşmələrin müddəti əlavə olaraq müəyyən edilir.

Tərəflərin səlahiyyətli vergi orqanları birlikdə bu Sazişin müddəalarının həyata keçirilməsi üçün müvafiq prosedurlar hazırlaya və razılaşdıra bilərlər.

Maddə 10

Digər beynəlxalq müqavilələr

Bu Saziş Azərbaycan Respublikasının və Belarus Respublikasının iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 11

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan və bu Sazişin 12-ci maddəsinə müvafiq olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Sazişin qüvvəyə minməsi və qüvvədən düşməsi

Bu Sazişin Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Tərəflərdən heç biri bu müddətin bitməsinə ən azı altı ay qalmış bu Sazişi ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq sonrakı beşillik müddətlərə uzadılır.

Bakı şəhərində 5 noyabr 2004-cü il tarixində, hər biri Azərbaycan və rus dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda rus dilində olan mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№827-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti, iki dövlət arasında tarixən qurulan dostluq münasibətlərini nəzərə alaraq, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığı inkişaf etdirmək istəyərək, sənaye mülkiyyətinin səmərəli və adekvat mühafizəsinin bu cür əməkdaşlığın inkişafı üçün zəruri şərt olduğunu etiraf edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün "sənaye mülkiyyəti" anlayışı altında, Sənaye mülkiyyətinin mühafizəsi haqqında 20 mart 1883-cü il tarixli, 14 iyul 1967-ci ildə Stokholmda yenidən nəzərdən keçirilmiş və 2 oktyabr 1979-cu ildə dəyişikliklər edilmiş Paris Konvensiyasının (bundan sonra - Paris Konvensiyası) 1-ci maddəsində nəzərdə tutulan məna başa düşülür.

Maddə 2

Tərəflər iştirakçısı olduqları və ya olacaqları bu Sazişə və digər beynəlxalq müqavilələrə müvafiq olaraq qarşılıqlı fayda və bərabərlik əsasında sənaye mülkiyyəti obyektlərinə dair hüquqların mühafizəsi və istifadəsi sahəsində əməkdaşlığı həyata keçirir və inkişaf etdirirlər.

Tərəflərin əməkdaşlığı aşağıdakı istiqamətlərə yönəldiləcəkdir:

sənaye mülkiyyəti obyektlərinə dair hüquqların mühafizəsi və istifadəsi ilə bağlı məsələlərin tənzimlənməsinə;

Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrə müvafiq olaraq sənaye mülkiyyətinin mühafizəsi sahəsində Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin uyğunlaşdırılmasına;

informasiya, normativ sənədlər və başqa sənədlər, həmçinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində iş təcrübəsi üzrə mübadiləyə.

Tərəflərin qarşılıqlı şəkildə razılığa gəldikləri digər əməkdaşlıq formalarına.

Maddə 3

Sənaye mülkiyyətinin mühafizəsi sahəsində bir dövlətin fiziki və hüquqi şəxsləri digər dövlətin ərazisində, onun öz fiziki və hüquqi şəxslərinə hal-hazırda verilmiş və ya həmin bu digər dövlətin hüquqi və fiziki şəxsinə hüquqi aktlarla veriləcək hüquqlardan, özünün fiziki və hüquqi şəxslərinə verilmiş həmin hüquqi mühafizə vasitələrindən və o həcmdə istifadə edəcəklər.

Bu Sazişlə tənzimlənməyən məsələlər üzrə Tərəflər Paris Konvensiyasının müddəalarını tətbiq edəcəklər.

Maddə 4

Tərəflər etiraf edirlər ki, Azərbaycan Respublikasının və ya Belarus Respublikasının istənilən fiziki və ya hüquqi şəxsi lisenziya müqaviləsi bağlamadan ixtira və ya sənaye nümunəsini istifadə etmək hüququnu özündə saxlayır, bu şərtlə ki, barəsində SSRİ müəlliflik şəhadətnaməsinin verildiyi ixtira və ya sənaye nümunəsinə milli patentin verilməsi haqqında digər şəxslər tərəfindən verilən vəsatətin təqdim edildiyi tarixədək ondan qanuni şəkildə istifadə edilmiş olsun.

Bu halda mükafatların ödənilməsi, ərazisində göstərilən ixtira və ya sənaye nümunəsinin istifadə edildiyi və ya ediləcəyi dövlətin normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 5

Bir dövlətin fiziki və hüquqi şəxsləri digər dövlətin ərazisində sənaye mülkiyyətinin mühafizəsinə aid olan patent fondlarından, kitabxanalardan, məlumatlar bankından onun öz fiziki və hüquqi şəxslərinə verilmiş şərtlərlə istifadə edəcəklər.

Maddə 6

Bu Sazişin həyata keçirilməsi üçün aşağıdakılar məsuliyyət daşıyırlar: Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi;

Belarus Respublikasında - Belarus Respublikasının Dövlət Elm və Texnologiya Komitəsi.

Bu Sazişin həyata keçirilməsi üçün məsul olan dövlət orqanlarının əməkdaşlıq şərtləri və qaydaları onlar arasında xüsusi sazişlərlə müəyyən ediləcəkdir.

Maddə 7

Bu Sazişə müvafiq olaraq Sazişin həyata keçirilməsi üçün məsul olan dövlət orqanları arasında yazışmalar rus dilində aparılacaqdır.

Maddə 8

Bu sazişdən irəli gələn, yaxud onun yerinə yetirilməsi ilə bağlı məsələlər üzrə fikir ayrılığı yarandığı halda, Tərəflərin nümayəndələri müvafiq məsləhətləşmələr aparacaq və bu fikir ayrılığının tənzimlənməsi üçün zəruri tədbirlər görəcəklər.

Maddə 9

Bu Saziş Tərəflərin sənaye mülkiyyətinin mühafizəsi sahəsində digər ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıqda iştirakına mane olmur.

Maddə 10

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında, bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildiriş alındığı gündən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış diplomatik kanallarla Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı şəkildə məlumat vermədiyi təqdirdə, onun qüvvəsi avtomatik olaraq hər sonrakı beşillik müddətlərə uzadılır.

Saziş belə bildirişin alındığı tarixdən 3 (üç) ay sonra qüvvədən düşür.

Bu Sazişin qüvvədən düşməsi, hər iki dövlətin fiziki və hüquqi şəxslərinə verilmiş və ya veriləcək mühafizə sənədlərinə təsir etmir.

Bakı şəhərində 5 noyabr 2004-cü il tarixində hər biri Azərbaycan, Belarus və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandıqda rus dilindəki mətn üstün tutulur.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№829-IIQ

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Bolqarıstan Respublikasının Prezidenti,

Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında 29 iyun 1995-ci ildə imzalanmış Dostluq və Əməkdaşlıq haqqında Müqaviləni rəhbər tutaraq və ikitərəfli əlaqələrin vəziyyətini və perspektivlərini müzakirə edərək,

siyasi və iqtisadi, humanitar, elm, təhsil və texnologiya, hərbi-texniki əməkdaşlıq, ətraf mühit və digər sahələrdə ikitərəfli əlaqələrin dərinləşdirilməsinə səy göstərərək,

hər iki ölkənin qanunvericilik bazasını inkişaf etdirmək və genişləndirmək üçün səylər göstərərək,

Azərbaycan-Bolqarıstan tərəfdaşlıq əlaqələrinin gələcək genişlənməsi və dərinləşməsinin regional, pan-Avropa və ümumdünya kontekstində sülhün və sabitliyin güclənməsinə xidmət edəcəyinə əmin olaraq,

aşağıdakıları bəyan edirlər:

Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının Prezidentləri hər iki xalqın rifahı naminə Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə ikitərəfli əlaqələrin təşviqi və qanunvericilik bazasının təkmilləşdirilməsini davam etdirəcəklər. Hər iki Prezident iki ölkə arasında bütün səviyyələrdə müntəzəm və aktiv əlaqələrin saxlanılmasına xüsusi əhəmiyyət verirlər.

Prezidentlər ticarət-iqtisadi, elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Bolqarıstan Birgə Hökumətlərarası Komissiyasının işinin genişləndirilməsinə xüsusi əhəmiyyət verdiklərini qeyd edir və Komissiyanın 6-7 oktyabr 2004-cü ildə Bakıda keçirilmiş İkinci İclasını müsbət qiymətləndirirlər. Dövlət başçıları inanırlar ki, ticarət və iqtisadi əməkdaşlığı və qarşılıqlı investisiya qoyuluşunu artırmaq üçün əlavə səylərə ehtiyac vardır. Onlar hər iki ölkənin iş-güzar dairələri arasında birbaşa əlaqələri təşviq etməyi və birgə layihələrin həyata keçirilməsini davam etdirəcəklər.

Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının Prezidentləri aşağıdakı ikitərəfli sazişlərin razılaşdırılması və imzalanmasını əsas prioritet hesab edirlər: Mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq haqqında Saziş, Sosial sığorta haqqında Saziş və Vətəndaşların qarşılıqlı gediş-gəlişi haqqında Saziş.

Hər iki ölkənin Prezidentləri ticarət-iqtisadi əməkdaşlığın inkişafının təmin edilməsinin əsas vasitələrindən biri kimi, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və fəaliyyətinin xüsusi rolu olduğunu vurğulayır və onun inkişafının təmin edilməsinə yönəlmiş səylərə dəstək verəcəklərini öz öhdələrinə götürürlər.

Prezidentlər beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, BMT-nin Nizamnaməsinə və ATƏT-in və hər iki ölkənin üzvü olduğu digər təşkilatların əsas sənədlərinə əsaslanan beynəlxalq, siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsinə özlərinin növbəti töhfəsi kimi regiondakı münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar.

Hər iki Prezident humanitar, mədəniyyət, elm, təhsil, səhiyyə və turizm sahələrində, həmçinin ətraf mühit məsələlərində ikitərəfli əməkdaşlığın genişləndirilməsinə kömək etməyə hazır olduqlarını ifadə edirlər. Onlar inanırlar ki, ikitərəfli əlaqələrdə regional əməkdaşlığa və yerli hakimiyyət orqanları arasında birbaşa əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilməlidir.

İki ölkənin Dövlət Başçıları beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının ticarəti, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlığa, insan və silah alveri kimi yeni qlobal çağırışlar və təhlükələrlə mübarizə aparılması sahəsində ikitərəfli və çoxtərəfli qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasına dəstək verirlər.

Azərbaycan Respublikasının Prezidenti Bolqarıstan Respublikasının NATO-ya daxil olmasını və Bolqarıstanın Avropa İttifaqına daxil olması məqsədilə aparılan danışıqların yekunlaşmasını yüksək qiymətləndirir.

Öz növbəsində Bolqarıstan Respublikasının Prezidenti "Əsrin müqaviləsi"ni dəstəkləyir və Azərbaycan Respublikasının region ölkələri ilə mehriban qonşuluq əlaqələrini inkişaf etdirməsinə hazır olmasını alqışlayır. O, həmçinin Azərbaycan tərəfinin Avropa Birliyi, NATO, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Avropa Şurası ilə fəal əməkdaşlığa doğru göstərdiyi səyləri dəstəkləyir. Bolqarıstan Respublikasının Prezidenti Azərbaycanın Avropa və Avro-Atlantik təşkilatlara geniş inteqrasiyasına hazırlaşması prosesində onun ölkəsinin və Bolqarıstan dövlət təsisatlarının təcrübələrinin bölüşdürülməsinə hazır olduğunu təsdiq edir.

Hər iki ölkə Başçısı BMT, ATƏT, Sülh Naminə Tərəfdaşlıq, Avro-Atlantik Tərəfdaşlıq Şurası, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional təşkilatlarda ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirir və həmin qurumlarda onların əməkdaşlığının səmərəliliyinin yaxşılaşdırılması üçün səylərini davam etdirəcəklərini öhdələrinə götürürlər.

ATƏT-in üzv dövlətləri kimi Azərbaycan Respublikası və Bolqarıstan Respublikası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üzrə danışıqlar prosesinin sürətləndirilməsini alqışlayır, ATƏT-in Minsk Qrupunun və onun həmsədrlərinin münaqişənin həll edilməsinə yönəldilmiş səylərini dəstəkləyirlər.

Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının Prezidentləri Avropa İttifaqı ilə Avropa qonşuluq siyasətinin Qafqaz və Avropada əməkdaşlığın və sabitliyin qorunmasında həlledici rol oynayacağına əmin olduqlarını ifadə edirlər.

Hər iki Prezident bu Birgə Bəyannamənin Azərbaycan-Bolqarıstan əməkdaşlığına əlavə təkan verəcəyinə əmin olduqlarını ifadə edirlər.

Bakı şəhərində 7 oktyabr 2004-cü ildə, hər biri Azərbaycan, bolqar və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ	BOLQARISTAN RESPUBLİKASI PREZİDENTİ
İLHAM ƏLİYEV	*GEORGİ PIRVANOV*

"Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№830-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti,

iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafını arzulayaraq,

bərabərlik və qarşılıqlı mənfəət əsasında Razılığa gələn bir Tərəfin investorlarının Razılığa gələn digər Tərəfin ərazisində qoyduğu investisiyaların təşviqi və onlar üçün daha əlverişli şərtlərin yaradılması niyyətində olaraq,

investisiyaların Sazişə uyğun olaraq, qarşılıqlı təşviqinin və qorunmasının həmin sahədəki təşəbbüsləri stimullaşdıracağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün:

1. "İnvestisiya" dedikdə, Razılığa gələn bir Tərəfin investorunun Razılığa gələn digər Tərəfin ərazisində sonuncunun qanunvericiliyinə müvafiq olaraq investisiya etdiyi istənilən növ əmlak, xüsusən də, lakin istisna olmaqla, aşağıdakılar başa düşülür:

a) daşınar və daşınmaz əmlak, həmçinin ipoteka və girov kimi istənilən digər mülkiyyət hüquqları;

b) paylar, səhmlər, qiymətli kağızlar və şirkətdə hər hansı digər formada iştirak;

c) pul tələbi və iqtisadi dəyəri olan digər tələblər;

d) Razılığa gələn hər iki Tərəfin iştirakçısı olduğu Ümumdünya Əqli Mülkiyyət Təşkilatının rəhbərliyi altında bağlanmış çoxtərəfli sazişlərdə müəyyən edilmiş əqli mülkiyyət hüquqları, o cümlədən, lakin bununla məhdudlaşmayan, müəllif

hüquqları və əlaqəli hüquqlar, patentlər, ticarət markaları, ticarət nişanları, sənaye nümunələri və texniki proseslərdə hüquqlar, bitki növləri üzrə hüquqlar, nou-hau və işgüzar nüfuz;

e) təbii ehtiyatların kəşfiyyatı, emalı, hasilatı və ya istismarı üzrə hüquqlar daxil olmaqla qanunla, müqavilə əsasında və ya inzibati aktla nəzərdə tutulan sahibkarlıq fəaliyyətini həyata keçirmək hüquqları.

İnvestisiyaya (a) - (e) yarımbəndlərində nəzərdə tutulan aktivlərin dəyərinin artması da daxildir.

İnvestisiyaların edildiyi Razılığa gələn Tərəfin dövlət ərazisində Razılığa gələn həmin Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq investisiya və ya təkrar investisiya şəklində edilən hər hansı dəyişiklik bu investisiyaların xüsusiyyətinə təsir etməyəcəkdir.

2. "Gəlir" dedikdə, investisiya qoyuluşu nəticəsində qanuni şəkildə əldə edilmiş mənfəət, xüsusən də qazanc, faizlər, əsas gəlir, dividendlər, lisenziya ödənişləri, royaltilər və digər yığımlar başa düşülür.

3. "İnvestor" dedikdə, aşağıdakılar başa düşülür:

a) Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşı olan və onun qanunvericiliyinə əsasən Razılığa gələn digər Tərəfin ərazisinə investisiya edən fiziki şəxs;

b) Razılığa gələn bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və ya yaradılmış və Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisində yerləşən, hüquqi şəxs olub və ya olmadığından asılı olmayaraq, istənilən şirkət, təşkilat, ortaqlıq və ya digər növ assosiasiya.

4. "Ərazi" dedikdə, aşağıdakılar başa düşülür:

(i) Azərbaycan Respublikasına münasibətdə: Azərbaycan Respublikasının suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi ərazisi, o cümlədən Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikası üzərindəki hava məkanı, yerin təki, dənizin dibi və təbii sərvətlər və ya Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq müəyyən edilmiş və ya gələcəkdə müəyyən edilə biləcək hər hansı digər ərazi.

(ii) Bolqarıstana münasibətdə: Bolqarıstan Respublikasının ərazisi, o cümlədən beynəlxalq hüquqa uyğun olaraq Bolqarıstan Respublikasının üzərində suveren hüquqları və ya yurisdiksiyanı həyata keçirdiyi ərazi sulan, həmçinin kontinental şelf və xüsusi iqtisadi zona.

Maddə 2

İnvestisiyaların təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarını təşviq edəcək, onlar üçün əlverişli şərait yaradacaq, bu investisiyaları öz dövlətinin qanunvericiliyinə uyğun olaraq qəbul edəcək və onlara ədalətli və bərabərhüquqlu yanaşacaqdır.

2. İnvestisiyalardan əldə olunan gəlirlərin yenidən investisiya edildiyi təqdirdə, yenidən edilən investisiyalara və onlardan əldə olunan gəlirlərə ilkin investisiyalara tətbiq olunan rejim və qorunma qaydaları tətbiq olunacaqdır.

3. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində Razılığa gələn digər Tərəfin investorları tərəfindən qoyulmuş investisiyaların idarə edilməsi, saxlanılması, istifadəsi, əldə olunmasına və yaxud ləğv edilməsinə əsassız və ayrı-seçkilik tədbirləri ilə maneçilik törətməyəcək.

4. Razılığa gələn hər bir Tərəf bu Sazişdə müəyyən edildiyi kimi, investisiyalarla bağlı biznes fəaliyyəti ilə məşğul olan Razılığa gələn digər Tərəfin dövlətinin vətəndaşlarının və onların ailə üzvləri sayılan şəxslərin öz ərazisinə giriş, yaşayış, işləmək və ölkə ərazisində hərəkət etmək ilə bağlı məsələlərinə əlverişli şərait yaradaraq və dövlətinin qanunvericiliyinə uyğun olaraq baxacaqdır.

Maddə 3

İnvestisiyaların rejimi

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının qoyduğu investisiyalarına öz və yaxud üçüncü tərəfin investorlarının qoyduğu investisiyalar üçün yaratdığı rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli olmayan rejim tətbiq edəcək.

Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarına onların qoyduğu investisiyaların idarə edilməsi, saxlanılması, istifadəsi, faydalanması və ləğv edilməsi ilə əlaqədar öz investorlarına və yaxud üçüncü dövlətin investorlarına yaratdığı rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli rejim tətbiq etməyəcək.

2. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları heç bir halda Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfin investorlarına və onların investisiyalarına Razılığa gələn birinci Tərəfin üçüncü dövlətin investorlarına və yaxud onların investisiyalarına verdiyi imtiyazlardan və ya üstünlüklərdən irəli gələn faydanı:

a) mövcud olan və ya gələcəkdə mövcud olacaq hər hansı bir gömrük birliyində, azad ticarət zonasında, iqtisadi birlikdə, investisiyalar üzrə çoxtərəfli sazişlərdə, həmçinin bu cür birliklərə və ya digər iqtisadi əməkdaşlıq formalarına gətirə biləcək digər beynəlxalq sazişdə iştirakçılıq və ya birləşməklə;

b) tam və ya qismən vergiqoyma ilə bağlı çoxtərəfli və ya ikitərəfli saziş və ya razılaşma ilə

hazırda və ya gələcəkdə vermək məcburiyyətində olduğu şəklində şərh olunmamalıdır.

3. Razılığa gələn hər bir Tərəf öz dövlətinin qanunvericiliyinə əsasən bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən milli rejimdən istisnalar etmək və onun tətbiqini özündə saxlamaq hüququna malikdir. Buna baxmayaraq, hər bir yeni istisna onun qüvvəyə minməsindən sonra edilən investisiyalara şamil olunur.

4. Razılığa gələn Tərəflərdən birinin dövlətinin qanunvericiliyi və ya Razılığa gələn Tərəflər arasında hazırda və ya gələcəkdə tətbiq oluna biləcək beynəlxalq sazişlərdən və Razılığa gələn Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq sazişlərdən irəli gələn

öhdəliklər Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarına bu Sazişlə təmin edilmiş rejimdən daha əlverişli rejim tətbiq etməyə icazə verən istər ümumi, istərsə də xüsusi qayda nəzərdə tutduğu təqdirdə, həmin qayda əlverişli olduğu həcmdə bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

5. Əgər xüsusi olaraq digər qayda razılaşdırılmayıbsa, 3-cü maddədə nəzərdə tutulan rejim bütün Sazişə şamil ediləcəkdir.

Maddə 4

İtkilərə görə kompensasiya

Razılığa gələn bir Tərəfin investorlarının investisiyaları Razılığa gələn digər Tərəfin ərazisində baş vermiş müharibə, yaxud digər silahlı münaqişə, milli fövqəladə vəziyyət və ya buna oxşar digər hadisələr nəticəsində itkilərə məruz qalıbsa, bu investorlara münasibətdə Razılığa gələn həmin Tərəfin öz investorlarına, yaxud hər hansı üçüncü dövlətin investorlarına münasibətdə həyata keçirdiyi tədbirlərdən, hansı daha əlverişlidirsə, az əlverişli olmayan tədbirlər həyata keçiriləcəkdir. Ödənişlər sərbəst dönərli valyutada azad şəkildə köçürülür.

Maddə 5

Ekspropriasiya

1. Razılığa gələn bir Tərəfin investorlarının investisiyaları, digər üsullarla qane edilməsi mümkün olmayan mühüm dövlət tələbatları üçün qanunla müəyyən edilmiş qaydada ayrı-seçkiliyə yol vermədən, təxirəsalınmaz, səmərəli və adekvat kompensasiya həyata keçirilən hallar istisna olmaqla, Razılığa gələn digər Tərəfin dövlət ərazisində ekspropriasiyaya, milliləşdirməyə və ya oxşar təsirə malik olan tədbirlərə (bundan sonra - ekspropriasiya) məruz qalmır.

2. Belə kompensasiya, ekspropriasiya keçirildiyi gündən əvvəl və ya ekspropriasiyanın ictimaiyyətə məlum olduğu gündən əvvəl, hansının daha əvvəl baş verməsindən asılı olaraq, investisiyanın mövcud bazar dəyərinə bərabər olan və ödəniş tarixinə qədər investisiyaların edildiyi valyuta üçün nəzərdə tutulmuş 12 aylıq LİBOR faizindən ibarət olan məbləğdə gecikdirilmədən ödənilir.

3. Ekspropriasiyanı həyata keçirən Razılığa gələn Tərəfin dövlətinin qanununa əsasən, ekspropriasiyaya məruz qalmış investor, Razılığa gələn həmin Tərəfin səlahiyyətli hüquqi və ya digər müstəqil rəsmiləri tərəfindən onun işinə gecikdirilmədən baxılmasını və bu maddədə göstərilən prinsiplərə müvafiq olaraq onun investisiyasının qiymətləndirilməsini tələb etməyə haqlıdır.

Maddə 6

Digər öhdəliklər

Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorları tərəfindən edilmiş investisiyalarla bağlı üzərinə götürdüyü hər hansı digər öhdəliyi yerinə yetirəcəkdir.

Maddə 7

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorlarına, bütün vergi öhdəlikləri və digər məcburi ödənişləri yerinə yetirdikdən sonra, aşağıdakı məbləğləri sərbəst köçürməyə icazə verir, xüsusən də, lakin istisna olmamaqla:

a) kapital və investisiyanın saxlanılmasına və artırılmasına yönəldilmiş əlavə məbləğlər;

b) investisiyalardan gələn gəlirlər;

c) investisiyaların satılması və ya bütövlüklə, yaxud qismən ləğv edilməsindən əldə olunan gəlirlər;

d) investisiyalarla bağlı xərclərin ödənişi üçün tələb olunan məbləğlər: borcların ödənişləri, patent ödənişləri, lisenziya haqları və digər xərclər ilə bağlı ödənişlər;

e) 4-cü və 5-ci maddələrə müvafiq ödənilən kompensasiyalar;

f) Razılığa gələn Tərəfin ərazisində edilmiş investisiyalarla bağlı Razılığa gələn digər Tərəfin dövlətinin vətəndaşlarına görülən iş və xidmətlərə görə onun dövlətinin qanunvericiliyinə müvafiq olaraq ödənilən kompensasiyalar.

2. Əvvəlki bənddə qeyd edilən köçürmələr investorun ölkəsinin valyutasında və ya sərbəst dönərli valyutada gecikdirilmədən ərazisində kapital qoyuluşlarının həyata keçirildiyi Tərəfin valyuta qanunvericiliyinə müvafiq surətdə aparılır.

3. 7-ci maddəyə əsasən bütün köçürmələrə bu Sazişin 3-cü maddəsində nəzərdə tutulan rejim tətbiq edilir.

Maddə 8

Subroqasiya

1. Əgər Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik Razılığa gələn digər Tərəfin ərazisində investisiya qoyuluşu ilə əlaqədar dəymiş ziyana görə zəmanət əsasında ödəniş həyata keçirirsə, Razılığa gələn digər Tərəf müvafiq Tərəfin bütün hüquqlarının və tələblərinin qanunla və ya yerli razılaşma əsasında Razılığa gələn birinci Tərəfə və ya onun təyin edilmiş agentliyinə verilməsini tanıyacaqdır və Razılığa gələn birinci Tərəf və ya onun təyin etdiyi agentlik subroqasiyaya müvafiq olaraq sığortalanmış tərəflə eyni dərəcədə belə hüquqlardan istifadə etmək və belə tələblərlə çıxış etmək hüququna malik olacaqdır.

2. Razılığa gələn Tərəfin və ya onun təyin etdiyi agentliyinin sığortalanmış investorun hüquq və tələblərində subroqasiyası gələcəkdə bu Sazişin 7-ci maddəsində qeyd edilmiş köçürmə hüququna da şamil ediləcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasında Sazişdən irəli gələn mübahisələrin həlli

1. Bu Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar Razılığa gələn Tərəflər arasında yaranan mübahisələr Razılığa gələn həmin Tərəflər arasında mümkün olduqca danışıqlar vasitəsilə həll ediləcəkdir.

2. Əgər Razılığa gələn Tərəflər arasındakı mübahisə danışıqların başlandığı vaxtdan etibarən 6 ay ərzində həll edilməzsə, mübahisə Razılığa gələn Tərəflərdən birinin tələbi ilə baxılmaq üçün arbitraj məhkəməsinə veriləcəkdir.

3. Belə arbitraj məhkəməsi aşağıdakı qaydada hər bir ayrıca işə görə tərtib ediləcəkdir:

arbitraj araşdırması üçün tələbin qəbul edildiyindən 3 ay ərzində Razılığa gələn hər bir Tərəf məhkəmənin bir üzvünü təyin edəcəkdir. Həmin iki üzv sonradan Razılığa gələn hər iki Tərəfin razılığı ilə Məhkəmənin Sədri təyin ediləcək üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Sədr digər iki üzvün təyin edilməsindən sonra 2 ay ərzində təyin ediləcəkdir.

4. Əgər bu maddənin 3-cü bəndində qeyd edilən müddətlərdə lazımi təyinatlar həyata keçirilməzsə, Razılığa gələn Tərəflərdən biri digər razılaşmanın olmadığı təqdirdə hər hansı lazımi təyinatları həyata keçirmək üçün Beynəlxalq Məhkəmənin Sədrini dəvət edəcəkdir. Əgər Sədr Razılığa gələn Tərəflərdən birinin dövlətinin vətəndaşıdırsa və ya o, göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Sədrin müavini lazımi təyinatları həyata keçirmək üçün dəvət olunacaqdır. Əgər Sədrin müavini Razılığa gələn Tərəflərdən birinin dövlətinin vətəndaşıdırsa və ya o da göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Beynəlxalq Məhkəmənin növbədə sonrakı yüksək vəzifəni tutan və Razılığa gələn Tərəflərdən heç birinin dövlətinin vətəndaşı olmayan üzvü lazımi təyinatları həyata keçirmək üçün dəvət olunacaqdır.

5. Arbitraj məhkəməsi öz qərarını bu Sazişin müddəaları, habelə beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsip və qaydaları əsasında qəbul edir. Arbitraj məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edir. Belə qərar Razılığa gələn hər iki Tərəf üçün qəti və məcburi olacaqdır. Məhkəmə öz prosedurunu müəyyən edir.

6. Razılığa gələn hər bir Tərəf məhkəmənin təyin etdiyi üzvünün saxlanılması və arbitraj prosesində özünə aid xərcləri ödəyəcəkdir. Sədrin saxlanılmasına görə və digər xərclər Razılığa gələn Tərəflərlə bərabər hissədə ödəniləcəkdir.

Maddə 10

İnvestisiya mübahisələrinin həlli

1. Razılığa gələn bir Tərəfin investoru ilə Razılığa gələn digər Tərəf arasında sonuncunun investisiya qoyuluşu ilə bağlı bu Saziş əsasında öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar mübahisə mümkün olduqca danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər bu mübahisə onun danışıqlar yolu ilə həll edilməsi haqqında Razılığa gələn Tərəflərdən birinin xahişinin irəli sürüldüyü tarixdən altı ay ərzində həll edilə bilməzsə, maraqları toxunulmuş investor mübahisəni aşağıdakılara verə bilər:

a) mübahisənin tərəfi olan Razılığa gələn Tərəfin müvafiq məhkəməsinə; və ya

b) bunun əvəzində bu Sazişin 4-cü, 5-ci, 6-cı, 7-ci və 8-ci maddələri ilə əlaqədar mübahisənin olduğu halda maraqları toxunulmuş investor öz seçimi ilə mübahisənin arbitraj vasitəsilə baxılması məqsədilə aşağıdakılara təqdim edə bilər:

i) Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCITRAL) Arbitraj Qaydaları əsasında yaradılacaq xüsusi (ad hoc) arbitraj məhkəməsinə; və ya

ii) 18 mart 1965-ci il tarixində Vaşinqtonda imzalanmış Dövlətlər və digər dövlətlərin vətəndaşları arasında investisiya mübahisələri haqqında Konvensiya əsasında yaradılan İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə.

Bu məqsəd üçün Razılığa gələn hər bir Tərəf bununla yuxarıda qeyd edilən beynəlxalq arbitraja öz razılığını bildirir.

Mübahisə yarandığı halda və Tərəflər məhkəmədə və ya arbitraj (münsiflər) məhkəməsində iddia qaldırmaq qərarına gəldiyi təqdirdə, onlar iki orqandan birinə müraciət etdikdə digərinə müraciət etmək hüququnu itirirlər.

3. Qərar mübahisə edən hər iki Tərəf üçün qəti və məcburi olacaq və Razılığa gələn müvafiq Tərəfin dövlət qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Milli məhkəmənin və ya arbitraj məhkəməsinin çıxardığı qərarın tanınması və icra qaydası, ərazisində icra həyata keçiriləcək Razılığa gələn Tərəfin milli prosessual qanunvericiliyinə uyğun müəyyən edilir.

Maddə 11

Məsləhətləşmələr

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə bu Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar bütün məsələlər ətrafında məsləhətləşmələr aparmağı təklif edə bilər. Razılığa gələn digər Tərəf bu məsləhətləşmələrin aparılması üçün lazımi hazırlığı həyata keçirəcəkdir.

Maddə 12

Sazişin tətbiqi

Bu Sazişin müddəaları Razılığa gələn bir Tərəfin investorunun Razılığa gələn digər Tərəfin ərazisində bu Sazişin qüvvəyə minməsindən əvvəl və ya sonra həyata keçirdiyi investisiyalara tətbiq ediləcəkdir, lakin onun qüvvəyə minməsindən əvvəl yaranmış mübahisələrə tətbiq edilməyəcəkdir.

Maddə 13

Dəyişikliklər

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı Protokollarla rəsmiləşdiriləcək və bu Sazişin 14-cü maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 14

Qüvvəyə minmə, qüvvədə olma və ləğvetmə

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri diplomatik

kanallar vasitəsilə Sazişin qüvvəsinin başa çatmasına 1 (bir) il qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə Razılığa gələn digər Tərəfə məlumat verməzsə, avtomatik olaraq növbəti beş il müddətinə qüvvədə qalacaqdır.

3. Bu Sazişin ləğv edilməsi tarixindən əvvəl qoyulmuş investisiyalara münasibətdə 1-12-ci maddələrin müddəaları sonrakı 10 illik müddətində qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş şəxslər bu Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 7 oktyabr 2004-cü il tarixində hər biri Azərbaycan, bolqar və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığının ortaya çıxdığı təqdirdə ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*NİKOLAY VASİLYEV*
İqtisadi inkişaf naziri	*Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri*

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ticarət Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış Ticarət Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№834-IIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ticarət Sazişi

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

ayrı-seçkilik olmadan, bərabərlik və qarşılıqlı maraqların gözlənilməsi əsasında ticarət əlaqələrinin inkişaf etdirilməsi və genişləndirilməsinə dair hər iki Dövlətin arzusunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər arasında məhsulların və xidmətlərin mübadiləsi və bu iki ölkənin fiziki və hüquqi şəxsləri arasında imzalanmış müqavilələr bu Saziş əsasında və Razılığa gələn hər bir Tərəfin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir.

Maddə 2

Bu Saziş əsasında məhsulların üçüncü dövlətə təkrar ixracı sərbəst həyata keçiriləcəkdir, əgər Razılığa gələn Tərəflər arasında onların milli qanunvericiliklərinə uyğun olaraq digər razılıq əldə edilməmişdirsə.

Maddə 3

Razılığa gələn hər bir Tərəf öz milli qanunvericiliyinə müvafiq olaraq Razılığa gələn digər Tərəfə ixrac edilən məhsullar üzrə mənşə və uyğunluq sertifikatlarının verilməsi üçün müvafiq tədbirlər görəcəkdir.

Maddə 4

Malların və xidmətlərin Razılığa gələn Tərəflər arasında mübadiləsi bu Saziş çərçivəsində və Razılığa gələn Tərəflərin əlaqədar qurumlarının razılaşdırdığı standartlara uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 5

Razılığa gələn hər Tərəfin Razılığa gələn digər Tərəfin məhsullardan tutduğu gömrük yığım və vergilərin dərəcəsi üçün ölkənin eyni məhsuluna tətbiq edilən dərəcələrdən yüksək olmayacaqdır.

Lakin, bu Maddənin şərtləri aşağıdakı hallarda tətbiq olunmayacaq:

a) Tərəflərdən birinin öz qonşu ölkələrinə ticarəti və nəqliyyatı asanlaşdırmaq məqsədilə etdiyi və ya edəcəyi güzəşt və azad olunmalara,

b) Razılığa gələn hər Tərəfin azad ticarət zonasının və gömrük ittifaqlarının yaradılmasında iştirakının və yaxud azad ticarət haqqında və ya tamamilə və yaxud qismən vergiqoymaya aidiyyəti olan razılaşmaların nəticəsi kimi milli qanunvericilikdə qəbul edilmiş güzəşt və azad olunmalara.

Maddə 6

Razılığa gələn Tərəflər gələcəkdə qeyri-tarif məhdudiyyətlərinin iki ölkənin əlaqədar icraçı qurumlarının qarşılıqlı razılığı əsasında azaldılması və ləğvi haqqında razılaşmalar imzalayacaqlar.

Maddə 7

Bu Sazişin tətbiqi ilə bağlı bütün beynəlxalq hesablaşmalar Razılığa gələn Tərəflər arasında razılaşdırılmış və Razılığa gələn hər bir Tərəfin milli qanunvericiliyinə uyğun olaraq sərbəst dönərli valyutada həyata keçiriləcəkdir.

Maddə 8

Razılığa gələn hər bir Tərəf öz şirkət və institutlarını Razılığa gələn digər Tərəfin dövlət ərazisində keçirilən beynəlxalq ixtisaslaşdırılmış sərgilərdə iştirak etməyə çağıracaq

və Razılığa gələn digər Tərəfin ticarət şirkətlərini və institutlarını mümkün qədər lazımi avadanlıqla təchiz edəcəkdir.

Maddə 9

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin iş adamlarına və ticarət şirkəti və ya institutlarına öz məhsullarını nümayiş etdirmək üçün aşağıdakı şərtlərlə hər il satış icazə verilən sərgilər və yarmarkalar keçirməyə icazə verməlidir:

sərgilərin keçirilmə müddəti 15 gündən artıq olmamalıdır,

iş adamları və kommersiya şirkətləri və ya institutları sərgi keçirilən ölkənin qanunlarına və qaydalarına riayət etməlidirlər,

nümayiş olunacaq məhsulların həcmi və növü Razılığa gələn Tərəflər arasında müəyyən edilməlidir,

bu maddənin şərtləri Razılığa gələn Tərəflərə satış icazə verilən sərgilər və yarmarkaların keçirilmə tarixləri və müddəti barədə digər razılığa gəlməyə mane olmayacaqdır.

Maddə 10

Razılığa gələn Tərəflər milli qanunvericiliklərinə müvafiq qaydada konsulluq xidmətləri, məsələn, iş adamlarına vizaların verilməsini və ticarət sənədlərinin sertifikatlaşdırılmasını təmin edəcəklər.

Maddə 11

Razılığa gələn Tərəflər arasında malların/məhsulların, xidmətlərin və ticarət məlumatının mübadiləsini sadələşdirmək və inkişaf etdirmək məqsədilə Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə öz dövlətinin ərazisində qəbul edən ölkənin milli qanunvericiliyinə müvafiq olaraq ticarət mərkəzi yaratmağa icazə verəcəkdir.

Maddə 12

Razılığa gələn hər bir Tərəf öz milli qanunvericiliyinə uyğun olaraq dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin şirkətlərinin nümayəndəliklərinin yaradılmasına icazə verəcək və üçüncü ölkənin şirkətinin nümayəndəliklərinə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

Maddə 13

Qarşılıqlı ticarət mübadiləsində balanslaşdırılmış meyllərə nail olmaq məqsədilə qanunvericilik çərçivəsində preferensiyalar nəzərdən keçirilməklə Razılığa gələn hər bir Tərəf öz ticarət ehtiyaclarını imkan dərəcəsində Razılığa gələn digər Tərəfin hesabına ödəyəcəkdir.

Maddə 14

Razılığa gələn Tərəflər Ticarət Palataları arasında yaxın və səmərəli əməkdaşlığı təşviq etmək və zərurət yaranarsa, birgə ticarət palataları yaratmaq, kommersiya nümayəndə heyətlərini mübadilə etmək, bir-birinin məhsulları və bazar şəraiti ilə tanış olmaq məqsədilə xüsusi seminarlar və konfranslar təşkil etmək və bu məqsədlə zəruri vasitələri təmin etmək barədə razılığa gəldilər.

Maddə 15

Razılığa gələn Tərəflər öz fiziki və hüquqi şəxslərini beynəlxalq ticarət metodlarını tətbiq etməyə, ticarət ortaqlıqları/müəssisələri təsis etməyə və uzunmüddətli kommersiya əməkdaşlığı yaratmağa təşviq edəcəklər.

Maddə 16

Müqavilə Tərəfləri iki ölkə arasında sərhədyanı ticarət bazarlarının yaradılması barədə Saziş imzalamaq barədə razılığa gəldilər.

Maddə 17

Razılığa gələn Tərəflərin hər hansı birinin dövlət ərazisindən malların tranzit daşınması Razılığa gələn həmin Tərəfin milli qanunvericiliyinə və Razılığa gələn hər iki Tərəf üçün hüquqi baxımdan məcburi olan beynəlxalq sazişlərin müddəalarına müvafiq olaraq həyata keçiriləcəkdir.

Maddə 18

Razılığa gələn Tərəflər özlərinin Dövlət ərazisində bu Tərəflərin hər hansı birinin vətəndaşlarına milli qanunvericiliyə müvafiq olaraq məhkəmə hakimiyyəti tərəfindən bərabərhüquqlu rejimin təmin edilməsi barədə razılaşdılar.

Maddə 19

Razılığa gələn Tərəflər bərabər sayda nümayəndədən təşkil olunan, ildə və ya yarımildə bir dəfə növbə ilə, Razılığa gələn Tərəflərdən hər hansı birinin müraciəti əsasında, Razılığa gələn digər Tərəfin Dövlət ərazisində iclas keçirəcək Birgə İşçi Qrupu yaradacaqlar.

Birgə İşçi Qrupunun funksiyaları və vəzifələri aşağıdakılar olacaqdır:

1. Sözügedən Sazişin maddələrinin icrasının nəzərdən keçirilməsi.

2. Sözügedən Sazişin fəaliyyətindən irəli gələ bilən çətinliklərin aradan qaldırılması üçün həll yollarının təqdim edilməsi.

3. Qarşılıqlı ticarəti inkişaf etdirmək və diversifikasiya etmək yollarının nəzərdən keçirilməsi və öyrənilməsi, həyata keçirilməli olan müvafiq tövsiyələrin Müqavilə Tərəflərinə təqdim edilməsi.

4. İki ölkə arasında qarşılıqlı iqtisadi və kommersiya münasibətlərinin inkişafı ilə bağlı sənədlərin imzalanmasının nəzərdən keçirilməsi.

Maddə 20

Sözügedən Sazişin maddələrinin şərhi və ya icrası ilə bağlı yarana biləcək bütün məsələ və mübahisələr Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və dostluq danışıqları vasitəsilə həll olunacaqdır.

Sözügedən Saziş çərçivəsində fiziki və hüquqi şəxslər arasında bağlanmış iqtisadi və kommersiya müqavilələrindən yaranan bütün mübahisələr müvafiq müqavilələrin müddət və şərtləri əsasında həll olunacaqdır.

Maddə 21

Bu Sazişin müddəaları milli maraqların, ictimai sağlamlığın qorunması və ya xəstəliklərin, yaxud heyvanların və bitkilərin zərərvericilərinin qarşısının alınması ilə bağlı Razılığa gələn Tərəflərin hər hansı qadağa və ya məhdudiyyət qoymaq haqlarını məhdudlaşdırmayacaqdır.

Maddə 22

1993-cü il 28 oktyabr tarixində müvafiq olaraq 1372-ci il 6 aban tarixində Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında imzalanmış Ticarət Sazişi bu Sazişin qüvvəyə minməsindən sonra qüvvədən düşmüş hesab ediləcəkdir.

Maddə 23

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə bir-birinə göndərdikləri axırıncı yazılı bildirişin alınması tarixindən qüvvəyə minir və beş il müddətində qüvvədə qalacaqdır.

Bu Saziş, Razılığa gələn Tərəflərdən biri Razılığa gələn digər Tərəfi onun qüvvəsinin uzadılmasını istəmədiyi barədə bu müddətin bitməsindən altı ay əvvəl məlumatlandırmayana qədər birillik müddətlərə uzadılacaqdır.

Razılığa gələn Tərəflər arasında digər razılığın olmadığı təqdirdə bu Sazişin bitməsindən sonra onun müddəaları müvafiq qaydada imzalanmış və icra edilən müqavilələrə münasibətdə bir il müddətində qüvvədə qalacaqdır.

Preambula və iyirmi üç maddədən ibarət olaraq Bakı şəhərində, 5 avqust 2004-cü ildə, müvafiq olaraq 15 mordad 1383-cü ildə iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*MÜŞTƏBA XOSROVTAC*
İqtisadi inkişaf naziri	*Ticarət nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№835-IIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

hər iki ölkənin dövlət başçılarının ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə və genişləndirilməsinə xidmət edən siyasətindən irəli gələn tələbləri həyata keçirmək niyyətində olduqlarını bildirərək,

öz ölkələri arasında yaxın qonşuluq və dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq,

qarşılıqlı şəkildə hər iki dövlətin suverenliyinə, ərazi bütövlüyünə hörmət edərək,

çoxəsrlik tarixi və mədəni ənənələrinin mövcudluğunu qeyd edərək,

öz ərazilərində təhlükəsizliyin etibarlı təmin edilməsində həyata keçirilən hüquq mühafizə tədbirlərinin səmərəliliyinin yüksəldilməsində qətiyyətli olduqlarını, transmilli mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorizmə qarşı mübarizədə səylərinin birləşdirilməsinin əhəmiyyətini bəyan edərək,

qarşılıqlı əməkdaşlığın regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına müsbət və konstruktiv təsirini dərk edərək,

bərabərlik və qarşılıqlı fayda əsasında öz ölkələrinin qanunvericiliyini, beynəlxalq hüququn prinsip və normalarını, tərəfdar çıxdıqları beynəlxalq öhdəlikləri rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın sahələri

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:

1) cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması üzrə, o cümlədən terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli növlərinə qarşı mübarizədə;
2) insan həyatına, sağlamlığına, hüquq və azadlığına və ləyaqətinə qarşı cinayətlərlə mübarizədə;
3) narkotik vasitələrin və psixotrop maddələrin, həmçinin onların hazırlanması prosesində istifadə olunan prekursorların qanunsuz dövriyyəsi ilə mübarizədə;
4) aidiyyəti beynəlxalq konvensiyalar, qanunlar və prinsiplər çərçivəsində narkomaniyanın qarşısının alınmasında;
5) saxta pasport, viza və şəxsiyyəti təsdiq edən digər sənədlərin, habelə saxta pulların və ya qiymətli kağızların, yaxud başqa ödəniş sənədlərinin hazırlanmasına və satılmasına qarşı mübarizədə;
6) qarşı Tərəfin qanunlarına əsasən ölkəyə gətirilməsi qadağan olan malların qaçaqmalçılığı ilə mübarizədə;

7) cinayətkar fəaliyyət nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (çirkli pulların yuyulması) qarşı mübarizədə;

8) silahların, döyüş sursatlarının, partlayıcı maddələrin və qurğuların, nüvə və radioaktiv materialların qanunsuz dövriyyəsinə qarşı mübarizədə;

9) qaçaqmalçılığın bütün təzahürləri, habelə incəsənət, tarixi, arxeoloji sərvət olan əşyalara qarşı cinayətkar qəsdlər ilə mübarizədə;

10) insan alverinə, xüsusilə qadın və uşaq alverinə qarşı mübarizədə;

11) İnterpolun hər iki ölkədəki milli mərkəzi büroları arasında əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsində;

12) dövlətlərarası müqaviləyə əsasən cinayət təqibindən gizlənən şəxslərin ekstradisiya olunmasında;

13) kompüter texnikasından, yüksək texnologiyalardan istifadə edilməklə törədilən cinayətlərə qarşı mübarizədə;

14) iki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlığın genişləndirilməsində;

15) iki ölkənin milli təhlükəsizliyinə xələl gətirə biləcək fəaliyyətə qarşı mübarizədə;

16) öz dövlətinin ərazisində digər Tərəfin vətəndaşlarının şəxsi və mülkiyyət hüquqlarının, digər qanuni hüquq və mənafelərinin qorunması istiqamətində.

Maddə 2

Əməkdaşlığın istiqamətləri

Bu Sazişin 1-ci maddəsində göstərilən müddəaların milli qanunvericiliyə uyğun olaraq yerinə yetirilməsi üçün Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

1) mütəşəkkil cinayətkar dəstələrin və şəxslərin aşkar edilməsi və bununla əlaqədar məlumatların qarşı Tərəfə göndərilməsi;

2) transmilli mütəşəkkil cinayətkar dəstələr, onların müxtəlif formaları, qarşısının alınması yolları, habelə hər iki ölkənin və yaxud ölkələrdən birinin milli təhlükəsizliyi əleyhinə olan terrorçu qruplaşmalar barədə informasiya mübadiləsi üzrə;

3) mütəşəkkil cinayətkarlığa, terrorizmə, narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə və bu Sazişdə qeyd olunan bütün təhlükəsizlik sahələrində ikitərəfli əməkdaşlığın inkişafı üçün mütəxəssis və ekspertlərin mübadiləsi üzrə;

4) bu Sazişdə göstərilən cinayətlərə qarşı mübarizə və onların qarşısının alınması ilə əlaqədar qanunlara dair informasiya mübadiləsi üzrə;

5) Tərəflərin istəyi əsasında ayrı-ayrılıqda rəsmi razılaşmalar çərçivəsində hüquq mühafizə orqanları üçün lazımi təlimlərin keçirilməsi üzrə;

6) sərhədlərdə gediş-gəliş sahəsində nəzarət, eləcə də ölkədə beynəlxalq axtarışda olan əcnəbilərə dair informasiya və bu sahələrdə təcrübə mübadiləsi üzrə;

7) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların yeni növləri, o cümlədən narkotik vasitələrin tranzit daşınması üçün istifadə olunan yollar haqqında informasiya mübadiləsi üzrə;

8) narkotik vasitələrin və psixotrop maddələrin aşkar olunmasının yeni üsulları, onların qaçaqmalçılığında istifadə olunan texniki avadanlıq və kinoloq xidmətinin imkanları barədə təcrübə mübadiləsi üzrə;

9) hər iki ölkənin sərhədlərindən qanunsuz keçən və tərəflərdən birinin ərazisində icazəsiz məskunlaşmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin nəzarət sahəsində təcrübə mübadiləsi üzrə;

10) hüquq mühafizə orqanları əməkdaşlarının təlim keçmələri, qabaqcıl iş metodlarının öyrənilməsi sahəsində təcrübə mübadiləsi üzrə;

11) hər iki ölkə vətəndaşlarının qarşı ölkədə törətdikləri cinayət hadisələri və onlara təyin edilmiş cəza növləri barədə informasiya mübadiləsi üzrə;

12) silah, hərbi sursat, partlayıcı, nüvə, radioaktiv, kimyəvi maddələr və həyat üçün təhlükəli olan infeksiya törədicilərinin qanunsuz istehsalı ilə mübarizə sahəsində informasiya və təcrübə mübadiləsi üzrə;

13) cinayətlərin qarşısının alınması sahəsində birgə elmi tədqiqatların keçirilməsi və bu məqsədlə qarşılıqlı ezamiyyətlərin təşkil edilməsi üzrə;

14) hüquq mühafizə fəaliyyəti ilə əlaqədar, elmi tədqiqatların nəticələrinin və nəşr materiallarının mübadiləsi üzrə;

15) sərhədyanı məntəqələrdə hər iki Tərəfin sərhəd xidməti işçilərinin müntəzəm görüşlərinin təşkil edilməsi üzrə.

Bu maddədə qeyd olunan əməkdaşlıq əlaqələri Tərəflərin rəsmi müraciətləri əsasında müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir.

Maddə 3

Sazişin icrasına məsul olan orqanlar

Bu Saziş qüvvəyə mindikdən sonra, Tərəflər onun icrasına məsul olan dövlət orqanı haqqında diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

Maddə 4

Müştərək Komissiya

Tərəflər əməkdaşlığın həyata keçirilməsi, onun yeni istiqamətlərinə dair təkliflərin hazırlanması və ya bu Sazişin mətnində ehtimal olunan dəyişikliklərin edilməsi, o cümlədən qarşılıqlı əlaqələrdə ortaya çıxan fikir ayrılıqları barədə qərar qəbul olunması məqsədilə müştərək komissiya təşkil edirlər.

Sazişin icrasına məsul olan dövlət orqanları müvafiq komissiyanın tərkibini təyin edərək, bu barədə diplomatik kanallar vasitəsilə digər Tərəfi məlumatlandırır.

Komissiyanın üzvləri hər iki tərəfdən bərabər sayda təşkil edilir və onun iclasları ildə bir dəfədən az olmayaraq, alternativ şəkildə Tərəflərin dövlətlərinin ərazisində keçirilir.

Təxirəsalınmaz hallarda Komissiyanın növbədənkənar iclası keçirilə bilər.

Komissiyanın ilk iclası bu Saziş qanuni qüvvəyə mindikdən altı ay sonra keçirilə bilər.

Maddə 5

Sorğuların icrasından imtina etmə

Hər bir Tərəf, onun dövlətinin suverenliyinə, təhlükəsizliyinə, yaxud digər milli mənafelərinə zərər vura bilən, icrası milli qanunvericiliyi ilə ziddiyyət təşkil edən sorğunun icrasından tam və ya qismən imtina edə bilər.

Sorğunun icrasından tam və ya qismən imtina edildiyi halda, imtinanın səbəbi barədə digər Tərəf diplomatik kanallar vasitəsilə məlumatlandırılır.

Maddə 6

Konfidensiallığa riayət edilməsi

Tərəflərin aldığı məlumat və sənədlər konfidensial sayılır və onların məxfiliyi təmin edilir. Alınmış məlumat və sənədlər, yalnız onu təqdim edən Tərəfin müəyyən etdiyi qaydaya uyğun istifadə olunur və onu təqdim edən Tərəfin rəsmi razılığı əsasında üçüncü Tərəfə ötürülə bilər.

Maddə 7

Ziddiyyətlərin aradan qaldırılması yolları

Bu Sazişin müddəalarının təfsirində və onun icrasında Tərəflər arasında yaranan fikir ayrılıqları və ziddiyyətlər diplomatik kanallar və 4-cü maddədə göstərilən müştərək komissiya tərəfindən danışıqlar yolu ilə həll edilir.

Maddə 8

Sazişə əlavə və dəyişikliklərin edilməsi

Tərəflərin razılığı ilə bu Sazişdə dəyişikliklər və əlavələr edilə bilər. Bütün əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi hesab olunan protokollarla rəsmiləşdirilir və 11-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 9

Maliyyə xərcləri

Bu Sazişin müddəalarının yerinə yetirilməsi zamanı yarana biləcək xərclərin məbləği 4-cü maddədə göstərilən müştərək komissiya tərəfindən müəyyən edilərək ödənilməsi təmin olunur.

Maddə 10

Öhdəliklər

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Yekun müddəalar

Bu Saziş, tələb olunan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişdən 30 gün sonra qüvvəyə minir və beş il müddətində qüvvədədir.

Əgər Tərəflərdən biri həmin müddətin bitməsinə altı ay qalmış bu Sazişi ləğv etmək haqqında digər Tərəfə diplomatik kanallar vasitəsilə rəsmi şəkildə bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Sazişin qüvvədə olma müddətinə daxil olan sorğular bu Sazişlə müəyyən olunmuş qaydada icra edilir.

Saziş 11 maddədən ibarət olmaqla Bakı şəhərində 5 avqust 2004-cü ildə (15.05.1383 h c) hər biri iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
RAMİL USUBOV	*ƏBDÜLVAHİD MUSƏVİ LARİ*
Daxili işlər naziri	*Daxili işlər naziri*

"Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" 2004-cü il avqustun 25-də Berlin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№836-IIQ

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası vergi maneələrini aradan qaldırmaq yolu ilə qarşılıqlı iqtisadi əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Sazişin tətbiq edildiyi şəxslər

Bu Saziş Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Sazişin tətbiq edildiyi vergilər

1. Bu Saziş, vergitutma üsulundan və vasitəsindən asılı olmayaraq, Razılığa gələn Dövlət, onun torpaqlarından biri, yaxud onların inzibati ərazi vahidləri tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq olunur.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin məcmu məbləğindən, əmlakın məcmu dəyərindən, yaxud onların ayrı-ayrı hissələrindən, o cümlədən daşınar və daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən mənfəətdən, müəssisələrin ödədikləri əməkhaqqının, yaxud maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Sazişin tətbiq olunduğu hal-hazırda qüvvədə olan vergilərə xüsusilə aşağıdakılar aiddir:

a) Azərbaycan Respublikasında:

hüquqi şəxslərin mənfəət vergisi;

fiziki şəxslərin gəlir vergisi;

əmlak vergisi və

torpaq vergisi

(bundan sonra "Azərbaycan vergiləri" adlanır);

b) Almaniya Federativ Respublikasında:

gəlir vergisi;

korporasiyalardan vergi;

sahibkarlıq fəaliyyətinə görə vergi və

əmlak vergisi

onlara əlavələr də daxil olmaqla

(bundan sonra "Almaniya vergiləri" adlanır).

4. Bu Saziş imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları onların vergi qanunvericiliyində baş verən əhəmiyyətli dəyişikliklər barədə bir-birinə məlumat verəcəklər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna alınmırsa, bu Sazişin məqsədləri üçün:

a) "Azərbaycan Respublikası" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu Azərbaycan Respublikasının ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazisini bildirir;

b) "Almaniya Federativ Respublikası" termini - Almaniya Federativ Respublikasının ərazisini, həmçinin Almaniya Federativ Respublikasının beynəlxalq hüquqa və milli qanunvericiliyə əsasən canlı və cansız təbii resursların kəşfiyyatı, işlənməsi, qorunması, həmçinin onların idarə edilməsi məqsədilə suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi ərazi dənizinə aid olan dəniz dibi, yerin təki, habelə onların üzərindəki su qatını bildirir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Azərbaycan Respublikasını və Almaniya Federativ Respublikasını bildirir;

d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

e) "şirkət" termini - istənilən hüquqi şəxsi, yaxud vergitutma məqsədləri üçün hüquqi şəxs kimi baxılan istənilən hüquq subyektini bildirir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;

g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz, yaxud hava gəmiləri vasitəsilə istənilən daşımaları - dəniz və ya hava gəmisinin yalnız Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismarı halları istisna olmaqla - bildirir;

h) "milli şəxs" termini

aa) Azərbaycan Respublikasına münasibətdə:

Azərbaycan Respublikasının vətəndaşı olan istənilən fiziki şəxsi, həmçinin Azərbaycan Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq təsis edilmiş istənilən hüquqi şəxsi, tərəfdaşlığı, yaxud şəxslərin hər hansı digər birliklərini bildirir;

bb) Almaniya Federativ Respublikasına münasibətdə:

Almaniya Federativ Respublikasının Əsas qanununun nəzərdə tutduğu mənada istənilən almanı, həmçinin Almaniya Federativ Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq təsis edilmiş istənilən hüquqi şəxsi, tərəfdaşlığı, yaxud şəxslərin hər hansı digər birliklərini bildirir;

i) "səlahiyyətli orqanlar" termini:

aa) Azərbaycan Respublikasında - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini bildirir;

bb) Almaniya Federativ Respublikasında - Federal Maliyyə Nazirliyini, yaxud onun öz səlahiyyətlərini verdiyi orqanı bildirir.

Razılığa gələn Dövlət tərəfindən bu Sazişin istənilən vaxt tətbiqi zamanı, kontekstdən başqa mənalar alınmırsa, burada müəyyən edilməyən hər hansı termin Sazişin qüvvədə olduğu dövrdə Sazişin tətbiq olunduğu vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır və həmin Dövlətin vergi qanunvericiliyinə uyğun olan hər hansı bir məna həmin Dövlətin digər qanunlarına müvafiq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Sazişin məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini bu Dövlətin qanunvericiliyi əsasında yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə orqanının yerləşdiyi yerə, yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi, habelə həmin Dövlətin özünü, onun torpaqlarını və onların inzibati ərazi vahidlərini bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə, yaxud orada yerləşən əmlaka münasibətdə həmin Dövlətdə vergiyə cəlb olunan şəxsi əhatə etmir.

2. 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, aşağıdakı müddəalar tətbiq edilir:

a) şəxs, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab olunur. Əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, yalnız daha sıx şəxsi və iqtisadi əlaqələrə malik olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab olunur;

b) əgər şəxsin həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyilsə, yaxud onun Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o, yalnız adətən yaşadığı dövlətin rezidenti hesab olunur;

c) əgər şəxs adətən hər iki Dövlətdə yaşayırsa və ya adətən onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab olunur;

d) əgər şəxs, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər fiziki şəxs olmayan şəxs bu maddənin 1-ci bəndinin müddəalarına görə Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, bu halda o, yalnız faktiki idarəetmə orqanının yerləşdiyi Razılığa gələn Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Sazişin məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" terminə əsasən aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) filial;

c) ofis;

d) fabrik;

e) emalatxana və

f) yataq, neft və ya qaz quyusu, karxana, yaxud təbii ehtiyatların istismar edildiyi hər hansı başqa yer.

3. "Daimi nümayəndəlik" terminə həmçinin tikinti meydançası və ya quraşdırma, yaxud yığma obyekti, habelə bunlarla bağlı nəzarət fəaliyyəti - yalnız onlar on iki aydan artıq müddət ərzində davam etdikdə - daxildir.

4. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

a) müstəsna olaraq müəssisəyə məxsus malların və ya məmulatların yalnız saxlanılması, nümayiş etdirilməsi, yaxud çatdırılması üçün istifadə olunan obyektlər;

b) müəssisəyə məxsus mal, yaxud məmulat ehtiyatlarının yalnız saxlanılması, nümayiş etdirilməsi, yaxud çatdırılması üçün saxlanması;

c) müəssisəyə məxsus mal və ya məmulat ehtiyatlarının yalnız başqa müəssisə tərəfindən emal, yaxud yenidən emal edilməsi məqsədilə saxlanması;

d) daimi sahibkarlıq fəaliyyəti yerinin yalnız müəssisə üçün mal və ya məmulatların satın alınması, yaxud informasiya toplanması məqsədilə saxlanması;

e) daimi sahibkarlıq fəaliyyəti yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli istənilən digər işlərin yerinə yetirilməsi məqsədilə saxlanması;

f) daimi sahibkarlıq fəaliyyəti yerinin a) - e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanılması - bir şərtlə ki, bu kombinasiya nəticəsində yaranan daimi fəaliyyət yerinin məcmu fəaliyyəti hazırlıq, yaxud köməkçi xarakter daşısın.

5. Bu maddənin 7-ci bəndinin şamil edildiyi müstəqil statuslu agent olmayan şəxs müəssisənin adından fəaliyyət göstərirsə və Razılığa gələn Dövlətdə müəssisənin adından müqavilə bağlamaq səlahiyyətləri varsa və adətən, bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarına baxmayaraq, şəxsin müəssisə üçün həyata keçirdiyi istənilən fəaliyyətlə bağlı birinci qeyd olunan Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir (həmin şəxsin 4-cü bənddə nəzərdə tutulmuş fəaliyyətlə məhdudlaşan fəaliyyəti istisna olmaqla, belə ki, həmin fəaliyyətin daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilməsinə baxmayaraq, göstərilən bəndə müvafiq olaraq həmin daimi fəaliyyət yeri daimi nümayəndəlik yaratmır).

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin şamil edildiyi müstəqil statuslu agent olmayan şəxs vasitəsilə təkrar sığorta istisna olmaqla, sığorta mükafat-

larını yığırsa və ya orada mümkün ola bilən riskləri sığorta edirsə, həmin digər Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab ediləcək.

7. Müəssisə Razılığa gələn Dövlətdə broker, komisyon agenti, yaxud müstəqil statuslu digər agent vasitəsilə, sadəcə olaraq, fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilməyəcək, bu şərtlə ki, həmin şəxslər adi kommersiya fəaliyyətləri çərçivəsində fəaliyyət göstərirlər.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud həmin digər Dövlətdə fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun tərəfindən nəzarət olunması faktı bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan əldə olunan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi gəlirlər (kənd və meşə təsərrüfatı müəssisələrindən gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. "Daşınmaz əmlak" termini göstərilən əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənaya malikdir. Bu termin istənilən halda daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq sahələri barədə qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakdan istifadə hüquqlarını, mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişləri əhatə edir; dəniz və hava gəmilərinə daşınmaz əmlak kimi baxılmır.

3. Bu maddənin 1-ci bəndinin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, onun icarəyə, yaxud kirayəyə verilməsindən, həmçinin hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə tətbiq edilir.

4. Bu maddənin 1-ci və 3-cü bəndlərinin müddəaları həmçinin müəssisələrin daşınmaz əmlakdan əldə etdiyi gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəəti yalnız daimi nümayəndəliyə aid edilə bilən hissədə digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 3-cü bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində yerləşən daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəət məbləğinə, əgər o, eyni və ya oxşar şəraitdə eyni və ya oxşar fəaliyyətlə

məşğul olan müstəqil və ayrıca müəssisə olsaydı və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərsəydi, həmin halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti hesablanarkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə, yaxud hər hansı yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin mənfəətinin ümumi məbləğinin onun bölmələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; lakin seçilmiş mənfəətin bölgüsü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5. Yalnız müəssisəsi üçün mal və ya məmulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Bu maddənin əvvəlki bəndlərinin tətbiqi zamanı daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilməlidir, bu şərtlə ki, bu metodun dəyişməsi üçün kifayət qədər əsaslı səbəblər olmasın.

7. Əgər mənfəətə bu Sazişin digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız Razılığa gələn həmin Dövlətdə vergiyə cəlb oluna bilər;

2. Bu maddənin məqsədləri üçün "dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəət" terminə həmçinin:

a) dəniz, yaxud hava gəmilərinin qeyri-müntəzəm olaraq, heyətsiz icarəyə verilməsindən və

b) konteynerlərin (o cümlədən konteynerlərin daşınması üçün treylerlərin və əlaqədar avadanlıqların) istifadəsi, yaxud icarəyə verilməsindən əldə edilən mənfəət məbləğləri aid edilir; əgər belə fəaliyyət növləri dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarına aid edilirsə.

3. Əgər dəniz nəqliyyatı müəssisəsinin faktiki idarəetmə orqanı gəmi göyərtəsində yerləşirsə, bu halda həmin müəssisə, gəminin qeydiyyat limanının yerləşdiyi Razılığa gələn Dövlətdə yerləşən müəssisə yaxud qeydiyyat limanı olmadığı halda, gəmini istismar edən şəxsin rezident olduğu Dövlətdə yerləşən müəssisə hesab edilir.

4. Bu maddənin 1-ci bəndinin müddəaları həmçinin pulda, müştərək müəssisə, yaxud beynəlxalq nəqliyyat agentliyində iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə və ya

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa, yaxud dolayısı ilə iştirak edirlərsə,

və göstərilən hallarda hər iki müəssisənin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər razılaşdırıldıqda, yaxud öhdəlik kimi götürüldükdə, onlardan biri tərəfindən bu şərtlər olmadığı halda əldə edilə bilən, lakin bu şərtlərin olduğuna görə əldə edilməmiş mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq olaraq, vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edib və müvafiq olaraq, vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, əgər bu müəssisələr arasında münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olsaydı, birinci qeyd olunan Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda, digər Dövlət bu mənfəətdən tutulan verginin məbləğində müvafiq düzəlişlər aparmalıdır. Düzəlişlər müəyyən edilərkən bu Sazişin digər müddəaları nəzərə alınmalıdır, zəruri hallarda Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) dividendlərin məcmu məbləğinin 5 faizindən - əgər dividendlərin faktiki sahibi dividendləri ödəyən müəssisənin kapitalının ən azı 25 faizinə və ən azı 150.000 Avro, yaxud onun Azərbaycan manatı ilə müvafiq ekvivalentinə bərabər məbləğdə kapital payına malik olan şirkətdirsə (tərəfdaşlıq istisna olmaqla);

b) dividendlərin məcmu məbləğinin 15 faizindən - bütün digər hallarda. Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb olunmasına aid edilmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini borc tələbləri olmayan, mənfəətdə iştirak etmək hüququ verən səhmlərdən, "juissans" səhmlərindən, yaxud "juissans"

hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən və ya digər hüquqlardan, həmçinin gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb olunan digər korporativ hüquqlardan əldə edilən gəlirləri ifadə edir.

4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi pay iştirakı, həqiqətən də, bu daimi nümayəndəliklə, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, bu halda bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, bu Sazişin 7-ci, yaxud 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə etdiyi halda, digər Dövlət, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən pay iştirakının həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamamilə və ya qismən həmin digər Dövlətdə əldə edilən mənfəət və ya gəlirdən ibarət olduğu halda, vergi tuta bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu faizlər həmçinin yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin məcmu məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddənin 2-ci bəndinin müddəalarına baxmayaraq, aşağıdakı müddəalar tətbiq olunur:

a) Azərbaycan Respublikasında yaranan və Almaniya Federativ Respublikası tərəfindən zəmanət verilmiş ixrac, yaxud birbaşa xarici investisiyalarla bağlı kreditlərə (borclara) münasibətdə ödənilən, yaxud Almaniya Federativ Respublikasının Hökumətinə, Almaniya Federal Bankına, "Kreditanştalt für Videraufbau" ya, Almaniya İnvestisiya və İnkişaf Cəmiyyətinə ödənilən faiz məbləğləri Azərbaycan vergilərindən azad olunur;

b) Almaniya Federativ Respublikasında yaranan və Azərbaycan Respublikasının Hökumətinə, Milli Bankına, yaxud Dövlət Neft Fonduna ödənilən faiz məbləğləri Almaniya vergilərindən azad olunur.

4. Bu maddənin 2-ci bəndinin müddəalarına baxmayaraq, bu maddənin 1-ci bəndində nəzərdə tutulan faizləri əldə edən şəxs onların faktiki sahibidirsə və həmin faizlər sənaye, kommersiya, yaxud elmi avadanlığın kreditlə satışı ilə bağlı ödənilirsə, bu halda həmin faizlər yalnız onları əldə edən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

5. Bu maddədə istifadə olunan "faizlər" termini borcların ipoteka təminatı halları daxil olmaqla, istənilən borc tələbindən olan gəlirləri, o cümlədən dövlətin qiymətli kağızlarından və istiqrazlarından, onlarla bağlı mükafatlar və uduşlu qiymətli kağızlardan uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir.

Vaxtında aparılmayan ödənişlərə görə tətbiq edilən cərimələr bu maddənin məqsədləri üçün "faizlər" sayılmır.

6. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlər ödənilən borc tələbi həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, bu halda bu maddənin 1-4-cü bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda şəraitdən asılı olaraq bu Sazişin 7-ci, yaxud 14-cü maddələrinin müddəaları tətbiq edilir.

7. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin özü, onun torpaqlarından biri, yaxud onların inzibati ərazi vahidlərindən biri, yaxud həmin Dövlətin rezidentidirsə, bu halda faizlər həmin bu Dövlətdə yaranmış hesab olunur. Lakin, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik, yaxud daimi bazanın ehtiyacları ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

8. Əgər faizlərin ödəyicisi və faizlərin faktiki sahibi arasında, yaxud onların hər biri ilə istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, bu halda bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda artıq məbləğ Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq olaraq və bu Sazişin digər müddəaları nəzərə alınmaqla vergiyə cəlb edilə bilər.

Maddə 12

Lisenziya ödənişləri

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən lisenziya ödənişləri həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Belə lisenziya ödənişləri onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər, lakin həmin gəlirlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) bu maddənin 3-cü bəndinin a) yarımbəndində göstərilən lisenziya ödənişlərinin məcmu məbləğinin 10 faizindən;

b) bu maddənin 3-cü bəndinin b) yarımbəndində göstərilən lisenziya ödənişlərinin məcmu məbləğinin 5 faizindən.

3. Bu maddədə istifadə olunan "lisenziya ödənişləri" termini aşağıda göstərilənlərə münasibətdə ödənilən istənilən növ mükafatları bildirir:

a) ədəbiyyat, yaxud incəsənət əsərləri, o cümlədən kinematoqrafiya filmlərinə müəlliflik hüquqlarının istifadəsi, yaxud istifadə hüququnun verilməsinə görə, adların, portretlərin, yaxud analoji şəxsi hüquqların istifadəsi, yaxud istifadə hüquqlarının verilməsinə görə, həmçinin artistlərin, yaxud idmançıların çıxışlarının radio, yaxud televiziya şirkətləri tərəfindən həyata keçirilən yazısına görə;

b) elm əsərlərinə, patentlərə, ticarət nişanlarına, nümunələrə, yaxud modellərə, sxemlərə, məxfi düsturlara, yaxud texnologiyalara dair müəllif hüquqlarının istifadəsinə və ya istifadə hüququnun verilməsinə görə, yaxud sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə.

4. Əgər lisenziya ödənişlərinin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, lisenziya ödənişlərinin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və lisenziya ödənişləri ödənilən hüquq, yaxud əmlak qiymətliləri həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, bu halda bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu Sazişin 7-ci, yaxud 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Əgər lisenziya ödənişlərinin ödəyicisi Razılığa gələn Dövlətin özü, onun torpaqlarından biri, yaxud onların inzibati ərazi vahidlərindən biri, yaxud həmin Dövlətin rezidentidirsə, bu halda lisenziya ödənişləri həmin bu Dövlətdə yaranmış hesab olunur. Lakin lisenziya ödənişlərini ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və lisenziya ödənişlərini ödəmək öhdəliyi həmin daimi nümayəndəlik, yaxud daimi bazanın ehtiyacları ilə bağlı yaranırsa və bu lisenziya ödənişlərinin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, lisenziya ödənişləri bu daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

6. Əgər lisenziya ödənişlərinin ödəyicisi və faktiki sahibi arasında, yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən lisenziya ödənişlərinin ödənilməsinin əsasını təşkil edən xidmətlərin həcminə münasibətdə ödənilən lisenziya ödənişləri məbləğləri, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən lisenziya ödənişinin məbləğindən artıq olarsa, bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda, artıq məbləğ Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq olaraq və bu Sazişin digər müddəaları nəzərə alınmaqla vergiyə cəlb edilə bilər.

Maddə 13

Əmlakın özgəninkiləşdirilməsindən əldə edilən mənfəət

1. Razılığa gələn Dövlətin rezidentinin, Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakının özgəninkiləşdirilməsindən əldə etdiyi mənfəət həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn Dövlətin rezidentinin, aktivləri əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan bilavasitə və ya dolayısı ilə ibarət olan şirkətdəki səhmlərinin və ya digər hüquqlarının özgəninkiləşdirilməsindən əldə etdiyi mənfəət həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin aktivləri olan, yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdəki daimi bazasına aid olan daşınan əmlakın, o cümlədən belə daimi nümayəndəliyin (ayrılıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya belə daimi bazanın özgəninkiləşdirilməsindən əldə edilən mənfəət məbləğləri həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar olunan dəniz, yaxud hava gəmilərinin, yaxud onların istismarı üçün nəzərdə tutulmuş daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə olunan mənfəət yalnız razılığa gələn həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

5. Bu maddənin 1-4-cü bəndlərində qeyd olunmamış əmlakın özgəninkiləşdirilməsindən mənfəət, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidentinin peşəkar xidmətlər göstərməsindən, yaxud müstəqil xarakterli digər fəaliyyətdən əldə etdiyi gəlirlər, əgər həmin şəxsin Razılığa gələn digər Dövlətdə öz fəaliyyətini həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazası yoxdursa, yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər. Əgər şəxs belə bazaya malikdirsə, bu halda gəlirlərin yalnız göstərilən baza ilə bağlı olan hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər. Əgər Razılığa gələn Dövlətin rezidenti olan fiziki şəxs müvafiq vergi ilində başlayan və ya başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq bir müddətdə Razılığa gələn digər Dövlətdə olursa, bu halda həmin şəxs bununla bağlı həmin digər dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya malik olan şəxs hesab edilir; həmin digər Dövlətdə yuxarıda göstərilən fəaliyyətin həyata keçirilməsindən əldə edilən gəlirlər həmin daimi bazaya aid edilə bilər. Bu halda daimi bazaya aid edilən gəlir, bu Sazişin 7-ci maddəsinin sahibkarlıq fəaliyyətindən mənfəətin hesablanması və onun daimi nümayəndəliyə aid edilməsi ilə bağlı prinsiplərinə müvafiq olaraq həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminina əsasən, müstəqil həyata keçirilən elmi, ədəbi, tərbiyəvi, yaxud müəllimlik fəaliyyəti, incəsənət sahəsində müstəqil həyata keçirilən fəaliyyət, habelə həkimlərin, stomatoloqların, vəkillərin, mühəndislərin, arxitektorların və mühasibat sahəsində mütəxəssislərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Muzdlu iş

1. Bu Sazişin 16-19-cu maddələrinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinin aldığı maaş, əməkhaqqı və oxşar mükafatlar, əgər iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Əgər iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı alınan mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 1-ci bəndinin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat aşağıdakı hallarda yalnız birinci qeyd olunan Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) mükafatı alan şəxs müvafiq vergi ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir müddətdə digər Dövlətdə olursa, və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən, yaxud onun adından ödənilirsə, və

c) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi, yaxud daimi bazası tərəfindən çəkilmirsə.

3. Bu maddənin 2-ci bəndinin müddəaları muzdlu işçilərin onların kommersiya icarəsinə verilməsi çərçivəsində işləmələri ilə bağlı ödənilən mükafatlara tətbiq olunmur.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsinin beynəlxalq daşımalarda istismar etdiyi dəniz, yaxud hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işə görə alınan mükafatlar Razılığa gələn həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Nəzarət şuralarının və direktorlar şuralarının üzvlərinə ödənilən mükafatlar

Nəzarət şuralarının və direktorlar şuralarının üzvlərinə ödənilən mükafatlar və Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin nəzarət və ya direktorlar şurasının üzvü kimi aldığı oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. Bu Sazişin 7-ci, 14-cü və 15-ci maddələrinin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə teatr, kino, radio və televiziya artisti və ya musiqiçi kimi ifaçı - artist qismində, həmçinin idmançı kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisinin, yaxud idmançının belə bir şəxs kimi fərdi fəaliyyətində əldə etdiyi gəlirlər incəsənət işçisi, yaxud artistin özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlirlər bu Sazişin 7-ci, 14-cü və 15-ci maddələrinin müddəalarına baxmayaraq, incəsənət işçisinin, yaxud idmançının fəaliyyətini həyata keçirdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. İncəsənət işçiləri, yaxud idmançıların Razılığa gələn Dövlətdə olması tamamilə, yaxud əsasən, Razılığa gələn digər Dövlətin dövlət vəsaitləri hesabına, onun torpaqlarından biri, yaxud onların inzibati ərazi vahidlərindən biri, yaxud həmin digər Dövlətdə ictimai faydalı təşkilat kimi tanınmış qeyri-kommersiya təşkilatı tərəfindən maliyyələşdi-

rilirsə, bu halda, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları onların Razılığa gələn Dövlətdə həyata keçirdikləri fəaliyyətdən əldə etdikləri gəlirlərə tətbiq olunmayacaqdır. Bu halda, gəlir yalnız incəsənət işçisi, yaxud idmançının rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 18

Təqaüdlər, rentalar və oxşar ödənişlər

1. Bu Sazişin 19-cu maddəsinin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdən aldığı təqaüdlər, oxşar mükafatlar, yaxud rentalar yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin, yaxud onun inzibati ərazi vahidlərindən birinin Razılığa gələn digər Dövlətin rezidentinə siyasi təqib nəticəsində dəymiş ziyanın, hərbi əməliyyatların (kompensasiya ödənişləri və müavinətlər də daxil olmaqla), məcburi hərbi, yaxud alternativ mülki xidmətin, cinayətin, peyvəndin, yaxud oxşar hadisələrin qeyri-qanuniliyi, yaxud onların nəticəsində dəymiş ziyanın ödənilməsi məqsədilə ödədiyi dövri, yaxud birdəfəlik mükafatlar, bu maddənin 1-ci bəndinin müddəalarından fərqli olaraq yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb oluna bilər.

3. "Renata" termini adekvat xidmətin əvəzinin ödənilməsini nəzərdə tutan öhdəlik əsasında, təyin edilmiş müddətlərdə, ömür boyu və ya müəyyən edilmiş, yaxud müəyyən edilə bilən vaxt dövründə pul, yaxud maddi qiymətlilər formasında müntəzəm olaraq ödənilən müəyyən edilmiş məbləği bildirir.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət, onun torpaqlarından biri və ya onların inzibati ərazi bölmələrindən biri tərəfindən və ya həmin Dövlətin ictimai-hüquqi statuslu digər hüquqi şəxsi tərəfindən fiziki şəxsin həmin Dövlətə, onun torpaqlarından biri və ya onların inzibati ərazi bölmələrindən birinə və ya ictimai-hüquqi statuslu digər hüquqi şəxsə göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd olmayan maaş, əməkhaqqı və oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

   b) Bununla belə, bu cür mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir, əgər qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və həmçinin:

      aa) həmin Dövlətin milli şəxsidirsə; yaxud

      bb) yalnız qulluq göstərmək məqsədilə həmin Dövlətin rezidenti olmamışdırsa.

2. a) Razılığa gələn Dövlət, onun torpaqlarından biri və ya onların inzibati ərazi bölmələrindən biri və ya həmin Dövlətin ictimai-hüquqi statuslu digər hüquqi şəxsi tərəfindən, yaxud həmin Dövlət, onun torpaqlarından biri və ya onların inzibati ərazi bölmələrindən biri, yaxud həmin Dövlətin ictimai-hüquqi statuslu digər hüquqi şəxsi tərəfindən yaradılmış fond hesabına fiziki şəxsin həmin Dövlətə, onun torpaqlarından biri və ya onların inzibati ərazi bölmələrindən birinə və ya ictimai-hüquqi statuslu digər hüquqi şəxsə göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

   b) fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsi olduğu halda bu təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin, onun torpaqlarından birinin, onların inzibati ərazi bölmələrindən birinin, yaxud ictimai-hüquqi statuslu digər hüquqi şəxsin sahibkarlıq fəaliyyətini həyata keçirilməsi ilə bağlı olan qulluğa görə mükafatlar və təqaüdlərə münasibətdə 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları tətbiq edilir.

4. Bu maddənin 1-ci bəndinin müddəaları müvafiq olaraq Razılığa gələn Dövlətin, onun torpaqlarından birinin, onların inzibati ərazi bölmələrindən birinin texniki yardım proqramı çərçivəsində yalnız həmin Dövlət, torpaq, yaxud inzibati ərazi bölməsi tərəfindən ayrılmış vəsaitlər hesabına Razılığa gələn digər Dövlətin razılığı ilə həmin digər Dövlətə göndərilmiş mütəxəssislərə, yaxud könüllü köməkçilərə ödənilən mükafatlara şamil olunur.

Maddə 20

Müəllimlər və tələbələr

1. Razılığa gələn Dövlətin, yaxud həmin Razılığa gələn Dövlətin universitetinin, ali təhsil müəssisəsinin, məktəbinin, muzeyinin, yaxud digər mədəniyyət təşkilatının dəvəti ilə, yaxud rəsmi mədəniyyət mübadiləsi çərçivəsində göstərilən təşkilatda yalnız müəllimlik fəaliyyətini, mühazirələrin oxunmasını, yaxud tədqiqat fəaliyyətini həyata keçirmək məqsədilə iki ildən artıq olmayaraq Razılığa gələn Dövlətdə olan və Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud gəlməzdən bilavasitə əvvəl rezidenti olmuş fiziki şəxs birinci qeyd olunan Dövlətdə göstərilən fəaliyyətlə bağlı əldə etdiyi mükafatlar üzrə vergitutmadan azad olunur, bir şərtlə ki, bu mükafatlar həmin Dövlətin hüdudlarından kənarda yerləşən mənbələrdən ödənilsin.

2. Razılığa gələn Dövlətə gələrkən Razılığa gələn digər Dövlətin rezidenti olan və ya bilavasitə gəlməzdən əvvəl rezidenti olmuş və birinci qeyd olunan Dövlətdə yalnız tədris və təhsil almaq məqsədilə yaşayan tələbələrin, təcrübə keçən şəxslərin, yaxud təhsil alanların yaşamaq, tədris, yaxud təhsil almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin Dövlətdən kənarda yerləşərsə, belə ödənişlər həmin Dövlətdə vergiyə cəlb olunmur.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Sazişin əvvəlki maddələrində göstərilməyən gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

2. Bu maddənin 1-ci bəndinin müddəaları, daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə - əgər bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olub, Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə və ya həmin digər Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və gəlirin ödənilməsi ilə bağlı olan hüquq, yaxud əmlak qiymətliləri həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlıdırsa - tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, bu Sazişin 7-ci, yaxud 14-cü maddələrinin müddəaları tətbiq edilir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətin rezidentinin kazino və lotereyalardan əldə etdiyi, yaxud digər buna oxşar olan və Razılığa gələn digər Dövlətdə yaranan gəlir növləri həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 22

Əmlak

1. Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinin aktivləri olan daşınar əmlak, yaxud Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil fərdi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazasına aid olan daşınar əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və hava gəmiləri, həmçinin bu dəniz və hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlak yalnız Razılığa gələn həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması

1. Azərbaycan Respublikasına münasibətdə vergilər aşağıdakı qaydada müəyyən edilir:

əgər Azərbaycan Respublikasının rezidenti bu Sazişin müddəalarına əsasən Almaniya Federativ Respublikasında vergiyə cəlb oluna biləcək gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə, bu gəlirə, yaxud əmlaka görə Almaniya Federativ Respublikasında ödədiyi verginin məbləği bu şəxsdən həmin gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında tutulan verginin məbləğindən çıxılacaqdır. Lakin bu cür çıxılma Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq hesablanmış gəlir, yaxud əmlak vergisinin məbləğindən çox olmayacaqdır.

2. Almaniya Federativ Respublikasına münasibətdə vergilər aşağıdakı qaydada müəyyən edilir:

a) Almaniya vergilərinin vergitutma bazasından bu Sazişə müvafiq olaraq Azərbaycan Respublikasında vergiyə cəlb oluna bilən və bu bəndin b) yarımbəndinin əhatə dairəsinə aid olmayan Azərbaycan Respublikasından gəlirlər, həmçinin Azərbaycan Respublikasında yerləşən əmlak qiymətliləri çıxılır.

Dividendlərdən gəlirlərə münasibətdə əvvəlki müddəalar yalnız dividendlərin Azərbaycan Respublikasının rezidenti olan və kapitalının ən azı 10 faizi birbaşa Almaniya şirkətinə məxsus olan şirkət tərəfindən Almaniya Federativ Respublikasının rezidenti olan şirkətə (tərəfdaşlıqdan başqa) ödənildiyi və bu dividendlər onları ödəyən şirkətin mənfəəti müəyyənləşdirilərkən çıxılmadığı halda tətbiq edilir.

Əmlakın vergiyə cəlb olunması məqsədilə Almaniya vergilərinin vergitutma bazasın-

dan həmçinin elə pay iştirakları çıxılır ki, onlar üzrə dividendlər ödənildiyi halda bu yarımbəndin əvvəlki müddəalarına əsasən vergitutma bazasından çıxılmalı idi.

b) Almaniyanın gəlirdən tutulan vergiləri tutularkən xarici vergilərin nəzərə alınması haqqında Almaniya vergi qanunvericiliyinin müddəaları nəzərə alınmaqla, aşağıdakı gəlirlərə münasibətdə bu gəlirlərdən Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Sazişə müvafiq olaraq ödənilmiş Azərbaycan vergiləri nəzərə alınır:

aa) bu bəndin a) yarımbəndinin tətbiq dairəsinə aid olmayan dividendlər;

bb) faizlər;

cc) lisenziya ödənişləri;

dd) bu Sazişin 13-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasında vergiyə cəlb oluna bilən gəlirlər;

ee) bu Sazişin 15-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq Azərbaycan Respublikasında vergiyə cəlb oluna bilən gəlirlər;

ff) nəzarət şuralarının və direktorlar şuralarının üzvlərinə mükafatlar;

gg) bu Sazişin 17-ci maddəsi üzrə gəlirlər.

c) Bu Sazişin 7-ci və 10-cu maddələrində göstərilən gəlirlərə və onların əsasında duran əmlak qiymətlilərinə münasibətdə bu bəndin a) yarımbəndinin müddəaları əvəzinə bu bəndin b) yarımbəndinin müddəaları tətbiq olunur, əgər Almaniya Federativ Respublikasının rezidenti daimi nümayəndəliyin mənfəət əldə etdiyi təsərrüfat (hesabat) ilində, yaxud bu mənfəətin köçürüldüyü Azərbaycan Respublikasının prezidenti olan şirkətin təsərrüfat (hesabat) ilində özünün ümumi gəlirlərini tamamilə, yaxud demək olar ki, tamamilə Almaniya Federativ Respublikasının xarici vergilər haqqında qanununun 8-ci paraqrafının 1-ci bəndinin 1-6-cı nömrələrinin şamil olunduğu fəaliyyət növlərindən əldə etdiyi barədə təsdiqləmə təqdim etmirsə; həmin müddəa daimi nümayəndəliyin ehtiyacları üçün nəzərdə tutulan daşınmaz əmlaka və həmin əmlakdan əldə edilən gəlirlərə (bu Sazişin 6-cı maddəsinin 4-cü bəndi), həmçinin göstərilən daşınmaz əmlakın (bu Sazişin 13-cü maddəsinin 1-ci bəndi) və daimi nümayəndəliyin aktivlərini təşkil edən daşınar əmlakın (bu Sazişin 13-cü maddəsinin 3-cü bəndi) özgəninkiləşdirilməsindən əldə olunan mənfəət məbləğlərinə münasibətdə də tətbiq edilir.

d) Lakin Almaniya Federativ Respublikası Almaniyada tətbiq edilən vergi dərəcəsini müəyyənləşdirərkən Almaniya vergilərindən azad olunmuş gəlir, yaxud əmlak qiymətlilərini nəzərə almaq hüququnu özündə saxlayır.

e) Bu bəndin a) yarımbəndinin müddəalarına baxmayaraq, ikiqat vergitutma bu bəndin b) yarımbəndinə müvafiq olaraq vergi çıxılması yolu ilə aradan qaldırılır:

aa) əgər Razılığa gələn Dövlətlərdə gəlirlər, yaxud əmlak bu Sazişin müxtəlif müddəalarına aid edilirsə və müxtəlif şəxslərə hesablanırsa (bu Sazişin 9-cu maddəsində göstərilən hallar istisna olmaqla) və bu ziddiyyəti bu Sazişin 25-ci maddəsinin 3-cü bəndinin müddəalarına müvafiq prosedurla tənzimləmək olmazsa və bu cür müxtəlif idarəetmə və hesablanma səbəbindən mü-

vafiq gəlirlər və əmlak qiymətliləri vergiyə cəlb oluna bilmirsə, yaxud bu ziddiyyət olmadığı halda cəlb oluna biləcəyi vergidən az vergiyə cəlb olunursa, yaxud

bb) əgər Almaniya Federativ Respublikası məsləhətləşmələrdən sonra diplomatik kanallarla b) yarımbəndinə müvafiq olaraq vergi çıxılması tətbiq etməyi nəzərdə tutduğu digər gəlirlər haqqında bildiriş təqdim edirsə.

Göstərilən gəlirlərə münasibətdə ikiqat vergitutma, bildirişin verildiyi təqvim ilindən sonrakı təqvim ilinin ilk günündən, b) yarımbəndinə müvafiq vergi çıxılması yolu ilə aradan qaldırılır.

Maddə 24

Vergi diskriminasiyasına yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə cəlb olunduğu və ya cəlb oluna biləcəyi vergitutmadan, yaxud bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu şərt, bu Sazişin 1-ci maddəsinin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətlərdən heç birinin rezidenti olmayan şəxslərə də şamil edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, razılığa gələn Dövlətlərdən heç birində müvafiq Dövlətin milli şəxslərinin eyni şəraitdə cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergitutmadan və ya bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin üzərinə yalnız öz rezidentlərinə verdiyi vergidən azad olan məbləğlərin, vergi güzəştlərinin, yaxud çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə verilməsi öhdəliyinin qoyulması kimi təfsir olunmamalıdır.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 8-ci bəndinin, yaxud 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edilmədiyi hallarda, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, lisenziya ödənişləri və digər ödənişlər bu müəssisənin vergiyə cəlb olunan mənfəəti müəyyən edilərkən, birinci qeyd olunan Dövlətin rezidentinə ödənildiyi halda olduğu kimi eyni şərtlər əsasında çıxılmalıdır. Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakı müəyyən edilərkən birinci qeyd olunan Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Razılığa gələn Dövlətin əmlakı tamamilə, yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə, yaxud bir neçə belə şəxsə birbaşa, yaxud dolayısı ilə mənsub olan və ya onların nəzarəti altında olan müəssisəsi birinci qeyd olunan Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergilərdən və ya onlarla bağlı öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan şərtlərlə vergiyə cəlb edilə bilməz.

6. Bu Sazişin 2-ci maddəsinin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən növ və adlı vergilərə şamil edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətin və ya onların hər ikisinin hərəkətləri onun bu Sazişin müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb olunmasına gətirib çıxarır və ya gətirib çıxara bilər, bu halda həmin şəxs, həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrinə xələl gətirmədən, öz işi üzrə ərizəni rezident olduğu Dövlətin, yaxud bu iş 24-cü maddənin 1-ci bəndinin təsiri altına düşürsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına baxılmaq üçün təqdim edə bilər. Ərizə bu Sazişin müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk bildiriş tarixindən etibarən 3 il ərzində təqdim olunmalıdır.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Sazişin müddəalarına uyğun gəlməyən vergitutmanın aradan qaldırılması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışacaqdır. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətlərin daxili qanunvericiliyi ilə təsbit olunmuş hər hansı vaxt məhdudiyyətinə baxmayaraq, həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin təfsiri, yaxud tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri, yaxud şübhələri qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar bu Sazişdə nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu maddənin əvvəlki bəndlərinə müvafiq olaraq razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları Razılığa gələn Dövlət, torpaqlar, yaxud onların inzibati ərazi vahidlərinin adından tutulan istənilən növ və adlı vergilərlə bağlı bu Sazişin və Razılığa gələn Dövlətlərin daxili qanunvericiliyinin, əgər həmin qanunvericilikdə nəzərdə tutulan vergitutma bu Sazişə zidd deyilsə, müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi aparırlar. İnformasiya mübadiləsi bu Sazişin 1-ci və 2-ci maddələri ilə məhdudlaşmır. Razılığa gələn Dövlətin aldığı istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında alınan informasiya kimi məxfi sayılır və yalnız vergilərin hesablanması, yaxud toplanması, məcburi alınması, yaxud cinayət təqibi və ya bu bəndin birinci cümləsində göstərilən vergilərlə bağlı etiraz və şikayətlərlə bağlı qərarların çıxarılması ilə məşğul olan şəxslərə və ya hakimiyyət orqanlarına (məhkəmələr və inzibati orqanlar daxil olmaqla) təqdim edilə bilər. Bu şəxslər, yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlər üçün istifadə edə bilərlər. Onlar bu informasiyanı açıq məhkəmə iclası və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Bu maddənin 1-ci bəndinin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

a) informasiyanın təqdim edilməsi məqsədilə bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

b) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyinə və mövcud inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

c) hər hansı ticarət, sənaye, sahibkarlıq, peşə, yaxud işgüzar sirri, yaxud iş prosesini açа biləcək informasiyanı və ya açılması dövlət siyasətinə (ictimai asayiş) zidd olan informasiyanı təqdim etmək.

Maddə 27

Mənbədə vergilərin tutulması ilə bağlı müddəalar

1. Əgər Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən əldə edilən dividendlərdən, faizlərdən, lisenziya ödənişlərindən, yaxud digər gəlirlərdən vergilər mənbədə tutulma yolu ilə alınırsa, bu halda bu Saziş adı birinci çəkilən Dövlətin öz milli qanunvericiliyində göstərilmiş dərəcə ilə vergi tutması hüququna toxunmur. Tutulan vergi bu Sazişə müvafiq olaraq azaldığı, yaxud tutulmalı olmadığı halda, vergi ödəyicisinin ərizəsinə əsasən qaytarılır.

2. Vergilərin qaytarılması haqqında ərizələr Razılığa gələn Dövlətin milli qanunvericiliyində göstərilmiş müddətin bitməsinədək, yaxud əgər bu müddət dörd ildən azdırsa, dividendlər, faizlər, lisenziya ödənişləri, yaxud digər gəlirlərdən mənbədə tutulan vergilərin hesablandığı təqvim ilindən sonrakı dördüncü ilin bitməsinədək verilir.

3. Gəlirlərin yarandığı Razılığa gələn Dövlət Razılığa gələn digər Dövlətdə rezidentlik haqqında səlahiyyətli orqanın təsdiqləməsini tələb edə bilər.

4. Səlahiyyətli orqanlar qarşılıqlı razılığa əsasən bu maddənin həyata keçirilməsini tənzimləyə və zəruri hallarda bu Sazişdə nəzərdə tutulmuş vergi azaltmalarının, yaxud azadolmaların tətbiq olunması ilə bağlı başqa prosedurlar müəyyən edə bilərlər.

Maddə 28

Sazişin xüsusi hallarda tətbiqi

1. Bu Saziş Razılığa gələn Dövlətin vergitutmadan, yaxud vergilərin ödənilməsindən yayınmanın qarşısını almaqla bağlı milli hüquqi aktlarının tətbiqinə manea yaradan kimi şərh olunmamalıdır.

2. Əgər bu maddənin 1-ci bəndinin müddəaları ikiqat vergitutmaya gətirib çıxarırsa, bu halda səlahiyyətli orqanlar bu Sazişin 25-ci maddəsinin 3-cü bəndinin müddəalarına müvafiq olaraq bu cür ikiqat vergitutmanın aradan qaldırılması metodları ilə bağlı qarşılıqlı məsləhətləşmələrə başlayırlar.

Maddə 29

Diplomatik nümayəndəliklərin əməkdaşları və konsulluq idarələrinin işçiləri

Bu Sazişin heç bir müddəası diplomatik nümayəndəliklərin əməkdaşları və konsulluq idarələrinin işçilərinin beynəlxalq hüququn ümumi normalarına, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 30

Protokol

Əlavə edilən Protokol bu Sazişin ayrılmaz hissəsi sayılır.

Maddə 31

Sazişin qüvvəyə minməsi

1. Bu Saziş ratifikasiya olunmalıdır, ratifikasiya şəhadətnamələrinin mübadiləsi Bakı şəhərində mümkün qədər qısa müddətdə həyata keçiriləcəkdir.

2. Bu Saziş ratifikasiya şəhadətnamələrinin mübadilə olunduğu gün qüvvəyə minəcəkdir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq ediləcəkdir:

a) mənbədə tutulan vergilərə münasibətdə - bu Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixində, yaxud ondan sonra ödənilən məbləğlərə;

b) digər vergilərə münasibətdə - Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixindən başlanan dövr üzrə tutulan vergi məbləğlərinə.

3. Bu Sazişin qüvvəyə minməsi ilə 1981-ci ilin 24 noyabr tarixində imzalanmış Sovet Sosialist Respublikaları İttifaqı ilə Almaniya Federativ Respublikası arasında gəlir və əmlakdan ikiqat vergitutmanın qarşısının alınması haqqında Saziş Azərbaycan Respublikası və Almaniya Federativ Respublikasına münasibətdə qüvvədən düşür:

a) mənbədə tutulan vergilərə münasibətdə - bu Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixində, yaxud ondan sonra ödənilən məbləğlərə;

b) digər vergilərə münasibətdə - Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixindən başlanan dövr üzrə tutulan vergi məbləğlərinə.

Maddə 32

Sazişin qüvvədən düşməsi

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır, lakin Razılığa gələn Dövlətlərdən hər biri bu Sazişin tətbiq edilməsindən 5 təqvim ili keçdikdən sonra istənilən təqvim ilinin iyun ayının 30-dək diplomatik kanallarla yazılı bildiriş göndərməklə, Sazişin qüvvəsini ləğv edə bilər; bu halda Sazişin qüvvəsi ləğv edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsinin bəyan edildiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixində, yaxud ondan sonra ödənilən məbləğlərə;

b) digər vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsinin bəyan edildiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixindən başlanan dövr üzrə tutulan vergi məbləğlərinə.

Müddətlərin hesablanması üçün müəyyənləşdirici gün digər Dövlət tərəfindən qüvvədən düşmə haqda bildirişin alındığı gündür.

Berlin şəhərində 2004-cü il avqust ayının 25-ci günündə Azərbaycan, alman və rus dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Azərbaycan və alman dillərində olan mətnlərin təfsirində ziddiyyət olduqda, rus dilində olan mətnə üstünlük veriləcək.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASI ADINDAN
FƏRHAD ƏLİYEV	*DR. ŞAROT*
İqtisadi inkişaf naziri	*Dövlət katib*

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında 25 avqust 2004-cü il tarixli Sazişin Protokolu

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Sazişin imzalanması ilə bağlı müvafiq qaydada səlahiyyət verilmiş imza edən şəxslər Sazişin tərkib hissəsi sayılan aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. 3, 4, 8, 13, 15 və 22-ci maddələrlə bağlı:

"Faktiki idarəetmə orqanı"nın yerinin müəyyən edilməsində nəzərə alınan şərtlərə həmçinin müəssisənin faktiki idarə edildiyi və ona nəzarət olunan yer aid edilir.

2. 4-cü maddə ilə bağlı:

Tərəfdaşlıq, onun faktiki idarəetmə orqanının yerləşdiyi Razılığa gələn Dövlətin rezidenti hesab olunur.

3. 5-ci maddənin 5-ci bəndi ilə bağlı:

Razılığa gələn Dövlətdə müəssisə üçün öhdəlik yaratmaqla, müqavilənin bütün elementlərini və təfsilatlarını razılaşdırmaq səlahiyyətləri olan şəxs, hətta müqavilə digər şəxs tərəfindən müəssisənin yerləşdiyi Razılığa gələn digər Dövlətdə imzalansa belə, birinci qeyd olunan Dövlətdə öz səlahiyyətlərindən istifadə edən hesab edilə bilər.

4. 7-ci maddə ilə bağlı:

a) Əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə mal, yaxud məmulat satırsa, yaxud kommersiya fəaliyyətini həyata keçirirsə, bu halda həmin daimi nümayəndəliyin mənfəətinin məbləği müəssisənin bundan əldə etdiyi məcmu məbləğin əsasında deyil, yalnız daimi nümayəndəliyin faktiki satış, yaxud kommersiya fəaliyyətinə aid edilə bilən məbləğin əsasında hesablanır.

b) Əgər müəssisə Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyə malikdirsə, bu halda bu daimi nümayəndəliyin müqavilələrlə, xüsusilə sənaye, kommersiya, yaxud elmi avadanlığın və ya obyektlərin layihələşdirilməsi, təchizatı, montajı,

yaxud tikintisi ilə bağlı müqavilələrlə, yaxud dövlət sifarişləri ilə bağlı mənfəətinin məbləği müqavilənin ümumi qiyməti əsasında deyil, həmin müqavilənin faktiki olaraq daimi nümayəndəlik tərəfindən həmin daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə həyata keçirilən hissəsi əsasında hesablanır. Daimi nümayəndəliyin mallarla təchizatından əldə olunan mənfəət məbləğləri, yaxud müqavilənin müəssisəsinin baş bölməsinin yerləşdiyi Razılığa gələn Dövlətdə icra olunan hissəsi ilə bağlı əldə edilən mənfəət məbləğləri yalnız həmin Dövlətdə vergiyə cəlb oluna bilər.

c) Texniki xidmətlərə, o cümlədən analitik işlərə, yaxud elmi, geoloji, yaxud texniki xarakterli layihələrə, quraşdırma müqavilələrinə, həmçinin onlara aid çertyojlara, yaxud məsləhət və ya nəzarət (monitorinq) fəaliyyətinə görə alman mükafatlar bu Sazişin 7-ci, yaxud 14-cü maddələrinin tətbiq edildiyi mükafatlar hesab edilir.

5. 10-cu maddənin 3-cü bəndi ilə bağlı:

"Dividendlər" termini həmçinin mənfəəti bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə əsasən vergilərə münasibətdə səhmlərdən gəlirlərə bərabər tutulan digər gəlirləri, habelə paylı investisiya fondunun sertifikatları üzrə bölüşdürülən mənfəət məbləğlərini nəzərdə tutur.

6. 10-cu və 11-ci maddələrlə bağlı:

Sazişin 10-cu və 11-ci maddələrinin müddəalarına baxmayaraq, Almaniya Federativ Respublikasında yaranan dividendlər və faizlər Almaniya qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb oluna bilər, əgər onlar:

a) mənfəətdə iştirakı nəzərdə tutan hüquqlara, yaxud borc tələblərinə əsaslanırsa, o cümlədən naməlum iştirakçının özünün naməlum iştirakçı kimi pay iştirakından əldə etdiyi gəlirlər, mənfəətdə iştirak hüququ verən kreditlərdən (borclardan) gəlirlər, həmçinin Almaniya Federativ Respublikasının qanunvericiliyinin nəzərdə tutduğu mənada mənfəətdə iştirak hüququ verən istiqrazlardan gəlirlər, və

b) dividend, yaxud faiz məbləğlərinin ödəyicilərinin mənfəəti hesablanarkən çıxılmalıdırlarsa.

7. 19-cu maddə ilə bağlı:

19-cu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları müvafiq olaraq Höte adına İnstitut, yaxud Almaniya Federativ Respublikasının Almaniya akademik mübadilələr xidməti tərəfindən, yaxud onların adından ödənilən mükafatlara şamil olunur. Səlahiyyətli orqanlar qarşılıqlı razılaşma yolu ilə Razılığa gələn Dövlətlərin digər oxşar təşkilatlarının mükafatlarına müvafiq yanaşmaların tətbiqini razılaşdıra bilərlər. Əgər göstərilən mükafatlar təşkilatın təsisçisi olan Dövlətdə vergiyə cəlb edilmirsə, bu halda bu Sazişin 15-ci maddəsinin müddəaları tətbiq edilir.

8. 26-cı maddə ilə bağlı:

Əgər milli qanunvericiliyə müvafiq olaraq Sazişə əsasən fiziki şəxslə bağlı məlumatlar verilirsə, bu halda Razılığa gələn hər bir Dövlətin hüquqi aktları nəzərə alınmaqla aşağıdakı müddəalar tətbiq olunur:

a) məlumatların onları alan təşkilat tərəfindən yalnız göstərilən məqsədlərlə və onları təqdim edən təşkilatın göstərdiyi şərtlərə müvafiq olaraq istifadəsinə yol verilir;

b) məlumatları alan təşkilat onları təqdim edən təşkilatın xahişi əsasında ona təqdim edilmiş məlumatların istifadəsi və onların köməyi ilə əldə edilmiş nəticələr barədə məlumat verir;

c) fiziki şəxslərə aid məlumatlar yalnız səlahiyyətli təşkilatlara verilə bilər. Onların digər təşkilatlara sonrakı ötürülməsi yalnız məlumatları təqdim etmiş təşkilatın ilkin razılığı ilə həyata keçirilə bilər;

d) məlumatları təqdim edən təşkilat təqdim olunan məlumatların doğruluğuna, həmçinin onların zəruriliyinə və məlumatların verilməsinin məqsədlərinə adekvat olub-olmamasına nəzarət etməlidir. Bu halda məlumatların verilməsi ilə bağlı milli qanunvericilik çərçivəsində mövcud qadağaları nəzərə almaq lazımdır. Əgər məlum olsa ki, doğru olmayan, yaxud təqdim edilməli olmayan məlumatlar təqdim edilmişdir, bu halda dərhal məlumatları alan təşkilatı xəbərdar etmək lazımdır. Həmin təşkilat məlumatların düzəldilməsini, yaxud məhv edilməsini həyata keçirməlidir;

e) maraqlı şəxsin ərizəsinə əsasən həmin şəxsə onunla bağlı məlumatların təqdim edilməsi, həmçinin onların nəzərdə tutulan istifadə məqsədləri barədə arayış verilir. Əgər təhlil, arayışı verməkdən imtina ilə bağlı dövlət marağının həmin şəxsin arayışı almaq marağından üstün olduğunu göstərirsə bu halda arayışın verilməsi məcburi deyildir. Bütün digər məsələlər üzrə maraqlı şəxsin özü haqqında olan informasiya barədə arayış almaq hüququ ərazisində arayış istənilən Razılığa gələn Dövlətin milli qanunvericiliyi ilə tənzimlənir;

f) əgər şəxsə Saziş üzrə məlumat mübadiləsi çərçivəsində məlumatların verilməsi nəticəsində qeyri-qanuni ziyan dəyirsə, həmin şəxs qarşısında məsuliyyəti özünün milli qanunvericiliyinə müvafiq olaraq məlumatları alan təşkilat daşıyır. Həmin təşkilat ziyan dəymiş şəxsə münasibətdə bəhanə kimi ziyanın məlumatı verən təşkilat tərəfindən vurulduğunu iddia edə bilməz;

g) əgər məlumatları təqdim edən təşkilatın əməl etdiyi milli qanunvericilik fiziki şəxslərlə bağlı təqdim edilmiş məlumatların məhv edilməsinin xüsusi qaydalarını nəzərdə tutursa, bu halda, məlumatları təqdim edən təşkilat onları alan təşkilatı bu barədə xəbərdar edir. Bu qanunvericilikdən asılı olmayaraq, fiziki şəxslər barəsində təqdim edilmiş məlumatlar; əgər onlar təqdim edildikləri məqsədlər üçün daha tələb olunmurlarsa, məhv edilməlidir;

h) məlumatları təqdim edən və onları alan təşkilatlar fiziki şəxslərlə bağlı məlumatların verilməsini və qəbul edilməsini sənədli qaydada qeydiyyata salmalıdırlar;

i) məlumatları təqdim edən və onları alan təşkilatlar fiziki şəxslərlə bağlı verilmiş məlumatları onların əldə edilməsindən, dəyişdirilməsindən və buna hüququ olmayan şəxslər tərəfindən açıqlanmasından effektiv qorumağa borcludurlar.

"Çexiya Respublikasının, Estoniya Respublikasının, Kipr Respublikasının, Macarıstan Respublikasının, Latviya Respublikasının, Litva Respublikasının, Malta Respublikasının, Polşa Respublikasının, Sloveniya Respublikasının və Slovakiya Respublikasının Avropa İttifaqına qoşulmasını nəzərə alaraq, bir tərəfdən Azərbaycan Respublikası və digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlığı təsis edən tərəfdaşlıq və əməkdaşlıq Sazişinin" Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Çexiya Respublikasının, Estoniya Respublikasının, Kipr Respublikasının, Macarıstan Respublikasının, Latviya Respublikasının, Litva Respublikasının, Malta Respublikasının, Polşa Respublikasının, Sloveniya Respublikasının və Slovakiya Respublikasının Avropa İttifaqına qoşulmasını nəzərə alaraq, bir tərəfdən Azərbaycan Respublikası və digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlığı təsis edən tərəfdaşlıq və əməkdaşlıq Sazişinin" Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№837-IIQ

"Çexiya Respublikasının, Estoniya Respublikasının, Kipr Respublikasının, Macarıstan Respublikasının, Latviya Respublikasının, Litva Respublikasının, Malta Respublikasının, Polşa Respublikasının, Sloveniya Respublikasının və Slovakiya Respublikasının Avropa İttifaqına qoşulmasını nəzərə alaraq, bir tərəfdən Azərbaycan Respublikası və digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlığı təsis edən tərəfdaşlıq və əməkdaşlıq Sazişinin" Protokolu

Azərbaycan Respublikası bir tərəfdən və bundan sonra "Üzv Dövlətlər" kimi istinad olunacaq və Avropa İttifaqının Şurası tərəfindən təmsil ediləcək Belçika Krallığı, Çexiya Respublikası, Danimarka Krallığı, Almaniya Federativ Respublikası, Estoniya Respublikası, Yunanıstan Respublikası, İspaniya Krallığı, Fransa Respublikası, İrlandiya, İtaliya Respublikası, Kipr Respublikası, Latviya Respublikası, Litva Respublikası, Lüksemburq Böyük Hersoqluğu, Macarıstan Respublikası, Malta Respublikası, Niderland Krallığı, Avstriya Respublikası, Polşa Respublikası, Portuqaliya Respublikası, Sloveniya Respublikası, Slovakiya Respublikası, Finlandiya Respublikası, İsveç Krallığı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və bundan sonra "Birlik" kimi istinad ediləcək və Avropa İttifaqının Şurası və Avropa Komissiyası tərəfindən təmsil olunacaq. Avropa Birliyi və Avropa Atom Enerjisi Birliyi digər tərəfdən,

Çexiya Respublikası, Estoniya, Kipr, Latviya, Litva, Macarıstan, Malta, Polşa, Sloveniya və Slovakiyanın 1 may 2004-cü il tarixində Avropa İttifaqına qoşulması ilə əlaqədar olaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Çexiya Respublikası, Estoniya, Kipr, Latviya, Litva, Macarıstan, Malta, Polşa, Sloveniya və Slovakiya bir tərəfdən və Azərbaycan Respublikası digər tərəfdən Avropa Birliyi və onun Üzvü olan Dövlətlər arasında tərəfdaşlığı təsis edən, 22 aprel 1996-cı il tarixində Lüksemburqda imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin (bundan sonra "Saziş") Tərəfləri olmalı və Birliyin digər Üzv Dövlətləri kimi onlar da Sazişin mətnlərini və ona əlavə olunmuş sənədləri müvafiq olaraq qəbul etməli və nəzərə almalıdırlar.

Maddə 2

Avropa İttifaqı daxilindəki yeni təşkilati inkişafı nəzərə alaraq, Tərəflər razılaşırlar ki, Avropa Kömür və Polad Birliyini təsis edən Müqavilənin müddətinin başa çatmasından sonra, Sazişin Avropa Kömür və Polad Birliyinə aid olan müddəaları Avropa Kömür və Polad Birliyinin bütün hüquq və öhdəliklərini öz üzərinə götürmüş Avropa Birliyinə aid ediləcəkdir.

Maddə 3

Bu Protokol Sazişin tərkib hissəsini təşkil edəcəkdir.

Maddə 4

1. Bu Protokol Azərbaycan Respublikası tərəfindən və Üzv Dövlətlər adından Birlik və Avropa İttifaqının Şurası tərəfindən onların öz prosedurlarına müvafiq olaraq təsdiq ediləcəkdir.

2. Tərəflər əvvəlki bənddə göstərilmiş müvafiq prosedurların yekunlaşması haqqında bir-birlərini məlumatlandırmalıdırlar. Təsdiqetmə haqqında sənəd Avropa İttifaqı Şurasının Baş Katibliyinə depozitə veriləcəkdir.

Maddə 5

1. Bu Protokol 2003-cü il tarixli Qoşulma haqqında Müqavilə ilə eyni gündə o halda qüvvəyə minəcəkdir ki, bu Protokolun təsdiqi haqqında bütün sənədlər həmin tarixdən əvvəl depozitariyə təqdim edilmiş olsun.

2. Əgər bu Protokolun bütün təsdiqləmə sənədləri bu tarixdən qabaq depozitariyə təqdim olunmazsa, bu Protokol sonuncu təsdiqləmə sənədinin depozitariyə təqdim olunduğu tarixdən sonrakı birinci ayın birinci günü qüvvəyə minir.

3. Əgər bu Protokolun bütün təsdiqləmə sənədləri 1 may 2004-cü il tarixindən əvvəl depozitariyə təqdim olunmazsa, bu Protokol 1 may 2004-cü il tarixindən etibarən müvəqqəti olaraq qüvvəyə minəcəkdir.

Maddə 6

Sazişin mətnləri, Yekun Akt və ona əlavə olunan bütün sənədlər çex, eston, macar, latış, Litva, Malta, polyak, sloven və slovak dillərində tərtib edilmişdir.

Həmin mətnlər bu Protokola əlavə edilir və Sazişin, Yekun Aktının və onlara əlavə edilmiş sənədlərin başqa dillərdə olan mətnləri ilə eyni qüvvəyə malikdir.

Maddə 7

Bu Protokol iki nüsxədə Azərbaycan, çex, Danimarka, holland, ingilis, eston, fin, fransız, alman, yunan, macar, italyan, latış, Litva, Malta, polyak, portuqal, sloven, slovak, ispan, İsveç dillərində tərtib edilmişdir. Bütün mətnlər eyni qüvvəyə malikdir.

"Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 26-da Brüssel şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№838-IIQ

Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının eni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş

Bu Saziş bir tərəfdən:

bundan sonra "Hökumət" adlandırılacaq, Azərbaycan Hökumətini bu Sazişi imzalamaq üçün təmsil edən Azərbaycan Respublikasının Avropa Birliyi yanında Nümayəndəsi Səfir cənab Məmmədov Arif Zahid oğlu,

digər tərəfdən: bundan sonra "İNTAS" adlandırılacaq, Belçika qanunlarına müvafiq olaraq yaradılmış qeyri-kommersiya və avenue des ARTS 58, B-1000, Brüssel, Belçika ünvanında qeydiyyata alınmış (qeydiyyat nömrəsi 21247/93) İNTAS-Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən (UMD) olan alimlərlə əməkdaşlığa yardım üzrə Beynəlxalq Assosiasiyasını bu Sazişi imzalamaq üçün təmsil edən İNTAS-ın İcraçı Katibi cənab Alain Gerard arasında bağlanılır.

"Hökumət" və "İNTAS" bundan sonra "Tərəflər" adlandırılacaq,

Tərəflər Azərbaycan elm cəmiyyəti ilə Beynəlxalq elm cəmiyyəti arasında elmi əməkdaşlığın, həmçinin Azərbaycan Respublikasında iqtisadi, sosial inkişafın və demokratiyanın möhkəmləndirilməsinin zəruri tərkib hissəsi olan elmi tədqiqat fəaliyyətlərinin daha da artırılmasına yardım göstərilməsi faktını nəzərə alaraq,

İNTAS tərəfindən öz Əsasnaməsinə müvafiq olaraq heç bir kommersiya məqsədi olmadan Azərbaycan Respublikası ilə İNTAS üzvü olan Dövlətlərin elm cəmiyyətləri arasın-

da beynəlxalq əməkdaşlığa yardım edilməsini və bu məqsədlə İNTAS tərəfindən İNTAS üzvü olan Dövlətlərin və Azərbaycan Respublikasının elmi tədqiqat müəssisələrinə və/və ya alimlərinə (i) Azərbaycan Respublikası və İNTAS üzvü olan Dövlətlərin elmi tədqiqat qruplarının birgə yerinə yetirdiyi elmi tədqiqat işlərinin maliyyələşdirilməsi, (ii) alim və mütəxəssislərə elmi tədqiqat təqaüdlərinin təqdim edilməsi, (iii) elmi simpoziumların və seminarların təşkilinin dəstəklənməsi, (iv) eləcə də elmi şəbəkələrin yaradılmasının dəstəklənməsi, (v) bundan sonra "İNTAS Fəaliyyətləri" adlandırılacaq İNTAS məqsədlərinə nail olmaq üçün zəruri olan digər fəaliyyətlərin dəstəklənməsi üçün qrant şəklində təchiz edilən maliyyə yardımı edilməsi faktını nəzərə alaraq,

qarşılıqlı fayda verəcək beynəlxalq əməkdaşlığa yardım üçün əlaqələrin gücləndirilməsi məqsədilə əməkdaşlıq haqqında Sazişin icrasının və İNTAS tərəfindən göstərilən maliyyə yardımlarından daha səmərəli istifadənin beynəlxalq əməkdaşlığın inkişafına daha da kömək edəcəyi və zəmanət verəcəyi faktını nəzərə alaraq,

Azərbaycanın elmi tədqiqat müəssisələrinin və/və ya fərdi alimlərinin əldə etdikləri nağd qrant, həmçinin elmi tədqiqat məqsədləri üçün tutulan, vaxtaşırı Azərbaycana qrant hesabına idxal edilən elmi-texniki avadanlığın hər

cür vergi, gömrük və başqa rüsumlardan azad olunmasının vacibliyi faktını nəzərə alaraq,

Hökumətin Azərbaycan alimlərinin və elmi tədqiqat müəssisələrinin cəlb edildiyi İNTAS fəaliyyətlərinə kömək etmək arzusunda olduğunu və buna görə də hər bir halda İNTAS Fəaliyyətlərinin hər bir ayrıca halda bütün vergilərdən azad olmasını təmin etmək üçün zəruri addımlar atılması vacibliyi faktını nəzərə alaraq,

aşağıda göstərilənlər üzrə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlıq sahəsi

1. Beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsinə kömək məqsədilə Tərəflər Azərbaycan Respublikasının, digər Yeni Müstəqil Dövlətlərin və İNTAS üzvü olan, hazırda Avropa ictimaiyyətini təşkil edən Avstriya, Belçika, Bolqarıstan, Çexiya Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, İsrail, Latviya, Litva, Lüksemburq, Malta, Niderland, Norveç, Polşa, Portuqaliya, Kipr Respublikası, Rumıniya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Böyük Britaniya Birləşmiş Krallığı və Türkiyənin elm cəmiyyətləri arasında elmi əməkdaşlığın gücləndirilməsini dəstəkləyəcəklər.

2. İNTAS mütəmadi olaraq birgə elmi tədqiqat və şəbəkə layihə təklifləri çağırışları üzrə təşəbbüs göstərir. Bu təkliflər müstəqil ekspertlər tərəfindən baxıldıqdan və İNTAS tərəfindən seçildikdən sonra qrant şəklində maliyyə dəstəyi alacaq.

3. Hökumət İNTAS Fəaliyyətlərini Beynəlxalq elmi əməkdaşlığa yardım edilməsində mühüm addım sayır və İNTAS fəaliyyətlərini dəstəkləməyi və Azərbaycan elm cəmiyyətini bu fəaliyyətlər haqqında bu Sazişin Maddə 4-də göstərilən qaydalarına müvafiq olaraq məlumatlandırmağı öz üzərinə götürür.

4. İNTAS Hökumətin elm və texnologiya siyasətinin üstünlüklərini nəzərə almağı öz üzərinə götürür.

Maddə 2

Birgə fəaliyyət

Birgə fəaliyyət aşağıdakı formaları özündə əks etdirə bilər:

Azərbaycan Respublikası və İNTAS üzvü olan ölkələrin alim və təqaüdçülərinin cəlb olunduğu İNTAS layihələrinin dəstəklənməsi;

birgə seminarların, simpoziumların və digər elmi yığıncaqların keçirilməsinin dəstəklənməsi;

qarşılıqlı razılaşma yolu ilə digər birgə fəaliyyətlər.

Tərəflər İNTAS-ın təqdim etdiyi layihə təkliflərinin qiymətləndirilməsində Azərbaycan alim ekspertlərinin iştirakına kömək göstərəcəkdirlər. Bundan əlavə, Tərəflər bu əməkdaşlığa başlamağa maraq göstərən, bu cür birgə fəaliyyəti planlaşdıran və İNTAS-ın təqdim etdiyi layihələrdə tərəfdaş olan Azərbaycan alimlərini həvəsləndirməyə razıdırlar.

Maddə 3

Əməkdaşlığın şərtləri

Həyata keçirilən birgə fəaliyyət (i) yüksək elmi standartlara malik olmalı və elmin inkişafı üçün yararlı olmalıdır, (ii) elmi nöqteyi-nəzərdən mühüm olmalı və elmi əməkdaşlığa kömək etməlidir, (iii) qarşılıqlı maraqlar əsasında icra olunmalıdır.

Maddə 4

Əməkdaşlığın icra qaydaları

1. Bu Sazişin məqsədlərinə müvafiq olaraq, Əlaqələndirici Şəxs Azərbaycan Respublikasının Hökuməti tərəfindən təyin olunacaqdır. Hökumət bu şəxsin təyin olunması barəsində İNTAS-ı yazılı şəkildə məlumatlandırmalıdır.

Bu Əlaqələndirici Şəxs İNTAS-ın Azərbaycandakı Fəaliyyətlərini dəstəkləyəcəkdir.

2. Azərbaycan elmi ictimaiyyətinin İNTAS Fəaliyyətlərində iştirakını asanlaşdırmaq üçün İNTAS Əlaqələndirici Şəxs vasitəsilə Hökuməti öz fəaliyyətləri haqqında məlumatlandırmağı öz üzərinə götürür. Hökumət də öz tərəfindən Əlaqələndirici Şəxs vasitəsilə Azərbaycanın elmi ictimaiyyətinə İNTAS-ın fəaliyyəti haqqında məlumatın verilməsini öhdəsinə götürür. Tərəflər bir-birini müvafiq məlumat materialları ilə təmin etməli və bu Sazişin həyata keçirilməsi üçün bir-birinə tələb olunan müvafiq təminat və köməyi göstərməlidirlər.

3. Ümumiyyətlə, bu Sazişin hər iki Tərəfinin təşviq etdiyi elmi əməkdaş-lığa yararlı ola bilən istənilən məlumat barəsində, məsələn, mümkün gələcək birgə fəaliyyətlər haqqında İNTAS Azərbaycan Hökumətini, Azərbaycan Hökuməti isə İNTAS-ı məlumatlandırmağı öz üzərinə götürür.

4. Hökumət bu Sazişə müvafiq olaraq göstərdiyi dəstəyə Tərəflərin ümumi məqsədlərinə göstərilən kömək kimi baxır və İNTAS-ı Əlaqələndirici Şəxs tərəfindən göstərilən hər hansı dəstək ilə təəhhüdləndirməyəcəkdir.

Maddə 5

Avadanlıq üçün qrant

İNTAS-ın Azərbaycanda fəaliyyətinə lazımi kömək məqsədilə:

1. Hökumət zəmanət verir ki, Azərbaycanda İNTAS qrantı ilə təltif olunmuş hər bir fiziki və hüquqi şəxs Azərbaycanda tətbiq edildiyi kimi:

İNTAS-dan aldıqları qrantdan sosial təminat fonduna ayırmalar, tutulmalar, məcburi rüsumlardan və bu ödənişlərə mütənasib olan digər ödəmələrdən və

İNTAS-dan aldıqları qrantdan əlavə gəlir vergisi və sahibkarlıq fəaliyyəti vergisindən və ya bu vergilərə mütənasib olan digər xərclərdən azad olunurlar.

2. Hökumət İNTAS Fəaliyyətlərini həyata keçirmək üçün Azərbaycana idxal olunmalı olan hər hansı elmi-texniki avadanlığın və/və ya tələbat mallarının alınması üçün nəzərdə tutulan İNTAS-ın təqdim etdiyi qrantla təltif olunan hər bir fiziki və hüquqi şəxsi bu malların idxalı üçün nəzərdə tutulan əlavə dəyər vergisindən, gömrük rüsumlarından, aksiz vergisindən və digər rüsumlardan azad ediləcəyini öz üzərinə götürür.

Hökumət Azərbaycana idxal edilən avadanlığın hər bir vaxt keçid məntəqələrindən dərhal buraxılacağına və yuxarıda göstərilən bütün vergilər, rüsumlar və ya digər xərclərin həll olunması üzrə aidiyyəti olmayan digər mübahisələrdən dərhal azad olunacağına zəmanət verir. Hökumət eyni qaydada yuxarıda qeyd olunan vergilərdən, rüsumlardan və ya digər xərclərdən azad olunma hallarında yaranan mübahisələrin istənilən xarakterli saxlanılma xərclərinin son ünvan sahibi tərəfindən ödənilməsinə və idxal zamanı keçid məntəqələrində heç bir saxlanılmalar olmamasına zəmanət verməklə məsuliyyəti öz üzərinə götürür.

3. Hökumət tələb olunduğu təqdirdə, yuxarıda qeyd olunan avadanlığı və/və ya tələbat mallarını idxal edən hər bir fiziki və hüquqi şəxsin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq uyğun avadanlığa aid müvəqqəti gətirmə sistemindən yararlanmasına zəmanət verir. Bütün avadanlıq idxal və yenidən ixrac zamanı Azərbaycanda qəbul edilən əlavə dəyər vergisindən, gömrük rüsumlarından, aksiz vergisindən və ya başqa xərclərdən azad edilməlidir.

4. Hökumət zəmanət verir ki, İNTAS-ın qrantları ilə maliyyələşdirilən bütün sazişlərdən heç bir rəsmiləşdirmə və qeydiyyat rüsumları və ya onlara mütənasib olan digər rüsumlar tutulmayacaq.

Maddə 6

Lazımi tədbirlər

İNTAS qrantını əldə edən Azərbaycan alimləri və elmi müəssisələr bu işə aid müvafiq təsdiqləyici sənədlər alırlar.

Maddə 7

Sazişin müddəti

Bu Saziş 2006-cı il dekabr ayının 31-dək qüvvədədir və bu müddətdən sonra əgər hər iki Tərəfdən Sazişin bitməsi haqqında qabaqcadan yazılı məlumat verilməzsə və ya İN-

TAS fəaliyyətini dayandırmazsa, Sazişin müddəti avtomatik olaraq bir il müddətinə uzadılır. Buna baxmayaraq, hər iki Tərəf hər zaman Sazişin ləğv olunması haqqında üç ay qabaqcadan yazılı şəkildə xəbərdarlıq edə bilər. Bu Sazişin ləğv olunması əvvəlcədən birgə təsdiq olunmuş və ya bu Sazişin şərtləri altında davam edən fəaliyyətlərə təsir etməyəcəkdir.

Maddə 8

Son şərtlər

1. Bu Sazişin hər hansı hissəsinə edilən düzəlişlər yazılı şəkildə razılaşdırılmalıdır.

2. Bu Sazişin təfsiri və tətbiqi zamanı çətinliklər yarandıqda, Tərəflərdən olan Əlaqələndirici Şəxs bu çətinlikləri danışıqlar yolu ilə həll etməlidir.

3. Bu Sazişə xüsusi mövzular üzrə razılaşmalar və rəhbər prinsiplər əlavə oluna bilər.

4. Bu Saziş orijinal olaraq həm ingilis, həm də Azərbaycan dillərində tərtib olunacaq və ingilis dilində olan orijinal mətn üstünlüyə malik olacaqdır.

5. Sazişi Tərəflər onların mövcud prosedur qaydalarına müvafiq olaraq təsdiq edəcəklər. Bu Saziş onun Tərəfləri birinci cümlədə qeyd olunan prosedurların tamamlanmasını bir-birinə bildirdikləri gündən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İNTAS ADINDAN
ARİF MƏMMƏDOV	*ALAN CERARD*
Avropa Birliyi yanında nümayəndəsi	*İcraçı katib*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında" 2004-cü il dekabrın 15-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№828-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

Tərəflərin dövlətləri arasında hüquq bərabərliyi və dostluq münasibətlərinin inkişaf etdirilməsi prinsiplərini rəhbər tutaraq,

xalqlar arasında sülhə və təhlükəsizliyə nail olunmasına və qorunmasına səy göstərərək,

beynəlxalq hüququn normalarına, Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə əsaslanaraq və Tərəflərin dövlətlərinin beynəlxalq öhdəliklərini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq Azərbaycan Respublikasının və Belarus Respublikasının müdafiə potensiallarının möhkəmləndirilməsi məqsədilə həyata keçirilir və suverenlik, hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanır.

Maddə 2

Tərəflər aşağıdakı sahələrdə və istiqamətlərdə əməkdaşlıq edirlər:

beynəlxalq təhlükəsizlik və müdafiə siyasəti;

silahlı qüvvələrin fəaliyyətinin hərbi-texniki və arxa cəbhə təminatı;

hərbi-iqtisadi fəaliyyət;

hərbi quruculuq və silahlı qüvvələrin inkişaf etdirilməsi;

hərbi-elmi fəaliyyət, təhsil və hərbi tarix;

qoşunların hərtərəfli hazırlığı;

silahlı qüvvələrin fəaliyyətinin hüquqi və sosial təminatı;

hərbi tibb və səhiyyə;

silahlı qüvvələrdə ictimai və mədəni-idman işi;

sülhü dəstəkləmə və humanitar yardım göstərmə əməliyyatlarının keçirilməsi məsələləri üzrə məsələhətləşmələr;

NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində tədbirlərdə birgə fəaliyyət;

silahlara nəzarət və kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması üzrə birgə fəaliyyət;

hərbi-mülki əməkdaşlıq və hərbi-mülki fövqəladə planlaşdırma;

qarşılıqlı razılığa əsasən digər sahə və istiqamətlər.

Maddə 3

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarının rəhbərlərinin rəsmi səfərləri, Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarının nümayəndələrinin işçi görüşləri və məsləhətləşmələri;

regionlardakı hərbi-siyasi vəziyyət haqqında qarşılıqlı məlumatlandırma;

hərbi-elmi, hərbi-texniki və hərbi-hüquqi məlumatların mübadiləsi, o cümlədən konfransların, seminarların və müsabiqələrin keçirilməsi yolu ilə;

hərbi-elmi tədqiqatlar, o cümlədən ən yeni hərbi texnologiyaların yaradılması üzrə;

silahların və hərbi texnikanın birgə işlənib hazırlanması, istehsalı və qarşılıqlı təchizatı;

hərbi qulluqçuların təhsili, hərbi-elmi və elmi-pedaqoji kadrların hazırlanması;

əməliyyat və döyüş hazırlığı üzrə tədbirlərdə ikitərəfli və çoxtərəfli səviyyələrdə iştirak;

hərbi əməkdaşlıq çərçivəsində mədəni və idman tədbirlərinin keçirilməsi;

hərbi qulluqçuların və onların ailə üzvlərinin Tərəflərin dövlətlərinin silahlı qüvvələrinin sağlamlıq müəssisələrinə göndərilməsi;

qarşılıqlı razılaşma əsasında digər əməkdaşlıq formaları.

Maddə 4

Bu Sazişin müddəalarının bilavasitə həyata keçirilməsi üçün Tərəflər səlahiyyətli orqanları təyin edirlər:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi;

Belarus Tərəfindən - Belarus Respublikasının Müdafiə Nazirliyi, Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsi.

Tərəflərin hərbi və hərbi-texniki əməkdaşlığının sahə və istiqamətlərinin həyata keçirilməsi və inkişaf etdirilməsi Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları arasında ayrıca ikitərəfli sazişlərin bağlanması və birgə tədbirlərin keçirilməsi yolu ilə həyata keçirilir.

Maddə 5

Səlahiyyətli orqanlar, lazım gəldikdə, hər il növbəti il üçün cari ilin 15 dekabr tarixinədək razılaşdırılan və təsdiq edilən ikitərəfli əməkdaşlıq Planını tərtib edirlər.

İkitərəfli əməkdaşlıq Planı tədbirlərin adlarını, onların həyata keçirilməsi formalarını, keçirilmə vaxtı və yerini, məsul orqanları, iştirakçıların sayını və tədbirlərin təşkili və həyata keçirilməsi ilə bağlı digər məlumatları ehtiva edir.

Maddə 6

Tərəflər hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində tədbirlərin həyata keçirilməsi ilə

bağlı maliyyə xərclərini qarşılıqlı razılaşma əsasında həyata keçirirlər.

Rəsmi səfərlərin və işçi görüşlərinin keçirilməsi zamanı Qəbul edən Tərəf digər Tərəfin nümayəndə heyətinin üzvlərinin aşağıdakılar üzrə məsrəflərini ödəyir:

mehmanxana və yemək;

öz dövlətinin ərazisində nəqliyyat və mədəni xidmətlər;

öz hərbi-tibb müəssisələrində təxirəsalınmaz tibbi yardım təminatı.

Göndərən Tərəf öz nümayəndə heyətinin üzvlərinin Qəbul edən Tərəfin ərazisindəki ziyarət yerinə və geriyə gediş-gəliş xərclərini öz hesabına təmin edir.

Tərəflərin dövlətlərinin hərbi tədris müəssisələrində mütəxəssislərin hazırlığı və texniki yardım üçün göndərilmələri ilə bağlı maliyyə hesablaşmaları səlahiyyətli orqanlar tərəfindən ayrıca saziş və müqavilələrin bağlanması yolu ilə həyata keçirilir.

Bu Sazişin müddəalarının müxtəlif əməkdaşlıq sahələrində həyata keçirilməsi nəticəsində yarana biləcək digər xərclərlə bağlı məsələlər qarşılıqlı razılaşma əldə edildikdən sonra və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həll ediləcəkdir.

Maddə 7

Tərəflər əməkdaşlıq çərçivəsində alınan məlumatın mühafizəsinin təmin olunmasını, eləcə də məxfiliyin razılaşdırılmış dərəcəsinə riayət olunmasını öhdələrinə götürürlər.

Tərəflərdən birinin əməkdaşlıq çərçivəsində alınmış məlumatı üçüncü tərəfə ötürməsi yalnız bildirişdən və digər Tərəfin yazılı razılığından sonra mümkün ola bilər.

Tərəflər arasında yazılı razılaşma olmada Tərəflərdən heç birinin bu Sazişə uyğun olaraq alınan hərbi təyinatlı məhsulları, eləcə də onlara aid olan texnologiya və məlumatı üçüncü tərəfin fiziki və ya hüquqi şəxslərinə və dövlət orqanlarına ötürmək və ya satmaq hüququ yoxdur.

Əməkdaşlıq gedişində Tərəflərin birindən alınan məlumat həmin Tərəfin maraqlarına qarşı istifadə oluna bilməz.

Bu Sazişin həyata keçirilməsi digər dövlətlərin maraqlarına toxunmur və Tərəflərin onlarla əməkdaşlığına manecə yaratmır.

Tərəflər əməkdaşlıq sahələri və istiqamətlərinə aid olan müəlliflik hüququna və kommersiya sirlərinə riayət edirlər.

Bu Sazişin ləğv olunması, Tərəflərin razılaşdırdıqları hallar istisna olmaqla, Tərəflərin bu Sazişə uyğun olaraq imzaladıqları sazişlər və kontraktlar üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsir etmir.

Maddə 8

Bu Sazişin həyata keçirilməsi zamanı yarana biləcək mübahisə və fikir ayrılıqlarını Tərəflər danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Maddədə nəzərdə tutulan qaydada qüvvəyə minən dəyişiklik-

lər və əlavələr edilə bilər.

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi haqqında diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və əgər qeyd olunan müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfə bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə yazılı şəkildə bildirməzsə, bu Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

15 dekabr 2004-cü il tarixdə Bakı şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan, Belarus və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvədə malikdir.

Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə Tərəflər rus dilində olan mətni rəhbər tutacaqlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*NİKOLAY VASİLYEV*
İqtisadi inkişaf naziri	*Baş nazirin müavini, nəqliyyat və kommunikasiya naziri*

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№831-IIQ

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti,

beynəlxalq yük daşımalarının həyata keçirilməsinin asanlaşdırılması istəyini rəhbər tutaraq,

ticarət münasibətlərinin inkişafında səmərəli beynəlxalq yük daşımalarının mühüm şərt olmasını nəzərə alaraq,

avtomobil yük daşımalarına iqtisadi, sosial və ekoloji cəhətdən əlverişli alternativlərin təşkil edilməsi məqsədilə, eləcə də ətraf mühitin qorunmasını nəzərə alaraq, dəmir yolu və su nəqliyyatının müasir nəqliyyat sisteminin inkişafının zəruriliyini etiraf edərək,

beynəlxalq yük daşımalarının həyata keçirilməsinin asanlaşdırılmasında kombinə edilmiş yük daşımaları sisteminin yüksək potensiala malik olmasına əmin olaraq,

beynəlxalq yük daşımalarını tənzimləyən beynəlxalq sazişlərə istinad edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tətbiq edilmə dairəsi

(1) Bu Saziş, razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış daşıyıcılar tərəfindən yoladüşmə və ya təyinat məntəqələri ərazilərində yerləşən Razılığa gələn Tərəflər arasında və onların ərazilərindən tranzitlə dəmir yolu, su və avtomobil nəqliyyatından qismən istifadə etməklə beynəlxalq kombinə edilmiş yük daşımaları sahəsinə tətbiq edilir.

(2) Bu Saziş Razılığa gələn Tərəflərin iştirak etdikləri digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 2

Təriflər

Bu Sazişin məqsədləri üçün göstərilən terminlər aşağıdakı mənalara malikdir:

a) intermodal yük daşımaları - ardıcıl olaraq bir neçə nəqliyyat növündən istifadə etməklə və onları bir-biri ilə əvəz edərkən yüklərin özlərini əməliyyata cəlb etmədən eyni bir intermodal nəqliyyat vahidində və ya nəqliyyat vasitəsində yüklərin daşınmasıdır;

b) beynəlxalq kombinə edilmiş yük daşımaları - avtomobil daşımalarının başlanğıc və son mərhələləri maksimal qısa olmaq şərtilə dəmir yolu və su nəqliyyatından istifadəyə üstünlük verilən intermodal yük daşımalarıdır;

v) yol nəqliyyat vasitəsi - yüklərin daşınması üçün quraşdırılmış və ya uyğunlaşdırılmış və Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış hər hansı bir mühərrikli avtonəqliyyat vasitəsidir. Avtomobili və ya dartıcısı Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış qoşqulu avtomobil və ya yarımqoşqu ilə dartıcı, yəni "birləşdirilmiş yol nəqliyyat vasitəsi" də yol nəqliyyat vasitəsi hesab olunur;

q) intermodal nəqliyyat vahidi - intermodal nəqliyyata uyğun gələn istənilən növ konteyner (uzunluğu 20 futdan az olmamaqla), dəyişdirilən ban, yarımqoşqu və ya qoşqu, yük avtomobili və ya vaqondur;

d) intermodal terminal - daşıma üsulunun əvəz olunduğu dəmir yolu şəbəkəsi və ya daxili su yolu/dəniz limanı sahəsidir;

e) intermodal terminala/terminaldan nəql edilmə - dövlət sərhəd-keçid məntəqəsindən və ya yükləmə məntəqəsindən yükün hərəkət marşrutu üzrə yerləşən ən yaxın dəmir yolu terminalına və ya limana qədər və dəmir yolu terminalından və ya limandan yükün hərəkət marşrutu üzrə yerləşən ən yaxın dövlət sərhəd-keçid məntəqəsinə və ya təyinat məntəqəsinə qədər intermodal nəqliyyat vahidinin avtomobil ilə daşınmasıdır;

j) müşayiətlə nəql edilmə - sürücü tərəfindən müşayiət edilən yol nəqliyyat vasitələri qatarının avtomobil daşımalarından fərqlənən digər nəqliyyat vasitələri ilə daşınmasıdır;

z) müşayiətsiz nəql edilmə - sürücü tərəfindən müşayiət edilməyən yol nəqliyyat vasitələri qatarının avtomobil daşımalarından fərqlənən digər nəqliyyat vasitələri ilə daşınmasıdır;

i) güzəştli kontingent - kombinə edilmiş nəqliyyatın istifadəsi nəticəsində yol yığımını/rüsumunu ödəmədən yüklərin daşınmasına təqdim edilən icazələrin miqdarıdır;

k) razılığa gələn Tərəfin ərazisi - müvafiq olaraq Azərbaycan Respublikasının ərazisi və Bolqarıstan Respublikasının ərazisidir;

l) Qarışıq komissiya - Bu Sazişin 8-ci maddəsinə müvafiq olaraq təsis edilmiş beynəlxalq kombinə edilmiş nəqliyyat üzrə komissiyadır.

Maddə 3

Səlahiyyətli orqanlar

Bu Sazişdə Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları kimi aşağıdakılar başa düşülməlidir:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi;

Bolqarıstan tərəfindən - Bolqarıstan Respublikasının Nəqliyyat və Kommunikasiyalar Nazirliyi.

Maddə 4

Müşayiət olunan yüklərin kombinə edilmiş daşımaları

(1) Razılığa gələn Tərəflərdən hər hansı birinin dövlətinin ərazisində qeydiyyata alınmış yol nəqliyyat vasitələri ilə yüklərin daşınması dövlət sərhəd-keçid məntəqəsindən və ya Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində yerləşən yüklənmə məntəqəsindən başlayaraq hərəkət marşrutu üzrə Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisində yerləşən intermodal terminala qədər hərəkəti yüklərin daşınması üçün icazəsiz həyata keçirilir və Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının razılaşdığı məsafədə nəqliyyat vasitələri yol yığımlarından azad edilir. Sərhəd nəzarəti orqanları kombinə edilmiş yükdaşımalarını yerinə yetirmək hüququnu təsdiq edən sənədi olan yol nəqliyyat vasitələrini yüklərinin daşınması üçün icazəsiz buraxırlar.

(2) Yuxarıda göstərilən məsafəni aşdıqda, daşıma Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının verdiyi xüsusi icazə əsasında həyata keçirilir. Burada (həmin ica-

zədə) müvafiq olaraq yol yığımlarını ödəmək və ya ödəməməklə yalnız kombinə edilmiş daşımalara aid olması və yalnız bu növ daşımalarda etibarlığı göstərilir.

(3) Yüklərin bu maddənin 2-ci bəndində göstərilən müşayiət olunan kombinə edilmiş daşımalarına verilən icazələrin kontingenti (növü və miqdarı) Razılığa gələn Tərəflər üçün eyni sayda olmaqla Qarışıq komissiyanın toplantılarında razılaşdırılır.

(4) Qarışıq komissiyanın toplantısında razılaşdırılan yüklərin daşınmasına verilən icazələrin kontingenti hər il razılaşdırılır. Bu kontingentə edilən hər hansı dəyişikliklər Razılığa gələn Tərəflərin nəqliyyata olan tələbatlarını nəzərə almaqla həyata keçirilir.

(5) RO-LA (qaçan şose) dəmir yolu platformalarına yüklənmiş avtonəqliyyat vasitələrinin daşınmasını həyata keçirərkən Razılığa gələn Tərəflər beynəlxalq normalara uyğun olaraq səy göstərirlər ki, dəmir yolu qatarının sərhəd məntəqəsində 30 dəqiqədən artıq boş dayanmasına yol verilməsin.

Maddə 5

Müşayiət olunmadan nəqletmə

(1) İntermodal nəqliyyat vahidinin Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində yerləşən intermodal terminaldan/terminala daşınması yalnız Razılığa gələn müvafiq Tərəfin dövlətinin ərazisində qeydiyyatdan keçmiş yol nəqliyyat vasitələri Tərəfindən həyata keçirilir.

(2) İntermodal nəqliyyat vahidinin Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində yerləşən intermodal terminaldan/terminala daşınması Razılığa gələn digər Tərəfin ərazisində qeydiyyatda olan yol nəqliyyat vasitələri ilə də ərazisində daşıma həyata keçirilən Razılığa gələn Tərəfin səlahiyyətli orqanının verdiyi xüsusi icazə əsasında həyata keçirilə bilər.

(3) Daşıyıcı, yükgöndərən və ya kombinə edilmiş daşımalar üzrə şirkət tərəfindən müvəkkil olduğu təqdirdə terminaldan/terminala müşayiətsiz nəqletmə zamanı daşımanı həyata keçirə bilər.

(4) Bu cür nəqliyyat üçün istifadə oluna biləcək intermodal terminallar Qarışıq komissiyanın toplantılarında müəyyən edilir.

Maddə 6

Sərhədlərdən keçid - dövlət sərhədini keçmə

(1) Beynəlxalq yüklərin kombinə edilmiş nəqliyyatla daşımaları zamanı, dəmir yol qatarına və ya gəmiyə yüklənmiş yol nəqliyyat vasitəsində, qüvvədə olan beynəlxalq qaydalara müvafiq olaraq tələb edilən digər sənədlərlə birgə kombinə edilmiş nəqliyyatla yüklərin daşınmasına da icazə olmalıdır.

Kombinə edilmiş yük daşımasını həyata keçirmək hüququnu təsdiq edən sənədlər hər gediş zamanı nəqliyyat vasitəsində saxlanılmalı və Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarının tələbi ilə təqdim olunmalıdır.

Bu cür sənədin olmadığı təqdirdə nəqliyyat vasitəsi icazəsiz hesab olunur və bu da ona qarşı münasibəti təyin edir.

İcazəyə hər hansı bir dəyişiklik və ya reqlamentdən kənar düzəliş onun ləğv olunması ilə nəticələnir. Belə icazələr müvafiq sənəd verilməklə müsadirə olunmalıdır.

(2) Yüklərin müşayiət olunmaqla kombinə edilmiş nəqliyyatla daşınması zamanı dövlət sərhədlərinin keçid məntəqələrində səlahiyyətli orqanlar daşıyıcıya və ya xidmət operatoruna, 4-cü maddənin 1-ci bəndinin müddəalarına riayət edildiyi təqdirdə, Razılığa gələn hər hansı bir Tərəfin dövlətinin ərazisinə daxil olan zaman yüklərin kombinə edilmiş daşınmasını həyata keçirmək hüququnu təsdiq edən nəqliyyat sənədini təqdim edirlər. Razılığa gələn hər hansı bir Tərəfin dövlətinin ərazisindən çıxan zaman, yüklərin kombinə edilmiş daşınmasının həyata keçirilməsini təsdiq edən Razılığa gələn Tərəflərin təqdir etdiyi müvafiq sənədlərin (CİM-UİRR nəqliyyat sənədi, SMGS qayiməsi və ya digər sənəd) istifadə olunacaq nəqliyyatın hər növü üçün bir ədəd olması zəruridir.

(3) Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisinə daxil olduğu və ya ərazisindən çıxdığı zaman yüklərin kombinə edilmiş daşınmasını həyata keçirən şəxslər və nəqliyyat vasitələri daşınan yüklərlə bərabər. Razılığa gələn Tərəflərin qanunvericiliyinə uyğun olaraq, nəzarətdən keçirilməlidir.

(4) Daşıyıcı və ya xidmət operatoru, eləcə də onların işçiləri Razılığa gələn Tərəflərin qüvvədə olan qanunvericilik və qaydalarına riayət etməlidirlər.

Maddə 7

Yüklərin kombinə edilmiş nəqliyyatla daşınmasının dəstəklənməsi və stimullaşdırılması

(1) Razılığa gələn Tərəflər, onların dəmir yolu administrasiyaları, limanları, gəmiçilik və avtonəqliyyat şirkətləri və kombinə edilmiş nəqliyyatın operatorları həmin nəqliyyat növünün üstünlüklərini nəzərə alaraq, kombinə edilmiş yükdaşımaların dəstəklənməsinə aid təxirəsalınmaz tədbirlər barədə razılığa gəlmələri üçün bütün lazımi tədbirlər görürlər.

(2) Razılığa gələn Tərəflər kombinə edilmiş daşımaları həyata keçirən dəmir yolu, avtomobil, su nəqliyyat sahəsindəki nəqliyyat müəssisələrinin və kombinə edilmiş nəqliyyatın operatorlarının fəaliyyətinin və rəqabətliliyinin yaxşılaşdırılmasına və stimullaşdırılmasına, həmçinin müşayiət olunmayan kombinə edilmiş nəqliyyatın istifadə olunmasının təşviqinə və əsaslanmış güzəştli tariflərin tətbiqinə kömək göstərirlər.

(3) Razılığa gələn Tərəflər kombinə edilmiş nəqliyyatın infrastrukturunun inkişaf etdirilməsində, özlərinin dəmir yolu şirkətlərinə və limanlarına qeyd-şərtsiz dəstək və kömək göstərirlər.

(4) Razılığa gələn Tərəflər kombinə edilmiş ikitərəfli daşımaları həmin dövlətlərin intermodal terminallarına/terminallarından həyata keçirdiyi zaman şənbə, bazar və rəsmi bayram günlərində tətbiq olunan nəqliyyat məhdudiyyətlərinin aradan götürülməsi üçün lazımi tədbirlər görürlər.

(5) Razılığa gələn Tərəflər kombinə edilmiş daşımaların başlanğıc və son mərhələlərini keçmək üçün ümumi çəkisi 44 tona qədər olan yük avtomobillərinə zəruri şərait

yaratmağa çalışırlar.

(6) Razılığa gələn Tərəflər kombinə edilmiş daşımalara dair sərhədlərdə yoxlamaların sürətləndirilməsi üçün zəruri tədbirlər görür, eləcə də gömrük rəsmiləşdirilməsi prosesinin sərhəd-keçid məntəqələrindən intermodal terminallara (dəmir yolu və limanlara) köçürülməsinə kömək göstərirlər.

(7) Razılığa gələn Tərəflər qarşılıqlı əməkdaşlıq edir və kombinə edilmiş daşımaların stimullaşdırılmasına əlverişli şərait yaradılmasında bir-birlərinə kömək göstərir, eləcə də ümumi istifadədə olan marşrutların inkişafı üçün tədbirlər görürlər.

(8) Kombinə edilmiş nəqliyyat üzrə Qarışıq komissiya, Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyatda olan yol nəqliyyat vasitələrilə kombinə edilmiş nəqliyyat çərçivəsində, Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərində və onların ərazilərindən tranzitlə RO-LA və RO-RO daşımalarından istifadə etməklə, avtomobil daşımalarına icazələrin güzəştli kontingenti ilə həyata keçirilən daşımalar arasında nisbəti müəyyən edir.

Maddə 8

Əməkdaşlıq və Qarışıq komissiya

(1) Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu Sazişin icrasına və tətbiqinə, xüsusən kombinə edilmiş daşımalarla əlaqədar müvafiq səlahiyyətli orqanların səlahiyyətlərinə dair daxili qanunvericilikdə dəyişikliklərlə bağlı istənilən faydalı məlumatın qarşılıqlı mübadiləsinə kömək göstərirlər.

(2) 1-ci bəndə əsasən Razılığa gələn hər bir Tərəfin nümayəndələrindən ibarət Qarışıq komissiya yaradılır.

(3) Qarışıq komissiyanın toplantıları Razılığa gələn Tərəflərdən birinin təklifi ilə keçirilir.

(4) Qarışıq Komissiya bu Sazişə dəyişikliklər və əlavələr etmək hüququna malikdir.

Maddə 9

Pozuntular

(1) Daşıyıcı, operator və ya onların işçiləri tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində qüvvədə olan qaydaların, eləcə də bu Sazişin müddəalarının pozulmasına yol verildiyi təqdirdə, onun dövlətinin ərazisində müvafiq pozuntunun qeyd olunduğu Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarının tələbi ilə, Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanları aşağıdakı tədbirləri görmək hüququna malikdirlər:

a) pozuntuya yol vermiş daşıyıcıya qüvvədə olan qaydalara riayət edilməsinin zəruriliyi haqqında xəbərdarlıq etmək;

b) bu daşıyıcıya xüsusi və güzəştli icazələrin verilməsini dayandırmaq və ya əvvəlcədən verilmiş xüsusi və güzəştli icazələri, Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanı həmin daşıyıcıya daşımaların həyata keçirilməsini qadağan etdiyi dövrə ləğv etmək;

v) daşıyıcı və xidmət operatoru tərəfindən xüsusilə ağır pozuntuya yol verilərsə,

nəqliyyat lisenziyasını müsadirə etmək və ya bu fəaliyyətin həyata keçirilməsinə müvafiq qaydada qadağa qoymaq.

(2) Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu istiqamətdə görülən tədbirlər haqqında məlumatların mübadiləsini aparırlar.

(3) 1-ci və 2-ci bəndlərin müddəaları dövlətinin ərazisində müvafiq pozuntu baş vermiş Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyinin tətbiq edilməsini istisna etmir.

Maddə 10

Məlumatların qorunması

(1) Razılığa gələn Tərəflər, rəsmi statistik məlumat və hesabatlar istisna olmaqla, göstəricilərin və məlumatların üçüncü ölkələrdə qanunsuz yayılmaqdan qorunacağım bəyan edirlər.

(2) Zərurət yaranarsa, cinayət işinin istintaqı ilə əlaqədar bu qəbildən olan dəlil və məlumatlar dövlət hakimiyyət orqanlarına, prokurorluğa və məhkəməyə təqdim oluna bilər. İstənilən digər məlumatların yayılması Razılığa gələn Tərəflərin müvafiq səlahiyyətli orqanlarının yazılı icazəsini qabaqcadan aldıqdan sonra həyata keçirilə bilər.

Maddə 11

Fövqəladə hallar

Razılığa gələn Tərəflər fövqəladə hallarda, yaxud kombinə edilmiş yük daşımalarında 12 saatdan artıq fasilə yarandıqda, hər hansı taxirəsalınmaz birgə tədbirlər görmək üçün qərar qəbul edirlər.

Maddə 12

Milli qanunvericiliyə uyğunluq

Razılığa gələn Tərəfin dövlətinin ərazisində daşımaları həyata keçirən daşıyıcılar və nəqliyyat vasitələrinin heyətləri bu dövlətin qanunvericiliyinə riayət etməlidirlər.

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin dövlətlərinin milli təhlükəsizliyinə xələl gətirə biləcək tranzit daşımalarına məhdudiyyət tədbirlərinin tətbiq edilməsinə mane olmur.

Maddə 13

Qüvvəyə minmə

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin diplomatik kanallarla sonuncu yazılı bildirişi aldıqları gündən 30 (otuz) gün keçdikdən sonra qüvvəyə minir.

Maddə 14

Sazişə dəyişikliklərin edilməsi

Razılığa gələn Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında bu Sazişə dəyişikliklər və əlavələr edilə bilər. Dəyişikliklər və əlavələr bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 15

Qüvvədə olma müddəti

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə yazılı şəkildə bildiriş göndərdikdən sonra bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu Sazişin qüvvəsi Razılığa gələn Tərəflərdən birinin onun qüvvəsini ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfin diplomatik kanallarla yazılı bildirişi aldığı tarixdən 6 (altı) ay keçdikdən sonra ləğv edilir.

Bakı şəhərində 7 oktyabr 2004-cü ildə hər biri Azərbaycan, bolqar və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*NİKOLAY VASİLYEV*
Baş nazirinin müavini	*Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri*

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında" 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№832-IIQ

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti,

Razılığa gələn hər iki Tərəf arasında dəniz nəqliyyatı əlaqələrinin vacibliyini dərk edərək,

gələcəkdə bu əlaqələri ahəngdar inkişaf etdirmək arzusunda olaraq,

bərabərlik və qarşılıqlı səmərəlilik prinsipləri əsasında iki ölkə arasında dəniz ticarəti gəmiçiliyinin inkişafının təşviq etdirilməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədi üçün:

1. "Səlahiyyətli qurumlar" anlayışı

Azərbaycan Respublikasının Hökuməti adından - Nəqliyyat Nazirliyi;

Bolqarıstan Respublikasının Hökuməti adından - Nəqliyyat və Kommunikasiyalar Nazirliyi deməkdir.

2. "Razılığa gələn Tərəfin gəmisi" termini sözügedən Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq onun bayrağı altında üzən və ərazisində qeydiyyata alınmış hər hansı ticarət gəmisi deməkdir.

Bu termin aşağıdakı gəmiləri nəzərdə tutmur:

a) yalnız silahlı qüvvələr tərəfindən istifadə edilən gəmilər;

b) hidroqrafik, okeanoqrafik və elmi tədqiqat gəmiləri;

c) balıqçı gəmiləri, balıqçılıq tədqiqatları və müfəttiş gəmiləri, balıqartırma zavodlarının gəmiləri;

d) ölkədaxili su nəqliyyatı üçün və Razılığa gələn hər bir Tərəfin limanları arasında kabotaj yüklərini daşıyan gəmilər;

e) gəmilərin keçirilməsi (pilotaj), yedəklənmə, dənizdə yardım və xilasedici fəaliyyətlər daxil olmaqla liman, reyd və çimərlik xidmətləri ilə məşğul olan gəmilər.

3. "Razılığa gələn Tərəfin milli gəmiçilik şirkəti Tərəfindən istismar edilən gəmi" yuxandakı 2-ci bəndin (a)-(e) yarımbəndlərində göstərilən gəmi növləri istisna olmaqla, Razılığa gələn həmin Tərəfin hər hansı gəmisi, eləcə də milli gəmiçilik şirkəti tərəfindən kirayə götürülmüş hər hansı gəmi və ya onun hissəsi deməkdir.

4. "Razılığa gələn Tərəfin milli gəmiçilik şirkəti" termini Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq onun ərazisində qeydiyyata alınmış ofisi olan və onun səlahiyyətli dəniz qurumu Tərəfindən bu qisimdə tanınan hər hansı ticarət gəmiçilik şirkəti deməkdir;

5. "Şəxsi heyətin üzvü" termini bu Sazişin 10-cu maddəsində müəyyən olunduğu kimi, dənizçi sənədi olan və gəminin şəxsi heyəti siyahısında adı əks olunmuş gəminin xidməti və istismarı ilə bağlı gəmiyə faktiki işə götürülmüş hər bir şəxs və ya gəminin kapitanı deməkdir.

6. "Ərazi" termini:

a) Azərbaycan Respublikası üçün - üzərində suverenliyi və yurisdiksiyası olan sular;

b) Bolqarıstan Respublikası üçün - üzərində suverenliyi və yurisdiksiyası olan sular deməkdir.

Maddə 2

Bu Saziş Azərbaycan Respublikasının ərazisində və Bolqarıstan Respublikasının ərazisində tətbiq olunacaqdır.

Maddə 3

Razılığa gələn Tərəflər qarşılıqlı əlaqələrində hər bir cəhətdən azad ticarət gəmiçiliyi prinsipinə sadiq qalacaqlarını və beynəlxalq gəmiçiliyin inkişafına xələl gətirə biləcək hər bir hərəkətdən çəkinəcəklərinə razı olduqlarını təsdiq edirlər.

Maddə 4

1. Razılığa gələn Tərəflər aşağıdakılar barədə razılaşırlar:

a) Razılığa gələn hər iki Tərəfin limanları arasındakı dəniz nəqliyyatında öz gəmilərinin iştirakını təşviq etmək və Razılığa gələn digər Tərəfin bayrağı altında üzən gəmilərin öz limanları və üçüncü dövlətin limanları arasındakı dəniz nəqliyyatında iştirakına maneçilik törətməmək;

b) Razılığa gələn Tərəflərin limanları arasında dəniz ticarətinin inkişafına mane ola biləcək və bu ticarətlə bağlı müxtəlif fəaliyyətlərə müdaxilə edə biləcək bütün maneələri aradan qaldırmaq məqsədilə əməkdaşlıq etmək.

2. Razılığa gələn Tərəflərin milli gəmiçilik şirkətləri tərəfindən icarəyə götürülmüş gəmilər Razılığa gələn həmin Tərəfin bayrağı altında üzən gəmilərlə eyni güzəştlərə malikdir.

3. Bu Saziş Razılığa gələn Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərinə təsir etmir.

4. Razılığa gələn hər iki Tərəf gəmilərin təhlükəsizliyi, dəniz ətraf mühitinin qorunması və dənizçilərin sosial vəziyyəti ilə bağlı müvafiq beynəlxalq sənədlərin həyata keçirilməsinə səy göstərirlər.

5. Razılığa gələn hər iki Tərəf azad və ədalətli rəqabət prinsiplərinə zidd olan, Razılığa gələn digər Tərəfin dənizçilik maraqlarına ziyan vura biləcək, yaxud ticarət gəmiçilik şirkətinin seçim azadlığına zərər gətirə biləcək hər hansı ayrı-seçkilik hərəkətləri ilə beynəlxalq dəniz gəmiçiliyinə müdaxilə etməyəcəkdir.

Maddə 5

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin milli ticarət gəmiçilik şirkətinə Razılığa gələn birinci Tərəfin ərazisində bu Sazişdə göstərilmiş fəaliyyətdən qazandığı bütün gəlirləri dönərli valyutada azad köçürmə hüququ verir. Belə köçürmələr mütəmadi və asan aparılır və cari ödənişlər üçün rəsmi mübadilə dərəcələrinə əsaslanacaq, yaxud rəsmi mübadilə dərəcələri olmadıqda, cari ödənişlər üçün üstünlük təşkil edən xarici mübadilə dərəcələri əsas götürüləcəkdir. Belə köçürmələrdə normal bank faizlərindən başqa heç bir ödənişlər tətbiq olunmur.

Maddə 6

1. Razılığa gələn Tərəflərdən birinə məxsus, yaxud icarəyə götürülmüş gəmilərin beynəlxalq nəqliyyatda istismarından əldə edilən gəlir və qazanclar yalnız Razılığa gələn

həmin Tərəfin ərazisində vergiyə cəlb olunacaqdır.

2. Bu maddənin məqsədləri üçün Razılığa gələn Tərəfin bayrağı altında üzən gəminin heyətsiz, beynəlxalq nəqliyyatda istifadə etmək şərtilə icarəsindən və ya beynəlxalq nəqliyyatda istifadə edilən konteynerlərin istifadəsindən, saxlanılmasından və ya icarəsindən (bu cür konteynerlərin daşınması üçün istifadə olunan treylerlər və avadanlıq daxil olmaqla) əldə edilən gəlir və qazanclar, onların 1-ci bənddə göstərilənlərə əlavə olduğu təqdirdə, gəminin beynəlxalq nəqliyyatda istismarından əldə edilən gəlir və qazanclara daxil olacaqdır.

3. 1-ci bəndin müddəaları həmçinin ümumi və/və yaxud birgə işgüzar fəaliyyətlə bağlı iştirakdan əldə edilən gəlir və qazanclara tətbiq olunacaqdır.

4. Beynəlxalq nəqliyyatda istifadə olunan gəmilərin və ya bu gəmilərin istismarına aid daşınan əmlakın müsadirəsindən əldə edilən qazanclardan vergi yalnız Razılığa gələn həmin Tərəfin ərazisində tutula bilər.

Maddə 7

1. Razılığa gələn hər bir Tərəf öz limanlarında Razılığa gələn digər Tərəfin milli gəmiçilik şirkəti tərəfindən istismar olunan gəmilərlə münasibətdə liman rüsumları və vergilərinin yığımında, limanlara azad girişdə, orada qalma və tərk etmədə, liman xidmətlərindən istifadədə, həmçinin gəmilərə, onların şəxsi heyətlərinə, sərnişinlərə və yüklərə gəmiçilik və ticarət işləri ilə bağlı verilən bütün xidmətlərə milli rejim tətbiq edəcəkdir. Bu müddəa o cümlədən yükləmə və boşaltma üçün körpülər verilməsinə və xidmətlərə də aiddir.

Yuxarıda göstərilən qarşılılıq həmçinin Razılığa gələn Tərəflərin milli gəmiçilik şirkətlərinə Razılığa gələn digər Tərəfin ölkəsində agentliklər təsis etmək və Razılığa gələn həmin Tərəfin dövlətində tətbiq olunan qanun və qaydalara uyğun olaraq müvafiq fəaliyyətlə məşğul olmaq hüququnu əhatə edir.

2. Bu maddənin 1-ci bəndinin müddəaları aşağıdakılara şamil edilmir:

a) Razılığa gələn hər bir Tərəfin gəmiləri üçün qanunla aid edilmiş liman xidmətləri, yedəyə alma, bələdçi xidmətləri, sürvey xidmətləri və milli sahilyanı gəmiçilik kimi dənizçilik və gəmiçilik fəaliyyətlərinə. Lakin Razılığa gələn Tərəflərdən birinin gəmisi Razılığa gələn digər Tərəfin və ya üçüncü dövlətin limanlarından gələn sərnişinlərin düşürdülməsi və ya yüklərin boşaldılması, yaxud Razılığa gələn birinci Tərəfin və ya üçüncü dövlətin limanlarına aparılan sərnişinlərin və ya yüklərin gəmiyə qəbul olunması məqsədilə Razılığa gələn digər Tərəfin limanları arasında üzməsi sahilyanı gəmiçilik kimi sayılmayacaqdır.

b) balıqçılıq fəaliyyətinə.

Maddə 8

Razılığa gələn Tərəflər müvafiq milli qanun və liman qaydaları çərçivəsində dəniz nəqliyyatına yardım göstərmək və sürətləndirmək, milli gəmiçilik şirkətləri tərəfindən istismar olunan gəmilərin qarşısına çıxan çətinlikləri aradan qaldırmaq, limanlarda tətbiq olunan gömrük, səhiyyə və digər inzibati rəsmiləşdirmələrin aparılmasını asanlaşdırmaq və tezləşdirmək, mövcud liman qəbulu imkanlarından istifadə etmək üçün bütün

zəruri tədbirləri həyata keçirəcəklər.

Bu cür rəsmi prosedurlar tətbiq olunduqca, Razılığa gələn Tərəflərdən birinin milli gəmiçilik şirkətləri tərəfindən istismar olunan hər hansı gəmiyə Razılığa gələn digər Tərəfin limanında Razılığa gələn bu Tərəfin milli gəmiçilik şirkətləri tərəfindən istismar olunan gəmilərə tətbiq edilən rejimlə eyni olan rejim şamil ediləcəkdir.

Maddə 9

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin qanun və qaydalarına uyğun olaraq gəminin dövlət mənsubiyyətini təsdiq edən və səlahiyyətli orqanları tərəfindən verilmiş sənədi tanıyacaqdır.

2. Razılığa gələn Tərəflərdən birinin verdiyi və ya tanıdığı gəmi ölçüləri barəsində şəhadətnamə və digər gəmi sənədlərini Razılığa gələn digər Tərəf də tanıyacaqdır. Razılığa gələn hər bir Tərəfin gəmi ölçüləri barəsində şəhadətnamələri olan gəmiləri Razılığa gələn digər Tərəfin limanında yenidən ölçülmədən azad olunacaqdır.

Maddə 10

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanı Tərəfindən verilmiş dənizçinin şəxsiyyətini təsdiq edən sənədləri tanıyacaq və belə sənədlərin sahiblərinə bu Sazişin 11-ci və 12-ci maddələrində əks olunmuş hüquqları verəcəkdir. Bu sənədlər aşağıdakılardır:

Azərbaycan Respublikası üçün - "Dənizçi kitabçası",

Bolqarıstan Respublikası üçün - "Dənizçi pasportu".

Maddə 11

1. Razılığa gələn Tərəflərdən hər hansı birinə məxsus gəminin 10-cu maddədə qeyd olunan şəxsiyyəti təsdiq edən və Razılığa gələn həmin Tərəfin səlahiyyətli orqanları Tərəfindən verilmiş sənədə malik olan heyət üzvünə gəminin limanda qaldığı müddət ərzində liman şəhərinə düşməyə və vizasız qalmağa icazə veriləcəkdir, bu şərtlə ki, gəminin kapitanı heyət üzvlərinin siyahısını yerli səlahiyyətli orqanlara təqdim etmiş olsun.

2. Sahilə çıxdıqda və gəmiyə qayıtdıqda yuxarıda sözügedən şəxs həmin limanda qüvvədə olan nəzarət və gömrük prosedurlarından keçməlidir.

Maddə 12

1. 10-cu maddədə göstərilən şəxsiyyəti təsdiq edən sənədə malik olan heyət üzvünə nəqliyyatın növündən asılı olmayaraq heyətə qoşulmaq, digər gəmiyə keçmək və ya öz ölkəsinə qayıtmaq üçün Razılığa gələn digər Tərəfin ərazisinə daxil olmağa və ya bu ərazidən keçməyə, yaxud Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanlarının razılığı ilə başqa məqsədlər üçün hərəkət etməyə icazə veriləcəkdir.

2. 1-ci bənddə göstərilən bütün hallar üçün şəxsiyyəti təsdiq edən sənəddə Razılığa gələn digər Tərəfin vizası olmalıdır. Belə viza əsassız olaraq ləğv edilməyəcəkdir.

3. 10-cu maddədə qeyd olunmuş şəxsiyyəti təsdiq edən sənədə malik olan heyət üzvü səhhəti ilə əlaqədar və ya xidməti məqsədlə, yaxud səlahiyyətli orqanlar Tərəfindən

qəbul edilmiş başqa səbəblərdən Razılığa gələn digər Tərəfin ərazisindəki limanda düşürülmüşsə, həmin səlahiyyətli orqanlar tərəfindən onların ərazisində qaldığı müddət ərzində həmin şəxsə tibbi yardımın göstərilməsinə, yaxud xəstəxanada yerləşdirilməsinə və hər hansı digər nəqliyyat növü ilə ölkəsinə qayıtmasına lazımi icazə veriləcəkdir.

Maddə 13

1. Bu Sazişin 10-12-ci maddələrinin tələblərinə zidd olmamaq şərtilə xarici vətəndaşların girişi, qalması və qalma müddətinin sona çatmasına dair Razılığa gələn hər iki Tərəfin müvafiq qanun və qaydaları qüvvədə qalır.

2. 10-12-ci maddələrdə nəzərdə tutulan müddəalar Razılığa gələn hər iki Tərəfin 10-cu maddədə qeyd olunmuş şəxsiyyəti təsdiq edən sənədə malik olan heyət üzvlərinin, onların arzuolunmaz sayıldığı təqdirdə, ölkə ərazisinə girişinə qadağa qoyma hüququnu pozmayacaqdır.

Maddə 14

1. Razılığa gələn Tərəflərdən heç birinin məhkəmə orqanları Razılığa gələn digər Tərəfin gəmisində iş şərtləri və əmək münasibətləri ilə əlaqədar gəmi sahibi, kapitanı və digər heyət üzvləri arasında mülki mübahisələrə müdaxilə etməyəcəkdir.

2. Razılığa gələn bir Tərəfin gəmisinin heyət üzvü Razılığa gələn digər Tərəfin ərazisində olan gəmidə cinayət törətdikdə, Razılığa gələn bu Tərəfin səlahiyyətli orqanları, aşağıdakılar istisna olmaqla, gəminin bayraq dövlətinə aid olan diplomatik, yaxud konsulluq nümayəndəsinin razılığı olmadan cinayət təhqiqatına başlaya bilməz:

a) bu cinayətin nəticəsi gəminin yerləşdiyi dövlətin ərazisinə təsir göstərdikdə;

b) bu cinayət ictimai asayişi və təhlükəsizliyi təhlükə altına aldıqda;

c) bu cinayət gəminin yerləşdiyi dövlətin qanunlarına əsasən ağır cinayət əməli sayıldıqda;

d) bu cinayət heyət üzvü olmayan şəxsə qarşı törədildikdə;

e) narkotik və ya psixotrop maddələrin qeyri-qanuni daşınmasının qarşısının alınması məqsədilə zəruri tədbirlər keçirildikdə.

3. Bu maddənin 2-ci bəndinin müddəaları əcnəbilərin ölkəyə girişi, gömrük, səhiyyə, gəmilərin və limanların təhlükəsizliyi üzrə nəzarət, insan həyatının qorunması və malların təhlükəsizliyi ilə əlaqədar qanun və qaydaların həyata keçirilməsilə bağlı bütün məsələlərdə Razılığa gələn Tərəflərdən heç birinin hüquqlarına xələl gətirməyəcəkdir.

Maddə 15

1. Razılığa gələn bir Tərəfin gəmisi Razılığa gələn digər Tərəfin sahillərində dayazlığa düşdükdə, ziyan çəkdikdə, qəzaya uğradıqda, yaxud hər hansı digər dəniz qəzası ilə üzləşdikdə, Razılığa gələn sonuncu Tərəf təhlükədə olan həmin gəmiyə, onun kapitanına, heyətinə və sərnişinlərinə öz bayrağı altında üzən gəmiyə verilən qorunma və yardımı tətbiq edəcək və bu barədə Razılığa gələn birinci Tərəfin müvafiq orqanlarına təcili məlumat verəcəkdir. Yuxarıda qeyd olunan gəmi qəzaları dövlət marağına toxunduqda, yaxud hər hansı başqa halda gəminin batması, tərk edilməsi və ya insan itkisi ilə nəticə-

lənsə, Razılığa gələn digər Tərəfin müvafiq (Razılığa gələn hər bir Tərəfdən təyin edilmiş) orqanları Tərəfindən araşdırılacaqdır. İstintaqın nəticələri təyin edilmiş orqanlar Tərəfindən Razılığa gələn digər Tərəfin müvafiq səlahiyyətli orqanlarına mümkün qədər tez çatdırılmalıdır.

2. Gəmi qəzaya uğradığı, yaxud ziyan çəkdiyi halda, Razılığa gələn Tərəflər boşaldılmış və ya xilas edilmiş yükə, avadanlıqlara, materiallara və digər hissələrə, əgər onlar Razılığa gələn digər Tərəfin ərazisinə istifadə və ya istehlak üçün gətirilməmişsə, gömrük rüsümu və digər vergilər tətbiq etməyəcəklər.

Maddə 16

Zəruri hallarda, Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının nümayəndələri bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələləri, yaxud ticarət gəmiçiliyi ilə bağlı qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə etmək üçün Razılığa gələn Tərəflərin müvafiq ərazilərində mütəmadi görüşlər keçirəcəklər.

Maddə 17

Bu Sazişin yerinə yetirilməsi ilə bağlı yaranan mübahisələr Razılığa gələn Tərəflərin səlahiyyətli hakimiyyət orqanları arasında birbaşa danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 18

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və bu Sazişin qüvvəyə minməsi üçün tələb olunan bütün müvafiq milli hüquqi prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin bir-birini məlumatlandırdığı son bildirişin alındığı tarixdən sonra ikinci təqvim ayının birinci günü qüvvəyə minəcəkdir.

2. Bu Saziş Razılığa gələn Tərəfin birinin diplomatik kanallar vasitəsilə digərinə bu haqda yazılı şəkildə bildiriş göndərməsi ilə istənilən vaxt ləğv edilə bilər. Belə olduğu halda, bu Saziş belə bildiriş verildikdən altı ay sonra öz qüvvəsini itirəcəkdir.

Bunları təsdiq edərək, öz hökumətlərini təmsil edən aşağıda göstərilən səlahiyyətli nümayəndələr bu Sazişi imzalamışlar.

Bakı şəhərində 7 oktyabr 2004-cü ildə Azərbaycan, bolqar, ingilis dillərində, hər biri eyni hüquqi qüvvəyə malik olan iki əsl nüsxədə imzalanmışdır. Mətnlərin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*NİKOLAY VASİLYEV*
Baş nazirinin müavini	*Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri*

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 mart 2005-ci il

№833-IIQ

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti,

Razılığa gələn Tərəflər arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığı inkişaf etdirilmək istəyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər qarşılıqlı maraqlar əsasında və hər iki dövlətin qanunvericiliyinə əsasən səhiyyə və tibb sahəsində əməkdaşlığın inkişafına yardım edirlər.

Maddə 2

Tərəflər arasında əməkdaşlıq aşağıdakılar vasitəsilə həyata keçirilir:

1. məlumat mübadiləsi;

2. mütəxəssis mübadiləsi;

3. Tərəflər üçün birincilik təşkil edən problemlərin təcrübəsi və əldə olunan nəticələrin mübadiləsi;

4. alimlərin milli elmi-tibbi tədbirlərdə iştirakı;

5. birgə elmi və təcrübi layihələr üzərində işlərin aparılması.

Maddə 3

Razılığa gələn Tərəflər qarşılıqlı faydalı əməkdaşlığı səhiyyə və tibb sahəsinin aşağıdakı sahələri üzrə inkişaf etdirəcəklər:

1. səhiyyə sistemində siyasət;

2. ictimai səhiyyə və profilaktik tibb;

3. insan və maliyyə vəsaitlərinin təşkili və idarəsi;

4. əczaçılıq və tibbi məmulatlar;

5. sanatoriya-kurort müalicəsi və reabilitasiyası;

6. qida maddələrinin təhlükəsizliyi və möhtəməl təhlükəli gida məhsulları üzərində sanitar nəzarət;

7. yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarət;

8. ətraf mühit və sağlamlıq;

9. səhiyyə sisteminə kompüter məlumat sistemlərinin hazırlanması və daxil edilməsi;

10. tibbi statistika;

11. fövqəladə vəziyyətlər sonrası yaranan tibbi-sanitar nəticələrinin qarşısının alınması və ləğv edilməsi;

12. tibb elmi.

Sadalanmış əməkdaşlıq sahələri gələcəkdə qarşılıqlı maraq kəsb edən digər sahələrin əlavə edilməsini istisna etmir.

Maddə 4

Tərəflər hər iki Tərəfin keçici və parazitar xəstəliklərin profilaktikası və dövlət sanitar nəzarəti sahəsində səlahiyyətli orqanları arasında əməkdaşlığın inkişafına yardım edəcəklər.

Tərəflər ölkələrində yaranmış xüsusi əhəmiyyətli epidemioloji vəziyyətlər və eyni zamanda yaranan ciddi yoluxucu xəstəliklər haqqında bir-birini məlumatlandırırlar.

Maddə 5

Razılığa gələn Tərəflər səhiyyə və tibb elmi sahəsində əldə etdikləri təcrübələrin və məlumatların mübadiləsi məqsədilə tibb universitetləri, institutları, xəstəxanalar və milli tibb mərkəzləri arasında əməkdaşlığın inkişafına yardım edəcəklər.

Maddə 6

Tərəflər, ölkələrində keçirilən beynəlxalq elmi tibbi tədbirlər haqqında bir-birini məlumatlandırırlar.

Maddə 7

Mütəxəssislərin elmi tədbirlərdə iştiraka dəvətləri zamanı maliyyə şərtləri dəvətnamələrin mətnində dəqiqləşdirilir.

Maddə 8

Bu Sazişin icra edilməsi Azərbaycan Respublikası Tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə, Bolqarıstan Respublikası Tərəfindən isə Bolqarıstan Respublikası Səhiyyə Nazirliyinə həvalə edilir.

Maddə 9

Bu Sazişə dəyişikliklər və əlavələr, onun ayrılmaz hissəsi olan və bu Sazişin qüvvəyə minməsi qaydasında qüvvəyə minən protokollarla tərtib edilir.

Bu Sazişin qüvvədə olduğu müddətdə yaranan fikir ayrılıqları Razılığa gələn Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 10

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Razılığa gələn Tərəflərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş (5) il müddətinə bağlanılır. Əgər Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsinin başa çatmasına ən azı altı ay qalmış onun ləğv edilməsi barədə öz niyyətini Razılığa gələn digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildirməzsə, bu Sazişin qüvvəsi növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 7 oktyabr 2004-cü il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, bolqar və rus dillərində tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılıqları yarandığı təqdirdə rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ İNSANOV	*LYUBOMİR KİMANOV*
Səhiyyə naziri	*Səhiyyə nazirinin müavini*

"Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Bioloji müxtəliflik haqqında" Konvensiyaya 2000-ci il 19 yanvar tarixli Biotəhlükəsizliyə dair Kartagena Protokoluna qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№841-IIQ

Bioloji müxtəliflik haqqında Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu

Bu Protokolun Tərəfləri,

Bioloji müxtəliflik haqqında Konvensiyanın (bundan sonra "Konvensiya" adlanacaq) Tərəfləri olaraq,

Konvensiyanın 19-cu maddəsinin 3 və 4-cü bəndlərinə, eləcə də 8g) və 17-ci maddələrinə əsaslanaraq,

habelə Bioloji müxtəliflik haqqında Konvensiyanın Tərəflərinin 1995-ci il 17 noyabr tarixli Konfransının II/5-ci qərarına, - bu qərarda Konfrans, xüsusən qabaqcadan əsaslandırılmış razılaşmanın müvafiq prosedurlarını baxılmaq üçün hazırlamaqla, biotəhlükəsizliyə dair protokol işlənib hazırlanmasını və burada müasir biotexnologiyanın tətbiqi nəticəsində alınmış və bioloji müxtəlifliyin saxlanmasına və davamlı istifadəsinə mənfi təsir göstərə bilən dəyiş-dirilmiş hər hansı bir canlı orqanizmin transsərhəd yerdəyişməsinə xüsusi diqqət yetirilməsini qərara almışdır, - istinad edərək,

ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro bəyannaməsinin 15-ci Prinsipində öz əksini tapmış ehtiyat tədbirlərinin görülməsi prinsipini bir daha təsdiq edərək,

müasir biotexnologiyanın sürətlə yayılmasından, eləcə də onun insan sağlamlığı üçün təhlükə yaratmaq riskini nəzərə almaqla bioloji müxtəlifliyə mənfi təsir göstərə bilmə potensialı ilə əlaqədar olaraq ictimaiyyətin artan narahatlığından xəbərdar olaraq,

müasir biotexnologiya ətraf mühit və insan sağlamlığı üçün müvafiq təhlükəsizlik tədbirlərinə riayət olunmaqla inkişaf etdirilərsə və istifadə olunarsa, onun insanların rifahının yaxşılaşdırılması üçün geniş imkanlar açdığını etiraf edərək,

eləcə də mənşə mərkəzlərinin və genetik müxtəliflik mərkəzlərinin bəşəriyyət üçün müstəsna əhəmiyyətini etiraf edərək,

dəyişdirilmiş canlı orqanizmlə bağlı məlum və potensial risklərin xarakterinə və miqyasına münasibət göstərməkdə bir çox ölkələrin, o cümlədən inkişaf etməkdə olan ölkələrin imkanlarının məhdudluğunu nəzərə alaraq,

sabit inkişafa yetişmək məqsədilə ticarət və təbiəti mühafizə sazişlərinin qarşılıqlı şəkildə bir-birini tamamlamalı olduğunu etiraf edərək,

bu Protokolun bütün mövcud beynəlxalq sazişlərə uyğun olaraq Tərəflərin hüquq və öhdəliklərinin dəyişməsini nəzərdə tutan bir sənəd kimi şərh edilmədiyini qeyd edərək,

yuxarıdakı təsdiqetmə hissəsində bu Protokolu digər beynəlxalq sazişlərdən asılı etmək məqsədinin güdülmədiyi anlamından çıxış edərək,

aşağıdaklar haqqında razılaşdılar:

Maddə 1

Məqsəd

Ətraf mühit və onun inkişafı üzrə Rio-de-Janeyro Bəyannaməsinin 15-ci Prinsipində təsbit edilmiş ehtiyat tədbirlərinin görülməsi prinsipinə uyğun olaraq bu Protokolun

məqsədi transsərhəd yerdəyişməsinə xüsusi diqqət yetirməklə, müasir biotexnologiyanın tətbiqi nəticəsi olan və insan sağlamlığına risk də nəzərə alınmaqla bioloji müxtəlifliyin saxlanmasına və davamlı istifadəsinə mənfi təsir göstərə biləcək dəyişdirilmiş canlı orqanizmlərin təhlükəsiz ötürülməsi, emalı və istifadə olunması sahəsində lazımi mühafizə səviyyəsinin təmin edilməsinə yardım göstərməkdən ibarətdir.

Maddə 2

Ümumi müddəalar

1. Tərəflərin hər biri bu Protokol çərçivəsində nəzərdə tutulan öz öhdəliklərini yerinə yetirmək üçün lazımi və müvafiq hüquqi, inzibati və digər tədbirləri görür.

2. Tərəflər təmin edirlər ki, dəyişdirilmiş hər hansı canlı orqanizmin alınması, emalı, daşınması, istifadə olunması, ötürülməsi və sərbəstləşdirilməsi elə həyata keçirilsin ki, insan sağlamlığına olan risk də nəzərə alınmaqla, bioloji müxtəliflik üçün risklərə yol verilməsin və ya onlar azaldılsın.

3. Bu Protokolun müddəaları dövlətlərin beynəlxalq hüquqla müəyyən edilmiş ərazi sularına münasibətdə suverenliyinə, bu dövlətlərin beynəlxalq hüquqla müəyyənləşdirilmiş müstəsna iqtisadi zonalarında və kontinental şelfləri hüdudlarında malik olduqları suveren hüquqlarına və yurisdiksiyaya, habelə beynəlxalq hüquqla nəzərdə tutulmuş və müvafiq beynəlxalq sənədlərdə təsbit edilmiş naviqasiya hüquq və azadlıqlarının bütün dövlətlərin dəniz və hava gəmiləri tərəfindən həyata keçirilməsinə qətiyyən xələl gətirməyəcəkdir.

4. Bu Protokolun müddəaları Tərəfin bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsi ilə əlaqədar bu Protokolda nəzərdə tutulan fəaliyyətlərdən daha əhəmiyyətli olan tədbirləri həyata keçirmək hüququnu məhdudlaşdırmır, bu şərtlə ki, həmin tədbirlər bu Protokolun məqsədlərinə və müddəalarına uyğun gəlsin və beynəlxalq hüquq çərçivəsində həmin Tərəfin digər öhdəlikləri ilə uzlaşsın.

5. Tərəflər müvafiq hallarda mövcud ekspert bilgilərini, razılaşmaları və insan sağlamlığı üçün risk sahəsində səriştəli beynəlxalq forumlarda görülən işin nəticələrini nəzərə almağa həvəsləndirilir.

Maddə 3

Terminlərdən istifadə

Bu Protokolun məqsədləri üçün:

a) "Tərəflərin Konfransı" - Konvensiya Tərəflərinin Konfransını bildirir;

b) "qapalı sistemlərdə istifadə" - dəyişdirilmiş canlı orqanizmlərlə bağlı olan, onların xarici mühitlə təmasını və ona edilə biləcək təsiri səmərəli şəkildə məhdudlaşdıran xüsusi tədbirlərlə tənzimlənən qurğu, tikili və ya digər fiziki struktur hüdudunda həyata keçirilən istənilən bir əməliyyatı bildirir;

c) "ixrac" - bir Tərəfdən digər Tərəfə məqsədli şəkildə transsərhəd yerdəyişməsini bildirir;

d) "ixracatçı" - ixrac edən Tərəfin yurisdiksiyasında olan və dəyişdirilmiş canlı orqanizmlərin ixracını təşkil edən hər hansı hüquqi və ya fiziki şəxsi bildirir;

e) "idxal" - digər Tərəfdən bir Tərəfə məqsədli şəkildə transsərhəd yerdəyişməsini bildirir;

f) "idxalçı" - idxal edən Tərəfin yurisdiksiyasında olan və dəyişdirilmiş canlı orqanizmin idxalını təşkil edən hər hansı hüquqi və ya fiziki şəxsi bildirir;

g) "dəyişdirilmiş canlı orqanizm" - müasir biotexnologiyadan istifadə olunması sayəsində əldə edilmiş yeni kombinasiyalı genetik materiala malik hər hansı canlı orqanizmi bildirir;

h) "canlı orqanizm" dedikdə, genetik materialı ötürmək və ya yenidən hasil etmək qabiliyyətli hər hansı bioloji törəmə, o cümlədən steril orqanizmlər, viruslar və ya viroidlər başa düşülür;

i) "müasir biotexnologiya" - təbii fizioloji reproduktiv və ya rekombinasiya maneələrini dəf etməyə imkan verən və ənənəvi yetişdirmə və seleksiya üsulları olmayan:

a. nuklein turşularının süni hazırlanma üsulları, o cümlədən rekombinant dezoksiribonuklein turşusu (DNT) və nuklein turşularının birbaşa toxumalara və ya orqanellaya inyeksiyası, və ya

b. müxtəlif taksonomik statuslu orqanizm hüceyrələrinin birləşməsinə əsaslanan üsulların tətbiqi deməkdir.

j) "iqtisadi inteqrasiya üzrə regional təşkilat" - müəyyən regionun suveren dövlətləri tərəfindən yaradılmış və üzv dövlətlərin bu Protokolla tənzimlənən məsələlər üzrə öz səlahiyyətlərini onun ixtiyarına verdikləri və öz daxili prosedurlarına uyğun olaraq Protokolu imzalamaq, ratifikasiya etmək, qəbul etmək, bəyənmək və ya ona qoşulmaq üçün lazımınca səlahiyyətlərin verildiyi təşkilatı bildirir;

k) "transsərhəd yerdəyişməsi" - dəyişdirilmiş canlı orqanizmin, 17 və 24-cü maddələrin məqsədləri üçün transsərhəd yerdəyişməsinin Tərəflərlə Tərəf olmayan dövlətlər arasında yerdəyişməyə şamil edilməsi istisna olmaqla, bir Tərəfdən digər Tərəfə keçirilməsini bildirir.

Maddə 4

Fəaliyyət dairəsi

Bu Protokol, bioloji müxtəlifliyin saxlanmasına və davamlı istifadəsinə, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, mənfi təsir göstərə bilən dəyişdirilmiş bütün canlı orqanizmlərin transsərhəd yerdəyişməsinə, tranzitinə, emalına və istifadəsinə tətbiq edilir.

Maddə 5

Əczaçılıq preparatları

4-cü maddənin müddəalarından asılı olmayaraq və idxala dair qərarlar qəbul edilənə qədər dəyişdirilmiş bütün canlı orqanizmlər barədə Tərəfin risk səviyyəsini qiymətləndirməyə dair hər hansı hüququna xələl gətirmədən, bu Protokol, insan üçün əczaçılıq preparatları kimi istifadə olunan, transsərhəd daşınması digər müvafiq beynəlxalq sazişlər və ya təşkilatlar tərəfindən tənzimlənən dəyişdirilmiş canlı orqanizmlərin transsərhəd daşınmasına tətbiq olunmur.

Maddə 6

Tranzit və qapalı sistemlərdə istifadə

1. 4-cü maddənin müddəalarından asılı olmayaraq və tranzit Tərəfinin dəyişdirilmiş canlı orqanizmlərin öz ərazisindən daşınmasını tənzimləmək və dəyişdirilmiş konkret canlı orqanizmin onun ərazisindən tranziti barədə 2-ci maddənin 3-cü bəndinə uyğun olaraq həmin Tərəfin hər hansı qərarını biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə təqdim etmək sahəsindəki hər hansı hüququna xələl gətirməməklə, qabaqcadan əsaslandırılmış razılaşma proseduru barədə bu Protokolun müddəaları tranzit olunan dəyişdirilmiş canlı orqanizmlərə tətbiq olunmur.

2. 4-cü maddənin müddəalarından asılı olmayaraq və Tərəfin dəyişdirilmiş bütün canlı orqanizmlərin idxal olunması haqqında qərarların qəbul edilməsinədək onların risk səviyyəsinin dəyərləndirilməsini aparmaq və öz yurisdiksiyası daxilində qapalı sistemlərdə istifadə normaları müəyyənləşdirmək sahəsindəki hər hansı hüququna xələl gətirməməklə, qabaqcadan əsaslandırılmış razılaşma proseduru barədə bu Protokolun müddəaları qapalı sistemlərdə istifadə üçün nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərin idxal Tərəfinin normalarına uyğun olaraq həyata keçirilən transsərhəd yerdəyişməsinə tətbiq edilmir.

Maddə 7

Qabaqcadan əsaslandırılmış razılaşma prosedurunun tətbiqi

1. 5-ci və 6-cı maddələrə uyğun olaraq, 8-10 və 12-ci maddələrdə təsbit edilmiş qabaqcadan əsaslandırılmış razılaşma proseduru idxal Tərəfinin ətraf mühitinə məqsədli introduksiya üçün nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərin ilk məqsədli transsərhəd yerdəyişməsinədək tətbiq edilir.

2. Yuxarıdakı 1-ci bənddə nəzərə çatdırılan "ətraf mühitə məqsədli introduksiya" bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərə aid deyildir.

3. 11-ci maddə bilavasitə ərzaq və ya yem kimi, yaxud emal üçün nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərin ilk transsərhəd yerdəyişməsinədək tətbiq edilir.

4. Qabaqcadan əsaslandırılmış razılaşma proseduru bu Protokolun Tərəflərinin Müşavirəsi hesab edilən Tərəflərin Konfransının qərarında insan sağlamlığı üçün riskləri də nəzərə almaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə mənfi təsir göstərə bilməyən kimi müəyyən edilərək dəyişdirilmiş canlı orqanizmlərin məqsədli transsərhəd yerdəyişməsinə tətbiq edilmir.

Maddə 8

Bildiriş

1. İxrac Tərəfi bildirir və ya tələb edir ki, ixracatçı idxal Tərəfinin səlahiyyətli milli orqanım 7-ci maddənin 1-ci bəndinin fəaliyyət dairəsinə daxil edilən dəyişdirilmiş canlı orqanizmin məqsədli transsərhəd yerdəyişməsinə qədər onu yazılı şəkildə xəbərlə təmin etsin. Bildirişdə, ən azı, I əlavədə göstərilən məlumat olur.

2. İxracatçı tərəfindən təqdim edilmiş informasiyanın dürüstlüyü üçün hüquqi məsuliyyəti ixrac Tərəfi təmin edir.

Maddə 9

Bildirişin alındığını təsdiqləmə

1. İdxal Tərəfi bildirişi aldığı tarixdən doxsan gün ərzində bu barədə bildiriş göndərənə yazılı şəkildə təsdiqləyici məlumat verməlidir.

2. Təsdiqləyici məlumatda:

a) bildirişin alındığı tarix;

b) prima facie bildirişində 8-ci maddədə göstərilən informasiyanın olması;

c) idxal Tərəfinin milli reqlamentləşdirmə bazasına uyğun şəkildə və ya 10-cu maddədə müəyyən edilmiş prosedura əsasən sonrakı tədbirlərin həyata keçirilməsinə başlamağın mümkünlüyü göstərilir.

3. Yuxandakı 2-ci bəndin c) yarımbəndində göstərilən milli reqlamentləşdirmə bazası bu Protokolun müddəalarına uyğun olmalıdır.

4. İdxal Tərəfinin bildirişi almaq haqqında təsdiqləyici məlumat verməməsi onun məqsədli transsərhəd yerdəyişməsinə razılığını bildirmir.

Maddə 10

Qərarların qəbulu proseduru

1. İdxal Tərəfinin qəbul etdiyi qərarlar 15-ci maddənin müddəalarına uyğundur.

2. İdxal Tərəfi 9-cu maddədə göstərilən dövr ərzində məqsədli transsərhəd yerdəyişməsinin həyata keçirməyə qabil olması barədə yazılı şəkildə bildirişçiyə:

a) yalnız idxal Tərəfinin öz razılığını yazılı şəkildə təqdim etdikdən sonra; və ya

b) növbəti yazılı razılıq olmadan, ən azı doxsan gündən sonra yazılı şəkildə məlumat verməlidir.

3. İdxal Tərəfi bildirişi aldığı tarixdən sonra iki yüz yetmiş gün ərzində bildirişçiyə və biotəhlükəsizlik haqqında vasitəçi mexanizminə yuxarıdakı 2-ci bəndin a) yarımbəndində adı çəkilən qərarı barəsində yazılı şəkildə:

a) müəyyən şərtlərlə və ya bunlarsız idxala icazə verərək və elə həmin dəyişdirilmiş canlı orqanizmin növbəti idxalına bu qərarın necə şamil edilməsi barədə informasiya verir;

b) idxalı qadağan edərək;

c) özünün milli reqlamentasiya bazasına və ya I əlavəyə uyğun olaraq müvafiq əlavə informasiya tələb edərək; idxal Tərəfinin öz cavabını göndərəcəyi müddətlərin müəyyənləşdirilməsi zamanı, idxal Tərəfinin müvafiq əlavə informasiya almaq üçün gözləyəcəyi günlərin sayı hesaba alınmır; və ya

d) bu bənddə göstərilən müddətlərin müəyyən dövrədək uzadılması barədə bildirişçiyə xəbər verir.

4. Qeyd-şərtsiz razılaşmalar istisna olmaqla, 3-cü bənd çərçivəsində qəbul olunan qərarlarda, qərarın əsasını təşkil edən dəlillər gətirilməlidir.

5. Əgər idxal Tərəfi bildirişi alma tarixindən sonrakı iki yüz yetmiş gün ərzində öz qərarı haqqında məlumat vermirsə, bu onun məqsədli transsərhəd yerdəyişməyə razılığını bildirmir.

6. Dəyişdirilmiş canlı orqanizmin idxal Tərəfində insan sağlamlığına risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə göstərə biləcəyi mənfi təsirlə bağlı elmi şəkildə kifayət qədər əsaslandırılmış müvafiq elmi informasiya məlumatları və bilgilərinin olmaması, idxal Tərəfi üçün, yuxarıdakı 3-cü bənddə deyildiyi kimi, belə mənfi təsirin qarşısının alınması və ya maksimum məhdudlaşdırılmasından ötrü dəyişdirilmiş canlı orqanizmin idxalı ilə bağlı müvafiq qərarın qəbul edilməsinə mane ola bilməz.

7. Tərəflərin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı özünün ilk müşavirəsində idxal Tərəfinin qərarlar qəbul etməsinə dəstək verəcək müvafiq prosedur və mexanizmləri müəyyənləşdirir.

Maddə 11

Bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərə dair prosedur

1. Bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməkdən ötrü transsərhəd yerdəyişməsi obyekti ola biləcək dəyişdirilmiş canlı orqanizmin bazarda satışı da daxil olmaqla, daxili istifadəsinə dair son qərar qəbul etmiş Tərəf bu barədə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi vasitəsilə Tərəfləri bu cür qərarın qəbul edilməsindən sonrakı on beş gün ərzində məlumatlandırır. Belə informasiyaya, ən azı, II əlavədə göstərilən məlumatlar daxil olmalıdır. Tərəf informasiya materiallarının yazılı surətini hər bir Tərəfin milli əlaqələndirmə mərkəzinə təqdim edir, mərkəz isə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə girişin olmaması barədə katibliyə vaxtında məlumat verir. Bu müddəa çöl sınaqları barədə qərarlara şamil edilmir.

2. 1-ci bəndə uyğun olaraq qərar qəbul edən Tərəf sifariş verən subyektin informasiyasının dürüstlüyü barədə hüquqi tələbləri təmin edir.

3. Hər bir Tərəf II əlavənin b) bəndində göstərilən orqandan əlavə informasiya ala bilər.

4. Tərəf milli reqlamentasiya bazası çərçivəsində, bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmin idxalı barədə bu Protokolun məqsədlərinə müvafiq olan qərar qəbul edə bilər.

5. Hər bir Tərəf bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərin idxalına tətbiq ediləcək istənilən milli qanunların, normativ müddəaların və rəhbər prinsiplərin, əgər belələri varsa, surətlərini biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə təqdim edir.

6. Öz daxili yurisdiksiyasını tətbiq edərkən və yuxarıdakı 4-cü bənddə göstərilən öz daxili reqlamentasiya bazası olmadıqda, Tərəf inkişaf etməkdə olan ölkə və ya keçid iqtisadiyyatında olan ölkədirsə, biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi vasitəsilə bəyan edə bilər ki, yuxarıdakı 1-ci bəndə uyğun şəkildə barəsində informasiya təqdim olunmuş bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tu-

tulan dəyişdirilmiş canlı orqanizmlərin ilk ixrac göndərişinə qədər onun qəbul etdiyi qərar aşağıdakı meyarlara uyğun olaraq qəbul olunacaq:

a) 15-ci maddəyə uyğun olaraq riskin dəyərləndirilməsinin keçirilməsi; və

b) iki yüz yetmiş gündən artıq olmamaqla, proqnozlaşdırılmış müddətdə qərarın qəbul edilməsi.

7. Tərəfin öz qərarı barədə yuxarıdakı 6-cı bəndə uyğun şəkildə xəbər verməməsi faktı, əgər Tərəfin başqa qeyd-şərti yoxdursa, *onun bilavasitə ərzaq, yaxud yem kimi və ya* emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmin idxalı barədə razılığını və ya imtina etməsini bildirmir.

8. İdxal Tərəfində, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə dəyişdirilmiş canlı orqanizmin mümkün mənfi təsirinin miqyasına dair müvafiq elmi informasiya məlumatı və bilgilərinin azlığı üzündən elmi gerçəkliyin olmaması idxal Tərəfi üçün bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş bu cür canlı orqanizmin idxalı barədə, belə mümkün mənfi təsirin qarşısının alınması və ya maksimum məhdudlaşdırılması məqsədilə müvafiq qərarın qəbul edilməsində maneə sayıla bilməz.

9. Tərəf bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərə dair özünün maliyyə, texniki yardıma və potensial yaratmaq ehtiyaclarını göstərə bilər. Tərəflər bu ehtiyacların təmin edilməsi üçün 22 və 28-ci maddələrin müddəalarına uyğun olaraq əməkdaşlıq edirlər.

Maddə 12

Qərarlara yenidən baxılması

1. İdxal Tərəfi bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə potensial mənfi təsir barədə yeni elmi informasiyanı nəzərə almaqla, eləcə də insan sağlamlığına riski nəzərə almaqla, məqsədli transsərhəd yerdəyişməsi haqqında qərara yenidən baxa və onu dəyişdirə bilər. Belə halda həmin Tərəf, həmin qərarda haqqında danışılan dəyişdirilmiş canlı orqanizmin yerdəyişməsi barədə əvvəllər məlumat vermiş istənilən bildirişçini və biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmini otuz gün ərzində xəbərdar edir, öz qərarını əsaslandıran dəlilləri göstərir.

2. İxrac Tərəfi və ya bildirişçi idxal Tərəfindən 10-cu maddəyə uyğun olaraq bu məsələ ilə bağlı qəbul etdiyi qərarı dəyişdirmək barədə xahiş edə bilər, əgər ixrac Tərəfi və ya bildirişçi hesab edirlərsə ki:

a) barəsində qərarın qəbul edildiyi riski dəyərləndirmə nəticələrinə təsir edə biləcək şərait dəyişmələri olmuş; yaxud da

b) müvafiq əlavə elmi və ya texniki informasiya meydana çıxmışdır.

3. İdxal Tərəfi doxsan gün ərzində belə xahişə yazılı cavab verir və bu cür qərar qəbul olunmasını əsaslandıran dəlilləri göstərir.

4. İdxal Tərəfi istədiyi halda sonrakı idxallarla bağlı risklərin dəyərləndirilməsinin keçirilməsini tələb edə bilər.

Maddə 13

Sadələşdirilmiş prosedur

1. İdxal Tərəfi bu Protokolun məqsədinə uyğun olaraq, dəyişdirilmiş canlı orqanizmlərin təhlükəsizlik məqsədli transsərhəd yerdəyişməsini təmin etmək üçün lazımi tədbirlər görməsi şərtilə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi ilə aşağıdakıları qabaqcadan razılaşdıra bilər:

a) *onun ərazisinə məqsədli transsərhəd yerdəyişməsinin* idxal Tərəfinin bu yerdəyişmə barədə xəbərdar edilməsi ilə eyni zamanda baş verə biləcəyi halları; və

b) onun ərazisinə qabaqcadan əsaslandırılmış razılaşma prosedurunun fəaliyyət sferasından çıxarılmalı olan dəyişdirilmiş canlı orqanizmlərin idxal edilməsini.

Yuxarıdakı a) yarımbəndində nəzərdə tutulan bildirişlər eyni Tərəfə sonrakı analoji yerdəyişmələr baş verdikdə tətbiq edilə bilər.

2. Yuxarıdakı 1a) bəndində ad çəkilən bildirişdə göstərilməsi zəruri olan məqsədli transsərhəd yerdəyişməsinə dair informasiya I əlavədə göstərilən informasiyaya uyğun olmalıdır.

Maddə 14

İkitərəfli, regional və çoxtərəfli saziş və məqavilələr

1. Tərəflər bu Protokolun məqsədinə uyğun olaraq dəyişdirilmiş canlı orqanizmlərin məqsədli transsərhəd yerdəyişməsi ilə bağlı ikitərəfli, regional və çoxtərəfli sazişlər və müqavilələr bağlaya bilərlər, bu şərtlə ki, həmin sazişlər və müqavilələr müdafiə səviyyəsinin Protokolda nəzərdə tutulduğundan aşağı həddə endirilməsinə gətirib çıxarmasın.

2. Tərəflər istər bu Protokolun qüvvəyə minməsi tarixindən əvvəl, istərsə də sonra, aralarında bağlanan hər hansı belə ikitərəfli, regional və çoxtərəfli sazişlər və müqavilələr haqqında bir-birlərini biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi vasitəsilə xəbərdar edirlər.

3. Bu Protokolun müddəaları bu cür saziş və ya müqavilələrin Tərəfləri arasında həmin saziş və müqavilələrə uyğun olaraq həyata keçirilən məqsədli transsərhəd yerdəyişməsinə şamil edilmir.

4. Hər bir Tərəf öz ərazisinə konkret idxala münasibətdə özünün daxili normativ müddəalarını tətbiq edə bilər və öz qərarı barədə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmini xəbərdar edir.

Maddə 15

Risklərin dəyərləndirilməsi

1. Risklərin bu Protokola uyğun olaraq dəyərləndirilməsi elmi cəhətdən əsaslandırılmış şəkildə, III əlavəyə uyğun olaraq və qəbul olunmuş risklərin dəyərləndirilməsi üsulları nəzərə alınmaqla həyata keçirilir. Risklərin belə dəyərləndirilməsi, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, dəyişdirilmiş canlı orqanizmlərin bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə göstərə biləcəyi mənfi təsiri müəyyənləşdirmək və

dəyərləndirmək məqsədilə ən azı, 8-ci maddəyə uyğun şəkildə təqdim olunmuş informasiya və mövcud olan digər elmi məlumatlara əsaslanır.

2. İdxal Tərəfi 10-cu maddəyə uyğun olaraq qərar qəbul edilməsi üçün risklərin dəyərləndirilməsinin həyata keçirilməsini təmin edir. O, ixracatçıdan risklərin dəyərləndirilməsinin həyata keçirilməsini tələb edə bilər.

3. Əgər idxal Tərəfi belə tələb irəli sürürsə, risklərin dəyərləndirilməsinin həyata keçirilməsi ilə bağlı xərcləri bildirişçi ödəyir.

Maddə 16

Risklərin tənzimlənməsi

1. Tərəflər Konvensiyanın 8-ci maddəsinin g) bəndini nəzərə alaraq, dəyişdirilmiş canlı orqanizmlərin istifadəsi, emalı və transsərhəd yerdəyişməsi ilə bağlı bu Protokolun müddəaları ilə müəyyənləşdirilmiş risklərin tənzimlənməsi, azaldılması və nəzarətdə saxlanması üçün risklərin dəyərləndirilməsinə aid müvafiq mexanizm, tədbir və strategiyaları işləyib hazırlayır və dəstəkləyirlər.

2. Risklərin dəyərləndirilməsi nəticələrinə əsaslanmış tədbirlər, idxal Tərəfinin ərazisi hüdudlarında dəyişdirilmiş canlı orqanizmlərin insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə göstərə biləcəyi mənfi təsirin qarşısının alınması üçün lazım olduğu qədər tətbiq edilir.

3. Hər bir Tərəf dəyişdirilmiş canlı orqanizmlərin məqsədsiz transsərhəd yerdəyişməsinə yol verilməməsi üçün lazımi tədbirlər görür, o cümlədən dəyişdirilmiş canlı orqanizmin sərbəstləşdirilməsinə başlanılanadək risklərin dəyərləndirilməsinin həyata keçirilməsinə dair tələblər irəli sürür.

4. Yuxarıdakı 2-ci bəndin müddəalarına xələl gətirmədən hər bir Tərəf istər idxal edilən, istərsə də özündə yaradılan dəyişdirilmiş hər hansı canlı orqanizmin nəzərdə tutulan istifadəsinə qədər, onun həyati silsiləsinə, yaxud təkrar istehsalına uyğun lazımınca müşahidə dövrü keçməsini təmin etməyə çalışır.

5. Tərəflər:

a) insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə mənfi təsir göstərə biləcək dəyişdirilmiş canlı orqanizmlərin və ya dəyişdirilmiş canlı orqanizmlərin konkret əlamətlərinin müəyyənləşdirilməsi və

b) dəyişdirilmiş belə canlı orqanizmlərlə və ya onların konkret əlamətləri ilə rəftara dair lazımi tədbirlərin görülməsi məqsədilə əməkdaşlıq edirlər.

Maddə 17

Məqsədsiz transsərhəd yerdəyişmə və fövqəladə tədbirlər

1. Hər bir Tərəf, əgər onun yurisdiksiyası altında olan rayonda baş verən hadisədən xəbər tutursa və bu hadisə nəticəsində sərbəstləşmə hallarına təsadüf edilirsə, bu isə öz növbəsində, belə dövlətlərdə insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərə bilərsə, o, aidiyyəti dövlətlərə və ya potensial aidiyyəti olacaq dövlətlərə, biotəh-

lükəsizlik üzrə vasitəçilik mexanizminə və müvafiq hallarda əlaqədar beynəlxalq təşkilatlara bildiriş üçün müvafiq tədbirlər görür. Həmin Tərəf bildirişi yuxarıda göstərilən situasiyanın yaranması barədə məlumat daxil olan kimi göndərir.

2. Hər bir Tərəf biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə bu maddəyə uyğun olaraq müvafiq bildirişlər almaq məqsədilə əlaqə məntəqəsinin təyin edilməsi haqqında bu Protokolun həmin Tərəf üçün qüvvəyə minməsi tarixindən gec olmayaraq müvafiq ətraflı informasiya təqdim edir.

3. Yuxarıdakı 1-ci bəndə uyğun şəkildə göndərilmiş hər bir bildirişdə aşağıdakılar olmalıdır:

a) dəyişdirilmiş canlı orqanizmin nəzərdə tutulan miqdarı və müvafiq xarakteristikası və/və ya əlamətləri haqqında müvafiq informasiya;

b) hadisənin baş verdiyi Tərəfdə sərbəstləşmə şəraiti və onun ehtimal olunan tarixi haqqında, eləcə də dəyişdirilmiş canlı orqanizmin mənşə Tərəfində istifadəsi barəsində informasiya;

c) insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə ehtimal olunan hər hansı mənfi təsir haqqında hər cür informasiya, eləcə də riskin tənzimlənməsi üzrə mümkün tədbirlər haqqında informasiya;

d) hər hansı digər müvafiq informasiya; və

e) əlavə informasiya almaq üçün əlaqə məntəqəsi.

4. Yuxarıdakı 1-ci bənddə haqqında danışılan dəyişdirilmiş canlı orqanizmin sərbəstləşmə mənbəyinin yurisdiksiyasına aid olduğu hər bir Tərəf insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə dəyəcək hər hansı mənfi təsiri minimuma endirmələri məqsədilə təmasda olmuş və ya təması ehtimal olunan dövlətlərlə təxirə salınmadan məsləhətləşmələr keçirir ki, onlar müvafiq cavab tədbirini müəyyənləşdirə bilsinlər və fövqəladə tədbirlər də daxil olmaqla, zəruri tədbirlər görə bilsinlər.

Maddə 18

Emal, daşıma, qablaşdırma və eyniləşdirmə

1. İnsan sağlamlığı üçün risk də nəzərə alınmaqla, bioloji müxtəlifliyin saxlanması və istifadəsinə ola biləcək mənfi təsirin qarşısının alınması məqsədilə hər bir Tərəf bu Protokolun fəaliyyət dairəsi çərçivəsində məqsədli transsərhəd yerdəyişməsi obyekti olan dəyişdirilmiş canlı orqanizmlərin müvafiq beynəlxalq qayda və normalar nəzərə alınmaqla, təhlükəsizlik şərtlərinə əməl edilməklə emal olunması, qablaşdırılması və daşınması üçün lazımi tədbirlər görür.

2. Hər bir Tərəf lazımi tədbirlər görür ki:

a) bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmləri müşayiət edən sənədlərdə əlavə informasiya almaq üçün əlaqə məntəqəsi də göstərilməklə, həmin dəyişdirilmiş canlı orqanizmlərin tərkibində "ola bilsin ki, dəyişdirilmiş canlı orqanizmlər olduğu" və

ətraf mühitə məqsədli introduksiya üçün nəzərdə tutulmaması dəqiq şəkildə müəyyənləşdirilsin. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı bu məqsədlə geniş tələblər barədə, o cümlədən eyniləşdirmə məlumatları və istənilən müstəsna əlamətlər haqqında bu Protokolun qüvvəyə minməsi tarixindən iki ildən gec olmayaraq qərar qəbul edir;

b) qapalı sisemlərdə istifadə olunmaq üçün nəzərdə tutulmuş dəyişdirilmiş canlı orqanizmləri müşayiət edən sənədlərdə onların təhlükəsiz emalı, saxlanılması, daşınması və istifadəsi ilə bağlı istənilən tələblər, əlavə informasiya almaq məqsədilə əlaqə məntəqəsi, həmçinin dəyişdirilmiş canlı orqanizmlərin göndərildiyi şəxsin adı, ünvanı və müəssisənin adı göstərilməklə, dəyişdirilmiş canlı orqanizm olması dəqiq şəkildə müəyyənləşdirilsin; və

c) idxal Tərəfinin ətraf mühitinə məqsədli introduksiya üçün nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmləri və bu Protokolun fəaliyyət dairəsinə düşən dəyişdirilmiş hər hansı canlı orqanizmləri müşayiət edən sənədlərdə onların eyniləşdirmə məlumatları və müvafiq əlamətləri və/və ya xarakteristikaları, təhlükəsiz emalı, saxlanılması, daşınması və istifadəsinə dair hər hansı tələblər, eləcə də əlavə informasiya alınması üçün əlaqə məntəqəsi, müvafiq hallarda idxalçının və ixrac edənin adı və ünvanı göstərilməklə və yerdəyişmənin bu Protokolun ixrac edənə tətbiq olunan tələblərinə uyğun surətdə həyata keçirilməsi barədə deklarasiyası olmaqla, onların dəyişdirilmiş canlı orqanizmlər olması dəqiq müəyyənləşdirilsin.

3. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı digər əlaqədar beynəlxalq orqanlarla məsləhətləşərək eyniləşdirmə, emal, qablaşdırma və daşıma üsullarına dair normaların işlənib hazırlanmasının zəruriliyi və şərtlərini nəzərdən keçirir.

Maddə 19

Səlahiyyətli milli orqanlar və milli əlaqələndirici mərkəzlər

1. Hər bir Tərəf katibliklə öz adından əlaqə saxlamağa cavabdeh olan bir milli əlaqələndirici mərkəz təyin edir. Bundan əlavə, hər bir Tərəf bu Protokolla tələb olunan inzibati funksiyaları yerinə yetirmək üçün cavabdeh olan bir və ya bir neçə səlahiyyətli milli orqan təyin edir. Həmin orqanlar Tərəfin adından bu funksiyalarla əlaqədar fəaliyyət göstərməyə səlahiyyətlidirlər. Tərəf həmçinin həm milli əlaqələndirici mərkəz, həm də səlahiyyətli milli orqan funksiyalarını yerinə yetirmək üçün bir orqan da təyin edə bilər.

2. Hər bir Tərəf onun üçün bu Protokolun qüvvəyə minməsi tarixindən gec olmayaraq özünün milli əlaqələndirici mərkəzinin və səlahiyyətli milli orqanı və ya orqanlarının adlarını və ünvanlarını katibliyə bildirməlidir. Tərəf birdən artıq səlahiyyətli milli orqan təyin edərsə, öz bildirişi ilə onlar haqqında, belə orqanların müvafiq vəzifələrinə dair lazımi məlumatı katibliyə göndərməlidir. Tətbiq edilməsi mümkün olan yerdə bu məlumatda ən azı, dəyişdirilmiş canlı orqanizmlərin bu və ya başqa növü ilə hansı səlahiyyətli orqanın məşğul olacağı göstərilməlidir. Hər bir Tərəf özünün milli əlaqələndirici mərkəzinin və ya səlahiyyətli milli orqanı və ya orqanlarının adında, ünvanında və vəzifələrində hər hansı dəyişikliklər barədə dərhal katibliyə məlumat verməlidir.

3. Katiblik yuxarıdakı 2-ci bəndə uyğun olaraq aldığı bildirişlər haqqında Tərəflərə dərhal məlumat verir, eləcə də biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi vasitəsilə də belə informasiya verir.

Maddə 20

Biotəhlükəsizlik üzrə informasiya mübadiləsi və vasitəçilik mexanizmi

1. Bununla, Konvensiyanın 18-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq yaradılmış vasitəçilik mexanizminin bir hissəsi kimi aşağıdakı məqsədlərlə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi təsis edilir:

a) dəyişdirilmiş canlı orqanizmlərlə bağlı elmi, texniki, təbiəti mühafizə və hüquqi informasiyaların və təcrübələrin mübadiləsinə yardım etmək üçün; və

b) Protokolun həyata keçirilməsində Tərəflərə yardım etmək üçün; həm də bu halda Tərəf sayılan inkişaf etməkdə olan ölkələrin, o cümlədən onların arasında ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin, keçid iqtisadiyyatlı ölkələrin, eləcə də törəmə mərkəzləri və genetik müxtəliflik mərkəzləri olan ölkələrin xüsusi tələbatları nəzərə alınmalıdır.

2. Biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmi yuxarıdakı 1-ci bəndin məqsədləri üçün informasiya yayan bir vasitədir. O, Protokolun tətbiqi üçün Tərəflərin göndərdikləri informasiyaya girişi təmin edir. O, eləcə də mümkün olan yerlərdə biotəhlükəsizlik sahəsində informasiya mübadiləsi üzrə digər beynəlxalq mexanizmlərə girişi təmin edir.

3. Hər bir Tərəf məxfi informasiyaların qorunmasına xələl gətirmədən, bu Protokola uyğun olaraq biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə verilməsi tələb olunan istənilən informasiyanı, habelə aşağıdakıları biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə təqdim edir:

a) Protokolun icrası üçün mövcud olan hər hansı qanunları, normativ müddəaları və rəhbər prinsipləri, eləcə də qabaqcadan əsaslandırılmış razılaşma prosedurunu tətbiq etmək üçün Tərəflərə lazım olan informasiyaları;

b) hər hansı ikitərəfli, regional və çoxtərəfli saziş və müqavilələri;

c) dəyişdirilmiş canlı orqanizmlərə dair onun reqlamentasiya prosesində aparılmış və 15-ci maddəyə uyğun olaraq həyata keçirilmiş risklərin dəyərləndirilməsi yekunlarının və ya ekoloji icmalların xülasəsini, o cümlədən zərurət yarandıqda, onların tərkibində olan məhsullar, məhz dəyişdirilmiş canlı orqanizmlərdən alınan müasir biotexnologiyanın istifadə olunması nəticəsində əldə edilmiş aşkarlana bilən törəmə genetik materialın yeni kombinasiyaları haqqında müvafiq informasiyanı;

d) dəyişdirilmiş canlı orqanizmlərin idxalı və ya sərtləşdirilməsinə dair son qərarı; və

qabaqcadan əsaslandırılmış razılaşma prosedurunun icrası haqqında məruzələr də daxil olmaqla, 33-cü maddəyə uyğun olaraq onun göndərdiyi məruzələri təqdim edir.

4. Mexanizmin fəaliyyəti haqqında məruzələrin təqdimi də daxil olmaqla, biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminin fəaliyyət göstərməsi şərtləri, bu Protokolun Tərəf-

lərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının birinci Müşavirəsində müzakirə və qəbul edilir, sonralar isə vaxtaşırı olaraq onlara yenidən baxılır.

Maddə 21

Məxfi informasiya

1. İdxal Tərəfi bildirişçiyə bu Protokolun prosedurlarına uyğun olaraq təqdim edilmiş və ya idxal Tərəfinin bu Protokol üzrə qabaqcadan əsaslandırılmış razılaşma proseduru çərçivəsində tələb etdiyi informasiyalardan hansına məxfi kimi baxılmalı olduğunu göstərməsinə icazə verir. Belə hallarda, xahiş edildikdə, əsaslandırma təqdim olunur.

2. İdxal Tərəfi bildirişçi ilə bildirişçinin məxfi kimi təqdim etdiyi informasiyanın belə hesab edilə bilmədiyi barədə qərara gəldiyi halda məşvərət keçirir və hər hansı açıqlamaya qədər öz qərarı haqqında bildirişçiyə məlumat verərək, xahiş edildikdə, müvafiq səbəbləri göstərir və açıqlama anına qədər məsləhətləşmələr keçirilməsi və daxildə qərara yenidən baxılması imkanını təmin edir.

3. Hər bir Tərəf bu Protokolun çərçivəsi daxilində alınmış məxfi informasiyanın, o cümlədən bu Protokolda nəzərdə tutulan qabaqcadan əsaslandırılmış razılaşma proseduru kontekstində alınmış hər hansı məxfi informasiyanın mühafizəsini təmin edir. Hər bir Tərəf özündə belə informasiyanın mühafizəsi prosedurunun olmasını təmin edir və belə informasiyanın məxfiliyinin, özünün dəyişdirilmiş canlı orqanizmlərinə məxfi informasiya üçün nəzərdə tutulandan az etibarlı olmayan mühafizəsini təmin edir.

4. İdxal Tərəfi bu cür informasiyadan bildirişçinin yazılı razılığından başqa hallarda kommersiya məqsədləri üçün istifadə etmir.

5. Əgər bildirişçi bildirişini geri götürür və ya götürmüşsə, idxal Tərəfi, tədqiqatlar və istehsalat haqqında olan informasiyaların məxfiliyini, habelə məxfiliyi barədə həmin Tərəflə bildirişçi arasında fikir ayrılığı olan informasiya da daxil olmaqla, kommersiya və sənaye informasiyasının məxfiliyini qoruyur.

6. Yuxarıdakı 5-ci bəndə xələl gətirmədən aşağıdakı informasiya məxfi sayılmır:

a) bildirişçinin adı və ünvanı;

b) dəyişdirilmiş canlı orqanizmin və ya orqanizmlərin ümumi təsviri;

c) bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsinə mənfi təsir risklərinin, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, dəyərləndirilməsinin xülasəsi; və

d) fövqəladə hallarda görüləcək tədbirlərin hər hansı üsul və planları.

Maddə 22

Potensialın yaradılması

1. Tərəflər biotəhlükəsizliyin təmin olunması üçün lazım olan həddə biotexnologiya da daxil olmaqla, insan ehtiyatlarının və biotəhlükəsizlik üzrə təşkilat potensialının inkişaf etdirilməsi və/və ya möhkəmləndirilməsində, inkişaf etməkdə olan ölkələr sayılan Tərəflərdə, xüsusən zəif inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan kiçik ada dövlətlərində, eləcə də keçid iqtisadiyyatlı ölkə olan Tərəflərdə bu Protokolun səmərəli icrası

məqsədilə, o cümlədən qlobal, regional, subregional və milli müəssisə və təşkilatlar vasitəsilə və zərurət yarandıqda özəl sektorun cəlb olunmasına yardım etməklə əməkdaşlıq edirlər.

2. Yuxarıdakı 1-ci bəndin məqsədlərinin icrası üçün əməkdaşlıqla bağlı inkişaf etməkdə olan ölkələr sayılan, o cümlədən daha az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətləri də daxil olmaqla, Tərəflərin Konvensiya müddəalarına uyğun olaraq maliyyə ehtiyatları, texnologiya və nouhaunun əlçatarlığı və ötürülməsinə olan ehtiyacları biotəhlükəsizlik sahəsində potensialın yaradılması zamanı bütünlüklə nəzərə alınır. Hər bir Tərəfin şəraitinin, imkanlarının və ehtiyaclarının müxtəlifliyindən asılı olaraq, potensialın yaradılması üzrə əməkdaşlığa biotexnologiyanın lazımi qaydada və təhlükəsiz istifadəsi üçün elmi və texniki kadrların hazırlanması, biotəhlükəsizliyin maraqları üzrə risklərin dəyərləndirilməsi və risklərin tənzimlənməsi, eləcə də biotəhlükəsizlik sahəsində texnoloji və təşkilati imkanların genişləndirilməsindən istifadə daxildir. Keçid iqtisadiyyatlı ölkə olan Tərəflərin ehtiyacları da biotəhlükəsizlik sahəsində belə potensialın yaradılmasında tamamilə nəzərə alınır.

Maddə 23

İctimaiyyətin məlumatlandırılması və onun iştirakı

1. Tərəflər:

a) dəyişdirilmiş canlı orqanizmlərin ötürülməsi, emalı və istifadəsi zamanı bioloji müxtəlifliyin saxlanması və davamlı istifadəsi ilə bağlı təhlükəsizliyin, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, təmin olunması barədə ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsinə, eləcə də bu işdə iştirakına şərait yaradır və kömək edirlər. Bu zaman Tərəflər, lazım gəldikdə, digər dövlətlər və beynəlxalq orqanlarla əməkdaşlıq edirlər;

b) ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işinin, bu Protokola uyğun olaraq idxal edilə biləcək dəyişdirilmiş canlı orqanizmlərin eyniləşdirilməsi barədə informasiyanın da əlçatarlığı məsələlərini əhatə etməsi üçün səy göstərirlər.

2. Özlərinin müvafiq qanunlarına və normativ müddəalarına riayət edən Tərəflər dəyişdirilmiş canlı orqanizmlərlə bağlı qərarların qəbul edilməsi prosesində ictimaiyyətlə məsləhətləşir və belə qərarların nəticələrini ictimaiyyətə təqdim edirlər, həm də bu zaman 21-ci maddəyə uyğun olaraq informasiyanın məxfiliyinin qorunmasını təmin edirlər.

3. Hər bir Tərəf biotəhlükəsizlik üzrə vasitəçilik mexanizmindən ictimaiyyətin istifadə edə bilməsi vasitələrinə dair öz ictimaiyyətini məlumatlandırmaq üçün səy göstərir.

Maddə 24

Tərəf olmayan dövlətlər

1. Tərəflər və Tərəf olmayan dövlətlər arasında dəyişdirilmiş canlı orqanizmlərin transsərhəd yerdəyişmələri bu Protokolun məqsədlərinə uyğun olmalıdır. Tərəflər belə transsərhəd yerdəyişmələrinə dair Tərəf olmayan dövlətlərlə ikitərəfli, regional və çoxtərəfli saziş və razılaşmalar bağlaya bilərlər.

2. Tərəflər Tərəf olmayan dövlətləri bu Protokola qoşulmağa və onların milli yurisdiksiyası altında olan rayonlarda sərbəstləşdirilmiş və ya bu rayonlara gətirilən, yaxud da bu rayonlardan aparılan dəyişdirilmiş canlı orqanizmlər haqqında informasiyanı biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə təqdim etməyə təşviq edirlər.

Maddə 25

Qeyri-qanuni transsərhəd yerdəyişmələri

1. Hər bir Tərəf öz ərazisində bu Protokolun icra olunması üzrə dəyişdirilmiş canlı orqanizmlərin daxili qaydaların pozulması ilə transsərhəd yerdəyişmələrinə yol verilməməsi üçün tədbirlər, lazım gəldiyi hallarda isə cəza nəzərdə tutan müvafiq daxili tədbirlər görür. Bu cür yerdəyişmələr qeyri-qanuni sayılır.

2. Qeyri-qanuni transsərhəd yerdəyişmələri hallarında aidiyyəti Tərəf mənşə Tərəfindən dəyişdirilmiş müvafiq canlı orqanizmi, şəraitdən asılı olaraq, repatriasiya və ya məhvetmə yolu ilə öz hesabına aradan götürməyi tələb edə bilər.

3. Hər bir Tərəf ona aid qeyri-qanuni transsərhəd yerdəyişmələri halları barədə biotəhlükəsizlik üzrə vasitəçilik mexanizminə məlumat verir.

Maddə 26

Sosial-iqtisadi mülahizələr

1. Bu Protokol çərçivəsində idxal haqqında qərar, yaxud Protokolun icrası məqsədilə daxili tədbirlər hazırlandıqda Tərəflər öz beynəlxalq öhdəliklərinə uyğun olaraq, dəyişdirilmiş canlı orqanizmin bioloji müxtəlifliyin saxlanmasına və davamlı istifadəsinə mənfi təsiri ilə bağlı, ilk növbədə yerli icmalar üçün bioloji müxtəlifliyin dəyərliliyi baxımından sosial-iqtisadi mülahizələri nəzərə ala bilərlər.

2. Tərəflər, dəyişdirilmiş canlı orqanizmlərlə bağlı ilk növbədə yerli icmalar üçün hər hansı sosial-iqtisadi nəticələr haqqında elmi tədqiqatlar aparılmasında və informasiya mübadiləsində əməkdaşlığa təşviq edilirlər.

Maddə 27

Məsuliyyət və əvəzödəmə

Bu Protokol Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı özünün ilk müşavirəsində, dəyişdirilmiş canlı orqanizmlərin transsərhəd yerdəyişməsi nəticəsində dəymiş zərərə görə məsuliyyət və əvəzödəmə sahəsində, bu məsələlər üzrə beynəlxalq hüquqda nəzərdə tutulan cari proseslərin təhlili və lazımi uçotu əsasında müvafiq beynəlxalq qayda və prosedurların işlənib hazırlanmasına dair proses təşkil edir və bu prosesin dörd il ərzində başa çatdırılmasına səy göstərir.

Maddə 28

Maliyyələşdirmə mexanizmi və maliyyə ehtiyatları

1. Bu Protokolun icrası üçün maliyyə ehtiyatları məsələsinə baxılan zaman Tərəflər Konvensiyanın 20-ci maddəsinin müddəalarını nəzərə alırlar.

2. Konvensiyanın 21-ci maddəsinə uyğun olaraq yaradılmış maliyyələşdirmə mexanizmi təşkilati strukturun həlqəsi sayılır və bu Protokolun maliyyələşdirmə mexanizminin idarə edilməsi ona həvalə olunmuşdur.

3. Bu Protokol Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı bu Protokolun 22-ci maddəsinin həsr olunduğu potensialın yaradılması ilə bağlı yuxarıdakı 2-ci bənddə göstərilmiş maliyyələşdirmə mexanizminə dair rəhbər göstərişlərin hazırlanması zamanı, Tərəflərin Konfransının baxması üçün inkişaf etməkdə olan ölkə sayılan, o cümlədən kiçik ada dövlətləri də daxil olmaqla, az inkişaf etmiş ölkə olan Tərəflərin maliyyə ehtiyatlarına tələbatını nəzərə alır.

4. Yuxarıdakı 1-ci bəndin kontekstində Tərəflər inkişaf etməkdə olan ölkələr sayılan Tərəflərin, o cümlədən zəif inkişaf etmiş ölkələrin və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin, eləcə də keçid iqtisadiyyatlı ölkə olan Tərəflərin, onların bu Protokolun məqsədlərinin icrası üçün imkanlarının müəyyənləşdirilməsi və həyata keçirilməsi üzrə səyləri çərçivəsində tələbatlarını nəzərə alırlar.

5. Tərəflərin Konfransının müvafiq qərarlarında, bu Protokolun qəbul edilməsinədək təsbit edilənlər də daxil olmaqla, Konvensiyanın maliyyələşdirilməsi mexanizminə təqdim olunan rəhbər göstərişlər bu maddənin müddəalarına mutatis mutandis tətbiq edilir.

6. İnkişaf etmiş ölkələr olan Tərəflər də bu Protokolun müddəalarının icrası üçün maliyyə və texnoloji resursları təqdim edə, inkişaf etməkdə olan ölkələr sayılan Tərəflər və keçid iqtisadiyyatlı sayılan Tərəflər isə ikitərəfli, regional və çoxtərəfli kanallarla maliyyə resursları və texnoloji resurslar ala bilərlər.

Maddə 29

Bu Protokolun tərəflərinin müşavirəsi kimi çıxış edən tərəflərin Konfransı

1. Tərəflərin Konfransı bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edir.

2. Bu Protokolun Tərəfləri olmayan Konvensiya Tərəfləri bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının istənilən müşavirəsinin işində müşahidəçi kimi iştirak edə bilərlər. Tərəflərin Konfransı bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış etdiyi halda, bu Protokol çərçivəsində qərarları yalnız onun Tərəfləri olan iştirakçılar qəbul edir.

3. Tərəflərin Konfransı bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış etdiyi halda, Konvensiyanın bu Protokolun Tərəfi olmayan hər hansı bir Tərəfini təmsil edən Tərəflərin Konfransı Bürosunun üzvü bu Protokolun Tərəflərinin öz aralarından seçdikləri üzvlə əvəz edilir.

4. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı bu Protokolun müddəalarının icrasını mütəmadi olaraq izləyir və onun səmərəli icrasına yardım məqsədilə öz mandatı çərçivəsində lazımi qərarlar qəbul edir. Tərəflərin Konfransı bu Protokola uyğun olaraq ona həvalə olunmuş funksiyaları yerinə yetirir və:

a) bu Protokolun icrası üçün zəruri olan bütün məsələlər üzrə tövsiyələr verir;

b) bu Protokolun müddəalarının yerinə yetirilməsi üçün zəruri sayılan yardımçı orqanlar yaradır;

c) lazım gəldikdə səlahiyyətli beynəlxalq təşkilatlara, hökumətlərarası və qeyri-hökumət orqanlarına xidmət, yardım və informasiyalar üçün sorğular edir və bunlardan istifadə edir;

d) bu Protokolun 33-cü maddəsinə uyğun olaraq təqdim olunmalı informasiyanın formasını və göndərilmə dövriliyini müəyyənləşdirir və belə informasiyaları, eləcə də istənilən yardımçı orqan tərəfindən təqdim olunmuş məruzələri nəzərdən keçirir;

e) zərurət yarandıqda, bu Protokola və onun əlavələrinə edilmiş düzəlişlərə, eləcə də bu Protokola bu Protokolun icrası üçün zəruri sayılaraq edilmiş hər hansı digər əlavələrə baxır və qəbul edir;

f) bu Protokolun icrası üçün lazım olan digər belə funksiyaları yerinə yetirir.

5. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflər Konfransının konsensusla başqa qərar qəbul etdiyi hallar istisna olmaqla, bu Protokol çərçivəsində Tərəflərin Konfransının prosedur qaydaları, habelə Konvensiyanın maliyyə qaydaları mutatis mutandis tətbiq edilir.

6. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflər Konfransının ilk müşavirəsini katiblik tərəfindən, keçirilməsi bu Protokolun qüvvəyə minməsi tarixindən sonraya planlaşdırılmış Tərəflər Konfransının birinci yığıncağı ilə birlikdə çağırılır. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının sonrakı növbəti müşavirələri, əgər bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı başqa qərar qəbul etməzsə, Tərəflərin Konfransının növbəti müşavirələri ilə birlikdə keçirilir.

7. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının növbədənkənar müşavirələri bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı bunu zəruri saydığı hallarda və ya istənilən Tərəfin yazılı xahişi ilə çağırılır, bu şərtlə ki, katibliyin xahişi Tərəflərin ünvanına göndərməsindən sonrakı altı ay müddətində həmin xahişi Tərəflərin ən azı üçdə biri dəstəkləmiş olsun.

8. Birləşmiş Millətlər Təşkilatı, onun ixtisaslaşdırılmış idarələri və Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, eləcə də onların üzvü olan hər hansı dövlət, yaxud Konvensiyanın Tərəfləri olmayan həmin təşkilatlar yanında müşahidəçilər bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının müşavirəsində müşahidəçi kimi təmsil oluna bilərlər. Bu Protokolun əhatə etdiyi məsələlər üzrə səlahiyyətə malik hər hansı milli və beynəlxalq, hökumət və qeyri-hökumət orqanları və ya idarələri, bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının müşavirəsində katibliyə etdikləri müraciət əsasında müşahidəçi kimi, əgər müşavirədə iştirak edən Tərəflərin ən azı üçdə biri buna etiraz etmirsə, təmsil olunmağa buraxıla bilərlər. Bu maddədə nəzərdə tutulan başqa hallar istisna edilməklə, müşahidəçilərin müşavirəyə buraxılması və iştirakı yuxarıdakı 5-ci bənddə xatırlanan prosedur qaydaları ilə tənzimlənir.

Maddə 30

Yardımçı orqanlar

1. Konvensiyanın təsis etdiyi və ya onun çərçivəsində təsis edilmiş hər hansı yardımçı orqan, bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının qərarına uyğun olaraq Protokola xidmət göstərə bilər və bu halda Tərəflərin Müşavirəsi həmin orqanın yerinə yetirəcəyi funksiyaları müəyyənləşdirir.

2. Bu Protokolun Tərəfləri olmayan Konvensiya Tərəfləri istənilən belə yardımçı orqanın istənilən müşavirəsinin işində müşahidəçi kimi iştirak edə bilərlər. Konvensiyanın yardımçı orqanının bu Protokolun yardımçı orqanı kimi çıxış etdiyi hallarda Protokol çərçivəsində qərarları yalnız Protokolun Tərəfləri qəbul edirlər.

3. Konvensiyanın yardımçı orqanı bu Protokolla bağlı öz funksiyalarını icra etdiyi hallarda belə yardımçı orqanın bürosunun bu dövrdə Protokol Tərəfi olmayan Konvensiya Tərəfini təmsil edən istənilən üzvü Protokol Tərəflərinin, onların öz arasından seçdikləri üzv ilə əvəz olunur.

Maddə 31

Katiblik

1. Konvensiyanın 24-cü maddəsinə uyğun olaraq təsis edilmiş katiblik bu Protokolun katibliyi kimi çıxış edir.

2. Katibliyin funksiyası haqqında Konvensiyanın 24-cü maddəsinin 1-ci bəndi bu Protokola mutatis mutandis tətbiq edilir.

3. Katibliyin bu Protokola göstərdiyi xidmət xərcləri ilə digər xərclər arasındakı fərqi bu Protokolun Tərəfləri ödəyirlər. Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı özünün birinci müşavirəsində bu məqsəd üçün lazım olan müvafiq büdcə tədbirləri ilə bağlı qərar qəbul edir.

Maddə 32

Konvensiya ilə əlaqə

Bu Protokolda başqa qayda nəzərdə tutulmayıbsa, Konvensiyanın protokollarına aid Konvensiya müddəaları bu Protokola tətbiq edilir.

Maddə 33

Monitorinq və hesabat

Hər bir Tərəf bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransının müəyyən etdiyi dövriliklə bu Protokol çərçivəsində öz öhdəliklərinin icrasına nəzarəti həyata keçirir, Protokolun icrası ilə bağlı gördüyü tədbirlər haqqında bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı qarşısında hesabat verir.

Maddə 34

Riayət etmə

Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı özünün bi-

rinci müşavirəsində bu Protokolun müddəalarına riayət edilməsinə və riayət etmənin pozulması hallarının nəzərdən keçirilməsinə yardım üçün əməkdaşlıq ruhunda istifadə olunan prosedurları və təşkilati mexanizmləri nəzərdən keçirir və təsdiq edir. Belə prosedurlar və mexanizmlər müvafiq hallarda məşvərət xidmətləri və ya yardım göstərilməsi ilə bağlı müddəalar nəzərdə tutur. Onlar Konvensiyanın 27-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş mübahisələrin nizama salınması prosedurları və mexanizmlərindən asılı olmadan istifadə edilir və bunlara xələl gətirmədən tətbiq edilir.

Maddə 35

Dəyərləndirmə və icmal

Bu Protokolun Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflərin Konfransı bu Protokolun qüvvəyə minməsindən beş il sonra və bundan sonra ən azı hər beş ildən bir, prosedurları və əlavələri də daxil olmaqla, Protokolun səmərəliliyinin dəyərləndirilməsini keçirir.

Maddə 36

İmzalama

Bu Protokol dövlətlərin və Birləşmiş Millətlər Təşkilatının iqtisadi inteqrasiya üzrə regional təşkilatlarının imzalamaları üçün Birləşmiş Millətlər Təşkilatının Nayrobidəki bölməsində 2000-ci il mayın 15-dən 26-dək və Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Mərkəzi idarələrində 2000-ci il iyunun 5-dən 2001-ci il iyunun 4-dək açıqdır.

Maddə 37

Qüvvəyə minmə

1. Bu Protokol Konvensiya Tərəfləri olan dövlətlərin və ya iqtisadi inteqrasiya üzrə regional təşkilatların ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma haqqında əllinci sənədi saxlanmağa verdikləri tarixdən doxsanıncı gün qüvvəyə minir.

2. Bu Protokolu ratifikasiya edən, qəbul edən, yaxud bəyənən və ya yuxarıdakı 1-ci bəndə uyğun olaraq qüvvəyə minməsindən sonra ona qoşulan dövlət və ya iqtisadi inteqrasiya üzrə regional təşkilat üçün Protokol belə dövlət və ya iqtisadi inteqrasiya üzrə regional təşkilat tərəfindən ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma haqqında öz sənədini saxlanmağa verdiyi tarixdən sonrakı doxsanıncı gündə, yaxud da belə dövlət və ya iqtisadi inteqrasiya üzrə regional təşkilat üçün Konvensiyanın qüvvəyə mindiyi gün, bunlardan hansının sonra baş verəcəyindən asılı olaraq, qüvvəyə minir.

3. Yuxarıdakı 1 və 2-ci bəndlərin məqsədləri üçün iqtisadi inteqrasiya üzrə regional təşkilatın saxlanmağa verdiyi sənədlərdən heç biri belə təşkilatın üzvü olan dövlətlər tərəfindən saxlanmağa verilmiş sənədlərə əlavə sayılmır.

Maddə 38

Düzəlişlər

Bu Protokola hər hansı düzəliş etməyə yol verilmir.

Maddə 39

Çıxma

1. Hər bir Tərəf üçün bu Protokolun qüvvəyə minməsindən iki il başa çatdıqdan sonra həmin Tərəf Depozitariyə yazılı bildiriş göndərməklə Protokoldan çıxa bilər.

2. Belə çıxma Depozitari tərəfindən bildirişin alınması tarixindən bir il sonra və ya çıxma barədə təqdim olunan bildirişdə göstərilən daha gec müddətdə qüvvəyə minir.

Maddə 40

Autentik mətnlər

İngilis, ərəb, ispan, Çin, rus və fransız dillərindəki mətnləri autentik olan bu Protokolun əsli saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə verilir.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

İki mininci il yanvarın iyirmi doqquzunda Monrealda imzalanmışdır.

Əlavə I

8, 10 və 13-cü maddələrə uyğun olaraq bildirişlər çərçivəsində tələb olunan informasiya

a) İxracatçının adı, ünvanı və əlaqə məlumatları.

b) İdxalçının adı, ünvanı və əlaqə məlumatları.

c) Dəyişdirilmiş canlı orqanizmin ixracatçı dövlətdə adı, eyniləşdirmə məlumatları və əgər varsa, təhlükəsizlik səviyyəsinin milli təsnifatı.

d) Əgər bəllidirsə, transsərhəd yerdəyişməsinin icrasının nəzərdə tutulan tarixi və ya tarixləri.

e) Resipient orqanizmin və ya törədici orqanizmlərin biotəhlükəsizliklə bağlı taksonomik statusu, ümumi qəbul olunmuş adı, yığılma və ya alınma məntəqəsi, eləcə də xarakteristikası.

f) Əgər bəllidirsə, resipient orqanizmlərin və/və ya törədici orqanizmlərin törəmə mərkəzləri və genetik müxtəliflik mərkəzləri və orqanizmlərin yaşama qabiliyyətli və ya sürətlə çoxalma qabiliyyətli olmaları üçün məskunlaşma yerlərinin təsviri.

g) Donor orqanizmin və donor orqanizmlərin taksonomik statusu, ümumi qəbul olunmuş adı, yığılma və ya alınma məntəqəsi, eləcə də biotəhlükəsizliklə bağlı xarakteristikası.

h) Dəyişdirilmiş canlı orqanizmin nuklein turşusunun və ya introduksiya edilmiş modifikasiyasının, istifadə olunan üsulun, eləcə də əldə edilmiş xarakteristikalarının təsviri.

i) Dəyişdirilmiş canlı orqanizmin və ya tərkibində onun olduğu məhsulların, yəni dəyişdirilmiş canlı orqanizmin emalı nəticəsində əldə edilmiş və tərkibində müasir biotexnologiyanın tətbiqi nəticəsində alınmış, təkrar istehsal olunan genetik

materialın aşkarlana bilən yeni kombinasiyaları olan materialların nəzərdə tutulan istifadəsi.

j) Ötürülməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmin miqdarı və həcmi.

k) III əlavəyə uyğun olaraq keçirilmiş risklərin dəyərləndirilməsi haqqında əvvəlki və ya cari məruzə.

l) Qablaşdırma, markalanma, sənədləşdirmə, ləğvetmə və lazım gəldikdə, fövqəladə hallar meydana çıxdığı vaxtlarda tədbirlər görülməsi ilə bağlı prosedurlar da daxil edilməklə, təhlükəsiz emalın, saxlamanın, daşımanın və istifadənin təmin edilməsi üçün təklif olunan üsullar.

m) İxracatçı dövlətin ərazisi daxilində dəyişdirilmiş canlı orqanizmin reqlamentasiya statusu (məsələn, o, ixracatçı dövlətdə qadağan edilibmi; başqa məhdudiyyətlər varmı; və ya onun ümumi sərbəstləşdirilməsinə icazə verilibmi) və dəyişdirilmiş canlı orqanizmin ixracatçı dövlətdə qadağan edildiyi halda bu cür qadağanın səbəbinin və ya səbəblərinin izahı.

n) Göndərilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmə dair ixracatçı tərəfindən digər dövlətlərə göndərilmiş hər hansı bir bildirişin nəticəsi və belə bildirişi göndərmənin məqsədi.

o) İnformasiyanın faktiki səhihliyinin təsdiq edilməsi barədə ərizə.

Əlavə II

11-ci maddəyə uyğun olaraq bilavasitə ərzaq kimi, yaxud yem və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərə dair tələb olunan informasiya

a) Daxili istehlak üçün sifariş verən subyektin adı və əlaqə məlumatları.

b) Qərarın qəbul edilməsinə cavabdeh olan orqanın adı və əlaqə məlumatları.

c) Dəyişdirilmiş canlı orqanizmin adı və uyğunluq məlumatları.

d) Dəyişdirilmiş canlı orqanizmin gen modifikasiyasının, tətbiq olunmuş metodun və nəticədə əldə edilmiş xarakteristikasının təsviri.

e) Dəyişdirilmiş canlı orqanizmin hər hansı müstəsna eyniləşdirmə məlumatları.

f) Resipient orqanizmin və ya törədici orqanizmin biotəhlükəsizliklə bağlı taksonomik statusu, ümumi qəbul olunmuş adı, yığılma və ya alınma məntəqəsi, eləcə də xarakteristikaları.

g) Əgər bəllidirsə, resipient orqanizmlərin və/və ya törədici orqanizmlərin törəmə mərkəzləri və genetik müxtəliflik mərkəzləri və orqanizmlərin yaşama qabiliyyətli və ya sürətlə çoxalma qabiliyyətli olmaları üçün məskunlaşma yerlərinin təsviri.

h) Donor orqanizmin və donor orqanizmlərin taksonomik statusu, ümumi qəbul olunmuş adı, yığılma və ya alınma məntəqəsi, eləcə də biotəhlükəsizliklə bağlı xarakteristikası.

i) Dəyişdirilmiş canlı orqanizmin tətbiqinin təsdiq olunmuş növləri.

j) III Əlavəyə uyğun olaraq risklərin dəyərləndirilməsi haqqında məruzə.

k) Qablaşdırma, markalanma, sənədləşdirmə, ləğvetmə və lazım gəldikdə, fövqəladə hallar meydana çıxdığı vaxtlarda tədbirlər görülməsi ilə bağlı prosedurlar da daxil edilməklə, təhlükəsiz emalın, saxlamanın, daşımanın və istifadənin təmin edilməsi üçün təklif olunan üsullar.

Əlavə III

15-ci maddəyə uyğun olaraq risklərin dəyərləndirilməsi

Məqsəd

1. Bu Protokola uyğun olaraq risklərin dəyərləndirilməsinin keçirilməsindən məqsəd dəyişdirilmiş canlı orqanizmlərin potensial qəbuledici mühitdə bioloji müxtəlifliyin saxlanmasına və davamlı istifadəsinə potensial mənfi təsirinin, insan sağlamlığı üçün risk də nəzərə alınmaqla, aşkarlanması və dəyərləndirilməsindən ibarətdir.

Risklərin dəyərləndirilməsindən istifadə olunması

2. Risklərin dəyərləndirilməsinin nəticələri dəyişdirilmiş canlı orqanizmlərə dair əsaslandırılmış qərarların qəbul edilməsi üçün səlahiyyətli orqanlar tərəfindən istifadə olunur.

Əsas prinsiplər

3. Risklərin dəyərləndirilməsi elmi cəhətdən əsaslandırılmış və transparent şəkildə icra olunmalıdır və bunun həyata keçirilməsində müvafiq beynəlxalq təşkilatların işləyib hazırladığı ekspert təklifləri və rəhbər müddəalar nəzərə alına bilər.

4. Elmi biliklərin və ya elmi konsensusun olmaması heç də mütləq müəyyən risk səviyyəsinin mövcudluğu, riskin yoxluğu və riskin məqbulluğu kimi yozulmamalıdır.

5. Dəyişdirilmiş canlı orqanizmlərlə və ya onların məhsulları ilə, yəni emal olunmuş dəyişdirilmiş canlı orqanizm mənşəli materiallarla bağlı risklərə, müasir texnologiyanın tətbiqi nəticəsində alınmış, təkrar istehsal olunan genetik materialın aşkarlana bilən yeni kombinasiyalarına malik ehtimal olunan potensial qəbuledici mühitdə modifikasiyasız resipientlər səbəbindən və ya törədici orqanizmlər tərəfindən yaranan risklər kontekstində baxılmalıdır.

6. Risklərin dəyərləndirilməsi fərdi qaydada aparılmalıdır. Tələb olunan informasiya hər bir konkret halda dəyişdirilmiş canlı orqanizmin öz xarakterinə və təsnifat səviyyəsinə görə, onun nəzərdə tutulan istifadəsinə və ehtimal olunan potensial qəbuledici mühitə görə fərqlənə bilər.

Metodika

7. Bir tərəfdən, ola bilər ki, risklərin dəyərləndirilməsi üçün konkret məsələlər üzrə əlavə informasiya tələb olunsun; o, dəyərləndirmə prosesinin icrası gedişində aşkarlana və tələb edilə bilər; digər tərəfdən isə, bəzi hallarda başqa aspektlər üzrə informasiya qeyri-aktual ola bilər.

8. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün risklərin dəyərləndirilməsinə, zərurət yarandıqda, aşağıdakı mərhələlər daxil edilir:

a) ehtimal olunan potensial qəbuledici mühitdə bioloji müxtəlifliyə, insan sağlamlı-

ğına risk də nəzərə alınmaqla, mənfi təsir göstərə bilən dəyişdirilmiş canlı orqanizmlə bağlı hər hansı yeni genotip və fenotip xarakteristikanın aşkar edilməsi;

b) dəyişdirilmiş canlı orqanizmin ehtimal olunan potensial qəbuledici mühitə təsirinin intensivliyi və xarakteri nəzərə alınmaqla, belə mənfi nəticələrin faktiki meydana gəlmə ehtimalı dərəcəsinin dəyərləndirilməsi;

c) əgər belə mənfi təsir həqiqətən baş vermiş olarsa, onda nəticələrin dəyərləndirilməsi;

d) aşkar edilmiş mənfi təsirin meydana çıxması ehtimalı və nəticələrinin dəyərləndirilməsi əsasında dəyişdirilmiş canlı orqanizmin yaratdığı məcmu riskin dəyərləndirilməsi;

e) əgər zərurət varsa, belə risklərin tənzimlənməsi üçün strategiyanın müəyyənləşdirilməsi də daxil olmaqla, risklərin məqbul və ya tənzimlənən olmasından asılı olmayaraq tövsiyələrin hazırlanması; və

f) riskin səviyyəsi aşkar olmadığı hallarda situasiya, narahatlıq yaradan konkret məsələlər üzrə əlavə informasiya alınması yolu ilə və ya risklərin tənzimlənməsinin müvafiq strategiyasının həyata keçirilməsi və/və ya qəbuledici mühitdə dəyişdirilmiş canlı orqanizmin monitorinqi hesabına həll oluna bilər.

Uçot məsələləri

9. Risklərin dəyərləndirilməsi keçirilərkən bu və ya digər haldan asılı olaraq, aşağıdakı aspektlər üzrə xarakterik elementlərə dair müvafiq ətraflı elmi-texniki məlumatlar nəzərə alınır:

a) resipient orqanizm və ya törədici orqanizmlər. Taksonomik statusu, ümumi qəbul olunmuş adı, mənşəyi, əgər bəllidirsə, törəmə mərkəzləri və genetik müxtəliflik mərkəzləri və orqanizmlərin yaşama qabiliyyətli və ya sürətlə çoxalma qabiliyyətli olmaları üçün məskunlaşma yerlərinin təsviri haqqında məlumat da daxil olmaqla, resipient orqanizmin və/və ya törədici orqanizmlərin bioloji xarakteristikaları;

b) donor orqanizm və ya donor orqanizmlər. Donor orqanizmlərin taksonomik statusu və ümumi qəbul olunmuş adı, mənbəyi və müvafiq bioloji xarakteristikaları;

c) vektor. Əgər varsa, vektorun eyniləşdirmə məlumatları da daxil olmaqla xarakteristikaları, onun törəmə mənşəyi və sahibləri dairəsi;

d) modifikasiya əlavəsi və ya əlavələri və/və ya xarakteristikaları. İntroduksiya olunmuş nuklein turşusunun genetik xarakteristikaları və onun müəyyənləşdirdiyi introduksiya olunmuş modifikasiya funksiyası və/və ya xarakteristikaları;

e) dəyişdirilmiş canlı orqanizm. Dəyişdirilmiş canlı orqanizmin eyniləşdirmə məlumatları və dəyişdirilmiş canlı orqanizmin bioloji xarakteristikaları ilə resipient orqanizmin və ya törədici orqanizmlərin xarakteristikaları arasındakı fərq;

f) dəyişdirilmiş canlı orqanizmin aşkarlanması və eyniləşdirilməsi. Təklif olunan aşkarlanma və eyniləşdirmə üsulları və onların dəqiqliyi, həssaslığı və etibarlılığı;

g) nəzərdə tutulan istifadə növünə dair informasiya. Dəyişdirilmiş canlı orqanizmin nəzərdə tutulan istifadə növünə, o cümlədən resipient orqanizmlə və ya törədici

orqanizmlə müqayisədə yeni və ya dəyişdirilmiş istifadə növünə dair informasiya; və

h) qəbuledici mühit. Daha çox ehtimal olunan potensial qəbuledici mühitin, bioloji müxtəliflik və törəmə mərkəzləri haqqında müvafiq informasiya da daxil olmaqla, yeri, coğrafi, iqlim və ekoloji xarakteristikaları barədə informasiya.

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin 2004-cü il oktyabrın 11 -də Buxarest şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№842-IIQ

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikası Prezidenti və Rumıniya Prezidenti,

ikitərəfli münasibətlərin vəziyyətini və perspektivlərini, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələləri nəzərdən keçirərək,

Azərbaycan-Rumıniya tərəfdaşlığının əsasını qoymuş 27 mart 1996-cı ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqaviləni, 30 iyun 1998-ci ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında Bəyannaməni, 29 oktyabr 2002-ci ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında tərəfdaşlıq haqqında Bəyannaməni rəhbər tutaraq,

hərtərəfli əməkdaşlıq, qarşılıqlı etimad və bir-birinin mənafelərini hörmət əsasında dostluq əlaqələrinin inkişafını təmin etməyi dəstəkləyərək,

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev ilə Rumıniya Prezidenti İon İliesku arasında dostluq münasibətlərinin iki ölkə arasında əlaqələrin və əməkdaşlığın inkişafı və genişləndirilməsinə təkan verdiyini məmnuniyyətlə vurğulayaraq,

Azərbaycan-Rumıniya tərəfdaşlıq münasibətlərinin daha da genişləndirilməsi və dərinləşdirilməsinin regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini təsdiq edərək,

Ölkənin və bütövlükdə regionun normal inkişafına maneçilik törədən münasibətlərin həllini tapmaması ilə əlaqədar narahatlıq bildirərək,

insan hüquqları və əsas azadlıqlarına riayət olunması və onların qorunmasına sadiqliklə-

rini təsdiq edərək,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına və suveren bərabərliyinə hörmət edilməsi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək də daxil olmaqla beynəlxalq hüququn hamılıqla tanınmış normalarına tərəfdar olduqlarını təsdiq edərək,

hər iki dövlətin regional sabitliyin və demokratiyanın inkişafının genişlənməsinə, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılmasına dair əməkdaşlığının ümumi məqsədini nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

iqtisadi əməkdaşlığın dərinləşdirilməsinin, daha da inkişafı üçün əlverişli şəraitin yaradılmasının təşviqi və iki dövlətin iş adamları və şirkətləri arasında birbaşa əlaqələrin qurulmasının zəruriliyini nəzərə alaraq,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, humanitar, mədəni və digər sahələrdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi məqsədilə,

ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində müqavilə-hüquq bazasının inkişaf etdirilməsinə səylərini davam etdirərək,

ikitərəfli əlaqələrin dərinləşdirilməsinə, yüksək səviyyələrdə siyasi dialoqun genişləndirilməsinə, iki dövlətin qanunvericilik və icra hakimiyyəti orqanları arasında dialoqun inkişaf etdirilməsinə, qanun layihələrinin hazırlanması sahəsində təcrübə mübadiləsinə mühüm əhəmiyyət verərək,

Azərbaycan Respublikası və Rumıniya arasında əlaqələrin inkişafı üçün müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq,

ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Müştərək Komissiyanın fəaliyyətinin genişləndirilməsinin böyük əhəmiyyətini qeyd edərək,

ticarət-iqtisadi əməkdaşlığın inkişafının mühüm vasitəsi olan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına və fəaliyyət göstərməsinə müstəsna əhəmiyyət verərək və bu dəhlizin sabit inkişafının təmin edilməsinə yönəldilmiş səyləri dəstəkləyərək,

aşağıdakıları öz öhdələrinə götürürlər:

ikitərəfli əməkdaşlığı davam etdirəcəklər,

iki dövlətin biznes və elm sahələrinin institut və təşkilatlarını Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlığa cəlb edəcək, Azərbaycan-Rumıniya biznes mühitinə dəstək verəcəklər,

qarşılıqlı ticarət imkanlarını artıracaq və ticarət əməliyyatlarının maliyyələşdirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün fəaliyyət göstərəcəklər,

hər iki ölkənin təhlükəsizlik maraqlarına cavab verən, üçüncü ölkələrə qarşı yönəlməyən, habelə Azərbaycan Respublikası və Rumıniyanın beynəlxalq öhdəliklərinə zidd olmayan ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığı möhkəmləndirəcəklər,

parlamentlərarası əlaqələrin inkişafını və qanun yaradıcılığı fəaliyyətində təcrübə mü-

badiləsini təşviq edəcəklər,

ikitərəfli, regional və beynəlxalq səviyyələrdə ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər,

humanitar, mədəniyyət, elm, təhsil və səhiyyə sahələrində ikitərəfli əməkdaşlığı genişləndirəcəklər,

qarşılıqlı əsasda, elm, ədəbiyyat, incəsənət xadimləri və digər mütəxəssislər arasında əlaqələrin inkişaf etdirilməsinə, hər iki dövlətin mətbuat vasitələri, radio, televiziya və kinematoqrafiyaları arasında informasiya mübadiləsinə və əməkdaşlığa əlverişli şərait yaradacaqlar,

təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş fəaliyyətinin öz ərazilərində qarşısının alınması və qadağan edilməsi üçün müvafiq tədbirlər görəcəklər,

beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi yeni qlobal çağırışlara və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığını səmərəliliyini artıracaqlar,

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət əsasında müvafiq BMT qətnamələrinə və ATƏT-in qərarlarına uyğun olaraq sülh yolu ilə həll olunmasını dəstəkləyirlər.

Cənubi Qafqazdakı münaqişələr nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin könüllü və təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmaları üçün hər cür yardım etməyə hazır olduqlarını bəyan edirlər.

BMT, ATƏT, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı, Avro-Atlantik Əməkdaşlıq Şurası, Avropa Şurası, Avropa İttifaqı və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirərək ümumi fəaliyyətlərinin səmərəliliyini artırmaq üçün səylər göstərəcəklər.

Avropanın dəyər və prinsiplərinə sadiq olduqlarını bildirərək, Azərbaycanın "Avropada qonşuluq siyasəti"nə daxil edilməsi və Rumıniyanın Avropa İttifaqına gələcək inteqrasiyası onların regionda və Avropada sabitlik və rifaha yönəlmiş əməkdaşlığına yeni təkan verəcəyinə inamlarını ifadə edirlər.

Regional və beynəlxalq təşkilatlar və forumlar çərçivəsində qarşılıqlı fəaliyyəti artırmaq səylərini təsdiq edirlər.

Bu Birgə Bəyannamənin Azərbaycan-Rumıniya əməkdaşlığına əlavə təkan verəcəyinə əminlik ifadə edirlər.

Buxarest şəhərində 11 oktyabr 2004-cü ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ	RUMİNİYANIN PREZİDENTİ
İLHAM ƏLİYEV	*İON İLİESKU*

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№843-IIQ

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti,

narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin genişlənməsi ilə bağlı narahatlıqlarını ifadə edərək,

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və onlardan sui-istifadənin Tərəflərin dövlətlərinin xalqlarının sağlamlığına və rifahına ciddi təhlükə olduğunu dərk edərək,

1972-ci il tarixli Protokolla dəyişikliklər edilmiş 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın, 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyanın və 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı BMT Konvensiyasının müddəalarını nəzərə alaraq,

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizəyə yönəlmiş səmərəli tədbirlərin görülməsində qarşılıqlı maraqdan xəbərdar olaraq,

milli qanunvericiliyə və beynəlxalq hüququn normalarına uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş Tərəflər arasında narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə və onların qeyri-qanuni dövriyyəsinə nəzarət, eləcə də narkomanların qarşısının alınması, müalicəsi və sosial reabilitasiyası sahəsində əməkdaşlığın hüquqi əsaslarını müəyyən edir.

Maddə 2

Bu Sazişdə nəzərdə tutulan əməkdaşlıq Tərəflərin səlahiyyətli orqanları, onların səlahiyyətli nümayəndələri və ya diplomatik kanalları arasında birbaşa əlaqələr vasitəsilə həyata keçiriləcəkdir.

Azərbaycan Respublikasında səlahiyyətli orqanlar:

1. Daxili İşlər Nazirliyi;

2. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası.

Rumıniyada səlahiyyətli orqanlar:

1. Daxili İşlər Administrasiya Nazirliyi;

2. Rumıniya Polisinin Baş Müfəttişliyi - Mütəşəkkil cinayətkarlıq və narkotizmə qarşı mübarizə üzrə baş direktorluq;

3. Milli Antinarkotizm Agentliyi.

Maddə 3

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə problemlərinə dair məlumat mübadiləsi, o cümlədən:

Tərəflərin dövlətlərinin ərazilərində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı törədilmiş və ya törədilməsi güman edilən hər hansı cinayət;

narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədə şübhəli şəxslər;

narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı konkret faktlar və ya hadisələr və ya bir Tərəfin ərazisindən digər Tərəfin ərazisinə, yaxud üçüncü bir ölkənin ərazisindən Tərəflərin ərazisinə narkotiklərin qanunsuz dövriyyəsinə dair niyyətlər;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqəli və fəaliyyəti transmilli xarakter daşıyan cinayətkar qrupların strukturu, tərkibi, fəaliyyət sahəsi, idarəetmə təşkilatı və əlaqələri;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı olan və Tərəflərin dövlətlərində işləyən bəzi şəxslər və ya cinayətkar qruplar arasında baş vermiş və ya baş verməsi güman edilən əlaqələr;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətlərin forma və metodları;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə olunan gəlirlərin leqallaşdırılmasına yönəlmiş fəaliyyət;

narkotik vasitələrin və onların prekursorlarının mənbələrinin, onların prekursorlarının qanunsuz dövriyyəyə girişinin aşkar edilməsinin forma və metodları, o cümlədən belə qanunsuz dövriyyənin dayandırılması tədbirləri;

narkotik vasitələr və onların prekursorlarının becərilməsi, istehsalı, daşınması və satışı zamanı istifadə olunan gizlədilmə və maskalanma metodları;

qarşılıqlı maraq kəsb edən digər məsələlər;

b) narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə aid məsələlərlə bağlı bir Tərəfin sorğusu əsasında digər Tərəfin əməliyyat araşdırmaları və tədbirlər görməsi;

c) narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə aparmaq üçün qarşılıqlı fəaliyyət və qarşılıqlı yardım, o cümlədən nəzarətli göndəriş və partiyanın qeyri-qanuni daşınması üzərində nəzarətin həyata keçirilməsi;

d) iclaslar, konfranslar və seminarlar vasitəsilə iş təcrübəsinin mübadiləsi;

e) narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi və buna nəzarətlə bağlı qanunvericilik və digər aidiyyəti sənədlərin, artıq məxfi və ya məhdudlaşdırılmış olmayan materiallar, statistik məlumat və tövsiyələrin mübadiləsi;

f) mütəxəssislərin hazırlanması və onların peşə hazırlıqlarının artırılması;

g) texniki və məsləhət xarakterli yardımın, həmçinin analizdə yardımın göstərilməsi;

h) narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə problemlərinə dair Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq birgə elmi tədqiqatların aparılması;

i) qanunsuz dövriyyədən alınmış nümunələrin və onların analizinin nəticələrinin Tərəflərin milli qanunvericiliklərinə əsasən mübadiləsi;

j) əməkdaşlığın həyata keçirildiyi dövrdə yaranacaq problemlərlə bağlı fəaliyyətlərin əlaqələndirilməsi, o cümlədən işçi qruplarının təsis edilməsi və nümayəndələrin mübadiləsi.

Maddə 4

Bu Saziş çərçivəsində yardım göstərilməsi sorğu əsasında və ya Tərəflərdən birinin təşəbbüsü ilə həyata keçiriləcəkdir.

Yardım göstərilməsi üçün sorğu yazılı şəkildə və ya mətn ötürülməsi üçün texniki vasitələrlə göndərilməlidir.

Təcili hallarda, telefon bağlantısı vasitəsilə göndərilmiş şifahi sorğu qəbul edilə bilər. Lakin o, üç gün ərzində yazılı şəkildə və ya mətn ötürülməsi üçün texniki vasitələrlə verilməlidir.

Məlumatın ötürülməsi üçün texniki vasitələrdən istifadə zamanı və həmçinin alınmış sorğunun autentikliyi, yaxud məzmunu ilə bağlı şübhə olduğu təqdirdə Sorğu alan Tərəf onu yazılı şəkildə təsdiq etməyi Sorğu göndərən Tərəfdən tələb edə bilər.

Yardım üçün sorğuya aşağıdakılar daxil edilməlidir:

Sorğu göndərən Tərəfin səlahiyyətli orqanının adı;

Sorğu alan Tərəfin səlahiyyətli orqanının adı;

sorğunun mahiyyəti və onun əsasları barədə qısa məlumat;

onun yerinə yetirilməsi üçün zəruri olan hər hansı digər məlumat.

Maddə 5

Sorğu alan Tərəf sorğunun qısa müddətdə və mümkün qədər tam şəkildə yerinə yetirilməsi üçün bütün zəruri tədbirləri görəcəkdir. Bir qayda olaraq, sorğu alındığı gündən etibarən 30 gün ərzində yerinə yetiriləcəkdir.

Əgər öz ölkəsinin qanunvericiliyinə zidd olmazsa, Sorğu alan Tərəf Sorğu göndərən Tərəfin səlahiyyətli nümayəndələrinə sorğu yerinə yetirilən zaman öz ölkəsinin ərazisində olmağa icazə verə bilər.

Maddə 6

Sorğunu yerinə yetirmək mümkün olmadığı və ya ondan imtina edildiyi halda Sorğu alan Tərəf bu barədə Sorğu göndərən Tərəfi dərhal yazılı şəkildə xəbərdar edəcək, sorğunun yerinə yetirilməsinə mane olan səbəblər barədə məlumat verəcək və sorğunu və onun bütün əlavələrini qaytaracaqdır.

Əgər Sorğu alan Tərəf onun yerinə yetirilməsinin öz ölkəsinin suverenliyinə, təhlükəsizliyinə, yaxud digər mühüm maraqlarına zərər vura biləcəyini və ya öz ölkəsinin qanunvericiliyinə zidd olduğunu hesab edərsə, o, sorğunun yerinə yetirilməsindən tam və ya qismən imtina edə bilər.

Əgər Sorğu alan Tərəf sorğunun dərhal yerinə yetirilməsinin öz ölkəsində həyata keçirilən cinayət ittihamına, yaxud digər hüquqi prosedurların icrasına mane ola biləcəyini hesab edərsə, o, Sorğu göndərən Tərəflə məsləhətləşmələrdən sonra, sorğunun yerinə yetirilməsini təxirə sala və ya onun yerinə yetirilməsini lazımi hesab olunan şərtlərə riayət edilməsi ilə əlaqələndirə bilər. Əgər Sorğu göndərən Tərəf yardımın təklif olunan şərtlər əsasında göstərilməsi ilə razılaşarsa, o bu şərtləri yerinə yetirməlidir.

Maddə 7

Tərəflər narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı məsələlərə aid, Tərəflər arasında bu Saziş çərçivəsində mübadilə edilən məlumatın, həmçinin sənədlərin və materialların məzmununun konfidensiallığını təmin edəcəklər.

Bu Saziş çərçivəsində alınan məlumat onu təqdim etmiş Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə ötürülə bilməz.

Maddə 8

Tərəflər bu Sazişin öz ərazilərində yerinə yetirilməsi ilə bağlı xərclər üçün məsuliyyət daşıyacaqlar.

Tərəflər öz nümayəndələrinin rəsmi səfərləri və qəbul edən ölkənin ərazisində qalmaları ilə bağlı xərclər üçün məsuliyyət daşıyacaqlar.

Sorğu göndərən Tərəfin nümayəndələrinin rəsmi səfərləri Sorğu alan Tərəfin ilkin razılığı əsasında həyata keçiriləcəkdir.

Maddə 9

Tərəflər bu Sazişin tətbiqi üçün birgə işçi iclaslar və məsləhətləşmələr keçirəcəklər.

Maddə 10

3-cü Maddənin 1-ci bəndinin g, h, i, j yarımbəndlərində nəzərdə tutulan əməkdaşlığın konkret formaları və xüsusilə onun maliyyələşdirilməsi qarşılıqlı razılaşma əsasında müəyyən ediləcəkdir.

Maddə 11

Bu Sazişin müddəaları hər iki Tərəfin digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcəkdir.

Maddə 12

Bu Sazişin təfsirində və tətbiqində Tərəflər arasında ortaya çıxan hər hansı fikir ayrılıqları diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 13

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Tərəflərdən biri yazılı şəkildə diplomatik kanallar vasitəsilə bu Sazişin qüvvəsini ləğv etmək niyyətini altı ay əvvəl bildirmədiyi təqdirdə, bu Saziş qeyri-müəyyən müddətə qüvvədə olacaqdır.

Sazişə qarşılıqlı razılıq əsasında düzəlişlər edilə bilər və əlavələr 13-cü maddənin 1-ci bəndində göstərilmiş prosedur qaydaları tamamlandıqdan sonra qüvvəyə minəcəkdir.

Buxarest şəhərində 11 oktyabr 2004-cü ildə iki nüsxədə, hər biri Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduğu halda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUMINİYA HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MARİAN SANİUTA*
Xarici işlər naziri	*Daxili işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№844-IIQ

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti

gömrük hüquqpozmalarının onların iqtisadi, ticarət, maliyyə, ictimai və mədəni maraqlarına ziyan vurduğunu nəzərə alaraq;

malların idxalı və ya ixracı zamanı gömrük rüsumları, vergiləri və digər yığım və ödənişlərinin dəqiq tutulması və toplanmasının təmin edilməsinin vacibliyini, eləcə də qadağan, məhdudiyyət və nəzarət müddəalarının düzgün həyata keçirilməsinin zəruriliyini nəzərə alaraq;

gömrük hüquqpozmalarına qarşı tədbirlərin gömrük idarələri arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli olacağına əmin olaraq;

narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin artan miqyasları və istiqamətlərindən narahat olaraq və bunun əhalinin sağlamlığı və cəmiyyət üçün təhlükə yaratdığını nəzərə alaraq;

ikitərəfli qarşılıqlı yardıma münasib şərait yaradan Razılığa gələn Tərəflər üçün qüvvədə olan müvafiq beynəlxalq konvensiyaları, həmçinin Ümumdünya Gömrük Təşkilatının Tövsiyələrini nəzərə alaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

a) "Gömrük idarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi; Rumıniyada Milli Nəzarət Orqanına tabe olan Milli Gömrük Orqanı;

b) "Gömrük qanunvericiliyi" - malların idxalı, ixracı, tranzitinə və ya gömrük idarələri tərəfindən toplanılan gömrük rüsumları, vergilər və ya hər hansı digər yığımlara, yaxud gömrük idarələri tərəfindən həyata keçirilən qadağan, məhdudiyyət və ya nəzarət tədbirləri ilə əlaqədar hər hansı digər gömrük prosedurlarına dair qüvvədə olan hüquqi aktlar;

c) "Gömrük hüquqpozmaları" - Razılığa gələn hər bir Tərəf dövlətinin milli qanunvericiliyində müəyyən olunduğu kimi, gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması və həmçinin bu qanunvericiliyinin pozulmasına yönəldilmiş hər hansı bir cəhd;

d) "Sorğu edən Razılığa gələn Tərəf" - yardım üçün sorğu edən gömrük idarəsi;

e) "Sorğu alan Razılığa gələn Tərəf" - yardım üçün sorğu alan gömrük idarəsi;

f) "Narkotik vasitələr" - Nyu-York şəhərində 30 mart 1961-ci il tarixdə imzalanmış Narkotik vasitələr haqqında Vahid Konvensiyanın (müvafiq düzəlişlər edilmiş) I və ya II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik mənşəli maddə;

g) "Psixotrop maddələr" - Vyana şəhərində 21 fevral 1971-ci il tarixdə BMT-nin himayəsi altında hazırlanmış Psixotrop maddələr haqqında Konvensiyanın I, II, III və ya IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik mənşəli maddə;

h) "Prekursorlar" - Vyana şəhərində 20 dekabr 1988-ci il tarixdə qəbul edilmiş Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı BMT Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr;

i) "Nəzarətli göndəriş" - bir və ya bir neçə ölkənin ərazisində bu ölkələrin səlahiyyətli orqanlarının razılığı ilə və onların nəzarəti altında, qanunvericiliyi pozan şəxslərin müəyyən edilməsi məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların və ya onları əvəz edən maddələrin qeyri-qanuni və ya şübhə doğuran partiyalarının ölkədən aparılması, ölkə ərazisindən keçirilməsi və ölkəyə gətirilməsinə icazə verilməsi metodu;

j) "Şəxs" - fiziki və ya hüquqi şəxs deməkdir.

Maddə 2

Sazişin tətbiq edilmə dairəsi

1. Razılığa gələn Tərəflər bu Sazişdə əks olunmuş müddəalara uyğun olaraq gömrük qanunvericiliyində müəyyən edilmiş müddəalara əməl edilməsini təmin etmək məqsədilə bir-birlərinə aşağıdakı kimi yardım göstərəcəklər:

a) malların keçirilməsini və sərnişinlərin gediş-gəlişini sadələşdirmək və tezləşdirmək məqsədilə lazımi tədbirlər həyata keçirəcəklər;

b) gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması və təhqiq edilməsində əməkdaşlıq edəcək və bir-birlərinə yardım göstərəcəklər;

c) sorğu əsasında gömrük qanunvericiliyinin həyata keçirilməsində istifadə olunacaq digər məlumatla təmin edəcəklər;

d) yeni gömrük prosedurlarının tədqiq, inkişaf və tətbiq edilməsində, təlim və əməkdaşların mübadiləsi sahəsində və qarşılıqlı maraq doğuran digər məsələlərə dair əməkdaşlığa cəhd göstərəcəklər.

2. Bu Sazişə uyğun olaraq qarşılıqlı yardım, sorğu alan Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq onun səlahiyyəti və mövcud imkanları daxilində həyata keçirilməlidir.

Maddə 3

Şəxslər, mallar və nəqliyyat vasitələri üzərində nəzarət

Gömrük idarələri öz xüsusi təşəbbüsləri ilə, yaxud sorğu əsasında aşağıdakılar üzərində nəzarəti təmin etməlidir:

a) gömrük hüquqpozmaları törətməsi müəyyən olunan və ya şübhə doğuran, yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən şəxslər;

b) gömrük hüquqpozmalarının törədilməsində və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran mallar;

c) gömrük hüquqpozmalarının törədilməsində, yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran hər hansı nəqliyyat vasitəsi;

d) qeyri-qanuni daşınmada istifadə olunması şübhə doğuran poçt bağlamaları.

Maddə 4

Bəzi malların qeyri-qanuni daşınmasına qarşı tədbirlər

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri ilə və ya sorğu əsasında hər hansı bir şəxsin Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozma niyyəti və ya hərəkəti barədə aşağıdakılara dair bütün müvafiq məlumatla təmin edəcəklər:

a) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların daşınması;

b) silahlar, döyüş sursatı, partlayıcı və nüvə materiallarının, həmçinin ətraf mühit və əhalinin sağlamlığı üçün təhlükəli olan digər maddələrin daşınması;

c) tarixi, mədəni və ya arxeoloji dəyərə malik incəsənət əsərlərinin daşınması;

d) yüksək gömrük rüsumları və ya vergilər tutulmalı olan malların daşınması.

Maddə 5

Nəzarətli göndəriş

1. Gömrük idarələri öz səlahiyyətləri daxilində nəzarətli göndəriş metod-larının həyata keçirilməsində əməkdaşlıq edəcəklər.

2. Nəzarətli göndəriş prosedurunun həyata keçirilməsi barədə qərar vaxtaşırılıq prinsipinə əsaslanaraq və Razılığa gələn Tərəf dövlətlərin ərazilərində qüvvədə olan qanunvericiliyiə müvafiq olaraq veriləcəkdir.

Maddə 6

Məlumat mübadiləsi

1. Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri ilə və ya sorğu əsasında aşağıdakılara dair daha səmərəli prosedurların həyata keçirilməsində kömək edə bilən hər hansı məlumatla təmin edəcəklər:

a) gömrük dəyərinin müəyyən edilməsi, malların idxalı və ya ixracı zamanı təqdim olunmuş sənədlərin təsdiq olunması, həmçinin bu sənədlərdə olan məlumatların həqiqiliyi;

b) malların gömrük tarifinə əsasən xarici ticarət fəaliyyətinə uyğun təsnifatı, həmçinin qruplara uyğun olaraq malların tarif təsnifatı məqsədilə laboratoriyalarda

təhlillərin həyata keçirilməsi;

c) malların mənşəyinin müəyyən edilməsi və ixrac zamanı təqdim edilən mənşə sertifikatına nəzarət, həmçinin ixrac ölkəsində mallara tətbiq edilən gömrük proseduruna nəzarət (gömrük nəzarəti altında tranzit, gömrük anbarı, müvəqqəti idxal, azad zonalar, gömrük ərazisində emaldan sonra ixrac və s.).

2. Gömrük idarələri bir-birini sorğu ilə aşağıdakı məlumatla təmin etməlidirlər:

a) Razılığa gələn Tərəf dövlətlərdən birinin ərazisinə idxal olunmuş və Razılığa gələn digər Tərəf dövlətin ərazisindən qanuni yolla ixrac olunmuş mallar;

b) Razılığa gələn Tərəf dövlətlərdən birinin ərazisindən ixrac olunmuş və Razılığa gələn digər Tərəf dövlətin ərazisinə qanuni yolla idxal olunmuş mallar.

3. Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri ilə və ya sorğu əsasında iki dövlətin ərazisində qüvvədə olan gömrük qanunvericiliyində təsbit olunan hüquqpozmalarla bağlı məlumatla, xüsusilə də aşağıdakılara dair məlumatla təmin edəcəklər:

a) gömrük hüquqpozmalarını törətməsi məlum olan və ya şübhə doğuran, yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən fiziki və ya hüquqi şəxslər;

b) gömrük hüquqpozmalarının və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmanın obyekti olması məlum olan və ya şübhə doğuran mallar;

c) gömrük hüquqpozmalarının törədilməsində və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmasında istifadə olunduğu məlum olan və ya şübhə doğuran nəqliyyat vasitələri.

4. Əgər sorğu alan gömrük idarəsi tələb olunan məlumata malik deyilsə, o öz səlahiyyətləri və mövcud imkanları daxilində, özü üçün fəaliyyət göstərdiyi kimi və öz dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq belə məlumatı əldə etmək məqsədilə zəruri tədbirlər görəcəkdir.

5. Razılığa gələn Tərəflərdən birinin gömrük idarəsi öz xüsusi təşəbbüsü ilə və ya sorğu əsasında Razılığa gələn digər Tərəfin gömrük idarəsini gömrük sənədləri, yükü müşayiət edən sənədlər, dəlillər barədə qeydlər və sənədlərin təsdiq olunmuş surətləri ilə, həmçinin digər dövlətin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozan və ya poza biləcək, həyata keçirilmiş və ya planlaşdırılmış tədbirlər barədə məlumatla təmin edəcəkdir.

6. Razılığa gələn digər Tərəfin gömrük idarəsinə təqdim olunan məlumat bu Sazişdə müəyyən edilmiş sənədlərin əvəzində hər hansı elektron vasitələrlə göndərilə bilər. Bu məlumatın şərhi və tətbiqi üçün zəruri olan izahlar buraya daxil edilməlidir.

Maddə 7

Yardım üçün sorğunun forma və məzmunu

1. Sorğular bu Sazişə uyğun olaraq yazılı şəkildə verilməlidir. Sorğulara onların həyata keçirilməsi üçün lazım olan əlavələr daxil edilməlidir. Müstəsna hallarda sorğular şifahi şəkildə verilə bilər, lakin dərhal yazılı şəkildə təsdiq olunmalıdır.

2. Bu maddənin 1-ci bəndinə əsasən sorğuya aşağıdakı məlumat daxil edilməlidir:

a) sorğu göndərən gömrük idarəsinin adı;

b) tələb olunan tədbirlər;

c) sorğunun məqsədi və səbəbləri;

d) sorğunun mövzusuna aid olan qanunlar və digər hüquqi aktlar;

e) təhqiqata cəlb olunmuş fiziki və ya hüquqi şəxslər barəsində ən dəqiq və müfəssəl məlumatlar;

f) sorğunun məqsədilə bağlı müvafiq faktların qısa məzmunu.

3. Sorğular sorğu alan Razılığa gələn Tərəf dövlətin rəsmi dilində, ingilis və ya fransız dillərində təqdim ediləcəkdir.

4. Əgər sorğu bu maddənin 2-ci və 3-cü bəndlərinin tələblərinə cavab vermirsə, bu sorğuda düzəlişlərin edilməsi xahiş ediləcəkdir.

Maddə 8

Gömrük təhqiqatları

1. Əgər Razılığa gələn bir Tərəfin gömrük idarəsi sorğu göndərirsə, Razılığa gələn digər Tərəfin gömrük idarəsi sorğu edən Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozan və ya poza bilən fəaliyyətlərin təhqiqatına başlayacaqdır. O bu cür təhqiqatların nəticələrini sorğu edən Razılığa gələn Tərəfin diqqətinə çatdırmalıdır.

2. Bu təhqiqatlar sorğu alan Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirilməlidir. Sorğu alan Razılığa gələn Tərəf özü üçün fəaliyyət göstərdiyi kimi fəaliyyət göstərməlidir.

3. Razılığa gələn bir Tərəfin gömrük idarəsinin vəzifəli şəxsləri, xüsusi hallarda, Razılığa gələn digər Tərəfin gömrük idarəsinin razılığı ilə müvafiq dövlətin gömrük qanunvericiliyinin pozulmasına dair təhqiqatlarda Razılığa gələn həmin Tərəf dövlətin ərazisində iştirak edə bilər. Onlar öz rəsmi səlahiyyətlərini təsdiq etməlidirlər.

4. 3-cü bəndə uyğun olaraq sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində iştirak edən sorğu edən Razılığa gələn Tərəfin rəsmi şəxsi yalnız məsləhətçi kimi fəaliyyət göstərməli və heç bir halda təhqiqatda fəal iştirak etməməli, sorğu edilən şəxslərlə görüşməməli və hər hansı bir təhqiqat fəaliyyətində iştirak etməməlidir.

Maddə 9

Məlumat və sənədlərdən istifadə edilməsi

1. Bu Saziş çərçivəsində alınan informasiya, sənədlər və məlumatlar bu Sazişlə müəyyən edilmiş məqsədlərdən başqa digər məqsədlər üçün istifadə edilməməlidir. Onlar digər məqsədlər üçün yalnız onları təqdim etmiş gömrük idarəsinin yazılı şəkildə icazəsi olduqda istifadə edilə bilər.

2. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə dair məlumat və sənədlər Razılığa gələn Tərəf dövlətlərin narkotik vasitələrin

sui-istifadəsinə və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə nəzarət fəaliyyəti ilə məşğul olan digər hökumət orqanlarına da təqdim edilə bilər.

3. Bu Sazişə uyğun olaraq hər hansı formada göndərilən hər hansı sorğu və təqdim olunan məlumat konfidensial xarakter daşımalıdır. Onlar konfidensial saxlanmalı və sorğu alan Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq eyni xarakterli məlumat və sənədlərə şamil edilən müdafiə altında olmalıdır.

4. Bu Saziş çərçivəsində məlumat və sənədlərlə təmin olunmuş gömrük idarəsi onların məqsədləri və səlahiyyət dairəsindən asılı olaraq həm də inzibati və məhkəmə proseslərində onlardan dəlil kimi istifadə edə bilər.

5. Bu cür sənəd və məlumat məhkəmədə dəlil kimi istifadə edilə bilər və onların hüquqi statusu məlumat və sənədləri alan Razılığa gələn Tərəf dövlətin ərazisində qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq müəyyən edilməlidir.

6. Bu Saziş çərçivəsində şəxsi məlumatlar mübadilə edildiyi hallarda, Razılığa gələn Tərəflər, həmin Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq, məlumatları təqdim edən Tərəfin tətbiq etdiyi eyni müdafiəni təmin edəcəklər.

Maddə 10

Ekspertlər və şahidlər

1. Sorğu əsasında, sorğu alan Razılığa gələn Tərəf vəzifəli şəxslərə onların razılığı ilə sorğu edən Razılığa gələn Tərəfin hüquqi və ya inzibati orqanları qarşısında ekspert və ya şahid kimi iştirak etmək səlahiyyəti verə bilər. Belə vəzifəli şəxslər onlar tərəfindən vəzifələrinin icrası zamanı əldə olunmuş ifadə verməlidirlər.

2. Sorğu edən gömrük idarəsi bu maddənin 1-ci bəndinə əsasən fəzifəli şəxslər onun dövlətinin ərazisində olarkən onların şəxsi təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirləri görməlidir. Bu vəzifəli şəxslərin nəqliyyat və gündəlik xərcləri sorğu edən gömrük idarəsi tərəfindən ödənilməlidir.

3. Bu vəzifəli şəxslərin iştirakı üçün sorğuda vəzifəli şəxsin iştirak edəcəyi iş və səlahiyyətləri dəqiqliklə göstərilməlidir.

4. Gömrük orqanlarının vəzifəli şəxslərinin ekspert və şahidlər qismində iştirak etməsi üçün sorğu, sorğu alan Razılığa gələn Tərəf dövlətin qanunvericiliyinə uyğun olaraq tərtib edilməlidir.

Maddə 11

Yardım göstərmək öhdəliyindən istisnalar

1. Əgər sorğu alan Razılığa gələn Tərəf sorğunun yerinə yetirilməsinin öz dövlətinin suverenliyi, təhlükəsizliyi və ya hər hansı digər mühüm maraqlarına zərər gətirə biləcəyini hesab edirsə, o bu Saziş çərçivəsində tələb olunan yardımdan tamamilə və yaxud qismən imtina edə və ya tələb olunan yardımı müəyyən şəraitdən asılı olaraq göstərə bilər.

2. Əgər sorğu edən Razılığa gələn Tərəf yardım üçün müraciət edirsə və özü bu yardımı Razılığa gələn digər Tərəfin gömrük idarəsinə göstərmək iqtidarında deyilsə, bu fakt sorğuda qeyd olunmalıdır. Belə sorğunun həyata keçirilməsi sorğu alan Razılığa gələn

Tərəfin qərarından asılı olacaqdır.

3. Yardımdan imtina edildiyi təqdirdə, imtinanın səbəbi gecikdirilmədən yazılı şəkildə sorğu edən Razılığa gələn Tərəfə təqdim edilməlidir.

Maddə 12

Gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi

Gömrük idarələri, qarşılıqlı surətdə razılaşdırıldığı kimi, malların Razılığa gələn Tərəf dövlətlərin ərazisindən keçirilməsini sadələşdirmək və sürətləndirmək məqsədilə gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üçün lazımi tədbirlərin keçirilməsini öz öhdələrinə götürəcəklər.

Maddə 13

Texniki yardım

Gömrük idarələri bir-birlərinə gömrük işi sahəsində aşağıdakılara dair texniki yardım göstərə bilərlər:

a) gömrük nəzarəti üçün istifadə olunan təkmilləşdirilmiş vasitələrlə tanış olmaq məqsədilə gömrük orqanlarının vəzifəli şəxslərinin mübadiləsi;

b) texniki nəzarət vasitələrinin istifadəsində məlumat və ekspertiza mübadiləsi;

c) gömrük orqanlarının vəzifəli şəxslərinin təlimi və təkmilləşdirilməsi;

d) gömrük məsələləri üzrə ekspertlər mübadiləsi;

e) gömrük müddəalarının tətbiqi ilə bağlı xüsusi, elmi və texniki məlumatların mübadiləsi.

Maddə 14

Xərclər

1. Razılığa gələn Tərəflər, ekspertlərə, şahidlərə və dövlət xidmətində olmayan şifahi və yazılı tərcüməçilərə ödənilmiş xərclər istisna olmaqla, bu Sazişə uyğun olaraq çəkilmiş xərclərin ödənilməsinə dair bir-birlərinə bütün iddialardan imtina edəcəklər.

2. Əgər sorğunun icrası üçün xeyli miqdarda və ya həddən artıq xərc tələb olunursa və ya olunacaqsa, Gömrük İdarələri sorğunun hansı şərtlər əsasında icra olunacağım, həmçinin xərclərin ödəniləcəyi üsulunu müəyyən etmək məqsədilə məsləhətləşəcəklər.

Maddə 15

Sazişin həyata keçirilməsi

1. Bu Sazişdə nəzərdə tutulan əməkdaşlıq və qarşılıqlı yardım Razılığa gələn Tərəflərin gömrük idarələri tərəfindən həyata keçiriləcəkdir. Bu məqsədlə həmin orqanlar sənədləşmə üzərində qarşılıqlı surətdə razılığa gələcəklər.

2. Razılığa gələn Tərəflərin gömrük idarələrinin nümayəndələri bu Sazişin müddəalarının həyata keçirilməsini təhlil etmək və Razılığa gələn Tərəflərin gömrük idarələri arasında əməkdaşlıq və qarşılıqlı yardıma dair digər praktik məsələləri həll etmək məqsədilə, lazım gəldikdə, ən azı ildə bir dəfə növbə ilə bir və ya digər dövlətin ərazisində gö-

rüş keçirəcəklər.

3. Razılığa gələn Tərəflərin gömrük idarələri bu Sazişin praktik tətbiq olunma metodlarını birgə müəyyən edəcəklər.

4. Bu Sazişin məqsədləri üçün Razılığa gələn Tərəflərin gömrük idarələri əlaqə saxlamaq üçün vəzifəli şəxsləri təyin etməlidirlər və həmin vəzifəli şəxslərin adlarını, tutduqları vəzifəni, telefon və faks nömrələrini göstərən siyahının mübadiləsini həyata keçirəcəklər. Onlar həmçinin, öz təhqiqat bölmələrinin bir-birləri ilə birbaşa əlaqə saxlaması üçün tədbir görə bilərlər.

Maddə 16

Mübahisələrin həlli

Bu Sazişin həyata keçirilməsi və təfsiri zamanı ortaya çıxan hər hansı bir mübahisə Razılığa gələn Tərəflərin gömrük idarələri arasında məsləhətləş-mələr yolu ilə həll olunacaqdır.

Gömrük idarələri arasında məsləhətləşmələr yolu ilə həll oluna bilməyən mübahisələr diplomatik kanallarla həll olunacaqdır.

Maddə 17

Qüvvəyə minmə

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Razılığa gələn Tərəflərin diplomatik kanallarla bir-birini xəbərdar etdiyi sonuncu yazılı bildirişin alındığı tarixdən otuz gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Saziş beş il müddətinə bağlanılır və avtomatik olaraq birillik növbəti dövrlərə uzadılacaqdır, lakin Razılığa gələn hər bir Tərəf diplomatik kanallar vasitəsilə yazılı bildiriş verməklə istənilən vaxt onun qüvvəsini ləğv elə bilər.

3. Saziş Razılığa gələn digər Tərəfə diplomatik kanallarla verilmiş ləğv etməyə dair yazılı bildirişin tarixindən üç ay sonra qüvvədən düşəcəkdir. Lakin qüvvədən düşmə vaxtı davam edən işlər bu Sazişin müddəalarına uyğun olaraq tamamlanmalıdır.

Saziş Buxarest şəhərində 11 oktyabr 2004-cü il tarixində hər biri Azərbaycan, rumın və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Sazişin təfsirində hər hansı fikir ayrılığı zamanı ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUMİNİYA HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*TUDOR PANOSESKU*
Baş nazirinin birinci müavini	*Gömrük naziri*

"Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" 2004-cü il noyabrın 30-da Doha şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№845-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti, onların qarşılıqlı faydası üçün iki dövlət arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq sahələrində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi arzusu ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər müvafiq qanun və qaydalarına uyğun olaraq bərabərlik və qarşılıqlı fayda əsasında sənaye, enerji, kənd təsərrüfatı, kommunikasiya, nəqliyyat, tikinti, əmək, turizm və digər sektorlar kimi iqtisadi, ticarət və texniki sahələrdə bir-biri ilə əməkdaşlıq edəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq öz aralarında ticarət əlaqələrinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün bir-birinə münasibətdə ən əlverişli rejim prinsipini tətbiq edəcəklər.

Bu müddəa aşağıdakılara tətbiq edilməyəcəkdir:

1. Razılığa gələn Tərəflərdən birinin sərhədyanı ticarətin və mal daşınmalarının sadələşdirilməsi məqsədilə hər hansı qonşu dövlətlərə verdiyi və ya verəcəyi güzəşt və imtiyazlara;

2. Azad ticarət zonalarının və gömrük ittifaqlarının yaradılmasında Razılığa gələn Tərəflərin iştirakından irəli gələn güzəşt və imtiyazlara;

3. İqtisadi inteqrasiyaya yönəldilmiş regional və çoxtərəfli sazişlər çərçivəsində hər hansı üçüncü dövlətə verilən güzəştlərə.

Maddə 3

Razılığa gələn Tərəflər öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq və hüquqi şəxslərini ticarət metodlarının əldə edilməsinə, ticarət şirkətlərinin və birgə müəssisələrin yaradılmasına təşviq edəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq ticarət şirkətlərinin və müəssisələrinin Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində keçirilən beynəlxalq və ya xüsusi sərgilərdə iştirak etməsini təşviq edəcək və bu istiqamətdə qarşılıqlı tədbirlərin həyata keçirilməsinə şərait yaradacaqlar.

Maddə 5

Bu Saziş çərçivəsində hüquqi və fiziki şəxslər arasında aparılan əməliyyatlar üzrə ödənişlər aidiyyəti tərəflər arasında razılaşdırılacaq sərbəst dönərli valyutada aparılır.

Maddə 6

Razılığa gələn Tərəflər bu Saziş çərçivəsində və öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq aşağıdakıları sadələşdirəcək:

Razılığa gələn digər Tərəfin dövlət ərazisindən gələn və üçüncü dövlətin ərazisinə daşınması nəzərdə tutulan malların tranzitini;

üçüncü dövlətin ərazisindən gələn və Razılığa gələn digər Tərəfin dövlət ərazisinə daşınması nəzərdə tutulan malların tranzitini.

Maddə 7

Razılığa gələn Tərəflər öz dövlətlərində qüvvədə olan qanun və qaydalara uyğun olaraq Hökumət tərəfindən təşkil edilən sərgi və yarmarkaların keçirilməsi üçün idxal olunan və sonradan geri qaytarılacaq əşya və avadanlıqları gömrük rüsumları və vergilərdən azad edəcəklər.

Maddə 8

Bu Sazişin müddəalarının səmərəli şəkildə tətbiqi və onun icrası zamanı yarana biləcək problemləri aradan qaldırmaq üçün Razılığa gələn Tərəflər, Tərəflərin hər hansı birinin müraciəti ilə vaxtaşırı hər iki ölkədə növbə ilə görüşəcək iqtisadi, Ticarət və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiya yaratmaq barədə razılığa gəldilər:

bu Sazişin müddəalarının icrasını asanlaşdırmaq üçün prosedur qaydalar təklif etmək,

iki ölkə arasında iqtisadi, ticarət, mədəni, kənd təsərrüfatı və sənaye sahəsində əməkdaşlığı genişləndirmək üçün tələb olunan müxtəlif üsulları tədqiq etmək,

ticarət mübadiləsinin əhatə dairəsini genişləndirmək, təşviq etmək və maneələri aradan qaldırmaq.

bu Sazişin təfsiri və tətbiqindən irəli gələn problemlərin həll olunması və tənzimlənməsini razılaşdırmaq,

iki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirmək və ticarət mübadiləsi perspektivlərini genişləndirmək üçün bu Sazişə dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlamaq.

Maddə 9

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilir və bu Sazişin 10-cu maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 10

Bu Saziş, Razılığa gələn Tərəflərin Sazişin qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların başa çatdırıldığını təsdiqləyən sonuncu yazılı bildirişi aldığı tarixdə qüvvəyə minir.

Bu Saziş beş (5) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri ən azı altı (6) ay qalmış bu Sazişin ləğv edilməsi niyyəti barədə diplomatik kanallar vasitəsilə Razılığa gələn digər Tərəfi yazılı şəkildə məlumatlandırmazsa, Saziş avtomatik olaraq növbəti beş ilə uzadılacaqdır.

Bu Sazişin müddəaları, onun qüvvədə olduğu müddət ərzində bağlanılmış bütün müqavilələrə münasibətdə, həmin müqavilələrin müddəti başa çatana qədər qüvvədə qalacaqdır.

Bu Saziş Dohada 30 noyabr 2004-cü ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Fikir ayrılığı olduğu halda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QATAR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*HƏMƏD BİN CASİM BİN CABİR AL TANİ*
Xarici işlər naziri	*Baş nazirinin birinci müavini, xarici işlər naziri*

"Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə dəyişiklik və əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 18, maddə 243; 1995-ci il, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 385, № 6, maddə 493; 1998-ci il, № 2, maddə 70; 2000-ci il, № 12, maddə 835; 2001-ci il, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002-ci il, № 1, maddə 4, № 8, maddə 463; 2004-cü il, № 7, maddə 505) 6-cı maddəsinin birinci hissəsinin 3-cü bəndindən "verilir" sözü çıxarılsın və həmin hissəyə aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

"4) diplomatik korrespondensiyaları daşıyan feldyeger rabitəsi orqanının əməkdaşlarına verilir.".

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2005-ci il

№850-IIQD

Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№655

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla

oğlu Eyyubova verilməsi barədə Səudiyyə İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№656

Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsin-də iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№657

F. N. İsmayılova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Fuad Nazim oğlu İsmayılova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№660

F. N. İsmayılovun Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fuad Nazim oğlu İsmayılov Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№661

A. F. Süleymanova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Ayxan Firudin oğlu Süleymanova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№ 662

A. F. Süleymanovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ayxan Firudin oğlu Süleymanov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№ 663

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu İ. N. Yaqubovun eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu İbrahim Nəbi oğlu Yaqubov eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№664

Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsinin inkişafı üçün Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsinin inkişafı üçün qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 mart 2005-ci il

№665

Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№858-IIQ

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№859-IIQ

Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№860-IIQ

Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№863-IIQ

Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№864-IIQ

V. İ. Sadıqovun Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vaqif İsmayıl oğlu Sadıqov Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№666

Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F. N. İsmayılovun, eyni zamanda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Fuad Nazim oğlu İsmayılov, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№667

"Azərbaycan Respublikası və Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında Borc Sazişini (Şimal-Şərq İnkişaf Layihəsi)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında Borc Sazişini (Şimal-Şərq İnkişaf Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fonda müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№668

Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2005-ci il

№861-IIQ

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Çin Xalq Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№679

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Çin Xalq Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№680

"Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№681

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikası Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikası Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№682

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Çin Xalq Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№683

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Çin Xalq Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№684

"Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Sazişini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əməkdaşlıq Sazişini imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2005-ci il

№685

2004-cü il noyabrın 11-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "2004-cü il noyabrın 11-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. 2004-cü il noyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti nümayəndə heyətlərinin danışıqlarının Protokolu" nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci və 2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsini təmin etmək üçün lazımi tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№687

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqaviləni, həmçinin Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında 25 yanvar 2002-ci il tarixli Müqaviləni rəhbər tutaraq,

qarşılıqlı fayda əsasında hərtərəfli əməkdaşlığın inkişafına səy göstərərək,

Tərəflərin mövcud ticarət-iqtisadi və elmi-texniki potensiallarının səmərəli istifadəsini arzu edərək,

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Sankt-Peterburqu arasında mədəni əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində, Tərəflərin dövlətlərinin qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq və beynəlxalq ticarət və iqtisadi kooperasiya prinsiplərinə əsasən qarşılıqlı faydalı ticarət-iqtisadi, mədəni və elmi-texniki əməkdaşlığın genişləndirilməsinə və inkişafına yönəlmiş zəruri tədbirlər görürlər.

Maddə 2

Tərəflər rəqabət qabiliyyətli malların istehsalında Azərbaycan Respublikasının və Rusiya Federasiyası Sankt-Peterburqunun təşkilat və müəssisələrinin imkanlarından maksimum istifadə etmək məqsədlərini rəhbər tutaraq birgə istehsalat, sahibkarlıq və digər təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradırlar.

Maddə 3

Tərəflər regionlararası əməkdaşlığın inkişafında prioritet istiqamətlərin müəyyən edilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının və Rusiya Federasiyası Sankt-Peterburqunun təsərrüfat subyektləri və icra hakimiyyətləri orqanları arasında birbaşa əlaqələrin qurulmasına, həmçinin qarşılıqlı maraq kəsb edən sahələrdə müqavilələrin bağlanılmasına kömək göstərirlər.

Maddə 4

Tərəflər birgə istehsalat, elmi-texniki və kommersiya fəaliyyətinin səmərəli formalarının inkişafına, birgə müəssisələrin yaradılmasına və fəaliyyət göstərmələrinə kömək edir, həmçinin Azərbaycan Respublikasının və Rusiya Federasiyası Sankt-Peterburqunun təsərrüfat subyektlərinin, beynəlxalq sərgi və yarmarkalarda iştirak, informasiya mübadiləsi və digər əməkdaşlıq formaları daxil olmaqla, hərtərəfli kontraktlar üçün münasib şərait yaradırlar.

Maddə 5

Tərəflər xammalın, xalq təsərrüfatı mallarının və istehsalat-texniki təyinatlı məhsulların mühüm növlərinin, o cümlədən ərzaq məmulatlarının qarşılıqlı tədarükünün həyata keçirilməsində maraqlarını təsdiq edirlər. Bu zaman Tərəflər hər il xidmət və malların nomenklaturunun və həcminin daxil edildiyi indikativ siyahıların mübadiləsini apara bilərlər.

Maddə 6

Tərəflər Azərbaycan Respublikası və Sankt-Peterburq ərazisində istehsal edilən xidmət və malların Azərbaycan Respublikasının, Rusiya Federasiyası subyektlərinin və digər dövlətlərin bazarlarına çıxarılmasında qarşılıqlı kömək göstərirlər.

Maddə 7

Tərəflərin ticarət-iqtisadi əməkdaşlığı idarə tabeliyi və mülkiyyət formasından asılı olmayaraq təsərrüfat subyektləri arasında öz səlahiyyətləri çərçivəsində bağlanılan müqavilələr əsasında həyata keçirilir.

Müqavilələrin həyata keçirilməsində məsuliyyəti onları bağlayan təsərrüfat subyektləri daşıyır.

Maddə 8

Tərəflər investisiyaların cəlb olunması üçün əlverişli şərait yaradırlar, Tərəflərin müəssisələrinin müxtəlif tender və proqramlarda iştirakına səy göstərirlər, birgə investisiya layihələrinin, o cümlədən digər dövlətlərin iştirakı ilə həyata keçirilənlərin hazırlanmasına və həyata keçirilməsinə kömək göstərirlər.

Maddə 9

Tərəflər müxtəlif təsərrüfat fəaliyyəti sahələrində mütəxəssis və nümayəndə heyətləri mübadiləsinin həyata keçirilməsinə, Azərbaycan Respublikası və Rusiya Federasiyasının Sankt-Peterburqu ərazisində yerləşən təşkilatlar arasında elmi əməkdaşlığa səy göstərirlər.

Maddə 10

Tərəflər təhsil və elm sahəsində əlaqələrin genişlənməsinə, elmi kadrların birgə hazırlanmasına, Azərbaycan Respublikası və Sankt-Peterburq ali məktəblərində təhsil alınmasına, elmi-praktiki konfransların, seminarların, dəyirmi masaların keçirilməsinə, alimlər, tədqiqatçılar, tələbə və aspirantlar üçün təcrübələrin təşkil olunmasına kömək göstərirlər, habelə elmi-texniki informasiya, ədəbiyyat və sənəd mübadiləsini təşkil edirlər.

Maddə 11

Tərəflər, hər bir Tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq, fondlarından və informasiya banklarının göstəricilərindən, arxivlərindən, ədəbi-tarixi irslərindən istifadə edilməsinə yardım edərək, incəsənət, ədəbiyyat və mədəni sahələrdə əlaqələri dərinləşdirir və genişləndirirlər.

Tərəflər uşaq, özfəaliyyət və peşəkar kollektivlərinin festivallarda, xalq yaradıcılığı

müsabiqələrində və nümayişlərdə iştirakına, teatr və bədii sərgilər, konsert və teatr qastrolları mübadiləsinə, müsabiqə və festivalların, konsert və qastrolların, bədii incəsənət sərgilərinin keçirilməsi vasitəsilə dövri və bədii ədəbiyyatın mübadiləsinə hər cür kömək göstərirlər, həmçinin Azərbaycan Respublikası və Rusiya Federasiyası Sankt-Peterburqunun ərazilərində yerləşən kitabxana, muzey, teatr və digər mədəniyyət müəssisələri, mədəniyyət mərkəzləri, həvəskar təşkilatları və dövlət arxivləri arasında əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 12

Tərəflər:

ekoloji təmiz qida məhsulları istehsalının təşkili məsələləri daxil olmaqla, əhalinin sağlamlığının mühafizəsi sahəsində qarşılıqlı fəaliyyət göstərirlər;

əhalinin tibbi xidmət məsələlərinin birgə həll edilməsi üçün əczaçılıq bazasının inkişafına kömək edirlər;

tibbi məmulatların, tibbi texnikanın və dərmanların bazarının vəziyyəti və tədarükü imkanları haqqında məlumatları bir-birinə təqdim edirlər;

hər bir Tərəfin qanunvericiliyinə uyğun olaraq əhaliyə məsləhət yardımının alınmasında və ixtisaslaşdırılmış tibb müəssisələrindən istifadə edilməsində kömək göstərirlər;

səhiyyə problemləri üzrə birgə konfransların və mütəxəssislərin işgüzar görüşlərinin keçirilməsinə kömək göstərirlər.

Maddə 13

Tərəflər gənclər siyasəti, idman və turizm sahələrində əlaqələrin inkişafını, gənclər ittifaqları ilə iş təcrübəsi mübadiləsini dəstəkləyir və təşviq edir, birgə idman tədbirlərinin keçirilməsinə, həmçinin uşaq, məktəb, özəl və mütəşəkkil turizmin formalaşmasına hər cür kömək göstərirlər.

Maddə 14

Tərəflər Azərbaycan Respublikası və Rusiya Federasiyası Sankt-Peterburqunun potensial imkanlarının reklamı və dövri nəşriyyatı, televiziya və radio verilişlərinin mübadiləsinə kömək göstərirlər.

Maddə 15

Tərəflər əməkdaşlığın əlaqələndirilməsi, bu Sazişin icrasına nəzarətin edilməsi, qarşılıqlı maraq kəsb edən məsələlərə dair fikir mübadiləsinin aparılması məqsədilə mütəmadi işçi görüşləri, məsləhətləşmələr və danışıqları təşkil edirlər.

Tərəflər, zəruriyyət yarandığı halda bu Sazişdə nəzərdə tutulmuş əməkdaşlıq sahələrində ayrı-ayrı məsələlərin həlli üçün birgə ekspert-analitik və digər işçi qrupları yarada bilirlər.

Maddə 16

Tərəflər arasında bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr məsləhətləşmə və danışıqlar yolu ilə tənzimlənməlidir.

Tərəflər, qarşılıqlı razılığa əsasən, bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 17-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edə bilər.

Maddə 17

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan prosedurların yerinə yetirilməsi barədə bildirişinin alınması tarixindən qüvvəyə minir.

Bu Sazişin qüvvəsi Tərəflərdən birinin digər Tərəfin bu Sazişin qüvvəsinin dayandırılması niyyəti barədə yazılı bildirişi aldığı tarixdən altı ay sonra dayandırılır.

Bu Sazişin qüvvəsinin dayandırılması onun qüvvədə olduğu dövrdə bu Saziş çərçivəsində bağlanmış müqavilə və kontraktlardan irəli gələn hüquq və öhdəliklərə həmin müqavilə və kontraktların müddəti bitənədək aid edilmir, əgər Tərəflər digərləri barədə razılığa gəlməyiblərsə.

11 noyabr 2004-cü ildə Bakı şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI SANKT-PETERBURQ HÖKUMƏTİ ADINDAN
ABBAS ABBASOV	*VALENTİNA MATVİYENKO*
Baş nazirinin birinci müavini	*Qubernator*

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti nümayəndə heyətlərinin danışıqlarının Protokolu

Bakı şəhəri 11 noyabr 2004-cü il

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında 2004-cü il 11 noyabr tarixli Sazişin həyata keçirilməsi məqsədilə, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üzrə fəaliyyəti konkretləşdirmək zərurətindən çıxış edərək, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə Sankt-Peterburq Administrasiyası arasında ticarət-iqtisadi əməkdaşlıq sahəsində 1998-ci il 22 avqust tarixli Niyyət Protokolunda nəzərdə tutulmuş tədbirlərin əsasən yerinə yetirildiyini vurğulayaraq aşağıdakılar barədə bu Protokolu bağladılar:

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi əmtəə və xidmətlərə ehtiyac barədə daxil olan informasiyanı mübadilə etsinlər.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi,

Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi işgüzar dairələrin təmsilçilərini cəlb etməklə, Azərbaycan Respublikasında istehsal edilən faraş meyvə-tərəvəz məhsullarının Sankt-Peterburqa göndərilməsi məsələsini həll etsinlər, gələcəkdə xarici investisiyalarla kənd təsərrüfatı məhsullarının emalı üzrə kommersiya təşkilatlarının yaradılması imkanlarını nəzərdən keçirsinlər.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi, Sankt-Peterburqun İnvestisiyalar və Strateji Layihələr Komitəsi qarşılıqlı maraq doğuran sahələrdə sorğu-informasiya məlumat bazalarının, investisiya layihələrinin, investisiyaların təşviqi və innovasiyanın tətbiqi mexanizmləri barədə informasiyanın mübadiləsini müntəzəm həyata keçirsinlər, həmçinin birgə investisiya-innovasiya proqramlarının işlənib-hazırlanması və reallaşdırılması imkanlarını nəzərdən keçirsinlər.

4. Maşınqayırma, konversiya, tikinti, kimya və neft kimyası, nəqliyyat, elm, səhiyyə, təhsil, mədəniyyət, intellektual mülkiyyət hüquqlarının qorunması və turizm sahələrində əməkdaşlığın bundan sonra da dərinləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanlarına və təşkilatlara tapşırılsın ki, qarşılıqlı öhdəliklərin konkretləşdirilməsi məqsədilə sahə sazişləri və müqavilələri hazırlasınlar.

5. Müvafiq icra hakimiyyəti orqanlarına tövsiyə edilsin ki, Azərbaycan Respublikası və Sankt-Peterburq ərazilərində keçirilən investisiya layihələrində, tenderlərində və proqramlarında iştirakda, həmçinin xammal, ərzaq, istehsalat-texniki təyinatlı məhsullar, xalq istehlakı malları göndərilməsi və xidmətlər göstərilməsi üçün birbaşa müqavilələrin (kontraktların) bağlanması və həyata keçirilməsində təşkilatlara kömək göstərsinlər.

6. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi sənaye, kənd təsərrüfatı, tikinti və digər ticarət yarmarkaları və sərgiləri barədə bir-birini müntəzəm məlumatlandırsınlar, məhsulların reklamı və Azərbaycan Respublikası və Sankt-Peterburq bazarlarına qarşılıqlı surətdə çıxarılması məqsədilə bu işə müəssisə və təşkilatları cəlb etsinlər.

7. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Bakı Biznes Mərkəzini cəlb etməklə və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi Sankt-Peterburqda istehsal edilən məhsulların və xidmətlərin Bakıda sərgisinin keçirilməsi imkanını nəzərdən keçirsinlər.

8. Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının maraqlı iştirakçılarına tədris kursları və seminarların təşkilində yardım göstərsin.

9. Bakı Şəhər İcra Hakimiyyəti və Sankt-Peterburq dövlət hakimiyyətinin müvafiq icra orqanları şəhər təsərrüfatının idarə edilməsi sahəsində, xüsusən planlaşdırma, tikinti, ictimai nəqliyyat, ətraf mühitin mühafizəsi, sosial təminat, kommunal təsərrüfat və digər sahələrdə təcrübə və informasiyanın müntəzəm mübadiləsini həyata keçirsinlər.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Təbiətdən İstifadə, Ətraf Mühitin Mühafizəsi və Ekoloji Təhlükəsizliyin Təmin Edilməsi Komitəsi meşə təsərrüfatı və meşə quruluşu sahəsində kadrların hazırlanması və ixtisasının artırılması üçün Sankt-Peterburqda tədris bazası yaradılması məsələsini nəzərdən keçirsinlər, həmçinin bu sahədə elmi-texniki əməkdaşlığın genişləndirilməsi üzrə tədbirlər görsünlər.

11. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Səhiyyə Komitəsi Sankt-Peterburqun müalicə müəssisələrində azərbaycanlı həkimlərin təcrübə keçməsinin təşkili məsələsini nəzərdən keçirsinlər.

12. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Elm və Ali Məktəb Komitəsi Rusiya Federasiyasının Sankt-Peterburq ali təhsil müəssisələrinə Azərbaycan Respublikası abituriyentlərinin və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə Rusiya Federasiyasının Sankt-Peterburq abituriyentlərinin qəbul edilməsinə yardım göstərsinlər.

13. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Mədəniyyət Komitəsi mədəni əməkdaşlığın inkişafı üzrə təkliflər işləyib hazırlasınlar və tədbirlər planını razılaşdırsınlar.

14. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun İqtisadi İnkişaf, Sənaye Siyasəti və Ticarət Komitəsi, Sankt-Peterburqun Mədəniyyət Komitəsi maraqlı təşkilatları cəlb etməklə 2005-ci ildə Rusiyada Azərbaycan İli çərçivəsində Sankt-Peterburqda keçirilməsi nəzərdə tutulan tədbirlərin siyahısını hazırlasınlar və razılaşdırsınlar.

15. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizim Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Gənclər Siyasəti və İctimai Təşkilatlarla Qarşılıqlı Fəaliyyət Komitəsi, Sankt-Peterburqun Bədən Tərbiyəsi və İdman Komitəsi turizm potensialı barədə informasiya mübadiləsi etsinlər, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üzrə tədbirlər görsünlər, Sankt-Peterburqdan məktəbli və tələbə qruplarının Azərbaycan Respublikasının Xəzər sahillərindəki turizm zonalarında istirahətinin təşkili imkanlarını nəzərdən keçirsinlər.

16. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizim Nazirliyi və Sankt-Peterburqun Xarici Əlaqələr və Turizm Komitəsi, Sankt-Peterburqun Bədən Tərbiyəsi və İdman Komitəsi idman sahəsində əməkdaşlığı fəallaşdırsınlar və idman kollektivlərinin mübadiləsi üzrə zəruri tədbirlər görsünlər, Azərbaycan Respublikası və Sankt-Peterburq idmançılarının idman tədbirlə rində iştirakı üçün birgə iş aparsınlar.

17. Azərbaycan Respublikası və Sankt-Peterburq Hökumətləri 2005-ci ilin ikinci rübündə Sankt-Peterburq şəhərində Sadovaya küçəsi, ev nömrə 12 ünvanında Azərbaycan milli mətbəxi və kulinariya sənəti mərkəzi kimi "Bakı" restoranının yenidən açılmasını təqdir edirlər.

18. Azərbaycan Respublikası Hökuməti və Sankt-Peterburq Hökuməti Rusiya Federasiyasında Azərbaycan Respublikası İlinin keçirilməsi çərçivəsində Sankt-Peterburqda Qoroxovaya küçəsi, ev nömrə 6 ünvanında yerləşən binada Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin şərəfinə Xatirə lövhəsinin vurulmasını təqdir edirlər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI SANKT-PETERBURQ HÖKUMƏTİ ADINDAN
ABBAS ABBASOV	*VALENTİNA MATVİYENKO*
Baş nazirinin birinci müavini	*Qubernator*

2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında "Əməkdaşlıq haqqında Saziş"in nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında "Əməkdaşlıq haqqında Saziş" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№688

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında Əməkdaşlıq haqqında Saziş

Bir tərəfdən, bundan sonra "AzərTAc" adlandırılacaq Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc), Baş direktoru Aslan Aslanov tərəfindən təmsil olunan, Bülbül pr. 18, Bakı, Azərbaycan və digər tərəfdən, bundan sonra "BTA" adlandırılacaq Bolqarıstan Teleqraf Agentliyi (BTA),Baş direktor Maksim Minçevlə təmsil olunaraq, 49 Çariqradsko şosse bulvarı, Sofiya, Bolqarıstan, aşağıdakı maddələr üzrə razılığa gəlmişlər:

1. AzərTAc razılığını bildirir ki, Sazişin müddəti dövründə BTA AzərTAc-ın Gündəlik İngilisdilli Xəbərlər Xidməti və AzərTAc Foto xidmətinin materiallarını istifadə etmək üçün qeyri-müstəsna hüquqa malikdir. İstifadə hüququna xüsusi xahiş olunmuş materiallar daxil deyil. Onlar elektron poçtu vasitəsilə göndəriləcək.

2. BTA razılığını bildirir ki, Sazişin müddəti dövründə AzərTAc BTA-nın Gündəlik İngilisdilli Xəbərlər Xidməti və Bolqarıstan Foto xidmətinin materiallarını istifadə etmək üçün qeyri-müstəsna hüquqa malikdir. İstifadə hüququna xüsusi xahiş olunmuş materiallar daxil deyil. Onlar elektron poçtu vasitəsilə göndəriləcək.

3. Hər iki tərəf qarşılıqlı surətdə xəbərlər və fotolarla bağlı tərəflərdən biri üçün xüsusi maraq kəsb edən materialları çatdırmağı öz üzərinə götürür. Bu xəbərlər rabitə və ya nəqliyyatla bağlı müstəsna xərclər tələb edərsə, materialı təchiz edən tərəf gözlənilən məbləğ barədə müraciət edən tərəfi əvvəlcədən xəbərdar etməlidir. Məbləğ məqbul hesab olunduqda, müraciət edən tərəf xahişə razılığını bildirməli və sifarişçi kimi həmin məbləği ödəməlidir.

4. AzərTAc və BTA jurnalistlərin və mümkün texniki xidmət işçilərinin qarşılıqlı səfərləri vasitəsilə əməkdaşlığın həcmini genişləndirməyə razılıqlarını bildirirlər. Bu cür mübadilə proqramlarının detalları və maliyyə aspektləri qarşılıqlı razılıq əsasında müəyyən olunur.

5. Həm Azərbaycan, həm də Bolqarıstan AzərTAc və BTA müxbirlərinin səfərləri üçün əllərindən gələn lazımi professional yardımı əsirgəməyəcəklərinə razılıq bildirirlər.

6. AzərTAc və BTA xidmətlərin sürətlə həyata keçirilməsi üçün əllərindən gələni edəcəklər, lakin heç bir tərəf məlumatın göndərilməsi zamanı onlardan asılı olmayan səbəblər üzündən gecikmə və ya qəza hallarına görə məsuliyyət daşımır.

7. AzərTAc və BTA xidmətləri AzərTAc və BTA tərəfindən bu Sazişin birinci və ikinci maddələrində göstərilən hallardan başqa heç bir halda istifadə edilməyəcəkdir. Bundan əlavə, AzərTAc və BTA tərəflərdən birinin mümkün embarqo xahişinə hörmətlə yanaşmağa razılıqlarını bildirirlər.

8. AzərTAc və BTA dəqiq məlumat və foto xidməti ilə təchiz etmək üçün əllərindən gələni edəcəklər, lakin nə birbaşa, nə də dolayısı yolla tərəflərdən birinin və yaxud da hər hansı üçüncü bir tərəfin təqsiri üzündən Sazişin birinci və ikinci maddələri üzrə nəzərdə tutulmuş xəbərlər və fotoların itməsi və ya korlanmasına görə məsuliyyət daşımırlar.

9. AzərTAc və BTA razılaşırlar ki, onların hər biri tərəfindən göstərilən müvafiq xidmət, onun bütövlüyünü pozan hər hansı dəyişikliyə məruz qala bilməz.

10. Saziş bir il müddətinə imzalanır. Əgər tərəflərdən biri Sazişi ləğv etmək niyyəti barədə digər tərəfi 60 (altmış) gün əvvəl yazılı şəkildə məlumatlandırmırsa, bu müddət növbəti bir il müddətinə uzadıla bilər.

Tərəflər bu Sazişi iki nüsxədə ingilis dilində imzalayırlar. Saziş 7 oktyabr 2004-cü ildən, yəni onun imzalandığı tarixdən qüvvəyə minir. Bakı şəhərində imzalanmışdır.

AZƏRTAC ADINDAN	BTA ADINDAN
ASLAN ASLANOV	*MAKSİM MİNÇEV*
Baş direktor	*Direktor*

2004-cü il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığa dair Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№689

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığa dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi,

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında 12 aprel 2000-ci ildə imzalanmış Anlaşma Memorandumunun daha da təkmilləşdirilməsi üçün,

BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı konvensiyasına müvafiq olaraq, ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə və polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlıq etmək niyyətini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq və öz səlahiyyətləri çərçivəsində polis əməkdaşlarının təliminin aşağıdakı sahələri üzrə əməkdaşlığı möhkəmləndirəcəklər:

1. məlumat və təcrübə mübadiləsinə dair:

a) polis əməkdaşlarının təliminin məzmunu və təlim üçün tədris planları haqqında;

b) polis əməkdaşlarının təliminin təşkilinə dair;

c) köməkçi tədris vasitələrinin təqdim olunmasına dair;

d) polislərin və müəllimlərin seçilməsi metodlarına dair;

e) təlim və ixtisasartırma tədbirlərinin yoxlanılması və qiymətləndirilməsi sistemi;

2. təlimin və ixtisasın artırılması üzrə birgə tədbirlərin təşkili;

3. təlim keçən personalın təlim və ixtisasartırma zamanı qarşılıqlı dəstəklənməsi;

4. elmi təcrübənin təşkili və onun praktiki tətbiqində informasiya mübadiləsi.

Maddə 2

Əməkdaşlığın həyata keçirilməsi məqsədilə səlahiyyətli orqanlar birgə işçi proqramı hazırlayır və onların fəaliyyətinin vaxtını müəyyən edirlər.

Maddə 3

Tərəflər öz dövlətinin ərazisində razılaşdırılmış tədbirləri təşkil edir və digər Tərəfin nümayəndələrinin qalması üçün sərf olunacaq xərcləri ödəyirlər. Gediş-gəliş xərclərini göndərən Tərəf öz üzərinə götürür.

Maddə 4

Protokolun yerinə yetirilməsi üzrə aşağıdakı səlahiyyətli orqanlar müəyyən edilir:

Azərbaycan Respublikasında:

Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsi.

AZ 1005, Bakı, H. Hacıyev küçəsi, 7

Tel.: 0099 412 490-90-03

Fax: 0099 412 490-90-35

Avstriya Respublikasında:

Federal Daxili İşlər Nazirliyinin Təhlükəsizlik Akademiyası.

Şöbə II/5 (Şöbə 2/5 = Şöbə II/5)

A-1014 Vyana, Herrengasse 7

Tel.: 0043 1 53126/4812

Faks: 0043 1 53126/108518

E-mail: bmi-ii5 @bmi.qv.at

Tərəflər səlahiyyətli orqanlarda dəyişikliklər baş verdiyi təqdirdə, bir-birini yazılı şəkildə dərhal məlumatlandıracaqlar.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığına əsasən Protokola dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 6

1. Bu Protokol qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı gündən qüvvəyə minir.

2. Hər bir Tərəf bu Protokolu ləğv edə bilər. Protokol onun ləğv edilməsi barədə digər Tərəfə yazılı bildirişin daxil olduğu gündən 3 ay sonra qüvvəsini itirmiş hesab olunur.

Protokol Bakı şəhərində 23 sentyabr 2004-cü il tarixdə Azərbaycan, alman dillərində eyni qüvvəyə malik olan iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	AVSTRİYA RESPUBLİKASININ FEDERAL DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*ERİK BUKSBAUM*
Daxili işlər naziri	*İctimai Təhlükəsizlik Departamentinin baş direktoru*

2004-cü il aprelin 25-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 25-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№690

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi,

11 mart 1994-cü il tarixli Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında dostluq münasibətlərinin əsasları haqqında Birgə Bəyanatın müddəalarını rəhbər tutaraq,

beynəlxalq terrorizm, separatizm və ekstremizm, həmçinin transmilli mütəşəkkil cinayətkarlığın get-gedə daha ciddi təhlükə törətdiyini dərk edərək,

bundan sonra da iki dövlət arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, suverenliyə qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı fayda əsasında Tərəflərin hüquq mühafizə sahəsindəki əməkdaşlığının möhkəmləndirilməsi səylərini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə və müvafiq beynəlxalq müqavilələrinə uyğun olaraq səlahiyyətləri çərçivəsində əməkdaşlıq edirlər:

1. Tərəflər öz dövlətinin ərazisində digər Tərəfin dövlətinin vətəndaşlarının və hüquqi şəxslərinin şəxsi və mülkiyyət hüquqlarının və digər qanuni hüquq və mənafelərinin hüquqi müdafiəsinin təmin edilməsini öhdələrinə götürürlər.

2. Tərəflər onların səlahiyyətinə aid olan məsələlər üzrə digər Tərəfin dövlətinin vətəndaşlarının və hüquqi şəxslərinin qanuni şikayət və ərizələrini qəbul etməyi və araşdırmağı öhdələrinə götürürlər.

3. Tərəflər cinayətlərin qarşısının alınması, aşkar edilməsi və aradan qaldırılmasında ilk növbədə, aşağıdakılara dair əməkdaşlığı həyata keçirirlər:

1) şəxsiyyətin həyatına, səhhətinə, azadlığına və ləyaqətinə qarşı cinayətlər;
2) narkotik vasitələr və psixotrop maddələrin, həmçinin onların hazırlanması prosesində istifadə olunan maddələrin qanunsuz dövriyyəsi;
3) terrorçu, separatçı və ekstremist aktlar;
4) qaçaqmalçılıq;
5) cinayət fəaliyyəti ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması);
6) pul nişanlarının və qiymətli kağızların saxtalaşdırılması;
7) pasport, viza və digər sənədlərin saxtalaşdırılması;
8) silahların, döyüş sursatlarının, partlayıcı və nüvə maddələrinin, həmçinin radioaktiv materialların qanunsuz dövriyyəsi;
9) dələduzluq;
10) kompüter texnikasından istifadə ilə əlaqəli cinayətlər;
11) mədəni və tarixi dəyərlərə cinayətkar qəsdlər;
12) transmilli cinayətkarlığın digər növləri.

4. Tərəflər habelə aşağıdakı istiqamətlərdə qarşılıqlı fəaliyyət göstərirlər:

1) bu Sazişlə nəzərdə tutulan əməliyyat-axtarış hərəkətlərinin keçirilməsi haqqında sorğuların icrası;
2) cinayət təqibindən gizlənən, hökmün icrasından boyun qaçıran və itkin düşmüş şəxslərin axtarışı;
3) nömrəli və səciyyəvi fərqləndirici əlamətləri olan əşyaların (predmetlərin), o cümlədən nəqliyyat vasitələrinin, odlu silahların, qiymətli kağızların və şəxsiyyəti təsdiq edən sənədlərin axtarışına və müəyyən olunmuş qaydada verilməsinə kömək göstərilməsi;
4) şəxsiyyəti təsdiq edən saxta sənədlərlə və yaxud sənədsiz digər Tərəfin dövlətində qeyri-qanuni qalanların şəxsiyyətinin müəyyən edilməsi;
5) mədəni və idman əlaqələrinin inkişaf etdirilməsi, əməkdaşların və onların ailə üzvlərinin sanatoriya və kurortda sağlamlaşdırılmasına yardım etmək.

5. Tərəflər bu Saziş çərçivəsində həmçinin digər istiqamətlərdə də qarşılıqlı fəaliyyəti həyata keçirə bilərlər.

Maddə 2

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq məlumat mübadiləsini həyata keçirirlər:

1) bu Sazişin 1-ci maddəsində göstərilən cinayətlərə dair;
2) Tərəflərin dövlətlərinin ərazisində fəaliyyət göstərən terrorçu, separatçı və ekstremist təşkilatlar və qruplar, onların rəhbərləri, fəal iştirakçıları, həmçinin belə təşkilat və qrupların fəaliyyətinə aidiyyəti olan şəxslər barədə;
3) qanunsuz dövriyyədə aşkar edilmiş narkotik vasitələr və psixotrop maddələrin yeni növləri, onların hazırlanma texnologiyası və bu prosesdə istifadə olunan maddələr, həmçinin narkotik vasitələr və psixotrop maddələrin tədqiqi və identifikasiyasının yeni üsulları barədə;
4) ictimai qaydanın qorunması və yerüstü, su və aviasiya nəqliyyatı obyektlərində təhlükəsizliyin təmin edilməsi barədə;
5) bir Tərəfin dövlətinin vətəndaşları tərəfindən digər Tərəfin dövlətinin ərazisində törədilən, yaxud bir dövlətin vətəndaşlarına qarşı digər dövlətin ərazisində törədilən cinayətlər barədə;
6) öz dövlətlərinin cinayətlərin qarşısının alınması və açılması sahəsinə aid olan qanunvericiliyi barədə;
7) qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə.

Maddə 3

Tərəflər bu istiqamətlər üzrə iş təcrübəsinin mübadiləsini həyata keçirirlər:

1) cinayətlərin qarşısının alınması, aradan qaldırılması və araşdırılması;
2) yol hərəkəti təhlükəsizliyinin, həmçinin dəmir yolu, su və aviasiya nəqliyyatı obyektlərinin təhlükəsizliyinin təmin olunmasına nəzarət;
3) kompüter texnikasından istifadə ilə əlaqəli cinayətlərin aşkar edilməsi və qarşısının alınması üzrə texniki tədbirlər;
4) yanğın profilaktikasına nəzarətin təmini;
5) polisin (milisin) normativ hüquqi bazasının yaradılması üzrə fəaliyyət;
6) polis (milis) orqanlarının vəzifələri, polis (milis) kadrlarının seçilməsi, hazırlığı və ixtisaslarının artırılması.

Maddə 4

Tərəflər elmi tədqiqatların, texniki mübadilənin və təkmilləşdirmənin, həmçinin polis (milis) texnikasının, avadanlığın və digər təchizat vasitələrinin birgə istehsalının və təchizinin təşkili sahəsində əməkdaşlıq edirlər.

Maddə 5

Tərəflər Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu ilə Çin Xalq Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu arasında əməkdaşlığı genişləndirir və möhkəmləndirirlər.

Maddə 6

1. Tərəflər öz dövlətlərinin qanunvericiliyinə riayət etməklə bu Sazişin 1-ci maddəsində göstərilən cinayətlərin qarşısının alınması və açılması üzrə tədbirləri birgə hazırlayır və həyata keçirirlər. Hər bir Tərəf öz səlahiyyəti çərçivəsində öz dövlətinin ərazisində şübhəli şəxsin, təqsirləndirilən şəxsin, yaxud cinayətkarın istintaqını və həbsini həyata keçirir, onun haqqında olan istiqamətverici məlumatları, işin hallarını və sübutları digər Tərəfə bildirir, onun özünü digər Tərəfə təslim edir, ötürür, yaxud verir.

2. Bu Sazişlə nəzərdə tutulan əməkdaşlıq üzrə konkret tədbirlərin məzmunu, onların həyata keçirilməsinin müddəti və qaydaları Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsi və Çin Xalq Respublikası İctimai Təhlükəsizlik Nazirliyinin Xarici Əlaqələr İdarəsi vasitəsilə razılaşdırılır və Tərəflərin rəhbərliyi tərəfindən təsdiq edilir.

3. Tərəflər bu Sazişin yerinə yetirilməsi zamanı yarana biləcək fikir ayrılıqlarını diplomatik kanallarla, həmçinin danışıqlar yolu ilə həll edirlər.

Maddə 7

Tərəflər qarşılıqlı fəaliyyəti aşağıdakı rekvizitləri olan yazılı sorğular əsasında həyata keçirirlər:

1) sorğu göndərən orqanın adı və sorğu göndərilən orqanın adı;

2) sorğu üzrə göndərilən materialın qısa məzmunu və sorğunun icra olunması üçün digər sənədlər;

3) sorğu göndərən Tərəfi maraqlandıran sualların siyahısı.

Sorğu müvafiq qaydada imzalanmalı və onu göndərən orqanın möhürü ilə təsdiq edilməlidir. Sorğu göndərən Tərəfin dövlət dilində tərtib olunmuş sorğular rus və yaxud ingilis dilinə tərcümə olunmalıdır.

Təxirəsalınmaz hallarda sorğular şifahi formada ifadə oluna bilər, lakin onlar postfaktum yazılı şəkildə təsdiq edilməlidir.

Maddə 8

Hər bir Tərəf digər Tərəfdən alınan məlumat və sənədlərin yayılmasını göndərən Tərəf istəməzsə, onların məxfiliyini təmin edir.

Bu Sazişə əsasən bir Tərəfdən alınan məlumatların, sənədlərin və texnikanın üçüncü tərəfə verilməsi üçün bu məlumatları təqdim edən Tərəfin ilkin razılığı tələb olunur.

Maddə 9

Hər bir Tərəf sorğunun icrasının onun dövlətinin suverenliyinə, təhlükəsizliyinə, yaxud digər ictimai mənafelərinə zərər vuracağını hesab edərsə, kömək göstərilməsi haqqında sorğunun icrasından tam və ya qismən imtina edə bilər.

Sorğunun icrasından tam və ya qismən imtina edildiyi təqdirdə bir Tərəf imtinanın səbəbi barədə digər Tərəfi vaxtında məlumatlandırmalıdır.

Maddə 10

Əgər hər bir konkret halda digər qayda razılaşdırılmazsa, bu Sazişə uyğun olaraq Tərəflərin nümayəndələrinin beynəlxalq nəqliyyat xərclərini göndərən Tərəf, onların ölkədə qalması xərclərini isə qəbul edən Tərəf ödəyir.

Maddə 11

Tərəflər iki ildə bir dəfə, növbə ilə Bakıda və Pekində, bu Sazişin yerinə yetirilməsi haqqında informasiya mübadiləsi və gələcəkdə əməkdaşlıq planlarının müzakirəsi üçün görüşlər keçirəcəklər.

Maddə 12

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçı olduğu beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 13

Tərəflər qarşılıqlı əlaqələrdə rus və ingilis dillərindən istifadə edirlər.

Maddə 14

Tərəflərin razılığı ilə bu Sazişə dəyişikliklər və əlavələr edilə bilər. Bütün əlavə və dəyişikliklər Tərəflərin imzaladıqları və bu Sazişin ayrılmaz hissəsi hesab olunan protokollarla rəsmiləşdirilir.

Maddə 15

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və beş il müddətində qüvvədə olacaqdır. Əgər Tərəflərdən biri bu müddətin qurtarmasına üç ay qalmış bu Sazişi ləğv etmək haqqında digər Tərəfə yazılı şəkildə xəbərdarlıq etməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Saziş Pekin şəhərində 25 aprel 2004-cü ildə iki əsl nüsxədə Azərbaycan, Çin və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranarsa, rus dilində olan mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASININ
DAXİLİ İŞLƏR NAZİRLİYİ
ADINDAN

RAMİL USUBOV
Daxili işlər naziri

ÇİN XALQ RESPUBLİKASININ
İCTİMAİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ
ADINDAN

ÇJOU YUNKAN
İctimai təhlükəsizlik naziri

2005-ci il yanvarın 9-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il yanvarın 9-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№691

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə Memorandum

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclası 8-9 yanvar 2005-ci il tarixdə Tehran şəhərində keçirilmişdir.

Müştərək Komissiyanın iclasında Azərbaycan Respublikası tərəfindən iqtisadi inkişaf naziri cənab Fərhad Əliyev, İran İslam Respublikası tərəfindən kooperasiya naziri cənab Əli Sufi həmsədrlik edirdi.

İclasın gündəliyinin müzakirəsinə keçməzdən əvvəl, Tərəflər ölkələrinin iqtisadi vəziyyəti, müxtəlif sahələrdə aparılan islahatlar barədə fikir mübadiləsi etdilər.

Tərəflər dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə 5-ci iclasın nəticələrinə dair Memorandumda əks olunmuş məsələlərin icra vəziyyətini müzakirə etdilər və gələcək əməkdaşlığın genişləndirilməsi istiqamətində aşağıdakılar barədə razılığa gəldilər:

I. Enerji Bölməsi

1. Neft və qaz

1.1. Tərəflər neft-qaz ehtiyatları sahəsində mövcud imkanları təhlil edərək aşağıdakı sahələrdə əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəldilər:

neft-qaz ehtiyatlarının kəşfiyyatı, emalı, nəqli və satışı;

neft-qaz sahəsində mütəxəssislərin hazırlanması və ixtisasının artırılması;

"Azəriqaz" QSC və İran Milli Qaz İxracı Şirkəti arasında imzalanmış "Təbii

qaz mübadiləsi" müqaviləsinin həyata keçirilməsini təmin edən məsələlərin həllində Tərəflərin maksimum səy göstərməsi;

"Təbii qaz mübadiləsi" üzrə müqavilənin vaxtında həyata keçirilməsi məqsədilə zəruri olan material, avadanlıq və mexanizmlərin İran İslam Respublikası sərhədlərindən və ərazisindən Naxçıvan Muxtar Respublikasına keçidinin İran tərəfindən təmin edilməsi;

"Təbii qaz mübadiləsi" üzrə müqavilənin icrası məqsədilə Araz çayından keçməklə təbii qazın İrandan Naxçıvan Muxtar Respublikasına verilməsi və Astara çayından keçməklə təbii qazın Azərbaycandan İrana verilməsi üçün hər iki Tərəfdən texniki məsələlərin həlli istiqamətində lazımi səylərin göstərilməsi.

2. Elektrik enerjisi

2.1. Tərəflər 24 yanvar 2001-ci il tarixli Elektrik enerjisinin mübadiləsi və tranziti barədə Müqavilənin və ona müvafiq əlavələrin, həmçinin Naxçıvan Muxtar Respublikasına elektrik enerji tranzitinin artırılmasına dair 10 mart 2003-cü il tarixli Protokolun icrasından razılıqlarını bildirdilər, bu sahədə əməkdaşlığın genişləndirilməsi məqsədilə 132 kV-luq Culfa (İran) - Culfa (Azərbaycan) elektrik xəttinin tikintisini müsbət addım kimi qiymətləndirdilər.

2.2. Tərəflər elektrik enerjisi mübadiləsinin və tranzit səviyyəsinin artırılması məqsədilə aşağıdakı layihələrin icrasının sürətləndirilməsi barədə razılığa gəldilər:

Astara (Azərbaycan) - Astara (İran) arasında elektrik xəttinin tezliklə tam istismarı məqsədilə lazımi tədbirlərin görülməsi;

330 kV-luq "İmişli-Parsabad", 330 kV-luq "Əli Bayramlı-İmişli", 220 kV-luq "Əli Bayramlı-Astara" elektrik verilişi xətlərinin və müvafiq yarımstansiyaların layihələndirilməsi və tikintisi üzrə lazımi işlərin sürətləndirilməsi;

Rusiya-Azərbaycan-İran enerji sistemlərinin birləşdirilməsi və bu sistemlərin etibarlı sinxron iş rejimini təmin edən avtomatika sistemlərinin işlənməsi məqsədilə hər üç ölkənin mütəxəssislərindən ibarət yaradılmış işçi qrupu çərçivəsində danışıqların davam etdirilməsi;

hər iki ölkənin tranzit imkanlarından istifadə edərək elektrik enerjisinin 3-cü dost ölkə vasitəsilə satın alınması və əvəzləşdirilməsi.

2.3. Tərəflər Naxçıvan Muxtar Respublikasına elektrik enerjisi tranzitinin artırılması məqsədilə İranın Culfa yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına 230 kV-luq elektrik verilişi xəttinin çəkilməsi barədə ekspert müzakirələrinin keçirilməsini və texniki-iqtisadi araşdırmaların aparılmasını məqsədəuyğun hesab etdilər və bu Memorandumun imzalanmasından sonra, 5 ay müddətində hər iki Tərəfin ekspert qrupları arasında texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanmasını vurğuladılar.

2.4. Tərəflər Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası və İran is-

lam Respublikası ilə həmsərhəd olan hissədə Araz çayının su enerjisi potensialından bərabər və birgə istifadə məqsədilə Ordubad (Azərbaycan Respublikası) bölgəsinə üstünlük verərək, su elektrik stansiyalarının layihələşdirilməsi və tikintisi zamanı qarşılıqlı əməkdaşlığın zəruriliyini vurğuladılar.

2.5. Tərəflər alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması məqsədilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd etdilər.

2.6. Tərəflər Naxçıvan Muxtar Respublikasının Şahtaxtı məntəqəsinin İranın Poldəşt məntəqəsi vasitəsilə elektrik enerjisi ilə təmin edilməsinə dair Azərbaycan tərəfinin yazılı təklifinin İran tərəfindən texniki-iqtisadi baxımdan araşdırılması barədə razılığa gəldilər.

II. Nəqliyyat və Rabitə

1. Avtomobil daşımaları

Tərəflər 20 may 2002-ci il tarixdə Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin qüvvəyə minməsini yüksək qiymətləndirdilər və onun müddəalarından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Sazişin 13-cü maddəsinə uyğun olaraq, Birgə Komissiyanın toplantısının iki ay müddətində Bakı şəhərində keçirilməsi və avtomobil nəqliyyatı sahəsində qarşılıqlı əhəmiyyət kəsb edən məsələlərin müzakirə edilməsi, o cümlədən Azərbaycan Respublikası vətəndaşları (Naxçıvan Muxtar Respublikasının sakinləri) üçün İran İslam Respublikası ərazisindən Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə sərnişin daşımalarının həyata keçirilməsi barədə razılığa gəldilər.

2. Avtomobil yolları və körpülərin inşası

2.1. Azərbaycan tərəfi Bakı-Astara avtomobil yolunun Ələt-Astara hissəsində (243 km) yeni dörd zolaqlı avtomobil yolunun layihə sənədlərinin hazırlanması üçün İran tərəfindən 2 mln. ABŞ dolları məbləğində qrantın ayrılmasından məmnunluq bildirdi və keçirilmiş tenderin nəticəsi olaraq layihələndirmə işlərinin sürətləndirilməsinin vacibliyini qeyd etdi.

2.2. Tərəflər Astara çayı üzərində mövcud olan avtomobil körpüsünün bərpası, yeni avtomobil körpüsünün inşa ediləcək yerinin bir ay müddətində dəmir yolu körpüsünün yerləşdiyi sahədə müəyyənləşdirilməsi və bu avtomobil körpüsünün tikintisi üçün 6 ay müddətində layihə-smeta sənədlərinin hazırlanaraq həyata keçirilməsi barədə razılığa gəldilər.

2.3. Azərbaycan tərəfi Culfa-Ordubad (Naxçıvan MR) avtomobil yolunun inşası layihəsinin İran şirkətləri tərəfindən icra olunması barədə təklif irəli sürdü, İran tərəfi məsələyə baxılacağını bildirdi.

2.4. Tərəflər maliyyələşməsi Azərbaycan (50%) və İran (50%) tərəfindən təmin edilməklə, Araz çayı üzərində Şahtaxtı-Poldəşt və Culfa körpülərinin tikintisi ilə əlaqədar layihənin hazırlanması və həyata keçirilməsinin əhəmiyyətini qeyd etdilər.

3. Dəmir yolu

3.1. Tərəflər Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xəttinin tikintisi layihəsinin həyata keçirilməsində ölkələrimizin dəmir yolları idarələrinin birgə iştirakı, həmçinin bu istiqamətin gələcəkdə istismarı və tikintisi üçün beynəlxalq konsorsiumun yaradılması imkanlarının araşdırılması barədə razılığa gəldilər.

3.2. Tərəflər Naxçıvan-Təbriz istiqamətində sərnişin qatarlarının müntəzəm gediş-gəlişinin təşkilini və gələcəkdə bu marşrutun Tehran şəhərinə qədər uzadılmasını müsbət qiymətləndirdilər.

3.3. Azərbaycan Dövlət Dəmir Yolu vaqonlarının İran tərəfinə icarəyə verilməsi istiqamətində aparılan danışıqların davam etdirilməsinin zəruriliyi bildirildi.

4. Hava daşımaları

4.1. Tərəflər 2005-ci ilin ilk üç ayı ərzində "İran AİR" və "AZAL" şirkətləri arasında bağlanacaq ticari razılaşmaya əsasən uçuşların artırılması məsələsinin planlaşdırılmasına dair razılığa gəldilər.

4.2. Tərəflər Bakı-Təbriz və əks istiqamətdə uçuşların təşkili barədə razılığa gəldilər.

5. Rabitə

5.1. Tərəflər iki ölkə arasında telefon rabitə xidmətlərinin keyfiyyətini artırmaq məqsədilə Bakı ilə Tehran arasında mövcud olan rəqəmsal ikitərəfli telefon kanallarının sayının artırılaraq 60-dan 90-a çatdırıldığını qeyd etdilər və gələcəkdə, lazım olarsa, bu kanalların sayının artırılmasının mümkünlüyünü bildirdilər.

5.2. Tərəflər Trans-Asiya-Avropa (TAE) fiber-optik kabel magistralından istifadə edərək İran ərazisindən keçməklə Azərbaycan-Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Türkmənistan istiqamətlərində tranzit xətlərinin, həmçinin Azərbaycan ərazisindən istifadə edərək İran-Rusiya tranzit xəttinin istifadəyə verildiyini qeyd etdilər və gələcəkdə qarşılıqlı olaraq tranzit ödəmələrin azaldılması istiqamətində danışıqların aparılmasını məqsədəuyğun hesab etdilər.

5.3. Tərəflər İran ərazisindən keçməklə Bakı və Naxçıvan şəhərləri arasında fiber-optik kanalın çəkilişinin qısa müddətdə sona çatdırılacağını yüksək qiymətləndirdilər.

5.4. Tərəflər telekommunikasiya və informasiya texnologiyaları sahəsində birgə tədbirlər hazırlayıb həyata keçirmək, hər iki dövlətin üzv olduğu poçt, telekommunikasiya və informasiya texnologiyaları üzrə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmək və bu sahədə operatorların əlaqələrini genişləndirmək barədə razılığa gəldilər.

III. Sənaye

1. Hər iki Tərəf 5-7 avqust 2004-cü il tarixlərdə İran İslam Respublikasının Prezidenti cənab Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfəri zamanı tikinti, maşınqayırma, neft-kimya, toxuculuq, nəqliyyat və digər mühüm sahələrdə fəaliyyət göstərən Azər-

baycan-İran iş adamları arasında keçirilmiş Biznes Forumun əhəmiyyətini qeyd etdi və gələcəkdə bu cür tədbirlərin davamlı olaraq keçirilməsinin vacibliyini bildirdi.

2. Tərəflər aşağıdakı sahələrdə əməkdaşlığın genişləndirilməsini məqsədəuyğun hesab etdilər:

sənaye və enerji infrastrukturunda investisiya yatırımı imkanlarının araşdırılması;

kimya, maşınqayırma, tekstil, ərzaq istehsalı və ya qarşılıqlı olaraq razılaşdırılmış digər sahələrdə əlaqələrin qurulması;

sement, şəkər və çini qablar istehsalı üzrə müəssisələrin təşkili;

Azərbaycanda özəlləşdirməyə açıq elan edilmiş sənaye müəssisələri barədə məlumatların İran tərəfinə təqdim edilməsi.

3. Tərəflər iki ölkədə investorlar üçün mövcud qanunvericilik çərçivəsində iqtisadi və hüquqi təhlükəsizliyin yaradılması məqsədilə qarşılıqlı dəstəyin göstərilməsini vurğuladılar.

IV. Ticarət

1. Tərəflər iki ölkə arasında imzalanmış Ticarət Sazişinin və sərhədyanı ticarətə dair Memorandumun əhəmiyyətini qeyd etdilər və onların qısa müddətdə qüvvəyə minməsi istiqamətində zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsi barədə razılığa gəldilər.

2. Tərəflər Biləsuvar müştərək sərhəd bazarının fəaliyyətinin bərpası və Astara sərhəd bazarının açılmasının sürətləndirilməsi barədə razılığa gəldilər.

3. Tərəflər ölkələrində iqtisadi sərgilərin təşkilini dəstəkləyəcək və öz şirkətlərini hər iki ölkədə keçirilən ixtisaslaşdırılmış beynəlxalq sərgilərdə iştirak etməyə, onların nümayəndə heyətlərinin ticarət missiyaları çərçivəsində qarşılıqlı işgüzar görüşlərə həvəsləndirəcəklər.

4. İran tərəfi "Sərbəst ticarət haqqında Saziş" layihəsinin Azərbaycan tərəfinə təqdim olunduğunu qeyd etdi və Azərbaycan tərəfi həmin Saziş layihəsinə baxılacağını bildirdi.

5. Tərəflər bu Memorandumun müddəaları çərçivəsində həmsərhəd əyalətlər (Gilan, Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Ərdəbil) ilə Azərbaycanın aidiyyəti orqanları arasında iki ölkənin Dövlətlərarası Müştərək Komissiyasının nəzarəti altında regional əməkdaşlıq üzrə əlaqələrin genişləndirilməsi üçün müvafiq Komissiyanın yaradılması barədə razılığa gəldilər.

V. Kənd Təsərrüfatı

Tərəflər kənd təsərrüfatı sahəsində görülmüş işlər barədə fikir mübadiləsi etdilər və aşağıdakı istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəldilər:

kənd təsərrüfatı məhsullarının və toxumlarının istehsalı;

bitki xəstəlik və ziyanvericilərinə qarşı mübarizə;

süni mayalanma üzrə təcrübə mübadiləsi;

elmi və tədqiqat məlumatlarının mübadiləsi;

mütəxəssis və ekspertlərin hazırlanması;

quşçuluq və heyvandarlığın inkişafı;

elmi tədqiqatlara əsasən şoran torpaqların optimal istifadəsi;

texnika və avadanlıqların mübadiləsi.

VI. Sərhədyanı Çaylardan Müştərək İstifadə Olunması

1. Tərəflər Müştərək Komissiyanın 5-ci iclasının nəticələri barədə Memorandumun müvafiq bölməsində nəzərdə tutulmuş bəndlərin və gələcəkdə həyata keçiriləcək tədbirlərin beynəlxalq normalar çərçivəsində icra olunması barədə razılığa gəldilər.

2. Tərəflər Araz və digər çayların su ehtiyatlarının və bioresurslarının səmərəli və davamlı istifadəsi, mühafizəsi sahəsində mütəmadi olaraq keçirilən görüşlərin davam etdirilməsi və müştərək elmi qrupun yaradılmasının sürətləndirilməsi barədə razılığa gəldilər.

VII. Maliyyə və Bank

1. Tərəflər mövcud maliyyə və bank əməkdaşlığı sahəsində əlaqələrin inkişafından məmnunluq bildirdilər və gələcəkdə bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi barədə razılığa gəldilər.

2. Hər iki Tərəf Azərbaycan Respublikasında Ələt-Astara avtomobil yolunun bir hissəsinin inşasının maliyyələşdirilməsi ilə bağlı imzalanmış Memorandumu müsbət qiymətləndirdi və İranın İxracatın İnkişafı Bankı (Banke Tosee Saderat) tərəfindən ayrılması nəzərdə tutulan 40 milyon ABŞ dolları məbləğində kreditə dair Saziş Layihəsinin qısa zamanda razılaşdırılması və imzalanması zəruriliyini bildirdi.

3. Tərəflər Sanir şirkəti tərəfindən Azərbaycanda elektrik verilişi xətlərinin tikintisi üçün iki ölkə arasında maliyyələşdirməyə dair müqavilənin imzalanmasını vurğuladılar.

4. Tərəflər İranın İxracatın İnkişafı Bankından Azərbaycanda yol, körpü və digər infrastruktur obyektlərinin tikintisi üçün kreditin alınması ilə bağlı müzakirələri sürətləndirəcəklər.

5. Tərəflər İranın İxracatın İnkişafı Bankının krediti hesabına İran İslam Respublikasında istehsal olunan avtobusların alınması üzrə danışıqların aparılması razılığına gəldilər.

VIII. Sərhəd Məsələləri Sahəsində Əməkdaşlıq

1. Tərəflər hər iki ölkənin sərhədyanı ərazilərində yaşayan vətəndaşlarının bir-birinin ərazisinə sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında 3 dekabr 2004-cü il tarixdə hər iki Tərəfin nümayəndələri arasında razılaşdırılmış sənədi müsbət qiymətləndirərək, həmin sənədin hər iki ölkənin sərhədyanı ərazilərində yaşayan vətəndaşları arasında əlaqələrin inkişaf etdirilməsinə kömək edəcəyini qeyd etdilər.

2. Tərəflər sərhəddə baş verə biləcək hər bir çətinliyin birgə araşdırılması üçün iki ölkə sərhəd xidmətlərinin rəsmi nümayəndələri arasında keçirilən müntəzəm görüşlərin əhəmiyyətini vurğuladılar və gələcəkdə də bu görüşlərin davam etdirilməsini zəruri hesab etdilər.

3. Hər iki Tərəf Biləsuvar sərhəd buraxılış məntəqəsinin beynəlxalq statusda işləməsi,

habelə Şahtaxtı gömrük buraxılış məntəqəsinin beynəlxalq status alması üçün müvafiq tədbirlərin görülməsini zəruri saydı.

4. Hər iki Tərəf Astara və Culfa gömrük buraxılış məntəqələrinin iş saatlarının artırılmasını zəruri hesab etdi.

5. Tərəflər 2002-ci il 22 yanvar tarixində "Sərhəd məsələləri, narkotik vasitələr, psixotrop və digər maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində əməkdaşlıq Memorandumu"nun imzalandığını razılıqla qarşıladılar və bu sahədə əməkdaşlığın gücləndirilməsini zəruri saydılar.

IX. Elm, Təhsil, Mədəniyyət və Səhiyyə

1. Elm və təhsil

1.1. Tərəflər qarşılıqlı olaraq, elm-təhsil əlaqələrinin iki ölkənin qanun və normativ aktları çərçivəsində inkişaf etdirilməsinə çalışacaqlar.

1.2. Tərəflər Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İran İslam Respublikası Elm, Tədqiqat və Texnologiya Nazirliyi arasında təhsil və tədqiqat sahəsində əməkdaşlıq haqqında 20 may 2002-ci il tarixdə Tehran şəhərində imzalanmış Memorandumun icrası ilə bağlı səylərini daha da artıracaqlar.

1.3. Tərəflər yuxarıda qeyd olunan Memorandumun icrası məqsədilə hər Tərəfdən üç nəfər olmaqla yaradılacaq Müştərək Komissiyanın qısa müddətdə formalaşmasının vacibliyini qeyd etdilər. Bu Komissiyanın ildə bir dəfə Bakı və Tehran şəhərlərində iclaslarının keçirilməsi barədə razılığa gəldilər.

1.4. Tərəflər Azərbaycan tərəfinin təklifi ilə ilkin olaraq aşağıda göstərilən ali məktəblər tərəfindən verilən təhsil sənədlərinin tanınması ilə bağlı İran tərəfinin yaxın zamanda lazımi tədbirlər görməsi barədə razılığa gəldilər:

Bakı Dövlət Universiteti;

Azərbaycan Dövlət Neft Akademiyası;

Azərbaycan Texniki Universiteti;

Azərbaycan Memarlıq və İnşaat Universiteti;

Bakı Musiqi Akademiyası;

Naxçıvan Dövlət Universiteti.

1.5. Tərəflər Azərbaycan və İran ekspertləri tərəfindən ilkin olaraq müzakirə olunmuş, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İran İslam Respublikası Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında müvafiq sənədin yaxın zamanda imzalanması barədə razılığa gəldilər.

2. Mədəniyyət

2.1. Tərəflər mədəniyyət sahəsində əməkdaşlıqdan məmnunluq bildirdilər və aşağıdakı sahələrdə əlaqələrin genişləndirilməsi barədə razılığa gəldilər:

2005-ci ildə İran İslam Respublikasında Azərbaycan mədəniyyəti və 2006-cı ildə Azərbaycanda İran mədəniyyəti günlərinin keçirilməsi məqsədilə danışıqların aparılması;

2005-ci il ərzində Bakıda İran və Tehranda Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgilərin təşkili;

İran İslam Respublikasında keçirilən teatr festivallarında Azərbaycan teatr kollektivlərinin iştirakının təmin edilməsi;

İran İslam Respublikasında inqilabın ildönümü ilə bağlı hər ilin fevral ayında keçirilən müsəlman ölkələrinin muğam və milli musiqi festivalında Azərbaycan incəsənət ustalarının iştirakı;

hər iki ölkənin milli kitabxanalarının ədəbiyyat, tarix və mədəniyyət ilə bağlı kitablarla zənginləşdirilməsi məqsədilə qarşılıqlı kitab mübadiləsi, həmçinin iqtisadi inkişaf üzrə kitabların çapı;

Azərbaycan və İranın qabaqcıl kitabxana və muzey işçilərinin, habelə bərpası rəssamlarının qarşılıqlı təcrübə mübadiləsini aparmaq;

ustad Şəhriyarın Azərbaycanda yubiley kitabının nəfis şəkildə nəşr edilməsi;

tarix və mədəniyyət abidələrinin qorunması, təbliği, konservasiyası və bərpası sahəsində təcrübə mübadiləsi aparmaq məqsədilə Azərbaycan və İran mütəxəssislərinin hər iki ölkədə görüşlərini təşkil etmək;

Azərbaycanda İranın, İranda Azərbaycanın tarix və mədəniyyət abidələrinə dair fotosərgilər təşkil etmək;

Azərbaycanda İran filmləri və İranda Azərbaycan filmləri festivallarını keçirmək;

İran tərəfi ilə əldə edilmiş razılığa əsasən Şəhriyarın həyat və yaradıcılığına həsr edilmiş sənədli və 12 seriyalı bədii filmlərin birgə çəkilişini təşkil etmək.

3. Səhiyyə

3.1. Tərəflər xəstəxana, klinika və ixtisaslaşdırılmış müalicə mərkəzlərinin yaradılması və təchizatı sahəsində əməkdaşlığı genişləndirməyə hazır olduqlarını bildirdilər.

3.2. Tərəflər elm, təhsil və müalicə sahəsində əməkdaşlığın davam etdirilməsi və hər iki ölkədə, həmçinin sərhədyanı bölgələrdə yayılmış yoluxucu xəstəliklərə qarşı birgə mübarizə aparılması barədə razılığa gəldilər.

3.3. İran tərəfi Azərbaycan Tibb Universitetini bitirmiş həkimlərin müvafiq imtahan keçdikdən sonra diplomlarının tanınması barədə razılığa gəldi. Bununla yanaşı, digər Tibb Universitetlərinin diplomlarının tanınması, tələbə və mütəxəssis mübadiləsinin həyata keçirilməsi istiqamətində müvafiq işlərin görülməsi barədə razılıq əldə olundu.

3.4. Tərəflər tibb və əczaçılıq sənayesi üzrə birgə sərmayə qoyuluşu və bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyətlərinin sadələşdirilməsi üçün lazımi şərait yaradılmasına çalışacaqlarını qeyd etdilər.

3.5. Müştərək Komissiyanın 5-ci iclasının nəticələri barədə Memorandumun X fəslinin 2-ci maddəsinin 2.3-cü bəndində qeyd olunan məsələnin bu günə

qədər həll olunmadığını nəzərə alaraq, Azərbaycan tərəfi "Azərfarm" şirkətinin fəaliyyətində mövcud olan problemlərin həll olunması istiqamətində səylərini artıracağını bildirdi.

X. Ümumi Müddəalar

1. Tərəflər bu Memorandumun müddəalarının yerinə yetirilməsini təmin etmək məqsədilə işçi qrupları yaradacaq və icra mexanizmini müəyyənləşdirəcəklər.

2. İşçi qruplarının rəhbərləri həmsədrlər tərəfindən təyin olunacaqdır. İşçi qrupunun iclasları, zərurət olduğu halda, Tərəflərin razılığı əsasında növbə ilə Bakı və Tehran şəhərlərində keçiriləcəkdir.

3. Tərəflər Müştərək Komissiyanın növbəti 7-ci iclasının Bakı şəhərində keçirilməsi barədə razılığa gəldilər. İclasın tarixi diplomatik kanallar vasitəsilə qarşılıqlı razılaşma əsasında müəyyən ediləcəkdir.

4. Bu Memorandumda hər hansı bir dəyişiklik Tərəflərin razılığı əsasında yazılı şəkildə həyata keçirilə bilər.

5. Bu Memorandum Tehran səhərində 9 yanvar 2005-ci ildə, uyğun olaraq hicri şəmsi tarixi ilə 20 dey 1383-cü ildə hər biri Azərbaycan və fars dillərində imzalanmışdır, hər iki nüsxə eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*ƏLİ SUFİ*
İqtisadi inkişaf naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri	*Kooperasiya naziri, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri*

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2005-ci il yanvarın 26-da Tehran şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2005-ci il yanvarın 26-da Tehran şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu;

1.2. İran İslam Respublikasına məxsus olan sənət əsərlərinin Azərbaycan Respublikası Hökuməti tərəfindən İran İslam Respublikası Hökumətinə təhvil verilməsi haqqında Protokol;

1.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və İran İslam Respublikası İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum;

1.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum;

1.5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İran İslam Respublikası Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu;

1.6. Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi və İran İslam Respublikası Dəmir Yolu arasında Qarşılıqlı Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№692

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikası və İran İslam Respublikası (bundan sonra "Tərəflər" adlandırılacaq) 2 iyul 1994-cü ildə Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hidro və elektroenergetika sahələri üzrə əməkdaşlıq haqqında Memorandum"un müddəalarına əsasən, Araz çayının hidroenergetika potensialından qarşılıqlı və bərabər şəkildə istifadə olunması məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər Azərbaycan-İran (xüsusilə Ordubad) sərhədində, Araz çayı üzərində iki derivasiya tipli hidroenergetika stansiyasının tikintisi ilə əlaqədar Araz çayının hidroenergetika potensialından müştərək və bərabər şəkildə istifadənin əhəmiyyətini, layihələndirmənin (layihənin gerçəkləşdirilməsi imkanlarının) və texniki-iqtisadi əsaslandırma tədqiqatlarının sürətləndirilməsi (I Mərhələ) vacibliyini vurğuladılar.

Tədqiqatların başa çatdırılması 2005-ci ilin sonuna planlaşdırılır.

2. Derivasiya tipli hidroenergetika stansiyaları ilə bağlı xərcləri hər iki Tərəf özü çəkir.

3. Tərəflər hidroenergetika potensialından istifadə üçün Araz çayının suyundan götürmək və suyunu ötürmək hüququndan savayı, heç bir digər fəaliyyəti həyata keçirməyəcəklər. Ekologiyanın qorunması baxımından beynəlxalq standartların prinsiplərinə əsasən nəzarət həyata keçirilməlidir.

4. Tərəflər hər iki sərhəddə aparılan tədqiqatlar və topoqrafik fəaliyyət, geoloji-qazma, hidrologiya və metrologiya, suyun keyfiyyətinin yoxlanılması kimi fəaliyyətlərin həyata keçirilməsində və 7-ci bəndə əsasən görülən hər hansı digər tədbir zamanı bir-birini müvafiq vasitələrlə təmin etmək və əməkdaşlıq etmək razılığına gəldilər.

5. Tərəflər sonrakı texniki əməkdaşlıq üçün öz tədqiqatlarının nəticələrini təqdim etmək, məlumat, aktlaşdırma, layihələndirmə, texniki sənədləşmə və digər aidiyyəti sənədlərin mübadiləsini təmin edəcəklər.

6. Tədqiqatların başa çatdırılmasından və yekunlaşdırılmasından sonra məntəqələrin (nöqtələrin) seçilməsi, əldə edilmiş məlumatlar, xüsusən də hər iki ölkənin derivasiya tipli hidroenergetika stansiyasının tikilməsinə aid olan məlumatlar əsasında müəyyən ediləcəkdir.

7. Bu Memorandumun həyata keçirilməsi məqsədilə hər iki ölkədə birgə texniki komitələr sonrakı tədqiqatlar üçün mütəmadi görüşlər (ən azı, ildə iki dəfə) keçirəcəklər.

8. Bu Memorandum Tehran şəhərində 26 yanvar 2005-ci ildə, uyğun olaraq 7 bəhmən 1383-cü ildə iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır. Hər hansı fikir ayrılığı olduğu təqdirdə ingilis dilindəki mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
MƏCİD KƏRİMOV	*HƏBİBULLA BİTƏRƏF*
Senaye və energetika naziri	*Energetika naziri*

İran İslam Respublikasına məxsus olan sənət əsərlərinin Azərbaycan Respublikası Hökuməti tərəfindən İran İslam Respublikası Hökumətinə təhvil verilməsi haqqında Protokol

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında sıx tarixi, mədəni və dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq,

hər iki ölkənin xalqlarına mənsub olan mədəni irsin qorunub saxlanılmasının mühüm əhəmiyyətini qeyd edərək,

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan, İran İslam Respublikasının mədəni irsi sayılan, bədii dəyərə malik olan və tarixi əhəmiyyət kəsb edən sənət əsərlərinin İran İslam Respublikası Hökumətinə təhvil verilməsi haqqında qərarını rəhbər tutaraq,

hər iki ölkənin dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində xoşməramlı addım kimi,

Azərbaycan Respublikasının Hökuməti, Azərbaycan Respublikasının ərazisinə qaçaq yolu ilə gətirilən zaman Azərbaycan Respublikasının müvafiq orqanı tərəfindən müsadirə edilmiş, İran İslam Respublikasının Sədabad Muzeyinə məxsus olan və 23 iyul 2000-ci il tarixli, 6 saylı Qəbul aktı ilə mühafizə üçün Azərbaycan Dövlət İncəsənət Muzeyinin fonduna təhvil verilmiş və metal fondunda qorunub saxlanılan, səciyyəvi xüsusiyyətləri aşağıda göstərilən qılınc və yatağanı (cəmi 3 ədəd) İran İslam Respublikasının Hökumətinə təhvil verir:

1. Avropa məktəbi, 1825-ci il. Qılınc - 1 ədəd.

Polad, oyma, döymə, zərgər işi, sarı və ağ metal, süni daşlar.

Uzunluğu - 98 sm.

Qını yoxdur.

Azərbaycan Dövlət İncəsənət Muzeyinin

inventar nömrəsi: DK-12371 M-95.

2. Şərq sənətkarı, soyuq silah - yatağan qını ilə - 2 ədəd.

Polad, oyma, döymə, gümüş, ağac, zərləmə.

Uzunluğu - 95 sm. Eni - 9 sm.

Azərbaycan Dövlət İncəsənət Muzeyinin

inventar nömrəsi: DK-12372/1 -2 M-96/1-2.

Tehran şəhərində 26 yanvar 2005-ci ildə, müvafiq olaraq 7 bəhmən 1383-cü ildə iki əsl nüsxədə Azərbaycan və fars dillərində imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*KAMAL XƏRRAZİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Maliyyə Nazirliyi və İran İslam Respublikası İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Maliyyə Nazirliyi və İran İslam Respublikası İqtisadi İşlər və Maliyyə Nazirliyi

maliyyə, vergi, monetar və beynəlxalq bazarın tələblərinə cavab verən digər iqtisadi sahələrdə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə və genişləndirməyə səy göstərərək,

hər iki ölkənin iqtisadiyyatlarını dünya maliyyə sisteminə inteqrasiya etdirməyə səy göstərərək,

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında beynəlxalq valyuta əməkdaşlığına kömək etmək məqsədilə,

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və İran İslam Respublikası İqtisadi İşlər və Maliyyə Nazirliyinin qarşılıqlı maraqlarını nəzərə alaraq hər iki Tərəf iqtisadi inkişaf tədbirlərinin həyata keçirilməsinə dair təcrübə və məlumat mübadiləsinə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Tərəflər əməkdaşlığa, maliyyə-kredit münasibətləri məsələlərinə dair mütəmadi məsləhətləşmələrin və təcrübə mübadiləsinin həyata keçirilməsinə yardım edəcəklər, xüsusilə də aşağıdakı sahələrdə:

iqtisadi müstəqillik şəraitində hər bir ölkənin maliyyə orqanlarının təşkilati strukturu;

vergi, ödəniş və yığımların (birbaşa və vasitəli vergilər) səmərəli sisteminin yaradılmasının prinsip və metodları;

vergi ödənişləri və yığımların icrasına səmərəli nəzarətin təmin edilməsi üçün məlumat bankının yaradılması;

iqtisadiyyatın strukturunun yenidən qurulmasında xarici investisiyalardan istifadə olunmasının prinsipləri və metodları;

əhalinin səmərəli sosial müdafiəsi mexanizmlərinin formalaşdırılmasının maliyyələşdirilməsi haqqında təcrübə və məlumat mübadiləsi;

əməkhaqqı və qiymətlərin dövlət tənzimlənməsinin iqtisadi vasitə və üsulları.

Tərəflər zəruri olan hallarda hər iki tərəf üçün ümumi maraq kəsb edən məsələlərin öyrənilməsi və elmi tədqiqatların aparılması məqsədilə birgə sahələrarası komissiyalar yarada bilərlər.

Tərəflər səlahiyyətlərinə aid olan sahələr üzrə - bank, maliyyə, gömrük, büdcə investisiyası, vergi və s. sahələr üzrə təcrübə mübadiləsi, o cümlədən müvafiq mütəxəssislərin təcrübə keçməsi, elmi-praktiki konfrans və seminarların keçirilməsi üçün əlverişli şəraitin yaradılmasında kömək göstərəcəklər.

Tərəflər Dünya Bankı, İslam İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə və iqtisadi qurumlarda əməkdaşlıq edilməsi barədə razılığa gəldilər.

Hər iki Tərəf bir-birinin təqdim etdikləri məlumat və sənədlərin konfidensiallığına riayət edəcək və onları üçüncü tərəfə götürməyəcəkdir.

Memorandum Tehran şəhərində 26 yanvar 2005-ci ildə, uyğun olaraq 7 bəhmən 1383-cü ildə hər biri Azərbaycan, fars və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Memorandumun təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandıqda Tərəflər ingilis dilindəki mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SƏFDƏR HÜSEYNİ*
Xarici işlər naziri	*İqtisadiyyat və maliyyə naziri*

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

İki dost və qonşu Azərbaycan Respublikası və İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin genişləndirilməsi, möhkəmlənməsi və dərinləşdirilməsi istiqamətində və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Orta Təhsil Nazirliyi arasında elmi tədqiqat əlaqələrini gücləndirmək məqsədilə, bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Orta Təhsil Nazirliyi aşağıdakılar barədə razılaşdılar:

Maddə 1

Tərəflər təhsil sahəsində əlaqələri iki ölkənin qanunvericiliyinə müvafiq olaraq genişləndirməyə çalışacaqlar.

Maddə 2

Tərəflər bir-birinin mədəniyyət və sivilizasiyası ilə tanış olmaq məqsədilə iki ölkənin tarix, coğrafiya və mədəniyyətləri üzrə sənəd, kitab və məlumatların ölkələrinin kitab və tədris vəsaitlərində işıqlandırılması üçün mübadiləsini həyata keçirəcəklər.

Maddə 3

Tərəflər hər iki ölkənin qanunvericiliyinə müvafiq olaraq, iki Nazirliyin mütəxəssislərindən ibarət müştərək komissiya təşkil edib, bir-birinin müxtəlif sahələr üzrə orta məktəb sənədlərini və diplomlarını dəyərləndirib qəbul edəcəklər.

Maddə 4

Tərəflər mövcud əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsi məqsədilə aşağıda göstərilən təhsil sahələrində informasiya mübadiləsi aparacaqlar:

təhsil sisteminin quruluşu, məktəbəqədər təhsil, ümumi təhsil, təhsil sistemində təhsilin planlaşdırılması və yönəldilməsi;

əlavə təhsil, yeni təlim metodologiyaları, təhsil texnologiyası sahəsində informasiya mübadiləsi;

texniki təlim, əlil uşaqların təhsil, ekologiya, əhali və məktəblərin səhiyyəsi sahələrində təlimlər haqqında informasiya mübadiləsi;

diplomların və məktəblərin icra qanunlarının baxılması və dəyərləndirilməsi barədə informasiya mübadiləsi;

savadsızlıqla mübarizədə təcrübə mübadiləsi və uğurlu layihələrin təklif edilməsi.

Maddə 5

Azərbaycan Müəllimlər İnstitutunun mütəxəssislərinin İrana dəvət edilməsi və bir-birinin təhsil sistemi ilə tanış olmaq məqsədilə təhsil sahəsi mütəxəssislərinin mübadiləsi.

Maddə 6

Tərəflər hər iki ölkədə keçirilən elmi tədqiqat festivallarında, konfranslar və seminarlarında və həmçinin regional və beynəlxalq olimpiadalarda iştirak etməyə dəvət edilib və dəvət edilənlərin iştirakını təmin etmək məqsədilə lazımi tədbirləri həyata keçirəcəklər.

Maddə 7

Tərəflər hər il 1 həftə müddətində 10 şagirdin bir nəzarətçi ilə birlikdə digər ölkənin yay düşərgələrinə səfərini təmin etməyə hazır olduqlarını bildirdilər.

Maddə 8

Tərəflər bu proqramın etibarlılığı müddətində Azərbaycan Respublikasının müvafiq təşkilatı ilə İran İslam Respublikasının Şagirdlər Təşkilatı arasında əlaqələrin və əməkdaşlığın yaranması istiqamətində səy göstərəcəklər.

Maddə 9

Tərəflər bu Memorandumun etibarlılığı müddətində gənclər və yeniyetmələri əməkdaşlıq etməyə həvəsləndirəcək və aşağıdakıları həyata keçirəcəklər:

a) uşaqlar üçün kitab və rəssamlıq sərgiləri keçirmək və teatr proqramları təşkil etmək;

b) uşaqlarla bağlı təcrübə və informasiya mübadiləsi (rəssamlıq, kitab, film və kukla teatrı).

Maddə 10

Tərəflər "Associated school projects"ə bağlı məktəblər çərçivəsində bir-birinin orta məktəbləri arasında internet vasitəsilə əlaqə yaratmağa və informasiya mübadiləsinə hazır olduqlarını bildirdilər. Bu istiqamətdə Tərəflər 10 orta məktəbi seçib adlarını digər Tərəfə təqdim edəcəklər.

Maddə 11

Bu Memorandumun maddələri Tərəflər arasında razılaşdırıla biləcək proqramların həyata keçirilməsinə mane olmur.

Maddə 12

Bu Memorandumun müddəalarına uyğun olaraq həyata keçiriləcək mübadilələr çərçivəsində göndərən Tərəf qrupun gediş-gəliş xərcləri, qəbul edən Tərəf isə yerləşdirmə, yemək və ölkədaxili nəqliyyat xərclərini öz öhdəsinə götürür.

Maddə 13

Bu Memorandum imzalandığı tarixdən üç il müddətinə etibarlıdır və Tərəflərin heç biri bu müddətin başa çatmasından 6 ay əvvəl digər Tərəfə Memorandumun qüvvəsinin dayandırılmasına dair yazılı məlumat göndərməzsə, o, gələcək yeni müvafiq sənədin imzalanmasına qədər avtomatik olaraq daha üç il müddətinə uzadılır.

Maddə 14

14 maddədən ibarət olan bu Memorandum 26 yanvar 2005-ci ildə, uyğun olaraq 7 bəhmən 1383-cü ildə Tehran şəhərində hər biri Azərbaycan və fars dillərində olmaqla eyni qüvvəyə malik olan iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ MAARİF NAZİRLİYİ ADINDAN
MİSİR MƏRDANOV	*MURTUZA HACI*
Təhsil naziri	*Maarif naziri*

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) müsbət qarşılıqlı əlaqələrin olmasını vurğulayaraq, iki ölkə xalqlarının mədəni və dini bağlılıqlarını, səhiyyə sahəsində ikitərəfli beynəlxalq əməkdaşlıqların əhəmiyyətini nəzərə alaraq, mövcud milli və sənaye imkanları çərçivəsində qarşılıqlı maraqlardan çıxış etməklə aşağıdakı sahələrdə əməkdaşlıq barədə razılığa gəldilər:

Maddə 1

Milli və beynəlxalq səhiyyə xidmətlərini genişləndirmək məqsədilə Tərəflər səhiyyə və tibbi təhsil sahələrində qarşılıqlı faydalı əməkdaşlığın və birgə fəaliyyətin inkişaf etdirilməsini öz proqramlarında prioritet sahəyə çevirəcəklər.

Maddə 2

Bu Memorandumun müddəalarının icrasına və həyata keçirilməsinə, mövcud problemlərin həlli mexanizmlərinin araşdırılmasına lazımi şəraitin yaradılması məqsədilə Tərəflərin səhiyyə nazirliklərinin xarici əlaqələr üzrə məsul qurumları müvafiq əlaqələndirmə işlərini təmin edəcəklər.

Maddə 3

Tərəflər Səhiyyə Nazirliyi tərəfindən öz ölkələrində təşkil olunan müxtəlif konfrans və simpoziumların birgə keçirilməsi və müvafiq proqramların mübadiləsi yolu ilə qarşı tərəfin ekspertlərinin bu tədbirlərdə iştirakına lazımi şərait yaradacaqlar.

Maddə 4

Tərəflər səhiyyə nazirlikləri tərəfindən müəyyən olunan zamanda iki ölkənin səhiyyə sistemində çalışan mütəxəssis və alimlərin səhiyyə və müalicə sahələrində elmi tədqiqatlar aparmalarına lazımi şərait yaradacaqlar. Tərəflərin razılığına əsasən müalicə, reproduktiv sağlamlıq, epidemiologiya və əczaçılıq sahəsində elmi tədqiqat işlərinin aparılması, eləcə də iki ölkənin tədqiqat mərkəzləri arasında yoluxucu xəstəliklərin qarşısının alınmasına dair proqramların icrası üzrə əməkdaşlıq edəcəklər.

Maddə 5

İran tərəfi Azərbaycan Respublikasından olan pasientləri öz xəstəxana və müalicə qurumlarında qəbul etməyə hazır olduğunu bildirir. Bu pasientlərin göndərilməsi və müalicəsi xərcləri iki ölkənin səhiyyə nazirlikləri tərəfindən müəyyən edilmiş qaydada həyata keçiriləcəkdir.

Maddə 6

Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikasında tibbi avadanlıq, təchizat və dərmanların birgə istehsalı məqsədilə birgə investisiya qoyuluşu imkanlarını araşdıraraq, istehsal olunan tibbi avadanlıq və dərmanların keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün bütün səylərindən istifadə edəcəklər.

Maddə 7

Tərəflər dərman preparatlarının qeydiyyata alınması, rəsmi dərman ixrac edən şirkətlərin hər iki ölkədə fəaliyyətinə üstünlük verilməsi və lazımi kömək göstərilməsi barədə razılığa gəldilər.

Maddə 8

"Azərfarm" əczaçılıq şirkətinə İranın "Darupəxş" şirkəti tərəfindən investisiya qoyuluşu, habelə bu birgə müəssisənin fəaliyyətində mövcud problemlər nəzərə alınmaqla, İran tərəfinin aşağıda qeyd olunan təkliflərinin Azərbaycan tərəfindən araşdırılacağı və lazımi tədbirlərin planlaşdırılaraq həyata keçiriləcəyi qərara alınmışdır:

şirkətin tələbatı üçün idxal olunan xammal və qablaşdırmaların gömrük rüsumları və əlavə dəyər vergisindən (ƏDV) azad olunması;

şirkətin tələbatı üçün tibbi spirtlə münasib kvotanın müəyyənləşdirilməsi və həmin kvotanın gömrük rüsumları, ikiqat vergidən və əlavə dəyər vergisindən (ƏDV) azad olunması.

Maddə 9

Tərəflər dərman və tibbi təchizat sahəsində mövcud əməkdaşlığın səviyyəsinin yüksəldilməsi məqsədilə özlərinin istehsal potensialı və imkanlarının tanıtdırılması istiqamətində hər iki ölkədə dərman, tibbi təchizat, stomatologiya və səhiyyə avadanlıqlarına dair sərgilərin keçirilməsinə lazımi şərait yaratmaq barədə razılığa gəldilər. Sərgilərin keçirilmə tarixi Tərəflərin razılığı ilə müəyyən olunacaqdır.

Maddə 10

Tərəflər elmi və universitetlərarası əməkdaşlıq istiqamətində aşağıdakı şərtlər əsasında tibb sahəsində tələbə qəbulu, Azərbaycan mütəxəssis və təhsillə məşğul olan həkimlər üçün ixtisaslaşma kurslarının təşkili barədə razılığa gəldilər:

A) İran tərəfi Azərbaycan Tibb Universitetini bitirmiş həkimlərin müvafiq imtahan keçdikdən sonra diplomlarının tanınması barədə razılığa gəldi. Bununla yanaşı, gələcəkdə tibb mütəxəssisləri hazırlayan digər universitetlərin diplomlarının tanınması istiqamətində müvafiq işlərin görülməsi barədə razılıq əldə olundu.

B) Tibb ixtisası üzrə təhsil alan tələbələr:

Tərəflər hər tədris ilinin əvvəlində beş (5) tələbəni qəbul etməyi öhdəsinə götürür. Bu tələbələrə verilən təqaüdlər iki ölkənin səhiyyə nazirlikləri tərəfindən müəyyən olunacaqdır.

C) İxtisas verilməsi:

Tərəflər hər tədris ilinin əvvəlində ixtisas sahələri üzrə beş (5) mütəxəssisi qəbul etməyi öhdəsinə götürür. Öz ölkələrində ixtisas müsabiqəsini uğurla keçmiş və Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənmiş həkimlər bu imkandan istifadə edə bilərlər.

D) İxtisaslı həkimlərin mübadiləsi:

Tərəflər həkimlərin təcrübə və məlumatlılığının artırılması məqsədilə razılaşdırılmış şərtlər əsasında hər il on (10) ixtisaslı həkimi 3 ay müddətinə bir-biri ilə mübadilə edəcək. Bu mütəxəssislər səhiyyə nazirliklərinin rəyi əsasında seçiləcək.

Maddə 11

Tərəflər hər il qarşı Tərəfdən göndərilən mütəxəssislər üçün ayıra biləcəyi maliyyə vəsaiti barədə müvafiq Tərəfə məlumat verəcəkdir.

Maddə 12

Tərəflər xüsusilə sərhədyanı bölgələrə üstünlük verməklə, ekspertlərin mübadiləsi, müştərək səhiyyə komissiyalarının yaradılması, kütləvi vaksinasiya, yoluxucu xəstəliklərlə mübarizə, tibbi kadrların hazırlığı, səhiyyə tədbirlərində əhalinin iştirakı, tibbi informasiya mübadiləsi, təlim kurslarının keçirilməsi, ekoloji salamatlıq və sair sahələrdə əməkdaşlıq edəcəklər.

Maddə 13

Tərəflər malyariya, vərəm və QİÇS kimi yoluxucu xəstəliklərin nəzarətə götürülməsinin əhəmiyyətini nəzərə alaraq, aşağıdakı sahələrdə əməkdaşlıq barədə razılığa gəldilər:

xəstəlik daşıyıcılarına nəzarət (Vector control) məqsədilə hər iki ölkənin sərhəd rayonlarının səhiyyə orqanları rəhbərlərinin mövsümi iclaslarının müntəzəm keçirilməsi;

vərəmə, xüsusilə də müalicəyə davamlı vərəmə (MDR TB) yoluxmuş xəstələr barədə informasiya mübadiləsi;

gözlənilmədən kütləvi yoluxma halları barədə rəsmi kanallarla təcili məlumat verilməsi;

HİV infeksiyası, QİÇS, vərəm və cinsi yolla keçən xəstəliklərə yoluxmuş xəstələrin diaqnostikası, müalicəsi və nəzarəti sahəsində təcrübə mübadiləsi;

narkotik əvəzedici preparatlardan istifadə etməklə, narkomaniyanın müalicəsi sahəsində təcrübə mübadiləsi.

Maddə 14

Tərəflər iki ölkənin Azərbaycan Respublikasında klinika və ya xəstəxana, xüsusən də uronefroloji (böyrək köçürülməsi) klinikanın açılması üçün birgə investisiya qoyuluşu məsələsini araşdıracaqlar.

Maddə 15

Bu Memorandumda nəzərdə tutulan bütün şərtlər Azərbaycan Respublikası və İran İslam Respublikasının normativ aktlarına uyğundur və rəsmi kanallar vasitəsilə icra olunacaqdır.

Maddə 16

Bu Memorandumda təsbit edilmiş müddəaların icra olunması, eləcə də Tərəflərin əvvəlki razılaşmalarının icrası məqsədilə, bu Memorandumun imzalanmasından ən geci bir (1) ay ərzində birgə işçi qrupun yaradılması zərurəti qeyd olundu.

Maddə 17

Tərəflər rəsmi kanallar vasitəsilə və səhiyyə nazirlikləri arasında razılığa əsasən bu Memorandumda nəzərdə tutulmuş müddəalardan başqa digər fəaliyyət növləri üzrə də əməkdaşlığın mümkün olması barədə razılığa gəldilər.

Maddə 18

Nümayəndə heyətlərinin və bu Memorandum çərçivəsində qarşı ölkəyə ezam olunan şəxslərin səfəri üçün lazım olan səfər proqramı və lazımi informasiya ən azı səfər tarixindən bir (1) ay əvvəl qəbul edən Tərəfə bildirilməlidir.

Maddə 19

Ezam edən Tərəf, Azərbaycan Respublikasına ezam olunan nümayəndə heyətinin Bakı şəhərinədək və əks marşrutda, İran İslam Respublikasında isə Tehran şəhərinədək və əks marşrutda, yol xərclərini ödəməyi öhdəsinə götürür. Qəbul edən Tərəf qəbul, yerləşdirmə və səfər proqramı çərçivəsində nəzərdə tutulan daxili səfərlərin xərclərini ödəyəcəkdir. Qəbul edən Tərəf bu Memorandum çərçivəsində ölkəsinə dəvət etdiyi şəxslərin xəstələndikləri və hər hansı xəsarət aldıqları təqdirdə onların pulsuz müalicəsini öz öhdəsinə götürür. Qeyd olunanlar, cərrahiyyə əməliyyatları, xəstəxanada uzunmüddətli müalicə, xroniki xəstəliklər və diş protezləşdirməsinə şamil olunmur.

Maddə 20

Tərəflər bu Memorandumun hər bir müddəasının həyata keçirilməsi məqsədilə iki ölkənin səhiyyə nazirlikləri arasında əlavə razılaşmaların əldə olunması barədə razılığa gəldilər.

Maddə 21

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və beş (5) il müddətində qüvvədədir. Tərəflər bu müddətin sonuna üç (3) ay qalmış qarşı Tərəfə Memorandumun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı şəkildə bildirməzsə, onun qüvvəsi avtomatik olaraq sonrakı bir il müddətinə uzadılacaqdır.

Bu Memorandum 26 yanvar 2005-ci ildə, uyğun olaraq 7 bəhmən 1383-cü ildə Tehran şəhərində hər biri Azərbaycan və fars dillərində olan iki nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

ƏLİ İNSANOV
Səhiyyə naziri

İRAN İSLAM RESPUBLİKASININ SƏHİYYƏ, MÜALİCƏ VƏ TİBBİ TƏHSİL NAZİRLİYİ ADINDAN

MƏSUD PEZİŞKİAN
Səhiyyə, müalicə və tibbi təhsil naziri

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il yanvarın 4-də Ər-Riyad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№694

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi (bundan sonra "İki Tərəf" adlandırılacaq),

iki ölkə və iki xalq arasında ənənəvi dostluq münasibətlərini nəzərə alaraq,

dostluq münasibətlərinin və əməkdaşlığın, habelə qarşılıqlı anlaşmanın təşviq edilməsi və gücləndirilməsi məqsədilə,

ikitərəfli əməkdaşlığın və qarşılıqlı anlaşmanın dünyada sülhün və sabitliyin saxlanılmasına kömək edəcəyinə əmin olaraq,

ikitərəfli münasibətlərə və qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə mütəmadi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətini dərk edərək və

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə ciddi şəkildə riayət edərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Hər iki Tərəf ikitərəfli əlaqələri müzakirə etmək, qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparmaq üçün

mütəmadi əsaslarla ikitərəfli danışıqlar və məsləhətləşmələr keçirirlər. Həmin danışıqlar və məsləhətləşmələr ikitərəfli əlaqələr, dünyada baş verən siyasi proseslər, regional və beynəlxalq mübahisələr və münaqişələr, beynəlxalq ictimaiyyətin qarşılaşdığı problemlərin və mübahisələrin həllində Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların yüksək müsbət rolu kimi sahələri əhatə edəcəkdir.

Maddə 2

Bu Anlaşma Memorandumu çərçivəsində nazir və ya nazir müavinləri səviyyəsində və ya hər iki Xarici İşlər Nazirliyinin digər yüksək rəsmiləri arasında aparılan məsləhətləşmələr, lazım gəldikdə, növbə ilə Bakıda və Ər-Riyadda keçiriləcəkdir.

Maddə 3

Hər iki ölkənin Birləşmiş Millətlər Təşkilatındakı və ya digər beynəlxalq təşkilatlardakı nümayəndələri konstruktiv əməkdaşlıq ruhunda qarşılıqlı maraq kəsb edən bütün məsələlərə dair fəaliyyətlərini əlaqələndirəcək və bir-biri ilə məsləhətləşmələr keçirəcəklər.

Maddə 4

Hər iki Tərəf ikitərəfli razılaşmalara müvafiq olaraq, növbəti və növbədənkənar beynəlxalq konfransların gündəliyində duran məsələlərə dair öz mövqelərini əlaqələndirmək üçün xüsusi məsləhətləşmələr keçirə bilərlər.

Maddə 5

Məsləhətləşmələrin keçirilmə tarixi və mövzusu diplomatik kanallar vasitəsilə müəyyən ediləcəkdir.

Maddə 6

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir, beş il ərzində qüvvədə qalır və hər iki Tərəfdən biri beş illik müddətin başa çatmasına altı ay qalmış digər Tərəfi bu Memorandumu ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumatlandırmazsa, Memorandum avtomatik olaraq növbəti beş illik müddətə və ya müddətlərə uzadılır.

Ər-Riyadda 23/11/1425-ci ildə çərşənbə günü, müvafiq olaraq 4 yanvar 2005-ci ildə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SƏİD ƏL FEYSAL*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında 2004-cü il dekabrın 16-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında 2004-cü il dekabrın 16-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 1;

1.2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 2;

1.3. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 3.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən Protokolların həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən Protokolların qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№696

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol №1

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi,

25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumun müddəalarını rəhbər tutaraq,

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində informasiya mübadiləsinin genişləndirilməsi əhəmiyyətini nəzərə alaraq,

cinayətkar fəaliyyətin bu növünün terrorçu və ekstremist təşkilatların maliyyələşdirilməsi üçün əsas mənbə rolunu oynamasını və dövlətlərin təhlükəsizliyinə təhdid yaratdığını qeyd edərək,

beynəlxalq hüquq normalarına və Tərəflərin mövcud milli qanunvericiliyinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə bu Protokol çərçivəsində informasiya mübadiləsi edəcəklər.

Maddə 2

Tərəflər qarşılıqlı maraq doğuran aşağıdakı məsələlər barədə müvafiq sorğular əsasında informasiya mübadiləsi edəcəklər:

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən transmilli cinayətkar qruplar və onların rəhbərləri;

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi kanalları, maliyyə mənbələri və bank əməliyyatları;

narkotik vasitələrin və psixotrop maddələrin aşkarlanması məqsədilə istifadə olunan yeni texnologiyalar;

normativ sənədlər, metodik vasitələr, statistik və bu sahəyə dair digər məlumatlar;

narkomaniya problemləri ilə məşğul olan orqan və təşkilatların təcrübəsi;

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi üzrə kriminalistik və kriminoloji tədqiqatların nəticələri.

Maddə 3

Tərəflər bu Protokolun icrası məqsədilə təcili rabitə xətləri yarada, müntəzəm əlaqə saxlaya və lazım olarsa, qarşılıqlı maraq doğuran təxirəsalınmaz məsələlərin müzakirəsi üçün növbədənkənar görüşlər təşkil edə bilərlər.

Maddə 4

Bu Protokolun müddəalarının icrası üçün Tərəflər, zərurət yarandıqda, bir-birinə öz imkanları çərçivəsində maddi və texniki yardım göstərə bilərlər.

Maddə 5

Tərəflər bu Protokola müvafiq olaraq mübadilə olunan konfidensial məlumatların məxfiliyini təmin etməyi öhdələrinə götürürlər.

Bu Protokol əsasında sorğu ilə alınmış məlumatlar təqdim edən Tərəfin yazılı icazəsi olmadan, razılaşdırılmış məqsədlərdən başqa, digər məqsədlər üçün istifadə edilə və hər hansı üçüncü tərəfə verilə bilməz.

Maddə 6

Hər bir konkret halda başqa cür müəyyən olunmazsa, Tərəflər bu Protokolun icrası prosesində meydana çıxan xərcləri müstəqil şəkildə ödəyəcəklər.

Maddə 7

1. Bu Protokol Tərəflərin digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etmir.

2. Bu Protokolun icrası və yaxud təfsiri ilə bağlı meydana çıxa biləcək hər hansı mübahisəli məsələlər müzakirələr və məsləhətləşmələr yolu ilə həll ediləcək.

Maddə 8

Bu Protokol 25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında

əməkdaşlıq haqqında" Memorandumun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir və ləğv edilir.

Bu Protokol Bakı şəhərində 16 dekabr 2004-cü il tarixinə uyğun 26 Azər 1383-cü il h.ş. tarixdə hər biri Azərbaycan, fars və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı meydana çıxdığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN

ELDAR MAHMUDOV
Milli təhlükəsizlik naziri

İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN

ƏLİ YUNESİ
Təhlükəsizlik naziri

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 2

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi,

25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumun müddəalarını rəhbər tutaraq,

beynəlxalq terrorçuluqla mübarizə sahəsində təsirli tədbirlərin həyata keçirilməsində qarşılıqlı marağa əsaslanaraq,

beynəlxalq hüquq normalarına və Tərəflərin mövcud milli qanunvericiliyinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər terrorçuluğun aşkarlanması və qarşısının alınması məqsədilə bu Protokol çərçivəsində informasiya mübadiləsi edəcəklər.

Bu Protokolda istifadə olunan "terrorçuluq" termini beynəlxalq terrorçuluğa qarşı mübarizəyə dair Tərəflərin qoşulduğu, yaxud yalnız onlara münasibətdə hüquqi qüvvəyə malik beynəlxalq müqavilələrin tərkibində konkret terror fəaliyyəti qismində nəzərdə tutulan cinayət və digər hüquqazidd hərəkətlər də daxil olmaqla, aşağıdakıları ehtiva edir:

ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək üçün insanların girov götürülməsi, onların sağlamlığına zərər yetirilməsi və məhvi, əhəmiyyətli əmlak ziyanının vurulması, o cümlədən başqa ictimai təhlükəli nəticələrin

baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya sair hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, yaxud separatçılıq məqsədilə istifadə olunan, həmçinin irqi, milli, dini və məzhəb qarşıdurmasının qızışdırılması, ayrıseçkiliyin və dözümsüzlüyün təbliğinə yönəlmiş ekstremist əməllərin həyata keçirilməsi üzrə tətbiq edilən terror fəaliyyəti.

Maddə 2

Tərəflər qarşılıqlı maraq doğuran aşağıdakı məsələlər barədə müvafiq sorğular əsasında informasiya mübadiləsi edəcəklər:

ictimai və siyasi xadimlər, beynəlxalq müdafiə altında olan şəxslər, diplomatik nümayəndəliklərin, konsulluqların üzvləri və hökumətlərarası təşkilatların vəzifəlilərinə, rəsmi səfərdə olan şəxslərə, eləcə də digər milli/beynəlxalq siyasi və ictimai-kütləvi tədbirlərin iştirakçılarına qarşı yönəlmiş terror fəaliyyəti;

Tərəflərin dövlətlərinin təhlükəsizliyini təhdid edən terrorçu təşkilatlar, qruplar və terrorçular;

terrorçu təşkilatların və qrupların taktika və metodları, liderləri, üzvləri, o cümlədən bu cür qrup və təşkilatların fəaliyyətinə cəlb olunan, yaxud bu cür fəaliyyəti dəstəkləyən şəxslər arasında əlaqələr;

Tərəflərin dövlətlərinin ərazisində texnoloji və ekoloji avadanlıq və elementlərə qarşı terror aktları və belə aktların törədilməsi təhlükəsi;

terrorçu təşkilatlara və qruplara maliyyə, texniki təchizat, yaxud hər hansı digər maddi dəstək verən aşkarlanmış və şübhəli şəxslər və istifadə edilən kanallar.

Maddə 3

Tərəflər bu Protokolun icrası məqsədilə təcili rabitə xətləri yarada, müntəzəm əlaqə saxlaya və lazım olarsa, qarşılıqlı maraq doğuran təxirəsalınmaz məsələlərin müzakirəsi üçün növbədənkənar görüşlər təşkil edə bilərlər.

Maddə 4

Bu Protokolun müddəalarının icrası üçün Tərəflər zərurət yarandıqda bir-birinə öz imkanları çərçivəsində maddi və texniki yardım göstərə bilərlər.

Maddə 5

Tərəflər bu Protokolun mövzusuna aid olan iş təcrübəsi, milli normativ hüquqi aktlar, açıq elmi və metodoloji ədəbiyyatların mübadiləsini həyata keçirirlər.

Maddə 6

Tərəflər bu Protokola müvafiq olaraq mübadilə olunan konfidensial məlumatların məxfiliyini təmin etməyi öhdələrinə götürürlər.

Bu Protokol əsasında sorğu ilə alınmış məlumatlar təqdim edən Tərəfin yazılı icazəsi olmadan, razılaşdırılmış məqsədlərdən başqa, digər məqsədlər üçün istifadə edilə və hər hansı üçüncü tərəfə verilə bilməz.

Maddə 7

Hər bir konkret halda başqa cür müəyyən olunmazsa, Tərəflər bu Protokolun icrası prosesində meydana çıxan xərcləri müstəqil şəkildə ödəyəcəklər.

Maddə 8

Bu Protokol Tərəflərin digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etmir.

Bu Protokolun icrası və yaxud təfsiri ilə bağlı meydana çıxa biləcək hər hansı mübahisəli məsələlər müzakirələr və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 9

Bu Protokol 25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir və ləğv edilir.

Bu Protokol Bakı şəhərində 16 dekabr 2004-cü il tarixinə uyğun 26 Azər 1383-cü il h.ş. tarixdə hər biri Azərbaycan, fars və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı meydana çıxdığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN
ELDAR MAHMUDOV	*ƏLİ YUNESİ*
Milli təhlükəsizlik naziri	*Təhlükəsizlik naziri*

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 3

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi,

25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumun müddəalarını rəhbər tutaraq,

beynəlxalq mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq və beynəlxalq ticarətdə qanunsuz fəaliyyət kimi cinayətlərin dövlətlər arasında normal münasibətlərə təhdid təşkil etməsindən narahatlıq duyaraq,

beynəlxalq hüquq normalarına və Tərəflərin mövcud milli qanunvericiliyinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər beynəlxalq mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətin aşkar olunması, qarşısının alınması məqsədilə bu Protokol çərçivəsində informasiya mübadiləsi edəcəklər.

Maddə 2

Tərəflər dövlətlərinin ərazisində mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq və beynəlxalq ticarətdə qanunsuz fəaliyyət sahələrində Tərəflərin milli təhlükəsizliyinə, iqtisadi maraqlarına və ictimai təhlükəsizliyə qarşı yönəlmiş mütəşəkkil cinayətkar qurumlar tərəfindən törədilə biləcək aşağıdakı mümkün hüquqazidd fəaliyyətlər barədə informasiya mübadiləsi edəcəklər:

1. Tərəflərin dövlətlərinin milli təhlükəsizliyini təhdid edən transmilli mütəşəkkil cinayətkar qruplar, onların fəaliyyət sahələri, liderləri və üzvləri;

2. Bu cür təşkilat və qrupların maliyyə, texniki-təchizat imkanları və onların maliyyə mənbələri;

3. Bu cür təşkilat və qrupların cinayətkar məqsədlərlə istifadə etdikləri metod və üsullar, habelə kanallar və nəqliyyat növləri;

4. Çirkli pulların yuyulmasında iştirakı olan hüquqi və fiziki şəxslər, istifadə olunan mexanizm və vasitələr;

5. Mütəşəkkil cinayətkarlıq fəaliyyətinin aşağıdakı növləri:

silahlar, partlayıcı maddələr, kimyəvi, bioloji və nüvə maddələrindən istifadə etməklə törədilən qeyri-qanuni əməllər;

əqli mülkiyyət hüquqlarının pozulması, banknotların, qiymətli kağızların, beynəlxalq ticarət markaları və əmtəə nişanlarının, pasportların, vizaların və digər rəsmi sənədlərin saxtalaşdırılması;

qanunsuz miqrasiya və insan alveri;

tarix və mədəniyyət abidələri, incəsənət əsərləri və digər maddi-mənəvi sərvətlərin qaçaqmalçılığı;

mütəşəkkil cinayətkarlığın digər formaları;

6. Tərəflərin dövlətlərinin fiziki və hüquqi şəxslərinin birgə iştirakı nəticəsində hər iki dövlətin iqtisadi mənafelərinə zərər vura biləcək hallar.

Maddə 3

Tərəflər bu Protokolun icrası məqsədilə təcili rabitə xətləri yarada, müntəzəm əlaqə saxlaya və lazım olarsa, qarşılıqlı maraq doğuran təxirəsalınmaz məsələlərin müzakirəsi üçün növbədənkənar görüşlər təşkil edə bilərlər.

Maddə 4

Bu Protokolun müddəalarının icrası üçün Tərəflər, zərurət yarandıqda, bir-birinə öz imkanları çərçivəsində maddi və texniki yardım göstərə bilərlər.

Maddə 5

Tərəflər bu Protokolun predmetinə aid olan iş təcrübəsi, milli normativ hüquqi aktlar, açıq elmi və metodoloji ədəbiyyatların mübadiləsini həyata keçirirlər.

Maddə 6

Tərəflər bu Protokola müvafiq olaraq mübadilə olunan konfidensial məlumatların məxfiliyini təmin etməyi öhdələrinə götürürlər.

Bu Protokol əsasında sorğu ilə alınmış məlumatlar təqdim edən Tərəfin yazılı icazəsi olmadan, razılaşdırılmış məqsədlərdən başqa, digər məqsədlər üçün istifadə edilə və hər hansı üçüncü tərəfə verilə bilməz.

Maddə 7

Hər bir konkret halda başqa cür müəyyən olunmazsa, Tərəflər bu Protokolun icrası prosesində meydana çıxan xərcləri müstəqil şəkildə ödəyəcəklər.

Maddə 8

Bu Protokol Tərəflərin digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etmir.

Bu Protokolun icrası və yaxud təfsiri ilə bağlı meydana çıxa biləcək hər hansı mübahisəli məsələlər müzakirələr və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 9

Bu Protokol 25 iyul 2002-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumun 10-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir və ləğv edilir.

Bu Protokol Bakı şəhərində 16 dekabr 2004-cü il tarixinə uyğun 26 Azər 1383-cü il h.ş. tarixdə hər biri Azərbaycan, fars və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı meydana çıxdığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ
ADINDAN

ELDAR MAHMUDOV
Milli təhlükəsizlik naziri

İRAN İSLAM RESPUBLİKASININ
TƏHLÜKƏSİZLİK NAZİRLİYİ
ADINDAN

ƏLİ YUNESİ
Təhlükəsizlik naziri

"Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş"in icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İN-

TAS) arasında elmi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi ilə əlaqədar həmin Sazişin icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, "Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş"in 4-cü maddəsində nəzərdə tutulmuş Əlaqələndirici Şəxs barədə təkliflərini hazırlayıb 15 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№697

"Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"nun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının "Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"na qoşulması ilə əlaqədar həmin Protokolun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"nun 19-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən milli əlaqələndirici funksiyasını yerinə yetirmək üçün və eyni zamanda səlahiyyətli milli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kartagena Protokolunun 19-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən milli əlaqələndirici funksiyasını yerinə yetirmək üçün və eyni zamanda səlahiyyətli milli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin teyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№698

Azərbaycan Respublikasının İspaniya Krallığında (Madrid şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının İspaniya Krallığında (Madrid şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının İspaniya Krallığında (Madrid şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının İspaniya Krallığında (Madrid şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№699

Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№700

Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№701

Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№702

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№703

Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərin-də) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2005-ci il

№704

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Polşa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2005-ci il

№714

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə Polşa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2005-ci il

№715

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşa Respublikası Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşa Respublikası Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət

oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Polşa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2005-ci il

№716

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Polşa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2005-ci il

№717

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Polşa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 mart 2005-ci il

№718

"Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Yunanıstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2005-ci il

№726

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin "Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən milli səlahiyyətli orqan təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzi 11 dekabr 1997-ci il tarixli "Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən milli səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin bu Sərəncamın 1-ci bəndində göstərilən Protokol üzrə milli səlahiyyətli orqan təyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2005-ci il

№727

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiyada nəzərdə tutulmuş səlahiyyətli orqan təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının 2004-cü il 4 may tarixli 645-IIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu 1992-ci il martın 17-də Helsinki sahəsində imzalanmış "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiyanın 17-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmin Konvensiya üzrə səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya üzrə səlahiyyətli orqan təyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2005-ci il

№729

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2005-ci il

№730

"Azərbaycan Respublikası Beynəlxalq Bankı ilə Türkiyənin İxracat-Kredit Bankı arasında Borcun ödənilməsi müddətinin yenidən rəsmiləşdirilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Beynəlxalq Bankı ilə Türkiyənin İxracat-Kredit Bankı arasında Borcun ödənilməsi müddətinin yenidən rəsmiləşdirilməsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Beynəlxalq Bankının İdarə Heyətinin sədri Cahangir Fevzi oğlu Hacıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Beynəlxalq Bankının İdarə Heyətinin sədri Cahangir Fevzi oğlu Hacıyevə verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2005-ci il

№731

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında" 1997-ci il 3 iyul tarixli Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında" 1997-ci il 3 iyul tarixli Sazişə 2005-ci il fevralın 2-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2005-ci il

№877-IIQ

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişə Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti, 3 iyul 1997-ci il tarixində Moskvada imzalanmış Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişin 7-ci maddəsinə uyğun olaraq aşağıdakılar barədə bu Protokolu bağladılar:

Maddə 1

Tərəf dövlətlərin ərazisinə girişə, çıxışa, tranzit keçidə, yerdəyişməyə və qalmağa səlahiyyət verən, sahibinin vətəndaşlığını və şəxsiyyətini təsdiq edən sənədlərə bu Protokolun 1 və 2 saylı Əlavəsində qeyd olunmuş sənədlər daxildir.

Protokol müvəqqəti olaraq tətbiq olunduğu tarixdən bu Protokolun 1 və 2 saylı Əlavələri yuxanda adı çəkilən Sazişin 1 və 1 saylı Əlavələrini əvəz edir.

Maddə 2

Bu Protokol imzalandıqdan 30 gün sonra müvəqqəti olaraq tətbiq olunmağa başlayacaqdır və onun qüvvəyə minməsi üçün Tərəflərin dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bakı şəhərində 2 fevral 2005-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SERGEY LAVROV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişin Protokoluna 1 saylı Əlavə

Rusiya Federasiyası vətəndaşlarına Azərbaycan Respublikasının ərazisinə girişə, çıxışa, tranzit keçidə, yerdəyişməyə və qalmağa səlahiyyət verən sənədlərin Siyahısı

1. Rusiya Federasiyasının hüdudlarından kənar Rusiya Federasiyası vətəndaşının şəxsiyyətini təsdiq edən Rusiya Federasiyası vətəndaşının pasportu.

2. Xidməti pasport.

3. Diplomatik pasport:

4. Dənizçi pasportu (gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə).

5. Rusiya Federasiyasına daxilolma (qayıdış) şəhadətnaməsi (yalnız Rusiya Federasiyasına qayıtmaq üçün).

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişin Protokoluna 2 saylı Əlavə

Azərbaycan Respublikası vətəndaşlarına Rusiya Federasiyasının ərazisinə girişə, çıxışa, tranzit keçidə, yerdəyişməyə və qalmağa səlahiyyət verən sənədlərin Saiyahısı

1. Ümumvətəndaş pasportu.

2. Xidməti pasport.

3. Diplomatik pasport.

4. Dənizçi kitabçası (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə).

5. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Azərbaycan Respublikasına qayıtmaq üçün).

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında" 2005-ci il yanvarın 26-da Tehran şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2005-ci il

№879-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

iki dövlət arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə çalışaraq,

hər iki xalq arasında mövcud olan mehriban qonşuluq münasibətlərindən çıxış edərək,

sərhədyanı rayonlarda daimi yaşayan hər iki dövlətin vətəndaşları arasında əlaqələrin daha da inkişaf etdirilməsinə kömək etmək məqsədilə,

14 may 1957-ci il (24 ordibehişt 1336-cı il) tarixli sabiq Sovet Sosialist Respublikaları İttifaqı ilə İran arasında imzalanmış sərhəd rejimi və sərhədyanı münaqişələrin və mübahisələrin tənzimlənməsi qaydaları haqqında Müqaviləyə müvafiq olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Memorandum iki dövlət arasındakı sərhəd xəttindən hər iki tərəfə 45 km enində yerləşən sərhədyanı rayonlarda yaşayan Tərəflərin dövlətlərinin vətəndaşlarına şamil edilir.

Maddə 2

1. Sərhədyanı rayonlarda daimi yaşayan Azərbaycan Respublikası vətəndaşları sadələşdirilmiş qaydada İran İslam Respublikasına səfər etmək üçün xüsusi qeydlər səhifəsində sərhədyanı rayonlarda daimi yaşamaları barədə Azərbaycan və ingilis dillərində "qeyd" aparılan ümumvətəndaş pasportları əsasında sərhədi keçə bilər.

18 yaşına çatmamış uşaqların adları valideynlərinin pasportlarına yazılır.

2. Sərhədyanı rayonlarda daimi yaşayan İran İslam Respublikası vətəndaşları sadələşdirilmiş qaydada Azərbaycan Respublikasına səfər etmək üçün qəbul olunmuş formada fars və rus dillərində tərtib olunan "sərhəd keçidlərinə dair sertifikat" əsasında sərhədi keçmək hüququna malikdirlər.

18 yaşına çatmamış uşaqların adlan valideynlərinin sərhəd keçidlərinə dair sertifikatlarında yazılır, həmçinin arvadın adı ərinin sertifikatına yazıla bilər.

3. Tərəflər bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən sənədlərin nümunələrini diplomatik kanallarla mübadilə edirlər.

4. Bu Memorandum əsasında həyata keçirilən səfərlər çərçivəsində hər iki dövlətin vətəndaşları 45 km enində yerləşən sərhədyanı rayonların hüdudlarından kənara çıxa bilməzlər.

Maddə 3

Sərhədyanı rayonlarda yaşayan sakinlər sərhədi ildə 4 dəfə keçmək hüququna malikdirlər.

İstisna hallarda hər iki dövlətin sərhəd xidməti orqanları sərhədyanı rayonların əhalisinə qeyd olunan 4 dəfədən artıq sərhədi keçməyə icazə verə bilərlər.

Maddə 4

Sərhədyanı rayonların əhalisi hazırda fəaliyyət göstərən quru sərhəd nəzarət-buraxılış məntəqələrindən sərhədi keçə bilərlər. Zərurət olduqda qarşılıqlı razılaşma əsasında dövlət sərhədində digər buraxılış məntəqələrindən də istifadə oluna bilər.

Maddə 5

Sərhədyanı rayonlarda yaşayan vətəndaşlar qəbul edən dövlətin ərazisində sərhədi keçdikləri gündən 15 gün müddətində qala bilərlər.

Müstəsna hallarda hər iki dövlətin sərhəd xidməti orqanlarının qərarı ilə bu müddət daha 15 günə qədər uzadıla bilər.

Maddə 6

Sərhədyanı rayonlarda daimi yaşayan hər iki ölkənin vətəndaşları sərhədi piyada və ya həmin dövlətin ərazisində daimi qeydiyyatda olan şəxsi nəqliyyat vasitəsilə qanunvericiliyin tələblərinə əməl etməklə müvəqqəti keçə bilərlər.

Müvəqqəti keçirilmiş şəxsi nəqliyyat vasitəsi müəyyən edilmiş müddət ərzində geri qaytarılmalıdır.

Maddə 7

Sərhəddən keçid saatları hər iki ölkənin sərhəd xidmətinin nümayəndələri arasında qarşılıqlı razılaşma əsasında müəyyən edilir.

Maddə 8

Sərhədyanı rayonların əhalisi sərhədi keçərkən hər iki Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq sərhəd və gömrük nəzarətindən keçirlər.

Maddə 9

Tarixi sənədlər, valyuta, qiymətli daşlar, əşyalar və digər malların ölkəyə gətirilib-aparılması hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 10

Sərhədyanı rayonların əhalisi sərhədi keçərkən və qəbul edən dövlətin ərazisində olarkən həmin dövlətin qanunvericiliyinə riayət etməli və onun adət və ənənələrinə hörmət etməlidir.

Maddə 11

Əgər Tərəflərin dövlətlərindən birinin vətəndaşı digər Tərəfin dövlətinin ərazisində qaldığı zaman onun sərhədi keçməyə hüquq verən sənədləri itərsə və ya yararsız hala düşərsə, o, olduğu dövlətin müvafiq səlahiyyətli orqanlarına dərhal bu barədə məlumat verməlidir. Bu halda səlahiyyətli orqanlar vətəndaşın ərizəsi əsasında qeyd olunan sənədlərin itməsi barədə ona öz dövlətinə qayıtmağa icazə verən sərhəd xidməti orqanı nümayəndəsi tərəfindən təsdiq edilmiş arayış verirlər.

Tərəflər səlahiyyətli orqanlar barədə bir-birinə diplomatik kanallar vasitəsilə məlumat verirlər.

Maddə 12

Aşağıdakı hallarda Tərəflərdən hər biri digər Tərəfin dövlətinin vətəndaşını bu Memorandumda nəzərdə tutulan güzəştlərdən məhrum edə və onu mənsub olduğu dövlətə daxil olduğu keçid məntəqəsindən geri qaytara bilər:

a) vətəndaş öz sənədlərini bilərəkdən digər şəxsə müvəqqəti və ya həmişəlik istifadə etmək üçün verdikdə;

b) sərhədi keçmək və digər Tərəfin dövlətinin ərazisində qalmaq üçün başqasının sənədlərindən istifadə etdikdə;

c) bu Memorandumun 2-ci maddəsində qeyd olunan ərazinin hüdudlarından kənara çıxdıqda;

ç) bu Memorandumun 5-ci maddəsində qeyd olunan hallarda qalma müddətinin uzadılması istisna olmaqla, qəbul edən dövlətin ərazisində müəyyən edilmiş müddətdən artıq qaldıqda;

d) iki ölkə vətəndaşlarından biri əvvəlki səfərlərində qəbul edən ölkədə qanunları pozub və ya adət-ənənələrə hörmətsizlik edibsə;

e) vətəndaş saxtalaşdırılmış sənədlərdən istifadə edərsə.

Maddə 13

Epidemiyalar, epizootiya, bədbəxt hadisələr və ya digər gözlənilməz hallarda Tərəflərdən hər biri öz dövlətinə giriş üçün müvəqqəti məhdudiyyətlər qoya bilər.

Tərəflər bir-birinə sərhəd orqanları və diplomatik kanallar vasitəsilə bu Memorandumun qüvvəsinin dayandırılması və ya bərpa olunması barədə qeyd olunan məhdudiyyətlərin tətbiq və ya ləğv olunmasından 48 saat əvvəl məlumat verməlidirlər.

Maddə 14

Bu Memorandumun icrası ilə bağlı məsələləri Tərəflər hər iki dövlətin sərhəd xidməti orqanları nümayəndələrinin görüşü zamanı həll edirlər.

Sərhəd xidməti orqanları nümayəndələrinin razılığa gələ bilmədiyi və həmçinin digər zəruri hallarda, hər iki dövlətin səlahiyyətli orqanlarının nümayəndələri növbə ilə Azərbaycan Respublikası və İran İslam Respublikasında qeyd olunan və eləcə də sərhədi keçmək üçün daha güzəştli şərtlərin tətbiq olunmasına dair məsələlərin həlli ilə bağlı məsləhətləşmələr keçirəcəklər.

Maddə 15

Bu Memorandum 2 il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə Tərəflərin bir-birinə göndərdikləri yazılı bildirişlərdən sonuncunun alındığı tarixdən qüvvəyə minir.

Əgər Tərəflərdən heç biri diplomatik kanallar vasitəsilə 2 illik müddətin bitməsinə 3 ay qalmış bu Memorandumun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə rəsmi müraciət etməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 2 illik müddətlərə uzadılacaqdır.

Bu Memorandum qüvvəyə mindiyi tarixdən 15 fevral 1990-cı il tarixində və ya 26 bəhmən 1368-ci il tarixində Tehran şəhərində imzalanmış sabiq Sovet Sosialist Respublikaları İttifaqı Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonların sakinlərinin sərhədi sadələşdirilmiş qaydada keçmələri haqqında Memorandum İran İslam Respublikası və Azərbaycan Respublikası arasında əlaqələrə münasibətdə öz qüvvəsini itirir.

Bu Memorandum Tehran şəhərində 26 yanvar 2005-ci ildə, uyğun olaraq 7 bəhmən 1383-cü ildə Azərbaycan və fars dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*KAMAL XƏRRAZİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əvəzsiz yardım (qrant) haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əvəzsiz yardım (qrant) haqqında" 2005-ci il yanvarın 26-da Tehran şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2005-ci il

№ 880-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əvəzsiz yardım (qrant) haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti, 20 may 2002-ci ildə imzalanmış Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilənin müddəalarını rəhbər tutaraq,

Azərbaycan Respublikasına iqtisadiyyatın inkişafı məqsədilə əvəzsiz yardım (qrant) göstərilməsinə dair Azərbaycan Respublikasının və İran İslam Respublikasının rəsmi şəxsləri arasında danışıqlar aparılmış və aşağıdakılar barədə razılıqlar əldə olunmuşdur:

Maddə 1

Azərbaycan Respublikası Hökuməti adından Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin müraciətini nəzərə alaraq İran İslam Respublikası Hökuməti ikitərəfli iqtisadi əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasına əvəzsiz yardım (qrant) göstərəcəyini bildirir.

Maddə 2

İran İslam Respublikası bu Memorandumun müddəaları çərçivəsində əvəzsiz yardım (qrant) kimi Azərbaycan Respublikasına 1 mln. ABŞ dolları məbləğində vəsait ayıracağını bildirir.

Maddə 3

Qeyd olunan məbləğin ayrılmasında əsas məqsəd Azərbaycan Respublikası Hökuməti tərəfindən təklif olunan investisiya layihələrinin bütövlükdə və ya qismən maliyyələşdirilməsini təmin etməkdən ibarətdir.

Tərəflərin razılığına əsasən, ayrılmış yardım vəsaiti konkret investisiya layihələrinin həyata keçirilməsi üçün istifadə olunan materialların, avadanlıqların alınmasında, o cümlədən ilkin tədqiqat işlərinin aparılmasında və smeta sənədlərinin hazırlanmasında müvafiq xidmətlərin göstərilməsinə istifadə oluna bilər.

Maddə 4

Tərəflər bu Memorandumun bir hissəsi hesab olunan diplomatik Notaları mübadilə etməklə, nəzərdə tutulan layihə haqda razılığa gələcəklər.

Maddə 5

Bu Memorandumun 3-cü maddəsində nəzərdə tutulan layihələr İran İslam Respublikasının şirkətləri tərəfindən həyata keçiriləcəkdir.

Maddə 6

Bu Memorandum çərçivəsində maliyyələşdiriləcək layihələrin icrası üçün tələb olunan mal, xidmət və avadanlıq İran İslam Respublikasından idxal olunmalı, zəruri hallarda isə seçilmiş İran məsləhətçi mühəndislərinin razılığı ilə onların 30%-i Azərbaycan Respublikasından və ya digər ölkələrdən əldə oluna bilər.

Maddə 7

Bu Memorandum çərçivəsində maliyyələşdiriləcək layihələrin icrası Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq İran şirkətləri arasından tender vasitəsilə seçilmiş müəssisə tərəfindən aparıla bilər.

Maddə 8

Alınacaq yardımla (qrantla) bağlı məsələlərin həllinə məsul orqanlar, Azərbaycan Respublikası tərəfindən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, İran İslam Respublikası tərəfindən İran İslam Respublikasının Xarici İşlər Nazirliyi müəyyən edilmişdir.

Maddə 9

Layihələrin həyata keçirilməsi üçün təyin olunacaq müəssisə tərəfindən həmin layihələrin icrası üzrə öhdəlikləri yerinə yetirəcəyi barədə yazılı razılıq təqdim edildikdən sonra yardımın (qrantın) ayrılmasına başlanılacaqdır.

Maddə 10

İran İslam Respublikası Hökuməti texniki nəzarətçilərin rəyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin müraciəti əsasında əvəzsiz yardım (qrant) vəsaitini layihələri icra edən qurumların hesabına köçürəcəkdir. Ödənişlər, seçilmiş İran şirkətinin rəyi əsasında hissələrlə də həyata keçirilə bilər.

Maddə 11

Azərbaycan Respublikası Hökuməti ilə layihələrin İcraçıları arasında yaranmış hər hansı ixtilaf barədə İran İslam Respublikasının Xarici İşlər Nazirliyinə məlumat veriləcəkdir. Bu halda yardım (qrant) vəsaitinin verilməsinin davam etdirilməsi Tərəflər arasında yaranmış ixtilafın həlli ilə şərtləndiriləcəkdir.

Bu Memorandum Tehran şəhərində 26 yanvar 2005-ci ildə, uyğun olaraq hicri şəmsi tarixi ilə 7 bəhmən 1383-cü ildə hər biri Azərbaycan və fars dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Hər iki nüsxə eyni qüvvəyə malikdir.

Bu Memorandum, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KAMAL XƏRRAZİ
Xarici işlər naziri

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqmda Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№ 747

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında

Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№748

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası

Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Pakistan İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№749

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№750

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Pakistan İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№751

"Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Aviasiya Administrasiyaları arasında əməkdaşlıq haqqında Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Aviasiya Administrasiyaları arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2005-ci il

№752

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Misir Ərəb Respublikasının Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Proqram"ı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Misir Ərəb Respublikasının Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Proqram"ı imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Proqramı imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2005-ci il

№754

"Yeni Asiya-Afrika Strateji Tərəfdaşlığı haqqında Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Yeni Asiya-Afrika Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Asiya-Afrika Konfransının Katibliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 aprel 2005-ci il

№ 758

"Azadlıqdan məhrum etməyə məhkum olunmuşların cəzanın qalan hissəsini çəkmək üçün təhvil verilməsi haqqında Konvensiya" üzrə səlahiyyətli orqanın təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 1998-ci il 6 mart tarixində Moskva şəhərində imzalanmış "Azadlıqdan məhrum etməyə məhkum olunmuşların cəzanın qalan hissəsini çəkmək üçün təhvil verilməsi haqqında Konvensiya"nın Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi məqsədilə səlahiyyətli orqan - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanın Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi məqsədilə səlahiyyətli orqan - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təyin edilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 aprel 2005-ci il

№ 761

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir

Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Moldova Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№766

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici işlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Moldova Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№ 767

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında baytarlıq-sanitariya Konvensiyası"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında baytarlıq-sanitariya Konvensiyası"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilməsi barədə Moldova Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№768

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№769

"İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC "Borcalan" arasında "İmişli-Əli Bayramlı-Astara" EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsinə dəyişikliklərin edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC "Borcalan" arasında "İmişli-Əli Bayramlı-Astara" EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsinə dəyişikliklərin edilməsi haqqında Protokolu" Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova və "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti Etibar Sinabəddin oğlu Pirverdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Maliyyə Müqaviləsinə dəyişikliklərin edilməsi haqqında Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova və "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti Etibar Sinabəddin oğlu Pirverdiyevə verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№770

"GUÖAM iştirakçı dövlətlərinin Ticarət-Sənaye Palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "GUÖAM iştirakçı dövlətlərinin Ticarət-Sənaye Palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№771

"GUÖAM iştirakçı dövlətlərinin Səhiyyə Nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "GUÖAM iştirakçı dövlətlərinin Səhiyyə Nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2005-ci il

№772

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Qırğız Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 aprel 2005-ci il

№774

Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2005-ci il

№782

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında 2005-ci il fevralın 24-25-də Roma şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında 2005-ci il fevralın 24-25-də Roma şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İtaliya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə;

1.3. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin qorunması və inventarlaşdırılması sahəsində əməkdaşlığa dair Bəyannamə;

1.4. Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə İtaliya Respublikasının RAİ Radio-Televiziyası arasında əməkdaşlığa dair Saziş;

1.5. AzərTAc və ANSA xəbər agentlikləri arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş;

1.6. Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Roma Şəhər Meriyası (İtaliya Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İtaliya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2005-ci il

№777

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İtaliya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İtaliya Respublikasının Ədliyyə Nazirliyi, iki Nazirlik arasında daha sıx əməkdaşlıq qurulmasının səmərəliliyini dərk edərək, ikitərəfli əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1. İki Nazirlik aşağıdakı sahələrdə əməkdaşlığı həyata keçirəcəkdir:

qanunvericilik,

ədalət mühakiməsinin həyata keçirilməsi;

məhkəmə orqanlarının və həbsxana administrasiyasının fəaliyyəti;

ədliyyə sistemi üzvlərinin və ədliyyə orqanlarında çalışan digər işçilərin peşə təlimi;

məhkəmə fəaliyyəti, həmçinin onların səlahiyyətlərinə aid olan digər sahələr üzrə informasiya və məlumat mübadiləsi.

Bu məqsədlə onlar aşağıdakıları təşviq edirlər:

a. qanunvericilik aktlarının, hüquqi və səlahiyyət dairəsində olan fəaliyyət və ya strukturlarla bağlı olan digər sənədlərin mübadiləsi;

b. həm mülki, həm cinayət işlərində Tərəflərin münasibətlərini tənzimləyən hüquqi əməkdaşlıq üzrə sənədlərin və təcrübənin təkmilləşdirilməsi və inkişafı.

Tərəflərin prioritetləri aşağıdakıları əhatə edir:

* azadlıqdan məhrum edilmiş məhkumların, hətta onların razılığı olmadıqda, cəza çəkmək üçün vətəndaş olduqları ölkəyə verilməsi sahəsində əməkdaşlığın həyata keçirilməsi;

* aşağıdakı sahələrdə qanunvericilik və hüquqi yardım üzrə əməkdaşlıq növlərinin həyata keçirilməsi: terrorçuluq, mütəşəkkil cinayətkarlıq, insan prekursorlarının qeyri-qanuni dövriyyəsi, korrupsiya və kibercinayətlər, insan hüquqlarının müdafiəsi, yetkinlik yaşına çatmamışlar arasında cinayətkarlığın qarşısının alınması və ətraf mühitin qorunması, transmilli mütəşəkkil cinayətkarlıq, pulların yuyulması və insanların qaçaqmalçılığı;

* qanunsuz yolla əldə edilmiş gəlirlərin izlənməsi, götürülməsi və müsadirəsinə dair hüquqi yardım üzrə xüsusi sənədlərin müəyyən edilməsi;

* mülki işlər və xüsusən mübahisələrin arbitraj qərarları vasitəsilə həll edilməsi üzrə hüquqi yardımın təşviqinə yönəlmiş sənədlərin müəyyən edilməsi;

2. Hər iki Nazirlik 1-ci bənddə göstərilən əməkdaşlığı təşkil və təşviq etmək səlahiyyətinə malik olan təşkilatlarla əlaqə yaradır və fəaliyyət göstərdikləri müvafiq sahələrdə qanunun hazırlanmasına və tətbiqinə səy göstərir.

3. Məhkəmə sahəsinə gəldikdə, Tərəflər əməkdaşlığın ən səmərəli formalarını, o cümlədən hüquqi sənədlərin, statistik məlumatların və informasiya texnologiyaları sahəsində təcrübə mübadiləsini, hətta təcrübədə hakimlərin, prokurorların və digər ədliyyə işçilərinin tədrisini, həmçinin tədrisə məsul olan milli qurumlara yardım təşkil edirlər.

4. Tərəflər yuxarıda qeyd olunan sahələr və maraq kəsb edən məsələlər üzrə normativ aktların hazırlanmasında məsləhətləşmələr aparır və qarşılıqlı yardım göstərirlər. Bu məqsədlə onlar müvafiq sənədlərin hazırlanmasına məsul olan ekspertlərin qarşılıqlı səfərlərini təşkil edirlər.

5. Tərəflər ümumi mövqeyə nail olmaq üçün, qarşılıqlı maraq kəsb edən digər məsələlər üzrə bütün beynəlxalq forumlarda məsləhətləşmələr aparırlar. Səsvermə olduqda, onlar qarşılıqlı dəstək verməyi üzərlərinə götürürlər.

6. Bu Memorandum Tərəflər arasında əməkdaşlığı məhdudlaşdırmır.

Bu Memorandum əməkdaşlığın qarşılıqlı qəbul edilmiş digər istiqamətlərinin və formalarının inkişafına maneə törətmir.

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və hər iki Tərəf onu ləğv edə bilər.

Roma şəhərində 25 fevral 2005-ci il tarixdə iki nüsxədə, hər biri Azərbaycan, italyan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*ROBERTO KASTELLİ*
Ədliyyə naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət problemləri üzrə Baş Konfransı tərəfindən təsdiq edilmiş və mədəni dəyərlərin qanunsuz olaraq idxalı, ixracı və bir yerdən digər yerə daşınmasına qarşı tədbirlər barədə UNESKO-nun 1970-ci il 14 noyabr tarixli Konvensiyasının müddəalarına əsaslanaraq ("UNESKO Konvensiyası"), mədəni dəyərlərin mühafizəsinin və qarşılıqlı münasibətlərin xalqlar arasında anlaşma üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq,

Tərəflərin maraqlarına cavab verilməsi əsasında mədəni dəyərlərin mühafizəsi məqsədilə həmin dəyərlərin qeyri-qanuni ticarətinə qarşı mübarizə aparmaq qərarına gələrək və bu xüsusda onların geri qaytarılması üçün qəbul edilmiş ümumi qaydaları əsas tutaraq,

iki ölkə arasında mədəni dəyərlərin mühafizəsi sahəsində əməkdaşlığın inkişafına səy göstərərək,

aşağıdakı istiqamətlərdə fəaliyyət göstərəcəklər:

adları sadalanacaq sahələrdə əməkdaşlığın daha səmərəli formalarının birgə tədqiqi və tətbiqi:

mədəni dəyərlərin mühafizəsi, o cümlədən qeyri-qanuni gətirilməsi və çıxarılmasının qarşısının alınmasını təmin edən qanunvericilik aktlarının hazırlanması sahəsində əməkdaşlıq;

mədəni dəyərlərlə bağlı elmi-texniki kriteriyalara və onların siyahılarının hazırlanmasında tətbiq edilən parametrlərə dair məlumatın mübadiləsi;

mədəni dəyərlərin kataloqlaşdırılması və elektron məlumat bazasının yaradılmasına dair milli sistemin hazırlanması;

mədəni dəyərlərin qeyri-qanuni ticarətinə qarşı mübarizə ilə bağlı müvafiq orqanların yaradılmasına peşəkar dəstək;

oğurlanmış mədəni dəyərlərə dair elektron məlumat bazası ilə əlaqədar milli sistemin hazırlanması;

oğurlanmış mədəni dəyərlərə dair məlumat mübadiləsi, onların axtarılmasında və qaytarılmasında qarşılıqlı yardımın təmin edilməsi.

Bu Bəyannamə onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Bəyannamə beş il müddətinə etibarlı olacaq və Tərəflərdən biri Bəyannamənin müddətinin bitməsinə altı ay qalmış yazılı surətdə onun ləğv edilməsini bildirməsə, o avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Bəyannamə 25 fevral 2005-ci il tarixində Roma şəhərində, hər biri Azərbaycan və italyan dillərində olmaqla eyni qüvvəyə malik iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ADINDAN	İTALİYA RESPUBLİKASININ MƏDƏNİ İRS VƏ MƏDƏNİ FƏALİYYƏT NAZİRLİYİ ADINDAN
POLAD BÜLBÜLOĞLU	*CULİANO URBANİ*
Mədəniyyət naziri	*Mədəni irs və mədəni fəaliyyət naziri*

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında Mədəniyyət abidələrinin qorunması və inventarlaşdırılması sahəsində əməkdaşlığa dair Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi, müvafiq dövlət orqanları arasında mədəniyyət abidələrinin qorunması üçün əməkdaşlığın əsaslarını qurmağı arzu edərək, mədəniyyət abidələrinin bərpası sahəsində tədbirlərin həyata keçirilməsinin bu sahədə əməkdaşlıq üçün yeni imkanlar açacağına ümid edərək;

aşağıdakı istiqamətlərdə fəaliyyət göstərəcəklər:

1. bərpa sahəsində ixtisaslaşan müvafiq müəssisə və təşkilatların cəlb olunması ilə aşağıdakı sahələr üzrə əməkdaşlığın daha səmərəli formalarının birgə nəzərdən keçirilməsi;

mədəniyyət abidələrinin istifadəsi, qorunması və bərpası məqsədilə birgə elmi tədqiqatların aparılması;

müasir metod və texnologiyaların tətbiqi ilə milli reyestrlərin tərtib edilməsində bir-

gə əməkdaşlıq və qarşılıqlı yardım;

mütəxəssislərin ixtisasartırması və ekspertlərin mübadiləsi.

2. Mədəniyyət abidələrinin qorunmasına dair hökumətlərarası sazişlə bağlı danışıqlar çərçivəsində yuxarıda qeyd olunan məsələlərin razılaşdırılması.

Bərpa və inventarlaşdırma sahəsində mütəxəssislərin təlimi məsələləri ilə bağlı Azərbaycan tərəfi Mədəniyyət Nazirliyinin Abidələrin Qorunması və İstifadəsi Şöbəsini, İtaliya tərəfi isə fəaliyyətin əlaqələndirilməsi üçün Tədqiqat, İnnovasiya və Təşkilatlanma idarəsini təyin edir.

Hər iki Tərəf bu Bəyannamədə göstərilən məsələlərin ilkin təfsilatlı müzakirəsi, görüləcək ilk işlərin müəyyənləşdirilməsi və müvafiq maliyyə məsələlərinin qiymətləndirilməsi üçün texniki səviyyədə görüş keçirilməsinə razılaşır.

Bu Bəyannamə onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin tarixindən qüvvəyə minir.

Bu Bəyannamə beş il müddətinə bağlanır və Tərəflərdən biri bu müddətin bitməsinə ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Bəyannamənin qüvvədə qalma müddəti avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Roma şəhərində 25 fevral 2005-ci il tarixində Azərbaycan və italyan dillərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ADINDAN	İTALİYA RESPUBLİKASININ MƏDƏNİ İRS VƏ MƏDƏNİ FƏALİYYƏT NAZİRLİYİ ADINDAN
POLAD BÜLBÜLOĞLU	*CULİANO URBANİ*
Mədəniyyət naziri	*Mədəni irs və mədəni fəaliyyət naziri*

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə İtaliya Respublikasının RAİ Radio-Televiziyası arasında əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti (hüquqi ünvanı: Bakı şəhəri, M. Hüseyn küçəsi №1) və İtaliya Respublikasının qanunlarına uyğun olaraq hüquqi şəxs qismində yaradılan (hüquqi ünvanı: Roma şəhəri, Vialle Mazzini 14, 00195) RAİ radio-televiziyası öz maliyyə, təşkilati və texniki resurslarını nəzərə alaraq radio və televiziya sahəsində ikitərəfli əməkdaşlığın qurulması üçün aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq əsasında Azərbaycan Respublikası və İtaliya Respublikası vətəndaşlarının mədəni və informasiya tələbatını ödəmək məqsədilə, təşkilati, maliyyə və texnoloji sahədə ikitərəfli əlaqələri inkişaf etdirəcək və beləliklə, iki ölkə arasındakı ənənəvi dostluq əlaqəsini möhkəmləndirəcəklər.

Maddə 2

Tərəflər qarşılıqlı maraq əsasında televiziya və radio proqramlarında Azərbaycan Respublikası və İtaliya Respublikasının maraq dairəsində olan mövzuları işıqlandıracaqlar.

Maddə 3

Tərəflər qarşılıqlı əsasda, yaradıcılıq və maliyyə imkanları daxilində dövlətlərinin ərazilərində keçirilən beynəlxalq festivallarda, forumlarda, konqres və tədbirlərdə iştirak edəcəklər.

Maddə 4

Tərəflər, qarşılıqlı maraqlarına uyğun olaraq, televiziya və radio proqramlarında birgə yaradıcılıq əlaqələrini inkişaf etdirəcək və qeyd olunan birgə yaradıcılıqla bağlı üçüncü tərəfdən materialların alınmasına dair məsləhətləşmələr aparacaqlar. Birgə yaradıcılığa və ya üçüncü tərəfdən radio-televiziya proqramlarının alınmasına dair şərtlər və qaydalar xüsusi razılaşmalarla müəyyən ediləcəkdir.

Maddə 5

Tərəflər, qarşılıqlı maraqlarına uyğun olaraq, televiziya və radio proqramlarının qarşılıqlı ötürülməsi üçün qanuni, təşkilati və maliyyə şərtlərinin yaradılmasını, yayımını, radio və televiziya proqramlarının birgə istehsalı və onların hər iki ölkənin ərazisində yayımlanmasını özlərinə öhdəlik götürürlər.

Əgər xüsusi proqramların yayımlanması üçüncü tərəfin hüquqlarından asılı olarsa, 0 zaman proqramı təqdim edən tərəf dərhal digər tərəfi məlumatlandırmalıdır ki, sonuncu, sözügedən yayımla bağlı meydana çıxan məsələləri həll etsin.

Maddə 6

Tərəflər proqramların qarşılıqlı yayılması məqsədilə onların seçilməsində bir-birinə kömək edəcəklər. Proqramların ötürülməsi və sifarişə görə yayımlanmasına dair şərtlər, qaydalar xüsusi razılaşmalarla müəyyən ediləcək.

Maddə 7

Tərəflər müvafiq Baş İdarələr arasında məsləhətləşmələr və danışıqlar vasitəsilə bu Sazişin müddəalarına riayət olunmasına əlaqəli nəzarət edəcəklər.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 12-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Sazişin müddəaları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

Maddə 10

Bu Sazişin müddəalarının tətbiqi zamanı Tərəflər öz dövlətlərinin qanun-vericiliyini rəhbər tutacaqlar.

Maddə 11

Tərəflər Sazişin təfsiri və tətbiqi zamanı yaranan hər hansı mübahisəni məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 12

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı gündən qüvvəyə minir.

Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı şəkildə bildirdikdən üç ay sonra bu Saziş qüvvədən düşür.

Bu Saziş Roma şəhərində 24 fevral 2005-ci ildə Azərbaycan, italyan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TELERADİO VERİŞLƏRİ ŞİRKƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASININ RAİ RADİO-TELEVİZİYASI ADINDAN
NİZAMİ XUDİYEV	*FLAVİO KATTANEO*
Sədr	*Baş direktor*

AzərTAc və ANSA xəbər agentlikləri arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA),

Azərbaycan və İtaliya xalqları arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsini və Tərəflər arasında inkişaf etməkdə olan əməkdaşlığın daha da genişləndirilməsini zəruri hesab edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

AzərTAc rus və ingilis dillərində öz xəbər xidməti ilə ANSA-nı pulsuz təmin edəcək və ANSA italyan və ingilis dillərində öz xəbər xidməti ilə AzərTAc-ı pulsuz təmin edəcəkdir; Tərəflər öz tələbatına uyğun şəkildə bir-birinin xəbərlərindən tam və yaxud qismən istifadə etmək hüququna malikdirlər.

Maddə 2

Tərəflər bir-birinin xəbərlərindən istifadə edərkən öz tələbatına uyğun olaraq xəbərin mənbəyini aydın surətdə göstərəcək, faktlara, xəbərin məzmununa və ilkin mənasına diqqətlə yanaşacaq və birbaşa sitatlara müraciət edərkən onların mətnini dəyişməyəcəklər.

Maddə 3

AzərTAc və ANSA qarşılıqlı olaraq onların müvafiq xəbər xidmətlərini inkişaf etmiş və mükəmməl texnoloji sistem vasitəsilə bir-birinə çatdırırlar; eyni zamanda bu Saziş imzalandıqdan sonra Tərəflər bir-birinə parol və giriş kodu göndərir və internet vasitəsilə biri digərinin xəbər xidmətindən istifadə edir; Tərəflər parol və giriş kodunu üçüncü tərəfə verməmək barədə öhdəlik götürürlər.

Maddə 4

Tərəflər digər Tərəfin icazəsi olmadan ona məxsus olan xəbəri yenidən işləmədən ilkin formatda öz internet səhifəsində yerləşdirməyəcək, habelə bu xəbərləri ilkin formatda üçüncü tərəfə verməyəcəklər.

Maddə 5

Tərəflər arasında informasiya, xəbər, marketinq, idarəetmə və texnoloji sahələrdə mübadiləni və əməkdaşlığı genişləndirmək üçün agentliklərin rəhbərləri arasında qarşılıqlı səfərləri təşviq edəcəklər.

Maddə 6

Tərəflər imkan dairəsində multimedia sektoru çərçivəsində əməkdaşlığı və xəbər və material mübadiləsini təşviq edəcəklər.

Maddə 7

Tərəflər əməkdaşlığı genişləndirmək məqsədilə xüsusi xəbər materiallarını yaymaqla ANSA-nın Azərbaycan informasiya bazarında və AzərTAc-ın İtaliya informasiya bazarında iştirakını təmin etmək barədə birgə və üçüncü tərəflə təşəbbüsləri genişləndirmək niyyətindədirlər.

Maddə 8

Tərəflər xəbərlərin vaxtında və səmərəli göndərilməsini təmin etmək məqsədilə texnoloji informasiyaların mübadiləsini genişləndirməyi davam etdirəcəklər; hər bir Tərəf digər Tərəfin onun dövlətinin vətəndaşı olan müxbirinə texnoloji yardım göstərmək üçün mümkün köməyi edəcəkdir.

Maddə 9

Hər iki Tərəf bir-birinin jurnalistlərinə və müxbirlərinə onların xəbərlərinin yüksək standartlara cavab verməsini təmin etmək üçün milli qanunvericiliyi çərçivəsində və ən yüksək imkanları daxilində kömək edəcəkdir.

Maddə 10

İtaliyanın Azərbaycandakı səfirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin müraciəti əsasında AzərTAc və ANSA hər iki səfirliyə digər ölkənin agentliyinin xəbər xidmətindən istifadə etmək üçün texnoloji kömək göstərə bilər.

Maddə 11

Tərəflər bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan hər hansı fikir ayrılığını əməkdaşlıq və danışıqlar yolu ilə qarşılıqlı hörmət ruhunda həll edəcəklər.

Maddə 12

Bu Saziş bir il müddətinə bağlanılır və imzalandığı gündən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasından ən azı üç ay əvvəl onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə birbaşa və ya diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Sazişin müddəti növbəti illik müddətlərə uzadılır.

Bu Saziş Roma şəhərində 24 fevral 2005-ci il tarixində, Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRTAC XƏBƏR AGENTLİYİNİN ADINDAN

ASLAN ASLANOV
Baş direktor

ANSA XƏBƏR AGENTLİYİNİN ADINDAN

MARİO ROSSO
Baş direktor

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Roma Şəhər Meriyası (İtaliya Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlanan Bakı Şəhər İcra Hakimiyyəti və Roma Şəhər Meriyası,

şəhərlər arasında əlaqələrin xalqların dostluğuna, qarşılıqlı anlaşmaya və dünyada sülhün qorunmasına xidmət edəcəyinə inanaraq,

ölkələri arasında mövcud olan dostluq əlaqələrinin, çoxsahəli əməkdaşlığın daha da inkişaf etdirilməsi və birbaşa əlaqələr üçün əlverişli şəraitin yaradılmasına çalışaraq,

paytaxt şəhərlərin ümumi problemlərinin həlli təcrübəsinin mübadiləsinə mühüm əhəmiyyət verərək,

şəhərlər arasında qarşılıqlı tanıtma və anlaşmanın inkişafına yardım etməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Bakı və Roma şəhərləri arasında dostluq və əməkdaşlığı öz milli qanunvericiliklərinə və ənənələrinə, Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasındakı beynəlxalq müqavilələrə uyğun olaraq, bərabərlik, tərəfdaşlıq və qarşılıqlı fayda əsasında həyata keçirəcəklər.

Maddə 2

Tərəflər arasında dostluq əlaqələri və əməkdaşlıq, əsasən, onların şəhərlərinin sakinlərinin maraqlarına uyğun olaraq, ilk növbədə, qarşılıqlı tanıtma, şəhərlərin idarə edilməsi, eləcə də şəhər infrastrukturuna aid sahələrdə yaradılaraq inkişaf etdiriləcəkdir.

Maddə 3

Şəhərlər arasında əlaqələr şərtləri və tərkibi qarşılıqlı razılaşma əsasında hazırlanmış əməkdaşlıq proqramları və Tərəflərin ayrı-ayrı təklifləri əsasında həyata keçiriləcəkdir.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola onun ayrılmaz hissəsi olan və 5-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 5

Bu Protokol beş iş müddətinə bağlanılır və imzalandığı andan qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Protokolun qüvvəni növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Protokol Roma şəhərində 25 fevral 2005-ci ildə Azərbaycan, italyan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN

HACIBALA ABUTALIBOV
İcra hakimiyyətinin başçısı

ROMA ŞƏHƏR MERİYASI ADINDAN

MARİAPİA QARAVALİA
Merin müavini

Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri F.İ.Qurbanovun eyni zamanda Azərbaycan Respublikasının Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Kanadada Fövqəladə və səlahiyyətli səfiri Fəxrəddin İsa oğlu Qurbanov eyni zamanda Azərbaycan Respublikasının Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2005-ci il

№786

Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Kaspian Enerci Qrup Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2004-cü il 1 iyul tarixli 297 nömrəli Sərəncamına uyğun olaraq, 2004-cü il noyabrın 5-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Böyük Britaniyanın Kaspian Enerci Qrup Limited ("KEQ") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən. təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Kaspian Enerci Qrup Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 dekabr tarixli 189 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 aprel 2005-ci il

№900-IIQ

Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, AZEN Oyl Kompani Bi.Vi. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sian-şor neft-qaz yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2004-cü il 1 iyul tarixli 296 nömrəli Sərəncamına uyğun olaraq, 2004-cü il sentyabrın 29-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə AZEN Oyl Kompani Bi. Vi. ("AZEN") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, AZEN Oyl Kompani Bi.Vi. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 14 oktyabr tarixli 150 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Höku-

mətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 aprel 2005-ci il

№901-IIQ

Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Nobl Skay Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2004-cü il 31 mart tarixli 155 nömrəli Sərəncamına uyğun olaraq, 2004-cü il iyunun 18-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Nobl Skay Limited ("Nobl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Nobl Skay Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 iyun tarixli 88 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 aprel 2005-ci il

№902-IIQ

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 aprel 2005-ci il

№789

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında *təmənnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi* barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 aprel 2005-ci il

№790

"Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi"nə dair Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında Notanı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi"nə dair Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında Notanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Notanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 may 2005-ci il

№794

"Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi'ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 may 2005-ci il

№795

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 may 2005-ci il

№804

"İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında" 1961-ci il oktyabrın 26-da Roma şəhərində imzalanmış Beynəlxalq Konvensiya Azərbaycan Respublikasının ona dair bildirişləri ilə (bildirişlərin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2005-ci il

№909-IIQ

İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya

(Roma, 1961)

Razılığa gələn dövlətlər ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının müdafiəsini arzu edərək, aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Bu Konvensiya ilə təmin olunan qorunma əbədi və bədii əsərlərə müəlliflik hüquqlarının qorunmasına toxunmur və heç bir zərər vurmur. Buna uyğun olaraq, bu Konvensiyanın müddəalarından heç birinin belə qorunmaya zərər vuran kimi şərh edilməsi yolverilməzdir.

Maddə 2

1. Bu Konvensiyanın məqsədləri üçün milli rejim qorunma tələb olunan Razılığa gələn dövlətin daxili qanunvericiliyi ilə verilən hüquqi rejimdir:

a) öz vətəndaşları olan ifaçıların onun ərazisində həyata keçirilən ifalarına, onların efirlə yayımına və ya ilkin yazılmasına münasibətdə;

b) öz vətəndaşları olan fonoqram istehsalçılarının onun ərazisində ilk dəfə yazılmış və ya ilk dəfə dərc edilmiş fonoqramlarına münasibətdə;

c) mənzil-qərargahları onun ərazisində yerləşən yayım təşkilatlarının bu ərazidə yerləşən ötürücülərin köməyi ilə həyata keçirilən efir verilişlərinə münasibətdə.

2. Milli rejim xüsusi təminat verilən qorunmaya uyğun olaraq və bu Konvensiyada xüsusi qeyd olunmuş məhdudiyyətlər nəzərə alınmaqla tətbiq olunur.

Maddə 3

Bu Konvensiyanın məqsədləri üçün:

a) "ifaçılar" rol oynayan, oxuyan, qiraət edən, deklamasiya deyən və ya hər hansı digər tərzdə ədəbi və ya bədii əsərlərin ifasında iştirak edən aktyor, müğənni, musiqiçi, rəqqas və ya digər şəxslərdir;

b) "fonoqram" hər hansı ifanın və ya digər səslərin istənilən formada müstəsna olaraq səsli yazılmasıdır;

c) "fonoqram istehsalçısı" ifanın və ya digər səslərin səsli yazılmasını ilk dəfə həyata keçirən fiziki və ya hüquqi şəxsdir;

d) "dərc edilmə" fonoqram nüsxələrinin kifayət sayda kütləyə təqdim olunmasıdır;

e) "surətçıxarma" kütlənin naqilsiz vasitələrlə qəbul etməsi üçün yazılmanın bir və ya bir neçə nüsxəsinin hazırlanmasıdır;

f) "efir verilişi" səslərin, yaxud təsvir və səslərin əhalinin qəbul etməsi üçün naqilsiz vasitələrlə ötürülməsidir;

g) "retranslyasiya" yayım təşkilatlarının verilişinin başqa yayım təşkilatı tərəfindən eyni vaxtda efirlə verilməsidir.

Maddə 4

Razılığa gələn hər bir dövlət aşağıdakı şərtlərdən birinə riayət etməklə ifaçılara milli rejim tətbiq edir:

a) ifa digər Razılığa gələn dövlətdə olmuşdur;

b) ifa bu Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq qorunan fonoqrama daxil edilmişdir;

c) ifa fonoqrama yazılmaqdan əvvəl bu Konvensiyanın 6-cı maddəsinə uyğun olaraq qorunan efir verilişi vasitəsilə yayımlanır.

Maddə 5

1. Razılığa gələn hər bir dövlət aşağıdakı şərtlərdən birinə riayət etməklə fonoqram istehsalçılarına milli rejim təqdim edir:

a) fonoqram istehsalçısı Razılığa gələn digər dövlətin vətəndaşıdır (istehsalçının vətəndaşlığı meyarı);

b) səsin ilkin yazılması Razılığa gələn digər dövlətdə həyata keçirilib (ilkin yazılma yeri meyarı);

c) fonoqram ilk dəfə Razılığa gələn digər dövlətdə dərc edilib (ilkin dərc edilmə yeri meyarı).

2. Əgər fonoqram bu Konvensiyanın üzvü olmayan dövlətdə ilk dəfə dərc edilibsə, lakin əgər onun ilkin dərc edilmə günündən otuz gün müddətində Razılığa gələn dövlətdə də dərc edilibsə (eyni vaxtda dərc edilmə), onda Razılığa gələn dövlətdə də ilk dəfə dərc edilmiş sayılır.

3. Razılığa gələn hər bir dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə bəyan edə bilər ki, o, ilkin dərc edilmə yeri meyarını və ya alternativ olaraq ilkin yazılma yeri meyarını tətbiq etməyəcək. Belə bildiriş ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədin və ya qoşulmaq barədə aktın saxlanılmağa verildiyi zaman və ya daha gec verilə bilər; sonuncu halda bildiriş onun saxlanılmağa verildiyi vaxtdan altı ay sonra qüvvəyə minir.

Maddə 6

1. Razılığa gələn hər bir dövlət aşağıdakı şərtlərdən birinə riayət etməklə yayım təşkilatına milli rejim təqdim edir:

a) yayım təşkilatının mənzil-qərargahı Razılığa gələn digər dövlətdə yerləşir;

b) efir verilişi Razılığa gələn digər dövlətdə yerləşmiş ötürücünün köməyi ilə həyata keçirilir.

2. Razılığa gələn hər bir dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə bəyan edə bilər ki, o, efir verilişinin qorunmasını, əgər yayım təşkilatının mənzil-qərargahı Razılığa gələn digər dövlətin ərazisində yerləşirsə və bu veriliş Razılığa gələn həmin dövlətdə yerləşmiş ötürücünün köməyilə həyata keçirilirsə, o halda həyata keçirəcək. Belə bildiriş ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədin və ya qoşulmaq barədə aktın saxlanılmağa verildiyi zaman və ya hər hansı sonrakı vaxtda verilə bilər, son halda bildiriş onun saxlanılmağa verildiyi vaxtdan altı ay keçəndən sonra qüvvəyə minir.

Maddə 7

1. İfaçılara bu Konvensiyaya uyğun təqdim edilən qorunma aşağıdakılara icazə verməmək imkanını özündə ehtiva edir:

a) efirə verilməsi, yaxud kütləvi bildiriş üçün istifadə olunan ifanın artıq efirə verildiyi və ya yazılmasının istifadəsilə həyata keçirildiyi hallar istisna olmaqla, onların ifasının razılıq alınmadan efirə verilməsi, yaxud kütləvi bildiriş üçün həyata keçirilməsi;

b) yazılmamış ifanın onların razılığı olmadan yazılmasının həyata keçirilməsi;

c) ifanın yazılmasının onların razılığı olmadan surətinin çıxarılması:

i) əgər ilkin yazılma özü onların razılığı olmadan həyata keçirilibsə;

ii) əgər surətçıxarma ifaçıların razılıq verdiyi yox, digər məqsədlərlə həyata keçirilirsə;

iii) əgər ilkin yazılma 15-ci maddənin müddəalarına uyğun həyata keçirilibsə, lakin surətçıxarma bu müddəalarda göstərilənlərdən başqa məqsədlərlə həyata keçirilirsə.

Əgər veriliş efirə ifaçıların razılığı ilə verilərsə, onda retranslyasiyaya, yazılmanın efirə verilmə məqsədilə həyata keçirilməsinə və ya bu yazılmanın efirə verilmə məqsədilə surətçıxarılmasına münasibətdə qorunma tələb olunan Razılığa gələn dövlətin daxili qanunvericiliyi ilə tənzimlənir.

2. Yayım təşkilatlarının efirə vermək məqsədilə həyata keçirdikləri yazılmalarının istifadəsini tənzimləyən qaydalar və şərtlər qorunma tələb olunan Razılığa gələn dövlətin daxili qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

3. Bununla birlikdə bu bəndin 1) və 2)-ci yarımbəndlərində qeyd edilən daxili qanunvericilik ifaçıları onların yayım təşkilatları ilə müqavilə üzrə münasibətlərinə nəzarət imkanından məhrum etməməlidir.

Maddə 8

Əgər eyni ifada bir neçə ifaçı iştirak edirsə, Razılığa gələn hər bir dövlət öz daxili qanunvericiliyində və qaydalarında ifaçıların öz hüquqlarını hə-yata keçirmələri ilə bağlı hansı tərzdə təqdim olunmasını qabaqcadan şərt qoya bilər.

Maddə 9

Razılığa gələn hər bir dövlət daxili qanunvericiliyin və qaydaların qəbul edilməsi ilə bu Konvensiyanın təqdim etdiyi qorunmanı ədəbi və ya bədii əsərləri ifa etməyən artistlərə də şamil edə bilər.

Maddə 10

Fonoqram istehsalçıları öz fonoqramlarının birbaşa və ya dolayısı yolla surətinin çıxarılmasına icazə vermək və ya qadağa qoymaq hüququna malikdirlər.

Maddə 11

Əgər Razılığa gələn dövlətin milli qanunvericiliyi fonoqram istehsalçılarına və ya ifaçı-

lara, yaxud hər iki kateqoriyaya hüquqi qorunmanın təqdim edilməsi şərti kimi müəyyən rəsmiyyətlərə əməl edilməsini tələb edirsə, bu rəsmiyyətlər o halda yerinə yetirilmiş sayılır ki, dərc edilmiş fonoqramın satışda olan bütün nüsxələrində və ya onların qutusunda P işarəsi qoyulmuş olsun; onun ardınca ilkin dərc edilmə tarixi göstərilməli və bu elə tərzdə yerləşdirilməlidir ki, fonoqramın qorunması haqqında aydın təsəvvürü təmin etsin; əgər nüsxələr və ya onların qutusu fonoqram istehsalçısını və ya lisenziya sahibini (onun adının, əmtəə nişanının və ya digər tələb olunan işarələrin göstərilməsi yolu ilə) göstərmirsə, onda həm də fonoqram istehsalçısı hüquqlarının sahibinin adı da qeyd olunur və bundan başqa nüsxələr və ya onların qoyulduğu qutu əsas ifaçıları göstərmirsə, onda bu qeyddə həm də yazılma həyata keçirilən ölkədə həmin ifaçıların hüquqlarının sahibi olan şəxsin də adı göstərilməlidir.

Maddə 12

Əgər kommersiya məqsədləri üçün dərc edilmiş fonoqram və ya belə fonoqramın surətinin çıxarılmasından birbaşa efirə verilməsi və ya kütləyə çatdırılması məqsədilə hər hansı üsulla bildiriş üçün istifadə edilirsə, onda istifadəçi ifaçılara və ya fonoqram istehsalçılarına, yaxud hüquq sahiblərinin hər ikisinə birdəfəlik ədalətli haqq ödəyir.

Həmin tərəflər arasında razılığın olmadığı halda, bu haqqın bölünməsi şərtləri daxili qanunvericiliklə müəyyən edilə bilər.

Maddə 13

Yayım təşkilatları icazə vermək və ya qadağa qoymaq hüququna malikdirlər:

a) öz verilişlərinin efirlə retranslyasiyasına;

b) öz verilişlərinin yazılmasına;

c) surətçıxarılmasına:

   i) onların razılığı olmadan hazırlanmış öz efir verilişlərinin yazılmasına;

   ii) əgər surətçıxarma bu müddəalarda göstərilənlərdən başqa məqsədlərlə həyata keçirilibsə, 15-ci maddənin müddəalarına uyğun hazırlanmış öz efir verilişlərinin yazılmasına;

d) özünün televiziya verilişlərinin kütləvi bildiriş üçün verilməsi, əgər belə veriliş giriş haqqı ödənilməklə kütlə üçün açıq olan yerlərdə həyata keçirilirsə; onun həyata keçirilməsi şərtlərinin müəyyən edilməsi bu hüququn qorunması tələb olunan dövlətin daxili qanunvericiliyi ilə tənzimlənir.

Maddə 14

Bu Konvensiyaya uyğun təqdim edilən qorunma müddəti ilin sonundan hesablanmaqla 20 ildən az deyildir, əgər həmin ildə:

a) fonoqramların və onlara daxil edilmiş ifaların yazılması həyata keçirilibsə;

b) fonoqramlara daxil edilməyən ifalar olubsa;

c) efirlə verilibsə.

Maddə 15

1. Razılığa gələn hər bir dövlət özünün daxili qanunvericiliyində və qaydalarında bu Konvensiya ilə təminat verilən qorunmaya münasibətdə aşağıdakılara istisnalar nəzərdə tuta bilər:

a) şəxsi məqsədlər üçün istifadə;

b) cari hadisələr haqqında məlumatlandırma məqsədilə qısa parçaların istifadəsi;

c) özünün avadanlığında və özünün verilişləri üçün yayım təşkilatının həyata keçirdiyi qısamüddətli səsli yazılması;

d) yalnız tədris və ya elmi tədqiqat məqsədləri üçün istifadə.

2. Bu maddənin 1-ci bəndindən asılı olmayaraq, Razılığa gələn hər hansı dövlət öz daxili qanunvericiliyində və qaydalarında ədəbi və bədii əsərlərə müəllif hüququnun qorunmasına münasibətdə nəzərdə tutulmuş məhdudiyyətləri eyni ilə daxili qanunvericiliyində və qaydalarında ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunmasına münasibətdə nəzərdə tuta bilər. Bununla birlikdə məcburi lisenziyaların verilməsi ancaq bu Konvensiyanın müddəalarına uyğun həcmdə nəzərdə tutula bilər.

Maddə 16

1. Hər hansı dövlət bu Konvensiyanın üzvü olmaqla, ondan irəli gələn bütün öhdəlikləri öz üzərinə götürür və ondan irəli gələn bütün imtiyazlardan istifadə edir. Lakin hər hansı vaxtda o, Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə bəyan edə bilər ki:

a) o, 12-ci maddəyə münasibətdə:

   i) bu maddənin müddəalarını tətbiq etməyəcək;

   ii) bu maddənin müddəalarını müəyyən istifadə növlərinə münasibətdə tətbiq etməyəcək;

   iii) istehsalçısı Razılığa gələn digər dövlətin vətəndaşı olmayan fonoqramlara münasibətdə bu maddəni tətbiq etməyəcək;

   iv) istehsalçısı Razılığa gələn digər dövlətin vətəndaşı olan fonoqrama münasibətdə bu maddəyə uyğun olaraq təqdim edilən qorunmanı həmin dövlətin müvafiq bəyanatı vermiş dövlətin vətəndaşının ilk dəfə yazdığı fonoqrama təqdim olunan qorunmanı məhdudlaşdırdığı həcmdə və müddətə məhdudlaşdırır, bununla birlikdə fonoqram istehsalçısının vətəndaşı olduğu Razılığa gələn dövlətin, həm də bəyanat vermiş dövlətin həmin benefisiara və ya benefisiarlara qorunma təqdim etməməsi faktına qorunmanın həcminə təsir göstərən amil kimi baxılmır.

b) 13-cü maddənin d) bəndini tətbiq etməyəcək; Razılığa gələn dövlət belə bəyanat verərsə, onda Razılığa gələn digər dövlətlər mənzil-qərargahları bu dövlətdə olan yayım təşkilatlarına 13-cü maddənin d) bəndində nəzərdə tutulan hüquqları təqdim etməyəcəklər.

2. Əgər bu maddənin 1-ci bəndində qeyd edilən bildiriş ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədin və ya qoşulmaq barədə aktın saxlanılmağa verildiyi tarixdən sonra edilibsə, onun saxlanılmağa verildiyi tarixdən altı ay sonra qüvvəyə minir.

Maddə 17

Hər hansı dövlət 1961-ci il 26 oktyabr tarixinə olan vəziyyətə fonoqram istehsalçılarına yalnız ilkin yazılma yeri meyarı əsasında qorunma təqdim edirsə, ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədin və ya qoşulmaq barədə aktın saxlanılmağa verildiyi vaxt Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ünvanlanmış bildirişdə bəyan edə bilər ki, 5-ci maddənin məqsədləri üçün o, ancaq ilkin yazılma yeri meyarlarını, 16-cı maddənin 1 a) iii) və iv) bəndinin məqsədləri üçün isə istehsalçının vətəndaşlıq meyarları əvəzinə ilkin yazılma yeri meyarını tətbiq edəcək.

Maddə 18

5-ci maddənin 3-cü bəndinə, 6-cı maddənin 2-ci bəndinə, 16-cı maddənin 1-ci bəndinə və ya 17-ci maddəyə uyğun olaraq bildiriş göndərmiş hər hansı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə sonradan göndərilmiş bildirişlə onun fəaliyyətini məhdudlaşdıra və ya geri çağıra bilər.

Maddə 19

Əgər ifaçı öz ifasının təsvirlərinin yazılmasına və ya audiovizual yazılmaya daxil edilməsinə icazə veribsə, bu Konvensiyanın müddəaları nəzərə alınmadan 7-ci maddənin tətbiqi dayandırılır.

Maddə 20

1. Bu Konvensiya Razılığa gələn hər hansı dövlətdə bu Konvensiyanın həmin dövlətə münasibətdə qüvvəyə minməsi tarixinədək alınmış hüquqları məhdudlaşdırmır.

2. Razılığa gələn heç bir dövlət bu Konvensiyanın həmin dövlətə münasibətdə qüvvəyə minməsi tarixinədək ilkin yazılması həyata keçirilmiş ifalara, efir verilişlərinə və ya fonoqramlara bu Konvensiyanın müddəalarını tətbiq etməyə borclu deyildir.

Maddə 21

Bu Konvensiya ilə təqdim edilən qorunma ifaçılara, fonoqram istehsalçılarına və ya yayım təşkilatlarına təqdim edilən hər hansı digər qorunmaya zərər vurmur.

Maddə 22

Razılığa gələn dövlətlər öz aralarında xüsusi sazişlər bağlamaq hüququnu saxlayırlar, çünki belə sazişlər ifaçılara, fonoqram istehsalçılarına və ya yayım təşkilatlarına bu Konvensiya ilə təqdim ediləndən daha geniş hüquqların təqdim edilməsini nəzərdə tutur, yaxud bu Konvensiyaya zidd olmayan digər müddəaları özündə əks etdirir.

Maddə 23

Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa verilir. O, ifaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının beynəlxalq qorunmasına aid Diplomatik Konfransda iştirak etmək üçün dəvət edilmiş Müəllif hüququ haqqında Ümumdünya Konvensiyanın və ya Ədəbi və Bədii Əsərlərin Qorunması

üzrə Beynəlxalq İttifaqın üzvü olan hər hansı dövlət üçün 1962-ci il 30 iyun tarixinədək imzalanmağa açıqdır.

Maddə 24

1. Bu Konvensiya onu imzalamış dövlətlər tərəfindən ratifikasiya olunmalı və ya qəbul edilməlidir.

2. Bu Konvensiya Konfransda iştirak etmək üçün dəvət olunan 23-cü maddədə qeyd edilən hər hansı dövlətin və Birləşmiş Millətlər Təşkilatının üzvü olan hər bir dövlətin qoşulması üçün o şərtlə açıqdır ki, hər iki halda həmin dövlət Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasının iştirakçısıdır və ya Ədəbi və bədii əsərlərin qorunması üzrə Beynəlxalq İttifaqın üzvüdür.

3. Ratifikasiya fərmanları, qəbul etmək haqqında sənədlər və ya qoşulmaq barədə aktlar Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa verilir.

Maddə 25

1. Bu Konvensiya altıncı ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədin və ya qoşulmaq barədə aktın saxlanılmağa verildiyi tarixdən üç ay sonra qüvvəyə minir.

2. Gələcəkdə bu Konvensiya hər bir dövlətə münasibətdə onun ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədinin və ya qoşulmaq barədə aktının saxlanılmağa verildiyi tarixdən üç ay sonra qüvvəyə minir.

Maddə 26

1. Razılığa gələn hər bir dövlət bu Konvensiyanın tətbiq edilməsinin təmin edilməsi üçün özünün Konstitusiyasına uyğun zəruri tədbirlər görülməsini öhdəsinə götürür.

2. Hər bir dövlət özünün ratifikasiya fərmanının, qəbul etmək haqqında sənədinin və ya qoşulmaq barədə aktının saxlanılmağa verildiyi vaxta özünün daxili qanunvericiliyinə uyğun olaraq bu Konvensiyanın müddəalarını həyata keçirmək imkanına malik olmalıdır.

Maddə 27

1. Hər bir dövlət ratifikasiya, qəbul etmə və ya qoşulması zamanı və ya hər hansı başqa vaxt Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ünvanlanmış bildirişlə bəyan edə bilər ki, bu Konvensiya beynəlxalq məsələlərinə görə onun məsuliyyət daşıdığı bütün ərazilərə və ya ərazilərdən hər hansı birinə o şərtlə tətbiq edilir ki, bu ərazilərə Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasının və ya Ədəbi və bədii əsərlərin qorunması haqqında Beynəlxalq Konvensiyanın qüvvəsi şamil edilir. Bu bildiriş alındığı vaxtdan üç ay sonra qüvvəyə minir.

2. 5-ci maddənin 3-cü bəndində, 6-cı maddənin 2-ci bəndində, 16-cı maddənin 2-ci bəndində, 17 və 18-ci maddələrdə qeyd olunan bildirişlər bu maddənin 1-ci bəndində qeyd edilən ərazilərin hamısına və ya onlardan birinə şamil edilə bilər.

Maddə 28

1. Razılığa gələn hər bir dövlət öz adından, yaxud 27-ci maddədə qeyd edilən ərazilərdən birinin və ya hamısının adından bu Konvensiyanı denonsasiya edə bilər.

2. Denonsasiya Birləşmiş Millətlər Təşkilatının Baş katibinin adına göndərilmiş bildiriş vasitəsilə həyata keçirilir və bildiriş alınan vaxtdan on iki ay sonra qüvvəyə minir.

3. Denonsasiya hüququ Razılığa gələn dövlətin bu Konvensiyanın həmin dövlətə münasibətdə qüvvəyə mindiyi vaxtdan beş il keçənə qədər həyata keçirilə bilməz.

4. Razılığa gələn dövlət Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasında iştirakının və ya Ədəbi və bədii əsərlərin qorunması haqqında Beynəlxalq İttifaqda iştirakının dayandırılması ilə bu Konvensiyada üzvlüyünü dayandırır.

5. 27-ci maddədə qeyd olunan ərazilərdən hər hansı birinə Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasının və ya Ədəbi və bədii əsərlərin qorunması haqqında Beynəlxalq Konvensiyanın tətbiq edilmə faktının dayandırılması ilə bu Konvensiyanın həmin ərazidə tətbiqi dayandırılır.

Maddə 29

1. Bu Konvensiyanın qüvvəyə minməsindən beş il keçəndən sonra Razılığa gələn hər bir dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ünvanlanmış bildiriş vasitəsilə Konvensiyaya yenidən baxılması üçün Konfransın çağırılmasını xahiş edə bilər. Baş katib Razılığa gələn bütün dövlətləri belə xahiş haqqında xəbərdar edir. Əgər Birləşmiş Millətlər Təşkilatının Baş katibinin bildirişindən sonra altı ay müddətində Razılığa gələn dövlətlərin yarısından az olmamaqla bu xahişin dəstəklənməsi barədə ona məlumat verərlərsə, Baş katib Beynəlxalq Əmək Bürosunun Baş direktoruna, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Baş direktoruna və Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun Direktoruna bu haqda məlumat verir, onlar 32-ci maddədə nəzərdə tutulmuş Hökumətlərarası Komitə ilə əməkdaşlıqda bu Konvensiyaya yenidən baxılması üçün Konfrans çağırırlar.

2. Bu Konvensiyaya hər hansı yenidən baxılmanın qəbul edilməsi yenidən baxılma üzrə konfransda iştirak edən dövlətlərin üçdə ikisinin səs çoxluğunu tələb edir, həm də o şərtlə ki, qeyd olunan çoxluq yenidən baxılma üzrə Konfrans keçirilən tarixə Konvensiyanın üzvü olan dövlətlərin üçdə ikisini təmsil etsin.

3. Bu Konvensiyanı tam və ya qismən dəyişdirən Konvensiyanın qəbul edildiyi halda və əgər yenidən baxılmış Konvensiyada başqa hal nəzərdə tutulmayıbsa:

a) bu Konvensiyanın yenidən baxılmış Konvensiya qüvvəyə mindiyi vaxtdan ratifikasiya, qəbul edilmə və ya qoşulmaq üçün açıq olması dayandırılır;

b) bu Konvensiya yenidən baxılmış Konvensiyanın üzvü olmayanlar arasında və ya onların həmin Konvensiyaya qoşulan dövlətlərlə münasibətlərində qüvvədə qalır.

Maddə 30

İki və ya bir neçə Razılığa gələn dövlət arasında bu Konvensiyanın şərh edilməsi və ya tətbiq edilməsinə aid yaranan və danışıqlar yolu ilə tənzimlənməyən hər hansı mübahisə tərəflərdən birinin tələbi ilə, əgər maraqlı dövlətlər mübahisənin həllinin digər qaydası haqqında razılığa gəlməsələr, Beynəlxalq Məhkəməyə verilir.

Maddə 31

5-ci maddənin 3-cü bəndinin, 6-cı maddənin 2-ci bəndinin, 16-cı maddənin 1-ci bəndinin və 17-ci maddənin müddəalarına zərər vurulmamaqla bu Konvensiyaya heç bir qeyd-şərt edilməsinə yol verilmir.

Maddə 32

1. Hökumətlərarası Komitə təsis edilir, onun vəzifəsinə daxildir:

a) bu Konvensiyanın tətbiq edilməsinə və fəaliyyətinə aid olan məsələləri öyrənmək; və

b) bu Konvensiyanın yenidən baxılması üçün mümkün olan təklifləri yığmaq və sənədlər hazırlamaq.

2. Komitə tələb olunan ədalətli coğrafi bölgü prinsipi əsasında seçilməsi həyata keçirilmiş Razılığa gələn dövlətlərin nümayəndələrindən ibarətdir. Əgər Razılığa gələn dövlətlərin sayı on iki və ya ondan azdırsa, Komitə altı üzvdən, Razılığa gələn dövlətlərin sayı on üçdən on səkkizə qədərdirsə, Komitə doqquz üzvdən, Razılığa gələn dövlətlərin sayı on səkkizdən çoxdursa, Komitə on iki üzvdən ibarət olur.

3. Komitə Konvensiya qüvvəyə minəndən on iki ay keçəndən sonra Beynəlxalq Əmək Bürosunun Baş direktorunun, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Baş direktorunun və Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun Direktorunun Razılığa gələn dövlətlərin əksər çoxluğunun əvvəlcədən bəyəndiyi qaydalara uyğun olaraq təşkil etdikləri hərəsinin bir səsi olan Razılığa gələn dövlətlər sırasından seçki keçirilməsi ilə təsis edilir.

4. Komitə sədri və vəzifəli şəxsləri seçir. O, prosedur qaydalarını, o cümlədən Komitənin gələcək funksiyalarını və onun tərkibinin dəyişdirilməsini müəyyən edən qaydaları qəbul edir; bu qaydalar həmçinin Razılığa gələn müxtəlif dövlətlərin Komitədə üzvlüyünün növbəliliyini təmin etməlidir.

5. Komitənin katibliyi üç təşkilatın: Beynəlxalq Əmək Bürosunun, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatının və Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun müvafiq olaraq iki Baş direktoru və Direktoru tərəfindən təyin edilmiş əməkdaşlarından ibarətdir.

6. Komitənin iclasları, onun üzvlərindən çoxu bunu məqsədəuyğun hesab edərlərsə, hər dəfə növbə ilə Beynəlxalq Əmək Bürosunun, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatının, Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun mənzil-qərargahlarında keçirilir.

7. Komitə üzvlərinin xərclərini müvafiq hökumətlər ödəyir.

Maddə 33

1. Bu Konvensiya ingilis, fransız və ispan dillərində tərtib edilib, bütün mətnlər tam autentikdir.

2. Bu Konvensiyanın rəsmi mətnləri həmçinin alman, italyan və portuqal dillərində hazırlanır.

Maddə 34

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi 23-cü maddədə qeyd edilən dövlətləri, həmçinin Birləşmiş Millətlər Təşkilatının üzvü olan hər bir dövləti, Beynəlxalq Əmək Bürosunun Baş direktorunu, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Baş direktorunu, Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun Direktorunu Konfransda iştirak etmək üçün xəbərdar edir:

a) ratifikasiya fərmanlarının, qəbul edilmək haqqında sənədlərin və ya qoşulmaq barədə aktların saxlanılmağa verilməsi haqqında;

b) bu Konvensiyanın qüvvəyə minmə tarixi haqqında;

c) bu Konvensiya ilə nəzərdə tutulmuş hər hansı bildirişlər, bəyanatlar və ya məlumatlar barədə;

d) 28-ci maddənin 4 və 5-ci bəndlərində qeyd edilən vəziyyətlərin yaranması haqqında.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi həm Beynəlxalq Əmək Bürosunun Baş direktorunu, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Baş direktorunu, Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun Direktorunu ona 29-cu maddəyə uyğun olaraq məlumat verilmiş xahişlər haqqında həm də Razılığa gələn dövlətlərdən bu Konvensiyanın yenidən baxılmasına münasibətdə alınmış hər hansı digər məlumatlar barədə xəbərdar edir.

Bu Konvensiyanın təsdiqi üçün onu lazımi qaydada səlahiyyəti olanlar imzalamışlar.

İyirmi altı oktyabr 1961-ci ildə bir nüsxədə ingilis, fransız və ispan dillərində Roma şəhərində imzalanıb. Birləşmiş Millətlər Təşkilatının Baş katibi lazımi qaydada təsdiq edilmiş əsl surətləri Konfransda iştirak etmək üçün dəvət olunmuş 23-cü maddədə qeyd edilən bütün dövlətlərə və Birləşmiş Millətlər Təşkilatının hər bir üzv dövlətinə, həmçinin Beynəlxalq Əmək Bürosunun Baş direktoruna, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Baş direktoruna, Ədəbi və Bədii Əsərlərin Qorunması üzrə Beynəlxalq İttifaqın Bürosunun Direktoruna göndərir.

Bildirişlər

1. "5-ci maddənin 3-cü bəndi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası bəyan edir ki, o, fonoqramların ilk dərc edilmə yeri meyarını tətbiq edəcək".

2. "6-cı maddənin 2-ci bəndi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası bəyan edir ki, o, mənzil-qərargahı digər Razılığa gələn dövlətdə yerləşən yayım təşkilatlarına bu təşkilatların efir verilişlərinin həmin dövlətin ərazisində quraşdırılmış ötürücülər vasitəsilə yayımlanması şərtilə milli rejim tətbiq edəcək".

3. "16-cı maddənin 1-ci bəndinin ilə yarımbəndi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası bəyan edir ki, o, istehsalçısı digər Razılığa gələn dövlətin vətəndaşı olmayan fonoqramlara münasibətdə 12-ci maddəni tətbiq etməyəcək".

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" 2005-ci il fevralın 24-də Roma şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2005-ci il

№910-IIQ

Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının onların müvafiq ölkələrinin iqtisadi, ticarət, maliyyə, sənaye və kənd təsərrüfatı maraqlarına və həmçinin qanuni ticarətə ziyan vurduğunu nəzərə alaraq,

gömrük hüquq mühafizə fəaliyyətinin onların gömrük idarələri arasında əməkdaşlıq yolu ilə daha effektiv olacağına inanaraq,

idxal və ya ixrac zamanı yığılan gömrük rüsumlarının və digər vergilərin dəqiq tutulmasının və qadağan, məhdudiyyət, həmçinin saxta mallar, qeydiyyata alınmış ticarət nişanları və əqli mülkiyyət hüquqları ilə bağlı hüquqi müddəaların və qaydaların həyata keçirilməsi də daxil olmaqla nəzarət tədbirlərinin düzgün həyata keçirilməsinin təmin edilməsinin əhəmiyyətini nəzərə alaraq,

1977-ci il 9 iyun tarixində Gömrük Əməkdaşlıq Şurasının himayəsi altında Nayrobidə qəbul edilmiş, gömrük məsələlərində qarşılıqlı inzibati yardımı sadələşdirmək üçün çərçivəni təsbit edən gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiyanı nəzərə alaraq,

beynəlxalq ticarət təchizat şəbəkəsinin təhlükəsizliyi və sadələşdirilməsi ilə bağlı artan qlobal marağı və bununla əlaqədar Gömrük Əməkdaşlıq Şurasının 2002-ci ilin iyununda qəbul edilmiş Qətnaməsini dərk edərək,

qanuni ticarətin sərbəst axınını təmin etmək və cəmiyyətin və gəlirlərin qorunması ilə

bağlı hökumətlərin tələbatlarını ödəmək məqsədilə qanuna riayət və sadələşdirmə arasında balansa nail olmağın əhəmiyyətini dərk edərək,

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ictimai sağlamlığa və cəmiyyətə təhlükə yaratdığını hesab edərək,

Birləşmiş Millətlər Təşkilatının himayəsi altında hazırlanmış, 1972-ci il tarixli Protokolla düzəlişlər edilmiş Narkotik Vasitələr haqqında 1961-ci il tarixli Vahid Konvensiyanın və Psixotrop Maddələr haqqında 1971-ci il tarixli Konvensiyanın, həmçinin Birləşmiş Millətlər Təşkilatının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə haqqında 1988-ci il Konvensiyasının müddəalarını da nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Təriflər

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

a) "Gömrük qanunvericiliyi" - iki Gömrük idarəsi tərəfindən aşağıdakılarla bağlı həyata keçirilən hüquqi və inzibati müddəalar:

malların və kapitalın, o cümlədən ödəniş vasitələrinin idxalı, ixracı, tranziti və saxlancı;

idxal və ixracla bağlı rüsumların və vergilərin yığılması, təminatı və qaytarılması;

qadağan, məhdudiyyət və nəzarət tədbirləri, o cümlədən valyutaya nəzarət tədbirləri;

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə;

saxtalaşdırmaya qarşı mübarizə.

b) "Gömrük idarələri" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və İtaliya Respublikasında Maliyyə Polisi də daxil olmaqla İtaliya Gömrük İdarəsi;

c) "Gömrük hüquqpozması" - Razılığa gələn Tərəfin gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması, yaxud pozulmasına yönəldilmiş hər hansı cəhd;

d) "İdxal və ixrac rüsumları və vergiləri" - idxal və ixrac rüsumları və idxal və ya ixrac zamanı yığılan bütün digər rüsumlar, vergilər yaxud yığımlar, o cümlədən, İtaliya Respublikası üçün Avropa Birliyinin səlahiyyətli qurumları tərəfindən təsbit olunmuş qaydada rüsum və vergilər;

e) "Nəzarətli göndəriş" - qanunsuz dövriyyəyə cəlb olunan şəxslərin müəyyən edilməsi məqsədilə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi obyekti olması məlum olan və ya şübhə doğuran malların Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının nəzarəti altında onların dövlətlərinin ərazilərindən keçməsinə icazə verilməsi metodu;

f) "şəxs" - hər hansı fiziki və ya hüquqi şəxs;

g) "şəxsi məlumatlar" - müəyyən olunmuş və ya müəyyən oluna bilən şəxsə dair bütün məlumatlar;

h) "məlumat" - hər hansı, o cümlədən elektron formada hər hansı informasiya, sənədlər, arayışlar və ya digər bildirişlər, yaxud onların təsdiq olunmuş surətləri;

i) "narkotik vasitələr və psixotrop maddələr" - tərkibində 1972-ci il tarixli Protokolla düzəlişlər edilmiş Narkotik Vasitələr haqqında 1961-ci il tarixli Vahid Konvensiyada və Psixotrop Maddələr haqqında 1971-ci il tarixli Konvensiyada, həmçinin Birləşmiş Millətlər Təşkilatının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə haqqında 20 dekabr 1988-ci il Konvensiyasının I maddəsinin (n) və (r) bəndlərində göstərilən materiallar olan material və ya məhsullar;

j) "narkotik vasitələr və psixotrop maddələrin istehsalında tez-tez istifadə olunan materiallar (prekursorlar)" - Birləşmiş Millətlər Təşkilatının Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə haqqında 20 dekabr 1988-ci il Konvensiyasına əlavə olunan I və II Cədvəllərdə göstərilən materiallar;

k) "pul yuyulmaları" - pulların mənşəyinin gizlədilməsi, ört-basdır edilməsi və ya onun yoxlanılmasına hər hansı maneə;

l) "sorğu göndərən Gömrük idarəsi" - yardım üçün sorğu göndərən Gömrük idarəsi;

m) "sorğu alan Gömrük idarəsi" - yardım üçün sorğu alan Gömrük idarəsi.

Sazişin fəaliyyət dairəsi

Maddə 2

1. Razılığa gələn Tərəflər öz Gömrük idarələri vasitəsilə, Gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının, o cümlədən saxta mallara, qeydiyyata alınmış ticarət nişanlarına və əqli mülkiyyət hüquqlarına dair hüquqi müddəaların və qaydaların pozulmasının, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədi daşıyan hüquqi müddəaların və qaydaların pozulmasının qarşısının alınması, araşdırılması və onlara qarşı mübarizə aparılması məqsədilə bir-birinə inzibati yardım göstərəcəklər.

2. Bu Saziş çərçivəsində Razılığa gələn hər bir Tərəfin göstərdiyi bütün yardım onun Dövlətinin qanunvericiliyinə müvafiq olaraq və onun Gömrük idarəsinin səlahiyyəti və mövcud imkanları çərçivəsində göstəriləcəkdir.

3. Bu Saziş İtaliya Respublikasının Avropa Birliyinin üzvü olan Dövlət kimi və Avropa Birliyinin üzvü olan digər Dövlətlərlə artıq bağlanmış və ya bağlanacaq hökumətlərarası sazişlərə Razılığa gələn Tərəf kimi riayət edəcəyi Gömrük qaydalarından irəli gələn hazırkı və gələcək öhdəliklərinə zidd olmayacaqdır.

4. Bu Saziş yalnız Razılığa gələn Tərəflər arasında qarşılıqlı inzibati yardım üçün nəzərdə tutulur və cinayət işlərində hüquqi yardımı əhatə etmir. Bu Sazişin tətbiqi Razılığa gələn Tərəflərin hər hansı digər beynəlxalq konvensiya və ya saziş ilə bağlı qarşılıqlı inzibati yardım öhdəliklərinə təsir etməyəcəkdir.

Yardım halları

Maddə 3

Gömrük idarələri sorğu əsasında bir-birini aşağıdakıları əks etdirən məlumatla təmin edəcəklər:

a) Razılığa gələn bir Tərəfin Dövlətinin ərazisinə idxal olunan malların Razılığa gələn digər Tərəfin Dövlətinin ərazisindən qanunauyğun şəkildə ixrac olunması;

b) Razılığa gələn bir Tərəfin Dövlətinin ərazisindən ixrac edilən malların Razılığa gələn digər Tərəfin Dövlətinin ərazisinə qanunauyğun şəkildə idxal olunması və əgər mövcuddursa, malların yerləşdirildiyi Gömrük proseduru;

c) Razılığa gələn bir Tərəfin Dövlətinin ərazisindən ixrac edilən zaman əlverişli rejim tətbiq olunan malların Razılığa gələn digər Tərəfin Dövlətinin ərazisinə lazımi qaydada idxal olunması, aydındır ki, mallara tətbiq olunmuş hər hansı Gömrük nəzarəti tədbirləri barədə məlumat da təqdim olunacaqdır.

Maddə 4

Dövlətlərinin qanunvericiliyinə uyğun olaraq Razılığa gələn Tərəflərin Gömrük idarələri, lazım gəldikdə sorğu əsasında və araşdırma ilə bağlı olaraq, aşağıdakıların dəqiqliyinin təmin edilməsində kömək edə biləcək hər hansı məlumatı mübadilə edəcəklər:

a) Gömrük idarələri tərəfindən tutulan gömrük rüsumlarının, vergilərin, yığımların və ödənişlərin toplanması və xüsusilə malların gömrük mənşə dəyərinin təmin olunmasında və onların tarif təsnifatının müəyyənləşdirilməsində kömək edə bilən məlumat;

b) qadağan, məhdudiyyət və nəzarətlə bağlı müddəaların həyata keçirilməsi;

c) saxta mallara, qeydiyyata alınmış ticarət nişanlarına və əqli mülkiyyət hüquqlarına dair hüquqi müddəaların və qaydaların həyata keçirilməsi;

d) narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər.

Xüsusi yardım halları

Maddə 5

1. Gömrük idarələri sorğu əsasında və ya öz təşəbbüsləri ilə, Gömrük hüquqpozması təşkil edən və ya etməsi aşkara çıxan tamamlanmış və ya planlaşdırılan sövdələşmələr barədə bir-birinə məlumat verəcəklər.

2. Razılığa gələn bir Tərəfin Dövlətinin iqtisadiyyatına, ictimai sağlamlığına, ictimai təhlükəsizliyinə, yaxud digər mühüm maraqlarına əhəmiyyətli dərəcədə zərər gətirə biləcək çox ciddi hallarda, Razılığa gələn digər Tərəfin Gömrük idarəsi mümkün olduqda spesifik məlumatı öz təşəbbüsü ilə təqdim edəcəkdir.

Maddə 6

1. Sorğu əsasında, sorğu alan Gömrük idarəsi həmin Gömrük idarəsinin Dövlətində tətbiq olunan və Gömrük hüquqpozması ilə bağlı məsələlərə müvafiq olan Gömrük qaydalarına və prosedurlarına dair bütün məlumatı təqdim edəcəkdir.

2. Hər bir Gömrük idarəsi sorğu əsasında yaxud öz təşəbbüsü ilə aşağıdakılara dair bütün mövcud məlumatı təqdim edəcəkdir:

a) Gömrük qanunvericiliyində əhəmiyyətli dəyişikliklər;

b) effektiv olması sübuta yetmiş yeni gömrük hüquq mühafizə üsulları;

c) Gömrük hüquqpozmalarında istifadə olunan yeni istiqamətlər, vasitələr və ya metodlar.

Texniki yardım

Maddə 7

Gömrük idarələri bir-birini Gömrük məsələlərində texniki yardımla, o cümlədən aşağıdakılarla təmin edə bilərlər:

a) bir-birinin Gömrük üsullarını daha yaxşı başa düşmək üçün qarşılıqlı faydalı olduqda Gömrük əməkdaşlarının səfərlərinin mübadilə edilməsi;

b) Gömrük əməkdaşlarının ixtisaslaşma səriştələrinin təkmilləşdirilməsində tədris və yardım;

c) aşkaretmə avadanlığının istifadəsində məlumat və təcrübə mübadiləsi;

d) Gömrük məsələləri üzrə ekspertlərin səfərlərinin mübadilə edilməsi;

e) Gömrük qaydalarına və prosedurlarına aid peşəkar, elmi və texniki məlumatların mübadiləsi.

Xüsusi nəzarət

Maddə 8

Sorğu əsasında, sorğu alan Gömrük idarəsi aşağıdakılar üzrə məlumatı təqdim edəcək və xüsusi nəzarətdə saxlayacaqdır.

a) Gömrük hüquqpozması törətmiş olması məlum olan və ya şübhə doğuran, xüsusilə sorğu alan Razılığa gələn Tərəfin Dövlətinin Gömrük ərazisinə daxil olan, yaxud oradan çıxan şəxslər;

b) onun dövlətinin Gömrük ərazisinə və ya oradan qanunsuz dövriyyəyə səbəb olması şübhə doğuran tranzitdə, yaxud saxlancda olan mallar;

c) Razılığa gələn hər hansı Tərəfin Dövlətinin Gömrük ərazisində Gömrük hüquqpozmalarının törədilməsində istifadə olunması şübhə doğuran nəqliyyat vasitələri;

d) Gömrük hüquqpozmalarının törədilməsində istifadə olunması şübhə doğuran binalar.

Nəzarətli göndəriş

Maddə 9

1. Gömrük idarələri, qarşılıqlı razılaşma əsasında və Milli qanunvericiliklə müəyyən edilmiş öz səlahiyyətləri çərçivəsində, bu Sazişin 1-ci maddəsinin i) və j) bəndlərində göstərilən mallarla bağlı Gömrük hüquqpozmaları törədildiyi halda Gömrük hüquqpoz-

masına cəlb olunmuş şəxsləri müəyyən etmək məqsədilə nəzarətli göndərişdən istifadə edə bilərlər.

2. Nəzarətli göndərişin istifadə olunmasına dair qərarlar hər bir hal üçün ayrıca qəbul ediləcəkdir.

Pul yuyulmaları

Maddə 10

Gömrük idarələri öz milli qanunvericiliklərinə və bu məsələdə spesifik səlahiyyətlərinə uyğun olaraq, 1-ci maddənin k) bəndində göstərildiyi kimi pul yuyulmalarının qadağan olunması məqsədilə tədbirlər görəcəklər.

Ödəniş tələblərinin ödənilməsi

Maddə 11

1. Tətbiq olunan zaman, sorğu alan Gömrük idarəsi idxal və ixrac rüsumlarından, vergilərdən, xərclərdən və faizlərdən yaranan ödəniş tələblərinin ödənilməsi məqsədilə zəruri addımlar atacaqdır.

2. Ödəniş tələbinin ödənilməsi üçün sorğu onun yerinə yetirilməsinə icazə verən sənədin rəsmi və ya təsdiq olunmuş surəti və tərcüməsi ilə müşayiət olunmalıdır.

3. Ödəniş tələbinin yerinə yetirilməsinə icazə verən sənəd, müvafiq hallarda və sorğu alan Gömrük idarəsinin milli qanunvericiliyinə uyğun olaraq, qəbul edilə, tanına bilər, ona Razılığa gələn həmin Tərəfdə yerinə yetirilməyə icazə verən sənəd əlavə edilə və ya bu sənədlə əvəz oluna bilər.

4. Keçdikdən sonra ödəniş tələbinin yerinə yetirilə bilməyəcəyi hər hansı müddətlə bağlı məsələlər sorğu alan Gömrük idarəsinin milli qanunvericiliyi ilə tənzimlənəcəkdir.

5. Ödəniləcək tələblərə sorğu alan Razılığa gələn Tərəfdə güzəştli rejim tətbiq edilməyəcəkdir.

6. Bu Sazişə aid ödəniş tələblərinin ödənilməsi zamanı, Gömrük idarələri bu barədə razılığa gəlməyincə sorğu alan Gömrük idarəsinin dövlətinin ərazisində məhkəmə prosesi başlanmayacaqdır.

7. Ödənilmə sorğu alan Gömrük idarəsinin milli qanunvericiliyinə uyğun olaraq tam və ya qismən müddətli olduqda, yardım üçün sorğuya vaxt məhdudiyyəti daxil ediləcəkdir.

8. Ödəniş tələbləri sorğu alan Gömrük idarəsinin milli valyutasında, sorğunun alındığı günün rəsmi məzənnəsinə uyğun olaraq ödəniləcəkdir.

9. Ödənilən məbləğlər, sorğu alan Gömrük idarəsinin milli qanunvericiliyinə müvafiq olaraq tutulan yığım və xərclər çıxıldıqdan sonra, lazımsız ləngimə olmadan köçürülmə gününün rəsmi məzənnəsinə uyğun olaraq sorğu göndərən Gömrük idarəsinə köçürüləcəkdir.

Sorğuların verilməsi və icrası

Maddə 12

1. Bu Saziş çərçivəsində yardım birbaşa Gömrük idarələri arasında mübadilə ediləcəkdir.

2. Bu Saziş çərçivəsində yardım üçün sorğular yazılı şəkildə verilməlidir və zəruri hesab edilən hər hansı sənədlərlə müşayiət olunmalıdır. Şərait tələb etdikdə, sorğular ingilis dilində şifahi şəkildə də verilə bilər. Belə sorğular dərhal yazılı şəkildə təsdiq edilməlidir.

3. Bu maddənin 2-ci bəndinə müvafiq olaraq verilmiş sorğulara aşağıdakılar daxil edilməlidir:

a) sorğu göndərən Gömrük idarəsinin adı;

b) sorğunun mövzusu və səbəbi;

c) məsələnin qısa təsviri, işin hüquqi elementləri və xarakteri;

ç) əgər məlumdursa, işlə əlaqədar olan şəxslərin adları və ünvanları.

4. Müəyyən prosedura əməl olunması ilə bağlı bir Gömrük idarəsi tərəfindən verilən sorğu, sorğu alan Razılığa gələn Tərəfin dövlətində tətbiq olunan hüquqi və inzibati müddəalara uyğun olaraq yerinə yetiriləcəkdir.

5. Bu Sazişdə istinad edilən məlumat hər bir Gömrük idarəsi tərəfindən bu məqsədlə təyin olunmuş vəzifəli şəxslərə çatdırılacaqdır. Bu məqsədlə təyin olunmuş vəzifəli şəxslərin siyahısı bu Sazişin 21-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq Razılığa gələn bir Tərəfin Gömrük idarəsi tərəfindən Razılığa gələn digər Tərəfin Gömrük idarəsinə çatdırılacaqdır.

İşlər və sənədlər

Maddə 13

1. Hər bir Gömrük idarəsi, öz təşəbbüsü ilə və ya sorğu əsasında, digər Gömrük idarəsinin Dövlətinin ərazisində Gömrük hüquqpozması təşkil edən və ya təşkil etməsi aşkara çıxan, tamamlanmış yaxud planlaşdırılan fəaliyyətlərə dair bütün mövcud məlumatı verən arayışları, şahidlik materiallarını və ya sənədlərin təsdiq olunmuş surətlərini digərinə təqdim edəcəkdir.

2. Bu Sazişdə nəzərdə tutulan sənədlər eyni məqsədlə hər hansı formada hazırlanmış kompüterləşdirilmiş məlumatla əvəz oluna bilər. Məlumatın və sənədlərin istifadəsi üçün müvafiq materiallar eyni zamanda təqdim olunmalıdır.

3. İşlərin və sənədlərin əsli yalnız təsdiq olunmuş surətlər kifayət etmədikdə tələb oluna bilər.

4. Bu Saziş çərçivəsində alınmış işlərin və sənədlərin əsli mümkün qədər tez geri qaytarılmalıdır.

Məlumat və sənədlərdən istifadə

Maddə 14

1. İnzibati yardım çərçivəsində alınmış məlumat, bildirişlər və sənədlər yalnız bu Sazi-

şin məqsədləri üçün, müvafiq qanunvericiliklə müəyyən olunmuş şərtlər əsasında araşdırmalarda, məhkəmə proseslərində və işlərdə istifadə oluna bilər.

2. Belə məlumat, bildirişlər və sənədlər, yalnız onları təqdim etmiş Gömrük idarəsi xüsusi icazə verdiyi təqdirdə və onları alan Gömrük idarəsinin Dövlətinin qanunvericiliyinin belə açıqlamanı qadağan etməməsi şərtilə, bu Sazişdə nəzərdə tutulanlardan başqa, digər hökumət qurumlarına açıqlana bilər.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulan məhdudiyyətlər narkotik vasitələr və ya psixotrop maddələrlə bağlı Gömrük hüquqpozmalarına dair məlumata, bildirişlərə və sənədlərə tətbiq olunmur.

4. Bu Saziş çərçivəsində Sorğu göndərən Razılığa gələn Tərəfin Gömrük idarəsinin əldə etdiyi bütün məlumat, bildirişlər və sənədlər Razılığa gələn bu Tərəfin Dövlətinin qanunvericiliyi ilə eyni xarakterli sənədlərə və məlumata şamil edilən eyni müdafiəyə malik olacaqdır.

5. Bununla belə, İtaliyanın Avropa Birliyinə üzvlüyündən irəli gələn öhdəliklərini nəzərə alaraq, 2-ci bənddə əks olunan müddəalar alınan məlumatın, bildirişlərin və sənədlərin lazım gəldikdə Avropa Komissiyasına və Birliyin üzvü olan digər Dövlətlərə çatdırılmasının qarşısını almayacaqdır.

Araşdırmalar

Maddə 15

1. Əgər bir Gömrük idarəsi bu barədə sorğu göndərirsə, digər Gömrük idarəsi, sorğu göndərən Gömrük idarəsinin Dövlətinin ərazisində qüvvədə olan Gömrük qanunvericiliyinə zidd olan və ya olması aşkara çıxan əməliyyatlarla bağlı araşdırmalara başlayacaq və belə araşdırmaların nəticələrini sorğu göndərən Gömrük idarəsinə bildirəcəkdir.

2. Araşdırmalar sorğu alan Gömrük idarəsinin Dövlətinin ərazisində qüvvədə olan Gömrük qanunvericiliyinə uyğun olaraq aparılacaqdır. Sorğu alan Gömrük idarəsi öz adından fəaliyyət göstərdiyi kimi fəaliyyət göstərəcəkdir.

3. Sorğu alan Gömrük idarəsi sorğunun yerinə yetirilməsi üçün müvafiq orqan olmadığı halda, o, sorğunu dərhal müvafiq orqana çatdıracaq və həmin orqanın əməkdaşlığını xahiş edəcəkdir.

Maddə 16

1. Sorğu alan Gömrük idarəsinin icazəsi ilə və onun göstərdiyi şərtlər əsasında, sorğu göndərən Gömrük idarəsinin vəzifəli şəxsləri, xüsusi hallarda, sorğu alan Gömrük idarəsinin Dövlətinin ərazisində, sorğu göndərən Gömrük idarəsinin Dövlətinin ərazisində qüvvədə olan Gömrük qanunvericiliyinə qarşı hüquqpozmalar araşdırılan zaman məsləhətçi səlahiyyəti ilə iştirak edə bilərlər. Belə hallarda sözügedən vəzifəli şəxslər göndərilmiş sorğuya müvafiq olaraq, sənədlər də daxil olmaqla məlumat, yaxud yardım təqdim edə və ya ala bilərlər.

2. Bu Saziş çərçivəsində nəzərdə tutulan hallarda bir Gömrük idarəsinin vəzifəli şəxsləri digər Gömrük idarəsinin Dövlətinin ərazisində olduqları zaman, hər zaman öz şəxsiyyətlərini sübut etmək iqtidarında olmalıdırlar. Orada olduqları zaman, onlar Razılığa gə-

lən digər Tərəfin milli qanunlarında nəzərdə tutulan dərəcədə həmin Tərəfin Gömrük əməkdaşlarına şamil edilən eyni müdafiəyə malik olacaq və törədə bildikləri hər hansı hüquqpozma üçün məsuliyyət daşıyacaqlar. Bundan əlavə, onlar rəsmi forma geyinməməli və silah gəzdirməməlidirlər.

Ekspert və şahidlər

Maddə 17

1. Gömrük hüquqpozması ilə əlaqədar Razılığa gələn bir Tərəfin sorğusu əsasında, sorğu alan Gömrük idarəsi öz vəzifəli şəxslərinə sorğu göndərən Razılığa gələn Tərəfin səlahiyyətli orqanları qarşısında vəzifələrinin icrası zamanı onlar tərəfindən müəyyən olunmuş faktlarla bağlı ekspertlər və ya şahidlər kimi ifadə vermək və bu barədə sübut təqdim etmək səlahiyyəti verə bilər. Çıxış etmək üçün sorğuda vəzifəli şəxsin hansı işlə bağlı və hansı səlahiyyətdə çıxış edəcəyi aydın göstərilməlidir.

2. Əgər tələb olunarsa, sorğu alan Gömrük idarəsi verilən icazədə öz vəzifəli şəxslərinin çıxış edə biləcəyi məhdudiyyət çərçivəsini göstərəcəkdir.

Şəxsi məlumatların müdafiəsi

Maddə 18

1. Bu Saziş çərçivəsində şəxsi məlumatlar mübadilə edilən zaman, Razılığa gələn Tərəflər bu Sazişin ayrılmaz hissəsi olan onun Əlavəsindəki prinsiplərin həyata keçirilməsindən irəli gələn standarta, en azı, bərabər məlumat müdafiəsi standartını təmin edəcəklər.

2. Şəxsi məlumatların elektron vasitələrlə mübadiləsi de bu maddənin 1-ci bəndində istinad edilən şərtlərə müvafiq olacaqdır.

İstisnalar

Maddə 19

1. Əgər sorğu alan Gömrük idarəsi sorğu edilən yardımın sorğu alan Razılığa gələn Tərəfin Dövlətinin suverenliyinə, ictimai asayişinə, təhlükəsizliyinə və ya digər mühüm milli marağına zərər gətirəcəyini, yaxud sənaye, ticarət, yaxud peşə sirrinin və ya Razılığa gələn həmin Tərəfin Dövlətinin qanunvericiliyində nəzərdə tutulan hər hansı digər sirlərin pozulmasına səbəb olacağını, yaxud onun hüquqi və inzibati prosedurlarına zidd olacağını hesab edərsə, o, belə yardımın göstərilməsindən imtina edə bilər və ya onu qismən, yaxud müəyyən şərtlər və ya tələblər əsasında göstərə bilər.

2. Əgər bir Gömrük idarəsi digər Gömrük idarəsinin xahiş etdiyi təqdirdə özü yerinə yetirmək iqtidarında olmayacağı yardım üçün xahiş edirsə, o öz sorğusunda bu faktı nəzərə çatdırmalıdır. Belə sorğunun yerinə yetirilməsi sorğu alan Gömrük idarəsinin qərarına uyğun olacaqdır.

3. Yardım davam edən araşdırmalara, məhkəmə proseslərinə və ya işlərə müdaxilə edəcəyi əsasda sorğu alan orqan tərəfindən təxirə salına bilər. Belə halda, sorğu alan Gömrük idarəsi, yardımın sorğu alan Gömrük idarəsinin tələb edə biləcəyi şərtlər əsasında göstərilə bilməsini müəyyən etmək üçün sorğu göndərən Gömrük idarəsi ilə məsləhətləşəcəkdir.

4. Yardımdan imtina edildikdə və ya o, təxirə salındıqda, imtina edilmənin və ya təxirə salınmanın səbəbləri göstərilməlidir.

Xərclər

Maddə 20

1. Gömrük idarələri bu Sazişin icrası ilə bağlı çəkilmiş xərclərin əvəzinin ödənilməsi üçün bütün iddialardan imtina edəcəklər. Eyni müddəa məlumatın elektron vasitələrlə mübadiləsinə də tətbiq olunur.

2. Ekspertlərə, şahidlərə və hökumət məmurları olmayan tərcüməçilərə çəkilən xərclər sorğu göndərən Gömrük idarəsi tərəfindən ödəniləcəkdir.

Sazişin həyata keçirilməsi

Maddə 21

1. Gömrük idarələri Gömrük hüquqpozmalarının araşdırılması və onlara qarşı mübarizə aparılması üzrə məsul vəzifəli şəxslərinin bir-biri ilə birbaşa əlaqələr saxlamalarını təmin etmək məqsədilə zəruri tədbirlər görəcəklər.

2. Gömrük idarələri bu Sazişin həyata keçirilməsini sadələşdirmək məqsədilə müfəssəl tədbirlər barədə razılığa gələcəklər.

3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Sədri və İtaliya Gömrük Agentliyinin Direktoru, yaxud onların ekspertlər tərəfindən yardım edilən nümayəndələrindən ibarət Azərbaycan-İtaliya Birgə Komissiyası təsis ediləcək və bu Sazişin nailiyyətlərini nəzərdən keçirmək, həmçinin ortaya çıxa bilən problemlərin həlli yollarını tapmaq məqsədilə, lazım gəldikdə, Gömrük idarələrindən biri tərəfindən verilən sorğu əsasında görüşəcəkdir.

4. Azərbaycan-İtaliya Birgə Komissiyası tərəfindən həlli tapılmayan mübahisələr diplomatik vasitələrlə həll olunacaqdır.

Ərazi üzrə tətbiq

Maddə 22

Bu Saziş Razılığa gələn hər iki Tərəfin milli və inzibati qaydalarında müəyyən olunduğu kimi onların Dövlətlərinin Gömrük ərazilərində tətbiq ediləcəkdir.

Qüvvəyə minmə və denonsasiya

Maddə 23

Razılığa gələn Tərəflərin yazılı razılaşmasına əsasən bu Sazişə onun ayrılmaz hissəsi olan və 24-cü maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 24

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən etibarən qüvvəyə minir.

Razılığa gələn hər bir Tərəf bu Sazişi ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə bildiriş göndərməklə onu ləğv edə bilər. Bu halda Saziş belə bildirişin alındığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bunları təsdiq edərək, müvafiq Hökumətləri tərəfindən səlahiyyət verilmiş aşağıda imza edən Nümayəndələr bu Sazişi imzalamışlar.

24 fevral 2005-ci il tarixində Roma şəhərində Azərbaycan, italyan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni dərəcədə autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*MARİO ANDREA QUAYANA*
Dövlət gömrük komitəsinin sədri	*Gömrük agentliyinin direktoru*

Əlavə

Şəxsi məlumat müdafiəsinin əsas prinsipləri

1. Şəxsi məlumatlar yalnız Gömrük idarələrindən birinə təqdim ediləcəkdir. Şəxsi məlumatların hər hansı digər orqana təqdim edilməsinə yalnız sözügedən məlumatları təqdim edən Gömrük idarəsinin ilkin razılığı əsasında icazə veriləcəkdir.

2. Sorğu əsasında, şəxsi məlumatları alan Gömrük idarəsi məlumatları təqdim edən Gömrük idarəsini onun istifadəsi və əldə olunan nəticələr barədə məlumatlandıracaqdır.

3. Təqdim edilən şəxsi məlumatlar sözügedən şəxslərin müəyyənləşdirilməsinə imkan verəcək formada və onun təqdim edildiyi məqsədlərə nail ol maq üçün zəruri olan vaxt ərzində saxlanılacaqdır.

4. Şəxsi məlumatları təqdim edən Gömrük idarəsi bu məlumatların lazımi qaydada və qanuni yolla toplanmasını və onun dəqiq və yeni olmasını və təqdim edildiyi məqsədlə bağlı artıq olmamasını təmin edəcəkdir. Razılığa gələn Tərəflərin hər birinin ərazisində qüvvədə olan hüquqi və inzibati müddəalara uyğun olaraq şəxsi məlumatların toplanması üzərinə qoyulmuş qadağanlara riayət olunacaqdır.

5. Əgər təqdim edilmiş şəxsi məlumatların səhv olduğu və ya mübadilə edilməməli olduğu aşkara çıxarsa, bu barədə dərhal məlumat verilməlidir. Belə məlumatları almış Gömrük idarəsi onlara düzəlişlər edəcək və ya onları ləğv edəcəkdir.

6. Gömrük idarələri bu Saziş çərçivəsində mübadilə edilən şəxsi məlumatların təqdim olunmasını və ya alınmasını qeydə alacaqlar.

7. Gömrük idarələri bu Saziş çərçivəsində mübadilə edilən şəxsi məlumatların icazəsiz müdaxilədən, düzəlişlərdən və ya yayılmadan qorunması məqsədilə zəruri təhlükəsizlik tədbirləri görəcəklər.

8. Əgər bu Saziş çərçivəsində mübadilə edilən şəxsi məlumatlar şəxsə ziyan dəyməsinə səbəb olarsa, belə şəxsi məlumatlardan istifadə etmiş Gömrük idarəsi öz ərazisində qüvvədə olan hüquqi və inzibati müddəalara uyğun olaraq ziyana görə məsuliyyət daşıya-

caqdır. Sözügedən Gömrük idarəsi ziyanın belə məlumatları təqdim etmiş Gömrük idarəsi tərəfindən vurulduğunu iddia etməklə öz məsuliyyətindən imtina etmək iqtidarında deyildir.

"Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 2005-ci il martın 9-da Ər-Riyad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2005-ci il

№911-IIQ

Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti (bundan sonra - Razılığa gələn Tərəflər),

iki dövlət arasında iqtisadi əməkdaşlığı genişləndirmək istəyindən çıxış edərək, hər iki dövlətin investorlarının investisiyaları üçün digər dövlətin ərazisində əlverişli şəraitin yaradılması niyyətində olaraq, belə investisiyaların təşviqi və qarşılıqlı surətdə qorunmasının özəl biznes təşəbbüslərini təşviq edəcəyini və hər iki millətin rifahını yüksəldəcəyini dərk edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə işlədilən:

1. "İnvestisiya" termini Razılığa gələn bir Tərəfin investorunun Razılığa gələn digər Tərəfin ərazisində, onun qanunvericiliyinə uyğun olaraq sahibi olduğu və ya barəsində hökm verə biləcəyi hər bir növ əmlakı bildirir və xüsusilə heç də təkcə aşağıdakılarla məhdudlaşmır:

a) daşınar və daşınmaz əmlak, eləcə də, girov, icarə, zamin, uzufrukt və buna bənzər digər əmlak hüquqları;

b) səhmlər, fondlar, şirkətlərin borc iltizamları, şirkətlərin digər hüquqları və maraqları, babelə Razılığa gələn Tərəflərin birinin və ya onun investorunun buraxdığı qiymətli kağızlar;

c) verilmiş borclara görə pul tələbləri və ya investisiya ilə əlaqədar iqtisadi dəyəri olan hər fəaliyyətə olan iddialar;

d) əqli mülkiyyət hüquqları, o cümlədən, müəllif hüquqları, patentlər, sənaye layihə sənədləri, hou-hau ticarət markaları, biznes və ticarət sirləri, ticarət adları və niyyətləri daxil olmaqla, lakin heç də qeyd olunanlarla məhdudlaşmamaqla;

e) qanun və ya dövlət tərəfindən imzalanmış kontraktla təsbit olunan istənilən hüquq və ya qanunamüvafiq olaraq verilmiş hər hansı lisenziyalar, icazələr və ya güzəştləri təmin edilən hüquqlar;

investisiya və ya reinvestisiya şəklində qoyulmuş əmlaka hansısa formada dəyişiklik edilməsi onun investisiya kimi təsnifatlaşdırılmasına təsir etmir, bu şərtlə ki, bu dəyişiklik ərazisində investisiya qoyulmuş Razılığa gələn Tərəfin qanunvericiliyi ilə ziddiyyət təşkil etmir.

2. "Gəlirlər" termini investisiya nəticəsində qazanılan məbləğlərdir və xüsusilə mənfəət, dividendlər, qonorarlar, kapital qazancları və ya digər buna bənzər rüsum və ödənişləri bildirir, lakin təkcə bunlarla məhdudlaşmır.

3. "İnvestor" termini:

a) Azərbaycan Respublikasına münasibətdə:

I. Azərbaycanın qanunlarına uyğun olaraq Azərbaycan vətəndaşı olan istənilən şəxs; və ya

II. Azərbaycan Respublikası qanunları və qaydalarına uyğun olaraq yaradılmış və onun ərazisində yerləşən şirket, korporasiya, firma, biznes assosiasiyaları, digər şəxsin institutu kimi istənilən hüquqi şəxs;

b) Səudiyyə Ərəbistanı Krallığına münasibətdə:

I. Səudiyyə Ərəbistanı Krallığının qanunlarına uyğun olaraq Səudiyyə Ərəbistanı Krallığının vətəndaşı hüququna malik fiziki şəxsləri bildirir;

II. Səudiyyə Ərəbistanı Krallığının qanunlarına uyğun olaraq istənilən hüquqi şəxs qeydiyyatı olan və olmayan və məhdud məsuliyyətli olub-olmamasından asılı olmayaraq, baş ofisi bu ölkənin ərazisində yerləşən korporasiyalar, müəssisələr, kooperativlər, şirkətlər, tərəfdaş şirkətlər, ofislər, təşkilatlar, fondlar, idarələr, biznes assosiasiyaları və digər oxşar qurumlar;

III. Səudiyyə Ərəbistanı Krallığı Hökuməti və Səudiyyə Ərəbistanında mövcud olan Səudiyyə Ərəb Valyuta Agentliyi, dövlət fondları və digər buna bənzər hökumət qurumlan kimi maliyyə institutları və onun səlahiyyətli orqanları deməkdir.

4. "Ərazi" termini dedikdə:

a) Azərbaycan Respublikasına münasibətdə: Azərbaycan Respublikasının beynəlxalq hüquqa və milli qanunvericiliyə uyğun olaraq suveren hüququnu və yurisdiksiyasını tətbiq etdiyi Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, Azərbaycan Respublikasının ərazisi başa düşülür.

b) Səudiyyə Ərəbistanı Krallığına münasibətdə: Səudiyyə Ərəbistanı Krallığının beynəlxalq hüquq əsasında suverenliyə malik olduğu və suveren hüquqların və ya yurisdiksiyasını tətbiq etdiyi dəniz və sualtı zonalar daxil olmaqla, torpaq sərhədi başa düşülür.

Maddə 2

1. Razılığa gələn Tərəflərdən hər biri digər Tərəfin investorlarının investisiyalarını imkan daxilində təşviq edir və özünün qanunvericiliyinə uyğun olaraq bu investisiyaların ölkədə yerləşdirilməsinə icazə verir. O, bütün hallarda həmin investisiyalara ədalətli və bərabər rejim tətbiq edir.

2. Razılığa gələn Tərəflərin hər birinin investisiyalarının digər Tərəfin ərazisində tam təhlükəsizliyi və qorunması təmin edilir. Razılığa gələn Tərəflərdən biri heç bir halda, ərazisində olan digər Tərəfin investorlarının investisiyaların idarə olunmasını, qorunmasını və ya istifadəsini, ya da ondan faydalanmasını, ya da barəsində sərəncam verilməsini zəiflədə biləcək zor və ya diskriminasiya tədbirləri həyata keçirmir.

Maddə 3

1. Razılığa gələn Tərəflərdən hər biri Razılığa gələn digər Tərəfin investorlarının artıq qəbul edilmiş investisiyalarına və investisiya gəlirlərinə münasibətdə üçüncü dövlətin investorlarının investisiyalarına və investisiya gəlirlərinə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

2. Öz qanunvericiliyinə və qaydalarına müvafiq olaraq Razılığa gələn Tərəflərdən hər biri Razılığa gələn digər Tərəfin investorlarının artıq qəbul edilmiş investisiyalarına və investisiya gəlirlərinə münasibətdə öz investorlarının investisiyalarına və investisiya gəlirlərinə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

3. Razılığa gələn Tərəflərdən hər biri Razılığa gələn digər Tərəfin investorları ilə investisiyalarının idarə olunması, qorunması, onlardan istifadə və ya faydalanma və ya barəsində sərəncam verilməsi, ya da bank ötürmələri, kompensasiyalar və ya onun ərazisində bunlarla bağlı hər hansı bir fəaliyyətlə əlaqədar investisiyalar üzərində hüquqlarının təsdiq edilməsi vasitələri ilə bağlı öz investorları və ya üçüncü dövlətin investorları üçün tətbiq etdiyi daha əlverişli rejim tətbiq edir.

4. Bu maddənin (1), (2) və (3)-cü bəndlərinin müddəaları, Razılığa gələn Tərəflərdən birinin üzvlük, assosiasiya üzvü, gömrük ittifaqı, iqtisadi birlik, ümumi bazar və ya azad ticarət zonası razılığı əsasında üçüncü dövlətin investoruna verdiyi imtiyazlara şamil edilməyəcəkdir.

5. Bu maddənin müddəaları vergi məsələlərinə tətbiq edilməyəcəkdir.

Maddə 4

1. Razılığa gələn Tərəflərin hər birinin investorlarının investisiyaları müsadirə olunmur və milliləşdirilmir, investisiyalarla bağlı və digər Razılığa gələn Tərəf müsadirə və ya milliləşdirmə təsiri edə biləcək hər hansı digər hərəkətlər etmir, Əgər istisna hal kimi bu hərəkət Razılığa gələn həmin Tərəfin dövlət mənfəətinə xidmət edirsə, onda bu hərəkətin ayrı-seçkilik xarakterli olmaması və onun ərazisində mövcud olan ümumi qanunlara uyğun olması şərtilə, əvəzində tez, münasib və effektiv kompensasiya ödənilməklə həyata keçirilə bilər.

Belə kompensasiyalar, investisiyaların faktiki müsadirə, yaxud milliləşdirmə və ya onlarla bağlı hər hansı tədbir görülməsi barədə xəbərdarlıq elan olunduğu və ya belə təh-

lükə olduğu tarixdən dərhal qabaq ekspropriasiya edilmiş investisiyanın dəyərinə bərabər olmalıdır. Kompensasiya, üzrsüz gecikmə olmasa, dərhal ödənilir və gecikdirilərsə, ödəniş zamanınadək bazardakı mövcud faizlər əsasında hesablanmış faizlər də daxil olmaqla ödənilir. Bu kompensasiya nağd pula çevrilməyə və heç bir maneəsiz xaricə ötürülməyə qabil olmalıdır. Bu cür kompensasiyanın müəyyən edilməsi və ödənilməsi üçün müsadirə, milliləşdirmə və ya oxşar hərəkət zamanı və ya əvvəl lazımi qaydada tədbir görüləcəkdir.

Hər hansı müsadirənin, ya milliləşdirilmənin və ya buna bənzər hər hansı digər hərəkətin, habelə kompensasiyanın məbləğinin qanuniliyi hüquqi qayda və qanunlara müvafiq olaraq yoxlanıla bilər.

2. Əgər Razılığa gələn Tərəflər hər hansı birinin investorlarının Razılığa gələn digər Tərəfin ərazisində investisiyaları bu ərazidə baş vermiş müharibə və ya silahlı münaqişə və ya inqilab və ya ümumi fövqəladə vəziyyət və ya qiyam səbəbindən itkilərə məruz qalarsa, bu investorlara münasibətdə Razılığa gələn sonuncu Tərəf öz investorlarına tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir. Belə ödənişlər sərbəst köçürmə yolu ilə həyata keçiriləcəkdir.

3. Bu maddənin müddəalarında göstərilmiş məsələlərlə bağlı Razılığa gələn Tərəflərin hər birinin investorları üçün Razılığa gələn digər Tərəfin ərazisində ən əlverişli rejim prinsipi tətbiq ediləcəkdir.

Maddə 5

Əgər Razılığa gələn Tərəf və ya hər hansı bir əlaqədar qurum Razılığa gələn ikinci Tərəfin ərazisində investisiya fəaliyyəti göstərən investora hər hansı investisiyalar üçün zəmanət müqabilində pul ödəyərsə, Razılığa gələn sonuncu Tərəf bu investor və ya ona tabe olan hər hansı qurum tərəfindən təqdim edilmiş hər hansı bir hüququn və ya tələbin birinci qeyd olunmuş Razılığa gələn Tərəfə, ya da onunla bağlı quruma ötürülməsini etiraf edir və tanıyır.

Maddə 6

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorlarına, investisiyalarla və Razılığa gələn digər Tərəfin ərazisində əldə etdikləri investisiya gəlirləri ilə əlaqədar ödənişlərin, xüsusilə də aşağıdakıların sərbəst köçürülməsinə zəmanət verir:

a) investisiyaların saxlanması və ya artırılması ilə bağlı əsas və əlavə məbləğlər;

b) mənfəətlər;

c) kreditlərin qaytarılması üçün ödənilən məbləğlər;

d) investisiyaların ləğvi, ya bütöv, ya da bir hissəsinin satışından daxilolmalar;

e) 4-cü maddənin mətnində nəzərdə tutulmuş kompensasiyalar.

Maddə 7

1. 4, 5 və ya 6-cı maddələrdə qeyd olunmuş köçürmələr gecikdirilmədən və köçürmə günü tətbiq edilən bazar mübadilə məzənnəsi ilə həyata keçirilir.

2. Əgər əsas kurs olmazsa, köçürülmə kursu Beynəlxalq Valyuta Fondunun valyutalara

tətbiq etdiyi əsas kurslara müvafiq olaraq götürülür və köçürülmə, investora müvafiq valyutalarda onu çıxarmaq hüququ verən hesaba edilir.

Maddə 8

Əgər bu Sazişə əlavə olaraq Razılığa gələn Tərəflərdən hər hansı birinin qanunvericiliyi və ya beynəlxalq hüquqa uyğun olaraq Razılığa gələn hər iki Tərəf arasında hazırkı öhdəliklər və ya gələcəkdə yaranacaq öhdəliklər, ümumi və ya xüsusi qaydada həmin dövlətin investorları üçün bu Sazişdə nəzərdə tutulduğundan daha əlverişli rejim qaydalarını təmin edirsə, belə halda həmin qaydalar onun daha əlverişli olduğu qeyd olunmaqla bu Sazişdən üstün tutulacaqdır.

Maddə 9

Bu Saziş həmçinin onun qüvvəyə minməsindən əvvəl Razılığa gələn hər hansı Tərəfin investorlarının Razılığa gələn digər Tərəfin ərazisində sonuncunun qanunvericiliyinə uyğun olaraq həyata keçirdiyi investisiyalara tətbiq ediləcəkdir.

Maddə 10

1. Bu Sazişin təfsiri və ya həyata keçirilməsi ilə bağlı Razılığa gələn Tərəflər arasında baş verə biləcək bütün fikir ayrılıqları bütün imkanlar daxilində Razılığa gələn hər iki Tərəfin hökumətləri tərəfindən dostcasına nizama salınır.

2. Bu yolla fikir aynlığını altı ay ərzində nizama salmaq mümkün olmasa, iş Razılığa gələn Tərəflərin birinin tələbi ilə arbitraja verilir.

3. Bu məqsədlə aşağıdakı şəkildə xüsusi arbitraj orqanı yaradılır: Razılığa gələn Tərəflərin hər biri bir üzv təyin edir, həmin iki üzv üçüncü dövlətin bir vətəndaşının onlara sədr olması barədə razılığa gəlirlər və Razılığa gələn Tərəflərin hökumətləri onu sədr təyin edirlər. İki üzv, Razılığa gələn Tərəflərdən birinin Razılığa gələn digər Tərəflə ixtilafını arbitraj heyətinə çıxarmaq niyyətini bildirdikdən sonrakı iki ay ərzində, sədr isə üç ay ərzində təyin olunur.

4. 3-cü bənddə göstərilmiş müddətlərə riayət edilmədikdə və digər razılaşmanın olmadığı təqdirdə, Razılığa gələn Tərəflərin hər birinə icazə verilir ki, Beynəlxalq Məhkəmənin sədrini dəvət etsin və o, lazımi təyinatları həyata keçirsin. Əgər bu Məhkəmənin sədri Razılığa gələn Tərəflərdən birinin vətəndaşı olarsa və ya müəyyən səbəblər üzündən bu işi yerinə yetirə bilməzsə, onun müavini həmin funksiyanı yerinə yetirir. Əgər sədrin müavini də Razılığa gələn Tərəflərdən birinin vətəndaşı olarsa və ya müəyyən səbəblər üzündən yuxanda qeyd olunmuş funksiyanı yerinə yetirə bilmirsə, Beynəlxalq Məhkəmənin dərəcə etibarilə ondan sonrakı və Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan üzvü tələb olunan təyinatları həyata keçirir.

5. Arbitraj orqanı qərarlarını səs çoxluğu ilə qəbul edir və qəbul etdiyi qərarlar qətidir və icbaridir. Razılığa gələn hər bir Tərəf onu təmsil edən üzvün xərclərini və arbitrajda işə baxılması ilə bağlı məsləhətləşmələrin haqqını ödəyir. Sədrlə və digər işlərlə bağlı xərcləri isə hər iki tərəf bərabər şəkildə ödəyir. Arbitraj orqanı xərclərlə bağlı başqa bir sistem də təqdim edə bilər. Bütün digər məsələlərlə bağlı Arbitraj məhkəməsi öz prosedurlarını müəyyən edir.

Maddə 11

1. Razılığa gələn Tərəflə, bu Tərəfin ərazisindəki investisiyalarla bağlı digər Tərəfdən olan investor arasındakı mübahisələr imkan daxilində dostcasına nizamlanır.

2. Həmin mübahisələrin həlli bu maddənin 1-ci bəndində göstərilmiş yollarla nizama salınması təklif olunan tarixdən sonrakı altı ay ərzində mümkün olmadıqda, iş investorun tələbi ilə ərazisində investisiya həyata keçirilən Razılığa gələn Tərəfin müvafiq məhkəməsinə çıxarılır və ya "Dövlətlərlə digər dövlətlərin vətəndaşları arasında investisiyalarla bağlı ixtilafların nizama salınmasına dair" 1965-ci il 18 mart Konvensiyasına uyğun olaraq Arbitraja təqdim olunur.

3. Əgər münaqişə 2-ci bəndə uyğun olaraq Razılığa gələn Tərəfin müvafiq məhkəməsinə çıxarılıbsa, investor həmin işi paralel olaraq Beynəlxalq Arbitraja çıxara bilməz. Əgər işə Arbitrajda baxılarsa, onun qərarı icra üçün icbaridir və barəsində apellyasiya verilə bilməz və ya ixtilaflar Arbitrajdan sonra qeyd olunmuş Konvensiyanın müddəalarına uyğun nizama salına bilməz və Arbitrajın qərarı milli qanunlara uyğun şəkildə yerinə yetirilir.

Maddə 12

1. Bu Saziş ratifikasiya ediləcək və ratifikasiya fərmanlarının mübadiləsi mümkün qədər tez bir zamanda həyata keçiriləcəkdir.

2. Bu Saziş ratifikasiya fərmanları mübadiləsindən otuz gün sonra qüvvəyə minir və on il müddətinə qüvvədə qalacaqdır və bundan sonra Razılığa gələn Tərəflərdən heç biri bu müddətin bitməsinə on iki ay qalmış Razılığa gələn digər Tərəfə yazılı şəkildə Sazişi ləğv etmək niyyəti barədə bildirməzsə, onun qüvvəsi qeyri-müəyyən müddətə uzadılır. On illik müddət bitdikdən sonra Razılığa gələn Tərəflərdən hər biri bu Sazişin ləğvi ilə bağlı yazılı xəbərdarlıq verməklə onu ləğv edə bilər. Saziş belə xəbərdarlığın alındığı gündən on iki ay sonra qüvvədən düşür.

3. Bu Saziş qüvvədən düşdükdən əvvəl qoyulmuş investisiyalarla bağlı bu Sazişin 1-11-ci maddələri onun qüvvədən düşməsindən sonrakı iyirmi il ərzində etibarlıdır.

Bu Saziş Ər-Riyad şəhərində 9 mart 2005-ci il tarixində, hicri təqviminə uyğun olaraq 28 məhərrəm 1426-cı il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ HÖKUMƏTİ ADINDAN

İBRAHİM ƏL-ASSAF
Maliyyə naziri

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (CITES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" Qətnaməsinə qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

I. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyanın iştirakçısı olan dövlətlərin 2002-ci il noyabrın 3-15-də Santyaqo şəhərində keçirilmiş 12-ci konfransında qəbul olunmuş "Nərə balıqlarının və avarburunların qorunmasına və onlarla ticarətə dair" 12.7 nömrəli Qətnamə ilə "Nərə balıqlarının qorunmasına dair" 10.12 nömrəli Qətnamənin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (CITES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" Qətnaməsinə qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. Qanunun adından "və həmin Konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" Qətnaməsinə" sözləri çıxarılsın.

2. 1-ci maddədən "və həmin Konvensiyanın iştirakçı dövlətlərinin 1997- ci il iyunun 9-20-də Harare şəhərində keçirilən 10-cu konfransında qəbul olunmuş "Nərə balıqlarının qorunmasına dair" 10.12 nömrəli Qətnaməsinə" sözləri çıxarılsın.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2005-ci il

№912-IIQD

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Maliyyə Xidmətlərinin İnkişafı Layihəsi) imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Maliyyə Xidmətlərinin İnkişafı Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 may 2005-ci il

№813

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) və Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında "Layihə Sazişi"ni (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) və Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında "Layihə Sazişi"ni (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2005-ci il

№815

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) arasında Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) barədə Stokholm Konvensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) arasında Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) barədə Stokholm Konvensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatına müvafiq bildiriş göndərşin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2005-ci il

№816

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentini Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2005-ci il

№817

"Azərbaycan Respublikası və Təşkilatçı və Agent qismində çıxış edən Çexiya İxrac Bankı arasında "Bakı-Rusiya Federasiyasının dövlət sərhədi avtomobil yolunun yenidən qurulması layihəsi"nin maliyyələşdirilməsinə dair Kredit Müqaviləsi"ni, "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında Azərbaycan Respublikasının müəyyən öhdəliklərinə dair Çərçivə Təminatı"nı və "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında Haqq Məktubu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Təşkilatçı və Agent qismində çıxış edən Çexiya İxrac Bankı arasında "Bakı-Rusiya Federasiyasının dövlət sərhədi avtomobil yolunun yenidən qurulması layihəsi"nin maliyyələşdirilməsinə dair Kredit Müqaviləsi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında

Azərbaycan Respublikasının müəyyən öhdəliklərinə dair Çərçivə Təminatı"m və "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında Haqq Məktubunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova və bu Sərəncamın 2-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Çexiya İxrac Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2005-ci il

№820

"Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2005-ci il

№821

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında Sa-

ziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sizişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2005-ci il

№823

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında 1997-ci il 10 iyun tarixli Sazişə əlavə və düzəlişlərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında 1997-ci il 10 iyun tarixli Sazişə əlavə və düzəlişlərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2005-ci il

№824

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırma sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırma sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2005-ci il

№825

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilməsi barədə Qazaxıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2005-ci il

№826

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəs

Mürsəl oğlu Qarayevə verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2005-ci il

№827

"Azərbaycan Respublikası Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş" üzrə Azərbaycan Respublikası tərəfindən əlaqələndirici şəxs təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimov 2004-cü il oktyabrın 26-da Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş" üzrə Azərbaycan Respublikası tərəfindən əlaqələndirici şəxs təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimovun "Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş" üzrə əlaqələndirici şəxs təyin edilməsi barədə İNTAS-ı xəbərdar etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2005-ci il

№829

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında Xaçmaz yarımstansiyası və elektrik verilişi xətti layihəsində istifadə edilməsi məqsədilə Bank adından və Bankın agenti qismində çıxış edən Azərbaycan Respublikası Hökumətinin 330/1 l0kv-luq yarımstansiyanın alınması üçün səlahiyyətləndirilməsinə və Azərbaycan Respublikası Hökumətinə satılmasına dair Müddətli Satış Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında Xaçmaz yarımstansiyası və elektrik verilişi xətti layihəsində istifadə edilməsi məqsədilə Bank adından və Bankın agenti qismində çıxış edən Azərbaycan Respublikası Hökumətinin 330/1 l0kv-luq yarımstansiyanın alınması üçün səlahiyyətləndirilməsinə və Azərbaycan Respublikası Hökumətinə satılmasına dair Müddətli Satış Sazişi" ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 may 2005-ci il

№830

Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Avropa İttifaqının "Avropa Qonşuluq Siyasəti"nə daxil olması və Azərbaycan üzrə Fəaliyyət Planının işlənib hazırlanmasına dair Avropa İttifaqı Şurasının müsbət qərarının qəbul edilməsi nəticəsində Azərbaycan Respublikasının Avropaya inteqrasiyasının keyfiyyətcə yeni mərhələyə keçdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əlaqələrinin daha da gücləndirilməsi, Avropa İttifaqının Azərbaycan üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi üzrə səmərəli və əlaqələndirilmiş işin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası aşağıdakı tərkibdə yaradılsın:

Komissiyanın sədri

Abid Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiyanın sədr müavinləri:

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Fərhad Əliyev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Əli Əsədov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Şahin Əliyev - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Novruz Məmmədov	- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri
Əli Həsənov	- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri
Mail Rəhimov	- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İqtisadi siyasət şöbəsinin müdiri
Ramil Usubov	- Azərbaycan Respublikasının daxili işlər naziri
Eldar Mahmudov	- Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri
Zakir Qaralov	- Azərbaycan Respublikasının Baş prokuroru
Fikrət Məmmədov	- Azərbaycan Respublikasının ədliyyə naziri
Ziya Məmmədov	- Azərbaycan Respublikasının nəqliyyat naziri
Misir Mərdanov	- Azərbaycan Respublikasının təhsil naziri
Məcid Kərimov	- Azərbaycan Respublikasının sənaye və energetika naziri
İsmət Abbasov	- Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Əli Nağıyev	- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Əli Abbasov	- Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri
Əbülfəs Qarayev	- Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri [1]
Samir Şərifov	- Azərbaycan Respublikasının maliyyə naziri[2]
Fazil Məmmədov	- Azərbaycan Respublikasının vergilər naziri
Hüseynqulu Bağırov	- Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Elmira Süleymanova	- Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)
Kəmalləddin Heydərov	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Elçin Quliyev	- Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Hicran Hüseynova	- Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri [3]
Rafiq Əliyev	- Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri
Arif Vəliyev	- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri
Elman Rüstəmov	- Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri
Sahib Rəhimov	- Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini

2. Dövlət Komissiyasına tapşırılsın ki:

2.1. Avropa İttifaqı ilə siyasi, iqtisadi, nəqliyyat və enerji, hüquqi, təhlükəsizlik, insan hüquqları və demokratikləşdirmə, humanitar, elm-təhsil və digər əməkdaşlıq sahələri üzrə işçi qrupların yaradılmasına dair təklifləri 1 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. görülmüş işlər barəsində mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Komissiyasının fəaliyyətinin Avropa İttifaqı ilə əlaqələndirilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə həvalə edilsin və bu məqsədlə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində müvafiq qurum yaradılsın.

4. "Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 noyabr tarixli 272 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 11, maddə 646; 2002-ci il, № 6, maddə 348, № 7, maddə 425) qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyun 2005-ci il

№834

İstifadə Olunmuş Mənbə Sənədlərin Siyahısı

1. 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 588)

2. 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 743)

3. 22 may 2007-ci il tarixli 577 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 459)

Fərmana Edilmiş Dəyişiklik və Əlavələrin Siyahısı

[1] 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 743) ilə 1-ci bəndində "gənclər, idman və turizm" sözləri "mədəniyyət və turizm" sözləri ilə əvəz edilmişdir.

[2] 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 588) ilə 1-ci bəndində "Əvəz Ələkbərov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri "Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri ilə əvəz edilmişdir.

[3] 22 may 2007-ci il tarixli 577 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 459) ilə 1-ci bəndində "Zəhra Quliyeva - Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri" sözləri "Hicran Hüseynova - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri" sözləri ilə əvəz edilmişdir.

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 965 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 965 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 372) ilə təsdiq edilmiş Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyasının tərkibinə Əli Nağıyev - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini daxil edilsin.

2. Sərəncamın 1-ci bəndində "milli təhlükəsizlik nazirinin müavini" sözləri "Dövlət Sərhəd Xidmətinin rəisi" sözləri ilə əvəz edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyun 2005-ci il

№836

"Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 966 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 966 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 373) ilə təsdiq edilmiş Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyasının tərkibinə Əli Nağıyev - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini daxil edilsin.

2. Sərəncamın 1-ci bəndində "milli təhlükəsizlik nazirinin müavini" sözləri "Dövlət Sərhəd Xidmətinin rəisi" sözləri ilə əvəz edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyun 2005-ci il

№837

2005-ci il fevralın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il fevralın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Qırmızı Xaç Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2005-ci il

№841

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol

"Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi (bundan sonra - BQXK)

BQXK nümayəndələri tərəfindən öz mandatları çərçivəsində səlahiyyətlərin həyata keçirilməsinin davam etdirilməsini arzulayaraq,

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvəsinin 2 sentyabr 2004-cü il tarixdə bitməsini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Saziş bir il müddətinə uzadılır. Əgər bu müddətin başa çatmasından bir ay əvvəl Tərəflərdən biri onun qüvvəsinin ləğv olunması barədə digər Tərəfi yazılı xəbərdar etməzsə, o, növbəti il ərzində öz qüvvəsini saxlayır.

2. Bu Protokol Sazişin tərkib hissəsidir. İki nüsxədə hər biri Azərbaycan, ingilis və rus dillərində imzalanır və bütün mətnlər eyni qüvvəyə malikdir.

3. Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının bildirişi tarixindən qüvvəyə minir.

Bakı şəhərində 18 fevral 2005-ci il tarixində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin Xalq Respublikasının İnformasiya Sənayesi Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.4. Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə Texniki Dəstəyi haqqında Memorandum;

1.5. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol;

1.6. Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Sazişi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.6-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çin Xalq Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2005-ci il

№842

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi,

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında hüquqi əməkdaşlığın qurulmasına və inkişafına mühüm əhəmiyyət verərək,

hüquq və ədliyyə sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsində hər iki dövlətin marağını qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı həyata keçirərkən aşağıdakı istiqamətlərə üstünlük verəcəklər:

1. hər iki dövlətin ədliyyə idarə və müəssisələrinin təşkili və fəaliyyəti ilə tanışlıq və bu məqsədlə Tərəflərin nümayəndə heyətlərinin mübadiləsi;

2. hüquq ədəbiyyatının və hüquq məsələlərinə dair nəşrlərin və məlumatların qarşılıqlı mübadiləsi;

3. qüvvədə olan qanunvericilik haqqında məlumat mübadiləsi;

4. hakimlərin, penitensiar sistem əməkdaşlarının və digər ədliyyə işçilərinin peşəkarlıq səviyyəsinin və hazırlığının daha da yaxşılaşdırılması üçün seminar, mühazirə, təcrübi məşğələ və digər bu kimi tədbirlərin təşkil edilməsi;

5. Tərəflərin təhsil və ekspertiza müəssisələri arasında əməkdaşlığının təşviq edilməsi.

Maddə 2

Tərəflər həmçinin ədliyyə sahəsində əməkdaşlığın inkişafına kömək edən digər razılaşmalar bağlaya bilərlər.

Maddə 3

Tərəflər əməkdaşlığın həcmini, tədbirlərin həyata keçirilməsinin maliyyə və təşkilati məsələlərini müəyyənləşdirəcəklər. Əməkdaşlıq həyata keçirilərkən ingilis dilindən istifadə ediləcəkdir.

Maddə 4

Bu Saziş üç il müddətində bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir. Tərəflər Sazişin ləğv edilməsi üçün yazılı bildiriş təqdim etmədikdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti üç il müddətinə uzadılır.

Hər bir Tərəf digər Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərməklə Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı gündən üç ay sonra öz qüvvəsini itirir.

Pekin şəhərində 17 mart 2005-ci ildə iki nüsxədə, hər biri Azərbaycan, Çin və ingilis

dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ÇJAN FUSEN*
Xarici işlər naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası,

iki ölkənin xalqları arasında əlaqələrin möhkəmləndirilməsi niyyətlərini təsdiq edərək və ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsini arzu edərək,

gənclərlə iş sahəsində sıx qarşılıqlı əlaqələrin və əməkdaşlığın, gənc nəsillər arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsinə kömək edəcəyinə və onlar arasında qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər gənclər əlaqələrinin dövlət strukturları, öz ölkələrində tanınan ictimai gənclər və uşaq təşkilatları xətti ilə möhkəmləndirilməsi və inkişafına hərtərəfli yardım edəcəklər.

Maddə 2

Tərəflər gənclər sahəsində əlaqələrin və əməkdaşlığın inkişafına aşağıdakı vasitələrlə kömək edəcəklər:

a) gənclər sahəsində fəaliyyət göstərən idarələr və təşkilatlar arasında birbaşa əməkdaşlıq, əlaqələr və qarşılıqlı mübadilə üçün şəraitin yaradılması;

b) digər tərəfin birgə gənclər tədbirləri keçirmək üçün şərait və imkanlarının öyrənilməsi və bu işdə kömək edilməsi;

c) Tərəflərin gənclər hərəkatının vəziyyəti və inkişafı haqqında məlumat mübadiləsi.

Maddə 3

Tərəflər gənclər problemləri ilə məşğul olan tədqiqat təşkilatları və ya mərkəzləri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsinə, o cümlədən qarşılıqlı maraq kəsb edən məsələlər üzrə mübadilələrin həyata keçirilməsinə kömək edəcəklər.

Maddə 4

Tərəflər bu Sazişin əhatə etdiyi sahələrdə keçirilən festival, konfrans, simpozium, seminar, müsabiqə, sərgi, görüş və forumlarda iştiraka kömək edəcəklər.

Maddə 5

Tərəflər, ilkin razılaşmaya əsasən, digər Tərəfin ərazisində olan gənclər qruplarına, gənclərin ayrı-ayrı rəsmi nümayəndələrinə zəruri olan yardımı göstərəcəklər.

Maddə 6

Tərəflər bu Sazişlə nəzərdə tutulan gənclər mübadilələrinin maliyyələşdirilməsini təmin etməyə səy göstərəcəklər. Tərəflərin nümayəndələri Sazişin müddəalarının həyata keçirilməsi və növbəti il üçün tədbirlər planı hazırlanması məqsədilə növbə ilə Bakı və Pekin şəhərlərində görüşəcəklər. Lazım gəldikdə, Tərəflər əlavə görüşlər barədə razılığa gələ bilərlər.

Maddə 7

Bu Sazişlə əhatə olunan bütün fəaliyyət növləri Tərəflərin mövcud milli qanunvericiliyinə və qaydalarına uyğun olmalı və bunlara müvafiq qaydada həyata keçirilməlidir.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir. Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Saziş Pekin şəhərində 17 mart 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, Çin və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduqda rus dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR, İDMAN VƏ TURİZM AZİRLİYİ ADINDAN	ÜMUMÇİN GƏNCLƏR FEDERASİYASI ADINDAN
ƏBÜLFƏZ QARAYEV	*XUN DEY*
Gənclər, idman və turizm naziri	*Ümumçin Gənclər Federasiyası daimi sədrinin müavini*

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin Xalq Respublikasının İnformasiya Sənayesi Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Çin Xalq Respublikasının İnformasiya Sənayesi Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) arasında aparılan danışıqlara əsasən, Tərəflər informasiya texnologiyaları sahəsində aşağıda qeyd edilən razılığa gəldilər:

1. İnformasiya və kommunikasiya sahəsində qarşılıqlı fayda üçün əməkdaşlıq etmək;

2. öz imkanları daxilində uzun məsafəli birbaşa xətlərin aktivləşdirilməsi üçün Tərəflərin kommunikasiya müəssisələrini dəstəkləmək;

3. Tərəflərin elmi və istehsalat potensiallarını gücləndirmək məqsədilə bir-biri ilə əməkdaşlıq etmək;

4. ölkələrin qanunları çərçivəsində birgə əməliyyatların və layihələrin inkişaf etdirilməsi üçün Tərəflərin müəssisələrini təşviq etmək;

5. poçt göndərişləri və sürətli poçt xidmətlərinin təmin edilməsi sahəsində əməkdaşlıq etmək;

6. Memorandumda nəzərdə tutulan müddəaları yerinə yetirmək məqsədilə Tərəflər aşağıda qeyd edilən qaydada əməkdaşlıq edəcəklər:

- əməkdaşlığın aparılması sahəsində ekspert qrupunun formalaşdırılması;
- informasiya və təcrübə mübadiləsi üçün seminar və görüşlərin təşkil edilməsi;
- təlim proqramları üçün mütəxəssislər mübadiləsi;
- qarşılıqlı maraq kəsb edən məsələlər və ümumi vəzifələr üzrə Tərəflərin bir-birini dəstəkləməsi.

7. Tərəflər Beynəlxalq Telekommunikasiya İttifaqının və Ümumdünya Poçt İttifaqının konvensiyalarına, eləcə də iki ölkənin qanunlarına və qaydalarına və digər müvafiq protokol və razılaşmalarına riayət edəcəklər.

8. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir.

9. Tərəflər arasında əvvəlcədən müvafiq danışıqlar aparılmadan bu Memoranduma heç bir əlavə və dəyişiklik edilə bilməz. Hər hansı bir Tərəf əlavə və dəyişiklik etmək niyyətində olduğu təqdirdə, həmin Tərəf digər Tərəfə yazılı formada bildiriş təqdim etməli və həmin əlavə və dəyişiklikləri bildirişin göndərildiyi gündən altmış (60) təqvim günü ərzində qüvvəyə minəcəkdir.

10. Tərəflər yaxın gələcəkdə rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması barədə razılığa gəldilər.

11. Bu Memorandum Pekin şəhərində 17 mart 2005-ci ildə Azərbaycan, Çin və ingilis dillərində imzalanmışdır, hər bir mətn eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsiri ilə bağlı hər hansı bir fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASININ İNFORMASİYA SƏNAYESİ NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VAN SYUYDUN*
Xarici işlər naziri	*İnformasiya sənayesi naziri*

Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə texniki dəstəyi haqqında Memorandum

İki ölkənin Xarici İşlər Nazirlikləri arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi və

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi aşağıdakılar barədə razılığa gəldilər:

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xahişi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin binasında yerləşən liftlərin təmir işləri üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə altmış beş min ABŞ dolları həcmində maliyyə yardımı təqdim edir. Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi işin mahiyyətinə aid olan məsələləri ayrıca razılaşdıracaqdır.

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və hər iki ölkənin Xarici İşlər Nazirlikləri tərəfindən bu Memorandumda nəzərdə tutulan bütün öhdəliklər yerinə yetirilənə qədər qüvvədə qalacaqdır.

Bu Memorandum Pekin şəhərində 17 mart 2005-ci ildə Azərbaycan və Çin dillərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*DAY BİNQO*
Xarici işlər naziri	*Xarici işlər nazirinin müavini*

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) 7 mart 1994-cü ildə Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Mədəni Əməkdaşlığa dair Saziş"in 2-ci maddəsinə uyğun olaraq, Azərbaycan və Çin xalqları arasında mədəniyyət və dostluq əlaqələrini inkişaf etdirmək məqsədilə qarşılıqlı olaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər mədəniyyət və incəsənət sahəsində daha səmərəli və təsirli əməkdaşlıq etmək məqsədilə əlverişli şərait yaratmağı öhdələrinə götürürlər.

Maddə 2

Tərəflər qarşılıqlı olaraq mədəniyyət və incəsənət işçilərinin, musiqi və rəqs qruplarının qastrol səfərlərini təşkil edəcək, muzey eksponatları, rəsm və fotoşəkillərdən ibarət sərgilərin və kino günlərinin mübadiləsini aparacaq, həmçinin Azərbaycan Respublikasında və Çin Xalq Respublikasında keçiriləcək beynəlxalq festivallar, müsabiqələr, konfranslar və digər mədəniyyət tədbirlərində onların iştirakına şərait yaradacaqlar.

Maddə 3

Protokolun qüvvədə olduğu müddət ərzində Tərəflər qarşılıqlı əsasda təmənnasız olaraq hər iki Tərəf üçün münasib vaxtda incəsənət qruplarının mübadiləsini aparmağa razılaşırlar.

Maddə 4

Peşəkar səviyyədə əlaqələr yaratmaq məqsədilə Tərəflər 3-5 nəfərdən ibarət mədəniyyət və incəsənət işçilərinin mübadiləsini təşkil edəcəklər.

Maddə 5

Protokolun qüvvədə olduğu müddət ərzində Tərəflər qarşılıqlı olaraq Çin Xalq Respublikasında Azərbaycan Mədəniyyəti Günləri və Azərbaycan Respublikasında Çin Mədəniyyəti Günlərinin təşkilini öhdələrinə götürürlər. Mədəniyyət Günlərinin keçirilmə şərtləri digər kanallar vasitəsilə müəyyən ediləcəkdir.

Maddə 6

Tərəflər işgüzarlıq prinsipləri əsasında birgə proqramlar, layihələr və mədəniyyət tədbirləri işləyib hazırlamağa və həyata keçirməyə razılaşdılar.

Maddə 7

Protokolun qüvvədə olduğu müddət ərzində Tərəflər hər iki ölkənin kitabxanaları və muzeyləri arasında birbaşa əlaqələri genişləndirəcək, habelə ədəbiyyat və mütəxəssis mübadiləsini təmin edəcəklər.

Maddə 8

Tərəflər tanınmış mədəniyyət və incəsənət işçiləri haqqında, həmçinin ən müasir texniki nailiyyətlər barədə məlumat mübadiləsini təmin edəcəklər.

Maddə 9

Protokolun qüvvədə olduğu müddət ərzində Tərəflər onun məqsədlərinə uyğun gələn digər tədbirlər keçirə bilərlər.

Maddə 10

Nümayəndələrin, incəsənət qruplarının və sərgilərin mübadiləsi zamanı göndərən Tərəf ən azı 2 ay öncə gəlmə vaxtı, giriş məntəqəsi və nəqliyyat növü haqqında məlumat verəcəklər.

Maddə 11

Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

göndərən Tərəf nümayəndə heyətinə daxil olan şəxslərin, incəsənət qrupları üzvlərinin, sərgini müşayiət edən şəxslərin gediş-gəliş xərclərini, nəqliyyat, baqaj və səhnə avadanlığı, eləcə də reklam materialları və kataloqların xərclərini ödəyəcəkdir. Qəbul edən Tərəf baqaj və səhnə avadanlığının nəql edilməsini, sığortalanmanı, ərazisi daxilində təhlükəsizliyi, reklam xarakterli xidmətləri, sərgilərin quraşdırılması və demontajını, nümayəndə üzvlərinin mehmanxana, yemək və nəqliyyat xərclərinin ödənilməsini, onların tərcüməçilərlə müşayiət olunmasını təmin edəcək, mədəniyyət tədbirlərini keçirəcək, lazım gəldikdə, qarşılıqlı əsasda tibbi xidmət və gündəlik xərclərlə təmin edəcəkdir.

Maddə 12

Bu Protokol imzalandığı gündən qüvvəyə minir və 31 dekabr 2009-cu il tarixinə qədər qüvvədə qalır. Bu Protokol Pekin şəhərində 17 mart 2005-ci ildə iki əsl nüsxədə Azərbaycan, Çin və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Anlaşılmazlıq olduğu təqdirdə ingilis mətninə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ADINDAN
POLAD BÜLBÜLOĞLU	*SUN SZYAÇJEN*
Mədəniyyət naziri	*Mədəniyyət naziri*

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Saziş

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti, Şirkətin sədri Nizami Xudiyevin şəxsində və Çin Mərkəzi Televiziyası, Televiziyanın prezidenti cənab Zhao Huayongun şəxsində, televiziya sahəsində əməkdaşlıq əlaqələrini qurmaq niyyətini ifadə edirlər.

Bu məqsədlə Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası (bundan sonra "Tərəflər" adlandırılacaq) aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, qeyri-kommersiya əsasında, hər hansı bir Tərəfin xahişi və ya təşəbbüsü ilə müəllif hüquqlarından azad olduğu həcmdə və mümkün olan qədər təmənnasız şəkildə televiziya proqramlarına aid olan kataloq və məlumat mübadiləsinin aparılmasını təmin edəcəklər.

Proqram və materiallar kommersiya və qeyri-kommersiya əsasında, öncədən Tərəflər arasındakı razılaşmaya uyğun olaraq təklif ediləcək.

Tərəflər, proqramlar təklif olunduqda, yazılı şəkildə bu şərtləri müəyyən etmək hüququnu özlərində saxlayırlar.

Maddə 2

Kommersiya və qeyri-kommersiya yolu ilə mübadilə edilən proqramlar aşağıdakı kateqoriyalarda göstərilir:

- Xəbərləri qəbul edən Tərəf üçün azad hüquqlu proqramlar.
- Nümayiş hüquqları müəyyənləşmiş proqramlar: sənədli filmlər, musiqili və əyləncəli proqramlar, bədii filmlər, seriallar və uşaq proqramları.
- Nümayiş hüquqları alınacaq proqramlar: Göndərən Tərəflə razılaşdırılmalı olan, müstəsna hüquqlara görə mümkün əlavə xərclər nəzərə alınmaqla xüsusi idman tədbirlərinin verilişi.

Göndərən Tərəf köçürmə və göndərmə xərclərini ödəyəcək, göndərilən proqramların

ingilis və fransız dillərində mətnlərini əlavə edəcək.

Proqramların kommersiya əsasında ötürülməsi və yayımlanması şərtləri hər dəfə ayrıca sənədlərlə müəyyənləşdiriləcək.

Maddə 3

Tərəflər öz televiziya cədvəlinin tələblərinə uyğun olaraq proqram və materiallardan öz ölkələri daxilində istifadə edə bilərlər.

Qəbul edən Tərəf, göndərən Tərəfin əvvəlcədən razılığı ilə, proqramın orijinal məzmununa və ya dəyərinə xələl gətirmədən təklif edilən proqramda redaktə işləri apara bilər.

Tərəflərin qəbul etdikləri proqramları üçüncü Tərəfə satmaq və ya təklif etmək hüquqları yoxdur.

Maddə 4

Tərəflər, aşağıdakı şərtlər əsasında, qarşılıqlı olaraq televiziya ekspertlərinin mübadiləsini aparacaqlar:

kommersiya əsaslı mübadilə;

Tərəflər üçün qarşılılıq əsasında nümayəndə heyətinin mübadiləsi. Bu halda göndərən Tərəf qəbul edən ölkənin paytaxtına qədər beynəlxalq səfər etməsi üçün nəqliyyat xərclərini öz üzərinə götürür. Qəbul edən Tərəf mehmanxana, iaşə xidmətləri, tərcüməçi və daxili nəqliyyat xərclərini öz üzərinə götürəcək.

Maddə 5

Tərəflər proqramların hazırlanmasında televiziya yaradıcı qruplarına və jurnalistlərə lazımi kömək göstərəcəklər.

Kommersiya əsasında göstərilən xidmətlərə görə qəbul edən Tərəf xərclərlə bağlı fakturaları, CİRAP - EBU tariflərinə uyğun olaraq, göndərən Tərəfə təqdim edəcək; belə fakturalar qəbul edildiyi tarixdən 15 gün ərzində ödənilməlidir.

Xidmət xərclərini Tərəflər öncədən razılaşdıracaqlar.

Maddə 6

Göndərən Tərəf digər Tərəfə öz nümayəndələrinin gəlişi, onların gündəliyi və hərəkət marşrutu, habelə texniki tələbləri haqqında nəzərdə tutulmuş tarixə ən azı bir ay qalmış məlumat verməlidir.

Bu vaxt məhdudiyyəti rəsmi səfərlərə, siyasi tədbirlərə aid deyildir.

Maddə 7

Tərəflər digər Tərəfin xahişi və qarşılıqlı əsasda biri digərinə ölkəsində film çəkən yaradıcı qruplara və jurnalistlərə ödənişsiz əsaslarla qarşılıqlı surətdə maddi-texniki dəstək verəcək və bunun şərtləri əvvəlcədən razılaşdırılacaq. Bu cür işbirliyinin müddəti ildə 15 iş günündən artıq olmamalıdır.

Maddə 8

Tərəflər ümumi maraqlara cavab verən mövzulara dair müştərək proqramların hazırlanması mümkünlüyünü nəzərə alacaqlar.

Müştərək proqramların xüsusi şərtləri və aspektləri ayrıca razılaşmalar əsasında müəyyənləşdiriləcək.

Maddə 9

Bu Sazişdə nəzərdə tutulmayan hallar baş verdikdə, Tərəflər məsləhətləşmələr yolu ilə dostcasına razılığa gəlmək üçün bütün lazımi səyləri göstərəcəklər.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 3 illik müddət ərzində qüvvədə qalır. Sazişin bitməsinə ən azı 3 ay qalmış Tərəflərdən biri bu Sazişi ləğv etmək və ya onun hər hansı hissəsini yenidən nəzərdən keçirmək niyyətini bildirmədiyi təqdirdə Saziş avtomatik olaraq daha 3 il müddətində qüvvədə qalır. Sazişin müddəti avtomatik olaraq yalnız bir dəfə uzadıla bilər. Avtomatik uzadılma müddətinin başa çatmasından sonra Saziş öz qüvvəsini itirir.

Bu Saziş Pekin şəhərində 17 mart 2005-ci ildə iki əsl nüsxədə Azərbaycan, Çin və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Anlaşılmazlıq olduğu təqdirdə ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TELERADİO VERİŞLƏRİ ŞİRKƏTİ ADINDAN

NİZAMİ XUDİYEV
Teleradio şirkətinin sədri

ÇİN MƏRKƏZİ TELEVİZİYASI ADINDAN

ÇJAO HUAYON
Mərkəzi televiziyasının prezidenti

2005-ci il aprelin 4-də Məsqət şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il aprelin 4-də Məsqət şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2005-ci il

№843

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

iki ölkə arasında mövcud olan ənənəvi dostluq əlaqələrinin və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsini təşviq edərək,

müştərək maraqlar, qarşılıqlı anlaşma, suveren bərabərliyə hörmət və daxili işlərə qarışmamaq prinsipləri əsasında qurulmuş ikitərəfli münasibətlərin gücləndirilməsi və inkişaf etdirilməsini arzulayaraq,

ikitərəfli münasibətlərə və qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlərə dair mütəmadi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ikitərəfli əlaqələrin bütün sahələrini müzakirə etmək və müştərək təşəbbüslərin irəli sürülməsi imkanları ilə bağlı, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparmaq məqsədilə məsləhətləşmələr keçirəcəklər.

Maddə 2

İkitərəfli məsləhətləşmələr hər iki Tərəfin razılığı ilə *siyasi, iqtisadi, elmi, texnoloji,* mədəniyyət və digər əməkdaşlıq sahələrini əhatə etməlidir.

Maddə 3

Bu Anlaşma Memorandumu çərçivəsində keçiriləcək məsləhətləşmələr Tərəflərdən birinin xahişi və ya beynəlxalq konfranslar çərçivəsində hər iki ölkənin ikitərəfli münasibətləri üzrə məsul rəsmilərinin səviyyəsində keçirilməlidir. Məsləhətləşmələrin keçirilmə tarixi, iş qrafiki və yeri diplomatik kanallar vasitəsilə müəyyən ediləcəkdir.

Maddə 4

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir, beş il ərzində qüvvədə qalır və hər iki Tərəfdən biri beş illik müddətin başa çatmasına altı ay qalmış digər Tərəfi bu Memorandumu ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumatlandırmazsa, Memorandum növbəti beş illik müddətə uzadılır.

Məsqət şəhərində 2005-ci ilin aprel ayının 4-cü günü iki nüsxədə, hər bir nüsxə eyni qüvvəyə malik olmaqla, Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

(imza)

OMAN SULTANLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

(imza)

2005-ci il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Yunanıstan Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2005-ci il

№844

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında turizm münasibətlərini yaxşılaşdırmaq və iki ölkənin müvafiq turizm hakimiyyəti orqanları arasında əməkdaşlığı təşviq etmək niyyətində olaraq,

onların turizm sahəsində əməkdaşlığının qarşılıqlı faydalı olacağını hesab edərək,

Helsinkidə 1 avqust 1975-ci il tarixində imzalanmış Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Yekun Aktına daxil olan Avropada turizmin təşviqinə dair prinsip və tövsiyələrdən ruhlanaraq,

Romada 21 avqust - 5 sentyabr 1963-cü il tarixdə keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Səyahət və Turizm Konfransının tövsiyələrinin ruhuna uyğun hərəkət edərək,

onların xalqları arasında turizm münasibətlərinin inkişafının qarşılıqlı bilgi və anlaşma üçün əhəmiyyətini qiymətləndirərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər öz milli qanunvericiliyinə və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında turist axınını artırmaq məqsədilə, iki ölkə arasında səyahətə mümkün olduğu qədər yardım etməyə çalışacaqlar.

Maddə 2

Razılığa gələn Tərəflər öz müvafiq qanunvericiliyinə və qaydalarına uyğun olaraq, məlumat mübadiləsi, təbliğat və təşviqedici materiallar vasitəsilə qarşılıqlı turizmin təşviqini dəstəkləyəcəklər. Bu məqsədlə onlar, həmçinin Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində təşkil olunan turizm yarmarkalarında, sərgilərində və digər turizm tədbirlərində iştirakı və səyahət jurnalistlərinin və digər kütləvi informasiya vasitələri nümayəndələrinin mübadiləsi imkanını nəzərdən keçirəcəklər.

Maddə 3

Razılığa gələn Tərəflər iki ölkə arasında turist hərəkatının və yeni turist marşrutlarının inkişaf etdirilməsi üçün istənilən mümkün səyləri göstərəcək və bu məqsədlə onlar öz səyahət agentlikləri, həmçinin turizm sahəsində fəaliyyət göstərən digər firma və təşkilatlar arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər turizmin planlaşdırılması və maliyyələşdirilməsi sahəsində, öz turizm infrastrukturunun saxlanması və inkişaf etdirilməsində və turist qurğularının fəaliyyət göstərməsində, həmçinin turizm sektorunda birgə müəssisələrin və digər sərmayə layihələrinin təsis edilməsində təcrübə və nou-haunun mübadiləsini öz milli qanunvericiliyinə uyğun olaraq dəstəkləyəcəklər. Bu məqsədlə onlar öz milli qanunvericiliyinin təmin etdiyi turizm sərmayələri üçün təşviqlər, həmçinin hər iki ölkədə belə sərmayələr üçün mövcud olan imkanlar barədə müntəzəm olaraq bir-birinə məlumat verəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər özlərinin beynəlxalq turizm təşkilatlarında iştirakı da daxil olmaqla, beynəlxalq turizm sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi edəcəklər.

Maddə 6

Bu Sazişin həyata keçirilməsi məqsədilə Birgə Komissiya yaradılacaqdır.

Birgə Komissiya hər bir ölkənin səlahiyyətli nümayəndələrindən ibarət olacaqdır.

Komissiyanın iclasları növbə ilə hər bir ölkədə Razılığa gələn Tərəflərin razılaşdırdığı vaxtda keçiriləcəkdir.

Maddə 7

Bu Sazişin tətbiq edilməsində Yunanıstan Respublikası özünün Avropa İttifaqında üzvlüyündən irəli gələn öhdəliklərinə hörmət edəcəkdir.

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə məlumat verdikləri tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş 5 il müddətində qüvvədə olacaq və bundan sonra, hər bir müddətin bitməsindən ən azı altı (6) ay əvvəl Razılığa gələn Tərəflərdən birinin diplomatik kanallar vasitəsilə bildirişi ilə ləğv edilməzsə, avtomatik olaraq əlavə beş (5) illik müddətlərə uzadılacaqdır.

Bakı şəhərində 07 aprel 2005-ci il tarixdə iki əsl nüsxədə Azərbaycan, yunan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏZ QARAYEV	*DİMİTRİS AVRAMOPULOS*
Gənclər, idman və turizm naziri	*Turizm naziri*

"Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə"nin nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il noyabrın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyun 2005-ci il

№846

Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti, Roma şəhərində 25 sentyabr 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyannamə"ni nəzərə alaraq, həmçinin "Azərbaycan-İtaliya İqtisadi, Sənaye və Maliyyə Əməkdaşlığı Şurası" adlandırılan məşvərət forumunun təsis olunması vasitəsilə ikitərəfli iqtisadi münasibətlərin inkişafını gücləndirmək niyyətindədirlər.

Bu Forum Azərbaycan və İtaliya arasında iqtisadi, ticari, sənaye və maliyyə münasibətlərinin inkişafına diqqət yetirəcəkdir.

Şuraya Azərbaycan tərəfindən bu məqsədlə təyin olunacaq səlahiyyətli şəxs və İtaliya tərəfindən Xarici İşlər üzrə Dövlət katibinin müavini və ya Hökumət tərəfindən irəli sürüləcək İtaliya Hökumətinin digər təmsilçisi həmsədrlik edəcək. Şuranın görüşlərində səlahiyyətli dövlət orqanlarının nümayəndələri və zəruri olduğu təqdirdə hər bir Tərəfin seçdiyi mütəxəssislər iştirak edəcəklər.

Zəruri olduğu təqdirdə, Şura prinsip etibarilə hər bir Dövlətin paytaxtında, Tərəflər arasında diplomatik kanallar vasitəsilə fərdi əsasda razılaşdırılan vaxt cədvəlinə və prosedurlara uyğun olaraq toplaşa bilər və bu məsləhətləşmənin nəticələrinə dair yekun sə-

nəd hazırlana bilər.

İkitərəfli iqtisadi inkişafı gücləndirmək məqsədilə, zəruri olduqda, işçi qruplarının yaradılması da daxil olmaqla, əməkdaşlığın digər formaları təsis oluna bilər.

Bakı şəhərində 25 noyabr 2004-cü il tarixində hər biri Azərbaycan, italyan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Təfsirində fikir ayrılığı yarandıqda ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*MARQARİTA BONİVER*
İqtisadi inkişaf naziri	*Xarici işlər nazirinin müavini*

Azərbaycan Respublikasını təmsil edən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Kreditanştalt für Viderauf-bau (KfW) Bankı arasında "Tədqiqatlar və Mütəxəssislər Fondu-III" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini, həmin Müqavilə üzrə Xüsusi Razılaşmanı və Hə-valə Müqaviləsini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respub-likası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasını təmsil edən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Kreditanştalt für Videraufbau (KfW) Bankı arasında "Tədqiqatlar və Mütəxəssislər Fondu-III" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini, həmin Müqavilə üzrə Xüsusi Razılaşmanı və Həvalə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 iyun 2005-ci il

№849

"Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Xorvatiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 iyun 2005-ci il

№850

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№928-IIQ

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Birgə Bəyannamə

Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Xu Tzintaonun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev 2005-ci il 17 mart tarixindən 19 mart tarixinə qədər Çin Xalq Respublikasında dövlət səfərində olmuşdur.

1. Tərəflər sülh və inkişafın dövrün əsas amalı olaraq qaldığını və bütün dünya xalqlarının ümumi arzusu olduğunu qeyd edirlər. Beynəlxalq ictimaiyyət məsləhətləşmələri fəallaşdırmalı, dünya müxtəlifliyini qorumalı və istər müxtəlif sivilizasiyalar, istərsə də inkişaf modelləri arasında qarşılıqlı faydalanmaya kömək etməlidirlər. Tərəflər BMT Nizamnaməsi və beynəlxalq hüququn hamılıqla tanınmış normaları əsasında dinc, sabit, ədalətli və səmərəli yeni beynəlxalq siyasi və iqtisadi qaydanın yaradılmasına tərəfdardır, bütün dünyada sülh və təhlükəsizliyin müdafiə edilməsində, habelə ümumi inkişafa yardım edilməsində BMT-nin nüfuzunun möhkəmlənməsini və onun aparıcı rolunu dəstəkləyir və dünyanın müxtəlif inkişaf modellərinin həyata keçirilməsinə kömək edirlər.

2. Tərəflər birgə səylər sayəsində Azərbaycan-Çin münasibətlərinin siyasi, iqtisadı və mədəni əsaslarının daha da möhkəmləndiyini məmnunluqla vurğulayırlar. Azərbaycan və Çin ənənəvi dostluq münasibətlərini möhkəmləndirməyə, daha müxtəlif sahələrdə mübadiləsəri genişləndirməyə, beynəlxalq məsələlər üzrə əməkdaşlığı fəallaşdırmağa və bütün dünyada sülh və sabitliyin təmin olunmasına səy göstərməyə hazırdırlar.

3. Tərəflər hər iki ölkənin dövlət rəhbərləri arasında səfər mübadiləsinin və yüksək səviyyədə görüşlərin keçirilməsinin mühüm əhəmiyyətini qeyd edərək, bu ənənənin dəstəklənməsi, hər iki ölkə arasında siyasi və iqtisadi əlaqələri və qarşılıqlı fəaliyyəti inkişaf etdirmək məqsədilə istər dövlət, hökumət və parlament rəhbərləri, istərsə də nazirlik və idarə rəhbərləri səviyyəsində ikitərəfli dialoq və məsləhətləşmələrin davam etdirilməsi zərurətini bəyan edirlər. Tərəflər 7 mart 1994-cü il tarixli "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Dostluq Münasibətlərinin Əsasları haqqında Birgə Bəyanat"ın müddəalarını rəhbər tutaraq, ikitərəfli əməkdaşlığın bütün sahələrində müqavilə-hüquq bazasının genişləndirilməsi və təkmilləşdirilməsinə səy göstərəcəklər.

4. Tərəflər hər iki ölkənin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmaq məqsədilə ticari-iqtisadi əməkdaşlıq potensialını üzə çıxarmaq üçün hər iki ölkənin hökumətlərinin fəal tədbirlər görməli olduqları fikrində həmrəydirlər.

Tərəflər neft, neft-kimya sənayesi, yüngül sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat, telekommunikasiya və infrastrukturun digər sahələrində hər iki ölkənin müəssisələri arasında bərabərlik və qarşılıqlı fayda əsasında əməkdaşlığın genişləndirilməsini təşviq edir və dəstəkləyirlər. Ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Çin Hökumətlərarası Komissiyası bu prosesdə fəal rol oynayacaqdır. Çin tərəfi Azərbaycan tərəfinin Çinin qərb regionlarının irimiqyaslı inkişafında iştirak etməsini alqışlayır.

5. Çin tərəfi Azərbaycanın müstəqilliyinin bərpa edildiyi gündən cəmiyyətdə sabitliyin təmin edilməsində və iqtisadiyyatın dinamik inkişafında əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir. Çin tərəfi son illər ərzində ikitərəfli ticari-iqtisadi əməkdaşlığın nəticələrindən məmnunluğunu ifadə edir. Çin Azərbaycanın yaxın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına qəbul olunmasını dəstəkləyir və bunun ÜTT-nin universallıq və təmsilçilik səviyyəsinin artmasına, çoxtərəfli ticarət mexanizminin təsirinin genişlənməsinə və ümumi qaydalar əsasında Azərbaycan və Çin arasında əməkdaşlığın inkişaf etdirilməsinə yardım edəcəyinə əmindir. Azərbaycan islahat və açıqlıq siyasətinin aparıldığı illər ərzində Çinin əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir və onun tam bazar iqtisadiyyatlı dövlət statusunu tanıyır. Çin tərəfi ölkənin sosial-iqtisadi inkişafının təşviqi işində Azərbaycan tərəfinin səylərini gələcəkdə də dəstəkləməyə hazır olduğunu ifadə edir.

6. Tərəflər Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizi layihəsinin inkişafı naminə iki ölkə arasında nəqliyyat və bütün növ yük daşımaları istiqamətində həm regional çərçivədə, həm də ikitərəfli formatda əməkdaşlığın gücləndirilməsini zəruri hesab edirlər.

Tərəflər Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə Sosial- İqtisadi Təşkilatı çərçivəsində, "Asiya avtomobil yolları şəbəkəsi haqqında Hökumətlərarası Saziş"ə uyğun olaraq, habelə Trans-Asiya nəqliyyat layihəsi çərçivəsində nəqliyyat sahəsində yeni layihələrin işlənib hazırlanması və həyata keçirilməsi üçün ölkələrinin aidiyyəti qurumları arasında sıx əməkdaşlığı təşviq edəcəklər.

7. Tərəflər humanitar sahədə əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsinə kömək edəcək, mədəniyyət, elm, təhsil, turizm, idman və informasiya sahəsində mübadiləsi fəallaşdıracaqlar. Tərəflər bütün imzalanmış razılaşmaları, müxtəlif növ gənclər və tələbə mübadiləsini, dillərin tanıtdırılmasını, mütəxəssislərin hazırlanmasını lazımi qaydada həyata keçirmək, ali elmi müəssisələr və elmi tədqiqat institutları arasında birbaşa təmasları təşviq etmək, regionlararası əlaqələrə və ictimai əsaslarda əlaqələrə kömək etmək niyyətindədirlər. Tərəflər bank-maliyyə sahəsində əməkdaşlığın inkişafı və birgə investisiya layihələrinin gerçəkləşməsi üçün birgə səylər göstərəcəklər. Tərəflər ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa başlayacaq və onu inkişaf etdirəcəklər. Tərəflər hərbi sahədə hər iki ölkənin təhlükəsizliyinin təmini maraqlarına cavab verən və üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərinə zidd olmayan əməkdaşlığı və əlaqələri həyata keçirəcək və inkişaf etdirəcəklər.

8. Tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq çərçivəsində BMT və onun müxtəlif strukturları, habelə digər beynəlxalq və regional təşkilatların fəaliyyətində öz aralarındakı qarşılıqlı fəaliyyəti müsbət qiymətləndirirlər. Tərəflər qarşılıqlı maraq doğuran ikitərəfli, beynəlxalq və regional məsələlər üzrə məsləhətləşmələri gələcəkdə də fəallaşdırmağa hazır olduqlarını təsdiq edirlər.

9. Azərbaycan tərəfi təsdiq edir ki, dünyada yalnız bir Çin var, Çin Xalq Respublikasının Hökuməti Çini təmsil edən yeganə qanuni dövlətdir, Tayvan isə Çin ərazisinin ayrılmaz hissəsidir. Azərbaycan tərəfi Tayvanla hər hansı bir formada rəsmi münasibətlər qurmamağa, onunla hər hansı rəsmi xarakterli təmaslarda olmamağa sadiq olduğunu təsdiq edir, hər hansı bir formada olmasından asılı olmayaraq, "iki Çin" və ya "bir Çin, bir Tayvan"ın yaradılması səylərinə, "müstəqil Tayvan"a qarşı çıxış edir. Azərbaycan tərəfi "Tayvanın müstəqilliyi" separatçı qüvvələrinin qarşısının alınması və onlara qarşı cavab tədbirlərinin görülməsində, "Ümumçin Xalq Nümayəndələri Yığıncağı"nın qəbul etdiyi "Separatçılıq əleyhinə Qanun"da daxil olmaqla, Tayvan boğazı rayonunda və ümumilikdə Asiya-Sakit Okean regionunda sülh və sabitliyin təmin edilməsində və möhkəmlənməsində Çinin səylərini dərk edir və dəstəkləyir. Çin tərəfi Azərbaycan tərəfinin bu mövqeyini yüksək qiymətləndirir.

10. Tərəflər mövcud və daim artmaqda olan terrorizmin, separatizmin və ekstremizmin yalnız suveren dövlətlərin təhlükəsizliyinə deyil, eyni zamanda bütün dünyada sülh və sabitliyə ciddi təhlükə törətdiyini vurğulayırlar. Belə təhlükələrin səmərəli şəkildə qarşısının alınması yalnız birgə səylər əsasında birgə fəaliyyətlə mümkündür.

Tərəflər beynəlxalq terrorizm, narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi, qaçaqmalçılıq, pulların leqallaşdırılması, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri ilə mübarizənin aparılması da daxil olmaqla, yeni qlobal çağırış və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı dəstəkləyirlər.

Tərəflər terrorizmin, separatizmin, ekstremizmin hər cür təzahürünü pisləyir, onlara qarşı qətiyyətlə çıxış edir və BMT Nizamnaməsi və digər müvafiq beynəlxalq antiterrorçuluq razılaşmaları çərçivəsində onlara qarşı mübarizədə əməkdaşlığı möhkəmləndirməyə, bununla yanaşı hər iki ölkənin müvafiq orqanları arasında qarşılıqlı fəaliyyəti dəstəkləməyə hazır olduqlarını bildirirlər.

11. Çin tərəfi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə dəstək ver-

diyini təsdiqləyir və BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair müvafiq qətnamələrinə əməl edilməsinə çağırır, bu münaqişənin sülh yolu ilə həll edilməsinə tərəfdar olduğunu bildirir, habelə beynəlxalq ictimaiyyətin bu istiqamətdə göstərdiyi səyləri dəstəkləyir.

12. Hər iki tərəf insan hüquqları sahəsində beynəlxalq dialoqun və əməkdaşlığın inkişaf etdirilməsinə çağırır, beynəlxalq siyasətdə ikili standartlara qarşı çıxış edir. Tərəflər həmçinin, insan hüquqları məsələlərində məsləhətləşmələr və fikir mübadiləsi vasitəsilə qarşılıqlı anlaşmanın dərinləşməsinə, ikitərəfli münasibətlərin birlikdə inkişaf etdirilməsi və insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq işin sağlam şəkildə inkişaf etdirilməsinə kömək məqsədilə həmin məsələ üzrə çoxtərəfli formatda qarşılıqlı dəstəyin və əməkdaşlığın möhkəmlənməsinə səy göstərəcəklər.

13. Səfər çərçivəsində Tərəflər arasında aşağıdakı sənədlər imzalanmışdır:

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında Müqavilə; Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə texniki dəstəyi haqqında Memorandum; Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş; Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş; Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Saziş; Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikası Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol; Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş; Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Sazişi; Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin Xalq Respublikasının İnformasiya Sənayesi Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu; Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi ilə Çin Olimpiya Komitəsi arasında Texniki və İdman Əməkdaşlığı haqqında Saziş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Çin Xalq Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş.

14. Tərəflər Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasındakı dostyana əməkdaşlığın dəstəklənməsi və inkişaf etdirilməsinin üçüncü ölkələrə qarşı yönəlmədiyini və onların maraqlarına xələl gətirməyəcəyini bəyan edirlər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
İLHAM ƏLİYEV	*XU TZİNTAO*

"Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında" 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№929-IIQ

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında Müqavilə

Azərbaycan Respublikası və Çin Xalq Respublikası (bundan sonra "Tərəflər" adlandırılacaq),

suverenlik, bərabərlik və qarşılıqlı fayda əsasında iki dövlət arasında cinayətkarlığın qarşısının alınmasında əməkdaşlığın səmərəliliyinin təşviq edilməsini arzulayaraq, bu Müqaviləni bağlamağı qərara alaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təslim etmə öhdəliyi

Tərəflərin hər biri bu Müqavilənin müddəalarına uyğun olaraq, digər Tərəfin sorğusuna əsasən, öz ərazisində olan və digər Tərəfin axtarışında olan şəxslər barəsində cinayət təqibini həyata keçirmək və ya çıxarılmış məhkəmə qərarının icrası məqsədilə bir-birinə təslim etmək öhdəliyini öz üzərinə götürür.

Maddə 2

Təslimə əsas olan cinayətlər

1. Təslim etməyə səbəb olan əməl hər iki Tərəfin qanunvericiliyinə əsasən cinayət hesab olunmadıqda və aşağıdakı şərtlərdən birinə cavab vermədikdə, təslim etməyə yol verilmir:

(a) təslim etmə sorğusu cinayət təqibinin aparılmasına yönəldikdə, cinayət hər iki Tərəfin qanunvericiliyi ilə bir il müddətindən artıq azadlıqdan məhrum etmə cəzasını və ya hər hansı digər daha ağır cəzanı nəzərdə tutduqda, və ya

(b) təslim etmə sorğusu verilən cəzanın icrasına yönəldikdə, axtarılan şəxs tərəfindən çəkilməli olduğu cəzanın müddəti təslim etmə sorğusunun edildiyi tarixdə ən azı altı ay təşkil etdikdə.

2. Əməl bu maddənin 1-ci bəndinə uyğun olaraq hər iki Tərəfin qanunvericiliyinə əsasən cinayət kimi müəyyən edilərkən, həmin əməlin Tərəflərin qanunvericiliyi ilə eyni

cinayət kateqoriyasında yerləşdirilməsi və eyni terminologiya ilə adlandırılması əhəmiyyət kəsb etmir.

3. Əgər təslim etmə sorğusu hər iki Tərəfin qanunvericiliyi ilə cinayət hesab olunan iki və ya daha çox əmələ aiddirsə və onlardan biri ən azı bu maddənin 1-ci bəndində nəzərdə tutulan cəza müddətinin şərtlərinə cavab verirsə, Sorğu edilən Tərəf bütün bu əməllər üzrə təslim etməyə yol verə bilər.

Maddə 3

Təslim etmədən imtinanın qəti əsasları

Təslim etmədən aşağıdakı hallarda imtina edilir:

(a) Sorğu edilən Tərəf təslim etmə ilə bağlı sorğu edilən cinayəti siyasi cinayət hesab etdikdə və ya Sorğu edilən Tərəf axtarılan şəxsə sığınacaq verdikdə;

(b) təslim etmə sorğusu, axtarılan şəxsə qarşı irqinə, cinsinə, dininə, milliyyətinə və ya siyasi baxışlarına görə təqibin və ya cəzanın icrasına məruz qalması, yaxud bu səbəblərə görə məhkəmə araşdırmaları zamanı həmin şəxsin vəziyyətinə xələl gətirmək məqsədilə edilməsini güman etməyə Sorğu edilən Tərəfin kifayət qədər əsasları olduqda;

(c) təslim etmə ilə bağlı sorğuya səbəb olan cinayət Tərəflərdən hər birinin qanunvericiliyi ilə sırf hərbi cinayət sayıldıqda;

(d) axtarılan şəxs Sorğu edilən Tərəfin təslim etmə sorğusu aldığı tarixdə onun vətəndaşı olduqda;

(e) axtarılan şəxs hər bir Tərəfin qanunvericiliyi ilə hər hansı səbəbdən, o cümlədən mürur müddətinin keçməsi və ya amnistiyanın tətbiqi ilə əlaqədar barəsində cinayət təqibinin aparılmasından və ya cəzanın icrasından azad olduqda;

(f) Sorğu edilən Tərəf təslim etmə ilə bağlı sorğuya səbəb olan cinayətlə əlaqədar axtarılan şəxs barəsində yekun məhkəmə qərarı çıxardıqda və ya məhkəmə araşdırmalarına xitam verdikdə;

(g) təslim etmə sorğusu hər bir Tərəfin qanunvericiliyinə uyğun olaraq yalnız zərərçəkmiş şəxsin şikayəti ilə qaldırıla bilən işə aid olduqda; və ya (h) təslim etmə sorğusu Sorğu edən Tərəfin qiyabi verilmiş qərarına əsasən edildikdə və Sorğu edən Tərəf təslim etmədən sonra işə yenidən baxılmasına təminat vermədikdə.

Maddə 4

Təslim etmədən imtinanın fakültativ əsasları

Təslim etmədən aşağıdakı hallarda imtina edilə bilər:

(a) Sorğu edilən Tərəfin təslim etmə sorğusuna səbəb olan cinayətə dair öz milli qanunvericiliyinə əsasən yurisdiksiyası olduqda və o, həmin cinayətə görə axtarılan şəxs barəsində cinayət təqibinə başladıqda:

(b) Sorğu edilən Tərəf cinayətin xarakterini və Sorğu edən Tərəfin maraqlarını nəzərə alarkən, şəxsin yaşı, səhhəti və digər halları səbəbindən təslim etmənin insanpərvərlik baxımından uyğun olmadığını hesab etdikdə.

Maddə 5

Sorğu edilən Tərəfdə cinayət təqibini başlamaq öhdəliyi

Təslim etmədən bu Müqavilənin 3-cü maddəsinin (d) bəndinə əsasən imtina edildiyi təqdirdə, Sorğu edilən Tərəf Sorğu edən Tərəfin sorğusu ilə öz milli qanunvericiliyinə uyğun olaraq cinayət təqibini başlamaq məqsədilə işi öz səlahiyyətli orqanlarına təqdim edir. Bu məqsədlə, Sorğu edən Tərəf Sorğu edilən Tərəfi işə aid olan sənədlər və dəlillərlə təmin edir.

Maddə 6

Əlaqə

Bu Müqavilənin məqsədləri üçün, əgər bu Müqavilə ilə digər hal nəzərdə tutulmadıqda, Tərəflər müvafiq qaydada təyin etdikləri orqanlar vasitəsilə əlaqə saxlayırlar. Qeyd edilən təyin etməyə qədər onlar diplomatik kanallar vasitəsilə əlaqə saxlayırlar.

Maddə 7

Təslim etmə sorğusu və tələb olunan sənədlər

1. Təslim etmə sorğusu yazılı formada tərtib olunur və ona aşağıdakılar əlavə olunur:

(a) sorğu edən orqanın adı;

(b) mümkün olduqda, sorğu edilən orqanın adı;

(c) *axtarılan şəxsin adı, yaşı, cinsi, milliyyəti, şəxsiyyətini təsdiq edən sənədləri,* işlədiyi və yaşadığı yer və şəxsin kimliyini və qaldığı yerini müəyyən etməyə köməklik edə bilən digər məlumat və mümkün olduqda, həmin şəxsin görünüşünün təsviri, şəkilləri və barmaq izləri;

(d) işin izahı, o cümlədən cinayət əməlinin qısa məzmunu və onun nəticəsi;

(e) cinayət yurisdiksiyasına aid olan, cinayət əməlini müəyyən edən və cinayətə görə təyin oluna bilən cəzanı əks etdirən qanunların müvafiq müddəalarının mətni; və

(f) cinayət təqibinin və cəzanın icrasının mürur müddətini əks etdirən qanunların müvafiq müddəalarının mətni.

2. Bu maddənin 1-ci bəndinin müddəalarına əlavə olaraq:

(a) axtarılan şəxs barəsində cinayət təqibinin aparılmasına yönələn təslim etmə sorğusu həmçinin Sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən verilmiş həbs qərarının surəti ilə müşayiət olunmalıdır; və ya

(b) axtarılan şəxsə təyin olunan cəzanın icrasına yönələn təslim etmə sorğusu həmçinin qüvvədə olan məhkəmə qərarının surəti və cəzanın çəkilmiş müddətinin təsviri ilə müşayiət olunmalıdır.

3. Təslim etmə sorğusu və ona əlavə olunmuş sənədlər imzalanmalı və ya möhürlənməlidir və Sorğu edilən Tərəfin dilinə və ya ingilis dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

Maddə 8

Əlavə məlumat

Əgər Sorğu edilən Tərəf təslim etmə sorğusuna əlavə olunmuş məlumatı kifayət hesab etmirsə, həmin Tərəf otuz gün müddətinə təqdim edilməli olan məlumatı sorğu edə bilər. Sorğu edən Tərəfin vaxtında verdiyi xahişi ilə həmin müddət 15 gün müddətinə uzadıla bilər. Əgər Sorğu edən Tərəf əlavə məlumatı həmin müddət ərzində təqdim etmədikdə, bu hal sorğudan könüllü imtina hesab olunur. Bu, Sorğu edən Tərəfin həmin cinayətə görə yeni sorğu verməyinə mane olmur.

Maddə 9

Müvəqqəti həbs

1. Təxirəsalınmaz hallarda bir Tərəf digər Tərəfə təslim etmə sorğusunun alınmasına qədər axtarılan şəxsin müvəqqəti həbsini xahiş edə bilər. Belə xahiş yazılı şəkildə bu Müqavilənin 6-cı maddəsində nəzərdə tutulan kanallar, Beynəlxalq Cinayət Polis Təşkilatı (İNTERPOL) və ya hər iki Tərəf arasında razılaşdırılmış digər kanallar vasitəsilə təqdim oluna bilər.

2. Müvəqqəti həbs sorğusu bu Müqavilənin 7-ci maddəsinin 1-ci bəndində göstərilən sənədləri, həmin maddənin 2-ci bəndində göstərilən sənədlərin mövcudluğu haqqında məlumatı və axtarılan şəxs barəsində rəsmi təslim etmə sorğusunun daxil olacağı barədə məlumatı əks etdirir.

3. Sorğu edilən Tərəf sorğuya baxılmanın nəticəsi barədə Sorğu edən Tərəfi dərhal məlumatlandırır.

4. Sorğu edilən Tərəfin səlahiyyətli orqanı axtarılan şəxsin həbsindən sonra otuz gün müddəti ərzində rəsmi təslim etmə sorğusunu almadığı təqdirdə müvəqqəti həbs ləğv edilir. Sorğu edən Tərəfin vaxtında verdiyi xahişi əsasında, bu müddət 15 gün uzadıla bilər.

5. Əgər Sorğu edilən Tərəf sonradan rəsmi təslim etmə sorğusunu alarsa, bu maddənin 4-cü bəndinə əsasən müvəqqəti həbsin ləğv edilməsi axtarılan şəxsin təslim edilməsinə xələl gətirmir.

Maddə 10

Təslim etmə sorğusu üzrə qərar

1. Sorğu edilən Tərəf təslim etmə sorğusuna öz milli qanunvericiliyində nəzərdə tutulmuş prosedurlara uyğun olaraq baxır və öz qərarı haqqında Sorğu edən Tərəfi dərhal məlumatlandırır.

2. Əgər Sorğu edilən Tərəf təslim etmə sorğusundan tam və ya qismən imtina edirsə, Sorğu edən Tərəfə imtinanın səbəbləri bildirilir.

Maddə 11

Şəxsin təslim edilməsi

1. Sorğu edilən Tərəf təslim etməyə yol verirsə, Tərəflər onun vaxtı, yeri və təslim etmənin həyata keçirilməsi ilə bağlı digər müvafiq məsələləri razılaşdırır. Eyni zamanda, Sorğu edilən Tərəf təslim olunan şəxsin təslim etmədən əvvəl həbsdə qaldığı müddət

haqqında Sorğu edən Tərəfə məlumat verir.

2. Əgər Sorğu edən Tərəf təslim olunan şəxsi təslim etmənin həyata keçirilmə tarixindən on beş gün müddətində qəbul etmədiyi təqdirdə, Sorğu edilən Tərəf həmin şəxsi dərhal azad edir və bu maddənin 3-cü bəndində nəzərdə tutulan hallar olmadıqda, həmin cinayətə görə şəxsin təslim edilməsinə dair Sorğu edən Tərəfin yeni sorğusundan imtina edə bilər.

3. Əgər bir Tərəf təslim edilən şəxsin verilməsinə və ya qəbul edilməsinə ondan asılı olmayan səbəblərə görə nail olmursa, digər Tərəf bu barədə dərhal məlumatlandırılır. Tərəflər təslim etmənin həyata keçirilməsinə dair müvafiq məsələləri bir daha razılaşdırır və bu maddənin 2-ci bəndinin müddəaları tətbiq olunur.

Maddə 12

Təxirə salınmış və ya müvəqqəti təslim etmə

1. Axtarışda olan şəxs təslim etmə sorğusuna səbəb olan cinayətdən fərqli olaraq digər cinayətə görə Sorğu edilən Tərəfdə təqib olunursa və ya cəza çəkirsə, Sorğu edilən Tərəf təslim etmə haqqında qəbul etdiyi qərardan sonra cinayət təqibinin başa çatmasına və ya cəzanın çəkilməsinə qədər təslim etməni təxirə sala bilər. Sorğu edilən Tərəf təslim etmənin təxirə salınması barədə Sorğu edən Tərəfi məlumatlandırır.

2. Bu maddənin 1-ci bəndində göstərilən təslim etmənin təxirə salınması təslim etmə sorğusuna səbəb olan cinayətin təqibinin mürur müddətinin bitməsinə səbəb olarsa və ya Sorğu edən Tərəfin istintaqına mane olarsa, Sorğu edilən Tərəf, öz milli qanunvericiliyi çərçivəsində və hər iki Tərəf arasında razılaşdırılmış şərtlər əsasında, axtarılan şəxsi müvəqqəti olaraq Sorğu edən Tərəfə təslim edə bilər. Sorğu edən Tərəf müvafiq prosedurların başa çatmasından sonra həmin şəxsi Sorğu edilən Tərəfə dərhal qaytarır.

Maddə 13

Bir neçə dövlət tərəfindən verilmiş təslim etmə sorğuları

Əgər eyni şəxs barəsində təslim etmə sorğuları bir Tərəf və bir və ya bir neçə üçüncü dövlət tərəfindən verirlərsə, Sorğu edilən Tərəf, öz mülahizələrinə əsasən, dövlətlərdən hər hansı birinin sorğusunu qəbul etməyi qərara alır.

Maddə 14

Xüsusi qayda

Aşağıdakılar istisna olmaqla, bu Müqaviləyə uyğun olaraq təslim edilmiş şəxs Sorğu edən Tərəfdə təslim etməyə qədər törətdiyi və təslimə səbəb olan cinayətdən fərqli olan cinayətə görə cinayət təqibinə və ya cəzaya məruz qalmır və eləcə də üçüncü dövlətə verilmir:

(a) Sorğu edilən Tərəf əvvəlcədən razılığını verdikdə. Belə razılığın məqsədləri üçün, Sorğu edilən Tərəf 7-ci maddədə göstərilən sənədlərin və məlumatın, həmçinin müvafiq cinayət üzrə təslim edilən şəxsin izahatlarının təqdim edilməsini tələb edə bilər;

(b) həmin şəxs azad edildikdən sonra otuz gün ərzində Sorğu edən Tərəfin ərazisini tərk tmədikdə. Bu müddətə şəxsin ondan asılı olmayan səbəblərə görə Sorğu

edən Tərəfin ərazisini tərk etməyə nail olmadığı müddət daxil edilmir; və ya

(c) şəxs Sorğu edən Tərəfin ərazisini tərk etdikdən sonra həmin əraziyə könüllü olaraq qayıtdıqda.

Maddə 15

Əmlakın verilməsi

1. Əgər Sorğu edən Tərəf tələb edərsə, Sorğu edilən Tərəf, öz milli qanunvericiliyi çərçivəsində, cinayət yolu ilə əldə edilən gəlirləri və vasitələri, onun ərazisində aşkar edilmiş və dəlil kimi istifadə oluna biləcək digər əmlakı müsadirə edir və təslim etməyə yol verildikdə, həmin əmlakı Sorğu edən Tərəfə təhvil verir.

2. Təslim etməyə yol verildikdə, bu maddənin 1-ci bəndində göstərilən əmlak axtarılan şəxsin vəfatı, itkin düşməsi və ya qaçması nəticəsində təslim etmə həyata keçirilə bilmədiyi təqdirdə də təhvil verilir.

3. Sorğu edilən Tərəf hər hansı digər cinayət araşdırmalarının həyata keçirilməsi məqsədilə həmin araşdırmaların başa çatmasına qədər yuxarıda göstərilən əmlakın təhvil verilməsini təxirə sala bilər və ya qaytarmaq şərtilə həmin əmlakı müvəqqəti olaraq Sorğu edən Tərəfə verə bilər.

4. Belə əmlakın təhvil verilməsi Sorğu edilən Tərəfin və ya hər hansı üçüncü tərəfin həmin əmlaka dair qanuni hüquqlarına xələl gətirmir. Belə hüquqlar mövcud olduqda Sorğu edən Tərəf Sorğu edilən Tərəfin xahişi ilə araşdırmaların başa çatmasından sonra mümkün qədər qısa müddətdə heç bir ödəmə olmadan əmlakı dərhal Sorğu edilən Tərəfə qaytarır.

Maddə 16

Tranzit

1. Bir Tərəf şəxsi üçüncü dövlətdən digər Tərəfin ərazisindən təslim etdikdə, birincisi sonuncudan belə tranzitə icazə verilməsini xahiş edir. Hava nəqliyyatı istifadə edildikdə və sonuncunun ərazisində enmə nəzərdə tutulmadıqda belə icazə tələb olunmur.

2. Sorğu edilən Tərəf, öz milli qanunvericiliyinə zidd olmamaqla, Sorğu edən Tərəfin verdiyi tranzit sorğusuna icazə verir.

Maddə 17

Nəticə haqqında bildiriş

Sorğu edən Tərəf təslim edilən şəxs barəsində araşdırma və ya cəzanın icrası və ya həmin şəxsin üçüncü dövlətə təslim edilməsi haqqında məlumatı Sorğu edilən Tərəfə dərhal təqdim edir.

Maddə 18

Xərclər

Sorğu edilən Tərəfdə təslim etmə prosedurundan irəli gələn xərclər həmin Tərəfin üzərinə düşür. Təslim olunan şəxsin təslim edilməsi və ya qəbul edilməsi ilə bağlı nəqliyyat və tranzit xərcləri Sorğu edən Tərəfin üzərinə düşür.

Maddə 19

Digər müqavilələrə münasibət

Bu Müqavilə Tərəflərin digər Müqavilələrə əsasən malik olduqları hüquq və üzərinə götürdükləri öhdəliklərə toxunmur.

Maddə 20

Mübahisələrin həlli

Bu Müqavilənin tətbiqindən və təfsirindən irəli gələn hər hansı mübahisə məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 21

Qüvvəyə minmə və ləğv edilmə

1. Bu Müqavilə ratifikasiya edilir. Ratifikasiya fərmanları Tərəflər arasında mübadilə edilir. Bu Müqavilə ratifikasiya fərmanlarının mübadiləsi tarixindən otuz gün sonra qüvvəyə minir.

2. Tərəflərdən hər biri yazılı şəkildə diplomatik kanallar vasitəsilə istənilən vaxt bildiriş göndərməklə bu Müqaviləni ləğv edə bilər. Müqavilə belə bildirişin alındığı tarixdən yüz səksən gün sonra ləğv edilir. Müqavilənin ləğv edilməsi ləğv etmədən əvvəl başlanılmış təslim etmə prosedurlarına təsir etmir.

3. Müvafiq cinayətlər bu Müqavilənin qüvvəyə minməsindən əvvəl baş vermiş olduqda belə, bu Müqavilə onun qüvvəyə minməsindən sonra təqdim edilmiş sorğulara tətbiq edilir.

Bunun təsdiqi olaraq, Hökumətləri tərəfindən müvafiq qaydada müvəkkil edilmiş aşağıdakı şəxslər bu Müqaviləni imzaladılar.

Pekin şəhərində 17 mart 2005-ci ildə iki nüsxədə, Azərbaycan, Çin və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	ÇİN XALQ RESPUBLİKASI ADINDAN
ELMAR MƏMMƏDYAROV	*DAY BİNQO*
Xarici işlər naziri	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında" 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№930-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti, iki dövlət arasında dostluq münasibətlərinin inkişafını məmnunluqla qeyd edərək,

uzunmüddətli və sabit ticarət-iqtisadi münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı əsasda daha da inkişaf etdirilməsində ümumi niyyəti rəhbər tutaraq,

ticarətin diversifikasiya və inkişafının stimullaşdırılması, Tərəflər üçün faydalı iqtisadi əməkdaşlığın fəal şəkildə genişləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə və bu Sazişin müddəalarına uyğun olaraq aşağıdakılar üzrə zəruri tədbirlər görəcəklər:

1) iki dövlət arasında ticarətin inkişafı və stimullaşdırılması;
2) müxtəlif sahələrdəki iqtisadi əməkdaşlığın uzunmüddətli inkişafının stimullaşdırılması.

Maddə 2

1. Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq idxal və ixrac olunan mallara tətbiq olunan gömrük rüsumları və digər ödənişlərin yığılmasında, malların idxal-ixracına aid olan müəyyən olunmuş prosedurların və rəsmiləşmələrin keçirilməsində qarşılıqlı olaraq ən əlverişli rejim təmin edəcəklər.

2. Bu maddənin birinci bəndində göstərilən müddəalar aşağıdakı hallarda tətbiq olunmur:

1) Tərəflərdən biri digər həmhüdud ölkələrə sərhədyanı ticarət üçün ən əlverişli rejim tətbiq etdikdə və ya gələcəkdə edəcəyi təqdirdə;
2) Tərəflərdən biri onun iştirakçısı olduğu gömrük birliyi, azad ticarət zonası daxil olmaqla regional ticarət sazişləri iştirakçılarına ən əlverişli rejim tətbiq etdikdə və ya gələcəkdə edəcəyi təqdirdə.

Maddə 3

Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq Tərəflərdən birinin dövlətinin ərazisində istehsal olunan mallarla ticarətə münasibətdə, analoji daxili istehsal məhsullarına tətbiq edilən rejimdən az əlverişli olmayan rejimi tətbiq edəcəklər, daxili vergiqoyma və digər yığımlar sahəsində, daxili ticarəti tənzimləyən qanunvericilik sahəsində, daşınma, məhsulun istifadəsini və satışını təmin edirlər.

Maddə 4

Tərəflərdən hər biri dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq digər Tərəf dövlətin mallarının tranziti üçün əlverişli şərait yaradır.

Maddə 5

İdxal olunan malların mənşə ölkəsi hər bir Tərəf dövlətin milli qanunvericiliyinə uyğun olaraq və onların iştirakçısı olduqları beynəlxalq sazişlər çərçivəsində müəyyən edilir.

Maddə 6

1. İki dövlət arasında mallar və xidmətlərin ticarəti zamanı pul vəsaitlərinin ödənişi və köçürülməsi cari hesabların dönərliliyi prinsipindən çıxış edərək, həmçinin öz dövlətlərinin valyuta tənzimlənməsi sahəsində milli qanunvericiliklərinə müvafiq olaraq həyata keçiriləcəkdir.

2. Tərəflər iki ölkənin fiziki, hüquqi şəxslərinə və digər təşkilatlarına sərbəst dönərli valyutanın alınması, mövcudluğu, saxlanılması, ödənilməsi və köçürülməsinə, həmçinin mübadiləsinə ən əlverişli rejim tətbiq edəcəklər.

Maddə 7

1. Bu Sazişin məqsədlərinin yerinə yetirilməsi üçün Tərəflər aşağıdakıları stimullaşdırmaq üçün ən əlverişli rejim tətbiq edəcəklər:

1) maraqlı dövlət orqanları, müxtəlif peşəkar təşkilatlar və assosiasiyalar, ticarət-sənaye palataları, elmi tədqiqat institutları və təşkilatları arasında əlaqələri və əməkdaşlığı;
2) müxtəlif yarmarka və sərgilərin keçirilməsini;
3) elmi-texniki konfransların, simpoziumların, seminarların təşkilini;
4) məsləhətlərin verilməsini;
5) maliyyə qurumları arasında əməkdaşlığı;
6) kiçik və orta müəssisələrin ikitərəfli iqtisadi əməkdaşlıqda iştirakını;
7) informasiya texnologiyalarının, elektron ticarətin, texnoparkların inkişaf etdirilməsini və s.

2. Tərəflər, hər bir konkret halda digər qayda razılaşdırılmazsa, bu maddənin həyata keçirilməsi ilə əlaqədar bütün xərcləri öz üzərinə götürürlər.

Maddə 8

1. Bu Sazişin müddəaları, Tərəflərdən hər birinin ixraca, idxala və tranzitə aşağıdakı məqsədlərlə öz qanunvericiliklərinə və iştirakçısı olduqları beynəlxalq sazişlərə uyğun olaraq qadağa qoymaq hüququnu məhdudlaşdırmır:

1) milli təhlükəsizliyin təmin edilməsi;
2) ictimai maraqların və mənəviyyatın qorunması;

3) insanların sağlamlığının, həyatının, təhlükəsizliyinin qorunması, heyvanların və bitkilərin mühafizəsi;

4) əqli mülkiyyətin qorunması;

5) milli bədii, tarixi və arxeoloji dəyərlərin qorunması;

6) ətraf mühitin mühafizəsi;

7) tükənən təbii ehtiyatların qorunması.

2. Yuxarıda göstərilən qadağa və məhdudiyyətlər əsassız diskriminasiya və ya iki ölkə arasında ticarətin gizli şəkildə məhdudlaşdırılması vasitələri kimi çıxış etməməlidir.

Maddə 9

Tərəflər bir-birinə münasibətdə ədalətli ticarət rejiminin tətbiq edilməsi məqsədilə ticarət siyasəti və ticarət qanunvericiliyi sahəsində dialoqu möhkəmləndirəcəklər.

Maddə 10

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə və iştirakçısı olduqları beynəlxalq sazişlərə uyğun olaraq digər Tərəfin fiziki, hüquqi şəxslərinə və digər təşkilatlarına münasibətdə əqli mülkiyyət sahəsində milli rejim tətbiq edəcəklər.

Maddə 11

1. Tərəflər Saziş əsasında ÇXR hökumət strukturları nümayəndələrindən və AR hökumət strukturu nümayəndələrindən ibarət olan Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasını (bundan sonra "Komissiya" adlandırılacaq) təsis edirlər.

2. Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

- Sazişin icrasına nəzarət, onun yoxlanılması və nəzərdən keçirilməsi, əməkdaşlığın həyata keçirilmiş tədbirlərinin nəzərdən keçirilməsi;
- Sazişin icrası zamanı yarana biləcək məsələlərin nəzərdən keçirilməsi;
- Razılaşan tərəflər arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına mane ola biləcək məsələlərin nəzərdən keçirilməsi;
- ticarətin sonrakı diversifikasiyası məqsədilə onun əmtəə strukturu və formalarının yaxşılaşdırılması yollarının nəzərdən keçirilməsi;
- ticarət-iqtisadi əməkdaşlığın inkişafının yeni üsul və imkanlarının nəzərdən keçirilməsi;
- hər iki tərəf üçün qarşılıqlı maraq kəsb edən sahələrdə Sazişdə müəyyən edilən məqsədlərə nail olunmasına imkan verən təkliflərin işlənib hazırlanması.

3. Komissiyanın növbəti iclasları növbə ilə Bakı və Pekində keçirilir. Komissiyanın işinə yardım etmək məqsədilə zəruri hallarda Komissiya işçi qrupları yarada bilər.

4. Komissiya bu Sazişə düzəliş və dəyişikliklərin edilməsi üçün təkliflər hazırlamalıdır.

Maddə 12

Hər iki ölkənin müəssisələrinin, bu Sazişin qüvvəyə minməsinə qədər və onun fəaliyyəti dövründə yaranan hüquqi öhdəlikləri həmin Sazişin fəaliyyəti, dəyişdirilməsi və ləğv edilməsindən təsirə məruz qalmır.

Maddə 13

Bu Sazişə Tərəflərin razılığı ilə əlavə və dəyişikliklər edilə bilər. Əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan protokollar və ya notalar mübadiləsi ilə rəsmiləşdirilir.

Maddə 14

Tərəflər arasında bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılıqları məsləhətləşmələr və danışıqlar yolu ilə tənzimlənəcəkdir.

Maddə 15

Bu Sazişin müddəalarının həyata keçirilməsi Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 1 6

Bu Sazişin qüvvəyə minməsi ilə Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında 13 mart 1993-cü il tarixli Ticari-iqtisadi əməkdaşlıq Sazişi ləğv edilir.

Maddə 1 7

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri Sazişin fəaliyyətini dayandırmaq niyyəti haqqında digər Tərəfin yazılı bildirişini aldığı gündən etibarən altı ay başa çatana qədər qüvvədə qalır.

Pekin şəhərində 17 mart 2005-ci ildə iki əsl nüsxədə, Azərbaycan, Çin və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətni əsas götürəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*ÇJAN ÇİQAN*
İqtisadi inkişaf naziri	*Kommersiya nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" 2005-ci il martın 17-də Pekin şəhərin-

də imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№931-IIQ

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının onların ölkələrinin ictimai, iqtisadi, maliyyə və digər maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

ölkələrin gömrük idarələri arasında əməkdaşlığın möhkəmləndirilməsinin gömrük hüquqpozmalarının, o cümlədən, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsi, silahların, partlayıcı maddələrin, sursatların, nüvə materiallarının, həmçinin mədəni dəyər kəsb edən əşyaların və arxeoloji sərvətlərin sərhədlərdən qanunsuz dövriyyəsinin qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılmasında daha səmərəli fəaliyyətə kömək edəcəyinə əmin olaraq,

Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələr, psixotrop maddələr və prekursorlar haqqında Konvensiyalarını nəzərə alaraq,

həmçinin ikitərəfli qarşılıqlı yardıma zəmin yaradan hər iki ölkənin qüvvədə olan qanunvericiliyinə müvafiq beynəlxalq konvensiyaları və Gömrük Əməkdaşlıq Şurasının tövsiyələrini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

a) "Gömrük İdarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və Çin Xalq Respublikasında Baş Gömrük İdarəsi;

b) "Gömrük qanunvericiliyi" - Razılığa gələn iki Tərəfin Gömrük İdarələri tərəfindən tətbiq olunan, malların idxalı, ixracı və tranziti və onların hər hansı gömrük rejimi altında yerləşdirilməsini, o cümlədən, qadağan, məhdudiyyət və nəzarət tədbirlərini müəyyən edən bütün qanunverici və tənzimləyici müddəalar;

c) "Gömrük hüquqpozması" - gömrük qanunvericiliyinin hər hansı bir şəkildə pozulmasına cəhd;

d) "Şəxs" - fiziki və ya hüquqi şəxs;

e) "Şəxs barədə məlumat" - müəyyən olunmuş və ya müəyyən oluna bilən şəxs barədə məlumatlar;

f) "Narkotik vasitələr" - müvafiq düzəlişlər edilmiş 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

g) "Psixotrop maddələr" - Birləşmiş Millətlər Təşkilatının 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

h) "Prekursorlar" - Birləşmiş Millətlər Təşkilatının 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr;

i) "Sorğu alan idarə" - yardım üçün sorğu alan gömrük idarəsi;

j) "Sorğu göndərən idarə" - yardım üçün sorğu göndərən gömrük idarəsi.

Maddə 2

Sazişin tətbiq dairəsi

1. Bu Sazişlə Razılığa gələn Tərəflər onların Gömrük idarələri arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması və gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi məqsədilə qarşılıqlı yardım göstərəcəklər.

2. Bu Sazişin müddəalarına uyğun olaraq və öz müvafiq ölkələrinin milli qanunvericiliyinə əsasən, Razılığa gələn Tərəflərin Gömrük idarələri, hər ikisinin hüquq və səlahiyyətli olduğu sahələrdə bir-birinə qarşılıqlı yardım göstərəcəklər.

3. Bu Sazişin tətbiq edilməsi Razılığa gələn Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərə təsir göstərmir.

Maddə 3

Qarşılıqlı yardımın əhatə dairəsi

1. Sorğu əsasında Razılığa gələn Tərəflərin Gömrük İdarələri bir-birinə aşağıdakılar barədə məlumat verəcəklər:

a) sorğu göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə idxal olunmuş malların Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən qanuni yolla ixrac olunması;

b) sorğu göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisindən ixrac olunmuş malların sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisinə qanuni yolla idxal olunması.

Sorğu əsasında verilən məlumat, malların rəsmiləşdirilməsində tətbiq olunan gömrük prosedurlarını əks etdirməlidir.

2. Razılığa gələn bir Tərəfin Gömrük idarəsi Razılığa gələn digər Tərəfin Gömrük İdarəsinin sorğusu əsasında və öz imkanları daxilində aşağıdakılar barədə məlumatı təqdim edəcəkdir:

a) gömrük qanunvericiliyinin pozulmasında istifadə olunduğunu, olunmasını və ya oluna bilməsini güman etməyə tutarlı əsas olan nəqliyyat vasitələri;

b) qanunsuz fəaliyyətin obyekti olması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran mallar;

c) qanunsuz fəaliyyətə cəlb olunması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran şəxslər;

d) qanunsuz fəaliyyətə cəlb olunması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran yeni metod və kanallar.

Razılığa gələn digər Tərəfin iqtisadiyyatına, ictimai sağlamlığına, ictimai təhlükəsizliyinə və ya hər hansı digər mühüm marağına əhəmiyyətli dərəcədə ziyan vura biləcəyi hallarda, o cümlədən, silahların, partlayıcı maddələrin, sursatların, nüvə materiallarının, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, arxeoloji sərvətlərin, incəsənət əsərlərinin və ya digər mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi zamanı, belə məlumat sorğu və ya onun öz təşəbbüsü əsasında təqdim ediləcəkdir.

3. Razılığa gələn bir Tərəfin Gömrük idarəsi Razılığa gələn digər Tərəfin Gömrük idarəsinin sorğusu əsasında sorğu göndərən idarənin dövlətinin ərazisində gömrük hüquqpozmaları ilə nəticələnə bilən fəaliyyətə və digər qanunsuz fəaliyyətə dair bütün mövcud məlumatı təqdim edəcəkdir.

4. Razılığa gələn Tərəflərin Gömrük idarələri sorğu əsasında, malların daşınması və yüklənməsi ilə bağlı zəruri məlumatı, o cümlədən, inzibati, daşınma, kommersiya sənədlərini və ya bu malların əmtəə təsnifatı, mənşəyi və təyinatı barədə hər hansı digər məlumatı təqdim edəcəkdir.

Maddə 4

Əlaqə kanalları

1. Qarşılıqlı yardım müvafiq Gömrük idarələrinin rəhbərləri tərəfindən təyin olunan vəzifəli şəxslər arasında birbaşa əlaqə vasitəsilə həyata keçiriləcəkdir. 2. Bu Saziş çərçivəsində mübadilə edilən yazışma ingilis dilində aparılacaqdır.

Maddə 5

Yardım üçün sorğuların forma və məzmunu

1. Bu Saziş çərçivəsində yardım üçün sorğular yazılı şəkildə təqdim edilməlidir. Onların icrası üçün lazım olan sənədlər sorğu ilə müşayiət edilməlidir. Müstəsna olaraq, tələb olunduqda və təxirəsalınmaz hallarda sorğular şifahi şəkildə qəbul oluna bilər, lakin sonradan dərhal yazılı şəkildə təsdiq edilməlidir.

2. Yardım üçün sorğulara aşağıdakılar daxil edilməlidir:

a) sorğunu göndərən Gömrük iradəsinin adı;

b) müvafiq prosedurların və/və ya sorğu edilən məlumatın təsviri;

c) sorğunun səbəbləri;

d) Gömrük qanunlarının və qaydalarının əlaqədar müddəalarının qısa təsviri;

e) sorğu ilə əlaqədar olan fiziki və hüquqi şəxsin adı və ünvanı.

Maddə 6

Sorğuların icrası

1. Bu Sazişə uyğun olaraq təqdim olunan yardım üçün sorğular sorğu alan Gömrük idarəsinin milli qanunvericiliyinə müvafiq şəkildə icra ediləcəkdir. Sorğunun icrası mümkün olmadığı halda, sorğu alan idarə sorğu göndərən idarəni bu barədə məlumatlandırır.

2. Razılığa gələn bir Tərəfin Gömrük idarəsi, Razılığa gələn digər Tərəfin Gömrük idarəsi tərəfindən təqdim olunmuş sorğu əsasında, bu Sazişin əhatə dairəsinə daxil olan və sorğu alan idarənin səlahiyyətli olduğu məsələlərə dair faktların aşkar edilməsi məqsədilə yoxlama, nəzarət və təhqiqata başlayacaqdır.

3. Sorğu göndərən idarə özünün icra etmək iqtidarında olmadığı yardım üçün sorğunu təqdim etdiyi hallarda, onun icrası barədə qərar vermək və bu fakt barədə sorğu göndərən idarəni məlumatlandırmaq sorğu alan idarənin ixtiyarında olacaqdır.

Maddə 7

Konfidensiallıq

1. Bu Saziş çərçivəsində alınan informasiya, sənədlər və digər məlumat onları alan Razılığa gələn Tərəfdən yalnız bu Sazişdə müəyyən olunmuş məqsədlər üçün istifadə edilə bilər və məhkəmələrdə sübut kimi istifadə olunmamalıdır.

2. Razılığa gələn bir Tərəfin sorğusu əsasında Razılığa gələn digər Tərəfə bu Saziş çərçivəsində təqdim olunan informasiya, sənədlər və digər məlumatlar konfidensial hesab ediləcəkdir.

3. Bu Saziş əsasında təqdim olunan informasiya, sənədlərə və digər məlumata bu dövlətin öz ərazisində əldə edilən informasiya, sənədlərə və digər məlumata tətbiq etdiyi eyni konfidensiallıq dərəcəsi şamil ediləcəkdir.

4. Bu Saziş çərçivəsində şəxs barədə məlumatlar mübadilə edildiyi hallarda, Razılığa gələn Tərəflər onları təqdim edən Razılığa gələn Tərəfin tətbiq etdiyi eyni müdafiəni təmin edəcəklər.

Maddə 8

İşlər və sənədlər

1. İşlərin, sənədlərin və digər məlumatların əsli yalnız təsdiq olunmuş surətlər kifayət etmədiyi hallarda tələb olunacaqdır. Xüsusi sorğu əsasında, belə işlərin, sənədlərin və digər məlumatların surətləri lazımi qaydada təsdiq olunacaqdır.

2. Göndərilmiş işlər, sənədlər və digər məlumatlar mümkün qədər qısa müddətdə qaytarılacaqdır.

Maddə 9

Ekspertlər və şahidlər

Gömrük orqanlarının vəzifəli şəxslərinin ekspert və şahidlər qismində iştirak etməsi üçün sorğu, Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq tərtib edilməlidir.

Maddə 10

Yardım göstərmək öhdəliyindən istisnalar

1. Yardım üçün sorğunun ünvanlandığı Razılığa gələn Tərəf sorğunun yerinə yetirilməsinin onun suverenliyi, təhlükəsizliyi, ictimai asayişi və ya onun milli maraqlarının digər mühüm sahələrinə zərər gətirə biləcəyini hesab etdiyi hallarda, o, yardımın göstərilməsindən imtina edə və ya bu yardımı yalnız müəyyən şərtlərə əsasən göstərə bilər.

2. Yardımdan imtina edildiyi təqdirdə, imtinaya dair səbəb təxirə salınmadan yazılı şəkildə sorğu göndərən idarəyə təqdim edilməlidir.

Maddə 11

Yardım göstərilməsi üçün xərclər

Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsi zamanı, sorğu göndərən Razılığa gələn Tərəfin şahidlərə və dövlət rəsmiləri olmayan ekspertlərə və tərcüməçilərə ödəyəcəyi xərclər istisna olunmaqla, çəkilmiş xərclərin ödənilməsinə dair bütün iddialardan qarşılıqlı əsasda imtina edəcəklər.

Maddə 12

Sazişin tətbiq edilməsi

1. Bu Sazişin tətbiq edilməsi üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Çin Xalq Respublikası Baş Gömrük İdarəsi səlahiyyətli orqanlardır. Onlar bu Sazişdən irəli gələn məsələlərin həll edilməsi məqsədilə birbaşa əlaqə saxlamalı və inzibati təlimatlar verməli və onun şərhi və ya həyata keçirilməsi zamanı yaranan problemləri və ya sualları qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdırlar.

2. Razılığa gələn Tərəflərin Gömrük idarələri bu Sazişin tətbiqini nəzərdən keçirmək məqsədilə, görüşlərin keçirilməsinə zərurət olmadığı barədə yazılı şəkildə qarşılıqlı razılaşmalar olmazsa, ən azı ildə bir dəfə görüşmək barədə razılığa gəlirlər.

3. Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Bu əlavə və dəyişikliklər bu Sazişin 13-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 13

Qüvvəyə minmə və ləğv edilmə

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minəcəkdir.

2. Bu Saziş qeyri-müəyyən müddət ərzində qüvvədə olacaqdır.

3. Bu Sazişin qüvvəsi Razılığa gələn Tərəflərdən birinin yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən altı ay sonra ləğv ediləcəkdir.

Pekin şəhərində 17 mart 2005-ci ildə iki əsl nüsxədə, Azərbaycan, Çin və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KƏMALƏDDİN HEYDƏROV
Dövlət Gömrük Komitəsinin sədri

ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

MO TSİNŞEN
Baş Gömrük İdarəsinin sədri

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№932-IIQ

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əhatə olunan şəxslər

Bu Saziş Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

Maddə 2

Əhatə olunan vergilər

1. Bu Saziş, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə görə tutulan vergilərə tətbiq olunur.

2. Gəlirlərə görə vergilərə - gəlirin ümumi məbləğindən, yaxud onun ayrı-ayrı elementlərindən, o cümlədən daşınan və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən

gəlirlərdən, müəssisələrin öhdəlikləri, əməkhaqqının yaxud maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Sazişin tətbiq edildiyi mövcud vergilər xüsusən aşağıdakılardır:

a) Çində:

(i) fiziki şəxslərin gəlir vergisi;

(ii) xarici investisiyalı müəssisələrin və xarici müəssisələrin gəlir vergisi;

(bundan sonra "Çin vergiləri" adlanır);

b) Azərbaycanda:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(bundan sonra "Azərbaycan vergiləri" adlanır).

4. Bu Saziş həmçinin, imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verməlidirlər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna alınmırsa, bu Sazişin məqsədləri üçün:

a) "Çin" termini - Çin Xalq Respublikasını ifadə edir; coğrafi mənada istifadə edildikdə, Çinin vergitutma qanunlarının tətbiq olunduğu ərazi dənizi və ərazi dənizindən kənarda beynəlxalq hüquqa müvafiq olaraq Çin Xalq Respublikasının dəniz dibi və yerin təkinin təbii resurslarının və yeraltı su resurslarının kəşfiyyatı və işlənməsinə münasibətdə suveren hüquqlara malik olduğu ərazi də daxil olmaqla, Çin Xalq Respublikasının bütün ərazisini bildirir;

b) "Azərbaycan" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikasının ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Çini, yaxud Azərbaycanı bildirir;

d) "vergi" termini - kontekstdən asılı olaraq Azərbaycan, yaxud Çin vergilərini bildirir;

e) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

f) "şirkət" termini - istənilən korporativ qurumu, yaxud vergi məqsədləri üçün korporativ qurum kimi baxılan istənilən təşkilatı bildirir;

g) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;

h) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz, yaxud hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz, yaxud hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismarı istisna olmaqla) bildirir;

i) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətin mövcud qanunvericiliyinə əsasən almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı, yaxud assosiasiyanı bildirir.

j) "səlahiyyətli orqan" termini - Azərbaycana münasibətdə Vergilər Nazirliyi və Maliyyə Nazirliyini, Çinə münasibətdə isə Dövlət Vergitutma Administrasiyasını, yaxud onun səlahiyyətli nümayəndəsini bildirir.

Razılığa gələn Dövlət tərəfindən bu Sazişin istənilən vaxt tətbiqi zamanı, burada müəyyən edilməyən hər hansı termin, kontekstdən başqa məna alınmırsa, Sazişin tətbiq olunduğu vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır, həmin Dövlətin qüvvədə olan vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna, həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Sazişin məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, baş ofisin yerləşdiyi yerə, qeydiyyat yerinə, idarəetmə yerinə, yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi, habelə həmin Dövləti, yaxud onun yerli hakimiyyət orqanını bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə münasibətdə orada vergiyə cəlb olunan şəxsi əhatə etmir.

2. 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs hər iki Razılığa gələn Dövlətin rezidentidirsə, onun statusu aşağıdakı qaydada müəyyən edilir:

a) o yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin prezidenti hesab olunur. Əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərinin mərkəzi) Dövlətin prezidenti hesab olunur;

b) əgər onun həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyilsə, yaxud onun bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab olunur;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab olunur;

d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər bu maddənin 1-ci bəndinin müddəalarına görə, fiziki şəxs olmayan şəxs hər iki Razılığa gələn Dövlətin rezidentidirsə, o yalnız faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Sazişin məqsədləri üçün "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" terminինə xüsusilə aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) bölmə;

c) ofis;

d) fabrik;

e) emalatxana; və

f) yataq, neft və ya qaz quyusu, karxana, yaxud təbii ehtiyatların hasil olunduğu hər hansı başqa yer.

3. "Daimi nümayəndəlik" terminինə həmçinin aşağıdakılar aid edilir:

a) tikinti meydançası və ya quraşdırma, yaxud yığma layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti - yalnız bu cür meydança, layihə və ya fəaliyyət on iki aydan artıq müddət ərzində davam etdikdə;

b) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı başqa yer - yalnız bu kəşfiyyat istənilən on iki aylıq dövr ərzində ümumilikdə üç aydan artıq bir dövr, yaxud dövrlər ərzində davam etdikdə;

c) müəssisə tərəfindən, məsləhət xidmətləri də daxil olmaqla, öz işçiləri və ya bu məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət istənilən on iki aylıq dövr ərzində ümumilikdə altı aydan artıq bir dövr, yaxud dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminինə aşağıdakılar aid edilmir:

a) müəssisəyə məxsus olan malların və ya məmulatların yalnız saxlanılması, nümayiş etdirilməsi, yaxud çatdırılması məqsədi üçün qurğulardan istifadə olunması;

b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının yalnız saxlanılma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədilə saxlanılması;

c) müəssisəyə məxsus olan mal, yaxud məmulat ehtiyatlarının yalnız başqa müəssisə tərəfindən emal edilməsi məqsədilə saxlanılması;

d) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız mal və ya məmulatların satın alınması, yaxud informasiya toplanılması məqsədilə saxlanılması;

e) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədilə saxlanılması;

f) daimi fəaliyyət yerinin yalnız a) - e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanılması - bir şərtlə ki, daimi fəaliyyət yerinin bu kombinasiya nəticəsində yaranan məcmu fəaliyyəti hazırlıq, yaxud yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarına baxmayaraq, əgər 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin Dövlətdə müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə, şəxsin onun üçün həyata keçirdiyi istənilən fəaliyyətlə bağlı birinci qeyd olunan Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir (həmin şəxsin 4-cü bənddə nəzərdə tutulmuş fəaliyyətlə məhdudlaşan fəaliyyəti istisna olmaqla, belə ki, həmin fəaliyyət daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilməsinə baxmayaraq, həmin bəndin müddəalarına görə daimi nümayəndəlik yaratmır).

6. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti, yaxud müstəqil statuslu hər hansı digər agent vasitəsilə kommersiya fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər. Lakin bu agentin fəaliyyəti tamamilə, yaxud əsasən həmin müəssisə üçün həyata keçirilirsə və həmin müəssisə ilə həmin agentin kommersiya və maliyyə münasibətlərində onlar arasında yaradılmış, yaxud müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında ola biləcək şərtlərdən fərqlidirsə, həmin agent bu maddənin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir. 7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi gəlirlər (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənaya malikdir. Bu termin istənilən halda daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə

edir; dəniz və hava gəmilərinə daşınmaz əmlak kimi baxılmır.

3. 1-ci bəndin müddəaları həmçinin daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə də tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də şamil edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəəti yalnız həmin daimi nümayəndəliyə aid edilən hissədə digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə, yaxud hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid edilən mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı bölmələri arasında proporsional qaydada bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; lakin seçilmiş proporsional bölgü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5. Sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilir, bu şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər mənfəətə bu Sazişin digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları həmçinin pulda (pool), müştərək müəssisə, yaxud beynəlxalq əməliyyat təşkilatında iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə, və ya

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə,

və hər iki halda bu müəssisələrin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər yaradıldıqda, yaxud müəyyən edildikdə, onlardan birinə hesablana bilən, lakin bu şərtlərin olduğuna görə hesablanmamış mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq olaraq vergiyə cəlb edilə bilər.

2. Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edib və müvafiq olaraq vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasında münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olduğu halda birinci qeyd olunan Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğində müvafiq düzəlişlər aparmalıdır. Bu cür düzəlişlər müəyyən edilərkən bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmalıdır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri hallarda bir-biri ilə məsləhətləşmələr aparmalıdırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər. 2. Bununla belə, bu dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin on faizindən (10%) artıq olmamalıdır.

Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini səhmlərdən, "jouissance" səhmləri, yaxud "jouissance" hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətin bölgüsündə iştirak etmək hüququ verən digər hüquqlardan, həmçinin, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb olunan digər korporativ hüquqlardan əldə edilən gəlirləri ifadə edir.

4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi holdinq bu daimi nümayəndəliklə, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, bu halda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda vergi tuta bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin on faizindən (10%) artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin Hökuməti, o cümlədən onun yerli hakimiyyət orqanları, Mərkəzi Bankı, yaxud tamamilə Hökumətə məxsus olan maliyyə qurumu tərəfindən əldə edilən və onların faktiki sahibliyində olan faizlər, yaxud həmin Hökumət və ya tamamilə həmin Hökumətə məxsus olan maliyyə qurumu tərəfindən zəmanət verilmiş borclara münasibətdə əldə edilən faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad edilir. "Tamamilə Hökumətə məxsus olan maliyyə qurumu" terminə xüsusilə Çinə münasibətdə Çin Dövlət İnkişaf Bankı, Çin İxrac-İdxal Bankı, Çin Kənd Təsərrüfatı İnkişaf Bankı, Sosial Müdafiə Fondu Milli Şurası, Çin Bankı, Çin Tikinti Bankı, Çin Sənaye və Kommersiya Bankı və Çin Kənd Təsərrüfatı Bankı; Azərbaycana münasibətdə isə Azərbaycan Respublikası Milli Bankı və Azərbaycan Respublikası Dövlət Neft Fondu daxildir.

4. Bu maddədə istifadə olunan "faizlər" termini ipoteka təminatından və borcluların mənfəətində iştirak hüququna sahiblikdən asılı olmayaraq, istənilən borc tələbindən

olan gəlirləri, o cümlədən hökumətin qiymətli kağızlarından, istiqrazlardan, yaxud borc öhdəliklərindən, həmin qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir. Vaxtında aparılmayan ödənişlərə görə cərimələr bu maddənin məqsədləri üçün faizlər sayılmır.

5. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlərin ödənildiyi borc tələbnaməsi bu daimi nümayəndəlik, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, bu halda 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin Hökuməti, onun yerli hakimiyyət orqanı, yaxud rezidentidirsə, belə hesab olunur ki, faizlər həmin bu Dövlətdə yaranmışdır. Lakin faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərclər həmin daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

7. Əgər faizlərin ödəyicisi və faktiki sahibi arasında, yaxud onlarla hər hansı digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda ödənişin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər. 2. Bununla belə, bu cür royaltilər, həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb edilə bilər, lakin həmin gəlirlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, bu halda tutulan vergi royaltilərin ümumi məbləğinin on faizindən (10%) çox olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini istənilən ədəbiyyat, incəsənət, yaxud elm əsərlərinə, o cümlədən kinofilmlərə və ya radio, yaxud televiziya yayımları üçün lentlərə, yaxud kassetlərə, istənilən patentə, ticarət markasına, dizayna, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə dair müəllif hüquqlarının istifadəsinə və ya istifadə hüququnun verilməsinə görə və ya sənaye, kommersiya, yaxud elmi avadanlığın istifadəsinə və ya istifadə hüququnun verilməsinə görə, yaxud sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə alınan istənilən növ ödənişləri bildirir.

4. Əgər royaltilərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin

yarandığı Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və royaltilər ödənilən hüquq, yaxud əmlak bu daimi nümayəndəlik, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin Hökuməti, onun yerli hakimiyyət orqanı, yaxud rezidentidirsə, belə hesab olunur ki, royaltilər həmin bu Dövlətdə yaranmışdır. Lakin royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və royaltiləri ödəmək öhdəliyi bu daimi nümayəndəlik, yaxud daimi baza ilə əlaqədar yaranırsa və royaltilərin ödənilməsi üzrə xərclər bu daimi nümayəndəlik ,yaxud daimi baza tərəfindən çəkilirsə, belə hesab olunur ki, royaltilər daimi nümayəndəliyin ,yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

6. Əgər royaltilərin ödəyicisi və faktiki sahibi arasında, yaxud onlarla hər hansı digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən istifadəyə, hüquqa və məlumata görə ödənilən royaltilərin məbləği bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royalti məbləğindən artıq olarsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidentinin, 6-cı maddədə müəyyən edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirləri həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınan əmlakın, yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazasına aid olan daşınan əmlakın, o cümlədən bu daimi nümayəndəliyin

(ayrılıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya bu daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin beynəlxalq daşımalarda istismar olunan dəniz, yaxud hava gəmilərinin, yaxud onların istismarı ilə bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Əmlakı əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan bilavasitə və ya dolayısı ilə ibarət olan şirkətin kapitalındakı səhmlərin özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər Razılığa gələn həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

5. 1-4-cü bəndlərdə qeyd olunanlar istisna edilməklə, istənilən əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidentinin peşəkar xidmətlər göstərməsindən, yaxud müstəqil xarakterli digər fəaliyyətlərdən əldə etdiyi gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna olmaqla, yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər:

a) əgər onun Razılığa gələn digər Dövlətdə öz fəaliyyətini həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazası vardırsa, bu halda gəlirin yalnız göstərilən bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər; yaxud

b) əgər o, cari təqvim ilində ümumilikdə 183 günə bərabər, yaxud ondan artıq bir dövrdə, yaxud dövrlərdə Razılığa gələn digər Dövlətdə olmuşdursa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətlə bağlı əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminina əsasən müstəqil elmi, ədəbi, artistlik, təhsil, yaxud müəllimlik fəaliyyəti, habelə həkimlərin, vəkillərin, mühəndislərin, memarların, stomatoloqların və mühasiblərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci, 19-cu və 20-ci maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən əldə edilən maaş, əməkhaqqı və digər oxşar mükafatlar, əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı orada alınan bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) mükafatı alan şəxs cari vergi ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövrdə və ya dövrlərdə digər Dövlətdə olursa və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən, yaxud onun adından ödənilirsə və

c) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi, yaxud daimi bazası tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz, yaxud hava gəmisinin göyərtəsində muzdla işləməyə görə alınan mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının üzvü kimi aldığı qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin incəsənət işçisi, o cümlədən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi, yaxud idmançı kimi Razılığa gələn digər Dövlətdə həyata keçirdiyi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisinin, yaxud idmançının bu cür şəxs kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlirlər onların özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlirlər 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisinin, yaxud idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətin rezidenti olan incəsənət işçisi, yaxud idmançının hər iki Razılığa gələn Dövlətin Hökumətləri arasında mədəni mübadilə planına müvafiq olaraq Razılığa gələn digər Dövlətdə həyata keçirdiyi fəaliyyətdən əldə etdikləri gəlir həmin digər Dövlətdə vergidən azad olunacaqdır.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdə muzdla işləməsi ilə əlaqədar ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət və ya onun yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə həmin Dövlətə, yaxud hakimiyyət orqanına hökumət xarakterli funksiyaların həyata keçirilməsi kimi göstərilən fərdi qulluğa görə ödənilən təqaüd olmayan maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

   b) Bununla belə, əgər qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

   (i) həmin Dövlətin milli şəxsidirsə; yaxud

   (ii) yalnız qulluq göstərmək üçün həmin Dövlətin rezidenti olmamışdırsa, bu cür maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun yerli hakimiyyət orqanı tərəfindən və ya onların yaratdıqları fondlardan fiziki şəxsə, həmin Dövlətə, yaxud hakimiyyət orqanına göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

   b) Bununla belə, fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsi olduğu halda bu təqaüd yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan qulluğa görə ödənilən mükafat və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan, yaxud Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil almaq məqsədilə olan tələbələrin yaşamaq, yaxud təhsil almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda yerləşdiyi halda, bu cür ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Sazişin əvvəlki maddələrində sadalanmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilən daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olmaqla Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyi və ya həmin digər Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlak bu daimi nümayəndəlik, yaxud daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci ,yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

Maddə 22

İkiqat vergitutmanın aradan qaldırılması metodları

1. Çinə münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

əgər Çinin rezidenti, Azərbaycanda gəlir əldə edirsə, həmin gəlirdən bu Sazişin müddəalarına müvafiq olaraq Azərbaycanda ödənməli olan vergi məbləği, həmin rezidentin bu gəlirə görə ödədiyi Çin vergisinə qarşı kreditləşdirilə bilər. Lakin kreditin məbləği Çinin vergitutma qanunlarına və qaydalarına müvafiq olaraq bu cür gəlirə hesablanmış Çin vergisinin məbləğindən çox olmamalıdır.

2. Azərbaycana münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

əgər Azərbaycanın rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq Çində vergiyə

cəlb edilə bilən gəlir əldə edirsə, həmin şəxsin bu gəlirə görə Çində ödədiyi vergi, həmin şəxsdən həmin gəlirlə bağlı Azərbaycanda tutulan verginin məbləğindən çıxılmalıdır. Lakin çıxılan məbləğ Azərbaycanın qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə hesablanmış verginin məbləğindən çox olmamalıdır.

Maddə 23

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb olunduğu və ya cəlb oluna biləcəyi vergitutmadan, yaxud bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu şərt, 1-ci maddənin müddəalarına baxmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin, yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də şamil edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin vergitutma məqsədləri üçün öz rezidentlərinə verdiyi hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də mülki status və ya ailə öhdəlikləri əsasında verilməsi məcburiyyəti kimi təfsir olunmamalıdır.

3. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin, yaxud 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər, bu müəssisənin vergiyə cəlb olunan mənfəəti müəyyən edilərkən, birinci qeyd olunan Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan şərtlər əsasında çıxılmalıdır. Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakı müəyyən edilərkən birinci qeyd olunan Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında çıxılmalıdır.

4. Razılığa gələn Dövlətin, əmlakı tamamilə, yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə, yaxud rezidentlərinə mənsub olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi birinci qeyd olunan Dövlətdə həmin Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergitutmadan və ya onunla bağlı öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan şərtlərlə vergitutmaya və onunla bağlı öhdəliklərə cəlb edilə bilməz.

5. 2-ci maddənin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən növlü və adlı olan vergilərə şamil edilir.

Maddə 24

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri onun bu Sazişin müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb

edilməsinə gətirib çıxarır və ya gətirib çıxara bilər, bu halda həmin şəxs, həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, işini rezident olduğu Dövlətin, yaxud bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına təqdim edə bilər. Müraciət bu sazişin müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk məlumatın tarixindən etibarən 3 il ərzində təqdim olunmalıdır.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda, özü qənaətbəxş qərara gələ bilmirsə, bu Sazişin müddəalarına uyğun gəlməyən vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyi ilə müəyyən edilmiş hər hansı vaxt məhdudiyyətinə baxmayaraq, həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin təfsiri, yaxud tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri, yaxud anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar həmçinin bu Sazişdə nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları 2-ci və 3-cü bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər. Razılığın əldə olunması üçün məqsədə müvafiq olduğu təqdirdə Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanlarının nümayəndələri şifahi fikir mübadiləsi aparmaq məqsədilə görüşə bilərlər.

Maddə 25

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları Razılığa gələn Dövlətlər və ya onların yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və adlı vergilərlə bağlı bu Sazişin və Razılığa gələn Dövlətlərin daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi aparırlar, bir şərtlə ki, həmin qanunvericiliklərdə nəzərdə tutulan vergitutma bu Sazişə zidd olmasın. İnformasiya mübadiləsi 1- ci və 2-ci maddələrlə məhdudlaşmır. Razılığa gələn Dövlətin aldığı istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında alınan informasiya kimi məxfi sayılır və yalnız birinci cümlədə göstərilən vergilərin müəyyən edilməsi, yaxud toplanması, məcburi alınması, yaxud məhkəmə qaydasında təqib olunması və ya həmin vergilərlə bağlı apellyasiyalara baxılması ilə məşğul olan şəxslərə və ya hakimiyyət orqanlarına (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər, yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə iclası və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və adi inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya, yaxud peşə sirrini, ticarət prosesini açа biləcək informasiya və ya açılması Dövlət siyasətinə (ictimai asayişə) zidd olan informasiya vermək.

Maddə 26

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Sazişin heç bir müddəası diplomatik nümayəndəliklər və ya konsulluq idarələri üzvlərinin beynəlxalq hüququn ümumi normaları, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 27

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan daxili hüquqi prosedurların yerinə yetirildiyi barədə yazılı bildiriş təqdim edir.

2. Saziş 1-ci bənddə göstərilən bildirişlərdən sonuncusunun alındığı tarixdən qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - bu Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində, yaxud ondan sonra əldə edilən gəlirlərə;

b) digər gəlir verigilərinə münasibətdə - Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqdim ilinin 1 yanvar tarixində, yaxud ondan sonra başlanan hər hansı vergi ili üzrə tutulan vergi məbləğlərinə.

Maddə 28

Qüvvədən düşmə

Bu Saziş qeyri-müəyyən müddətə qüvvədə olacaq, lakin Razılığa gələn Dövlətlərdən hər biri Sazişin qüvvəyə minməsindən sonrakı beşillik dövr başa çatdıqdan sonra, istənilən təqvim ilinin iyun ayının 30-da, yaxud ondan əvvəl diplomatik kanallarla yazılı bildiriş göndərməklə Sazişin qüvvəsini ləğv edə bilər.

Bu halda Sazişin qüvvəsi Razılığa gələn hər iki Dövlətdə ləğv edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsi

haqqında bildirişin göndərdiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra əldə edilən gəlirlərə;

b) digər vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində, yaxud ondan sonra başlanan hər hansı vergi ili üzrə tutulan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Pekin şəhərində 2005-ci il mart ayının 17-ci günündə Azərbaycan, Çin və ingilis dilində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə ziddiyyət olduqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*SE RENDZYU*
Vergilər naziri	*Baş vergi idarəsinin rəisi*

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında" 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№933-IIQ

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq) iki ölkə arasında dostluq münasibətlərinin və texniki-iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə aşağıdakılar barədə bu Sazişi imzaladılar.

Maddə 1

Azərbaycan Respublikası Hökumətinin xahişi ilə Çin Xalq Respublikasının Hökuməti Azərbaycan Respublikası Hökumətinə 15 milyon Çin Yuanı məbləğində əvəzsiz yardım göstərir.

Maddə 2

Yuxarıda qeyd olunan vəsait iki ölkənin Hökumətləri tərəfindən razılaşdırılan layihənin həyata keçirilməsi üçün istifadə olunur. Layihənin həyata keçirilməsi ilə əlaqədar müvafiq konkret məsələlər Tərəflər arasında əlavə olaraq müvafiq səlahiyyətli qurumlar tərəfindən imzalanacaq Sazişlə müəyyən olunacaqdır.

Maddə 3

Bu Saziş üzrə hesabların aparılması qaydası əlavə olaraq Azərbaycan Milli Bankı və Çin Bankı arasında razılaşdırılacaqdır.

Maddə 4

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və Tərəflər bu Sazişdən irəli gələn öhdəlikləri tam yerinə yetirənə qədər qüvvədə qalır.

Pekin şəhərində 17 mart 2005-ci ildə iki nüsxədə, hər Tərəfdə bir nüsxə olmaqla, Azərbaycan, Çin və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətn üzrə fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*ÇJAN ÇİQAN*
İqtisadi inkişaf naziri	*Kommersiya nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında informasiya-mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında informasiya-mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında" 2005-ci il martın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2005-ci il

№934-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında informasiya-mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti

öz dövlətlərinin xalqlarının bir-birinin humanitar və mədəni sərvətləri ilə tanış olmağa, ənənəvi mədəni əlaqələri qoruyub saxlayaraq daha da inkişaf etdirməyə, milli mədəniyyətlərinin, onlardan hər birinin özgürlüyünə ehtiram göstərməklə, qarşılıqlı zənginləşməsinə daimi marağını və səmimi meylini nəzərə alaraq,

Azərbaycan və Misir xalqları arasında yüzillər boyu mövcud olmuş mədəni-dostluq əlaqələrini müasir səviyyədə inkişaf etdirmək məqsədilə,

Azərbaycan Respublikasında və Misir Ərəb Respublikasında siyasi, iqtisadi, mədəni, elmi-texniki və maariflənmə proseslərinin inkişafına və ictimaiyyətin məlumatlığının

artırılmasına böyük əhəmiyyət verərək,

1992-ci ilin 6 may tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Misir Ərəb Respublikası Təhsil Nazirliyi arasında imzalanmış Sazişin 7-ci Maddəsinə əsasən və ikitərəfli humanitar, mədəni, elmi-texniki və informasiya əlaqələrinin genişləndirilməsinə kömək etməyə səy göstərərək,

BMT Nizamnaməsi və İKT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı şəkildə Bakı şəhərində Misir Ərəb Respublikasının İnformasiya-Mədəniyyət Mərkəzini və Qahirə şəhərində Azərbaycan Respublikasının informasiya-mədəniyyət Mərkəzini (bundan sonra - Mərkəz) təsis edirlər.

Tərəflər razılıq əsasında Mərkəzlərin nümayəndəlik və filiallarını hər iki dövlətin digər şəhərlərində də açа bilərlər.

Maddə 2

Azərbaycan Respublikasının İnformasiya-Mədəniyyət Mərkəzi, onun filialları və nümayəndəlikləri öz fəaliyyətini Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı diplomatik nümayəndəliyinin başçısının ümumi rəhbərliyi altında həyata keçirir. Azərbaycan Respublikası Mərkəzinin işini təmin edən təşkilatı Azərbaycan tərəfi əlavə olaraq müəyyən edəcəkdir.

Misirin İnformasiya-Mədəniyyət Mərkəzi, onun filialları və nümayəndəlikləri öz fəaliyyətini Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinin başçısının ümumi rəhbərliyi altında həyata keçirir.

Maddə 3

Mərkəzlər öz fəaliyyətini həyata keçirmək məqsədilə olduqları ölkənin nazirlikləri, idarələri, digər dövlət müəssisələri və təşkilatları, yerli hakimiyyət orqanları, cəmiyyətləri, assosiasiyaları, fondları və ayrı-ayrı fiziki şəxsləri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 4

Mərkəzlərin əsas vəzifələri aşağıdakılardır:

humanitar, elmi-texniki, mədəni və informasiya əlaqələri sahəsində əməkdaşlıq proqramlarının həyata keçirilməsində iştirak etmək;

ictimaiyyəti öz ölkələrinin tarixi, incəsənəti və mədəniyyəti, daxili və xarici siyasəti, elmi, mədəni və iqtisadi potensialı ilə tanış etmək;

yaradıcı, mədəni-maarifçilik və elmi təşkilatlar arasında əlaqələrin və əməkdaşlığın yaradılmasına və inkişaf etdirilməsinə kömək etmək, hər iki ölkə xalqlarının dilini öyrənmək;

iki ölkənin elmi-texniki və mədəni əməkdaşlığının genişləndirilməsinə əlverişli şərait yaratmaq məqsədilə Mərkəzlərin informasiya imkanlarından istifadə etmək, beynəl-

xalq, regional və milli hökumət və qeyri-hökumət təşkilatlarının xətti ilə əlaqələrin inkişafına yardım etmək;

humanitar, elmi-texniki, mədəni və professional əlaqələr sahəsində Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında beynəlxalq əlaqələrin inkişafına yardım etmək;

Azərbaycan Respublikasının və Misir Ərəb Respublikasının şəhərləri və regionları arasında tərəfdaşlıq (qardaşlaşma) münasibətlərinin yaradılmasına və inkişafına kömək etmək;

mədəniyyət, təhsil, elm və texnika sahəsində informasiya-reklam işini həyata keçirmək.

Maddə 5

Mərkəzlər (filiallar və nümayəndəliklər) onların üzərinə qoyulan vəzifələrə uyğun olaraq aşağıdakıları yerinə yetirirlər:

öz ölkələrinin mədəni, elmi-texniki, ictimai-siyasi və iqtisadi inkişaf məsələləri üzrə informasiya-məlumat fondları və məlumat bankı yaradırlar və onları zənginləşdirirlər, beynəlxalq humanitar, elmi, mədəni və işgüzar əməkdaşlıq problemləri üzrə konfranslar, simpoziumlar, məsləhətlər keçirirlər;

olduqları ölkənin maraqlı təşkilatlarını və vətəndaşlarını öz ölkəsinin təşkilatları ilə mədəniyyət, təhsil, elm, texnika sahəsində münasibətlərin yaradılması məsələləri üzrə informasiya və məsləhət xidməti ilə təmin edirlər;

olduqları ölkədə daimi yaşayan həmvətənləri arasında mədəni-maarifçilik və informasiya fəaliyyəti həyata keçirir, onların birlikləri ilə əlaqə saxlayırlar;

öz ölkələrinin mədəniyyəti idarə edən dövlət orqanları ilə birgə bədii kollektivlərin və ayrı-ayrı ifaçıların çıxışlarını, tele və kino baxışları təşkil edir, həmçinin eksponat və foto sərgiləri, bədii əsərlərin və xalq yaradıcılığı nümunələrinin sərgilərini keçirirlər;

işlərinə yerli ictimaiyyətin və işgüzar dairələrin nüfuzlu nümayəndələrini, görkəmli elm və mədəniyyət xadimlərini, həmçinin mətbuat vasitələrini cəlb etməklə öz fəaliyyətinin müxtəlif istiqamətləri üzrə ictimai şuralar və klublar yaradırlar;

öz ölkələrində təhsil almağa və təcrübə keçməyə olduqları ölkə vətəndaşlarının seçilib göndərilməsi, öz dövlətlərinin tədris müəssisələri məzunlarının assosiasiyaları və klublarının bu tədris müəssisələri ilə əlaqə saxlaması işinə kömək göstərirlər, həmçinin olduqları ölkədə məzunlara ixtisas artırmaq üçün seminarlar təşkil edirlər;

Tərəflər arxivlərin, institutların, məscid və universitetlərin, kitabxanaların mühafizəsində olan tarixi-mədəni (yazılı) abidələrin və sənədlərin surətlərinin, həmçinin həmin materialları əhatə edən kataloqların və nəşrlərin mübadiləsini həyata keçirirlər;

olduqları ölkənin maraqlı təşkilatları və ayrı-ayrı vətəndaşları üçün Mərkəzlərdə kitabxanaların fəaliyyətini və digər informasiya xidmətlərinin işini təmin edirlər;

birgə tədbirlərin keçirilməsi üçün olduqları ölkənin assosiasiyaları və dostluq cəmiyyətləri, tədris, mədəniyyət və elmi idarələri ilə, üçüncü ölkələrin mədəniyyət-informasiya mərkəzləri ilə əməkdaşlıq edirlər.

Maddə 6

Mərkəzlər (filiallar və nümayəndəliklər) yerləşmə ölkəsinin qanunvericiliyinə müvafiq olaraq hüquqi şəxs kimi qeydiyyata alınırlar.

Maddə 7

Mərkəzlər (filiallar və nümayəndəliklər) yerləşmə ölkəsinin razılığı ilə öz binalarından kənarda bu Sazişin 5-ci Maddəsində nəzərdə tutulan tədbirləri həyata keçirə bilərlər.

Maddə 8

Tərəflər Mərkəzin (filialların və nümayəndəliklərin) təşkil etdiyi tədbirlərə ictimaiyyətin sərbəst buraxılmasını təmin edirlər.

Tərəflər Mərkəzin (filialların və nümayəndəliklərin) heyətinin və binalarının, həmçinin onların keçirdiyi tədbirlərin təhlükəsizliyini təmin etmək üçün qarşılıqlı əsasda zəruri tədbirlər görürlər.

Maddə 9

Mərkəzlərin (filialların və nümayəndəliklərin) öz informasiya-mədəni fəaliyyəti qeyri-kommersiya əsasında həyata keçirilir. Mərkəzlər xərclərinin qismən ödənilməsi üçün aşağıdakıları edə bilərlər:

olduqları ticarət şəbəkəsindən satılmaması və bunun ticarət fəaliyyəti qaydalarına xələl gətirməməsi, həmçinin əqli mülkiyyət hüquqlarının pozulmaması şərtilə təşkil etdiyi tədbirlərə aidiyyəti olan dövri nəşrləri, kataloqları, afişaları, poqramları, kitabları, şəkil və reproduksiyaları, musiqi alətlərini və ləvazimatlarını, plastinkaları, məmulatın yazılış üsulundan asılı olmayaraq digər əşyaları satmaq;

Mərkəzə gələnlərə xidmət göstərilməsi üçün Mərkəzin binasına daxil olan kitabxanalara və restoranlara malik olmaq.

Maddə 10

Tərəflər, onların dövlətlərinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq qarşılıqlı şəraitdə Mərkəzlərin (filialların və nümayəndəliklərin) yerləşməsi üçün münasib torpaq sahələri verilməsində, həmçinin binaların (otaqların) icarəsində, alınmasında və tikilməsində bir-birinə kömək edəcəklər.

Tikintisinə razılıq aldıqdan sonra Mərkəzlərin (filialların və nümayəndəliklərin) yerləşdirilməsi, tikilməsi və sahmana salınması üzrə işləri göndərən Tərəf, yerləşmə dövlətinin şəhərsalma qaydalarına müvafiq olaraq, podratçını özü seçərək dəvət etməklə aparacaqdır.

Maddə 11

Mərkəzlər (filiallar və nümayəndəliklər) və onların heyəti üçün vergi rejimi yerləşdiyi ölkənin milli qanunvericliyinə və Tərəflər arasında "Vergiqoymanın aradan qaldırılması, gəlirlərə və əmlaka görə vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya" qüvvəyə mindiyi təqdirdə, həmin razılaşmada nəzərdə tutulmuş qaydalara əsasən müəyyən edilir.

Maddə 12

Tərəflər mədəniyyət mərkəzlərinin yaradılması və fəaliyyətinin həyata keçirilməsi üçün avadanlıqların idxalını qəbul edən Tərəfin qüvvədə olan gömrük qanunvericiliyinə və idxal haqqında qanunlarına uyğun olaraq qarşılıqlı şəkildə sadələşdirəcəklər. Qəbul edən Tərəf göndərən dövlətin Mərkəzinin əməkdaşlarına daşınar əmlaklarını bu məsələ ilə əlaqədar milli qanunvericiliyə uyğun olaraq gətirməyə və aparmağa icazə verəcəkdir.

Maddə 13

Tərəflərdən hər biri öz Mərkəzinin (filiallarının və nümayəndəliklərinin) heyətini təyin edir. Bu heyət göndərən ölkənin və ya üçüncü ölkənin vətəndaşlarından təşkil edilə bilər. Sonuncu halda təyin edilmə yerləşmə ölkəsinin hakimiyyət orqanları ilə razılaşdırmalıdır.

Mərkəzlərin direktorları Tərəflər arasında razılığa əsasən göndərən ölkənin diplomatik nümayəndəliyinin heyətinin üzvü ola bilər.

Tərəflər Mərkəzlərin (filialların və nümayəndəliklərin) heyətinin komplektləşdirilməsi, həmçinin əməkdaşların vəzifəyə təyin olunması və ya onların vəzifədən azad olmaları barədə qarşılıqlı şəkildə bir-birinə məlumat verəcəklər.

Maddə 14

Mərkəzlərin (filialların və nümayəndəliklərin) göndərən dövlətin vətəndaşı olan və yerləşmə ölkəsində daimi yaşamayan əməkdaşlarına və onların ailə üzvlərinə göndərən dövlətin əmək və sosial təminat qanunvericiliyi şamil edilir.

Maddə 15

Hər bir Tərəf qarşılıqlı şəkildə digər Tərəfin Mərkəzinin (filialının və nümayəndəliyinin) heyət üzvlərinə, həmçinin onlarla birgə yaşayan ailə üzvlərinə vizalar və qəbul edən dövlətdə yaşamasına razılıq verilməsi məsələləri üzrə onun qanunvericiliyində nəzərdə tutulan güzəştləri verir.

Maddə 16

Hər bir Tərəf, zəruri halda, Mərkəzlərin (filialların və nümayəndəliklərin) xarici əməkdaşları üçün mənzillər seçilməsinə kömək göstərəcəkdir.

Maddə 17

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı mübahisələr danışıqlar yolu ilə həll olunacaqdır.

Maddə 18

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün müvafiq dövlətdaxili prosedurları yerinə yetirmələrini təsdiq edən sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və müvafiq dövrün qurtarmasına ən azı altı ay qalmış bir Tərəf onun qüvvəsinin ləğv edilməsi niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik dövrlərə uzadılacaqdır.

Bakı şəhərində 2 mart 2005-ci il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduqda, ingilis dilində olan mətnə istinad olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti təsdiq edilsin.

Azərbaycan Respublikası Milli Məclisinin sədri

M.ƏLƏSGƏROV

Bakı şəhəri, 17 iyun 2005-ci il

№ 940-IIQR.

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

Hörmətli həmkarlar,

Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsində Avropa Şurasının beynəlxalq hüquq prinsiplərinə və normalarına əsaslanan obyektiv mövqeyini yüksək qiymətləndirir. Bu il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının iclasında AŞPA-nın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini əks etdirən 1416 nömrəli qətnamənin qəbul edilməsi münaqişənin tənzimlənməsi üçün göstərilən beynəlxalq səylərə sanballı töhfə olmuşdur. Qətnamədə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və həmin ərazilərdə etnik təmizləmə aparılması faktları öz əksini tapmışdır. Digər tərəfdən, Avropa Şurasının üzvü olan dövlət tərəfindən xarici ərazilərin işğalının həmin dövlətin təşkilat qarşısında götürdüyü öhdəlikləri ciddi surətdə pozduğu bəyan edilmiş, güc vasitəsi ilə ilhaq cəhdi rədd olunmuş, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinad olunmuş, silahlı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması zərurəti göstərilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

Ərazisinin 20 faizinin işğal altında olmasına, 1 milyondan çox vətəndaşının qaçqın və köçkün vəziyyətində yaşamasına baxmayaraq, Azərbaycan Respublikası Ermənistanın

ölkəmizə təcavüzünün nəticələrinin dinc vasitələrin köməyi ilə aradan qaldırılmasına çalışır. Dövlətimiz Avropa Şurası qarşısında götürdüyü müvafiq öhdəliyə sadiq olub, bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak edir. Münaqişənin həlli məsələsində ölkəmizin tutduğu mövqe tamamilə ədalətli olub, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına əsaslanır. Ermənistan Respublikasının silahlı qüvvələrinin ölkəmizin ərazisindən çıxarılması, işğal olunmuş torpaqların azad edilməsi, dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa edilməsi, qaçqın və köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması barədə bizim dövlətimizin tələbləri BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarlarının, Avropa Şurasının sənədlərinin, o cümlədən yuxarıda adı çəkilən 1416 nömrəli qətnaməsinin ruhuna və mətninə tam uyğundur.

Təəssüf ki, Ermənistan Respublikası beynəlxalq birliyin tələblərinə məhəl qoymayaraq, Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Ermənistan dövləti sülh danışıqları prosesini pozan qanunsuz hərəkətlərə yol verir, işğal edilmiş ərazidə yaratdığı separatçı rejimə qanuni don geyindirməyə cəhdlər göstərir.

Məlum olmuşdur ki, bu il iyunun 19-da Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində qondarma "Dağlıq Qarabağ respublikasının parlamenti"nə "seçkilər" keçirilməsi nəzərdə tutulur.

Oyuncaq rejimi qanuniləşdirməyə yönəldilən bu "seçkilər" hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına, beynəlxalq təşkilatların sənədlərinin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının 1416 nömrəli qətnaməsinin tələblərinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olub, heç bir hüquqi qüvvəyə malik deyildir və heç bir hüquqi nəticə doğura bilməz. Qarabağın dağlıq hissəsindən qovulmuş 50 min azərbaycanlının adi vətəndaş hüquqlarını kobudcasına pozan bu növbəti siyasi təxribat əməli işğalçı qüvvələrin dəstəyinə arxalanan erməni separatçılarının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması səylərinə mane olmaq niyyətindən əl çəkmək istəmədiklərini, bölgədə əmin-amanlıq yaradılmasına imkan verməmək üçün hər şeyə hazır olduqlarını göstərir.

Xüsusi narahatlıq doğuran məqamlardan biri də budur ki, Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində keçiriləcək qanunsuz siyasi tədbirdə bəzi ölkələrdən nümayəndə heyətlərinin, parlament deputatlarının və digər siyasi xadimlərin müşahidəçi qismində iştirak etməsi gözlənilir. Həm də bu ölkələrin, demək olar, hamısı Avropa Şurasının üzvləridir. Şübhə yoxdur ki, onların qanunsuz aksiyada iştirak etməsi Avropa Şurasının üzvü olan dövlətin suverenliyinə və ərazi bütövlüyünə aşkar hörmətsizlikdən başqa bir şey deyildir. Beynəlxalq birlik, o cümlədən Avropa Şurası Azərbaycan Respublikasının işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində keçirilməsi nəzərdə tutulan siyasi təxribat əməlinə etinasız qalmamalıdır. Azərbaycan Respublikasının Milli Məclisi tələb edir ki, qondarma "Dağlıq Qarabağ respublikasının parlamenti"nə "seçkilər" keçirilməsi qətiyyətlə pislənilsin, Avropa Şurasına daxil olan ölkələrin rəsmi nümayəndələrinin bu "seçkilər"də müşahidəçi qismində iştirakı Avropa Şurasının prinsiplərinə zidd olduğundan, yolverilməz hesab edilsin. Azərbaycan Respublikasının parlamenti Avropa Şurasının Parlament Assambleyasını Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə kömək

etmək üçün səylərini artırmağa çağırır.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2005-ci il 17 iyun tarixli iclasında qəbul edilmişdir.)

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və onun Protokolunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və onun Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı və onun Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Çexiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 iyun 2005-ci il

№854

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Narkotiklərə nəzarət sahəsində regional əməkdaşlıq haqqında qarşılıqlı anlaşma Memorandumunun iştirakçı ölkələrində (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistan) narkotiklərə nəzarət üzrə hüquq mühafizə fəaliyyəti sahəsində interaktiv kompüterləşmiş təlim" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Narkotiklərə nəzarət sahəsində regional əməkdaşlıq haqqında qarşılıqlı anlaşma Memorandumunun iştirakçı ölkələrində (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistan) narkotiklərə nəzarət üzrə hüquq mühafizə fəaliyyəti sahəsində interaktiv kompüterləşmiş təlim" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamını 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Şamil oğlu Həsənova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 iyun 2005-ci il

№855

2004-cü il noyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il noyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 iyun 2005-ci il

№856

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün İnkişaf Fondu arasında "Qanunvericilik və siyasət çərçivəsində qadın hüquqları və gender bərabərliyinin dəstəklənməsinə dair Anlaşma Məktubu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün İnkişaf Fondu arasında "Qanunvericilik və siyasət çərçivəsində qadın hüquqları və gender bərabərliyinin dəstəklənməsinə dair Anlaşma Məktubunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Tahir qızı Quliyevaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Qadın Problemləri Dövlət Komitəsinin sədri Zəhra Tahir qızı Quliyevaya verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Qadınlar

üçün İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 iyun 2005-ci il

№857

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" Sazişin (2003-2004-cü illər üzrə) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" 2005-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Saziş (2003-2004-cü illər üzrə) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2005-ci il

№946-IIQ

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş

(2003-2004-cü illər üzrə)

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında mövcud dostluq əlaqələri ruhunda,

bu dostluq əlaqələrinin tərəfdaşlığa əsaslanan maliyyə əməkdaşlığı vasitəsilə daha da möhkəmləndirilməsini və dərinləşdirilməsini arzulayaraq, bu əlaqələrin dəstəklənməsinin bu Sazişin əsasını təşkil etdiyini dərk edərək, Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafına kömək etmək məqsədilə, 2002-ci ilin 24-26 sentyabr tarixlərində Bakı şəhərində inkişaf naminə

əməkdaşlığa dair keçirilmiş hökumətlərarası danışıqlara istinad edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

(1) Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökuməti üçün və ya hər iki Hökumət tərəfindən birgə seçiləcək benefisiar üçün Kreditanştalt für Videraufbau (Frankfurt am Mayn) Bankından aşağıdakı vəsaitlərin alınmasına imkan yaradır:

1. Əmanətlərin sığortalanması sisteminin yaradılmasının dəstəklənməsi məqsədilə

5.000.000 avro (sözlə: beş milyon avro) həcminə qədər ssuda;

2. Əmanətlərin sığortalanması sisteminin yaradılması üçün zəruri müşayiətedici tədbirlərin görülməsi üçün 1.000.000 avro (sözlə: bir milyon avro) həcminə qədər maliyyə qrantı;

3. "Açıq kommunal infrastruktur proqramı" layihəsinin vəsaitlərinin artırılması üçün 10.000.000 avro (sözlə: on milyon avro) həcminə qədər ssuda.

(2) 1-ci bənddə göstərilən layihələr Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında qarşılıqlı razılaşma əsasında başqa layihələrlə əvəz edilə bilər.

(3) Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə gələcəkdə Kreditanştalt für Videraufbau Bankından 1-ci bənddə göstərilmiş layihələri hazırlamaq məqsədilə digər ssuda və ya maliyyə qrantları və ya 1-ci bənddə göstərilmiş layihələrin həyata keçirilməsi və dəstəklənməsi üçün zəruri olan müşayiətedici tədbirləri görmək məqsədilə digər maliyyə qrantlarını almaq imkanını yaratdığı halda, bu Saziş tətbiq edilir.

(4) 1-ci bəndin 2-ci yarımbəndində və 3-cü bənddə hazırlıq və müşayiətedici tədbirlər üçün nəzərdə tutulmuş maliyyə qrantları qeyd olunan tədbirlər üçün istifadə edilməzsə, onlar ssudaya çevriləcəkdir.

Maddə 2

(1) Bu Sazişin 1-ci maddəsində göstərilən məbləğlərin istifadəsi, onların verilmə şərtləri, habelə sifarişlərin yerləşdirilməsi prosedurları Almaniya Federativ Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Kreditanştalt für Videraufbau Bankı və benefisiar arasında imzalanacaq müqavilələrlə müəyyən ediləcəkdir.

Bu Sazişin 1-ci maddəsinin 1-ci bəndinin 1-3-cü yarımbəndlərində göstərilmiş məbləğlərin verilməsi üzrə öhdəliklər, onlar barəsində öhdəliyin verildiyi ildən etibarən 8 il ərzində müvafiq ssuda və maliyyə qrantı müqavilələri imzalanmazsa, qüvvədən düşmüş hesab olunur. Bu məbləğlər üçün müddət 31 dekabr 2010-cu il tarixində bitir.

(2) Azərbaycan Respublikası Hökuməti, əgər özü bilavasitə borcalan deyilsə, müvafiq qaydada imzalanacaq 1-ci bənddə göstərilən müqavilələrlə əlaqədar borcalanların öhdəlikləri üzrə bütün ödənişlərin Avro ilə həyata keçirilməsi üçün Kreditanştalt für Videraufbau Bankına zəmanət verəcəkdir.

(3) Azərbaycan Respublikası Hökuməti, əgər özü bilavasitə maliyyə qrantı alan tərəf deyilsə, müvafiq qaydada imzalanacaq 1-ci bənddə göstərilən maliyyələşdirmə müqavilələrilə əlaqədar yarana biləcək məbləğlərin geriyə qaytarılması üzrə mümkün iddialar üçün Kreditanştalt für Videraufbau Bankına zəmanət verəcəkdir.

Maddə 3

Azərbaycan Respublikası Hökuməti Kreditanştalt für Videraufbau Bankını bu Sazişin 2-ci maddəsində göstərilən müqavilələrin bağlanması və həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasında tutulan bütün vergi və digər dövlət yığımlarından azad edir.

Maddə 4

Azərbaycan Respublikası Hökuməti ssudanın və maliyyə qrantının verilməsi ilə əlaqədar şəxslərin və yüklərin dəniz, quru və hava nəqliyyatı ilə daşınmasında nəqliyyat şirkətlərinin sərbəst seçimini sərnişinlərin və malgöndərənlərin ixtiyarına buraxır, Almaniya Federativ Respublikasında qeydiyyatda olan nəqliyyat şirkətlərinin bərabərhüquqlu iştirakını istisna edən və ya mürəkkəbləşdirən heç bir tədbir görmür, lazım olduğu təqdirdə bu nəqliyyat müəssisələrinin iştirakı üçün tələb olunan icazələri verir.

Maddə 5

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bakı şəhərində 25 fevral 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində və hər iki mətn eyni hüquqi qüvvəyə malik olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F.N.Bağırovun iqamətgahı Qahirə şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Faiq Nüsrət oğlu Bağırov iqamətgahı Qahirə şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyun 2005-ci il

№862

"Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB") Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsini və Ödəniş Zəmanətini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB"), Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. "Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB"), Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsi ilə əlaqədar Ödəniş Zəmanətini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci və 2-ci bəndlərində göstərilən sənədləri Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin müvafiq olaraq Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova və Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə "Bayern LB"-yə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyun 2005-ci il

№864

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Texniki Əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Texniki Əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2005-ci il

№870

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2005-ci il

№871

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2005-ci il

№872

Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin Rafi Oyl Ef.Ze.İ şirkəti arasında ümumi razılığın əldə edilməsi barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifini qəbul edərək qərara alıram.

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin Rafi Oyl Ef.Ze.İ şirkəti arasında Sazişin hazırlanması və imzalanması səlahiyyəti verilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin Rafi Oyl Ef.Ze.İ şirkəti arasında Sazişin qüvvədə olduğu müddət ərzində həmin Saziş üzrə dövlətin səlahiyyətlərinə aid olan məsələlər üzrə funksiyaları həyata keçirsin.

3. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş hazırlandıqdan sonra onu baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyul 2005-ci il

№875

T. M. Əliyevin Azərbaycan Respublikasının Moldova Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tələt Müseyib oğlu Əliyev Azərbaycan Respublikasının Moldova Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyul 2005-ci il

№879

"Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə balıq və digər dəniz məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə balıq və digər dəniz məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 14.5.1-ci bəndinə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"- Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac edilən balıq və digər dəniz məhsullarına keyfiyyət sertifikatı.".

2. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 574) 1-ci bəndinin ikinci abzasında "Dövlət Agentliyi" sözlərindən sonra "; Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac edilən balıq və digər dəniz məhsullarına keyfiyyət sertifikatının verilməsində - Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi" sözləri əlavə edilsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2005-ci il

№256

2005-ci il aprelin 14-də İstanbul şəhərində imzalanmış "Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il aprelin 14-də İstanbul şəhərində imzalanmış "Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2005-ci il

№881

Azərbaycan - Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu

1992-ci ilin 2 noyabr tarixində Ankarada imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"in 9-cu maddəsinə uyğun olaraq yaradılmış Azərbaycan-Türkiyə Müştərək İqtisadi Komissiyasının (bundan sonra "Komissiya" adlanacaqdır) üçüncü iclası 2005-ci il 12-14 aprel tarixində Türkiyədə keçirilmişdir.

İclasda Türkiyə nümayəndə heyətinə Dövlət naziri cənab Mehmet Aydın, Azərbaycan Respublikası nümayəndə heyətinə isə Baş nazirin müavini cənab Abid Şərifov rəhbərlik etmişdir. Hər iki ölkənin nümayəndə heyəti üzvlərinin siyahısı I və II əlavələrdə göstərilmişdir.

Komissiyanın qarşılıqlı anlaşma və ənənəvi dostluq şəraitində keçirilmiş iclasında Tərəflər ticarət və iqtisadi əlaqələri müzakirə edərək mövcud əlaqələrin qarşılıqlı fayda əsasında inkişaf etdirilməsi məqsədilə bütün imkanların səfərbər edilməsinə yönəlmiş zəruri tədbirlərin həyata keçirilməsinə hazır olduqlarını ifadə etmişlər.

Komissiyanın iclasında aşağıda öz əksini tapmış məsələlər üzrə razılıq əldə olunmuşdur.

I. Hüquqi çərçivə

Tərəflər Türkiyə və Azərbaycan Respublikası arasında ticarət və iqtisadi əlaqələrin hüquqi çərçivəsini təşkil edən ticarət və iqtisadi əməkdaşlıq, ikiqat vergitutmanın aradan qaldırılması və sərmayələrin qarşılıqlı təşviqi və qorunması sazişlərinin həyata keçirilməsində hər hansı bir problemlə üzləşmədiklərini təsdiq etmişlər.

İcra planı

Tərəflər 2004-cü il 13 aprel tarixində imzalanmış Uzunmüddətli İqtisadi Əməkdaşlıq Sazişi əsasında hazırlanması qərarlaşdırılmış İcra Planının ən qısa müddətdə yekunlaşdırılaraq təsdiq edilməsi məsələsində razılığa gəlmişlər.

II. Ticarət əlaqələri

İki ölkə arasında ticarət əlaqələrini bütövlükdə nəzərdən keçirən Tərəflər ticarət əlaqələrinin inkişaf etdirilməsi və genişləndirilməsi məsələlərində ümumi fikrə gəlmişlər. Tərəflər Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesindəki məsələləri nəzərdən keçirmişlər. Bu çərçivədə Türkiyə tərəfi Azərbaycanın ÜTT-yə üzv olmasını dəstəkləyəcəyini və bu məqsədlə Azərbaycana ehtiyac

duyulan hər cür texniki yardımın stəriləcəyini ifadə etmişdir.

1. Xarici ticarət

Tərəflər iki ölkə arasındakı ticarət əlaqələrinin inkişafını nəzərdən keçirmiş, mövcud ticarət dövriyyəsinin qarşılıqlı fayda əsasında genişləndirilməsi vasitəsilə davamlı olaraq artırılması üçün zəruri səylərin göstərilməsi üzrə razılığa gəlmişlər.

2. Gömrük işi

Tərəflər gömrük işi sahəsində hər hansı bir problemlə qarşılaşmadıqlarını məmnuniyyətlə qeyd etmişlər. Azərbaycan tərəfi qiymət və risk təhlilləri mövzusunda Azərbaycan mütəxəssisləri üçün tədris proqramının həyata keçirilməsini xahiş etmişdir. Türkiyə tərəfi bu xahişi nəzərə almış və məsələ ilə bağlı müfəssəl məlumatı Azərbaycan tərəfinə bildirəcəyini ifadə etmişdir.

3. Mübahisələrin həlli mexanizmi

Tərəflər müvafiq ölkələrlə müzakirələri davam edən Avrasiya Mübahisələrin Həlli Mərkəzinin təsis edilməsi ilə bağlı müqavilənin tərəf ölkələrinin özəl sektorları arasında meydana çıxa biləcək anlaşılmazlıqların dostcasına həllinə imkan verəcəyini məmnuniyyətlə qeyd etmişlər.

4. Azərbaycan-Türkiyə İşgüzar Komissiyası

Tərəflər Azərbaycan-Türkiyə İşgüzar Komissiyasının müştərək iclasının 2005-ci ilin ikinci yarısında Bakıda keçirilməsi və Azərbaycanın sənaye potensialının yerində öyrənilməsi məqsədilə ölkənin müxtəlif şəhərlərinə səfərlərin təşkil edilməsi məsələsində razılığa gəlmişlər.

5. Qeyri-tarif maneələri

Tərəflər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində həyata keçirilən, üzv ölkələr arasında qeyri-tarif maneələrinin aradan qaldırılmasına yönəlmiş fəaliyyətdə səmərəli əməkdaşlıq etmək və siyahısı Türkiyə tərəfindən hazırlanan bu maneələrin aradan qaldırılması məqsədilə regional əməkdaşlığı davam etdirmək barədə razılığa gəlmişlər.

III. Kredit əlaqələri

Tərəflər Türkiyənin Eksimbankı tərəfindən Azərbaycan Beynəlxalq Bankına göstərilmiş maliyyə dəstəyinin iki ölkə arasındakı əlaqələrə verdiyi töhfəni qeyd edərək, bu xüsusda Azərbaycanın Türkiyə Eksimbankı və Türkiyə Respublikasının Xəzinəsinə olan dövlət borclarının ödənilməsi ilə bağlı sazişlərin imzalanması üçün hazır olduğunu məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər Azərbaycanda diplomatik kompleksin inşası layihəsi ilə bağlı imzalanmış sazişlər çərçivəsində Azərbaycana verilmiş 10 milyon ABŞ dolları məbləğində kreditin qaytarılmasına dair müzakirələrin 2004-cü ildə başlandığını məmnuniyyətlə dəyərləndirərək, kreditin geri ödənilməsi qrafikinin ən qısa müddətdə restrukturizasiyası məqsədilə səy göstərilməsi məsələsində razılığa gəlmişlər.

IV. İqtisadi əlaqələr

1. Sənaye sahəsində əməkdaşlıq

Tərəflər kiçik və orta müəssisələr sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Türkiyənin kiçik və orta sənayenin inkişafı və dəstəklənməsi təşkilatı (KOSGEB) və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığın İnkişafı Departamenti arasında qarşılıqlı təmas və səfərlərin başlanması qərarına gəlmişlər. Bu çərçivədə Tərəflər, sözügedən qurumlar arasında aşağıda qeyd edilən sahələr də daxil olmaqla, əməkdaşlıq proqram və layihələrini dəstəkləməyi qərara almışlar:

- kiçik və orta müəssisələri dəstəkləyən qurumlar arasında məlumat və təcrübə mübadiləsi;
- kiçik və orta müəssisələrlə bağlı məlumat bazasının qarşılıqlı istifadəsi;
- hər iki ölkədə kiçik və orta müəssisələr üzrə mütəxəssislərin təmaslarının asanlaşdırılması, qarşılıqlı tədris və məlumatlandırma məqsədilə səfərlərin təşkil edilməsi;
- Türkiyə və Azərbaycanın kiçik və orta müəssisələri arasında ticarət təmasları, texnologiyaların ötürülməsi, müştərək sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq etməyə istiqamətlənmiş və KOSGEB tərəfindən həyata keçirilən "Uzlaşdırma Mərkəzi" modelinin həyata keçirilməsi.

Tərəflər bununla yanaşı, Türkiyə Standartlar İnstitutu və Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi arasında mövcud əməkdaşlığın inkişaf etdirilməsi məsələsinə zəruri dəstək verəcəklərini ifadə etmişlər.

2. Enerji sahəsində əməkdaşlıq

Tərəflər Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edən, ekoloji tələblərə cavab verən Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) layihələrinə dəstəklərini bir daha ifadə etmişlər.

Tərəflər BTC layihəsinin regionun bütün ölkələrinin sosial-iqtisadi inkişafına təkan verməsini təmin etmək məqsədilə digər aidiyyəti ölkələrin də ən qısa müddətdə BTC layihəsinə qoşulması məsələsinə əhəmiyyət verdiklərini ifadə etmişlər.

Tərəflər BTC kəmərinin təhvil verilməsinə dair hər iki ölkənin davamlı fəaliyyətindən nəticə hasil olacağına dair inamlarını bir daha vurğulayaraq, boru kəməri vasitəsilə nəql ediləcək neftin ölkələrin iqtisadiyyatına gətirəcəyi fayda və ikitərəfli əlaqələrə verəcəyi töhfənin əhəmiyyətini qeyd etmişlər.

Tərəflər "Azəri-Çıraq-Günəşli" layihəsində birinci faza olaraq qəbul edilən Mərkəzi Azəri sahəsində ticarətə istiqamətlənmiş hasilatın başlanmasından duyduqları məmnunluğu ifadə etmişlər.

Tərəfləri maraqlandıran "Şahdəniz" layihəsinin cari vəziyyəti nəzərə alınaraq yubanmaya yol vermədən yekunlaşdırılması məqsədilə iki ölkənin sıx fəaliyyətinin davam etdiriləcəyinə dair razılıq əldə etmişlər.

Türkiyə tərəfi xüsusən "Şahdəniz" layihəsinin ikinci fazası çərçivəsində hasilat planlarının davam etdiyi dönəmdə, buradan hasil ediləcək qazın işlənilməsi haqda, tikintisi sürətlə davam edən Türkiyədən digər Avropa dövlətlərinə təbii qaz boru kəməri layihələri çərçivəsində dəyərləndirilməsinin hər iki ölkə üçün əhəmiyyətini vurğulayaraq,

Azərbaycan Hökumətinin layihə ortaqları ilə müzakirələr aparmasının faydalı olacağını ifadə etmişdir.

Türkiyə tərəfi Türkiyə Milli Neft Şirkəti olan TPAO/TPİC-in Azərbaycanın quru sahələrinə olan marağını bəyan etmiş, Azərbaycan tərəfi də TPAO/TPİC-in bu marağına əhəmiyyət verildiyini ifadə etmişdir.

Bu çərçivədə, Tərəflər Qıvırdağ neft yatağındakı ARDNŞ-nin payının TPAO/TPİC tərəfindən alınması ilə bağlı müzakirələrin başlanmasını dəstəkləyirlər. Tərəflər Türkiyədən Naxçıvana elektrik enerjisinin ötürülməsi ilə bağlı yaranmış borclarla əlaqədar bütün texniki və maliyyə məsələlərinin müzakirə olunması məqsədilə iki ölkənin aidiyyəti qurumlarının üç ay ərzində müzakirələrə başlaması barədə razılığa gəlmişlər.

Tərəflər QDİƏT çərçivəsində elektrik enerjisi sahəsində işləniləcək müştərək əməkdaşlıq çərçivəsində Regional Ötürülmənin Planlaşdırılması Layihəsinə başlanmasından məmnunluq duyacaqlarını ifadə etmişlər. Bununla yanaşı, Tərəflər bərpa edilən enerji mənbələri (günəş, külək və hidravlik) və enerji səmərəliliyi sahələrində əməkdaşlıq istiqamətlərini müəyyən etmək və əməkdaşlıq məsələlərində fəaliyyətin davam etdirilməsində razılığa gəlmişlər.

3. Birbaşa sərmayələr və podratçılıq xidmətləri sahəsində əməkdaşlıq

a. Birbaşa sərmayələr

Tərəflər istər Türkiyənin Azərbaycana sərmayə qoyuluşunun artırılması, istərsə də Türkiyədə Azərbaycan sərmayələri ilə şirkətlərin təsis edilməsi məsələsində hər cür səylərin göstəriləcəyi barədə razılığa gəlmişlər.

b. Podratçılıq xidmətləri

Tərəflər sərmayə qoyuluşu və podratçılıq xidmətləri sahəsində əməkdaşlığın iki ölkənin iqtisadi və ticarət əlaqələrində əhəmiyyətli bir element olduğunu vurğulayaraq, bu sahələrdəki əməkdaşlığın inkişaf etdirilməsi və yaranan problemlərin sürətli və prioritet şəkildə həlli məsələsində razılığa gəlmişlər.

V. Kənd təsərrüfatı

Tərəflər kənd təsərrüfatı sahəsində iki ölkə arasındakı əməkdaşlığı genişləndirmək və bu günə qədər qəbul olunmuş qərarların icra vəziyyətini və uyğunluğunu qiymətləndirmək məqsədilə "Kənd Təsərrüfatı sahəsində Elmi, Texniki və İqtisadi Əməkdaşlıq Protokolu" çərçivəsində yaradılmış "Türkiyə Azərbaycan Kənd Təsərrüfatı İcra Komitəsi"nin növbəti 4-cü iclasının 2005-ci ilin uyğun tarixlərində Bakıda keçirilməsi barədə razılığa gəlmişlər.

VI. Nəqliyyat sahəsində əməkdaşlıq

Tərəflər, ticarət və iqtisadi əlaqələrin arzuolunan səviyyədə genişləndirilməsi məqsədilə nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi istiqamətində ikitərəfli və tranzit daşımaları imkanlarının araşdırılmasının və nəqliyyat xərclərinin aşağı salınmasının əhəmiyyətini vurğulamışlar.

1. Avtomobil nəqliyyatı

Tərəflər avtomobil nəqliyyatı sahəsində əməkdaşlığı nəzərdən keçirərək, keçid prosedurlarının sadələşdirilməsinin və nəqliyyat xərclərinin azaldılmasının qarşılıqlı ticarə-

tin artmasına müsbət təsir edəcəyini vurğulamışlar.

Türkiyə tərəfi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməcəyini diqqətə çəkərək, tranzit daşımalarının beynəlxalq normalara uyğunlaşdırılmasının əhəmiyyətini vurğulamışdır. Türkiyə tərəfi yetərli sayda ödənişsiz üçüncü ölkə icazələrinin mübadiləsini təklif etmişdir. Bununla bağlı, Tərəflər beynəlxalq avtomobil daşımaları üzrə Qarışıq Komissiyanın bu il Bakıda keçiriləcək toplantısında ödənişsiz üçüncü ölkə icazələrinin mübadiləsinin mümkünlüyünün müzakirə edilməsini qərara almışlar. Tərəflər Qars-Naxçıvan sərnişin avtomobil daşımalarının həyata keçirilməsi məqsədilə danışıqların başlanması barədə razılığa gəlmişlər.

2. Dəmir yolu nəqliyyatı

Tərəflər Türkiyə ilə Azərbaycan arasında dəmir yollarını birləşdirəcək Qars-Axalkalaki-Tiflis-Bakı dəmir yolu bağlantısının həyata keçirilməsinin vacibliyini vurğulayaraq, Türkiyə tərəfindən layihə-axtarış (marketinq) işlərinin 2005-ci ilin sonuna qədər tamamlanması və texniki-iqtisadi əsaslandırma sənədlərinin 2006-cı ilin iyul ayına qədər sona çatdırılması barədə razılığa gəlmişlər. Tərəflər Türkiyə ilə Azərbaycan arasında kombinə edilmiş yük daşımaları ilə bağlı müzakirələrə Azərbaycan tərəfindən təqdim ediləcək Saziş layihəsinin mətni əsasında başlanılması qərarına gəldilər. Tərəflər dəmir yolu nəqliyyatında əməkdaşlığın genişləndirilməsi məqsədilə TCDD ilə ADDY arasında əməkdaşlığın inkişaf etdirilməsi və dəmir yolu nəqliyyat vasitələrinə baxış, təmir və istehsal məsələsində əməkdaşlığın qurulmasını qərara almışlar. Bu çərçivədə qurumlar arasında yaradılacaq əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi məqsədilə tərəflər 2005-ci ilin son rübündə görüşün keçirilməsini qərara almışlar.

3. Dəniz və hava nəqliyyatı

Tərəflər dəniz nəqliyyatı üzrə iki ölkə arasında 2002-ci il avqustun 28-də imzalanmış Razılıq Sazişi çərçivəsində Bakı limanının genişləndirilməsində Türkiyə şirkətlərinin iştirakını, Azərbaycandakı tərsanələrin modernləşdirilməsi və yeni tərsanələrin tikilməsi istiqamətində əməkdaşlıq imkanlarının araşdırılmasını qərara almışlar.

Tərəflər iki ölkə limanları arasında əməkdaşlığın genişləndirilməsi, informasiya mübadiləsinin aparılması və limanların imkanlarının araşdırılması üzrə birgə işçi qrupunun yaradılmasını qərara almışlar. Azərbaycan tərəfi Bakı-Qars-İstanbul və ya Bakı-Qars-Ankara uçuşlarına başlanmasıyla əlaqədar təklif irəli sürmüşdür. Türkiyə tərəfi bu təklifi nəzərdən keçirəcəyini və Azərbaycan tərəfinə öz münasibətini bildirəcəyini vurğulamışdır.

VII. Rabitə və informasiya texnologiyaları

1. TRT yayımı

Tərəflər TRT İNT kanalının Azərbaycanda yayımlanması üçün görülən işlərin ən qısa müddətdə yekunlaşdırılması haqqında razılığa gəldilər. Bununla əlaqədar Türkiyədən nümayəndə heyətinin TRT yayımları ilə bağlı vericilər haqqındakı texniki çalışmaları yekunlaşdırmaq üzrə 2005-ci ilin aprel ayı ərzində Azərbaycana səfər etmələri haqqında qərara gəldilər. Tərəflər bu çalışmaların nəticəsinə uyğun TRT yayımı ilə bağlı maliyyə və hüquqi məsələləri müzakirə etmək və yekunlaşdırmaq məqsədilə bir araya gəlməyi qərara aldılar.

2. Fiberoptik kabel xətti

Tərəflər Trans-Asiya-Avropa fiberoptik kabel xəttinin Azərbaycan ilə Türkiyə arasındakı bağlantısının Gürcüstan ərazisindən keçməklə başa çatdırılması haqqında qarşılıqlı səy göstərilməsini qərara aldılar. Azərbaycan tərəfi Türkiyə ilə Naxçıvan arasında fiberoptik kabel xəttinin çəkilməsini təklif etmişdir. Türkiyə tərəfi bu təklifi nəzərdən keçirəcəyini və Azərbaycan tərəfinə öz münasibətini bildirəcəyini vurğulamışdır.

VIII. Turizm

Tərəflər hər iki ölkənin mədəni, tarixi və turizm dəyərlərinin və ənənələrinin qarşılıqlı olaraq tanıdılması və ölkələri arasında beynəlxalq turizm marşrutunun hazırlanması məqsədilə müvafiq nazirlik və qurumların iştirakı ilə işçi qrupunun yaradılması barədə razılığa gəlmişlər.

Tərəflər "Babaların Tarixi Zəfər və Şəhadət Yolu" adlı turizm marşrutunun təsbit və həyata keçirilməsində birgə fəaliyyət göstərilməsi və iki ölkə sərmayəçilərinin qeyd olunan layihəyə cəlb edilməsi barədə mövcud imkanlardan istifadə etmək qərarına gəlmişlər.

IX. Texniki əməkdaşlıq

Tərəflər Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında iqtisadi və sosial əməkdaşlığı inkişaf etdirmək üçün, 9 fevral 2004-cü il tarixində imzalanmış və artıq müddəti bitmiş Texniki Əməkdaşlıq Protokolunun Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə TİKA arasında ən yaxın müddətdə yenidən imzalanması üçün görüşlərin başa çatdırılması barədə razılığa gəldilər.

X. Naxçıvanın iqtisadiyyatı və Türkiyə ilə əlaqələri

Tərəflər Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafına dəstək verilməsi üçün yağlı toxumlu bitkilər və qarğıdalı istehsalının artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar lazım olan işlərin qısa müddətdə başlanmasına və əlavə olaraq tərəvəzçiliyin, bağçılığın, toxumçuluğun inkişafı və dəri aşılama müəssisələrinin yaradılması istiqamətində əməkdaşlıq etmək qərarına gəlmişlər.

Tərəflər, bundan başqa, Türkiyə və Naxçıvan Muxtar Respublikasının sərhəd və ətraf şəhərlərində iqtisadi fəaliyyətin artırılması məqsədilə İqdır-Sədərək sərhədində yaradılacaq Sərhəd Ticarət Mərkəzi (STM) ilə bağlı əməkdaşlığı davam etdirmək qərarına gəlmişlər.

Tərəflər ehtiyac olduğu təqdirdə, Dilucu-Sədərək sərhəd keçid məntəqəsində iş vaxtının qarşılıqlı uyğunlaşdırılması və iş saatlarının artırılmasının nəzərdən keçirilməsi barədə razılığa gəlmişlər.

Digər tərəfdən, Tərəflər Naxçıvan Muxtar Respublikasından Türkiyəyə daxil olan Azərbaycan vətəndaşları üçün tətbiq olunan, sərnişinlərin özləri ilə apardıqları yüklərin limitinin artırılması və tətbiq müddətinin uzadılmasından məmnun olduqlarını bildirdilər.

Tərəflər İqdır və Naxçıvan arasında nəqliyyatın keçid imkanlarının yaxşılaşdırılması məqsədilə həmin istiqamətdə mövcud yolun ikitərəfli yol olaraq inşası imkanlarının araşdırılmasına qərar verdilər.

Tərəflər Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyasının dördüncü iclasının tarixini diplomatik kanallar vasitəsilə dəqiqləşdirməklə Bakı şəhərində keçirilməsini qərara aldılar.

Bu Protokol 14.04.2005-ci il tarixində İstanbul şəhərində hər biri Azərbaycan və türk dillərində olmaqla eyni qüvvəyə malik iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*MEHMET AYDIN*
Baş nazirinin müavini	*Dövlət naziri*

Əlavə 1

Azərbaycan Respublikasının nümayəndə heyəti

Abid Şərifov	- Baş nazirin müavini, nümayəndə heyətinin rəhbəri
Məmməd Əliyev	- Azərbaycan Respublikasının Türkiyədəki Fövqəladə və Səlahiyyətli Səfiri
İbrahim Yaqubov	- Azərbaycan Respublikasının İstanbuldakı Baş konsulu
Həsən Zeynalov	- Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu
Ağadayı Ağayev	- Nazirlər Kabineti Aparatı Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri
Elçin Nadirov	- İqtisadi İnkişaf Nazirliyi Hüquq departamentinin direktoru
Fikrət Kərimov	- Nazirlər Kabineti Aparatı Xarici iqtisadi əlaqələr şöbəsinin baş məsləhətçisi
Sabir Rzayev	- Xarici İşlər Nazirliyi İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin referenti
Elxan Əliyev	- Kənd Təsərrüfatı Nazirliyi Beynəlxalq əlaqələr şöbəsi rəisinin müavini
Əli Qasımov	- Nəqliyyat Nazirliyi Nəqliyyat siyasəti sektorunun müdiri
İqbal Hüseynov	- Azərbaycan Dövlət Dəmir Yolu rəisinin iqtisadiyyat məsələləri üzrə müavini
Yaqub Novruzəliyev	- Nəqliyyat Nazirliyi "Avtonəqliyyatservis" departamenti Nəqliyyat müfəttişliyi idarəsi rəisinin müavini
İltimas Məmmədov	- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Tənzimləmə şöbəsinin müdiri
Elçin Qafarlı	- Gənclər, İdman və Turizm Nazirliyi Xarici turizm şöbəsinin müdiri
Arif Həmzəyev	- Dövlət Gömrük Komitəsi Maliyyə-tarif və valyuta nəzarəti baş idarəsi rəisinin müavini

Rakif Abbasov	- Dövlət Gömrük Komitəsi Maliyyə-tarif və valyuta nəzarəti baş İdarəsi Gömrük dəyəri şöbəsinin rəisi
Rəşad Qulamov	- Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində daimi nümayəndəsi
Vaqif Qasımov	- Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin birinci katibi
Ağalar Atamoğlanov	- Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin birinci katibi
Fuad Fərzəlibəyov	- Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin attaşesi
Pərviz Qədimov	- Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulluğunun konsulu
Dursun Həsənov	- Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulluğunun konsulu

Əlavə 2

Türkiyə Respublikasının nümayəndə heyəti

Prof. Dr. Mehmet Aydın	- Dövlət naziri, nümayəndə heyətinin rəhbəri
Şevket Ilgaç	- Baş direktorun müavini, Xarici Ticarət Müstəşarlığı, Anlaşmalar Genel Müdirliyi
Dr. Talat Şentürk	- Baş direktorun müavini, Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi, Kənd Təsərrüfatı Məhsulları İstehsalı və İnkişafı Baş İdarəsi
N. Ahmet Kuşhanoğlu	- Baş direktorun müavini, Nəqliyyat Nazirliyi, Dəmiryolları, Limanlar və Havayolları İnşaatı Baş İdarəsi
Ayhan Uzuner	- Baş direktorun müavini, Enerji və Təbii Ehtiyatlar Nazirliyi, TETAŞ Baş İdarəsi
Fatih Turhan	- Departament rəisi, Xarici Ticarət Müstəşarlığı, Anlaşmalar Baş İdarəsi
Kamuran Özden	- Departament rəisi, Səhiyyə Nazirliyi, Xarici Əlaqələr Departamenti
Serdar Guzey	- Departament rəisi, Xəzinə Müstəşarlığı, Xarici İqtisadi Əlaqələr Baş İdarəsi
Tülin Kalkay	- Departament rəisi, Türk Eksimbank.

"İqtisadi Əməkdaşlıq Təşkilatının üzv-dövlətləri arasında investisiyaların təşviqi və qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "İqtisadi Əməkdaşlıq Təşkilatının üzv-dövlətləri arasında investisiyaların təşviqi və qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə İqtisadi Əməkdaşlıq Təşkilatının Katibliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2005-ci il

№882

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün iştirak vasitəsilə uzunmüddətli davamlı inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi üzrə Texniki Yardıma dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün iştirak vasitəsilə uzunmüddətli davamlı inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi üzrə Texniki Yardıma dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2005-ci il

№883

"Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB"), Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsinin və Ödəniş Zəmanətinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il iyunun 29-da Bakı şəhərində imzalanmış "Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landeshank ("Bayern LB"), Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsi və Ödəniş Zəmanəti təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlər üzrə götürülmüş öhdəliklərin yerinə yetirilməsini öz səlahiyyətləri daxilində təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə "Bayern LB"ni xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyul 2005-ci il

№884

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyul 2005-ci il

№889

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Düzəlişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2005-ci il

№891

2005-ci il mayın 16-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il mayın 16-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2005-ci il

№892

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 20 may 2002-ci il tarixli

Müqavilənin müddəalarını rəhbər tutaraq,

sülhün, etimadın, sabitliyin möhkəmləndirilməsinə və Tərəflərin dövlətlərinin hərbi sahədə əlaqələrinin inkişafına töhfə vermək zərurətini nəzərə alaraq,

qarşılıqlı ehtiram və etimada əsaslanan əməkdaşlıq niyyətlərini ifadə edərək,

hərbi sahədə ikitərəfli təmasların inkişafının Tərəflərin dövlətləri arasında əlaqələrin genişlənməsinə səbəb olacağına əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Ümumi müddəalar

Tərəflər arasında hərbi sahədə əməkdaşlıq Azərbaycan Respublikasının və İran İslam Respublikasının müdafiə qabiliyyətlərinin möhkəmləndirilməsi məqsədilə həyata keçirilir və suverenlik, hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanır. Bu Sazişin müddəaları Tərəflərin beynəlxalq öhdəliklərinə toxunmur və üçüncü tərəfə qarşı yönəlmir.

Maddə 2

Əməkdaşlıq sahələri

Tərəflər aşağıda göstərilən sahələrdə əməkdaşlıq edəcəklər:

beynəlxalq təhlükəsizlik və müdafiə siyasəti;

silahlı qüvvələrin fəaliyyətinin hərbi-texniki və arxa cəbhə təminatı;

hərbi-iqtisadi fəaliyyət;

hərbi tarix;

hərbi tibb və səhiyyə;

silahlı qüvvələrdə hərbi, mədəni və idman tədbirləri;

hərbi-mülki əməkdaşlıq və hərbi-mülki fövqəladə planlaşdırma;

qarşılıqlı razılığa əsasən digər sahə və istiqamətlər.

Maddə 3

Əməkdaşlıq formaları

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

- Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarının rəhbərlərinin rəsmi səfərləri, nümayəndələrinin işçi görüşləri və məsləhətləşmələri;

- regiondakı hərbi-siyasi vəziyyət haqqında qarşılıqlı məlumatlandırma;
- hərbi-elmi tədqiqatlar, o cümlədən ən yeni hərbi texnologiyaların yaradılması üzrə;
- silahların və hərbi texnikanın qarşılıqlı təchizatı;
- hərbi əməkdaşlıq çərçivəsində mədəni və idman tədbirlərinin keçirilməsi;
- qarşılıqlı razılaşma əsasında digər əməkdaşlıq formaları.

Maddə 4

Səlahiyyətli orqanlar

Bu Sazişin müddəalarının bilavasitə həyata keçirilməsi üçün Tərəflər səlahiyyətli orqanları təyin edirlər:

- Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;
- İran Tərəfindən - İran İslam Respublikasının Müdafiə Nazirliyi.

Tərəflərin hərbi və hərbi-texniki əməkdaşlığının sahə və istiqamətlərinin həyata keçirilməsi və inkişaf etdirilməsi Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları arasında ayrıca ikitərəfli sazişlərin bağlanması və birgə tədbirlərin keçirilməsi yolu ilə həyata keçirilir.

Maddə 5

Əməkdaşlığın təşkili

Səlahiyyətli orqanlar, lazım gəldikdə, hər il növbəti il üçün cari ilin 15 dekabr tarixinədək razılaşdırılan və təsdiq edilən ikitərəfli əməkdaşlıq Planını tərtib edirlər.

İkitərəfli əməkdaşlıq Planı tədbirlərin adlarını, onların həyata keçirilməsi formalarını, keçirilmə vaxtı və yerini, məsul orqanları, iştirakçıların sayını və tədbirlərin təşkili və həyata keçirilməsi ilə bağlı digər məlumatları ehtiva edir.

Maddə 6

Maliyyə məsələləri

Tərəflər hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində tədbirlərin həyata keçirilməsi ilə bağlı maliyyə xərclərini qarşılıqlı razılaşma əsasında həyata keçirirlər.

Rəsmi səfərlərin və işçi görüşlərinin keçirilməsi zamanı Qəbul edən Tərəf digər Tərəfin nümayəndə heyətinin üzvlərinin aşağıdakılar üzrə məsrəflərini ödəyir:

- mehmanxana və yemək;
- öz dövlətinin ərazisində nəqliyyat və mədəni xidmətlər;
- öz hərbi-tibb müəssisələrində təxirəsalınmaz tibbi yardım təminatı.

Göndərən Tərəf öz nümayəndə heyətinin üzvlərinin Qəbul edən Tərəfin dövlətinin ərazisindəki ziyarət yerinə və geriyə gediş-gəliş xərclərini öz hesabına təmin edir.

Bu Sazişin müddəalarının müxtəlif əməkdaşlıq sahələrində həyata keçirilməsi nəticəsində yarana biləcək digər xərclərlə bağlı məsələlər qarşılıqlı razılaşma əldə edildikdən sonra və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həll ediləcəkdir.

Maddə 7

Məlumatların mühafizəsi

Tərəflər əməkdaşlıq çərçivəsində alınan məlumatın mühafizəsinin təmin olunmasını, eləcə də məxfiliyin razılaşdırmış dərəcəsinə riayət olunmasını öhdələrinə götürürlər. Tərəflərdən birinin əməkdaşlıq çərçivəsində alınmış məlumatı üçüncü tərəfə ötürməsi yalnız digər Tərəfin məlumatlandırılmasından və onun yazılı razılığının alınmasından sonra mümkün ola bilər.

Tərəflər arasında yazılı razılaşma əldə edilmədən Tərəflərdən heç birinin bu Sazişə uyğun olaraq alınan hərbi təyinatlı məhsulları, eləcə də onlara aid olan texnologiya və məlumatı üçüncü tərəfin fiziki və ya hüquqi şəxslərinə və dövlət orqanlarına ötürmək və ya satmaq hüququ yoxdur.

Tərəflər əməkdaşlıq sahələri və istiqamətlərinə aid olan müəlliflik hüququna və kommersiya sirlərinə riayət edirlər. Bu Sazişin ləğv olunması, Tərəflərin razılaşdırdıqları hallar istisna olmaqla,

Tərəflərin bu Sazişə uyğun olaraq imzaladıqları sazişlər və kontraktlar üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsir etmir.

Maddə 8

Mübahisələrin həlli

Bu Sazişin həyata keçirilməsi zamanı yarana biləcək mübahisə və fikir ayrılıqlarını Tərəflər danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 9

Qüvvəyəminmə və ləğvedilmə

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Maddədə nəzərdə tutulan qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi haqqında diplomatik kanallarla göndərilmiş sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və əgər qeyd olunan müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə yazılı şəkildə bildirməzsə, bu Saziş avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

16 may 2005-ci il tarixdə Tehran şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn üstün tutulacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

2005-ci il iyunun 6-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il iyunun 6-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş;

2) Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2005-ci il

№893

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Şamil oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Şamil oğlu Məmmədova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyul 2005-ci il

№894

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşanın Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum;

1.2. Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış aşağıdakı sənədlər nəzərə alınsın:

2.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Polşa Respublikası İqtisadi İşlər və Əmək Naziri arasında əmək bazarı sahəsində əməkdaşlıq haqqında Memorandum;

2.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında kənd təsərrüfatı və aqro-ərzaq emalı sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci, 1.2-ci, 2.1-ci və 2.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyul 2005-ci il

№902

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşanın Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi nazir Fərhad Əliyevin simasında və Polşanın Sahibkarlığın inkişafı Agentliyi sədr Miroslav Markın simasında, Azərbaycan Respublikası və Polşa Respublikası arasında bərabərhüquqlu və qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığa yeni təkan vermək əzmində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətlərinə və Tərəf dövlətlərin qanunvericiliklərinə uyğun olaraq sahibkarlığın dəstəklənməsi sahəsində əməkdaşlığı həyata keçirəcəklər.

Tərəflər, Azərbaycanda və Polşada sahibkarlığın inkişafı ilə məşğul olan təşkilatlar, həmçinin hər iki Tərəfin müəssisələri arasında kiçik və orta biznes subyektlərinə xüsusi diqqət yetirməklə, qarşılıqlı iqtisadi və tərəfdaşlıq əlaqələrinin inkişafını təşviq edəcəklər.

Maddə 2

1. Tərəflər aşağıdakı sahələrdə təcrübə və praktika mübadiləsini həyata keçirəcəklər:

a) kiçik və orta sahibkarlığın inkişafı;

b) ixracat;

c) regional inkişaf;

d) yeni texnika və texnologiyaların təşviqi;

e) yeni iş yerlərinin yaradılması;

f) insan resurslarının inkişafı və işsizliyin qarşısının alınması.

2. Tərəflər kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi məsələlərinə dair Tərəf dövlətlərin qanunvericiliyi barədə, həmçinin Tərəflərin fəaliyyət dairəsinə daxil olan digər informasiya materialları ilə bağlı məlumat mübadiləsini həyata keçirəcəklər.

3. Tərəflər onların fəaliyyət mövzusuna dair tədqiqatların nailiyyətləri və nəticələrinin mübadiləsi və təşviqini həyata keçirəcəklər.

Maddə 3

Tərəflər yenilik və müasir texnologiyaların tətbiqi sahəsində məlumat mübadiləsini həyata keçirəcəklər.

Maddə 4

Tərəflər, sahibkarlığın inkişafını təşviq edən müəssisə və təşkilatların nümayəndələrinin iştirakı ilə birgə seminar, görüş, konfransların təşkili ilə məşğul olacaqlar.

Maddə 5

Tərəflər sahibkarlığın inkişafını təşviq edən müəssisə və təşkilatların nümayəndələrini Tərəf dövlətlərin ərazilərində keçiriləcək beynəlxalq, milli və ixtisaslaşmış sərgi, yarmarka və digər tədbirlər barədə məlumatlandıracaq və cəlb edəcəklər.

Maddə 6

Bu Memorandum Tərəflərin qarşılıqlı razılığı əsasında və bu Memorandumun 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca əlavələr vəsitəsilə dəyişdirilə və ya uzadıla bilər.

Maddə 7

Bu Memorandumun müddəalarının tətbiqi və təfsiri ilə bağlı bütün mübahisəli məsələlər Tərəflər arasında danışıq və məsləhətləşmələr vasitəsilə həll ediləcəkdir.

Maddə 8

1. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir.

2. Memorandum Tərəflərdən birinin onun qüvvəsinin ləğv edilməsi barədə yazılı bildirişinin alınmasından üç ay sonra öz qüvvəsini itirir. Bu Memorandumun qüvvəsinin ləğv edilməsi Tərəflərin bu Memorandumun müddəaları əsasında razılaşdırılmış və onun qüvvəsinin ləğv edilməsinə qədər bitirilməmiş layihə və proqramların icrasına, həmçi-

nin bu Memorandumun müddəaları əsasında bağlanmış müqavilə və sazişlərə təsir etməyəcəkdir.

Varşava şəhərində, 30 mart 2005-ci ildə hər biri iki nüsxədə olmaqla Azərbaycan, polyak və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində tərtib edilmiş mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	POLŞANIN SAHİBKARLIĞIN İNKİŞAFI AGENTLİYİ ADINDAN
FƏRHAD ƏLİYEV	*MİROSLAV MARK*
İqtisadi inkişaf naziri	*Sahibkarlığın inkişafı Agentliyinin sədri*

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Bakı Şəhər İcra Hakimiyyəti və Varşava Şəhəri,

şəhərlər arasında əlaqələrin xalqların dostluğuna, qarşılıqlı anlaşmaya və dünyada sülhün qorunmasına xidmət edəcəyinə inanaraq,

ölkələri arasında mövcud olan dostluq əlaqələrinin, çoxsahəli əməkdaşlığın daha da inkişaf etdirilməsi və birbaşa əlaqələr üçün əlverişli şəraitin yaradılmasına çalışaraq,

paytaxt şəhərlərin ümumi problemlərinin həlli təcrübəsinin mübadiləsinə mühüm əhəmiyyət verərək,

şəhərlər arasında qarşılıqlı tanıtma və anlaşmanın inkişafına yardım etməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Bakı və Varşava şəhərləri arasında dostluq və əməkdaşlığı öz milli qanunvericiliklərinə və ənənələrinə, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasındakı beynəlxalq müqavilələrə uyğun olaraq, bərabərlik, tərəfdaşlıq və qarşılıqlı fayda əsasında həyata keçirəcəklər.

Maddə 2

Tərəflər arasında dostluq əlaqələri və əməkdaşlıq, əsasən, onların şəhərlərinin sakinlərinin maraqlarına uyğun olaraq, ilk növbədə, qarşılıqlı tanıtma, şəhərlərin idarə edilməsi, eləcə də şəhər infrastrukturuna aid sahələrdə yaradılaraq inkişaf etdiriləcəkdir.

Maddə 3

Şəhərlər arasında əlaqələr şərtləri və tərkibi qarşılıqlı razılaşma əsasında hazırlanmış əməkdaşlıq proqramları və Tərəflərin ayrı-ayrı təklifləri əsasındahəyata keçiriləcəkdir.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu protokola onun ayrılmaz hissəsi olan və 5-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 5

Bu Protokol beş il müddətinə bağlanılır və imzalandığı andan qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Protokolun qüvvəsi növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Protokol Varşava şəhərində 30 mart 2005-ci ildə, Azərbaycan, polyak və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN	VARŞAVA ŞƏHƏRİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Polşa Respublikası iqtisadi işlər və əmək naziri arasında əmək bazarı sahəsində əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Polşa Respublikası iqtisadi işlər və əmək naziri (bundan sonra - "Tərəflər"),

əmək bazarı sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfələrini vermək niyyətində olaraq,

aşağıdakıları bəyan edirlər:

1. Tərəflər əmək bazarına dair informasiya və təcrübə mübadiləsinin həyata keçirilməsini dəstəkləyəcəklər, o cümlədən aşağıdakı sahələrdə:

a) əmək və məşğulluğa, həmçinin əcnəbilərin məşğulluğuna dair milli qanunvericilik;

b) əmək bazarı və peşə hazırlığına dair statistik göstəricilər;

c) milli əmək bazarı;

d) sosial tərəfdaşlığın inkişafı;

e) proqramlar, əmək bazarı və məşğulluq siyasəti.

2. Tərəflər beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirən layihələrin həyata keçirilməsində əməkdaşlığa, ekspertlər mübadiləsinə və onların hazırlığına yönəlmiş fəaliyyətin dəstəklənməsini vacib hesab edirlər.

Bu Memorandum Varşava şəhərində 30 mart 2005-ci il tarixində hər biri Azərbaycan, polyak və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüv-

vəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN	POLŞA RESPUBLİKASININ İQTİSADİ İŞLƏR VƏ ƏMƏK NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında kənd təsərrüfatı və aqro-ərzaq emalı sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu

Bundan sonra "Tərəflər" adlandırılan, hər iki ölkənin müvafiq nazirləri tərəfindən təmsil olunacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında aparılmış danışıqlar nəticəsində Tərəflər kənd təsərrüfatı və aqro-ərzaq emalı sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Niyyət Protokolunu imzaladılar.

Tərəflər, öz səlahiyyətləri daxilində, milli qanunvericilik və iştirak etdikləri digər beynəlxalq müqavilələr çərçivəsində, aşağıdakı sahələrdə əlaqələrin inkişaf etdirilməsinə kömək edəcəklər:

1) bitkiçilik məhsullarının istehsalı, bitkiçilik, kənd təsərrüfatı və bağçılıq məhsullarının toxum və tingləri;

2) heyvandarlıqda məhsuldarlığın artırılması məqsədilə təcrübə mübadiləsi;

3) bitkiçilik və heyvandarlıqda genetik və bioloji materiallar mübadiləsi;

4) təbii yem və protein qarışıqlı yem istehsalı sahəsində əməkdaşlıq;

5) fitosanitariya və baytarlıq məsələləri sahəsində əməkdaşlıq;

6) ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının, xüsusilə meyvə və tərəvəz məhsullarının istehsalı sahəsində təcrübə mübadiləsi;

7) torpaqların səmərəli istifadəsi, torpağın dincə qoyulması, mütərəqqi irriqasiya üsullarının və aqrotexniki tədbirlərin tətbiqi sahəsində təcrübə mübadiləsi;

8) kənd təsərrüfatı xidmətləri və müasir texnologiyalar, kənd təsərrüfatında marketinq, kənd ərazilərində infrastrukturun inkişaf etdirilməsi sahəsində informasiya və təcrübə mübadiləsi;

9) aqrar elmi tədqiqat fəaliyyətləri sahəsində əməkdaşlıq;

10) müasir iqtisadi münasibətlər şəraitində islahatların həyata keçirilməsi, bu sahədə informasiya və təcrübə mübadiləsi;

11) kənd təsərrüfatı ilə bağlı qüvvədə olan və ya tətbiq edilən qaydalar üzrə informasiya mübadiləsi;

12) kənd ərazilərində kreditləşmə siyasəti üzrə informasiya mübadiləsi;

13) simpozium, treninq proqramları, seminar və konfransların təşkili;

14) kənd təsərrüfatının müxtəlif sahələrinə həsr edilmiş sərgi və yarmarkalar üzrə informasiya mübadiləsi.

Tərəflər əməkdaşlığın həyata keçirilməsi zamanı qarşıya çıxa biləcək məsələləri təhlil etmək üçün daim əlaqə saxlayacaqlar və qərar qəbul edilməsi üçün məsləhətləşmələr aparacaqlar.

Bu sənəd Azərbaycan, polyak və ingilis dillərində olmaqla, üç əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	POLŞA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ KƏNDİN İNKİŞAFI NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2005-ci il aprelin 13-də İslamabad şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2005-ci il aprelin 13-də İslamabad şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Protokol;

1.5. Azərbaycan Respublikasının Aviasiya hakimiyyəti və Pakistan İslam Respublikasının Aviasiya hakimiyyəti arasında Anlaşma Memorandumu.

2. 2005-ci il aprelin 13-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci və 2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.4-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Pakistan İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyul 2005-ci il

№903

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya xronologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək,

Tərəflər informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericiliklərinə və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1) telekommunikasiyanın tənzimlənməsi ilə əlaqədar işlər üzrə (əməliyyatlararası, kod, nömrə resursları və s. də daxil olmaqla) məlumat mübadiləsi;

2) E-hökumətin tətbiqi sahəsində əməkdaşlıq;

3) hər iki ölkənin informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayə

qoyuluşlarının təşviq etdirilməsi;

4) hər iki ölkədə və ya qarşılıqlı məqbul şərtlərlə üçüncü ölkələrdə layihələr vasitəsilə informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin təşviq etdirilməsi;

5) informasiya və kommunikasiya texnologiyaları sahəsində kommersiya və tənzimləyici qurumlar arasında əlaqələrin təşviq etdirilməsi;

6) informasiya və kommunikasiya texnologiyaları sahəsində şirkətlər arasında kommersiya əlaqələrinin təşviq etdirilməsi;

7) Pakistanın telekommunikasiya təsisatlarında azərbaycanlı mütəxəssislər üçün təlim kurslarının təşkili;

8) birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

9) beynəlxalq təşkilatlarda (EKO və BTİ kimi), o cümlədən Asiya İnformasiya Texnologiyaları Nazirləri Zirvə Toplantıları çərçivəsində hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

10) sərbəst tənzimləmə şəraitində beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılmasının mütəxəssislər səviyyəsində müzakirə edilməsi;

11) sərbəst tənzimləmə şəraitində telekommunikasiya sahəsində hər iki ölkənin mövcud tranzit imkanlarından səmərəli istifadə edilməsi;

12) hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;

13) qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların qəbul edilməsi və birgə müəssisələrin yaradılması məqsədilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində Pakistanın təcrübəsinin tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini daşıyırlar. Həmin müddəa bu Sa-

ziş qüvvədən düşdükdən sonra üç il müddətində qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Pakistan İslam Respublikası Hökuməti adından - Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları Nazirliyidir.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dili seçilə bilər.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdiriləcək.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir. Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti iki illik müddətlərə uzadılacaqdır. Bu Saziş İslamabad şəhərində 13 aprel 2005-ci il tarixində hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, hər iki mətn autentiktir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*ƏHMƏD XAN LEQARİ*
Rabitə və informasiya texnologiyaları naziri	*İnformasiya texnologiyaları naziri*

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti mədəniyyət və incəsənət sahəsində daha sıx əlaqələr yaratmağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər ölkələrinin suverenliyinə və milli qanunvericiliyinə hörmət əsasında mədəni əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsinə səy göstərəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər mədəniyyət nümayəndələrinin, teatr xadimlərinin və heyətlərinin, həmçinin incəsənətə aid digər materiallar vasitəsilə mədəniyyət sahəsində təcrübə və nailiyyətlərin mübadiləsini aparacaqlar.

Maddə 3

Razılığa gələn Tərəflər mədəniyyət, etnoqrafiya və incəsənət sahəsində ikitərəfli tədqiqat işləri aparacaqlar.

Maddə 4

Razılığa gələn Tərəflər incəsənət sərgiləri, folklor qruplarının qastrollarını, musiqi konsertləri, kino günləri və simpoziumlar təşkil edəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər mədəniyyətə aid material və sənədlər, mətbuat məmulatları, videokassetlər/CD və digər vasitələrlə öz ölkələrinin həyat və mədəniyyətinin müxtəlif aspektlərini əks etdirəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər öz ölkələrinin mədəniyyət təşkilatlarına, incəsənət qalereyalarına, muzeylərinə, sənəd mərkəzlərinə və başqa mədəniyyət təsisatlarına digər Tərəfin nümayəndələrinin gəlişinə şərait yaradacaqlar.

Maddə 7

Razılığa gələn Tərəflər öz ölkələrində birgə sosial və mədəni cəmiyyət və assosiasiyaların yaradılmasına kömək göstərəcəklər. Belə cəmiyyət və assosiasiyaların fəaliyyəti onların mövcud olduqları ölkənin qayda və qanunlarına uyğun olaraq tənzimlənəcəkdir.

Maddə 8

Razılığa gələn Tərəflər hər iki ölkədə keçirilən festival təşkilatçılarının şərtlərinə və qaydalarına müvafiq olaraq dəvət əsasında qeyd olunan festivallarda iştirak edəcəklər.

Maddə 9

Razılığa gələn Tərəflər hər iki ölkədə hökumət və mədəniyyətin inkişafı və ifaçılıq sənətinin tədrisi üzrə məsul təsisatlar arasında əlaqələr və əməkdaşlıq aparılması məqsədilə Azərbaycan Respublikası musiqi məktəblərinin müəllimlərinin Pakistan İslam Respublikasının musiqi məktəblərində kontrakt əsasında işləmələrinə şərait yaradacaqlar.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu bildirişinin alındığı tarixdən qüvvəyə minir və beş il müddətində qüvvədə qalacaqdır və onun qüvvəsi növbəti beşillik müddətlərə uzadılacaqdır. Razılığa gələn hər bir Tərəf altı ay əvvəl bildirməklə, bu Sazişin qüvvəsini ləğv edə bilər.

Bu Saziş İslamabad şəhərində 13 aprel 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*MƏHƏMMƏD ACMAL XAN*
Baş nazirinin birinci müavini	*Mədəniyyət, idman və gənclər naziri*

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə Nazirliyi,

maliyyə, vergi, monetar və beynəlxalq bazarın tələblərinə və təcrübəsinə cavab verən digər iqtisadi sahələrdə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə və genişləndirməyə səy göstərərək,

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının iqtisadiyyatlarını dünya maliyyə sisteminə tədricən inteqrasiya etdirməyə səy göstərərək,

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında beynəlxalq valyuta əməkdaşlığına köməklik etmək məqsədilə,

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının iqtisadiyyatında baş verən dəyişiklikləri və qarşıya çıxan məsələlərin səmərəli şəkildə həll edilməsində qarşılıqlı maraqları nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aşağıdakı məsələlər üzrə əməkdaşlığın dərinləşməsinə, məsləhətləşmələrin keçirilməsinə və maliyyə-kredit münasibətləri sahəsində təcrübə mübadiləsinə köməklik göstərəcəklər:

- iqtisadi müstəqillik və bazar münasibətlərinə keçid şəraitində maliyyə orqanlarının təşkilati strukturu;

- vergi, ödəniş və yığımların (birbaşa və vasitəli vergilər) effektiv sisteminin yaradılmasının əsas prinsip və metodları;
- vergi və yığımlardan daxilolmalara effektiv nəzarətin təmin edilməsi üçün zəruri məlumatlar bankının yaradılması;
- iqtisadiyyatın strukturunun yenidən qurulmasında xarici investisiyalardan istifadə olunmasının prinsipləri və metodları;
- bazar iqtisadiyyatı şəraitində əhalinin sosial müdafiəsinin səmərəli mexanizminin və onun maliyyə mənbələrinin formalaşdırılması;
- əməkhaqqı və qiymətlərin dövlət tənzimlənməsinin iqtisadi vasitələri.

Maddə 2

Sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədilə Tərəflər Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gəlirlər və əmlaka münasibətdə ikiqat vergiqoymanın və vergilərdən yayınmanın qarşısının alınmasına dair Konvensiyanın müddəalarının həyata keçirilməsinə köməklik göstərəcəklər.

Maddə 3

Tərəflər zəruri olan hallarda hər iki Tərəf üçün ümumi maraq kəsb edən məsələlərin öyrənilməsi və elmi tədqiqatların aparılması məqsədilə birgə sahələrarası komissiyalar yarada bilər.

Maddə 4

Tərəflər Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının maliyyə və iqtisadi inkişafı məsələləri üzrə daimi məlumat mübadiləsində maraqlı olduqlarını bəyan edirlər.

Maddə 5

Tərəflər səlahiyyətlərinə aid olan məsələlər üzrə təcrübə mübadiləsi, o cümlədən, müvafiq mütəxəssislərin təcrübə keçməsi, elmi-praktiki konfrans və seminarların keçirilməsi üçün əlverişli şəraitin yaradılması haqqında razılığa gəlirlər.

Maddə 6

Sazişin təfsiri və tətbiqi ilə əlaqədar yaranan fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı danışıqlar və məsləhətləşmələr yolu ilə dostcasına həll edilir.

Maddə 7

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişinin tarixindən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən zaman diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə bildiriş göndərməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda Saziş digər Tərəf belə bildirişi aldığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bu Saziş İslamabad şəhərində 13 aprel 2005-ci il tarixində hər biri Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandıqda Tərəflər ingilis dilindəki mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN
ƏVƏZ ƏLƏKBƏROV	*ÖMƏR ƏYYUB XAN*
Maliyyə naziri	*Maliyyə naziri*

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Protokol

Bundan sonra tək halda "Tərəf", cəm halda isə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi,

iki ölkə arasında mövcud olan dostluq əlaqələrini möhkəmləndirmək, iki xalq arasında əlaqələri daha da genişləndirməyi arzu edərək,

milli qanunvericiliklərinə uyğun olaraq,

3 sentyabr 2002-ci ildə İslamabad şəhərində imzalanmış "Azərbaycan-Pakistan Birgə Komissiyasının ikinci iclasının Protokolu"nun müddəalarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkənin universitetləri və digər ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulmasına imkan yaradacaqlar.

Maddə 2

Tərəflər razılaşdırılmış sahələrdə birgə elmi tədqiqatların aparılmasına şərait yaradacaq, ölkələrində keçirilən elmi konfrans və simpoziumlarda hər iki ölkənin təhsil sahəsindəki qabaqcıl təcrübəsini öyrənmək məqsədilə iştirak etmək üçün hər iki Tərəfin mütəxəssislərinə dəvətlər göndərəcəklər.

Maddə 3

Tərəflər elmi məcmuələr, metodik vəsaitlər və dövri mətbuat mübadiləsi aparacaq, ölkələrinin alimlərinin elmi əsərlərinin qarşı Tərəfin elmi məcmuələrində çap olunmasına şərait yaradacaqlar.

Maddə 4

Tərəflər elmi dərəcələrin, elmi adların və ali təhsil diplomlarının qarşılıqlı tanınması məqsədilə öz ölkələrində qəbul edilmiş normalar haqqında məlumat mübadiləsi aparacaqlar.

Maddə 5

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi məsələlərini öyrənmək və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları

və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini təşviq edəcəklər.

Maddə 6

Tərəflər humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetirəcək, bu istiqamətdə qarşılıqlı yaradıcılıq müsabiqələri, idman yarışları təşkil edəcək və ali məktəblərin incəsənət qruplarının qarşılıqlı mübadiləsini təşviq edəcəklər.

Maddə 7

Tərəflər hər il öz müvafiq universitetlərində təhsil almaq üçün digər Tərəfin dövlətinin vətəndaşlarına qarşılıqlı şəkildə təqaüd ayıracaqdır.

Maddə 8

Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında bu Protokola əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Protokol onun qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə göndərilən sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

Bu Protokol 5 (beş) il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri yuxarıda göstərilən müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış digər Tərəfi bu Protokolu ləğv etmək niyyəti barədə yazılı şəkildə xəbərdar etməzsə, bu Protokol avtomatik olaraq növbəti 1 (bir) illik müddətlərə uzadılır.

Bu Protokol İslamabad şəhərində 13 aprel 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN
YAQUB EYYUBOV	*ZÜBEYDƏ CƏLAL*
Baş nazirinin birinci müavini	*Sosial təminat və xüsusi təhsil naziri*

Azərbaycan Respublikasının Aviasiya hakimiyyəti və Pakistan İslam Respublikasının Aviasiya hakimiyyəti arasında Anlaşma Memorandumu

7 dekabr 1944-cü ildə Çikaqoda imzalanmaq üçün açılan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın iştirakçıları olan dövlətlər,

bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Aviasiya hakimiyyəti və Pakistan İslam Respublikasının Aviasiya hakimiyyəti,

mülki aviasiya sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin zəruri olduğunu dərk edərək,

uçuşların təhlükəsizliyini maksimal səviyyədə təmin etmək üçün İCAOnun Standartlarını və Tövsiyə olunan təcrübəni (SARPS) rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Həcm/Tezlik

Memorandum əsasən müəyyən edilmiş hər aviasiya şirkəti hər istiqamətdə müəyyən edilmiş marşrut üzrə həftədə dörd dəfə (720 oturacaq olmaqla) hərəkət etmək hüququna malikdir.

2. Yük əməliyyatları

Hər iki ölkənin müəyyən edilmiş aviasiya şirkətləri üçün yük əməliyyatlarında hər hansı məhdudiyyət qoyulmayacaqdır.

3. Hər iki ölkənin müəyyən edilmiş Aviaşirkətləri

Azərbaycan Hava Yolları (AZAL) və Pakistan Hava Yolları (PİA) Azərbaycan və Pakistanın razılaşdırılmış xidmətlərdən istifadə üçün müəyyən edilmiş aviaşirkətləridir.

4. Kodlar mübadiləsinə (Code-Share) dair maddə

Müəyyən edilmiş aviaşirkətlər hər iki ölkənin qarşılıqlı kodlar mübadiləsi tədbirlərindən daxil olmaq hüququna malikdirlər. Kodlar mübadiləsinə dair maddə Mülki Aviasiya Sazişinin yeni mətninə daxil ediləcəkdir.

5. Mülki Aviasiya Sazişinin layihəsi

2005-ci ilin sonuncu rübündə mətnlərin yekunlaşdırılması üçün hər iki Tərəf Mülki Aviasiya Sazişi layihələrini nəzərdən keçirməyə və rəylərin müqabil Tərəfə çatdırılmasına razılaşmışdır.

6. Digər məsələlər

(a) Azərbaycan və Pakistan arasında müəyyən olunmuş marşrutlar üzrə Azərbaycanın müəyyən edilmiş aviaşirkəti tərəfindən iki ardıcıl cədvələ dair fasiləsiz fəaliyyəti məsələsi; ikinci məsələ Lahor şəhərinə marşrutun qəbul edilməsi üzrə danışıqlardır.

(b) Tərəflər iki qardaş ölkə arasında azad hərəkət edilməsi və ticarət əlaqələrinin inkişaf etdirilməsi məqsədilə viza rəsmiləşdirilməsinin təmin edilməsi məsələsini öz ölkələrinin hökumətləri qarşısında qaldırılmasına razılaşmışlar.

7. Bu Anlaşma Memorandumu iki ölkə arasında imzalanmış əvvəlki Anlaşma Memorandumlarını əvəz edir.

Bu Anlaşma Memorandumu İslamabad şəhərində 13 aprel 2005-ci ildə Azərbaycan və ingilis dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcək.

AZƏRBAYCAN RESPUBLİKASININ AVİASİYA HAKİMİYYƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASININ AVİASİYA HAKİMİYYƏTİ ADINDAN
CAHANGİR ƏSGƏROV	*TARİQ VASİM QAZİ*
"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru	*Müdafiə naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikası Kommunikasiya Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) arasında 8 aprel 2005-ci il tarixində danışıqlar keçirilmişdir.

Danışıqlar dostluq, xoş məram və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

Danışıqların nəticəsi olaraq:

1. Tərəflər mövcud nəqliyyat əlaqələrini qiymətləndirərək, bu əlaqələrin lazımi səviyyədə olmadığını və belə müzakirələrin davam etdirilməsinin vacibliyini vurğulayaraq, iki ölkə arasında nəqliyyat kommunikasiyalarının və infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə mütəmadi görüşlərin keçirilməsinin vacibliyini qeyd etdilər. Hər iki dövlət beynəlxalq nəqliyyat dəhlizlərinə əlavə yük axınlarının cəlb edilməsi məqsədilə,

- beynəlxalq daşımalar zamanı yaranacaq maneələrin aradan qaldırılması,

nəqliyyat prosedurlarının sadələşdirilməsi və milli qanunvericiliklərin beynəlxalq standartlara uyğunlaşdırılmasının,

- razılaşdırılmış çevik tarif siyasətinin həyata keçirilməsinin,
- daşımaların təşkili və koordinasiyası üzrə yeni nəqliyyat texnologiyalarının tətbiqi, logistik mərkəzlərin yaradılmasının,
- tranzit daşımaları sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin və bu prosesin bütün iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətlərində səylərin artırılmasının vacibliyini qeyd etdilər.

2. Tərəflər iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişafı və ölkələrin tranzit imkanlarından səmərəli istifadə edilməsi məqsədilə "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında kombinə edilmiş beynəlxalq yük daşımaları haqqında Saziş"in imzalanması barədə razılığa gəldilər.

3. İki ölkə arasında beynəlxalq və tranzit daşımalar zamanı TRASEKA dəhlizi marşrutuna üstünlük verilməsi və Pakistan İslam Respublikasının Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişə qoşulması istiqamətində aparılacaq işlər barədə razılığa gəldilər.

4. Beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətində mühüm əhəmiyyət kəsb edən Azərbaycanın su nəqliyyatı potensialının tədqiqi və istismarı imkanlarından Pakistanın yararlanmasını vacib saydılar.

5. Tərəflər avtomobil daşımaları sahəsində qanunvericilik bazalarının uyğunlaşdırılması və iki ölkə arasında avtomobil daşımaları sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə, "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"in imzalanmasını məqsədəuyğun hesab etdilər.

6. Tərəflər yol və dəmir yolları infrastrukturunun yeniləşdirilməsi, yolların texniki-iqtisadi əsaslandırılması, qiymətləndirilməsi, tikintisi və idarəedilməsi məsələləri ilə əlaqədar layihələrin həyata keçirilməsində və onların maliyyələşdirilməsində qarşılıqlı əməkdaşlıq edilməsini məqsədəuyğun hesab etdilər.

7. Hər iki Tərəf dövlətinin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, onların səmərəli istifadəsi və əlavə yük axınlarının cəlb edilməsi istiqamətlərində səylərini artıracaqlarını bəyan etdi.

Bu Anlaşma Memorandumu İslamabad şəhərində Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASININ KOMMUNİKASİYA NAZİRLİYİ ADINDAN
YAQUB EYYUBOV	*MƏHƏMMƏD ŞƏMİM SİDDİQİ*
Baş nazirinin birinci müavini	*Kommunikasiya naziri*

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qrant Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2005-ci il

№926

M. N. Əliyevin Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının Türkiyə Respublikasında

Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№929

M. N. Əliyevin Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№930

Z. A. Həşimovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimov Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№931

Z. A. Həşimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№932

A. T. Hüseynə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Azər Tofiq oğlu Hüseynə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№933

A. T. Hüseynin Azərbaycan Respublikasının Yaponiyada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azər Tofiq oğlu Hüseyn Azərbaycan Respublikasının Yaponiyada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 avqust 2005-ci il

№934

2005-ci il iyunun 6-da Vaşinqtonda imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il iyunun 6-da Vaşinqtonda imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları Müdafiə Departamentini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2005-ci il

№936

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Nazirlər Kabineti ("Nazirlər Kabineti") və Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti ("Müdafiə Departamenti") bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması ilə əlaqədar, Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Kütləvi Qırğın Silahlarının Yayılmasının Qarşısının Alınması və Müdafiə Fəaliyyətləri sahəsində 28 sentyabr 1999-cu il tarixli Sazişin (bundan sonra "Çətir Sazişi" adlandırılacaq) tətbiq edilməsini arzulayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

1. Azərbaycanın müvafiq qurğularında yerləşən və bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınmasında Azərbaycana yardım etmək məqsədilə, Müdafiə Departamenti bu Sazişin müddəalarına müvafiq olaraq Nazirlər Kabinetinə və ya onun təyin etdiyi icra orqanlarına əvəzsiz yardım göstərə bilər.

2. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları, bu Sazişin müddəalarına uyğun olaraq təqdim edilən bütün material, əşya, təchizat, avadanlıq, texnologiya, təlim və xidmətləri yalnız bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması məqsədilə istifadə edəcəklər.

3. Bu Saziş və bu Sazişə uyğun olaraq həyata keçirilən bütün fəaliyyət Çətir Sazişinin müddəalarına uyğun olmalıdır. Bu Saziş və Çətir Sazişi arasında hər hansı bir ziddiyyət yarandığı təqdirdə, Çətir Sazişinin müddəaları əsas götürüləcəkdir.

Maddə II

1. Bu Sazişin hər bir Tərəfi digər Tərəfə yazılı bildiriş göndərərək, bu Sazişin tətbiq edilməsi üçün üzərinə düşən vəzifələri öz hökumətlərinin digər təşkilatlarına, departa-

mentlərinə, agentliklərinə və ya idarələrinə təhkim edə bilər.

2. Bu Saziş əsasında fəaliyyəti əlaqələndirmək məqsədilə Sazişin hər bir Tərəfi digər Tərəfə əvvəlcədən yazılı bildiriş göndərərək, bu Saziş əsasında təqdim edilən materiallara, təlimə və xidmətlərə görə texniki nümayəndə təyin etmək hüququna malikdir.

Maddə III

1. Bu Sazişə uyğun olaraq təqdim edilən bütün materiallar, əşya, təchizat, avadanlıq, texnologiya, təlim və xidmətlər, o cümlədən materialların və heyətin nəqliyyat xərcləri ilə bağlı Müdafiə Departamentinin ümumi xərcləri on (10) milyon ABŞ dolları artıq olmamalıdır. [1]

2. Müdafiə Departamenti tərəfindən I Maddənin 1-ci bəndinə əsasən Nazirlər Kabinetinə göstərilən yardıma həmçinin birgə bioloji təhqiqatların aparılması, bioloji təhlükəli maddələrin aşkarlanması və cavab tədbirlərinin görülməsi, Azərbaycanda mövcud olan təhlükəli patogenlərin oğurlanması və ya qanunsuz istifadə təhlükəsini azaltmaq üçün bioloji materialların mühafizəsi, onlara nəzarətin və məsuliyyətin artırılması üçün göstərilən, lakin bunlarla məhdudlaşmayan yardım da daxildir.

3. Bu Sazişin müddəalarına uyğun olaraq, Müdafiə Departamenti öz mülahizəsinə əsasən, Nazirlər Kabinetini Tərəflərin yazılı razılaşmasına əsasən digər yardım növləri ilə təmin edə bilər.

Maddə IV

1. Nazirlər Kabineti bu Sazişin tətbiqində Müdafiə Departamentinə kömək edəcəkdir.

2. Nazirlər Kabineti aşağıdakıların təmin edilməsi məqsədilə Azərbaycanın əlaqədar nazirlikləri və digər hökumət idarələri və təşkilatları ilə əməkdaşlıq edəcək:

a) bu Saziş əsasında təqdim edilən materiallar, əşya, təchizat və avadanlığın Azərbaycan daxilində son təyinat məntəqəsinə çatdırılmasını təmin etmək məqsədilə lazımi işlərin vaxtında yerinə yetirilməsi; və b) Müdafiə Departamenti nümayəndələrinə, podratçılara və bu Saziş əsasında həyata keçirilən fəaliyyətlə bağlı qurğulardakı avadanlığa münasibətdə müvafiq təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi.

3. Nazirlər Kabineti bu Saziş əsasında əldə edilən bütün material, əşya, təchizat və avadanlığın Azərbaycanın əlaqədar nazirlikləri və digər hökumət idarələri və təşkilatları tərəfindən yoxlanılmasına imkan yaradır və bu cür yoxlamanın nəticələrini aldığı tarixdən etibarən on (10) gün ərzində belə materialların məqbul hesab edilib və ya edilmədiyini təsdiqləyir. Razılaşdırılmış xüsusiyyətlərə uyğun gəlməyən materiallar, geri qaytarılma haqqında məktub alındığı tarixdən etibarən otuz (30) gün ərzində Müdafiə Departamentinin hesabına Amerika Birləşmiş Ştatlarının Bakıdakı Səfirliyi vasitəsilə Müdafiə Departamentinə qaytarılır.

4. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları bütün təhlükəli

patogenlərin toplanılaraq təyin edilmiş qurğularda saxlanılmasını təmin edəcəkdir.

5. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları, Azərbaycanda toplanılmış və barəsində sorğu edilən təhlükəli patogenləri profilaktika, mühafizə və ya digər dinc

məqsədlərlə Müdafiə Departamentinə göndərir. Nazirlər Kabineti Tərəflərin Azərbaycanda yayılması baş verə biləcək xəstəlikləri daha dəqiq müəyyənləşdirmək, aşkar və müşahidə etmək üçün Müdafiə Departamenti ilə epidemioloji məlumat mübadiləsi aparacaq.

6. Təyin edilmiş qurğularda yerləşdirilmiş təhlükəli patogenlər Çətir Sazişinin qüvvədə olduğu müddət ərzində həmin qurğularda qalır, bu şərtlə ki, Tərəflər onların çıxarılması barədə yazılı şəkildə razılıq əldə etməmiş olsunlar.

7. Nazirlər Kabineti və ya onun təyin etdiyi icra orqanları bu Sazişə uyğun olaraq inkişaf etdirilən hər bir layihə üçün nəzərdə tutulan öhdəlikləri, tələbləri və vəzifələri əks etdirən illik iş planının işlənib hazırlanması üçün Müdafiə Departamenti ilə əməkdaşlıq edirlər.

Maddə V

Çətir Sazişinin XIII maddəsində nəzərdə tutulan audit və yoxlama aparmaq hüquqlarına əlavə olaraq, Müdafiə Departamentinin nümayəndələri Azərbaycanın ərazisində yerləşən qurğularda müqavilə şərtlərinin yerinə yetirilməsini və bu Saziş əsasında həyata keçirilən fəaliyyətin gedişatını müşahidə etmək hüququna malikdirlər.

Maddə VI

Tərəflər, lazım gəldikdə, bu Sazişin müddəalarını həyata keçirmək məqsədilə əlavə olaraq razılaşma və ya sazişlər bağlaya bilərlər. Bu Saziş və həmin belə razılaşma və sazişlər arasında hər hansı bir ziddiyyət yarandığı təqdirdə, bu Sazişin müddəaları əsas götürülür.

Maddə VII

Bu Saziş imzalandığı andan qüvvəyə minir və Çətir Sazişinin qüvvədə olduğu müddət ərzində qüvvədə qalır. Bu Sazişə Tərəflərin yazılı razılığı ilə düzəlişlər edilə bilər və bir Tərəfin onu ləğv etmək niyyəti haqqında yazılı bildirişi digər Tərəfə təqdim etməsi ilə bu cür niyyətin ifadə edildiyi tarixdən doxsan (90) gün sonra ləğv edilə bilər. Bu Sazişin ləğv edilməsindən asılı olmayaraq, Sazişin IV Maddəsinin 6-cı bəndi Çətir Sazişi qüvvədə olduğu müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyət almış aşağıdakı şəxslər bu Sazişi imzaladılar.

Bakıda 2005-ci il may ayının 6-cı günündə və Vaşinqtonda 2005-ci il iyun ayının 6-cı günündə Azərbaycan və ingilis dillərində mətnləri eyni dərəcədə autentik olan iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

İstifadə olunmuş mənbə sənədlərin siyahısı

20 sentyabr 2006-cı il tarixli 1678 nömrəli sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 780) ilə

Sərəncama edilmiş dəyişiklik və əlavələrin saiyahısı

[1] 20 sentyabr 2006-cı il tarixli 1678 nömrəli sərəncamı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 780) ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında" 2005-ci il 6 iyun tarixli Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) VII maddəsinə uyğun olaraq, həmin Sazişin III maddəsinin 1-ci bəndindəki "beş (5) milyon ABŞ dolları" ifadəsinin "on (10) milyon ABŞ dolları" ifadəsi ilə əvəz edilmişdir.

Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Avro-Atlantika məkanına inteqrasiyanı özünün strateji məqsədlərindən biri hesab edən Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən bu prosesdə fəal iştirak edir. Ümummilli liderimiz Heydər Əliyev 1994-cü ilin may ayının 4-də NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramının Çərçivə Sənədini imzalamaqla ölkəmizin Avro-Atlantika məkanına qovuşması istiqamətində mühüm bir prosesin başlanğıcını qoymuşdur. Ötən dövrdə Azərbaycan Respublikası NATO ilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı operativ hərbi uzlaşma, böhranların idarə olunması və sülhməramlı əməliyyatlarda iştirak qabiliyyətinin artırılması istiqamətində müxtəlif əməkdaşlıq mexanizmlərində fəal iştirak etmiş, eyni zamanda tərəfdaşlığın formalaşdırılmasına daim öz töhfəsini verərək bu istiqamətdə milli vasitələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" 1997-ci il 14 noyabr tarixli 692 nömrəli Sərəncamı ilə Komissiya yaradılmış, sonrakı illərdə onun tərkibi genişləndirilmişdir. Azərbaycan Respublikası tərəfdaşlığın qarşılıqlı təhlükəsizlik maraqları ilə yanaşı, ortaq dəyərlərə söykənməsi mövqeyindən çıxış edərək demokratik, hüquqi dövlətçiliyin və möhkəm müdafiənin qurulması istiqamətində hərtərəfli islahatlara başlamışdır. Təhlükəsizlik baxımından mürəkkəb vəziyyətdə olan ölkəmiz təhlükəsizlik sektorunun islahatı sahəsində ardıcıl tədbirlər görür. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupu yaradılmışdır və həmin qrup bu istiqamətdə səylərini davam etdirir. Ölkəmizdə demokratiyanın, insan hüquq və azadlıqlarının, effektiv dövlət idarəçiliyinin bərqərar olması və müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yolu ilə milli təhlükəsizliyin təmin edilməsi və bununla Avro-Atlantika təhlükəsizliyinə töhfə verilməsi istiqamətində NATO və onun üzvü olan dövlətlərlə həyata keçirilən tərəfdaşlığı sistemləşdirən bir əməkdaşlıq mexanizmi kimi NATO-nın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı təşəbbüsünü Azərbaycan Respublikası ilk gündən dəstəkləmişdir. 2003-cü ilin may ayında bu prosesə rəsmi qaydada qoşulan ölkəmiz 2004-cü ilin may ayında Fərdi Tərəf-

daşlıq üzrə Əməliyyat Planının Təqdimat Sənədini NATO-nun Şimali Atlantika Şurasına təqdim etmişdir. Təqdimat Sənədində əks olunan məqsədlərə çatmaq üçün özündə konkret addımları əks etdirən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı 2005-ci il may ayının 27-də NATO-nun Şimali Atlantika Şurası tərəfindən təsdiq edilmişdir.

Bütün bunları nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı təsdiq edilsin (əlavə edilir) və dərhal onun yerinə yetirilməsinə başlanılsın.

2. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının yerinə yetirilməsinin təmin olunması Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyaya tapşırılsın.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyaya tapşırılsın ki, bir ay müddətində Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının yerinə yetirilməsi üzrə tədbirləri müəyyənləşdirib təsdiq etsin.

4. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının yerinə yetirilməsi üzrə NATO ilə və NATO-nun üzvü olan dövlətlərlə əlaqələrin həyata keçirilməsi və bununla bağlı koordinasiya işinin təmin edilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyaya tapşırılsın ki, Planın yerinə yetirilmə vəziyyəti barədə ildə iki dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məruzə etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının yerinə yetirilməsinin maliyyə və digər təminatı üçün lazımi tədbirləri həyata keçirsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2005-ci il

№937

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin. [1]

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 8 sentyabr tarixli 1322 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2005-ci il

№ 939

İstifadə olunmuş mənbə sənədlərin siyahısı

16 avqust 2007-ci il tarixli 2327 nömrəli Azərbaycan Respublikasının Sərəncamı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 802)

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 16 avqust 2007-ci il tarixli 2327 nömrəli Azərbaycan Respublikasının Sərəncamı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 802) ilə 1-ci və 2-ci bəndləri qüvvədən düşmüş hesab edilmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftara və ya cəzalandırmaya qarşı Konvensiyaya Fakultativ Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftara və ya cəzalandırmaya qarşı Konvensiyaya Fakultativ Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəsi Yaşar Teymur oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəsi Yaşar Teymur oğlu Əliyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 avqust 2005-ci il

№941

"Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilməsi barədə Misir Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 avqust 2005-ci il

№942

"Azərbaycan Hava Yolları" Dövlət Konserni tərəfindən 4 ədəd Airbus A 319 təyyarəsinin alınması ilə əlaqədar hər bir təyyarə üzrə Sənədlər Toplusunu imzalamaq səlahiyyətlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Hava Yolları" Dövlət Konserni tərəfindən 4 ədəd Airbus A 319 təyyarəsinin alınması məqsədilə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Calal oğlu Əsgərova hər bir təyyarə üzrə ayrılıqda aşağıdakı sənədləri (bundan sonra - "Tənzimləyici Sənədlər") imzalamaq səlahiyyəti verilsin:

1.1. MSN 2487/2516/2588 Leasinq Limited (Lizinq verən) və "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Lizinq alan) arasında Lizinq Müqaviləsini;

1.2. Airbus S.A.S (istehsalçı), MSN 2487/2516/2588 Leasinq Limited (Lizinq verən), ABN AMRO Bank N.V. (Etibarlı idarəedən) və "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Lizinq alan) arasında Təyyarənin Gövdəsinə dair Təminat haqqında Sazişi;

1.3. CFM International S.A. (Mühərrik istehsalçısı), MSN 2487/2516/2588 Leasinq Limited (Lizinq verən), ABN AMRO Bank N.V. (Etibarlı idarəedən) və "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Lizinq alan) arasında Mühərrikə dair Təminat haqqında Sazişi;

1.4. "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Hüquqları güzəşt edən) və MSN 2487/2516/2588 Leasinq Limited (Hüquqları əldə edən) arasında Alqı-satqı Sazişi üzrə Hüquqların Güzəşt edilməsi Müqaviləsini;

1.5. "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Hüquqları güzəşt edən) və MSN 2487/2516/2588 Leasinq Limited (Lizinq verən) arasında Sığorta Polislər və Rekvizisiyadan Əldə Edilən Gəlirlər üzrə Hüquqların Güzəşt Edilməsi Sənədini;

1.6. MSN 2487/2516/2588 Leasinq Limited, Maples Finance Limited, "Azərbaycan Hava Yolları" Dövlət Konserni və ABN AMRO Bank N.V. (Etibarlı idarəedən) arasında İnzibatçılıq haqqında Sazişi;

1.7. "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Lizinq alan), MSN 2487/2516/2588 Leasinq Limited (Borcalan), ABN AMRO Bank N.V. (Britaniya Milli Agent, Fransa Milli Agent və Almaniya Milli Agent), ABN AMRO Bank N.V. (Kredit üzrə Agent, Təşkilatçı, Etibarlı idarəedən), Kreditorlar və Maliyyə Təşkilatları (Fransa kreditorları, Britaniya kreditorları və Almaniya kreditorları) arasında Əldə Edilən Gəlirlərin İstifadəsi və Tələblərin Ödənilməsinin Ardıcıllıq Qaydası haqqında Sazişi;

1.8. ABN AMRO Bank N.V. (Təşkilatçı), MSN 2487/2516/2588 Leasinq Limited (Borcalan) və "Azərbaycan Hava Yolları" Dövlət Konserni (Lizinq alan) arasında istehsalçı zavodun 2487, 2516, 2588 və biri müəyyən edilməli olan seriya nömrələri ilə 4 ədəd Airbus 319 təyyarəsinə dair Çərçivə Sazişini.

2. Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini İlqar Fəti oğlu Fətizadəyə Azərbaycan Respublikası Hökuməti adından 4 ədəd Air-bus 319 təyyarəsinin hər biri üzrə ayrılıqda aşağıdakı sənədləri imzalamaq səlahiyyəti verilsin:

2.1. "Azərbaycan Respublikası Hökuməti adından Təminat"ı;

2.2. "MSN 2487/2516/2588 Leasinq Limited (Hüquqları güzəşt edən) və ABN AMRO Bank N.V. (Etibarlı idarəedən) arasında hər bir Airbus 319 təyyarəsi üzrə Girovun güzəşt edilməsi"nə Əlavə 6 "Təminatçı tərəfindən hüquqların güzəşt edilməsinin təsdiq olunması Forması"na əsasən "Təminatçı tərəfindən hüquqların güzəşt edilməsinin təsdiq olunması" sənədini.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci və 2-ci bəndlərində göstərilən sənədləri imzalamaq səlahiyyətlərinin müvafiq olaraq "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Calal oğlu Əsgərova və Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini İlqar Fəti oğlu Fətizadəyə verilməsi barədə xarici tərəfdaşlara bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 avqust 2005-ci il

№943

H. M. Sadıqovun Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hüseynağa Musa oğlu Sadıqov Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2005-ci il

№944

P. O. Şahbazova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Pərviz Oqtay oğlu Şahbazova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2005-ci il

№945

P. O. Şahbazovun Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Pərviz Oqtay oğlu Şahbazov Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2005-ci il

№946

Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Amerika Birləşmiş

Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2005-ci il

№947

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin xarici işlər nazirlərinin 33-cü konfransının Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan Respublikasının beynəlxalq münasibətləri hərtərəfli inkişaf etdirilmiş, bir çox ölkələrlə və beynəlxalq təşkilatlarla diplomatik əlaqələr yaradılaraq diplomatik nümayəndəliklər təsis edilmiş, mövcud münasibətlər dərinləşdirilmiş, nəticədə isə respublikanın beynəlxalq nüfuzu müqayisəolunmaz dərəcədə yüksəlmişdir.

Hazırda Azərbaycan Respublikası beynəlxalq münasibətlər sahəsində Heydər Əliyev tərəfindən müəyyən edilmiş prinsiplər və prioritetlər əsasında beynəlxalq əlaqələrini dinamik şəkildə həyata keçirir və bu sahədə öz səylərini daha da gücləndirir.

Azərbaycan Respublikası universal və regional beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi diqqət yetirir. Bunun bariz nümunəsi kimi ölkənin Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla faydalı və səmərəli münasibətləri qeyd olunmalıdır. İslam ölkələri ilə əməkdaşlıq ölkənin beynəlxalq münasibətlərinin vacib istiqamətlərindəndir. İslam ölkələri arasında iqtisadi, siyasi və humanitar əməkdaşlığın inkişafında mühüm rol oynayan İslam Konfransı Təşkilatı ilə əməkdaşlığa Azərbaycan Respublikası böyük diqqət yetirir. Bu istiqamətdə səmərəli və intensiv iş aparmaqla Azərbaycan Respublikası həmin təşkilata üzv olan başqa ölkələr arasında özünə layiqli yer qazanmışdır. Məhz bu işin nəticəsi olaraq, İslam Konfransı Təşkilatı Azərbaycan Respublikasının həmin nüfuzlu qurumda iştirakını yüksək qiymətləndirir və ona etimad göstərir. Belə ki, İslam Konfransı Təşkilatına üzv olan ölkələrin xarici işlər nazirlərinin cari ilin 28-30 iyun tarixlərində Yəmənin paytaxtı Sənа şəhərində keçirilmiş 32-ci konfransında növbəti 33-cü konfransın Bakı şəhərində keçirilməsi qərara alınmışdır.

İslam Konfransı Təşkilatı ilə əməkdaşlığın Azərbaycan Respublikası üçün mühüm əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. İslam Konfransı Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin 33-cü konfransı 2006-cı ildə Bakı şəhərində keçirilsin.

2. Bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan konfransın hazırlanmasını və keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

Təşkilat Komitəsinin sədr müavini

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Təşkilat Komitəsinin üzvləri:

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Eldar Mahmudov - Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri

Vaqif Axundov - Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri[1]

Fazil Məmmədov - Azərbaycan Respublikasının vergilər naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin prezidenti

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi

Hacıbala Abutalıbov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Şeyxülislam Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları İdarəsinin sədri

Nizami Xudiyev - "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Aslan Aslanov - Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) Baş direktoru

3. Bu Sərəncamın 2-ci bəndinə əsasən yaradılmış Təşkilat Komitəsi müvafiq tədbirlər proqramını hazırlasın və onun yerinə yetirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 avqust 2005-ci il

№957

İstifadə olunmuş mənbə sənədlərin siyahısı

1. 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 6, maddə 558)

Fərmana edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 6, maddə 558) ilə 1-ci bəndində "Əvəz Ələkbərov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri "Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri ilə əvəz edilmişdir.

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cümayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə YUNESKO-ya müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 avqust 2005-ci il

№968

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlığın müxtəlif sahələr və istiqamətlər üzrə inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verərək, bu əməkdaşlığı həmçinin müxtəlif səviyyələrdə dərinləşdirmək və genişləndirmək, onun səmərəliliyini artırmaq və bağlanmış sazişlərin, o cümlədən Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişin həyata keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini[1]

Komissiyanın üzvləri:

Nazim İbrahimov - Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini[2]

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini[3]

Məcid Kərimov - "Azərikimya" Dövlət Şirkətinin prezidenti[4]

Əli Qaraxanov - "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyətinin sədri

Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse prezidenti[5]

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi) [6]

2. Müəyyən edilsin ki, Komissiya sədrinin aşağıdakı səlahiyyətləri vardır:

2.1. Birgə Komissiyanın fəaliyyətini və iş qaydasını qarşı tərəflə razılaşdırmaq və təsdiq etmək, növbəti iclasın gündəliyinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən nümayəndə heyətinin tərkibini müəyyənləşdirmək;

2.2. zəruri hallarda Azərbaycan Respublikasının müvafiq təsisatlarını Komissiyanın işinə cəlb etmək, ayrı-ayrı istiqamətlər və yaranan problemlər üzrə Komissiya üzvlərinin rəhbərliyi altında ekspert qrupları yaratmaq;

2.3. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Tatarıstan Respublikası ilə iqtisadi əməkdaşlıq sahəsində digər vəzifələri yerinə yetirmək.

3. Komissiyanın sədrinə tapşırılsın ki, Tatarıstan Respublikası ilə ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq sahəsində görülən işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 avqust 2005-ci il

№977

İstifadə olunmuş mənbə sənədlərin siyahısı

1. 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134)

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Abbas Abbasov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə əvəz edilmişdir.

[2] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini" sözləri "Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini" sözləri ilə əvəz edilmişdir.

[3] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Asif Əsgərov - Azərbaycan Respublikası gənclər, idman və turizm nazirinin müavini" sözləri "İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini" sözləri ilə əvəz edilmişdir.

[4] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Fikrət Sadıqov - "Azərikimya" Dövlət Şirkətinin prezidenti" sözləri "Məcid Kərimov - "Azərikimya" Dövlət Şirkətinin prezidenti" sözləri ilə əvəz edilmişdir.

[5] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin

Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin marketinq və iqtisadi əməliyyatlar idarəsinin rəisi" sözləri "Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti" sözləri ilə əvəz edilmişdir.

[6] 9 noyabr 2007-ci il tarixli 2490 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №11, maddə 1134) ilə "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)" sözləri "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)" sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Saziş"i (Yoxsulluğun Azaldılmasına Yardım Krediti) imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Saziş"i (Yoxsulluğun Azaldılmasına Yardım Krediti) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 avqust 2005-ci il

№975

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Elektron Hökumət Satınalmalarının Gücləndirilməsi üçün İnstitusional İnkişaf Fondunun Qrantı üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Elektron Hökumət Satınalmalarının Gücləndirilməsi üçün İnstitusional İnkişaf Fondunun Qrantı üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş

göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 avqust 2005-ci il

№976

Azərbaycan Respublikasında Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyul tarixli 875 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Birləşmiş Ərəb Əmirliklərinin Rafi Oyl EfZeİ ("Rafi Oyl") Şirkəti arasında "Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2005-ci il avqustun 16-da imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş "Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri" təsdiq edilsin. (Azərbaycan Respublikası Baş nazirinin yanında 2005-ci il 30 avqust tarixində keçirilmiş iclasın 2 nömrəli protokolu əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 avqust 2005-ci il

№161

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 567; 2002-ci il, № 12, maddə 703; 2004-cü il, № 6, maddə 414) 21-ci maddəsinin adında "nümayəndəliklərdə" sözündən sonra "və konsulluqlarda" sözləri əlavə edilsin.

II. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 740; 2002-ci il, № 12, maddə 706; 2003-cü il, №1, maddə 23, №8, maddə 428, № 12, maddələr 676, 698; 2005-ci il, № 1, maddə 1, № 6, maddə 462) aşağıdakı məzmunda 17.6-cı maddə əlavə olunsun:

"17.6. Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində dövlət büdcəsinə köçürülür.".

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2005-ci il

№979-IIQD

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında" 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2005-ci il

№974-IIQ

Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti,

26 avqust 1997-ci il tarixində Varşavada imzalanmış Azərbaycan Respublikası və Polşa Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafı haqqında Bəyannamənin müddəalarını rəhbər tutaraq,

Razılığa gələn Tərəflərin iştirakçısı olduğu iqtisadi əməkdaşlıq sahəsində beynəlxalq sazişlərin müddəalarını nəzərə alaraq,

Polşa Respublikasının Avropa İttifaqında üzvlüyünü nəzərə alaraq,

bu Sazişin ikitərəfli iqtisadi münasibətlərin inkişafını möhkəmləndirəcəyinə

əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Razılığa gələn Tərəflər öz ölkələrinin qanunvericiliyinə uyğun olaraq, bərabərlik və qarşılıqlı fayda əsasında iqtisadiyyatın bütün sahələrində və bölmələrində iqtisadi

əməkdaşlığın inkişafını təşviq edəcəklər.

2. Bu Saziş çərçivəsində həyata keçirilən əməkdaşlıq aşağıdakılara yönəldiləcəkdir:

1) ikitərəfli iqtisadi əməkdaşlığı möhkəmləndirmək məqsədilə iqtisadi potensialın istifadəsinə,

2) xüsusilə sahibkarlıq, investisiyalar, innovasiyalar və iqtisadi tədbirlərin maliyyələşdirilməsi sahələrində ikitərəfli iqtisadi əlaqələrin intensivləşdirilməsinə,

3) regionlararası iqtisadi əməkdaşlığın inkişafına.

Maddə 2

1-ci maddədə qeyd olunan əməkdaşlıq aşağıdakı vasitələrlə həyata keçiriləcəkdir:

1) Razılığa gələn Tərəflərin dövlətlərinin təsərrüfat subyektləri arasında, xüsusilə yanacaq-energetika kompleksi, yeyinti və yüngül sənaye sahələrində əməkdaşlığın inkişaf etdirilməsi,

2) Razılığa gələn bir Tərəf dövlətinin təsərrüfat subyektləri tərəfindən Razılığa gələn digər Tərəf dövlətinin ərazisində və ya hər iki dövlətin birgə təsərrüfat subyektləri tərəfindən onların ərazilərində və ya üçüncü dövlətlərin ərazilərində obyektlərin layihələndirilməsi, tikilməsi, təmiri və modernləşdirilməsi,

3) iqtisadi tədbirlərin maliyyələşdirilməsi, sığortalanması və onlar üçün zəmanətlərin verilməsi üzrə mexanizmlərin tətbiq edilməsi,

4) sertifikatlaşdırma və standartlaşdırma sahəsində qarşılıqlı fəaliyyət,

5) təsərrüfat subyektlərini birləşdirən təşkilatlar arasında əlaqələrin təşviq edilməsi,

6) konsaltinq, hüquqi, bank və texniki xidmətlərin, o cümlədən Razılığa gələn Tərəf dövlətlərin ərazisində investisiya layihələrinin həyata keçirilməsinin dəstəklənməsilə bağlı xidmətlərin inkişaf etdirilməsi,

7) müxtəlif formalı əməkdaşlığın, mütəxəssis və texniki personalın mübadiləsinin, tədrisin, beynəlxalq yarmarka və sərgilərdə iştirakın, iqtisadi missiyaların təşkilinin və iqtisadi əməkdaşlıqla bağlı digər tədbirlərin təşviq edilməsi və təşəbbüs göstərilməsi,

8) turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi.

Maddə 3

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları nümayəndəliklərin, filialların və birgə iqtisadi palataların, həmçinin digər iqtisadi fəaliyyəti həyata keçirən qurumların yaradılmasını və fəaliyyətini təşviq edəcəklər.

2. Nümayəndəliklərin, filialların və iqtisadi fəaliyyətlə məşğul olan digər qurumların yaradılması və fəaliyyətinin həyata keçirilməsi prinsipləri ərazisində həmin fəaliyyətin həyata keçirildiyi Razılığa gələn Tərəf dövlətinin qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 4

Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları iqtisadi əməkdaşlığın inkişafının təşvi-

qi məqsədilə Razılığa gələn Tərəflərin dövlətlərində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq aşağıdakı sahələrdə məlumat mübadiləsini həyata keçirəcəklər:

1) iqtisadi fəaliyyəti, investisiyaları, standartlaşdırmanı, sertifikatlaşdırmanı, lisenziya verilməsi şərtlərini, əqli və sənaye mülkiyyətinin, müəlliflik və onunla bağlı digər hüquqların qorunmasını, həmçinin digər qarşılıqlı maraq kəsb edən sahələri tənzimləyən qanunvericilik;

2) Razılığa gələn Tərəflərin dövlətlərinin təsərrüfat subyektləri arasında əlaqələrin möhkəmləndirilməsinə kömək edən tədbirlər, o cümlədən sərgi, yarmarkaların və iqtisadi missiyaların keçirilməsi sahəsində.

Maddə 5

1. Tərəflər bundan sonra "Komissiya" adlanan İqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Polşa Hökumətlərarası Komissiyanı yaradacaqlar.

2. Komissiyanın vəzifələrinə aşağıdakılar aiddir:

1) dövri icmaların aparılması və iqtisadi əməkdaşlıq vəziyyətinin qiymətləndirilməsi;

2) iqtisadi əməkdaşlığın gələcək inkişafına istiqamətlənmiş təkliflərin hazırlanması;

3) iqtisadi əməkdaşlığı məhdudlaşdıran problemlərin müəyyənləşdirilməsi və bu problemlərin aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi üçün təkliflərin hazırlanması;

4) bu Sazişin tətbiqi və ya şərhi ilə bağlı mübahisəli məsələlərin müzakirəsi.

3. Komissiya sədrlərin başçılıq etdiyi Azərbaycan və Polşa hissələrindən ibarətdir. Razılığa gələn hər bir Tərəf öz hissəsinin sədrini təyin edir. Komissiya ayrı-ayrı məsələlərin baxılması üçün öz səlahiyyətləri çərçivəsində, onların vəzifələrini müəyyənləşdirərək işçi qrupları yarada bilər.

4. Komissiyanın iclasları zəruri olduqda, ildə bir dəfədən az olmayaraq növbə ilə Azərbaycan Respublikasında və Polşa Respublikasında keçirilir. Sədrlərin hər birinin təşəbbüsü ilə Komissiyanın növbədənkənar iclası çağırıla bilər və ya sədrlərin görüşü təşkil oluna bilər.

5. Komissiyanın iclası protokolla rəsmiləşdirilir.

6. Komissiyanın iş gedişatı onun müəyyən etdiyi reqlamentlə təyin edilir.

Maddə 6

1. Bu Sazişin müddəaları Azərbaycan Respublikasının və ya Polşa Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdən, həmçinin onların beynəlxalq təşkilatlardakı üzvlüyündən irəli gələn Razılığa gələn Tərəflərin hüquq və öhdəliklərinə toxunmur.

2. Bu Sazişin heç bir müddəasını Polşa Respublikasının Avropa İttifaqına üzvlüyündən irəli gələn hüquq və öhdəliklərini pozan müddəa kimi qəbul etmək olmaz.

3. Bir tərəfdən Avropa İttifaqı və onun üzvü olan dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında tərəfdaşlığı müəyyən edən 1996-cı il 22 aprel tarixində imzalanan Tərəfdaşlıq və əməkdaşlıq Sazişi, bütün sonrakı dəyişiklik və əlavələr daxil olmaqla və bu Sazişin əhatə etdiyi məsələlərə münasibətdə qeyd olunan Tərəfdaşlıq və əməkdaşlıq Sazişinin müddəaları ilə tənzimlənən, bütün sonrakı dəyişiklik və əlavələr daxil olmaqla üstünlük təşkil edir.

Maddə 7

1. Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. O, Razılığa gələn hər bir Tərəfin yazılı bildiriş göndərməsi vasitəsilə ləğv edilə bilər. Həmin halda bu Saziş ləğv edilmə haqqında notanın alındığı andan altı ay keçdikdən sonra öz qüvvəsini itirir.

3. Bu Sazişə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə yazılı şəkildə Sazişin ayrılmaz hissəsi olacaq əlavə və dəyişikliklər edilə bilər.

Varşava şəhərində 30 mart 2005-ci ildə hər biri iki nüsxədə olmaqla Azərbaycan, polyak və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin şərhində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətn müəyyənedici olacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	POLŞA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*MİROSLAV ZELENSKİ*
İqtisadi inkişaf naziri	*İqtisadiyyat və əmək naziri*

"Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilməsi barədə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 sentyabr 2005-ci il

№987

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Nəqliyyat Sektorunun İnkişafı Strategiyası layihəsinə dair Məktub-Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Nəqliyyat Sektorunun İnkişafı Strategiyası layihəsinə dair Məktub-Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 2005-ci il

№989

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Ticarətin və Nəqliyyatın Dəstəklənməsi Layihəsi"nin hazırlanması üçün Siyasət və İnsan Resurslarının İnkişaf Etdirilməsinə dair Qrant üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Ticarətin və Nəqliyyatın Dəstəklənməsi Layihəsi"nin hazırlanması üçün Siyasət və İnsan Resurslarının İnkişaf Etdirilməsinə dair Qrant üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 2005-ci il

№990

Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Bakı-Samur layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Bakı-Samur layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 2005-ci il

№991

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azıərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qrant Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Aydın Əli oğlu Əliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 sentyabr 2005-ci il

№993

İ. Ə. Hacıyevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

İbrahim Əsəd oğlu Hacıyev Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 2005-ci il

№997

İ. Ə. Hacıyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

İbrahim Əsəd oğlu Hacıyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 2005-ci il

№996

2005-ci il iyulun 14-də Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci iyulun 14-də Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2005-ci il

№999

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi, bütün sahələrdə əməkdaş-

lığı inkişaf etdirməyə, gücləndirməyə və dərinləşdirməyə səy göstərərək, beynəlxalq cinayətkarlıqla mübarizədə əməkdaşlığın hər iki ölkə üçün əhəmiyyət kəsb etdiyinə əmin olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin yayılmasının və eləcə də hər iki ölkənin təhlükəsizliyi və digər mühüm maraqları üçün təhlükə yarada bilən cinayətkarlığın digər növlərinin təhdidindən narahat olaraq, öz fəaliyyətlərini beynəlxalq mütəşəkkil cinayətkarlıq və qanunsuz miqrasiya ilə mübarizədə əlaqələndirmək əzmini rəhbər tutaraq, həmçinin Birləşmiş Millətlər Təşkilatının 25 mart 1972-ci il tarixli Protokolla edilən dəyişikliklər nəzərə alınmaqla "Narkotiklər haqqında" 30 mart 1961-ci il tarixli Vahid Konvensiyasına, "Psixotrop maddələr haqqında" 21 fevral 1971-ci il tarixli Konvensiyasına və "Narkotiklərdən və psixotrop maddələrdən icazəsiz istifadə əleyhinə" 20 dekabr 1988-ci il tarixli Konvensiyasına, BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" 15 dekabr 2000-ci il tarixli Konvensiyası və ona əlavə olunan üç Protokola əsaslanaraq, 12 aprel 2000-ci il tarixdə bu sahədə əməkdaşlığın dərinləşdirilməsi və daha da inkişaf etdirilməsi məqsədilə imzalanmış Memorandumu nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın sahələri və məqsədi

(1) Tərəflər öz milli qanunvericiliklərinə müvafiq olaraq əməkdaşlıq etməklə, ictimai təhlükəsizliyin və asayişin təhdidlərə məruz qaldığı hallara qarşı, həmçinin cinayət cəzasına səbəb olan əməllərin qarşısının alınması və araşdırılmasında əməkdaşlıq etməyi və xidməti yardım göstərməyi öhdələrinə götürürlər.

Tərəflərin səlahiyyətləri çərçivəsində olan bu əməkdaşlıq əsasən aşağıdakı sahələri əhatə edir:

1. narkotiklərin, psixotrop maddələrin və prekursorların qanunsuz istehsalı, becərilməsi, idxalı və ixracı, daşınması və dövriyyəsinə qarşı mübarizə;
2. beynəlxalq terrorizm və ekstremizmə qarşı mübarizə;
3. insan alveri və qanunsuz miqrasiya, iqtisadi cinayətkarlıq, çirkli pulların yuyulması və beynəlxalq mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı mübarizə.

(2) Tərəflər bundan sonra ölkələrinin qanunvericiliyinə müvafiq olaraq şəxslərin və əşyaların axtarışında bir-birinə yardım edirlər.

Maddə 2

Əməkdaşlığın formaları

(1) Tərəflər arasında bu Sazişdən irəli gələn əməkdaşlıq onların ölkələrinin qanunvericiliyinə müvafiq həyata keçirilir və əsasən aşağıdakı məsələləri əhatə edir:

1. ictimai təhlükəsizliyə və asayişə qarşı yaranan təhdidlərin qarşısının alınması sahəsinə aid anlaşmalar və eləcə də cinayət cəzasına səbəb ola biləcək əməllərin qarşısının alınması və araşdırılması hallarına dair qarşılıqlı informasiya;

   şəxslər haqqında məlumatlar, yalnız yuxarıda adı çəkilən təhdidlərdən müdafiə məqsədilə, habelə yuxarıda adı çəkilən halların müəyyənləşdirilməsi üçün zərurət yarandıqda göndərilə bilər;

2. yeni hüquq qaydalarının tətbiqi məsələləri, cinayətkarlığın profilaktikası, eləcə də kriminalistika sahəsində yeni metod, vasitə və texnikanın tətbiqi üzrə təcrübə mübadiləsi;
3. cinayətkarlıqla mübarizənin ayrı-ayrı sahələri üzrə ekspertlər arasında təcrübə mübadiləsi və ekspertlərin görüşünün təşkili;
4. ictimai təhlükəsizliyin və asayişin təhdidlərə məruz qalmasının qabaqcadan qarşısının alınması üçün Tərəflərin öz dövlətlərinin ərazisində nəzarətli göndəriş təcrübəsinin tətbiq olunması da daxil olmaqla, razılaşdırılmış polis tədbirlərinin keçirilməsi, cinayət cəzasına səbəb olan halların qarşısının alınması və araşdırılması;
5. qanunsuz miqrasiya ilə mübarizə, habelə bunun üçün lazım olan hüquqi və təşkilati tədbirlərin keçirilməsində qarşılıqlı yardım göstərilməsi.

(2) Tərəflər bir-birinə sorğu və xahişlər əsasında yardım edirlər.

(3) Əgər hər bir Tərəf ictimai təhlükəsizliyin və asayişin təhdidlərdən qorunması və ya cinayətin qarşısının alınması və araşdırılması məqsədilə digər Tərəf üçün zəruri olan konkret məlumata malik olarsa, o zaman o, 1-ci bəndin 1 və 2-ci yarımbəndləri ilə nəzərdə tutulan hallara dair məlumatı digər Tərəfə öz ölkəsinin qanunvericiliyinə müvafiq qaydada, sorğusuz da verə bilər. Tərəflər bir-birinə, xüsusilə cinayətin bir Tərəfin dövlətinin ərazisində törədildiyi və ya hazırlandığı, habelə digər Tərəfin dövlətinin ərazisi ilə əlaqəli olduğu halda yardım edirlər.

Maddə 3

Əməkdaşlıq üçün məsul olan orqanlar

(1) Tərəflər öz ölkələrinin qanunvericiliyinə müvafiq olaraq bu Sazişdə nəzərdə tutulan əməkdaşlıq üçün məsul olan orqanları haqqında bir-birinə məlumat verirlər. Gələcəkdə bu orqanların səlahiyyətlərində və adlarında olan dəyişikliklər haqqında bir-birinə bildirirlər.

(2) Tərəflər arasında əməkdaşlıq həmçinin bu işi əlaqələndirən şəxs tərəfindən həyata keçirilir. Əlaqələndirici şəxs məlumat və məsləhətləşmə mübadiləsi sahəsində fəaliyyət göstərir, lakin onun icraçı səlahiyyəti yoxdur.

Əlaqələndirici şəxsin vəzifələri hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq, onların müvafiq orqanları tərəfindən müəyyən olunur.

Maddə 4

Məlumatların qorunması

(1) Tərəflər arasında şəxslər haqqında məlumatların qarşılıqlı surətdə ötürülməsi, bunun üçün Tərəflərin müəyyən etdiyi şərtlərə riayət etməklə, eynilə həm avtomatlaşdırılmış şəkildə qorunan məlumatlara və həm də bu şəkil də qorunmayan məlumatlara şamil edilən əsas prinsiplərə uyğun olaraq həyata keçirilir.

1. Ötürülən məlumatlar etimad və inam prinsiplərinə əsasən və hüquq qaydalarına uyğun olaraq araşdırılıb işlənilir. Həmin məlumatlar müəyyən olunmuş hüquqi məqsədlər üçün toplanılır və həmin məqsədlərə zidd olduğu halda istifadə olunmur. Məlumatlar mühüm, nəzərdə tutulmuş məqsədlərə uyğun olmalı və həmin məqsədlər çərçivəsindən kənara çıxmamalıdır.
2. Şəxslərin irqi mənsubluğunu, siyasi baxışlarını, dini və ya digər əqidələrini əks etdirən məlumatlar, o cümlədən şəxslərin səhhətinə və ya cinsi həyatına aid olan məlumatlar yalnız ölkədaxili qanunvericiliklə müvafiq müdafiəyə təminat verildiyi halda istifadə oluna bilər. Bu, həmçinin məhkum olunmuş şəxslərə dair məlumatlara da tətbiq olunur.
3. Ötürülən məlumatlar təqdim edən orqanın razılığı olmadan və mübadilənin əsasını təşkil edən məqsədlərdən xaric olan məqsədlər üçün istifadə edilə bilməz.
4. Verilmiş məlumatlar aşağıdakı hallarda ya ləğv edilir, ya da dəyişikliyə uğradılır:
   a) düzgün olmadığı məlum olarsa;
   b) məlumatı verən orqan məlumatın qanunu pozmaqla alındığını və ötürüldüyünü bildirərsə və ya məlumatı verən orqanların milli qanunvericiliyinə uyğun olaraq verilmiş qanuni məlumat sonradan ləğv edilməlidirsə və ya c) bu məlumatlar artıq onların tələb olunduğu tapşırığın yerinə yetirilməsi üçün lazım deyilsə və verilmiş məlumatlar başqa məqsədlə istifadə olunmaq üçün əhəmiyyət kəsb etmirsə.

5. Tərəflərdən birinin səlahiyyətli orqanının sorğu etdiyi halda, qəbul edən orqan vasitəsilə, əldə edilmiş məlumatların hər hansı qaydada istifadə olunduğu haqda informasiya verilməlidir.

(2) Tərəflər şəxslər haqqında olan məlumatların dəqiqliyi və aktuallığı üçün əhəmiyyətli olan bütün hallara dair bir-birinə məlumat verirlər. Verilməli olmadığı halda verilmiş və ya məlumat verilən orqanın dövlətinin qanunvericiliyinə uyğun olaraq qanuni yolla verilmiş və sonradan ləğv ediləcək düzgün olmayan məlumat və ya məlumatlar toplusu verilibsə, məlumatı alan orqan bu barədə öz tərəfindən, birinci bəndin ikinci abzasına uyğun olaraq, zəruri ləğv edilmə və ya düzəlişin həyata keçirilməsi məqsədilə dərhal məlumatlandırılır.

(3) Qəbul edən orqanın verilmiş məlumatların səhv və ya ləğv edilməli olmalarını zənn etməyə əsası varsa, o, məlumatı verən orqanı bu barədə dərhal məlumatlandırır.

(4) Məlumatı alan orqan göndərilən şəxslər haqqında məlumatları təsadüfi və ya səriştəsiz məhv edilmədən, təsadüfi itirilmədən, səriştəsiz və təsadüfi dəyişdirilmədən və ya yaymaq hallarından, icazəsiz açıqlamadan səmərəli qorumağı öhdəsinə götürür.

(5) Məlumatı verən və alan orqanlar məlumatların verilməsini, alınmasını və məhv edilməsini protokollaşdırmalıdır. Protokolda verilmə səbəbi, məzmunu, məlumatı verən və alan orqanların adları, məlumatların verilmə və məhv edilmə müddəti göstərilməlidir. Protokol yazıları üç il qorunur və sonradan dərhal məhv edilir. Protokolda göstərilənlər yalnız informasiyanın qorunması haqqında qanunun ən vacib müddəalarına riayət olunub-olunmamasına nəzarət məqsədilə tətbiq olunmalıdır.

(6) Hər bir zərərçəkənin, özünün şəxsiyyətini təsdiq etməklə, məlumatın hazırlanması-

na cavabdeh olan instansiyanın təklifi üzrə, anlaşılan qaydada və təxirə salınmadan, bu Saziş çərçivəsində ona aid olan verilmiş məlumatlar, onların mənbəyi, tətbiqinin məqsədləri və hüquqi əsasları, habelə tətbiq olunan yanlış məlumatlara dair düzəlişlər və onların ləğv olunması barədə arayış almaq hüququ vardır. Bu hüququn həyata keçirilməsi məqsədilə icraatın təfsilatları Sazişi imzalayan Tərəfin qüvvədə olan milli qanunvericiliyə əsaslanır. Bu hüquqlar üzrə tələblərin təqdim olunması üçün sorğu göndərildikdə, məlumatı alan orqan məlumatı göndərən orqana sorğu haqqında qərar qəbul edilməzdən öncə öz mövqeyini bildirməyə imkan yaradır.

(7) Tərəflər təsdiq edirlər ki, məlumatların qorunması ilə bağlı zərərçəkənin hüquqları pozulduğu təqdirdə, o, Avropa İnsan Haqları Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinə əsasən müstəqil, bitərəf və qanuna arxalanan məhkəməyə müraciət edə və zərərin ödənilməsi barədə iddia qaldıra bilər.

(8) Tərəflər, məlumatların verilməsi üçün, yalnız onların qanunsuz müdaxilədən və ya verilmə prosesi zamanı üçüncü şəxs tərəfindən dəyişdirilməsindən qorunmasını təmin edən kommunikasiya vasitələrindən istifadə olunmasına diqqət yetirirlər.

Maddə 5

Məsləhətləşmələr

Tərəflərin rəhbər əməkdaşları həmin Sazişin daha təsirli tətbiqi üçün vasitə və yolları və eləcə də əməkdaşlığın gələcək inkişafı və səmərəliliyi məqsədilə, lazım gəldikdə, mümkün tədbirləri müzakirə etmək üçün məsləhətləşmələr keçirə bilərlər.

Maddə 6

İstisnalar

(1) Əgər Tərəflərdən biri digər Tərəfin sorğusunun yerinə yetirilməsini və ya bunun üçün başqa formada əməkdaşlığın onun ölkəsinin suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər mühüm maraqlarına ziyan vuracağı və ya ölkədə hüquqi qaydaların pozulmasına səbəb ola biləcəyi fikrinə gələrsə, o zaman həmin Tərəf yardım göstərməkdən tamamilə və ya qismən imtina edə bilər və ya bu yardımı müəyyən şərtlərlə əlaqələndirə bilər.

(2) Müraciət etmiş Tərəfə hər bir halda qəbul olunmuş qərar haqqında məlumat verilməlidir.

Maddə 7

Digər beynəlxalq müqavilələrə münasibət

Bu Sazişin müddəaları Tərəflərin iştirak etdiyi digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 8

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və yaxud tədqiqi ilə bağlı mübahisələr Tərəflərin Mərkəzi orqanları arasında danışıqlar yolu ilə həll edilir. Mübahisələr həmçinin diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 9

Sazişin qüvvəyə minməsi və qüvvədən düşməsi

(1) Bu Saziş Tərəflərin bunun üçün dövlətdaxili müddəaların yerinə yetirilməsi barədə bir-birinə məlumat verdiyi andan ikinci ayın birinci günündən qüvvəyə minir.

(2) Bu Saziş qeyri-müəyyən müddətə bağlanır.

(3) Tərəflər bu Sazişi diplomatik kanallar vasitəsilə dayandıra bilərlər. Bu Saziş Tərəflərdən birinin digər Tərəfə öz niyyətini yazılı surətdə bildirməsindən 6 ay sonra qüvvədən düşür. Bu Saziş Vyana şəhərində 14 iyul 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində imzalanmışdır, bütün mətnlər eyni dərəcədə autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	AVSTRİYA RESPUBLİKASININ FEDERAL DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1994-cü ildə təməli "Əsrin müqaviləsi" ilə qoyulmuş Prezident Heydər Əliyevin müasir neft strategiyası Azərbaycan Respublikasının iqtisadi və siyasi həyatında müstəsna əhəmiyyətli rol oynamış, nəticədə ölkəmizin inkişafında böyük nailiyyətlər əldə edilmiş, uzunmüddətli beynəlxalq əməkdaşlıq istiqamətində mühüm addımlar atılmışdır. Ötən müddət ərzində uğurla həyata keçirilən bir sıra nəhəng layihələr, xüsusilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin və Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəmərinin tikintisi Xəzər hövzəsində enerjidaşıyıcılarının etibarlı nəqletmə şəbəkələrinin yaradılmasına, habelə regional inteqrasiyanın genişləndirilməsinə güclü təkan vermişdir.

Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında imzalanmış Ankara, İstanbul və Bakı bəyannamələrin də Şərq-Qərb Enerji Dəhlizinin yaradılması və bu dəhliz çərçivəsində əsas ixrac boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan layihəsi dəstəklənmişdir.

Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması zamanı ölkəmizin maraqlarının ardıcıl şəkildə təmin edilməsi, iqtisadi, hüquqi, ekoloji, texniki və başqa aspektlərin ətraflı araşdırılması, habelə digər tədbirlərin görülməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin həlli üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:

Komissiyanın sədri

Abid Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiya sədrinin müavini

Natiq Əliyev	- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Komissiyanın üzvləri:

Samir Şərifov	- Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru
Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Mikayıl Cabbarov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Azər Bayramov	- Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Natiq Əmirov	- Azərbaycan Respublikası vergilər nazirinin müavini
Firdovsi Əliyev	- Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Aydın Əliyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Rəfael Rəhmanov	- Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi rəisinin birinci müavini
Valeh Ələsgərov	- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsinin rəisi

2. Bu Sərəncamın 1-ci bəndinə əsasən yaradılmış Komissiyaya tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar zəruri olan tədbirləri görsün və müvafiq sazişlərin layihələri hazırlandıqdan sonra onları baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2005-ci il

№1000

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol;

1.3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2005-ci il

№1003

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

Azərbaycan və Qazaxıstan xalqları arasında dostluq əlaqələrinin genişləndirilməsini və onların həyatı, tarixi və mədəni irsinin daha yaxından öyrənilməsini təşviq etdirməyi arzu edərək, turizmin xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsində, xoş niyyətin ifadə edilməsində və əlaqələrin gücləndirilməsində mühüm vasitə olduğunu dərk edərək, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarını rəhbər tutaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Sazişə, Tərəflərin dövlətlərinin qanunvericiliyinə və iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq, bərabərlik və qarşılıqlı fayda əsasında turizm sahəsində əməkdaşlığı möhkəmləndirir və inkişaf etdirirlər.

Maddə 2

Tərəflər turizm sahəsinə sərmayə yatırımlarını, həmçinin turistlərə xidmət məqsədilə birgə sahibkarlıq fəaliyyətini həyata keçirən Azərbaycan və Qazaxıstan turizm təşkilatları arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi sahəsində turizmin idarə edilməsi üzrə dövlət orqanlarının fəaliyyətini dəstəkləyirlər.

Maddə 3

Tərəflər iki dövlət arasında turist mübadiləsi ilə əlaqədar sərhəd, gömrük və digər rəsmiləşmələrin, öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq və qarşılılıq əsasında sadələşdirilməsinə çalışırlar.

Maddə 4

Tərəflər, dövlətlərinin əməkdaşlıq edən təşkilatları arasında birbaşa müqavilələrin bağlanması əsasında, həm mütəşəkkil, həm də fərdi turizmi, idman tədbirlərində, musiqi, teatr və folklor festivallarında, habelə turizm məsələləri ilə bağlı keçirilən sərgi, simpozium və konqreslərdə iştirak etmək məqsədini daşıyan mübadilələr də daxil olmaqla, ixtisaslaşdırılmış turist qruplarının mübadiləsini təşviq edirlər.

Maddə 5

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, turizmin idarə edilməsi üzrə dövlət orqanları arasında turizm sahəsində statistika, məlumat-informasiya, reklam və digər materiallar, o cümlədən aşağıdakılar haqqında məlumat mübadiləsinə yardım edirlər:

öz dövlətlərində turizm fəaliyyətini tənzimləyən normativ aktlar;

turizm üçün diqqətəlayiq yer hesab edilən təbii və mədəni ehtiyatların qorunması və saxlanılması ilə bağlı milli qanunvericilik;

Tərəflərin dövlətlərinin turizm ehtiyatları;

mehmanxanaların və digər turist yerləşdirmə vasitələrinin idarə edilməsi təcrübəsi.

Maddə 6

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, turizm sahəsində tədris texnologiyalarının və tədqiqatların mübadiləsini edəcək, həmçinin turizm biznesinin təşkili və idarə edilməsində təcrübə mübadiləsinə kömək edəcək və Tərəflərin dövlətlərinin əməkdaşlıq edən təşkilatları arasında bağlanmış birbaşa müqavilələr əsasında turizm sahəsində işçi heyətin hazırlanmasında bir-birinə yardım edəcəklər.

Maddə 7

Turizmin idarə edilməsi üzrə dövlət orqanları əməkdaşlığı Ümumdünya Turizm Təşkilatı və digər beynəlxalq turizm təşkilatları çərçivəsində əlaqələndirirlər.

Maddə 8

Tərəflər bu Sazişin həyata keçirilməsi ilə bağlı xərcləri müstəqil şəkildə ödəyirlər.

Maddə 9

Bu Sazişin müddəalarının həyata keçirilməsində Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi;

Qazaxıstan tərəfindən - Qazaxıstan Respublikasının Sənaye və Ticarət Nazirliyi.

Yuxarıda qeyd olunan səlahiyyətli qurumların adları və ya funksiyaları dəyişdikdə, Tərəflər bu haqda bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandırırlar.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib edilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 11

Bu Saziş, Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələr üzrə Tərəflərin dövlətlərinin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 12

Bu Sazişin müddəalarının təfsiri və ya həyata keçirilməsi zamanı yaranan mübahisələri və fikir ayrılıqlarını Tərəflər məsləhətləşmələr və danışıqlar yolu ilə həll edirlər.

Maddə 13

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxli prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri onun ləğv edilməsi niyyəti barədə yazılı şəkildə bildiriş aldığı tarixdən etibarən altı aylıq müddət başa çatana qədər qüvvədə qalır.

Bakı şəhərində 24 may 2005-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan, qazax və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*BOLAT SMAQULOV*
Gənclər, idman və turizm naziri	*Ticarət nazirinin müavini*

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişin (bundan sonra - Saziş) 9-cu maddəsinə uyğun olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişdə aşağıdakı dəyişikliklər edilsin:

Sazişin 7-ci maddəsinin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası tərəfindən - "Azərneftkimyamaş" Açıq Səhmdar Cəmiyyəti";

Sazişin 7-ci maddəsinin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Qazaxıstan Respublikası tərəfindən - "Sənaye və Ticarət Nazirliyi".

Maddə 2

Bu Protokol Sazişin ayrılmaz hissəsi hesab edilir və imzalandığı tarixdən qüvvəyə minir.

Bakı şəhərində 24 may 2005-ci il tarixində hər biri Azərbaycan, qazax və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
MƏCİD KƏRİMOV	*BOLAT SMAQULOV*
Sənaye və energetika naziri	*Ticarət nazirinin müavini*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra "Tərəflər"),

Tərəflər arasında əməkdaşlığın Tərəflərin dövlətlərində əməyin təhlükəsizliyi və mühafizəsi, sosial təminat və əhalinin məşğulluğu sahəsində təcrübə mübadiləsinə yönəldiyini etiraf edərək, Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında münasibətlərin inkişaf etdirilməsinə yardım etmək niyyətində olaraq, Tərəflər arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində dostluq münasibətlərinin və əməkdaşlığın inkişafında maraqlı olduqlarını nəzərə alaraq, belə ikitərəfli əməkdaşlığın iqtisadi və sosial tərəqqinin stimullaşdırılmasına xidmət etdiyini anlayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlığı inkişaf etdirir və genişləndirirlər.

Maddə 2

Tərəflər arasında əməkdaşlıq onların milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı sahələr üzrə həyata keçirilir:

a) əmək, məşğulluq və sosial müdafiə problemlərinin normativ hüquqi tənzimlənməsi;

b) sosial-əmək münasibətləri, o cümlədən onların qanunvericiliklə tənzimlənməsi,

əməyin təftişi, əməyin təhlükəsizliyi və mühafizəsi, əmək mübahisələrinin həlli yolları;

v) yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, əhalinin sosial müdafiəsi sisteminin, o cümlədən ünvanlı sosial yardım mexanizmlərinin inkişafı;

q) işsizlər və işaxtaranların peşə hazırlığı və yenidən hazırlığı sisteminin inkişafı;

d) sosial müdafiə, məşğulluq və əmək miqrasiyası sahəsində siyasət;

e) tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası, onların peşə hazırlığı və işə düzəlmələri;

j) sosial müdafiə sisteminin təşkili və idarə edilməsi;

z) əmək bazarının inkişafının monitorinqi;

i) Tərəflərin qarşılıqlı razılıq əldə etdikləri digər əmək, məşğulluq və əhalinin sosial müdafiəsi məsələləri.

Maddə 3

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq əməkdaşlığı aşağıdakı şəkildə həyata keçirirlər:

a) əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsinə aid olan qanunvericilik və digər normativ hüquqi aktların mübadiləsi;

b) sosial-əmək inkişafı məsələləri üzrə informasiya-analitik materialların və elmi tədqiqatların nəticələrinin mübadiləsi;

v) Tərəflərin ekspertləri arasında məsləhətləşmələrin aparılması;

q) Tərəflərin dövlətlərinin ərazilərində keçirilən konfranslarda, seminarlarda və digər beynəlxalq tədbirlərdə Tərəflərin ekspertlərinin mütəxəssislərinin iştirakı;

d) Tərəflərin mütəxəssislərinin ixtisaslarının artırılması və sosial əmək sahəsində iş təcrübəsinin mübadiləsi məqsədilə ixtisasartırma və təlim səfərlərinin təşkil olunması;

e) beynəlxalq forumlarda əmək, məşğulluq və əhalinin sosial müdafiəsi məsələləri üzrə qarşılıqlı fəaliyyəti və dəstəklənməsi.

Maddə 4

Bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə Tərəflər ekspertlər səviyyəsində birgə işçi qrupu yaradırlar. İşçi qrupu haqqında Əsasnaməni Tərəflər qəbul edir.

Maddə 5

Bu Sazişin tətbiq olunmasına yönəldilmiş maliyyə təminatı hər iki Tərəfin qarşılıqlı razılığı ilə Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq həyata keçirilir.

Maddə 6

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Tərəflər arasında yaranmış bütün mübahisələr və fikir ayrılıqları ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən və 8-ci Maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri digər Tərəfin onu ləğv etmək niyyəti barədə müvafiq yazılı bildirişini aldığı tarixdən etibarən altı aylıq müddət başa çatana qədər qüvvədə qalır.

Bu Saziş Bakı şəhərində 24 may 2005-ci il tarixində, bütün mətnlər eyni qüvvəyə malik olmaqla iki əsl nüsxədə Azərbaycan, qazax və rus dillərində imzalanmışdır. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ NAĞIYEV	*QULJANA KARAQUSOVA*
Əmək və əhalinin sosial müdafiəsi naziri	*Əmək və əhalinin sosial müdafiəsi naziri*

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq qərara alıram:

1. "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 21 fevral tarixli 62 nömrəli Sərəncamında (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 3-4, maddə 48) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənddə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü və 4-cü bəndlər qüvvədən düşmüş hesab edilsin.

2. "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 21 fevral tarixli 62 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulanın altıncı abzasında "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilsin;

2.2. "Milli Komissiyanın tərkibi" hissəsinin birinci abzasının birinci cümləsi çıxarılsın və həmin abzasda "xarici işlər naziri" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilsin.

3. YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının aşağıdakı tərkibi müəyyən edilsin: [1]

Komissiyanın sədri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Komissiya sədrinin müavinləri:

Mahmud Kərimov - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Əbülfəz Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Komissiyanın üzvləri:

Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri

Vasif Adıgözəlov - Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi

Fərhad Xəlilov - Azərbaycan Rəssamlar İttifaqının sədri

Rüstəm İbrahimbəyov - Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri

Maqsud İbrahimbəyov - Azərbaycan Respublikası Milli Sülh Komitəsinin sədri

Kamal Abdullayev - Azərbaycan Mədəniyyət Fondunun sədri

Zərifə Salahova - Azərbaycan Kitab Cəmiyyətinin sədri

Çingiz Abdullayev - Xalq yazıçısı

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2005-ci il

№1006

İstifadə olunmuş mənbə sənədlərin siyahısı

27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 743)

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 743) ilə 3-cü bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri" sözləri ilə, "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri" sözləri ilə əvəz edilsin.

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin turizm nazirlərinin beşinci konfransının Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası dünya birliyinin bərabərhüquqlu üzvü kimi irimiqyaslı mühüm layihələrin həyata keçirilməsində bir sıra beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir. Belə təşkilatlardan biri olan İslam Konfransı Təşkilatı ilə səmərəli əlaqələrin qurulması bu təşkilata üzv ölkələr arasında Azərbaycanın nüfuzunun artmasına, qarşılıqlı etimadın güclənməsinə təkan vermişdir. İslam Konfransı Təşkilatına üzv olan ölkələrin turizm nazirlərinin cari ilin 28-30 may tarixlərində Seneqalın paytaxtı Dakar şəhərində keçirilmiş dördüncü konfransında növbəti beşinci konfransın Bakı şəhərində keçirilməsi təklifi irəli sürülmüşdür.

İslam Konfransı Təşkilatı ilə əməkdaşlığın Azərbaycan Respublikası üçün mühüm əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. İslam Konfransı Təşkilatına üzv ölkələrin turizm nazirlərinin beşinci konfransı 2006-cı ilin sentyabr ayında Bakı şəhərində keçirilsin.

2. Konfransın hazırlanması və keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

Təşkilat Komitəsinin sədr müavini

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri

Təşkilat Komitəsinin üzvləri:

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Fərhad Əliyev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri

Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru

Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları İdarəsinin sədri

3. Təşkilat Komitəsi konfransın keçirilməsi ilə bağlı müvafiq tədbirlər planı hazırlasın və onun yerinə yetirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2005-ci il

№1007

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 2005-ci il aprelin 21-də Kişineu şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 2005-ci il aprelin 21-də Kişineu şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən Sazişlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Moldova Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2005-ci il

№1004

Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti,

dövlətlər arasında iqtisadi, elmi, texniki və mədəni münasibətlərin möhkəmləndirilmə-

si və inkişafı üzrə niyyətlərini rəhbər tutaraq,

informasiya texnologiyalarının təkmilləşdirilməsinin və informasiya cəmiyyətinin qurulması üzrə ümumdünya prosesinə daxil olmasının vacibliyini dərk edərək,

aşağıdakılar ilə əlaqədar razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin mövcud qanunvericiliyinə uyğun olaraq yeni informasiya texnologiyalarına əsaslanan müasir milli informasiya sisteminin yaradılması məqsədilə iqtisadi və elmi-texniki əlaqələrin inkişafını dəstəkləyəcək, eləcə də elmi mərkəzlərlə, iqtisadi agentlərlə, digər inzibati şöbələrlə birbaşa əlaqə saxlayacaqlar.

Maddə

Əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçiriləcəkdir:

dövlət informasiya resurslarının yaradılması;

əhalinin miqrasiyası, sosial müdafiəsi və işlə təmin olunması, əhalinin, hüquqi vahidlərin və nəqliyyat vasitələrinin qeydiyyatı məsələləri daxil olmaqla sosial sahənin informatizasiyası;

texniki proqram vasitələrinin standartlaşdırılması, birgə cəmiyyətlərin və digər kommersiya və qeyri-kommersiya təşkilatlarının yaradılmasına yardım göstərilməsi;

informasiya cəmiyyətinin qurulması sahəsində birgə layihələrin işlənib hazırlanması;

informasiya və informasiya texnologiyalarının təhlükəsizliyinin təmin olunması;

elektron-rəqəmsal mexanizmlərindən istifadə olunması daxil olmaqla, informasiya ilə dövlətlərarası elektron mübadiləsi sisteminin yaradılması;

Tərəflər arasında birgə müəyyən əməkdaşlığın digər istiqamətləri.

Maddə 3

Tərəflər əməkdaşlığı:

informasiya sistemlərinin inkişafı və təkmilləşdirilməsi, bu sahədə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi məsələləri üzrə normativ aktlar və texniki sənədlər daxil olmaqla, informasiya mübadiləsi;

birgə layihələrin maliyyələşdirilməsi üçün investisiyaların cəlb olunması;

təsərrüfat subyektləri arasında bağlanmış kontraktlar əsasında birgə araşdırmaların aparılması, informasiya texnologiyalarının, avtomatlaşdırılmış informasiya sistem və şəbəkə layihələrinin işlənib hazırlanması və tətbiq edilməsi;

konfransların, sərgilərin, seminarların, dəyirmi masaların və digər işçi görüşlərin təşkil olunması, mütəxəssislərin mübadiləsi;

qarşılıqlı fayda kəsb edən digər əməkdaşlıq formaları vasitəsilə dəstəkləcəyəklər.

Maddə 4

Tərəflər, informasiya sahəsində əməkdaşlığın əlaqələndirilməsi və bu Sazişin praktiki həyata keçirilməsi məqsədilə səlahiyyətli aidiyyəti orqanları müəyyən etdilər:

Azərbaycan Respublikası tərəfindən - Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Moldova Respublikası tərəfindən - İnformasiya İnkişafı Nazirliyi.

Maddə 5

Tərəflər konkret layihələrin həyata keçirilməsi zamanı milli qanunvericiliyi və intellektual mülkiyyətin mühafizəsi üzrə beynəlxalq hüquqi normaları rəhbər tuturlar.

Maddə 6

Tərəflərin səlahiyyətli aidiyyəti orqanları zərurət olduğu halda bu Sazişin müddəalarının yerinə yetirilməsi məsələləri üzrə ikitərəfli məsləhətləşmələri aparacaqlar. Bu Sazişin təfsir və tətbiq edilməsi ilə əlaqədar fikir ayrılıqları danışıqlar yolu ilə həll olunur.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla tərtib olunmuş və bu Sazişin 8-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr daxil edilə bilər.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətlərarası prosedurları Tərəflərin yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri müvafiq müddətin bitməsinə 6 (altı) ay qalmış Sazişin qüvvəsini ləğv etmək niyyətində olduğu haqqında digər Tərəfə yazılı bildiriş göndərməzsə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Kişineu şəhərində 21 aprel 2005-ci il tarixində hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə tərtib olunmuşdur və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsir və tətbiq olunmasında fikir ayrılığının yarandığı təqdirdə rus dilində olan mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*VLADİMİR MOLOJEN*
Rabitə və informasiya texnologiyaları naziri	*İnformasiya inkişafı naziri*

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti bir tərəfdən və "Teleradio - Moldova" İctimai Şirkəti digər

tərəfdən,

televiziya və radio yayımı sahəsində əməkdaşlığı möhkəmləndirmək arzusunu ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər kommersiya və qeyri-kommersiya əsaslarında, digər şəxslərə satmamaq və verməmək şərtilə, televiziya və radio verilişləri proqramlarına aid olan kataloq və məlumat mübadiləsinə razıdırlar.

Proqramlar və materiallar, kommersiya və qeyri-kommersiya əsaslarında, Tərəflər arasındakı ayrıca sazişə uyğun olaraq digər şəxslərə verilə bilər.

Maddə 2

Kommersiya və qeyri-kommersiya yolu ilə mübadilə edilən proqramlar aşağıdakı kateqoriyalara daxildir:

qəbul edən Tərəf üçün nəzərdə tutulmuş müəllif hüququ olmayan proqramlar;

qəbul edən Tərəf üçün nəzərdə tutulmuş müəllif hüququ olmayan proqramlar;

nümayiş hüququ müəyyənləşmiş proqramlar: sənədli filmlər, musiqili və əyləncəli proqramlar, bədii filmlər, seriallar və uşaq proqramları;

hüquqları sonradan alınacaq proqramlar: eksklüziv hüquqla əldə olunan xüsusi idman tədbirləri.

Göndərən Tərəf, ingilis və ya rus dillərində olan mətnləri özündə əks etdirən materialın yazma və göndərmə xərclərini ödəyəcək.

Kommersiya əsasında əldə olunmuş proqramların ötürülməsi və yayımlanmasının şərtləri və müddətləri ayrıca sazişlərlə müəyyənləşdiriləcək.

Maddə 3

Bu Sazişin Tərəfləri öz ölkələri ərazisində yerli televiziya və radio proqramlarının cədvəllərinə uyğun olaraq proqram və materialları istifadə edə bilərlər.

Qəbul edən Tərəf, digər Tərəfə yazılı şəkildə bildirməklə, proqramın məzmununu dəyişmədən alınmış materialı qısalda və ya redaktə edə bilər.

Tərəflərin qəbul etdikləri proqramları üçüncü şəxslərə satmaq və ya vermək hüquqları yoxdur.

Maddə 4

Tərəflər, aşağıdakı şərtlər əsasında, televiziya və radio mütəxəssislərinin qarşılıqlı mübadiləsini aparmaq öhdəliyini öz üzərinə götürürlər:

- kommersiya əsaslı mübadilə;
- qarşılıqlı təcrübə mübadiləsi il ərzində 15 gündən artıq olmayacaq.

Sonuncu halda göndərən Tərəf qəbul edən Tərəfin dövlətinin paytaxtına qədər olan beynəlxalq nəqliyyat xərclərini öz üzərinə götürür.

Qəbul edən Tərəf mehmanxana, gündəlik, həmçinin tərcüməçi və daxili nəqliyyat xərclərini öz üzərinə götürəcək.

Maddə 5

Tərəflər televiziya və radio yaradıcı qruplarına və jurnalistlərinə materialın ötürülməsi və birtərəfli redaktə edilməsi üçün texniki kömək göstərəcəklər.

Kommersiya əsasında göstərilən xidmətlərə görə qəbul edən Tərəf CİRAP-EBU əmsalına uyğun olaraq, xərclərlə bağlı fakturaları göndərən Tərəfə təqdim edəcək.

Xərclərlə bağlı fakturalar onların alındığı tarixdən 15 gün ərzində ödənilməlidir.

Tərəflər xidmətlərin xərclərini əvvəlcədən müəyyən edəcəklər.

Maddə 6

Göndərən Tərəf jurnalistlərin səfərlərinin məqsədi, marşrutu, habelə lazımi texniki vasitələr barədə məlumatı müəyyən olunmuş tarixə bir ay qalmış qəbul edən Tərəfə verməlidir.

Bu müddət rəsmi səfərlərə, siyasi tədbirlərə və s. aid deyildir.

Maddə 7

Tərəflər bir Tərəfin xahişi əsasında Tərəflərin birinin dövlətinin ərazisində çəkiliş aparan yaradıcı qrup və jurnalistlərə dəstək verəcək və qarşılıqlı ödənişsiz əsasda məsləhətlə kömək göstərəcəklər. Belə yardımın müddəti il ərzində 15 iş günündən artıq olmamalıdır.

Maddə 8

Tərəflər qarşılıqlı maraq kəsb edən mövzularda müştərək proqramların hazırlanmasının mümkünlüyünü nəzərə alacaqlar. Müştərək proqramların xüsusi şərtləri və aspektləri ayrıca razılaşmalar əsasında müəyyənləşdiriləcək.

Maddə 9

Bu Sazişdə nəzərdə tutulmayan hallar baş verdikdə, Tərəflər dostcasına məsləhətləşmələr yolu ilə razılığa gəlmək üçün bütün səyləri göstərəcəklər.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və üç il ərzində qüvvədə qalır.

Bu Sazişin bitməsinə ən azı 3 ay qalmış Tərəflərdən biri bu Sazişi ləğv etmək və ya yenidən nəzərdən keçirmək niyyətini bildirmədiyi təqdirdə, bu Saziş avtomatik olaraq növbəti üçillik müddətlərə uzadılır. Kişineu şəhərində 21 aprel 2005-ci ildə, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır.

Fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN

NİZAMİ XUDİYEV

"TELERADİO-MOLDOVA" İCTİMAİ ŞİRKƏTİ ADINDAN

İMLE TELEŞKU

"Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 568 nömrəli Sərəncamına əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 568 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1056; Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 985 nömrəli Sərəncamı) 1-ci bəndinin üçüncü abzasında "Amerika Birləşmiş Ştatlarında," sözlərindən sonra "Argentina Respublikasında," sözləri, "Belçika Krallığında," sözlərindən sonra "İsveç Krallığında, İspaniya Krallığında, Çex Respublikasında," sözləri və dördüncü abzasında "Küveyt Dövlətində," sözlərindən sonra "İordaniya Haşimilər Krallığında, Suriya Ərəb Respublikasında, Qatar Dövlətində," sözləri əlavə edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 sentyabr 2005-ci il

№1010

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat və Radio-Elektron Mübarizə İdarəsi rəisi vəzifəsini icra edən polkovnik Rəhim Oktay oğlu Cəfərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat və Radio-Elektron Mübarizə İdarəsi rəisi vəzifəsini icra edən polkovnik Rəhim Oktay oğlu Cəfərova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 sentyabr 2005-ci il

№1015

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında" Sazişə qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında" Sazişə qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№984-IIQ

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq Rusiya Federasiyası Hökuməti, Hindistan Respublikası Hökuməti, İran İslam Respublikası Hökuməti və Oman Sultanlığı Hökuməti,

aralarındakı dostluq münasibətlərini və əməkdaşlığı dəstəkləmək, inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

regional və qlobal planda ölkələrin qarşılıqlı asılılığının artmasını anlayaraq,

xarici iqtisadi əlaqələrin genişləndirilməsinə və səmərəliliyinin yüksəldilməsinə böyük əhəmiyyət verərək,

beynəlxalq ticarət və dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi üçün tranzit daşımaları haqqında mövcud razılaşmaların vacibliyini tanıyaraq,

öz aralarında, eləcə də digər dövlətlərə və digər dövlətlərdən əmtəələrin müntəzəm vaxtında və səmərəli hərəkətinin inkişafına tərəfdar olduqlarını vurğulayaraq,

gələcəkdə mövcud təcrübə əsasında və beynəlxalq konvensiyalara və standartlara uyğun olaraq sərnişinlərin və əmtəələrin tranzit daşınması rejimlərini daha da təkmilləşdirmək niyyətində olaraq,

mövcud nəqliyyat infrastrukturundan lazımınca istifadə və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə sərnişin və əmtəə daşımalarının həyata keçirilməsi üçün maksimum səy göstərərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün aşağıdakı terminlər bu mənaları ifadə edir:

1.1. "Bütün nəqliyyat növləri":

dəmir yolu, dəniz, avtomobil yolu, çay və hava ilə sərnişin və əmtəə daşınmasını təmin edən nəqliyyat infrastrukturu və nəqliyyat vasitələri. Hindistan

üçün - hal-hazırda yalnız dəniz marşrutları üzrə əmtəələrin daşınmasını təmin edən nəqliyyat infrastrukturu və nəqliyyat vasitələri.

1.2. "Yüklərin daşınması" - fiziki-kimyəvi xassələri və çəkisi razılaşdırılmış hədlər daxilində saxlanılmaqla əmtəələrin yerdəyişməsi üzrə nəqliyyat xidmətinin növüdür.

1.3. "Konteyner" - daşıma üçün qurğu:

- içində əmtəələrin yerləşdirilməsi üçün nəzərdə tutulmuş tam, yaxud qismən qapalı qabdır;
- daimi xarakterə və bununla əlaqədar dəfələrlə istifadəyə xidmət etmək üçün kifayət qədər möhkəm quruluşa malikdir;
- aralıq yüklənib-boşaldılma həyata keçirilmədən əmtəələrin bir, yaxud daha çox nəqliyyat növü ilə daşınmasının asanlaşdırılması üçün xüsusi olaraq quraşdırılmışdır;
- o cümlədən, əsasən bir nəqliyyat vasitəsindən digərinə yerdəyişmə üçün yüklənib-boşaldılmasının asan olması şərtilə quraşdırılmışdır və istifadədə rahatdır;
- bir kubmetrdən az olmayan daxili tutuma malikdir.

1.4. "Daşıyıcı" - faktiki surətdə yüklərin yerdəyişməsini həyata keçirən və ya Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə Tərəf dövlətlərin milli qanunvericiliyinə müvafiq surətdə əmtəələrin, sərnişinlərin və onların baqajının beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitəsindən istifadəyə görə məsuliyyət daşıyan hüquqi, yaxud fiziki şəxsdir.

1.5. "Əmtəə" - vaqonlara, konteynerlərə, yaxud Tərəf dövlətlərin milli qanunvericiliyi ilə qadağan olunmayan nəqliyyat növləri ilə daşınan bütün yük növləridir.

1.6. "Əmtəələrin beynəlxalq tranziti" - Tərəfin ərazisindən gömrük nəzarəti altında göndərilmə məntəqəsi və təyinat məntəqəsi bu dövlətin hüdudlarından kənarda yerləşən əmtəələrin yerdəyişməsidir.

1.7. "Beynəlxalq daşıma" - bu Sazişin ən azı iki Tərəfinin ərazisi üzrə həyata keçirilən müxtəlif nəqliyyat növlərində sərnişinlərin/əmtəələrin yerdəyişməsidir.

1.8. "Beynəlxalq nəqliyyat dəhlizi" - beynəlxalq xətlərdə sərnişinlərin və əmtəələrin onların ən çox cəmləşdiyi istiqamətlərdə daşınmasını təmin edən, bir qayda olaraq, müxtəlif nəqliyyat növlərinin müvafiq qurulması ilə Tərəfləri birləşdirən magistral nəqliyyat kommunikasiyalarının (istər mövcud olan, istərsə də yenidən yaradılan) məcmusudur.

1.9. "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" - Hindistandan, Omandan dənizlə və İran, Xəzər regionu, Rusiya Federasiyasına və onlardan keçməklə və əks istiqamətdə.

1.10. "Sərnişin" - daşıma müqaviləsi bağlamış fiziki şəxsin istənilən nəqliyyat nö-

vündə yerdəyişməsi ilə bağlı nəqliyyat xidmətlərinin istehlakçısıdır.

1.11. "Sərnişindaşıma" - istənilən nəqliyyat növü ilə fiziki şəxslərin (sərnişinlərin) yerdəyişməsi üzrə nəqliyyat xidməti növüdür.

1.12. Beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində "Müvafiq obyektlər" Şimal- Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə daşımalar üçün mühüm əhəmiyyət kəsb edən istər mövcud olan, istərsə də yenidən yaradılan dövlət sərhədindən buraxılış məntəqələrini, gömrük postlarını, terminalları, vaqon qruplarının mübadilə stansiyalarını, təkər cütlərinin dəyişdirilməsi stansiyalarını, dəmiryol, avtomobil və qarışıq bərə keçidləri/limanları deməkdir.

Maddə 2

Sazişin məqsədləri

2.1. Bu Sazişin məqsədləri aşağıdakılardan ibarətdir:

a) Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə sərnişinlərin və əmtəələrin daşınmasının təşkili üçün nəqliyyat əlaqələrinin səmərəliliyinin yüksəldilməsi;

b) Saziş Tərəf dövlətlərin dəmiryolu, avtomobil, dəniz, çay və hava nəqliyyatı xidmətlərinin beynəlxalq bazarına çıxışına yardım;

v) sərnişinlərin və əmtəələrin beynəlxalq daşımalarının həcminin artırılmasına yardım;

q) beynəlxalq standartlara müvafiq surətdə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin, əmtəələrin yaxşı saxlanmasının və ətraf mühitin mühafizəsinin təmin edilməsi;

d) bu Sazişin həyata keçirilməsi məqsədilə nəqliyyat siyasətinin, eləcə də nəqliyyat sahəsində hüquqi tənzimləmənin uzlaşdırılması;

e) Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə sərnişinlərin və əmtəələrin daşınması zamanı müxtəlif nəqliyyat növlərində nəqliyyat xidmətləri sifarişçiləri üçün bərabər qeyri-ayrıseçkilik şəraitinin yaradılması.

2.2. Bu Sazişin 2.1-ci bəndində göstərilmiş məqsədlərə müvafiq surətdə Tərəflər aşağıdakılara yönəlmiş bütün səyləri göstərirlər:

a) öz dövlətlərinin ərazisindən sərnişin və əmtəələrin tranzit daşımasının müddətinin qısaldılması;

b) tranzit daşımalarının dəyərinin minimuma endirilməsi;

v) qəbul edilmiş beynəlxalq sazişlərə və standartlara müvafiq surətdə bütün müvafiq ərazilərdən sərnişinlərin, əmtəələrin tranzit daşımalarına aid inzibati sənədlərin və prosedurların (o cümlədən gömrük prosedurlarının) sadələşdirilməsi və uyğunlaşdırılması.

Maddə 3

Ümumi müddəalar

3.1. Bu Saziş Tərəf dövlətlərin ərazisi ilə müvafiq tərəflərin Səlahiyyətli orqanlarının müəyyən etdikləri marşrutlar üzrə müxtəlif nəqliyyat növləri ilə, yaxud onların marşrutları üzrə kombinə edilməsi yolu ilə yerinə yetirilən sərnişinlərin və əmtəələrin beynəlxalq və tranzit daşımalarını tənzimləyir.

3.2. Bu Sazişin məqsədləri üçün Tərəflərin Səlahiyyətli orqanları aşağıdakılardır:

Hindistan Respublikasında - Yerüstü Nəqliyyat Nazirliyi (Gəmiçilik Departamenti) və Sənaye və Ticarət Nazirliyi (Ticarət Departamenti);

İran İslam Respublikasında - Yollar və Nəqliyyat Nazirliyi;

Oman Sultanlığında - Nəqliyyat və Mənzil Tikintisi Nazirliyi;

Rusiya Federasiyasında - Rusiya Federasiyasının Nəqliyyat Nazirliyi və Əlaqələndirmə Yolları Nazirliyi.

3.3. Bu Saziş Tərəflərinin milli qanunvericiliyinə zidd olmamalıdır və Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur.

Maddə 4

Sərnişinlərin və əmtəələrin beynəlxalq daşımalarına yardım

4.1. Hər bir Tərəf digər Tərəflərə bu Sazişlə nəzərdə tutulmuş şərtlər əsasında öz dövlətinin ərazisindən sərnişinlərin, əmtəələrin və nəqliyyat vasitələrinin beynəlxalq tranziti hüququnu verir.

4.2. Bu Sazişin iştirakçısı olan dövlətlər öz dövlətlərinin ərazisindən əmtəələrin beynəlxalq tranzit daşımalarına səmərəli yardımı təmin edir.

4.3. Bu Sazişin iştirakçısı olan dövlətlər müvafiq Tərəflərdən hər birinin müəyyən etdiyi prosedurlara müvafiq surətdə əmtəələrin və sərnişinlərin beynəlxalq tranzit daşımalarında iştirak edən personal üçün çoxdəfəli giriş vizaları rejimini tətbiq edirlər.

Maddə 5

Vergilər, rüsumlar və digər ödəmələr

5.1. Daşıma ilə bağlı nəqliyyat xidmətlərinə görə xərclərin ödənilməsi, eləcə də nəqliyyat infrastrukturundan istifadəyə görə ödəmələr istisna olmaqla, tranzit daşımalarına münasibətdə növündən, yaxud təyinatından asılı olmayaraq vergilər, rüsumlar və digər ödəmələr tutulmayacaqdır. Nəqliyyat xərclərinin haqqının və digər rüsumların tutulması Tərəflərin əmtəələrin tranzit daşınmasına münasibətdə digər ölkələrə verdikləri şərtlərdən daha az güzəştli olmayan şərtlərlə həyata keçirilməlidir.

5.2. Tərəflər, onların ölkələrinin ərazisində tranzit rejimində olan əmtəələrə gömrük rəsmiləşdirilməsi, saxlanma və digər bu kimi xidmətlər üçün yığılan rüsumlar istisna olmaqla, heç bir gömrük ödənişləri tətbiq etmir.

Maddə 6

Əlaqələndirmə Şurası

6.1. Tərəflərin Səlahiyyətli orqanları bu Sazişin həyata keçirilməsi və onun müddəalarının tətbiqi ilə bağlı məsələlərin tənzimlənməsi üçün əlaqələndirmə şurası yaradırlar.

6.2. Bu Sazişin Tərəflərinin Səlahiyyətli orqanlarından ibarət olan Əlaqələndirmə Şurası özünün bu Sazişin qüvvəyə minməsi günündən etibarən altı ay ərzində keçirilməli olan ilk iclasında özünün fəaliyyət qaydalarını və proseduralarını müəyyən edən Nizamnaməni təsdiqləyir.

6.3. Koordinasiya şurası ildə bir dəfədən az olmayaraq və ya bu Sazişin Tərəflərindən birinin xahişi ilə toplanır.

Maddə 7

Mübahisələrin həlli

7.1. Bu Sazişin tətbiqi, təfsiri, pozulması ilə əlaqədar yaranan və danışıqlar yolu ilə həlli mümkün olmayan istənilən mübahisə, yaxud pretenziya baxılmaq və həll olunmaq üçün Əlaqələndirmə Şurasına verilir.

7.2. Əlaqələndirmə Şurasının həll edə bilmədiyi istənilən mübahisə, ziddiyyət, yaxud pretenziya bütün Tərəflərin razılaşdırdıqları başqa üsullarla həll olunur.

Maddə 8

Depozitari

8.1. İran İslam Respublikası bu Sazişin Depozitarisidir. Depozitari bu Sazişin təsdiqlənmiş surətlərini onu imzalamış Tərəflərə göndərir.

8.2. Depozitari dövlət digər dövlətlərin bu Sazişə qoşulması və Tərəflərdən hər hansı birinə münasibətdə bu Sazişin qüvvəsinə xitam verilməsi haqqında Tərəfləri məlumatlandırır.

Maddə 9

Ratifikasiya

9.1. Bu Saziş Tərəflərin milli tələblərinə müvafiq surətdə ratifikasiya olunmalıdır. Ratifikasiya haqqında sənəd saxlanmaq üçün Depozitari dövlətə verilir.

Maddə 10

Sazişə qoşulma

10.1. Bu Saziş yalnız bu Sazişin bütün Tərəflərinin razılığı ilə digər dövlətlərin qoşulması üçün açıqdır.

10.2. Qoşulmuş dövlət üçün Saziş qoşulma haqqında sənədin Depozitari dövlətə saxlanmağa verilməsi tarixindən etibarən 30-cu gün qüvvəyə minir. Qoşulmuş dövlət öz Səlahiyyətli orqanları barədə Depozitari dövləti yazılı surətdə

xəbərdar edir, bundan sonra Depozitari dövlət bu Sazişin digər Tərəflərinin Səlahiyyətli orqanlarını bu barədə xəbərdar edir.

Maddə 11

Dəyişiklik və əlavələr

Bu Sazişə Əlaqələndirmə Şurasının işləyib hazırladığı prosedurlar əsasında bütün Tərəflərin Səlahiyyətli orqanlarının razılığı ilə dəyişiklik və əlavələr edilə bilər.

Maddə 12

Qüvvədə olma müddəti

12.1. Bu Saziş qüvvəyə mindiyi andan etibarən on il ərzində qüvvədədir.

12.2. Bu Sazişin qüvvədə olma müddəti, onun qüvvədə olma müddətinin bitməsi tarixinə azı altı ay qalmış Depozitari dövlət Sazişi əvvəlcədən imzalamış Tərəflərin hər hansı birindən bunun əksi barədə bildiriş almadıqda həmin müddət eyni müddətə uzadıla bilər.

12.3. Bu Sazişin Tərəf dövlətin ərazisində qüvvədə olmasına, həmin Tərəfin öz ərazisində Sazişin qüvvədə olmasına xitam vermək niyyəti barədə Depozitari dövləti yazılı surətdə xəbərdar etməsindən altı ay sonra xitam verilə bilər.

12.4. Bu Sazişin müddəalarına müvafiq olaraq imzalanmış sazişlər və digər razılaşmalar üzrə öhdəliklər onun qüvvədə olmasına xitam verildikdən sonra da tam yerinə yetirilənə qədər qüvvəsini saxlayır.

Maddə 13

Qüvvəyə minmə

13.1. Bu Saziş istənilən üç Tərəfin Depozitari dövlətə milli qanunvericiliklə nəzərdə tutulmuş prosedurlara müvafiq surətdə bəyənilmiş ratifikasiya haqqında sənədi saxlamaq üçün təhvil verdiyi tarixdən etibarən 30 gün müddətində qüvvəyə minir.

13.2. Dövlətdaxili prosedurları gec yerinə yetirmiş Tərəf üçün bu Saziş milli qanunvericiliklə nəzərdə tutulmuş prosedurlara müvafiq surətdə bəyənilmiş ratifikasiya haqqında sənədin Depozitari dövlətə saxlanmaq üçün təhvil verildiyi tarixdən etibarən 30 gün müddətində qüvvəyə minir.

2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində ingilis dilində yeganə nüsxədə və bu Sazişi əvvəldən imzalamış Tərəflərin milli dillərində bağlanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsir məqsədilə ingilis dilindəki mətndən istifadə olunur.

Bunun təsdiqi kimi, Tərəf dövlətlərin lazımi qaydada müvafiq səlahiyyət verilmiş aşağıda imza edən nümayəndələri bu Sazişi imzalamışlar.

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

HİNDİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	OMAN SULTANLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında "Layihə Sazişinin (Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsinin) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında 2005-ci il iyunun 3-də Bakı şəhərində imzalanmış "Layihə Sazişi" (Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsi) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№986-IIQ

Kredit № 4034-AZ

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında Layihə Sazişi (Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsi)

Bu Saziş Beynəlxalq İnkişaf Assosiasiyası (Assosiasiya) ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (MKSİF) arasında 3 iyun 2005-ci ildə imzalanmışdır.

(A) Azərbaycan Respublikası (Borcalan) və Assosiasiya arasında eyni tarixli Kredit Sazişi əsasında Assosiasiyanın Kredit Sazişində təyin olunmuş şərt və qaydalar üzrə, lakin MKSİF-in Assosiasiya qarşısında bu Sazişdə təyin olunan belə öhdəlikləri üzərinə götürməyə razılıq verməsi şərtilə yeddi milyon beş yüz min Xüsusi Borcalma Hüquqları (SDR 7.500.000) məbləğində Borcalana Kredit verməsini;

(B) Borcalan və MKSİF arasında bağlanılacaq təkrar saziş əsasında, Kredit Sazişi çərçivəsində təmin edilən Kredit vəsaitlərinin adı çəkilən Təkrar Sazişdə təyin olunmuş şərt və qaydalar üzrə MKSİF tərəfindən istifadə olunmasına şərait yaradılacağını; və

Assosiasiyanın Borcalanla Kredit Sazişi bağlaması ilə əlaqədar MKSİF-in bu Sazişdə təyin olunmuş öhdəlikləri üzərinə götürməyə razılıq verdiyini nə-zərə alaraq,

Tərəflər aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə I

Anlayışlar

Bölmə 1.01. Məzmun etibarilə digər məna tələb olunmursa, Kredit Sazişində, bu Sazişin Preambulunda və Ümumi Şərtlərdə (orada təyin olunduğu kimi) təyin olunmuş bir sıra anlayışlar orada təyin olunmuş müvafiq mənaları daşıyır.

Maddə II

Layihənin icrası

Bölmə 2.01. (a) MKSİF Layihənin bu Sazişin 2-ci Əlavəsində göstərilmiş məqsədlərinə bağlılığını bəyan edir, bu baxımdan Layihəni ciddi və effektiv şəkildə və müvafiq inzibati, maliyyə, mühəndis və ekoloji təcrübəyə uyğun şəkildə həyata keçirir, Layihə üçün tələb olunan vəsaitləri, vasitələri, xidmətləri və digər resursları ehtiyac duyulan kimi tezliklə təmin edir və ya təmin edilməsinə səbəb olur.

(b) Bu Bölmənin (a) bəndinin müddəalarına heç bir məhdudiyyət qoymadan və Assosiasiya ilə MKSİF-in razılaşdığı digər hallar istisna olmaqla, MKSİF Layihəni bu Sazişin 2-ci Əlavəsində təyin olunan Əməliyyat Rəhbərliyi və İcra Proqramına uyğun şəkildə həyata keçirir.

Bölmə 2.02. (a) Assosiasiyanın razılaşdığı digər hallar istisna olmaqla, Layihə üçün tələb olunan və Kredit hesabına maliyyələşdiriləcək mallar, işlər və xidmətlər bu Sazişin 1-ci Əlavəsinin müddəalarına əsasən tənzimlənir və bu müddəalar Satınalmalar Planında daha ətraflı izah oluna bilər.

(b) MKSİF Satınalmalar Planını Assosiasiya üçün məqbul olan qaydalar əsasında yeniləşdirir və yeniləşdirilmiş variantı əvvəlki Satınalmalar Planının hazırlanmasından 12 aydan gec olmamaqla, təsdiq olunmaq üçün Assosiasiyaya təqdim edir.

Bölmə 2.03. (a) MKSİF Ümumi Şərtlərin 9.03, 9.04, 9.05, 9.06, 9.07 və 9.08-ci Bölmələrində (müvafiq olaraq sığorta, mal və xidmətlərdən istifadə olunması, planlar və əlavələr, qeydlər və hesabatlar, saxlanma və torpaqların alınması ilə bağlı) təyin olunmuş Layihə Sazişi ilə bağlı öhdəlikləri həyata keçirir.

(b) Ümumi Şərtlərin 9.07-ci bölməsinin məqsədləri üçün və onlar üzərin-də heç bir məhdudiyyət olmadan, MKSİF:

(i) Assosiasiyaya məqbul qaydalar əsasında Layihə məqsədlərinə davamlı şəkildə nail olunmasının təmin olunması üçün tərtib, olunmuş planı hazırlayır və Assosiasiyaya Başa Çatma Tarixindən altı (6) aydan gec olmayaraq və ya Assosiasiya ilə MKSİF arasında bu məqsədlə razılaşdırılmış hər hansı daha gec tarixdə təqdim edir; və

(ii) Assosiasiyaya sözügedən plan barədə MKSİF ilə fikir mübadiləsi aparmaq üçün imkan yaradır.

Bölmə 2.04. MKSİF Təkrar Saziş Çərçivəsində bütün öhdəliklərini lazımi şəkildə həyata keçirir. Assosiasiya başqa qaydada razılaşmazsa, MKSİF Təkrar Saziş və ya onun hər hansı müddəasına düzəliş edilməsi, ona xitam verilməsi, onun icra üçün digər tərəfə təyin edilməsi və ya ondan imtina edilməsi ilə nəticələnə biləcək hər hansı tədbir görmür və ya belə tədbirdə iştirak etmir.

Bölmə 2.05. (a) Assosiasiyanın müraciəti əsasında MKSİF Layihənin gedişi ilə bağlı irəliləyiş barədə, bu Saziş, Təkrar Saziş çərçivəsində öz öhdəliklərinin həyata keçirilməsi barədə və Kreditin məqsədlərinə aid olan digər məsələlər barədə Assosiasiya ilə fikir mübadiləsi aparır.

(b) MKSİF Layihənin icrasına, Kreditin məqsədlərinə nail olunmasına və ya bu Saziş Təkrar Saziş çərçivəsində MKSİF-in öz öhdəliklərini həyata keçirməsinə mane olan və ya ona mane olmaq təhlükəsi yaradan hər hansı vəziyyət barədə Assosiasiyanı məlumatlandırır.

Maddə III

Maliyyə şərtləri

Bölmə 3.01. (a) MKSİF qeydlər və hesablar da daxil olmaqla, maliyyə idarəetmə sistemini saxlayır və Assosiasiya üçün məqbul mühasibat standartlarını davamlı şəkildə tətbiq etməklə Layihə ilə bağlı əməliyyatlarının və maliyyə vəziyyətinin əks etdirilməsi və əməliyyat, resurs və xərclərin ayrılıqda qeyd olunması üçün adekvat olan maliyyə hesabatlarını hazırlayır.

(b) MKSİF:

(i) bu Bölmənin (a) bəndində istinad olunan maliyyə hesabatlarının hər maliyyə ili üzrə (və ya Assosiasiyanın razılaşdığı digər dövrlər üzrə) Assosiasiya üçün məqbul olan müstəqil auditorlar tərəfindən, Assosiasiya üçün məqbul olan audit standartlarının davamlı olaraq tətbiq olunması yolu ilə audit yoxlamasından keçməsini təmin edir;

(ii) mümkün olan ən tez zamanda, lakin heç bir halda belə bir ilin (və ya Assosiasiyanın razılaşdığı hər hansı dövrün) sonundan altı aydan gec olmamaqla, aşağıdakıları Assosiasiyaya təqdim edir: (A) bu Bölmənin (a) bəndin-də istinad edilən həmin il (və ya Assosiasiyanın razılaşdığı başqa dövr) üzrə audit yoxlamasından keçmiş maliyyə hesabatlarının təsdiq olunmuş nüsxələrini və (B) belə hesabatlar üzrə sözügedən auditorların Assosiasiya üçün məqbul həcmdə və təfərrüatda rəyini; və

(iii) uçot və hesablar, maliyyə hesabatlarının auditi və müvafiq auditorlar barədə Assosiasiyanın vaxtaşırı olaraq əsaslandırılmış şəkildə istəyə biləcəyi bütün əlavə informasiyanı Assosiasiyaya təqdim edir.

Bölmə 3.02. (a) Bu Sazişin 2-ci Əlavəsinin B.1 (a) (i) bəndində təyin olunmuş MKSİF-in öhdəlikləri üzərinə məhdudiyyət qoyulmadan, MKSİF aşağıdakılara cavab verən, Assosiasiya üçün qənaətbəxş olan forma və məz-

munda maliyyə monitorinq hesabatını hazırlayır və Assosiasiyaya təqdim edir:

(i) Layihə çərçivəsində vəsaitlərin mənbələri və istifadəsi həm ümumi olaraq, həm də sözügedən hesabatın əhatə etdiyi dövr üzrə göstərilir; Kredit hesabına təmin olunmuş vəsait ayrıca olaraq qeyd olunur və vəsaitin faktiki və planlaşdırılan istifadəsi arasında fərqlər izah olunur;

(ii) Layihənin icrasında fiziki irəliləyiş həm ümumi olaraq, həm də sözü-gedən hesabatın əhatə etdiyi dövr üzrə təsvir olunur və layihənin icrasının faktiki və planlaşdırılan gedişi arasında fərqlər izah olunur; və

(iii) Sözügedən hesabatın əhatə etdiyi dövrün sonuna Layihə çərçivəsində satınalmaların vəziyyəti müəyyənləşdirilir.

(b) İlk MMH kreditin qüvvəyə minmə tarixindən sonra ilk təqvim rübünün sonundan qırx beş (45) gündən gec olmayaraq, Assosiasiyaya təqdim olunmalı və Layihə çərçivəsində ilk xərcin baş verməsindən ilk təqvim rübünün sonunadək olan dövrü əhatə edir; bundan sonra hər bir MMH növbəti təqvim rübünün başa çatmasından sonra qırx beş (45) gündən gec olmamaqla, Assosiasiyaya təqdim olunmalı və həmin təqvim rübü başa çatana qədər ondan əvvəlki MMH-ın əhatə etdiyi dövrü əhatə etməlidir.

Maddə IV

Qüvvəyə minmə tarixi;

Başa çatma; Ləğv etmə və dayanma

Bölmə 4.01. Bu Saziş Kredit Sazişinin qüvvəyə mindiyi tarixdən qüvvəyə minir.

Bölmə 4.02. Bu Saziş və Assosiasiya və MKSİF-in bütün öhdəlikləri Kredit Sazişinin öz müddətlərinə müvafiq şəkildə başa çatdığı tarixdə bata çatır və Assosiasiya bu barədə ləngimədən MKSİF-i məlumatlandırır.

Bölmə 4.03. Ümumi Şərtlərə əsasən hər hansı ləğv etmə və ya dayanmadan asılı olmayaraq, bu Sazişin bütün bu müddəaları öz tam qüvvəsini saxlamaqda davam edir.

Maddə V

Digər müddəalar

Bölmə 5.01. Bu Saziş və ya bu Sazişin nəzərdə tutduğu tərəflər arasında olan hər hansı saziş ilə tələb olunan və ya verilməsinə və ya göndərilməsinə icazə verilən hər hansı bildiriş və ya müraciət yazılı şəkildə aparılır. Belə bildiriş və ya müraciət tələb olunan və ya icazə verilən tərəfin burada təsbitlənən ünvanına və ya həmin tərəfin belə bildirişi verən və ya belə müraciəti göndərən tərəfə bildiriş ilə təyin etdiyi hər hansı digər belə ünvana şəxsən və ya poçt, teleks və ya faksmil vasitəsilə verilməsi və ya göndərilməsi halında lazımi şəkildə verilmiş və ya göndərilmiş hesab edilir. Faksmil

rabitə ilə çatdırmalar həmçinin poçt vasitəsilə təsdiq olunur. Burada təyin olunmuş ünvanlar aşağıdakılardır:

Assosiasiya üçün:

International Development Association

1818 H Street, N.W.

Washington, D.C. 20433

United States of America

Teleqraf ünvanı: INDEVAS, Washington, D.C.

Teleks: 248423 (MCİ) və ya 64145 (MCİ)

Faksmil: (202) 477-6391

Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu üçün:

Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

Füzuli küçəsi 65, 5-ci mərtəbə

Bakı AZ 1014

Azərbaycan Respublikası

Telefon: (994-12) 495-30-23, (994-12) 495-83-86

Faksmil: (994-12) 495-70-47

Bölmə 5.02. Bu Saziş ilə görülməsi tələb olunan və ya buna icazə verilən hər hansı tədbir və rəsmiləşdirilməsi tələb olunan və ya buna icazə verilən hər hansı sənəd MKSİF-in Direktoru tərəfindən və MKSİF-in yazılı şəkildə təyin etdiyi hər hansı digər belə şəxs və ya şəxslər tərəfindən MKSİF-in adından görülə və ya rəsmiləşdirilə bilər və MKSİF hər bir belə şəxsin səlahiyyətinin kafi sübutunu və orijinal imza nümunələrini Assosiasiyaya təqdim edir.

Bölmə 6.03. Bu Saziş hər biri digərindən orijinal olmaqla bir neçə tərəf müqabilləri tərəfindən və kollektiv olaraq rəsmiləşdirilə (imzalana) bilər, lakin istənilən halda imzalanan sənəd birdir.

Bununla, Tərəflər müvafiq səlahiyyətlərə malik nümayəndələri vasitəsilə bu Sazişi yuxarıda göstərilmiş gündə və ildə Azərbaycan Respublikasının Bakı şəhərində öz adlarından imzalamaqla burada qeyd olunanları təsdiqləmiş olurlar.

Beynəlxalq İnkişaf Assosiasiyası

Səlahiyyətli nümayəndə

Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

Səlahiyyətli nümayəndə

Əlavə 1

Satınalma və Məsləhətçilərin Xidmətləri

Bölmə I. Ümumi

A. Bütün mallar, işlər və xidmətlər (məsləhətçi xidmətlərindən başqa) 2004-cü ilin mayında dərc olunmuş "BYİB Borcları və BİA Kreditləri çərçivəsində satınalmalar üçün təlimatın (Satınalmalar haqqında təlimat) 1-ci Bölməsinin müddəalarına və bu Əlavənin müddəalarına uyğun olaraq satın alınır.

B. Bütün məsləhətçi xidmətləri 2004-cü ilin mayında dərc olunmuş "Dünya Bankının Borcalanları tərəfindən məsləhətçilərin seçilməsi haqqında Təlimat"ın (Məsləhətçilər haqqında Təlimat) 1-ci və 4-cü Bölmələri və bu Əlavənin müddəalarına uyğun olaraq satın alınır.

C. Bu Əlavədə xüsusi satınalma metodlarını və ya ayrı-ayrı müqavilələrə Assosiasiya tərəfindən baxılması metodlarını təsvir etmək üçün istifadə olunmuş iri hərflərlə olan anlayışlar onlara Satınalmalar haqqında Təlimatda və ya Məsləhətçi haqqında Təlimatda təyin olunmuş mənaları daşıyırlar.

Bölmə II. Malların, İşlərin və Xidmətlərin (Məsləhətçi Xidmətlərindən başqa) alınmasının xüsusi metodları

A. Beynəlxalq Müsabiqəli Tender. Bu Bölmənin B Hissəsində digər şərtlər göstərilməyincə müqavilələr Beynəlxalq Müsabiqəli Tender əsasında verilir. Satınalma Təlimatının tender təkliflərinin qiymətləndirilməsində yerli iştirakçılara verilən üstünlüyü şərtləndirən 2.55-2.56-cı bəndlərinin müddəaları Borcalanın məskunlaşdığı ərazidə istehsal olunmuş mallara şamil edilir.

B. Digər satınalma prosedurları.

1. Milli Müsabiqəli Tender.

Hesablanmış dəyəri hər müqavilə üzrə 300000 ABŞ dollarından az olan işlər Milli Müsabiqəli Tender və aşağıdakı əlavə müddəaların əsasında veriləcək müqavilələr çərçivəsində satın alına bilər:

(a) Tender təkliflərini irəli sürənlərin vətəndaşlığı və/və ya malların mənşəyi baxımından tenderdə iştirak etmək hüququna heç bir məhdudiyyət qoyulmur.

(b) İlkin müsabiqə (Pre-kvalifikasiya) işlər üzrə sadə satınalmalar üçün istifadə edilmir və yalnız iri miqyaslı layihələrdəki işlər üzrə aparılır.

(c) Dövlət və ya Dövlət rəsmisi hər hansı bir müəssisənin səhmdar kapitalında istənilən paya sahib olarsa, bu müəssisələr ticarət hüquqları əsasında fəaliyyət göstərdikləri, həmçinin qanuni və maliyyə baxımından müstəqil olduqları sübut edilməyincə və ya edilə bilməyincə Hökumət üçün keçirilən tenderlərdə iştirak dəvəti almır.

(d) Məhsullar və ya əməyin mənşəyi baxımından heç bir milli üstünlük təsdiq edilmir.

(e) Birgə müəssisələrin partnyorları öhdəlikləri üzrə birgə və ayrı-ayrılıqda məsuliyyət daşıyırlar.

(f) Tenderdə sənədlərinin alınması üzrə tender iştirakçılarından heç bir "iştirak haqqı" tələb edilmir. Xərclər yalnız tender sənədlərinin hazırlanması (sürətinin çıxarılması) üzrə çəkilən məbləğə bərabər olur.

(g) Tender təkliflərinin qiymətləndirilməsində təkliflər təklif qiymətləri müvafiq büdcəni aşmayınca satın alan şəxs tərəfindən hesablanmış qiymətlərdən xeyli fərqləndikdə belə rədd edilmir.

(h) Assosiasiyanın əvvəlcədən razılığı olmadıqda təklif təkrar edilmir.

(i) Müddəti 18 aydan çox olan işlər üzrə müqavilələr qiymətin tənzimlənməsi üzrə müvafiq şərtləri özündə əks etdirir.

(j) Assosiasiyanın əvvəlcədən razılığı icra zamanı müqavilə çərçivəsində və şərtlərində edilən hər hansı bir dəyişiklik üçün tələb ediləcək.

2. Bazarlama (Şoppinq). Hesablanmış dəyəri hər müqavilə üzrə 100 000 ABŞ dollarından az olan mallar (işlər) Bazarlama (Şoppinq) əsasında veriləcək müqavilələr çərçivəsində satın alına bilər.

Bölmə III. Məsləhət xidmətlərinin satın alınması üçün xüsusi metodlar

A. Keyfiyyət və Dəyər əsasında Seçim. Bu Bölmənin B Hissəsində digər şərtlər göstərilməyibsə, məsləhətçi xidmətlərinin satın alınması Keyfiyyət və Dəyər əsasında Seçim üzrə verilmiş müqavilələr çərçivəsində aparılır. Məsləhətçi haqqında Təlimatın 2.7-ci bəndi baxımından hesablanmış dəyəri hər müqavilə üzrə 100 000 ABŞ dollarından az olan xidmətləri göstərən məsləhətçilərin qısa siyahısı tamamilə yeni məsləhətçilərdən təşkil edilə bilər.

B: Digər Qayda və Üsullar

1. Təsbit olunmuş büdcə çərçivəsində seçim. Məsləhətçi haqqında Təlimatın 3.5-ci bəndinin tələblərinə cavab verməsi Assosiasiya tərəfindən təsdiq olunan tapşırıqlar üçün xidmətlər Məsləhətçi haqqında Təlimatın 3.1 və 3.5-ci bəndlərinin tələblərinə uyğun olaraq təsbit olunmuş büdcə əsasında bağlanılan müqavilələr çərçivəsində satın alına bilər.

2. Ən Aşağı Qiymət əsasında Seçim. Məsləhətçi haqqında Təlimatın 3.6-cı bəndinin tələblərinə cavab verməsi Assosiasiya tərəfindən təsdiq olunan tapşırıqlar üçün xidmətlər Məsləhətçi haqqında Təlimatın 3.1 və 3.6-cı bəndlərinin tələblərinə uyğun olaraq Ən Aşağı Qiymət əsasında Seçim üzrə bağlanılan müqavilələr çərçivəsində satın alına bilər.

3. Məsləhətçinin peşə hazırlığı (kvalifikasiyası) əsasında seçmə. Hesablanmış dəyəri hər müqavilə üzrə 200 000 ABŞ dollarından az olan xidmətlər Məsləhətçi haqqında Təlimatın 3.1, 3.7 və 3.8-ci bəndlərinin müddəalarına uyğun şəkildə imzalanmış müqavilələr çərçivəsində təchiz edilə bilər.

4. Tək Mənbəli Seçim. Məsləhətçi Qaydalarının Tək Mənbəli Seçim ilə bağlı 3.10-cu bəndinin tələblərinə cavab verən hallarda tapşırıqlar üzrə xidmətlər, Assosiasiyanın qabaqcadan razılığı ilə Məsləhətçi Qaydalarının 3.9-3.19-cu bəndlərinin müddəalarına

müvafiq olaraq satın alına bilər.

5. Fərdi Məsləhətçilər. Məsləhətçi haqqında Təlimatın 5.1-ci bəndinin birinci cümləsində şərh edilmiş tələblərə cavab verən tapşırıqlar üzrə görülən xidmətlər Məsləhətçi haqqında Təlimatın 5.2-5.3-cü bəndlərinin tələblərinə uyğun olaraq fərdi məsləhətçilərə verilmiş müqavilələr çərçivəsində satın alına bilər. Məsləhətçi haqqında Təlimatın 5.4-cü bəndində təsvir edilmiş hallarda bu kimi müqavilələr müstəsna mənbə (sole-source) əsasında fərdi məsləhətçilərə verilə bilər.

Bölmə IV. Satınalmalar barədə qərarlara Assosiasiya tərəfindən baxılması

Satınalma Planı Assosiasiyanın İlkin Baxışının predmeti olacaq bu müqavilələri təyin edir. Bütün digər müqavilələr Assosiasiya tərəfindən Sonrakı Baxışın predmetidir.

Əlavə 2

İcra Proqramı

A. Layihənin Həyata Keçirilməsi

1. MKSİF Əməliyyat Rəhbərliyinin müddəalarına, o cümlədən EİP-nin müddəalarına müvafiq şəkildə Layihəni həyata keçirir və Assosiasiyanın ilkin razılığı olmadan Əməliyyat Rəhbərliyinin hər hansı müddəasına düzəliş etmir, onun qüvvəsini dayandırmır, ona xitam vermir və ya ondan imtina etmir.

B. İcra Hesabatları; Monitorinq və Qiymətləndirmə

1. MKSİF:

(a) (i) Assosiasiya üçün məqbul olan göstəricilərə uyğun Layihənin həyata keçirilməsi və buradan irəli gələn məqsədlərə nail olmanın cari gedişat əsasında yoxlanılmasını və qiymətləndirilməsini mümkün etmək üçün müvafiq siyasət və prosedurları saxlayır; və

(ii) Digər məsələlər ilə yanaşı mikrolayihələrin həyata keçirilməsində əl-də olunmuş irəliləyişi və mikrokreditlərin verilməsini əhatə edən və MMH-ı daxil edən rüblük və illik icra hesabatlarını Assosiasiyaya təqdim edir. Hər dördüncü rüb hesabatı, hesabat ili başa çatan il ərzində əldə olımmuş nəticələrin xülasəsini verir və növbəti il üçün iş planı və müvafiq büdcəni təqdim edir.

(b) Assosiasiya üçün məqbul olan texniki tapşırıq üzrə bu Bölmənin (a) bəndinə müvafiq aparılmış yoxlama və qiymətləndirmə işlərinin Layihənin icrasında əldə edilmiş irəliləmə üzrə nəticələrini cəmləşdirən və aşağıda göstərilən tarixdən əvvəlki dövrü əhatə edən hesabatı hazırlayır və onu 31 dekabr 2006-cı il və ya təxminən bu tarixdə Assosiasiyaya təqdim edir, həmçinin Layihənin səmərəli qaydada həyata keçirilməsini təmin edən tövsiyə şəklində verilmiş tədbirləri və bundan irəli gələn və yuxarıda göstərilmiş tarixdən sonrakı dövrdə məqsədlərə nail olmanı şərh edir; və

(c) Bu Bölmənin (b) bəndində istinad edilən hesabatı 15 mart 2007-ci ilədək və ya Assosiasiyanın təklif etdiyi hər hansı bir sonrakı tarixə qədər Assosiasiya ilə birlikdə təhlil edir və bundan sonra Layihənin səmərəli qaydada başa çatmasını

və bundan irəli gələn məqsədlərə nail olmanı təmin etmək üçün tələb olunan və qeyd edilmiş hesabatın nəticələrinə və tövsiyələrinə, həmçinin Assosiasiyanın məsələ ilə bağlı mövqeyinə əsaslanan bütün tədbirləri görür.

"Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 2003-cü il mayın 21-də imzalanmış "Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına müvafiq bəyanatla (bəyanatın mətni əlavə olunur) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№ 989-IIQ

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası

Cenevrə, İsveçrə
2003

Preambula

Bu Konvensiyanın Tərəfləri,

insanların sağlamlığının qorunması sahəsində öz hüququna daha çox diqqət yetirmək əzmində olaraq,

tütün epidemiyasının yayılmasının insanların sağlamlığına ağır nəticələr verən və bununla da mümkün qədər geniş beynəlxalq əməkdaşlığı, səmərəli, lazımi və hərtərəfli beynəlxalq cavab tədbirlərində bütün ölkələrin iştirakını tələb edən qlobal problem olduğunu etiraf edərək,

tütün istehlakının və tütün tüstüsünün insanların sağlamlığına dağıdıcı təsiri, eləcə də bütün dünyada sosial, iqtisadi və ekoloji nəticələri ilə bağlı beynəlxalq ictimaiyyətin narahatlığını əks etdirərək,

bütün dünyada, xüsusən də inkişaf etməkdə olan ölkələrdə siqaret və digər tütün məmulatının istehlakının və istehsalının artmasına və bunun ailələrin, yoxsul insanların və milli səhiyyə sistemlərinin üzərinə ağır yük qoymasına görə ciddi narahatlıq keçirərək,

tütün istehlakının və tütün tüstüsünün ölüm, xəstəlik və əlilliyə səbəb olduğunu, tütün çəkilməsi və tütün məmulatının digər istehlak formalarının təsiri ilə tütünlə əlaqədar xəstəliklərin baş verməsi arasında müəyyən zaman aralığının olduğunu elmi tədqiqatların birmənalı təsdiqlədiyini etiraf edərək,

siqaret və tərkibində tütün olan bəzi digər məmulatın asılılıq yaratmaq və bu asılılığı

saxlamaq üçün xüsusi hazırlanmış yüksək texnoloji məmulat olduğunu, onların tərkibindəki bir çox komponentlərin və onlardan əmələ gələn tüstünün farmakoloji aktiv, toksik, mutagen və kanserogen olduğunu, eləcə də xəstəliklərin əsas beynəlxalq təsnifatında tütündən asılılığın ayrıca pozulma kimi təsnifləşdirilməsini etiraf edərək,

tütün tüstüsünün prenatal təsirindən uşaqların sağlamlığı və inkişafında mənfi hallar yaranması haqqında hazırda dəqiq elmi məlumatların olduğunu etiraf edərək,

uşaq və yeniyetmələrin, xüsusən də, getdikcə daha erkən yaşlarda tütün çəkməsinin və tütünü digər formalarda istehlak etməsinin bütün dünyada yayılmasından dərin narahatlıq keçirərək,

qadın və qızların tütün çəkməsinin və tütünü digər formalarda istehlak etməsinin bütün dünyada geniş miqyas almasından dərin narahatlıq keçirərək, eləcə də gender aspektlərini nəzərə alan tütünə qarşı mübarizə siyasəti və strategiyasının hazırlanması və həyata keçirilməsinin bütün səviyyələrində qadınların tam iştirakının zəruriliyini nəzərə alaraq,

yerli əhali tərəfindən tütün çəkilməsi və tütünün digər formalarda istehlakının yüksək səviyyədə olmasından dərin narahatlıq keçirərək,

tütün məmulatı istehlakının təşviq edilməsi məqsədilə hər cür reklam, satışa həvəsləndirmə və sponsorluq formasının təsirindən ciddi narahatlıq keçirərək,

qaçaqmalçılıq, qeyri-qanuni istehsal və saxta məhsul hazırlama da daxil olmaqla siqaret və digər tütün məmulatının bütün qeyri-qanuni ticarət formalarının ləğv edilməsi üçün birgə fəaliyyətin zəruriliyini etiraf edərək,

bütün səviyyələrdə, xüsusən də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə tütünlə mübarizə bunun üçün indiki və proqnozlaşdırılan tələbat ilə müqayisə oluna bilən yetərincə maliyyə və texniki ehtiyatlar tələb etdiyini dərk edərək,

tütünə tələbatın azaldılması üzrə uğurlu strategiyaların uzunmüddətli sosial və iqtisadi nəticələrinə baxılması üçün lazımi mexanizmlərin hazırlanmasının zəruriliyini etiraf edərək,

inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı bəzi ölkələrdə tütünə qarşı mübarizə proqramlarının orta və uzunmüddətli perspektivdə doğura biləcəyi sosial və iqtisadi çətinlikləri nəzərə alaraq, milli səviyyədə hazırlanmış davamlı inkişaf strategiyaları kontekstində onların texniki və maliyyə yardımına ehtiyacını etiraf edərək,

tütünə qarşı mübarizə sahəsində bir çox dövlətlərin apardığı dəyərli işi dərk edərək, bu sahədə tədbirlərin hazırlanması üzrə Ümumdünya Səhiyyə Təşkilatının liderliyini, eləcə də Birləşmiş Millətlər Təşkilatı sisteminin digər təşkilat və orqanlarının, başqa beynəlxalq və regional hökumətlərarası təşkilatların səylərini bəyənərək,

peşəkar səhiyyə orqanları, qadın və gənclər qrupları, ətraf mühiti mühafizə və istehlakçı qrupları, akademik müəssisələr və səhiyyə müəssisələri də daxil olmaqla tütün sənayesi ilə bağlı olmayan qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin digər qurumlarının milli və beynəlxalq səviyyədə tütünə qarşı mübarizə üzrə səylərə verdikləri xüsusi töhfəni, eləcə də bu mübarizə ilə bağlı milli və beynəlxalq səylərdə onların iştirakının həyati əhəmiyyətini qeyd edərək,

tütünə qarşı mübarizə üzrə səylərin tütün sənayesi tərəfindən pozulmasına və heçə endirilməsinə yönəlmiş hər hansı cəhdə qarşı sayıqlıq göstərilməsinin zəruriliyini və tütünə qarşı mübarizə səylərinə mənfi təsir göstərən tütün sənayesinin fəaliyyəti haqqında məlumatlılığın zəruriliyini etiraf edərək,

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1966-cı il dekabrın 16-da qəbul etdiyi İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın hər bir insanın fiziki və psixi sağlamlığın mümkün olan ən yüksək səviyyəsinə hüququ çatdığını təsbit edən 12-ci maddəsini xatırladaraq,

həmçinin sağlamlığın mümkün olan ən yüksək səviyyəsinin irqindən, dinindən, siyasi əqidəsindən, iqtisadi və sosial vəziyyətindən asılı olmayaraq hər bir insanın əsas hüquqlarından biri olduğunu qeyd edən Ümumdünya Səhiyyə Təşkilatı Nizamnaməsinin preambulasını xatırladaraq,

hazırda mövcud olan və müvafiq elmi-texniki, iqtisadi mülahizələrə əsaslanan tütünə qarşı mübarizə tədbirlərinə yardım etmək əzmində olaraq,

BMT Baş Assambleyasının 1979-cu il dekabrın 18-də qəbul etdiyi Qadınlara münasibətdə hər cür ayrı-seçkilik formalarının ləğvi haqqında Konvensiyada tibbi-sanitar yardım sahəsində qadınlara münasibətdə ayrı-seçkiliyin ləğvi üçün Konvensiyanın iştirakçı dövlətlərinin lazımi tədbirlər görməsinin nəzərdə tutulduğunu xatırladaraq,

həmçinin BMT Baş Assambleyasının 1989-cu il noyabrın 20-də qəbul etdiyi Uşaq hüquqları haqqında Konvensiyada uşaqların sağlamlığın mümkün olan ən yüksək səviyyəsinə hüququ çatdığını Konvensiyanın iştirakçı dövlətlərinin etiraf etməsinin nəzərdə tutulduğunu xatırladaraq,

aşağıdakılar haqqında razılığa gəldilər:

I hissə: Giriş

Maddə 1

Terminlərdən istifadə

Bu Konvensiyanın məqsədləri üçün:

(a) "Qeyri-qanuni ticarət" dedikdə, bu cür fəaliyyətə yardım göstərmək məqsədi güdən istənilən təcrübə və ya davranış növü də daxil olmaqla, istehsal, göndərmə, qəbul etmə, malik olma, paylaşdırma, satış və əldə etməyə aidiyyəti olan və qanunla qadağan edilmiş istənilən təcrübə, yaxud davranış növü nəzərdə tutulur.

(b) "Regional iqtisadi inteqrasiya təşkilatı" dedikdə, bir neçə suveren dövlətdən ibarət olan elə bir təşkilat nəzərdə tutulur ki, onun üzv dövlətləri onların üzərinə öhdəliklər qoyan qərarların qəbulu da daxil olmaqla, bir sıra məsələlərə dair səlahiyyətlərini bu təşkilata həvalə etmiş olsun.

(c) "Tütünün reklamı və satışının stimullaşdırılması" dedikdə, tütün məmulatı satışının və ya tütündən istifadənin birbaşa, yaxud dolayı yolla stimullaşdırılmasının məqsədi, nəticəsi, yaxud ehtimal edilən nəticəsi ilə bağlı kommersiya xarakterli informasiyanın, tövsiyənin və ya hərəkətin verilməsinin istənilən növü

nəzərdə tutulur.

(d) "Tütünə qarşı mübarizə" dedikdə, tütün məmulatından istifadənin, eləcə də tütün tüstüsünün insanlara təsirinin aradan qaldırılması və ya azaldılması vasitəsilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına istiqamətlənmiş çatdırma, tələbat və ziyanın azaldılması ilə bağlı strategiyaların geniş dairəsi nəzərdə tutulur.

(e) "Tütün sənayesi" dedikdə, tütün məmulatının hazırlanması, topdan satışı və idxalı ilə məşğul olan bütün müəssisələr nəzərdə tutulur.

(f) "Tütün məmulatı" dedikdə, çəkmə, sorma, çeynəmə və ya iyləmə üçün tam, yaxud qismən tütün yarpağından xammal materialı kimi hazırlanmış məhsullar nəzərdə tutulur.

(g) "Tütünə sponsorluq" dedikdə, tütün məmulatı satışının və ya tütündən istifadənin birbaşa, yaxud dolayısı ilə stimullaşdırılmasının məqsədi, nəticəsi, yaxud ehtimal edilən nəticəsi ilə bağlı istənilən hadisə, tədbir və ya fərd üçün istənilən növ pul qoyuluşu nəzərdə tutulur.

Maddə 2

Bu Konvensiya ilə digər müqavilələr və hüquqi sənədlər arasında əlaqə

1. İnsanların sağlamlığını daha yaxşı qorumaq məqsədilə Tərəflər bu Konvensiya və onun protokollarında tələb edilənlərlə yanaşı, tədbirlər həyata keçirilməsinə həvəsləndirilirlər; bununla belə, bu sənədlərin heç bir müddəası Tərəflərin həmin sənədlərin müddəaları ilə uzlaşan və beynəlxalq hüquq normalarına uyğun gələn daha sərt tələblər irəli sürmələrinə mane olmur.

2. Bu Konvensiyanın və onun protokollarının müddəaları Tərəflərin, regional və ya subregional razılaşmalar da daxil olmaqla, Konvensiyaya və onun protokollarına dair məsələlərə aid olan, yaxud onlara münasibətdə əlavələr kimi çıxış edən ikitərəfli və ya çoxtərəfli sazişlər bağlamaq hüququna heç bir vəchlə təsir göstərməyəcəkdir; bu şərtlə ki, belə sazişlər Tərəflərin bu Konvensiya və onun protokolları üzrə götürdükləri öhdəliklərə uyğun olsun. Müvafiq Tərəflər Katiblik vasitəsilə Tərəflərin Konfransına bu cür sazişlər barədə məlumat verirlər.

II hissə : Məqsəd, Rəhbər Prinsiplər və Ümumi Öhdəliklər

Maddə 3

Məqsəd

Bu Konvensiyanın və onun protokollarının məqsədi tütündən istifadənin yayılmasını və tütün tüstüsünün təsirini müntəzəm və əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə Tərəflərin milli, regional və beynəlxalq səviyyələrdə həyata keçirməli olduğu tütünə qarşı mübarizə tədbirləri üçün müvafiq çərçivələrin təmini yolu ilə indiki və gələcək nəsilləri tütündən istifadənin və tütün tüstüsünün insan sağlamlığı üçün dağıdıcı təsirindən, habelə sosial, ekoloji və iqtisadi nəticələrindən qorumaqdır.

Maddə 4

Rəhbər prinsiplər

Tərəflər bu Konvensiyanın və onun protokollarının məqsədlərinə nail olmaq və onun müddəalarını həyata keçirmək üçün aşağıdakı prinsipləri rəhbər tuturlar:

1. Hər bir insan tütündən istifadənin və tütün tüstüsünün təsirinin sağlamlıq üçün ağır nəticələri, onun narkotik xarakteri və öldürücü təhlükəsi ilə bağlı məlumatlandırılmalıdır; bununla əlaqədar olaraq, bütün insanları tütün tüstüsünün təsirindən qorumaq üçün müvafiq hökumət səviyyəsində səmərəli qanunvericilik, icra, inzibati və ya digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmalıdır.

2. Aşağıdakıların nəzərə alınması şərtilə, milli, regional və beynəlxalq səviyyələrdə hərtərəfli sektorlararası tədbirlərin və koordinasiya olunmuş cavab hərəkətlərinin hazırlanması və dəstəklənməsi işinə qətiyyətli siyasi sadiqlik zəruridir:

(a) bütün insanların tütün tüstüsünün təsirindən müdafiəsi üçün tədbirlərin həyata keçirilməsi zərurəti;

(b) tütün məmulatından istənilən formada istifadənin aradan qaldırılması və azaldılması işinin başlanması, bu işə yardım göstərilməsi və dəstək verilməsi üçün tədbirlərin həyata keçirilməsi zərurəti;

(c) yerli adamların və icmaların sosial və mədəni planda onların tələbat və perspektivlərinə uyğun olan tütünə qarşı mübarizə proqramlarının işlənib hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsində iştirakına yardım göstərilməsi üzrə tədbirlər görülməsi zərurəti; və

(d) tütünə qarşı mübarizə strategiyasının işlənib hazırlanması zamanı müxtəlif cinslər üçün spesifik olan təhlükələrin nəzərə alınması üzrə tədbirlər görülməsi zərurəti.

3. Yerli mədəni şəraitin, eləcə də sosial, iqtisadi, siyasi və hüquqi amillərin nəzərə alınması şərtilə tütünə qarşı səmərəli mübarizə proqramlarının yaradılması və həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlıq, xüsusən də texnologiyaların, bilgilərin ötürülməsi və maliyyə yardımı göstərilməsi, həmçinin müvafiq ekspert xidmətləri göstərilməsi bu Konvensiyanın mühüm hissəsini təşkil edir.

4. Tütündən istifadədən və tütün tüstüsünün təsirindən doğan xəstəliklərin, erkən əlilliyin və ölüm hallarının ictimai səhiyyə prinsiplərinə uyğun olaraq aradan qaldırılması üçün bütün növ tütün məmulatı istehlakının azaldılması sahəsində milli, regional və beynəlxalq səviyyələrdə hərtərəfli çoxsektorlu tədbirlər və cavab hərəkətləri zəruridir.

5. Tərəflərin hər birinin öz yurisdiksiyası çərçivəsində müəyyənləşdirdiyi kimi, məsuliyyətlə bağlı məsələlər tütünə qarşı hərtərəfli mübarizənin mühüm hissəsidir.

6. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərdə dolanışıq vəsaitinə tütünlə mübarizə proqramlarının ciddi təsir göstərdiyi adamların - tütün yetişdirən şəxslərin və tütün sənayesi işçilərinin iqtisadi keçidinə kömək göstərilməsi məqsədilə texniki və maliyyə yardımının əhəmiyyətini etiraf etmək və milli səviyyədə hazırlanmış davamlı inkişaf strategiyası kontekstində nəzərə almaq lazımdır.

7. Konvensiyanın və onun protokollarının məqsədlərinə nail olunmasında vətəndaş cəmiyyətinin iştirakı zəruridir.

Maddə 5

Ümumi öhdəliklər

1. Tərəflərdən hər biri bu Konvensiya və Tərəfi olduğu protokollara uyğun olaraq, tütünə qarşı mübarizə üzrə hərtərəfli çoxsektorlu milli strategiyaları, planları və proqramları hazırlayır, həyata keçirir, vaxtaşırı olaraq təzələyir və yenidən nəzərdən keçirir.

2. Bu məqsədə çatmaq üçün hər bir Tərəf öz imkanlarına uyğun olaraq:

(a) tütünə qarşı mübarizə üzrə milli koordinasiya mexanizmi və ya koordinasiya orqanlarını yaradır, yaxud möhkəmləndirir və maliyyələşdirir; və

(b) səmərəli qanunvericilik, icra, inzibati və/və ya digər tədbirlər barədə qərar qəbul edir, bunları həyata keçirir və müvafiq hallarda tütündən istifadənin, nikotin asılılığının və tütün tüstüsünün təsirinin qarşısının alınması və azaldılması ilə bağlı uyğun siyasətin işlənib hazırlanmasında digər Tərəflərlə əməkdaşlıq edir.

3. Tütünə qarşı mübarizə üzrə özünün ictimai səhiyyə siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi zamanı Tərəflər elə hərəkət edirlər ki, milli qanunvericiliyə uyğun olaraq, öz siyasətini tütün sənayesinin kommersiya və digər korporativ maraqlarının təsirindən qorusunlar.

4. Tərəflər bu Konvensiyanın və Tərəfləri olduqları protokolların həyata keçirilməsi üçün təklif olunan tədbir, prosedur və rəhbər prinsiplərin işlənib hazırlanması sahəsində əməkdaşlıq edirlər.

5. Tərəflər bu Konvensiyanın və Tərəfləri olduqları protokolların məqsədlərinə nail olmaq üçün müvafiq hallarda, səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlarla və digər orqanlarla əməkdaşlıq edirlər.

6. Tərəflər bu Konvensiyanın səmərəli həyata keçirilməsi üçün maliyyə resurslarını səfərbər etməkdən ötrü ikitərəfli və çoxtərəfli maliyyələşdirmə mexanizmlərinin köməyi ilə öz sərəncamlarında olan vasitə və resurslar çərçivəsində əməkdaşlıq edirlər.

III hissə : Tütünə Tələbatın Azaldılması ilə Bağlı Tədbirlər

Maddə 6

Tütünə tələbatın azaldılması üçün qiymət və vergi tədbirləri

1. Tərəflər təsdiq edirlər ki, qiymət və vergi tədbirləri əhalinin müxtəlif qrupları, xüsusən də gənclər tərəfindən tütünün istifadəsinin azaldılması yolunda effektiv və mühüm vasitədir.

2. Tərəflərin vergitutma siyasətini müəyyənləşdirmək və təyin etmək sahəsində suveren hüququna xələl gətirmədən Tərəflərdən hər biri tütünə qarşı mübarizə ilə bağlı özünün milli səhiyyə məqsədlərini nəzərə alınalı və müvafiq hallarda aşağıdakıları əhatə edə biləcək tədbirləri tətbiq etməli və ya qüvvədə saxlamalıdır:

(a) səhiyyə sahəsində tütündən istifadənin azaldılmasına istiqamətlənmiş məqsədlərə nail olunmasına kömək etmək üçün vergi siyasətinin və məqsədəuyğun olduqda, qiymət siyasətinin həyata keçirilməsi; və

(b) beynəlxalq səfərlər edən şəxslərə vergidən və rüsumdan azad tütün məmulatı satışının və/və ya onlar tərəfindən gətirilməsinin qadağan olunması və ya məhdudlaşdırılması.

3. Tərəflər 21-ci Maddəyə uyğun olaraq Tərəflərin Konfransına təqdim etdikləri dövri məruzələrində tütün məmulatından vergitutma dərəcələri və tütündən istifadə sahəsində tendensiyalar barədə məlumat verirlər.

Maddə 7

Tütünə tələbatın azaldılması üçün qeyri-qiymət tədbirləri

Tərəflər təsdiq edirlər ki, hərtərəfli qeyri-qiymət tədbirləri tütündən istifadənin azaldılmasının effektiv və mühüm vasitələridir. Tərəflərdən hər biri 8-13-cü Maddələr üzrə öhdəliklərinin yerinə yetirilməsi üçün zəruri olan səmərəli qanunverici, icra, inzibati və ya digər tədbirlər görür və bunların həyata keçirilməsi məqsədilə müvafiq hallarda digər Tərəflərlə bilavasitə, ya da səlahiyyətli beynəlxalq orqanlar vasitəsilə əməkdaşlıq edir. Tərəflərin Konfransı bu Maddələrin müddəalarının həyata keçirilməsi üçün uyğun rəhbər prinsipləri təklif edir.

Maddə 8

Tütün tüstüsünün təsirindən qorunma

1. Tərəflər etiraf edirlər ki, elmi məlumatlar tütün tüstüsünün təsirinin ölüm, xəstəliklər və əlilliyə səbəb olduğunu birmənalı şəkildə təsdiqləyir.

2. Tərəflərdən hər biri milli qanunvericiliklə müəyyən edilmiş mövcud milli yurisdiksiya sahələrində binadaxili iş yerlərində, ictimai nəqliyyatda, qapalı ictimai yerlərdə və müvafiq hallarda digər ictimai yerlərdə tütün tüstüsünün təsirindən qorunmanı təmin edən səmərəli qanunverici, icra, inzibati və/və ya digər tədbirlər görür və həyata keçirir, həmçinin bunların digər yurisdiksiya səviyyələrində görülməsinə və həyata keçirilməsinə fəal kömək edir.

Maddə 9

Tütün məmulatının tərkibinin nizamlanması

Tərəflərin Konfransı səlahiyyətli beynəlxalq orqanlarla məsləhətləşmə yolu ilə tütün məmulatı və ondan ayrılan məhsulların tərkibinin sınaqdan keçirilməsinin və ölçülməsinin, eləcə də bu tərkibin və bunlardan ayrılan məhsulların nizamlanmasının rəhbər prinsiplərini təklif edir. Tərəflərdən hər biri səlahiyyətli milli orqanların bəyəndiyi hallarda bu cür sınaq və ölçü, eləcə də nizamlanma üzrə səmərəli qanunverici, icra, inzibati və ya digər tədbirlər görür və həyata keçirir.

Maddə 10

Tütün məmulatının tərkibinin açıqlanması işinin nizamlanması

Tərəflərdən hər biri öz milli qanunvericiliyinə uyğun olaraq, tütün məmulatı istehsalçıları və idxalçılarından tütün məmulatının tərkibi və bunlardan ayrılan məhsullar barədə

hökumət orqanlarına açıqlama verməyi tələb edən səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görür və həyata keçirir. Bundan başqa, Tərəflərdən hər biri tütün məmulatının və bunlardan ayrıla biləcək məhsulların tərkibində olan zəhərli maddələr barədə ictimaiyyətin məlumatlandırılması üçün səmərəli tədbirlər görür və həyata keçirir.

Maddə 11

Tütün məmulatının qablaşdırılması və markalanması

1. Hər bir Tərəf bu Konvensiyanın onun üçün qüvvəyə mindiyi andan ötən üç il ərzində öz milli qanunvericiliyinə müvafiq surətdə səmərəli tədbirlər görür və həyata keçirir, ondan ötrü ki:

(a) tütün məmulatının qablaşdırılması və markalanması tütün məmulatının satışını nəyin bahasına olursa-olsun - yalanla, yanlışlığa gətirib çıxaran yolla, ya da aldatma yolu ilə stimullaşdırmasın, tütün məmulatının xarakterik xüsusiyyətləri, sağlamlığa təsiri, ondan ayrılan məhsulların təhlükəliliyi ilə bağlı yanlış rəy formalaşdıran istənilən termin, təsviretmə, ticarət markası, rəmz və ya hər hansı digər işarə də daxil olmaqla, müəyyən tütün məmulatının digər tütün məmulatından az zərərli olması barədə birbaşa və ya dolayı yanlış təsəvvür yaradılmasın. Bunlar "aşağı qatran faizli", "yüngül", "çox yüngül" və ya "yumşaq" kimi terminləri əhatə edə bilər; və

(b) tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində tütünün sağlamlıq üçün zərəri, tütündən istifadənin acı nəticələri barədə xəbərdarlıq verilir və digər müvafiq məlumatlar göstərilir. Bu cür xəbərdarlıq və məlumatlar:

(i) səlahiyyətli milli orqanlar tərəfindən təsdiq edilir,

(ii) vaxtaşırı dəyişdirilir,

(iii) iri, aydın, yaxşı görünən və asan oxunan olur,

(iv) əsas markalanma səthinin 50%-ni və ya daha çox hissəsini tutur, lakin heç bir halda əsas markalanma səthinin 30%-dən az hissəsini tuta bilməz,

(v) bu cür xəbərdarlıq və məlumatlar şəkil və ya piktoqram formasında ola bilər, ya da bunları özündə ehtiva edə bilər.

2. Tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində bu Maddənin 1(b) bəndində nəzərdə tutulmuş xəbərdarlıqlara əlavə olaraq, milli orqanlar tərəfindən müəyyənləşdirildiyi kimi, tütün məmulatının müvafiq komponentləri və onlardan ayrılan məhsullar barədə informasiya da verilməlidir.

3. Tərəflərdən hər biri tələb edir ki, bu Maddənin 1(b) və 2-ci bəndlərində nəzərdə tutulmuş xəbərdarlıq və digər tekstual informasiya tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda, eləcə də bu qəbil məmulatın istənilən qablaşdırma qutusunun səthində və markalanmış hissəsinin üzərində Tərəfin əsas dilində və ya dillərində

öz əksini tapmış olsun.

4. Bu Maddənin məqsədləri üçün "xarici qablaşdırma və markalanma" termini tütün məmulatının pərakəndə satışda istifadə olunan istənilən qablaşdırmasında və markalanmasında tətbiq edilir.

Maddə 12

Maarifləndirmə, informasiyanın ötürülməsi, əhalinin hazırlanması və məlumatlandırılması

Hər bir Tərəf müvafiq hallarda bütün mümkün informasiya ötürmə vasitələrindən istifadə etməklə, tütünə qarşı mübarizə məsələləri barədə əhalinin məlumatlandırılması sistemini möhkəmləndirir və dəstəkləyir. Bu məqsədlə Tərəflərdən hər biri aşağıdakı məsələlərdə yardımçı olmağa yönəlmiş səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görür və həyata keçirir:

(a) tütündən istifadənin və tütün tüstüsünün, ona adətkarlıq da daxil olmaqla, sağlamlıq üçün təhlükəsi barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılmasına dair proqramlara geniş yol açılmasına;

(b) 14.2-ci Maddədə göstərildiyi kimi, tütündən istifadənin və tütün tüstüsünün sağlamlıq üçün təhlükəli olması, eləcə də tütündən istifadəyə son qoyulmasının, tütünsüz həyat tərzinin üstünlükləri barədə əhalinin məlumatlandırılmasına;

(c) tütün sənayesi haqqında bu Konvensiyanın məqsədlərinə aid ən müxtəlif informasiyanın milli qanunvericiliyə uyğun şəkildə əhali üçün əlçatan olmasına;

(d) səhiyyə işçiləri, icmalardakı işçilər, sosial sahə əməkdaşları, kütləvi informasiya vasitələrinin peşəkar işçiləri, müəllimlər, qərar qəbul edən şəxslər, rəhbər işçilər və digər müvafiq şəxslər üçün nəzərdə tutulan proqramlara - tütünə qarşı mübarizəyə hazırlıq üzrə səmərəli və lazımi proqramlara və ya məlumatlılığın yüksəldilməsi və maarifləndirmə proqramlarına;

(e) tütünə qarşı mübarizə sahəsində sektorlararası proqramların və strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi barədə tütün sənayesi ilə bağlı olmayan dövlət və özəl müəssisələrin və qeyri-hökumət təşkilatlarının məlumatlandırılmasına və onların bu işlərdə iştirakına;

(f) tütün istehsalı və tütündən istifadənin insanların sağlamlığına mənfi təsiri, həmçinin bunun mənfi iqtisadi və ekoloji nəticələri ilə bağlı əhalinin məlumatlandırılmasına və bu məlumatların insanlar üçün əlçatan olmasına.

Maddə 13

Tütün məmulatının reklamı, satışının stimullaşdırılması və sponsorluğu

1. Tərəflər təsdiq edirlər ki, reklamın, satışın stimullaşdırılmasının və sponsorluğun tam qadağan olunması tütün məmulatından istifadənin azalmasına gətirib çıxaracaqdır.

2. Hər bir Tərəf öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə uyğun olaraq, tütün məmulatının reklamına, satışının stimullaşdırılmasına və sponsorluğuna tam qadağa qoyur. Bu, hüquqi şərtlərə əməl edilməsi və Tərəflərin malik olduğu texniki vasitələr nə-

zərə alınmaqla, onun ərazisindən başlanğıc götürən transsərhəd reklamına, satışın stimullaşdırılmasına və sponsorluğa tam qadağa qoyulmasını əhatə edir. Bununla əlaqədar olaraq Tərəflərdən hər biri bu Konvensiyanın həmin Tərəf üçün qüvvəyə minməsindən ötən beş il ərzində müvafiq qanunverici, icra, inzibati və/və ya digər tədbirlər həyata keçirir və 21-ci Maddəyə uyğun olaraq müvafiq hesabatlar təqdim edir.

3. Öz konstitusiyası və ya konstitusiya prinsipləri ilə əlaqədar olaraq tam qadağa tətbiq edə bilməyən Tərəf tütün məmulatına aid bütün reklama, satışın stimullaşdırılmasına və sponsorluğa məhdudiyyət qoyur. Bu, hüquqi şərtlərə əməl edilməsi və Tərəfin malik olduğu texniki vasitələr nəzərə alınmaqla, onun ərazisindən başlanğıc götürən və transsərhəd effektinə malik olan reklama, satışın stimullaşdırılmasına və sponsorluğa tətbiq edilən məhdudiyyətlərin və ya tam qadağanın tətbiq edilməsini əhatə edir. Bununla əlaqədar olaraq hər bir Tərəf müvafiq qanunverici, icra, inzibati və/və yadigar tədbirlər həyata keçirir və 21-ci Maddəyə uyğun olaraq müvafiq məruzələr təqdim edir.

4. Hər bir Tərəf öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə uyğun olaraq ən azı:

(a) yalan, yanlış rəy formalaşdırma vasitəsilə və ya tütün məmulatının xarakterik xüsusiyyətləri, sağlamlığa təsiri, təhlükəsi və ya onlardan ayrılan məhsullar barədə yanlış təsəvvür yarada bilən digər aldadıcı yollarla tütün məmulatının bazarda irəliləməsini təmin edən bütün reklam, satışın stimullaşdırılması və sponsorluq formalarını qadağan edir;

(b) tələb edir ki, tütün məmulatının sağlamlıq üçün zərərli olması və ya digər müvafiq xəbərdarlıq onun istənilən reklamını və uyğun hallarda satışın stimullaşdırılmasını və sponsorluğu müşayiət etsin;

(c) əhali tərəfindən tütün məmulatının alınmasını təşviq edən birbaşa və ya dolayı stimullardan istifadəni məhdudlaşdırır;

(d) əgər tam qadağa tətbiq etməyibsə, müvafiq dövlət orqanlarından tələb edir ki, tütün sənayesinin hələ qadağan olunmamış reklama, satışın stimullaşdırılmasına və sponsorluğa çəkdiyi xərclər barədə informasiyanı açıqlasın. Bu orqanlar milli qanunvericiliyə uyğun olaraq 21-ci Maddənin icrasından ötrü həmin məlumatların ictimaiyyətin və Tərəflərin Konfransının sərəncamına verilməsi barədə qərar çıxara bilərlər;

(e) tam qadağan edir, yaxud öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə görə tam qadağan edə bilmədikdə radio, televiziya, çap kütləvi informasiya vasitələri, müvafiq hallarda isə, məsələn, İnternet kimi digər informasiya vasitələri ilə tütün məmulatının reklamını, satışının stimullaşdırılmasını və tütün məhsullarına sponsorluğu beş il müddətinə məhdudlaşdırır; və

(f) beynəlxalq hadisələr, tədbirlər zamanı və ya bunların iştirakçıları arasında tütün məmulatına sponsorluq edilməsini qadağan edir, yaxud öz konstitusiyasına və ya konstitusiya prinsiplərinə görə qadağan edə bilmədiyi halda bu sponsorluğu məhdudlaşdırır.

5. Tərəflər 4-cü bənddə şərh olunmuş öhdəliklər çərçivəsindən kənara çıxan tədbirlərin həyata keçirilməsinə həvəsləndirilirlər.

6. Tərəflər transsərhəd reklamının ləğvinə kömək üçün zəruri olan texnologiyaların və digər vasitələrin işlənib hazırlanması sahəsində əməkdaşlıq edirlər.

7. Tütün reklamının, satışın stimullaşdırılmasının və sponsorluğun bəzi formalarına artıq qadağa qoymuş Tərəflər onun ərazisinə daxil olan belə transsərhəd reklamı, satışın stimullaşdırılması və sponsorluğu qadağan etmək, daxili reklama, satışın stimullaşdırılmasına və sponsorluğa tətbiq etdiyi sanksiyaları öz milli qanunvericiliyinə uyğun olaraq, onun ərazisindən çıxan bu cür reklama, satışın stimullaşdırılmasına və sponsorluğa da tətbiq etmək kimi suveren hüquqa malikdir. Bu bənd konkret hər hansı sanksiyanın təqdiri və ya təsdiqi demək deyildir.

8. Tərəflər transsərhəd reklamına, satışın stimullaşdırılmasına və sponsorluğa tam qadağa qoyulması məqsədilə beynəlxalq əməkdaşlıq tələb edən müvafiq tədbirlərin şərh olunduğu protokolun işlənib hazırlanması məsələsini nəzərdən keçirəcəklər.

Maddə 14

Tütündən asılılıq və tütündən istifadənin dayandırılması ilə bağlı tələbatın azaldılması tədbirləri

1. Hər bir Tərəf milli şəraiti və prioritetləri nəzərə almaqla, elmi məlumatlar və ən yaxşı təcrübəyə əsaslanan lazımi, hərtərəfli və kompleks rəhbər prinsipləri hazırlayır və yayır, tütündən istifadənin dayandırılmasına və tütündən asılılığın adekvat müalicəsinin təmin edilməsinə kömək üçün səmərəli tədbirlər görür.

2. Bu məqsədə nail olmaq üçün hər bir Tərəf çalışır ki:

a) tədris müəssisələri, tibbi-sanitariya qurumları, iş yerləri və idman tədbirlərinin keçirildiyi yerlər də daxil olmaqla, tütündən istifadənin dayandırılmasına kömək etməyə yönəldilmiş səmərəli proqramlar hazırlayıb həyata keçirsin;

b) tütündən asılılığın diaqnostikası və müalicəsini, həmçinin tütünün istifadəsinin dayandırılması ilə əlaqədar məsləhət xidmətlərini müvafiq hallarda səhiyyə işçilərinin, icma nümayəndələrinin və sosial işçilərin iştirak etdikləri milli səhiyyə və maarifləndirmə proqramlarına, planlarına və strategiyalarına daxil etsin;

c) tibbi-sanitariya yardımı müəssisələrində və reabilitasiya mərkəzlərində tütündən asılılığın diaqnostikası, profilaktikası, müalicəsi və məsləhətlərin verilməsi üzrə proqramlar hazırlasın; və

d) 22-ci Maddəyə uyğun olaraq, dərman preparatları da daxil olmaqla, tütündən asılılığın müalicəsinin və müalicə qiymətlərinin əlçatan olması üçün digər Tərəflərlə əməkdaşlıq etsin. Bu cür preparatlara və onların komponentlərinə dərman vasitələri, onların qəbulu, habelə müvafiq hallarda diaqnostika üçün istifadə olunan preparatlar daxil ola bilər.

IV hissə : Tütün Təchizatının Azaldılması ilə Əlaqədar Tədbirlər

Maddə 15

Tütün məmulatının qeyri-qanuni ticarəti

1. Tərəflər etiraf edirlər ki, qaçaqmalçılıq, qeyri-qanuni istehsal və saxtalaşdırma halları daxil olmaqla, tütün məmulatı ilə qeyri-qanuni ticarətin bütün növlərinin ləğv edilməsi,

həmçinin subregional, regional və qlobal sazişlərlə yanaşı milli qanunvericiliyin işlənib hazırlanması və həyata keçirilməsi tütünə qarşı mübarizənin zəruri tərkib hissələridir.

2. Hər bir Tərəf tütün məmulatının mənşəyinin müəyyənləşdirilməsində Tərəflərə kömək etmək üçün və milli qanunvericiliyə və müvafiq iki tərəfli və çoxtərəfli sazişlərə uyğun olaraq sapma nöqtəsinin müəyyənləşdirilməsində, habelə tütün məmulatının hərəkətinin və hüquqi statusunun monitorinqinin sənədləşdirilməsinin və nəzarətinin həyata keçirilməsində Tərəflərə kömək etmək üçün tütün məmulatının bütün qutularının və qablaşdırma qutularının, bu cür məmulatın istənilən xarici qablaşdırma qutusunun markalanmasını təmin etmək məqsədilə səmərəli qanunverici, icra, inzibati və digər tədbirləri görür və həyata keçirir. Bundan başqa, hər bir Tərəf:

(a) öz daxili bazarında pərakəndə və topdansatış üçün nəzərdə tutulan tütün məmulatının hər bir qutusunda və qablaşdırma qutusunda aşağıdakı mətnin yazılmasını tələb edir: "Ancaq (ölkənin, milli, regional və ya federal ərazi vahidinin adı göstərilir) satılmasına icazə verilir". Yaxud tələb edir ki, təyinat məntəqəsini göstərən və ya bu məmulatın daxili bazarda satılmaq üçün qanuni yolla gəlib-gəlməməsinin orqanlar tərəfindən müəyyən edilməsini asanlaşdıran başqa bir effektiv nişan sistemi olsun; və

(b) müvafiq hallarda gələcəkdə paylaşdırma sistemini qoruyacaq və daha sonra qeyri-qanuni ticarət hallarının istintaqına kömək edəcək praktiki izləmə sisteminin və izləmə rejiminin yaradılması məsələsinə baxır.

3. Hər bir Tərəf bu Maddənin 2-ci bəndində sözügedən qablaşdırmanın üstündəki məlumatın və ya markalanmanın aydın və/və ya əsas dildə, yaxud dillərdə olmasını tələb edir.

4. Tütün məmulatının qeyri-qanuni ticarətini ləğv etmək üçün hər bir Tərəf:

(a) tütün məmulatının transsərhəd satışının, həmçinin qeyri-qanuni ticarətinin monitorinqini və məlumatların toplanmasını həyata keçirir, bundan başqa, müvafiq hallarda milli qanunvericiliyə və tətbiq edilməsi mümkün olan ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq, gömrük, vergi orqanları və digər orqanlar arasında məlumat mübadiləsi aparır;

(b) saxta və qaçaqmal siqaretlər də daxil olmaqla, tütün məmulatının qeyri-qanuni ticarətinin qarşısının alınmasına yönəlmiş qanunvericilik aktlarını qəbul edir və ya onları əlaqədar sanksiyalar və islah tədbirləri ilə möhkəmləndirir;

(c) müsadirə edilən istehsal avadanlığının, saxta və qaçaqmal siqaretlərin və digər tütün məmulatının, praktiki cəhətdən mümkündürsə, ekoloji təmiz üsullar tətbiq olunmaqla məhv edilməsinin və ya daxili qanunvericilik əsasında onlardan qurtulmanın təmin edilməsi üçün lazım olan addımları atır;

(d) vergisiz və ya rüsumsuz rejimdə anbarda saxlanılan və ya daşınan tütün məmulatının saxlanması və paylaşdırılmasının monitorinqi, sənədləşdirilməsi və bunlara nəzarət məqsədilə öz yurisdiksiyası daxilində tədbirlər görür və həyata keçirir; və

(e) tütün məmulatının qeyri-qanuni ticarətindən əldə edilən gəlirlərin müsadirəsi üçün zəruri tədbirlər görür.

5. Tərəflər, müvafiq hallarda, bu Maddənin 4(a) və 4(d) yarımbəndlərinə uyğun olaraq toplanan məlumatları 21-ci Maddəyə əsasən, Tərəflərin Konfransına təqdim etdikləri dövri məruzələrdə cəmləşdirilmiş şəkildə əks etdirirlər.

6. Tərəflər, tütün məmulatının qeyri-qanuni ticarətinin ləğv edilməsi məqsədilə müvafiq hallarda və milli qanunvericiliyə əsasən, təhqiqat, istintaq və məhkəmə icraatına dair məsələlərdə milli təşkilatlar, həmçinin əlaqədar regional və beynəlxalq hökumətlərarası təşkilatlar arasında əməkdaşlığa kömək edirlər. Tütün məmulatının qeyri-qanuni ticarətinə qarşı mübarizə məqsədilə regional və subregional səviyyələrdə əməkdaşlığa xüsusi diqqət yetirilir.

7. Hər bir Tərəf qeyri-qanuni ticarətin qarşısını almaq məqsədilə tütün məmulatının istehsalına və paylaşdırılmasına nəzarət etmək və ya onları nizamlamaq üçün müvafiq hallarda lisenziyalaşdırma da daxil olmaqla, gələcək tədbirlərin görülməsinə və həyata keçirilməsinə çalışır.

Maddə 16

Yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış

1. Daxili qanunvericiliklə, milli qanunvericiliklə müəyyən edilən yaş həddinə və ya on səkkiz yaşına çatmamış şəxslərə tütün məmulatı satışının qadağan edilməsi üçün hər bir Tərəf müvafiq hökumət səviyyəsində səmərəli qanunvericilik, icra, inzibati və digər tədbirləri qəbul edir və həyata keçirir. Bu tədbirlərə aşağıdakılar daxil ola bilər:

(a) bütün tütün məmulatı satıcılarının satış məntəqəsinin daxilində yaxşı görünən yerdə yetkinlik yaşına çatmayanlara tütün məmulatının satışının qadağan olduğu barədə aydın bir elanın yerləşdirilməsinə dair tələb, şübhəli hallarda isə onların tütün məmulatını alan hər bir şəxsdən qanunda müəyyən edilən yetkinlik yaşına çatma haqqında sənədi istəməsinə dair tələb;

(b) tütün məmulatını bilavasitə götürə bilmə imkanını təmin edən bütün satış növlərinin, məsələn, birbaşa mağaza rəflərindən satışın qadağan edilməsi;

(c) tütün məmulatı formasında hazırlanan və yetkinlik yaşına çatmayanların diqqətini cəlb edən konfet, qəlyanaltı, oyuncaq və digər əşyaların istehsal və satışının qadağan edilməsi; və

(d) tütün məmulatını satan öz yrisdiksiyasındakı avtomatların yetkinlik yaşına çatmayanların istifadə dairəsindən uzaq olmasını və tütün məmulatının yetkinlik yaşına çatmayanlara satışını təşviq etməməsini təmin edən bir vəziyyətin yaradılması.

2. Hər bir Tərəf pulsuz tütün məmulatının əhali arasında, xüsusilə də yetkinlik yaşına çatmayanlar arasında yayılmasını qadağan edir və ya qadağan edilməsinə kömək edir.

3. Hər bir Tərəf siqaretlərin yetkinlik yaşına çatmayanlar üçün əldə edilə bilmə imkanını artıran tək-tək və kiçik qutularda satışının qadağan edilməsinə çalışır.

4. Tərəflər təsdiq edirlər ki, yetkinlik yaşına çatmayanlara tütün məmulatı satışının qarşısının alınmasına dair tədbirlərin səmərəliliyini artırmaq məqsədilə lazımi hallarda həmin tədbirlər bu Konvensiyanın digər müddəaları ilə əlaqəli şəkildə həyata keçirilməlidir.

5. Konvensiya imzalandığı, ratifikasiya edildiyi, qəbul edildiyi, təsdiq edildiyi vaxt və

ya ona qoşulduqda, yaxud bunlardan sonra hər hansı bir vaxt ərzində Tərəf məcburi qüvvəyə malik yazılı bəyanatla tütün məmulatı satan avtomatların istismarını öz yurisdiksiyası daxilində qadağan etmək üzrə öhdəlik götürdüyünü bildirə bilər və ya tütün məmulatı satan avtomatları müvafiq hallarda tam qadağan edə bilər. Bu Maddəyə əsasən edilən bəyanat Depozitari tərəfindən Konvensiyanın bütün Tərəflərinə çatdırılır.

6. Hər bir Tərəf bu Maddənin 1-5-ci bəndlərində göstərilən öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi üçün səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər, o cümlədən pərakəndə və topdan satıcılara qarşı sanksiyalar qəbul edir və həyata keçirir.

7. Hər bir Tərəf gərək daxili qanunvericiliklə, milli qanunvericiliklə müəyyən edilən yaş həddinə və ya on səkkiz yaşına çatmayanlar tərəfindən tütün məmulatı satılmasının qadağan edilməsi üçün müvafiq hallarda səmərəli qanunverici, icra, inzibati və digər tədbirlər görsün və həyata keçirsin.

Maddə 17

İqtisadi cəhətdən həyat qabiliyyətli fəaliyyətin alternativ növlərinin dəstəklənməsi

Tərəflər digər Tərəflər və səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlarla əməkdaşlıq edərək, tütünün emalı və yetişdirilməsi ilə məşğul olan şəxslərin, müvafiq hallarda isə ayrı-ayrı satıcıların maraqları naminə lazımi hallarda iqtisadi cəhətdən həyat qabiliyyətli alternativlərə dəstək verirlər.

V hissə: Ətraf Mühitin Mühafizəsi

Maddə 18

Ətraf mühitin və insan sağlamlığının qorunması

Tərəflər öz ərazilərində tütünün yetişdirilməsi və tütün məmulatının istehsalı ilə əlaqədar bu Konvensiyadan irəli gələn öhdəlikləri yerinə yetirərkən ətraf mühitin və ətraf mühitlə əlaqədar insanların sağlamlığının qorunmasına dair məsələlərin lazımi şəkildə nəzərə alınacağı ilə razılaşırlar.

VI hissə: Məsuliyyətlə Əlaqədar Məsələlər

Maddə 19

Məsuliyyət

1. Tütünə qarşı mübarizə məqsədilə Tərəflər, zəruri olarsa, müvafiq hallarda kompensasiya daxil olmaqla, cinayət və mülki məsuliyyət məsələlərinin həlli üçün qanunvericilik tədbirlərinin həyata keçirilməsini və ya mövcud qanunvericiliyin inkişafını nəzərdən keçirirlər.

2. Tərəflər 21-ci Maddəyə müvafiq olaraq Tərəflərin Konfransları vasitəsilə məlumat mübadiləsi sahəsində bir-biri ilə əməkdaşlıq edirlər. Bura həmçinin daxildir:

(a) 20.3 (a) Maddəsinə müvafiq olaraq tütün məmulatından istifadənin və tütün tüstüsünün sağlamlığa təsirinin nəticəsi barədə məlumat; və

(b) qüvvədə olan qanunvericilik və qaydalar, həmçinin müvafiq məhkəmə təcrübəsi barədə məlumat.

3. Müvafiq hallarda və qarşılıqlı razılaşmaya əsasən, Tərəflər milli qanunvericilik, siyasət, hüquqi təcrübə və tətbiq edilən mövcud müqavilə mexanizmləri çərçivəsində bu Konvensiyaya uyğun olaraq mülki və cinayət məsuliyyəti ilə əlaqədar prosessual hərəkətlərin həyata keçirilməsində bir-birinə yardım göstərirlər.

4. Konvensiya heç bir halda Tərəflərin bir-birinin məhkəmə orqanlarına müraciəti hüququna toxunmur və ya onu məhdudlaşdırmır; bu hal belə qaydaların mövcud olduğu şəraitdə mümkündür.

5. Tərəflərin Konfransı müvafiq beynəlxalq forumlarda aparılmış işləri nəzərə alaraq, məsuliyyətlə əlaqədar məsələləri imkan daxilində erkən mərhələdə nəzərdən keçirə bilər. Bura həmçinin həmin məsələlərə lazımi beynəlxalq yanaşmalar və Tərəflərin xahişi ilə onlara bu Maddəyə əsasən qanunvericilik və digər fəaliyyətlərində yardım göstərilməsi üçün lazımi vasitələr də aiddir.

VII hissə: Elmi-texniki Əməkdaşlıq və Məlumatın Çatdırılması

Maddə 20

Elmi tədqiqatlar, epidemioloji nəzarət və məlumat mübadiləsi

1. Tərəflər regional və qlobal səviyyələrdə tütünə qarşı mübarizə sahəsində milli tədqiqatların inkişafı və onlara yardım, habelə elmi tədqiqat proqramlarının koordinasiyası üzrə tədbirlər həyata keçirirlər. Bu məqsədə nail olmaq üçün Tərəflərin hər biri:

a) tədqiqatların və elmi qiymətləndirmələrin aparılmasında bilavasitə və ya səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlar və digər orqanlar vasitəsilə əməkdaşlığa təşəbbüs göstərir və onu həyata keçirirlər. Eyni zamanda determinant, tütündən istifadənin nəticələri və tütün tüstüsünün təsiri, eləcə də alternativ bitkilərin tapılmasına yönəldilmiş tədqiqatlara kömək edir və dəstəkləyir; və

b) səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatların və digər orqanların dəstəyi ilə tütünə qarşı mübarizə aparanların, o cümlədən elmi tədqiqatlar, onların həyata keçirilməsi və qiymətləndirilməsi ilə məşğul olanların təlim görməsini və onların dəstəklənməsini inkişaf etdirir və möhkəmləndirir.

2. Müvafiq hallarda Tərəflər tütündən istifadənin miqyası, strukturu, determinantları və nəticələri, həmçinin tütün tüstüsünün təsiri üzrə milli, regional və qlobal epidnəzarət proqramları yaradırlar. Bu məqsədlə Tərəflər müvafiq hallarda regional və beynəlxalq səviyyələrdə məlumatların müqayisəsini və onların təhlilinin mümkünlüyünü təmin etmək üçün tütün üzərində epidnəzarət proqramlarını sağlamlığa epidnəzarət üzrə milli, regional və qlobal proqramlara daxil edirlər.

3. Tərəflər beynəlxalq və regional hökumətlərarası təşkilatların və digər orqanların göstərdiyi maliyyə və texniki yardımın əhəmiyyətini etiraf edirlər. Hər bir Tərəf aşağıdakıları həyata keçirməyə səy göstərir:

(a) tədricən tütündən istifadə, müvafiq sosial və iqtisadi göstəricilər, sağlamlıq göstəriciləri üzrə milli epidemioloji nəzarət sistemi yaratmaq;

(b) tütünə regional və qlobal epidnəzarət, bu Maddənin 3(a) bəndində qeyd edilmiş

göstəricilərə dair məlumat mübadiləsi üzrə səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlar və digər orqanlarla, o cümlədən hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;

(c) tütünlə əlaqədar epidnəzarət məlumatının toplanması, təhlili və yayılmasının müəyyənləşdirilməsi üçün ümumi rəhbər prinsip və prosedurların işlənib hazırlanmasında Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq etmək.

4. Milli qanunvericiliklərinə uyğun olaraq, Tərəflər açıq elmi-texniki, sosial-iqtisadi, kommersiya və hüquqi məlumatların, həmçinin tütün sənayesi və tütün yetişdirilməsi təcrübəsinə dair bu Konvensiyaya aidiyyəti olan məlumatın mübadiləsinə yardım göstərir və onu asanlaşdırırlar; bu zaman inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin xüsusi tələbatları nəzərə alınır və onlara baxılır. Tərəflərin hər biri aşağıdakıları həyata keçirməyə səy göstərir:

(a) tütünə qarşı mübarizəni tənzimləyən qanun və qaydalardan, müvafiq hallarda isə onlara riayət olunmasının təminatı, həmçinin müvafiq məhkəmə praktikası haqqında informasiyalardan ibarət təzələnmiş məlumat bazasını tədricən yaratmaq və onu dəstəkləmək, regional və qlobal səviyyələrdə tütünə qarşı mübarizə proqramlarının işlənib hazırlanmasında əməkdaşlıq etmək;

(b) bu Maddənin 3 (a) bəndinə müvafiq olaraq milli epidnəzarət proqramlarından alman təzələnmiş məlumat bazasını tədricən yaratmaq və onu dəstəkləmək;

(c) tütün istehsalına və tütün məmulatının hazırlanmasına dair məlumatın müntəzəm olaraq toplanması və yayılması üçün qlobal sistemin tədricən yaradılması və dəstəklənməsi məqsədilə səlahiyyətli beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək; bura həmçinin bu Konvensiya və ya tütünə qarşı mübarizədə milli fəaliyyətə təsir göstərən tütün sənayesinin fəaliyyəti barədə məlumat da daxildir.

5. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin tədqiqatlar, epidnəzarət və informasiya mübadiləsi üzrə öhdəliklərini yerinə yetirməsinə Katibliyin kömək edə bilməsi üçün ona texniki və maliyyə resursları verilməsinə yardım göstərmək və həvəsləndirmək məqsədilə Tərəflər regional və beynəlxalq hökumətlərarası təşkilatlar və maliyyə qurumları və eləcə də üzvləri olduqları və inkişaf məsələləri ilə məşğul olan qurumlar çərçivəsində əməkdaşlıq etməlidirlər.

Maddə 21

Hesabat verilməsi və məlumat mübadiləsi

1. Tərəflərin hər biri Konvensiyaya əməl etməsi barədə Katiblik vasitəsilə vaxtaşırı olaraq Tərəflərin Konfransına aşağıdakıları əhatə edən hesabatlar təqdim edir:

(a) Konvensiyaya əməl etmək məqsədilə həyata keçirilmiş qanunverici, icra, inzibati və digər tədbirlərə dair məlumat;

(b) müvafiq hallarda, Konvensiyaya əməl edərkən ortaya çıxmış hər hansı maneə və ya əngəllər və bunların aradan qaldırılması üçün həyata keçirilmiş tədbirlər barədə məlumat;

(c) müvafiq hallarda, tütünə qarşı mübarizə fəaliyyəti üçün verilmiş və ya alınmış maliyyə və texniki yardım barədə məlumat;

(d) 20-ci Maddədə göstərildiyi kimi, epidnəzarət və tədqiqatlar barədə məlumat;

(e) 6.3, 13.2, 13.3, 13.4 (d), 15.5 və 19.2-ci maddələrdə göstərilmiş məlumat.

2. Bütün Tərəflərin belə hesabatları təqdim etmə müddətlərini və formasını Tərəflərin Konfransı müəyyən edir. Tərəflərin hər biri ilkin hesabatını Konvensiyanın həmin Tərəf üçün qüvvəyə mindiyi tarixdən sonra iki il müddətində hazırlamalıdır.

3. 22 və 26-cı maddələrə əsasən, Tərəflərin Konfransı inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin xahişi ilə onlara bu maddəyə əsasən üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsində yardım göstərilməsinə dair tədbirləri nəzərdən keçirir.

4. Bu Konvensiyaya əsasən məruzələrin təqdimatı və məlumat mübadiləsi məxfiliyin və şəxsi həyatın toxunulmazlığının təmin edilməsi sahəsində milli qanunvericiliyə müvafiq olaraq aparılır. Qarşılıqlı razılıq əsasında Tərəflər mübadilə etdikləri istənilən məxfi məlumatın qorunmasını təmin edirlər.

Maddə 22

Elmi-texniki və hüquqi sahələrdə əməkdaşlıq və müvafiq təcrübənin təqdim edilməsi

1. Tərəflər inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin tələbatını nəzərə almaqla, bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə potensiallarını möhkəmləndirmək məqsədilə, birbaşa və ya səlahiyyətli beynəlxalq orqanlar vasitəsilə əməkdaşlıq edirlər. Belə əməkdaşlıqda məqsəd tütünə qarşı mübarizə sahəsində aşağıdakılara yönəldilmiş milli strategiyalar, planlar və proqramların işlənib hazırlanması və möhkəmləndirilməsi üçün qarşılıqlı razılaşmaya əsasən elmi-texniki və hüquqi təcrübənin mübadiləsinə kömək etməkdir. Bu əməkdaşlıq əsasən aşağıdakı istiqamətlərə yönəldilir:

a) tütünə qarşı mübarizə ilə əlaqədar texnologiya, bilik, səriştə, potensial və təcrübənin işlənib hazırlanması, ötürülməsi və əldə edilməsinə yardım;

b) tütünə qarşı mübarizə sahəsində xüsusən aşağıdakılar vasitəsilə Konvensiyanın həyata keçirilməsinə yönəldilmiş milli strategiyaların, planların və proqramların yaradılması və möhkəmləndirilməsi üçün elmi-texniki, hüquqi və digər təcrübənin təqdim edilməsi:

i) müvafiq xahişə əsasən möhkəm qanunvericilik bazasının, həmçinin texniki proqramların, o cümlədən tütündən istifadəyə başlanmasının qarşısının alınması, ondan istifadənin dayandırılmasına yardım və tütün tüstüsünün təsirindən qorunma proqramlarının yaradılmasına kömək etmək;

ii) müvafiq hallarda, tütün sektorunda çalışan şəxslərə iqtisadi cəhətdən faydalı üsulla iqtisadi və hüquqi cəhətdən həyat qabiliyyətli alternativ yaşayış tərzinin təmin olunmasında yardım etmək; və

iii) müvafiq hallarda, iqtisadi cəhətdən faydalı üsulla kənd təsərrüfatında alternativ bitki növlərinin istehsalına keçilməsində tütün yetişdirilməsi ilə məşğul olan şəxslərə kömək etmək.

c) 12-ci Maddəyə uyğun olaraq, müvafiq heyətin treninqi və ya məlumatlılığının artırılmasına dair müvafiq proqramların dəstəklənməsi;

d) müvafiq hallarda, tütünə qarşı mübarizə sahəsində strategiyalar, planlar və proqramların lazımi materiallar, avadanlıq və maddi-texniki dəstəklə təmin edilməsi;

e) nikotin asılılığından hərtərəfli müalicə də daxil olmaqla, tütünə qarşı mübarizə metodlarının müəyyən edilməsi;

f) müvafiq hallarda, nikotin asılılığından hərtərəfli müalicənin müyəssərliyini daha da artırmaq üçün elmi tədqiqatlara yardım edilməsi.

2. Tərəflərin Konfransı elmi-texniki və hüquqi təcrübə və texnologiyaların ötürülməsinə və 26-cı Maddəyə müvafiq olaraq göstərilən maliyyə yardımı ilə belə ötürmənin asanlaşdırılmasına kömək edir.

VIII hissə: Təşkilati Tədbirlər və Maliyyə Mənbələri

Maddə 23

Tərəflərin Konfransı

1. Bu sənədə əsasən, Tərəflərin Konfransı təsis edilir. Konfransın birinci sessiyası bu Konvensiya qüvvəyə mindikdən sonra ən geci bir il ərzində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən çağırılır. Konfrans birinci sessiyasında növbəti sessiyalarının keçiriləcəyi yeri və vaxtı müəyyənləşdirəcək.

2. Tərəflərin Konfransının növbədənkənar sessiyaları, Konfransın lazım bildiyi digər tarixlərdə və ya hər hansı bir Tərəfin yazılı tələbi ilə keçirilir, o şərtlə ki, Konvensiyanın Katibliyi tərəfindən Tərəflərə bu məlumatın verildiyi andan etibarən altı ay ərzində həmin tələb ən azı Tərəflərin üçdə biri tərəfindən dəstəklənsin.

3. Tərəflərin Konfransı birinci sessiyada konsensus əsasında Prosedur Qaydalarını qəbul edir.

4. Tərəflərin Konfransı konsensus əsasında öz maliyyə qaydalarını, bundan başqa, yarada biləcəyi bütün köməkçi orqanların maliyyələşdirilməsini nizamlayan qaydaları, həmçinin Katibliyin fəaliyyətini nizamlayan maliyyə qaydalarını qəbul edir. Hər bir növbəti sessiyada o, sonrakı sessiyaya qədər ki maliyyə dövrünün büdcəsini təsdiq edir.

5. Tərəflərin Konfransı bu Konvensiyanın həyata keçirilməsinin gedişini müntəzəm olaraq nəzərdən keçirir və onun səmərəli tətbiq edilməsinə yardım üçün lazım olan qərarları qəbul edir; o, 28, 29 və 33-cü maddələrə uyğun olaraq, Konvensiyaya protokollar, əlavələr və düzəlişlər də qəbul edə bilər. Bu məqsədlə o:

(a) 20 və 21-ci maddələrə uyğun olaraq, məlumat mübadiləsini dəstəkləyir və asanlaşdırır;

(b) 20-ci Maddədə nəzərdə tutulanlara əlavə olaraq bu Konvensiyanın həyata keçirilməsinə dair elmi tədqiqatların və məlumat toplanmasının müqayisəli metodlarının hazırlanmasına və mütəmadi şəkildə təkmilləşdirilməsinə dəstək verir və onları istiqamətləndirir;

(c) müvafiq hallarda, strategiya, plan və proqramların, habelə siyasətlərin, qanun-

vericiliyin və digər tədbirlərin hazırlanmasını, tətbiq edilməsini və qiymətləndirilməsini dəstəkləyir;

(d) bu Konvensiyanın 21-ci Maddəsinə uyğun olaraq, Tərəflərin təqdim etdikləri məruzələrə baxır və Konvensiyanın həyata keçirilməsinə dair dövri məruzələri təsdiq edir;

(e) 26-cı Maddəyə uyğun olaraq, bu Konvensiyanın həyata keçirilməsi üçün maliyyə mənbələrinin səfərbər olmasına kömək və yardım edir;

(f) bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün lazım olan köməkçi orqanları təsis edir;

(g) müvafiq hallarda, Konvensiyanın tətbiq edilməsi ilə əlaqədar işin möhkəmləndirilməsi məqsədilə Birləşmiş Millətlər Təşkilatı sistemindəki səlahiyyətli və əlaqədar təşkilatlardan və orqanlardan, digər beynəlxalq və regional hökumətlərarası təşkilatlardan, qeyri-hökumət təşkilatları və orqanlarından xidmətlər göstərilməsi və əməkdaşlıq edilməsi, habelə informasiya təqdim edilməsi xahişi ilə müraciət edir; və

(h) müvafiq hallarda, bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün onun həyata keçirilməsi prosesində əldə edilən təcrübə əsasında digər hərəkətlərin mümkünlüyü məsələsinə baxır.

6. Tərəflərin Konfransı onun işində müşahidəçilərin iştirakının meyarlarını müəyyənləşdirir.

Maddə 24

Katiblik

1. Tərəflərin Konfransı daimi katiblik təyin edir və onun fəaliyyəti üçün şərait yaradır. Tərəflərin Konfransı bunu birinci sessiyasında etməyə çalışır.

2. Daimi katibliyin təyin və təsis edilməsinə qədər katiblik funksiyalarını bu Konvensiyaya uyğun olaraq Ümumdünya Səhiyyə Təşkilatı yerinə yetirir.

3. Katibliyin funksiyaları bunlardır:

(a) Tərəflərin Konfransının və bütün köməkçi orqanların sessiyalarının təşkili və onların lazımi xidmətlərlə təmini;

(b) bu Konvensiyaya uyğun olaraq onun aldığı məruzələrin ötürülməsi;

(c) Tərəflərə, xüsusən də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərə onların xahişi ilə bu Konvensiyanın müddəalarına əsasən tələb olunan məlumatların toplanması və ötürülməsinə kömək edilməsi;

(d) Konvensiyaya uyğun olaraq, öz fəaliyyəti barəsində məruzələrin Tərəflərin Konfransının rəhbərliyi altında hazırlanması və onların Tərəflərin Konfransına təqdim edilməsi;

(e) Tərəflərin Konfransının rəhbərliyi altında səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlar və digər orqanlarla lazımi koordinasiyanın təmin edilməsi;

(f) Katibliyin funksiyalarının səmərəli yerinə yetirilməsi üçün lazım ola bilən inzibati və ya kontrakt sazişlərinin Tərəflərin Konfransının rəhbərliyi altında bağlanması; və

(g) Konvensiyada və onun hər hansı bir protokolunda göstərilən digər katiblik funksiyalarının, həmçinin Tərəflərin Konfransı tərəfindən müəyyən edilə bilən bu cür digər funksiyaların yerinə yetirilməsi.

Maddə 25

Tərəflərin Konfransı ilə hökumətlərarası təşkilatlar arasındakı münasibətlər

Bu Konfransın məqsədlərinə nail olunması üçün texniki və maliyyə məsələlərində əməkdaşlığı təmin etmək məqsədilə Tərəflərin Konfransı əməkdaşlıq etmək xahişi ilə, maliyyə təşkilatları və inkişaf məsələləri ilə məşğul olan təşkilatlar daxil olmaqla, səlahiyyətli beynəlxalq və regional hökumətlərarası təşkilatlara müraciət edə bilər.

Maddə 26

Maliyyə ehtiyatı

1. Tərəflər bu Konvensiyanın məqsədlərinə nail olunmasında maliyyə ehtiyatının əhəmiyyətli rolunu etiraf edirlər.

2. Hər bir Tərəf özünün milli planları, prioritet və proqramlarına uyğun olaraq, bu Konvensiyanın məqsədlərinə nail olunması istiqamətində milli fəaliyyətinə maliyyə dəstəyini təmin edir.

3. Tərəflər inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin tütünə qarşı mübarizə sahəsində çoxsektorlu hərtərəfli proqramlarının işlənib hazırlanması və möhkəmləndirilməsinin maliyyələşməsini təmin etmək üçün müvafiq hallarda ikitərəfli, regional, subregional və başqa çoxtərəfli kanallardan istifadə olunmasına kömək edirlər. Milli səviyyədə işlənib hazırlanan davamlı inkişaf strategiyaları kontekstinə müvafiq olaraq, bitki növlərinin diversifikasiyası da daxil olmaqla, tütün istehsalında iqtisadi cəhətdən həyat qabiliyyətli alternativ variantları müzakirə edib dəstəkləmək lazımdır.

4. Müvafiq regional və beynəlxalq hökumətlərarası təşkilatlar, həmçinin maliyyə qurumlarında və inkişaf məsələləri ilə məşğul olan təsisatlarda təmsil olunan Tərəflər, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərə, onların bu təşkilatlarda iştirakı hüququnun məhdudlaşdırılmaması şərtilə bu Konvensiya üzrə öhdəliklərinin yerinə yetirilməsində həmin təşkilatlar və təsisatlar tərəfindən maliyyə dəstəyinin təmin olunmasını təşviq edirlər.

5. Tərəflər bununla razılaşırlar ki:

(a) Tərəflərə bu Konvensiya üzrə öhdəliklərinin yerinə yetirilməsinə yardım məqsədilə, tütünə qarşı mübarizə tədbirlərində istifadə edilə bilən istər dövlət, istərsə də özəl mülkiyyətdə olan bütün uyğun potensial və mövcud ehtiyatlan - maliyyə, texniki və ya digər ehtiyatları səfərbər edərək, bütün Tərəflərin, xüsusilə də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərin rifahı naminə istifadə etmək lazımdır.

(b) Katiblik inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərə bu Konvensiya

üzrə öhdəliklərinin yerinə yetirilməsini asanlaşdırmaq üçün onların xahişi ilə mövcud olan maliyyələşmə mənbələri haqqında məsləhətlər verir.

(c) Tərəflərin Konfransı Katibliyin apardığı tədqiqat və digər müvafiq informasiya əsasında yardımın mövcud və potensial mənbə və mexanizmlərini özünün ilk sessiyasında nəzərdən keçirəcək, onların uyğunluq məsələsini müzakirə edəcəkdir.

(d) Tərəflərin Konfransı inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı Tərəflərə bu Konvensiya üzrə öhdəliklərini yerinə yetirməyə yardım məqsədilə lazım gəldikdə əlavə maliyyə ehtiyatının yönəldilməsi üçün mövcud mexanizmlərin möhkəmləndirilməsinin və ya könüllü qlobal fondun, yaxud başqa uyğun maliyyə mexanizmlərinin yaradılmasının zəruriliyini müəyyənləşdirərkən həmin müzakirənin nəticələrini nəzərə alacaqdır.

IX hissə: Mübahisələrin Nizamlanması

Maddə 27

Mübahisələrin nizamlanması

1. Bu Konvensiyanın təfsiri və ya tətbiqində iki və daha artıq Tərəf arasında mübahisə yaranarsa, müvafiq Tərəflər mübahisəni danışıqlar və ya istənilən digər dinc vasitələrlə, o cümlədən xoş məram, vasitəçilik, yaxud barışıq yolu ilə, diplomatik kanallarla həll etməyə səy göstərirlər. Xoş məramla, vasitəçiliklə və ya barışıq vasitələri ilə razılığa gəlmək mümkün olmadıqda mübahisə tərəfləri onun həlli yollarını axtarıb tapmaq məsuliyyətindən azad olunmurlar.

2. Bu Konvensiyanın ratifikasiyası, qəbul edilməsi, təsdiqi və ya rəsmi surətdə bəyənilməsi, yaxud ona qoşulma zamanı və ya bundan sonra hər hansı bir vaxtda dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı mübahisənin bu Maddənin 1-ci bəndinə uyğun olaraq həll edilməsi mümkün olmayan mübahisə barədə Depozitariyə yazılı surətdə bildirə bilər ki, onlar Tərəflərin Konfransının konsensus əsasında qəbul etməli olduğu prosedurlara uyğun olaraq məcburi qaydada xüsusi arbitrajın keçirilməsinə razıdırlar.

3. Bu Maddənin müddəaları Tərəflər arasındakı mübahisə ilə əlaqədar hər hansı protokola, əgər protokolda başqa hal nəzərdə tutulmayıbsa, tətbiq edilir.

X hissə: Konvensiyaya Dəyişikliklər və Əlavələr

Maddə 28

Konvensiyaya dəyişikliklər

1. Hər bir Tərəf bu Konvensiyaya dəyişikliklər təklif edə bilər. Bu dəyişikliklər Tərəflərin Konfransında müzakirə ediləcəkdir.

2. Dəyişikliklər Tərəflərin Konfransı tərəfindən qəbul edilir. Konvensiyaya təklif olunan hər bir dəyişikliyin mətni onun qəbul edilməsi təklif olunan sessiyadan ən azı altı ay əvvəl Katiblik tərəfindən Tərəflərə göndərilir. Katiblik təklif olunan dəyişikliklərin mətnini həmçinin Konvensiyanı imzalamış Tərəflərə və məlumat üçün Depozitariyə göndərir.

3. Tərəflər bu Konvensiyaya təklif olunan hər bir dəyişiklik üzrə konsensus əsasında ra-

zılığa gəlmək üçün səy göstərirlər. Əgər razılığa gəlmək üçün bütün səylər tükənibsə, lakin razılıq hələ də əldə olunmayıbsa, onda sonuncu vasitə kimi, dəyişiklik iclasda və səsvermədə iştirak edənlərin dörddə üç səs çoxluğu ilə qəbul edilir. Bu Maddədə istifadə olunan "iclasda və səsvermədə iştirak edən Tərəflər" ifadəsi iclasda iştirak edən və "lehinə" və ya "əleyhinə" səs verən Tərəfləri nəzərdə tutur. Qəbul edilmiş hər bir dəyişiklik Katiblik tərəfindən Depozitariyə verilir ki, o da bunu qəbul edilmək üçün bütün Tərəflərə göndərir.

4. Dəyişikliyin qəbul edilməsi haqqında sənədlər saxlanılmaq üçün Depozitariyə təhvil verilir. Bu Maddənin 3-cü bəndinə uyğun olaraq qəbul edilmiş dəyişiklik onu qəbul edən Tərəflər üçün bu Konvensiyanın iştirakçısı olan Tərəflərin ən azı üçdə iki hissəsi tərəfindən dəyişikliyin qəbul edilməsi haqqında sənədin Depozitariyə daxil olması tarixindən doxsan gün sonra qüvvəyə minir.

5. Dəyişiklik hər hansı başqa Tərəf üçün həmin Tərəfin dəyişikliyi qəbuletməsi haqqında sənədin saxlanılmaq üçün Depozitariyə təhvil verildiyi tarixdən doxsan gün sonra qüvvəyə minir.

Maddə 29

Konvensiyaya əlavələrin qəbul edilməsi və onlara dəyişikliklər edilməsi

1. Bu Konvensiyaya əlavələrin və onlara dəyişikliklərin təklif olunması, qəbulu və qüvvəyə minməsi 28-ci Maddədəki prosedura uyğun həyata keçirilir.

2. Bu Konvensiyaya əlavələr onun ayrılmaz tərkib hissəsi sayılır və əgər bilavasitə başqa cür nəzərdə tutulmayıbsa, Konvensiyaya istinad onun hər hansı əlavəsinə edilən istinad kimi başa düşülür.

3. Əlavələr siyahı, forma və prosedur, elmi, texniki və ya inzibati məsələlərə aid olan hər hansı digər təsviri materialla məhdudlaşır.

XI hissə: Yekun Müddəalar

Maddə 30

Qeyd-şərtlər

Bu Konvensiyaya heç bir qeyd-şərtə yol verilmir.

Maddə 31

Konvensiyadan çıxma

1. Bu Konvensiyanın hər hansı bir Tərəf üçün qüvvəyə minməsi tarixindən iki il keçdikdən sonra istənilən vaxt həmin Tərəf Depozitariyə yazılı bildiriş göndərərək Konvensiyadan çıxa bilər.

2. İstənilən belə çıxma, bu barədə bildirişin Depozitari tərəfindən alındığı tarixdən bir il keçdikdən sonra və ya çıxma haqqında bildirişdə göstərilə bilən daha sonrakı tarixdən etibarən qüvvəyə minir.

3. Bu Konvensiyadan çıxan hər hansı bir Tərəf, tərəfi sayıldığı hər bir protokoldan da çıxmış hesab edilir.

Maddə 32

Səsvermə hüququ

1. Bu Konvensiyanın hər bir Tərəfi, bu Maddənin 2-ci bəndində nəzərdə tutulan hal istisna olmaqla, bir səsə malikdir.

2. Regional iqtisadi inteqrasiya təşkilatları öz səlahiyyətlərinə aid olan məsələlərdə bu Konvensiyanın Tərəfi olan və eyni zamanda bu təşkilatların üzvü olan dövlətlərin sayma bərabər miqdarda səs hüququndan istifadə edirlər. Əgər onun üzvü olan dövlətlərdən hər hansı biri özünün səsvermə hüququndan istifadə edirsə, onda belə təşkilat özünün bu hüququndan istifadə etmir və ya əksinə.

Maddə 33

Protokollar

1. Hər hansı bir Tərəf protokol təklif edə bilər. Belə təkliflər Tərəflərin Konfransında müzakirə olunur.

2. Tərəflərin Konfransı Konvensiyaya protokollar qəbul edə bilər. Belə protokolların qəbulu zamanı konsensus əldə edilməsi üçün bütün səylərdən istifadə olunur. Əgər konsensus əldə etmək üçün bütün səylər tükənibsə, lakin razılıq əldə edilməyibsə, onda sonuncu vasitə kimi, protokol iclasda və səsvermədə iştirak edənlərin dörddə üç səs çoxluğu ilə qəbul edilir. Bu Maddədə istifadə olunan "iclasda və səsvermədə iştirak edən Tərəflər" ifadəsi iclasda iştirak edən və "lehinə" və ya "əleyhinə" səs verən Tərəfləri nəzərdə tutur.

3. Təklif olunan hər bir protokolun mətni onun qəbul edilməsi təklif olunan sessiyadan ən azı altı ay əvvəl Katiblik tərəfindən Tərəflərə göndərilir.

4. Yalnız bu Konvensiyanın Tərəfləri protokolun Tərəfləri ola bilərlər.

5. Bu Konvensiyanın hər hansı protokolu yalnız həmin protokolun tərəfləri üçün məcburidir. Konkret bir protokola aid olan məsələlərə dair qərarları yalnız həmin protokolun tərəfləri qəbul edirlər.

6. Hər hansı protokolun qüvvəyə minməsi şərtləri həmin protokolla müəyyən edilir.

Maddə 34

İmzalama

Bu Konvensiya Ümumdünya Səhiyyə Təşkilatının üzvü olan bütün dövlətlər və Ümumdünya Səhiyyə Təşkilatının üzvü olmayan, lakin Birləşmiş Millətlər Təşkilatının və regional iqtisadi inteqrasiya təşkilatlarının üzvü olan hər hansı dövlət tərəfindən 2003-cü il iyunun 16-dan 2003-cü il iyunun 22-dək Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədə yerləşən mənzil-qərargahında, sonra isə 2003-cü il iyunun 30-dan 2004-cü il iyunun 29-dək Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda yerləşən mənzil-qərargahında imzalanmaq üçün açıqdır.

Maddə 35

Ratifikasiya, qəbul edilmə, təsdiq olunma, rəsmi bəyənilmə və ya qoşulma

1. Bu Konvensiyanı dövlətlər ratifikasiya, qəbul, təsdiq etməli və ya ona qoşulmalı, həmçinin regional iqtisadi inteqrasiya təşkilatları rəsmi bəyənməli və ya ona qoşulmalıdırlar. Konvensiya imzalanma üçün bağlandığı tarixdən sonrakı gün qoşulma üçün açılır. Ratifikasiya, qəbul, təsdiq edilmə, rəsmi bəyənilmə və qoşulma haqqında sənədlər saxlanılmaq üçün Depozitariyə

təhvil verilir.

2. Bu Konvensiyanın Tərəfinə çevrilən hər hansı regional iqtisadi inteqrasiya təşkilatı, onun üzvü olan dövlətlərdən heç birinin Konvensiyanın Tərəfi olmasa da, Konvensiya üzrə tam məsuliyyət daşıyır. Belə təşkilatların üzvü olan bir və ya daha artıq dövlət bu Konvensiyanın Tərəfi olarsa, bu təşkilat və onun üzvü olan dövlətlər Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsinə dair öz müvafiq vəzifələrindən irəli gələn qərarlar verirlər. Belə hallarda təşkilat və üzv dövlətlər bu Konvensiyadan irəli gələn hüquqları paralel olaraq həyata keçirə bilməzlər.

3. Regional iqtisadi inteqrasiya təşkilatları rəsmi bəyənilmə və ya qoşulma sənədlərində bu Konvensiyanın nizamladığı məsələlərə dair öz səlahiyyətlərinin hüdudlarını bəyan edirlər. Bu təşkilatlar öz səlahiyyət hüdudlarında hər hansı köklü dəyişikliklər barəsində Depozitarini, o da, öz növbəsində, Tərəfləri məlumatlandırır.

Maddə 36

Qüvvəyə minmə

1. Bu Konvensiya ratifikasiya, qəbul, təsdiq edilmə, rəsmi bəyənilmə və ya qoşulma haqqında qırxıncı sənədin saxlanılmaq üçün Depozitariyə təhvil verildikdən doxsan gün sonra qüvvəyə minir.

2. Bu Konvensiyanı ratifikasiya, qəbul, yaxud təsdiq edən və ya qüvvəyəminmə haqqında bu Maddənin 1-ci bəndində qeyd olunan şərtlərin yerinə yetirilməsindən sonra ona qoşulan hər bir dövlət üçün bu Konvensiya həmin dövlətin ratifikasiya, qəbul, təsdiq, yaxud qoşulma haqqında sənədi saxlanılma üçün təhvil verməsi tarixindən doxsan gün sonra qüvvəyə minir.

3. Qüvvəyə minmə haqqında bu Maddənin 1-ci bəndində qeyd olunan şərtlərin yerinə yetirilməsindən sonra rəsmi bəyənilmə və ya qoşulma haqqında sənədi saxlanılma üçün təhvil verən istənilən regional iqtisadi inteqrasiya təşkilatı üçün bu Konvensiya həmin təşkilatın rəsmi bəyənilmə və ya qoşulma haqqında sənədi saxlanılmağa təhvil verməsi tarixindən doxsan gün sonra qüvvəyə minir.

4. Bu Maddənin məqsədləri üçün regional iqtisadi inteqrasiya təşkilatı tərəfindən saxlanılmağa təhvil verilən hər hansı sənəd bu təşkilatın üzvü olan dövlətlərin saxlanılmaq üçün təhvil verdikləri sənədlərə əlavə sayılmır.

Maddə 37

Depozitari

Bu Konvensiyanın və ona dəyişikliklərin, həmçinin 28, 29 və 33-cü maddələrə uyğun olaraq qəbul edilmiş protokol və əlavələrin Depozitarisi Birləşmiş Millətlər Təşkilatının Baş katibidir.

Maddə 38

Autentik mətnlər

Bu Konvensiyanın ingilis, ərəb, ispan, çin, rus və fransız dillərində olan mətnləri autentikdir, onun əsli saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilən aşağıda imza etmiş şəxslər bu Konvensiyanı imzalamışlar.

Cenevrədə, iki min üçüncü il mayın iyirmi birində imzalanmışdır.

Əlavə 1: WHA 56.1 - Tütünə Qarşı Mübarizə Haqqında ÜST-nin Çərçivə Konvensiyası

Ümumdünya Səhiyyə Assambleyasının əlli altıncı sessiyası, ÜST Nizamnaməsinin 19-cu Maddəsinə uyğun olaraq tütünə qarşı mübarizə haqqında ÜST-nin çərçivə konvensiyasının hazırlanmasının təklif olunduğu WHA 49.17 və WHA 52.18 qətnamələrini xatırlayaraq;

indiki və gələcək nəsilləri tütün istehlakından və tütün tüstüsünün təsirindən qorumaq əzmində olaraq;

bütün dünyada tütün çəkilməsi və ondan başqa formalarda istifadə edilməsi miqyasının genişlənməsini böyük narahatlıqla qeyd edərək;

Hökumətlərarası Danışıqlar Orqanının fəaliyyətinin yekunları haqqında Hökumətlərarası Danışıqlar Orqanı Sədrinin məruzəsini minnətdarlıqla qeyd edərək;

tütün istehlakının və tütün tüstüsünün dağıdıcı təsirindən insanların sağlamlığının qorunması üzrə milli, regional, beynəlxalq fəaliyyətin və qlobal əməkdaşlığın genişlənməsi istiqamətində bu Konvensiyanın əhəmiyyətli addım olmasına əmin olaraq, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin xüsusi vəziyyətini nəzərə almaq zərurətini dərk edərək;

Konvensiyanın tezliklə qüvvəyə minməsi və səmərəli həyata keçirilməsi zərurətini qeyd edərək,

1. Bu qətnaməyə əlavə edilən Konvensiyanı qəbul edir;

2. Konvensiyanın 34-cü Maddəsinə uyğun olaraq, bu Konvensiyanın 2003-cü il iyunun 16-dan 22-nə qədər ÜST-nin Cenevrədəki mənzil-qərargahında, daha sonra isə 2003-cü il iyunun 30-dan 2004-cü il iyunun 29-dək Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mənzil-qərargahında imzalanmaq üçün açıq olduğunu nəzərə çatdırır;

3. Konvensiyanın mümkün qədər tez qüvvəyə minməsi üçün bütün dövlətləri və səla-

hiyyətli regional iqtisadi inteqrasiya təşkilatlarını Konvensiyanın tezliklə imzalanması, ratifikasiyası, qəbulu, təsdiqi, rəsmi bəyənilməsi və ya Konvensiyaya qoşulma məsələsinə baxmağa çağırır;

4. Bütün dövlətləri və regional iqtisadi inteqrasiya təşkilatlarını Konvensiya qüvvəyə minməmişdən əvvəl tütün istehlakının və tütün tüstüsü təsirinin azaldılması üzrə bütün zəruri tədbirləri həyata keçirməyə təkidlə çağırır;

5. Bütün üzv dövlətləri, regional iqtisadi inteqrasiya təşkilatlarını, müşahidəçiləri və digər maraqlı tərəfləri bu qətnamədə adı çəkilən hazırlıq işlərinə dəstək verməyə və Konvensiyanın tezliklə qüvvəyə minməsinə və həyata keçirilməsinə səmərəli yardım etməyə təkidlə çağırır;

6. Birləşmiş Millətlər Təşkilatını tütünə qarşı mübarizəyə dair milli və beynəlxalq proqramların gücləndirilməsi işinə yardım göstərilməsini davam etdirməyə çağırır və bunu digər müvafiq beynəlxalq təşkilatlara təklif edir;

7. Ümumdünya Səhiyyə Assambleyasının Prosedur Qaydalarının 42-ci Maddəsinə uyğun olaraq, açıq tərkibli hökumətlərarası işçi qrupunun təsis edilməsini qərara alır. Bu qrup uyğun hallarda Konvensiyada Tərəflərin Konfransının birinci sessiyasında baxılmalı və qəbul edilməli kimi müəyyənləşdirilmiş məsələlər üzrə təkliflərin baxılması və hazırlanmasında Konvensiyanın 34-cü maddəsində göstərilən bütün dövlətlərin və regional iqtisadi inteqrasiya təşkilatlarının iştirakı üçün açıq olacaqdır. Həmin məsələlərə aşağıdakılar daxildir:

(1) Tərəflərin Konfransının sessiyalarında müşahidəçilərin iştirakı üzrə meyarlar da (23.6-cı Maddə) daxil olmaqla, Tərəflərin Konfransının prosedur qaydaları (23.3-cü Maddə);

(2) daimi katibliyin təyinatı variantları və onun fəaliyyət mexanizmləri (24.1-ci Maddə);

(3) Tərəflərin Konfransının və onun yardımçı orqanlarının maliyyə qaydaları və katibliyin fəaliyyətini nizamlayan maliyyə müddəaları (23.4-cüMaddə);

(4) birinci maliyyə dövrü üçün büdcə layihəsi (23.4-cü Maddə);

(5) Tərəflərin Konvensiya üzrə öhdəliklərinin yerinə yetirilməsində onlara yardımın göstərilməsinin mövcud və potensial mənbə və mexanizmlərinə baxılması (26.5-ci Maddə);

8. Tərəflərin Konfransının birinci sessiyasının hazırlanması işinə nəzarət etməyi və bu məsələ üzrə məruzəni bilavasitə onun özünə təqdim etməyi açıq tərkibli Hökumətlərarası İşçi Qrupuna tapşırmağı qərara alır;

9. Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası ilə əlaqədar Danışıqlar üzrə Hökumətlərarası Orqanın qəbul etdiyi qərarlar qeyri-hökumət təşkilatlarının iştirakına aid olduqda bu qərarların açıq tərkibli Hökumətlərarası İşçi Qrupunun fəaliyyətinə tətbiq edildiyini qərara alır;

10. Baş direktora təklif edir:

(1) daimi katiblik yaradılana və fəaliyyətə başlayana qədər bu Konvensiyanın katibliyinin funksiyalarını təmin etsin;

(2) Konvensiyanın qüvvəyə minməsi üzrə hazırlıq işində üzv dövlətlərə, xüsusən də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrə yardım göstərilməsi üçün zəruri tədbirlər görsün;

(3) 2003-cü il iyunun 16-dan Tərəflərin Konfransının birinci sessiyasına qədər olan dövrdə açıq tərkibli Hökumətlərarası İşçi Qrupunun iclaslarını ehtiyac olduqca çağırsın;

(4) tütünə qarşı qlobal mübarizədə texniki liderlik, istiqamətləndirmə və dəstəyin təmin edilməsi üzrə ÜST-nin həlledici rolunun yerinə yetirilməsinin təmin olunmasını davam etdirsin;

(5) Konvensiyanın qüvvəyə minməsinin təmin olunmasında əldə olunmuş nailiyyətlər və Tərəflərin Konfransının birinci sessiyasına hazırlıq sahəsindən görülən işlər haqqında Səhiyyə Assambleyasına məlumat versin.

Əlavə 2: TMÇK-nın Hazırlanması Tarixi

Tütünə qarşı mübarizə haqqında beynəlxalq sənədin hazırlanması ideyası 1995-ci ilin mayında WHA 48.11 saylı Qətnamənin qəbulu ilə gerçəkləşməyə başlanmışdır. Həmin qətnamədə Baş direktora təklif olunurdu ki, tütünə qarşı mübarizəyə dair rəhbər prinsiplər, bəyannamə və ya beynəlxalq konvensiya formasında beynəlxalq sənədin hazırlanmasının məqsədəuyğunluğu haqqında Ümumdünya Səhiyyə Assambleyasının qırx doqquzuncu sessiyasına məruzə təqdim etsin.

WHA 48.11 saylı Qətnamənin qəbul edilməsinin nəticəsi olaraq ÜST-yə təklif olundu ki, belə bir sənədin hazırlanmasının əməli cəhətdən mümkünlüyü haqqında məruzənin layihəsini hazırlasın. Həmin sənəd Baş direktor tərəfindən ÜST-nin İcraiyyə Komitəsinin doxsan yeddinci sessiyasına təqdim olundu ("Tütünə qarşı mübarizə haqqında beynəlxalq sənədin hazırlanmasının əməli cəhətdən mümkünlüyü" (EB97/İNF.DOC/4)). Bu sessiyanın gedişində İcraiyyə Komitəsi "Tütünə qarşı mübarizə haqqında Beynəlxalq Çərçivə Konvensiyası" adlı EB97.R8 saylı Qətnamə qəbul etdi.

Bir qədər sonra, elə həmin il Ümumdünya Səhiyyə Assambleyasının qırx doqquzuncu sessiyasında "Tütünə qarşı mübarizə haqqında Beynəlxalq Çərçivə Konvensiyası" adlı WHA 49.17 saylı Qətnamə qəbul edildi. Həmin qətnamədə Baş direktora Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının hazırlanmasına başlamaq təklif olunurdu. Bu qətnamənin qəbulu nəticəsində ÜST-nin ilk müqaviləsinin hazırlanması üzrə rəsmi işlərə başlandı.

1998-ci ildə ÜST-nin yeni seçilmiş Baş direktoru doktor Qru Harlem Brundtland beynəlxalq diqqəti, resursları və fəaliyyəti qlobal tütün epidemiyasına cəlb etmək məqsədilə "Tütün asılılığından xilas olma təşəbbüsü" adlı müvafiq kabinet layihəsi təsis edərək, tütünə qarşı qlobal mübarizəyə prioritet xarakter verdi. Bununla əlaqədar bu fəaliyyətin xarakterini əks etdirən yeni çoxsektorlu əməkdaşlıq konsepsiyaları hazırlandı. Bundan başqa, dr. Brundtland Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının hazırlanmasına və tütünə qarşı mübarizənin qlobal qaydalarının dəstəklənməsi üçün ictimai və siyasi rəylərin səfərbər olunması vəzifəsinin həllinə başlamağa mandat almaq məqsədilə üzv dövlətlərlə iş apardı.

1999-cu ilin mayında Ümumdünya Səhiyyə Assambleyasının əlli ikinci sessiyası ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasına və onunla bağlı ola bilən protokollara dair çoxtərəfli danışıqların əsasını qoydu. Çərçivə konvensiyasının layihəsinin hazırlanması, danışıqların yekunlaşdırılması və mətnin son variantının baxılmaq üçün Ümumdünya Səhiyyə Assambleyasının əlli altıncı sessiyasına təqdim olunmasından ötrü WHA 52.18 saylı Qətnamə ilə iki orqan təsis edildi. Bu iki orqan aşağıdakılar idi: Çərçivə Konvensiyasının təklif olunan elementlərinin layihəsinin hazırlanması üzrə texniki işçi qrupu və təklif olunan Çərçivə Konvensiyasının və onunla bağlı ola bilən protokolların layihəsinin və danışıqların hazırlanması üçün danışıqlar üzrə hökumətlərarası orqan. Adları çəkilən hər iki orqan üzv dövlətlərin və tütünə qarşı mübarizə ilə bağlı məsələlərdə onların öz səlahiyyətlərini verdikləri regional iqtisadi inteqrasiya təşkilatlarının iştirakı üçün açıq idi.

İşçi qrupu Cenevrədə iki sessiya keçirdi (1999-cu il oktyabrın 25-29-da və 2000-ci il martın 27-29-da). Bunun nəticəsində Çərçivə Konvensiyasına təklif olunan elementlərin layihələrinin ilkin mətnləri ilə birgə sənəd hazırlandı və işçi qrupunun qeydləri ilə Ümumdünya Səhiyyə Assambleyasının əlli üçüncü sessiyasına təqdim edildi. WHA 53.16 saylı Qətnamədə Səhiyyə Assambleyası Hökumətlərarası Danışıqlar Orqanını mümkün protokollar üzrə gələcək müzakirələrə xələl gətirmədən, ilk növbədə Çərçivə Konvensiyası layihəsinin hazırlanmasını vurğulamaqla, danışıqlara başlamağa, işin gedişi haqqında Ümumdünya Səhiyyə Assambleyasının əlli dördüncü sessiyasına məruzə etməyə, habelə qeyri-hökumət təşkilatlarının müşahidəçi qismində geniş tərkibdə iştirakı məsələsinə baxmağa çağırdı.

Hökumətlərarası Danışıqlar Orqanının ilk sessiyasından (Cenevrə, 16-21 oktyabr 2000-ci İl) əvvəl Çərçivə Konvensiyası ilə bağlı məsələlərə dair ictimai dinləmələr keçirildi. Baş direktorun bu dinləmələri keçirməkdə məqsədi ictimai səhiyyə nümayəndələrinin, tütün sənayesi və fermer qrupları nümayəndələrinin bu məsələyə dair öz mövqelərini ortaya qoymaları üçün forum keçirmək idi; qeyd olunan dinləmələrin protokolları Hökumətlərarası Danışıqlar Orqanına və ÜST-nin veb-saytı ilə ictimaiyyətin diqqətinə çatdırıldı. Adı çəkilən orqanın ilk sessiyasında Braziliyanın səfiri Kelso Amorim Sədr seçildi. Həmçinin Sədrin Avstraliya, Hindistan, İran İslam Respublikası, Cənubi Afrika, Türkiyə və Amerika Birləşmiş Ştatlarından olan müavinlərindən ibarət Büro yaradıldı. ÜST-nin işçi qrupu tərəfindən hazırlanmış Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasına təklif olunan elementlərin layihələrinin ilkin mətnləri danışıqlara başlamaq üçün əsas kimi qəbul edildi. Bundan sonra səfir Amorim Sədrin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyası mətnini hazırladı. Bu layihə 2001-ci ilin yanvarında ikinci sessiyaya gələcək danışıqlar üçün əsas kimi təqdim olundu.

Hökumətlərarası Danışıqlar Orqanının işində qeyri-hökumət təşkilatlarının iştirakı haqqında məruzə İcraiyyə Komitəsinə 2001-ci ilin yanvarında, onun 107-ci sessiyasında təqdim olundu. İcraiyyə Komitəsinin EB 107(2) saylı qərarına uyğun olaraq, Komitənin Sədri Qeyri-hökumət Təşkilatları üzrə Daimi Komitənin Sədri ilə birgə iki qeyri-hökumət təşkilatının - Tütünə qarşı Beynəlxalq Qeyri-Hökumət Koalisiyasının və İnfakt təşkilatlarının 2001-ci il aprelin 26-dan ÜST ilə qarşılıqlı rəsmi əlaqələrə başlamasına icazə verdi.

Danışıqlar Orqanının ikinci sessiyasına hazırlıq işlərinin gedişində regionların və subre-

gionların çoxunda regional sessiyalararası məsləhətləşmələr keçirildi. Əlavə regional və subregional sessiyalararası məsləhətləşmələr Danışıqlar Orqanının hər növbəti sessiyasına hazırlıq işləri ilə əlaqədar keçirilirdi.

Danışıqlar Orqanının ikinci sessiyasında (Cenevrə, 30 aprel - 5 may 2001-ci il) Konvensiyaya təklif olunan elementlərin layihələrinə baxılması məsuliyyəti üç işçi qrupu arasında bölüşdürüldü. Bu işin əsas nəticəsi kimi həmsədrlər üç işçi sənəd hazırladılar; həmin sənədlərdə ikinci sessiyada hazırlanmış və Sədrin ilkin mətninə daxil edilmiş təkliflər nəzərdən keçirilirdi. Bu işçi sənədlər Çərçivə Konvensiyası layihəsinin hazırlanması üçün əsas istinad materialları oldu.

Üçüncü sessiyada (Cenevrə, 22-28 noyabr 2001-ci il) iki işçi qrupu mətnin yenidən nəzərdən keçirilmiş layihəsini, bir işçi qrupu isə bir qədər sonra öz layihəsini hazırladı. Göstərilən sənədlərdən dördüncü sessiyada danışıqlar zamanı istifadə olundu.

Dördüncü sessiyada (Cenevrə, 18-23 mart 2002-ci il) Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının Hökumətlərarası Danışıqlar Orqanının Sədri vəzifəsinə səfir Amorimun yerinə Braziliyanın Cenevrədəki Daimi Nümayəndəsi Seixas Korrea seçildi.

Qərara alındı ki, səfir Seixas Korrea Sədrin adından, Danışıqlar Orqanının beşinci sessiyasında (14-25 oktyabr 2002-ci il) danışıqlar üçün əsas olacaq yeni mətn hazırlasın. Yeni mətn 2002-ci ilin iyul ayında Amerika Birləşmiş Ştatları tərəfindən təşkil olunmuş və Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının qərargahında keçirilmiş (30 iyul - 1 avqust 2002-ci il) tütün məmulatı ilə qeyri-qanuni ticarətə dair beynəlxalq texniki konfransda təqdim edildi.

Danışıqlar Orqanının ilk dörd sessiyasında mətnin bir çox alternativ variantları müzakirə edilmişdi. Tematik müzakirə nəticəsində beşinci sessiyada alternativ variantların sayı azaldı ki, bu da müzakirələrin konkretləşməsinə gətirib çıxardı. Plenar iclasda Sədrin yeni mətni ilə tanış olduqdan sonra iştirakçılar açıq qeyri-rəsmi iclasda aşağıdakı altı məsələni ayırıb müzakirə etdilər: reklam, satışın stimullaşdırılması və sponsorluq; maliyyə resursları; tütün məmulatı ilə qeyri-qanuni ticarət; məsuliyyət və kompensasiya; qablaşdırma və markalanma; ticarət aspektləri və səhiyyə. Qeyri-rəsmi qruplar həmçinin hüquqi, institusional və prosedur məsələləri, habelə terminlərdən istifadəyə dair müzakirələr apardılar. Danışıqlarda nəzərəçarpacaq irəliləyişə və bir çox məsələlərdə konsensusa nail olundu. Qeyri-rəsmi sessiyaların və müxtəlif nümayəndə heyətləri, heyət qrupları ilə sessiyalararası məsləhətləşmələrin yekunu olaraq, 2003-cü il yanvarın 15-də səfir Seixas Korrea Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının yenidən baxılmış mətnini hazırladı.

Danışıqlar Orqanının altıncı yekun sessiyası 2003-cü il fevralın 17-dən martın 1-dək keçirildi. Bu danışıqlar çox dolğun və əhatəli oldu. Reklam, satışın stimullaşdırılması və sponsorluq məsələsi və maliyyə resursları məsələsi iki qeyri-rəsmi qrupun iclaslarında müzakirə edildi. Danışıqlar Orqanının yekun plenar iclasında qərara alındı ki, hazırlanmış mətn Nizamnamənin 19-cu Maddəsinə uyğun olaraq baxılmaq və qəbul edilmək üçün Ümumdünya Səhiyyə Assambleyasının əlli altıncı sessiyasına göndərilsin. İştirakçılar həmçinin razılığa gəldilər ki, protokolların müzakirəsi bu məsələnin müzakirəsi üçün lazımi vaxtı olacaq Səhiyyə Assambleyasınadək təxirə salınsın. Danışıqlar Orqanının iştirakçıları yekun plenar iclasda razılığa gəldilər ki, ÜST-nin Tütünə qarşı müba-

rizə haqqında Çərçivə Konvensiyasının qəbul olunmasını tövsiyə edən qətnamə layihəsini Danışıqlar Orqanının Sədri Səhiyyə Assambleyasına təqdim etməlidir. Beləliklə, ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının yekun variantı WHA 52.18 saylı qətnaməyə əsasən, baxılmaq və qəbul edilmək üçün Ümumdünya Səhiyyə Assambleyasına təqdim olundu.

2003-cü il mayın 21-də Ümumdünya Səhiyyə Assambleyasının əlli altıncı sessiyası ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasını yekdilliklə qəbul etdi. Konvensiya 2003-cü il iyunun 16-dan iyunun 22-dək bir il ərzində ÜST-nin mənzil-qərargahında, sonra isə 2003-cü il iyunun 30-dan 2004-cü il iyunun 29-dək Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında imzalanmaq üçün açıqdır.

ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyası qlobal ictimai səhiyyənin gələcəyi üçün mühüm pillədir və səhiyyə sahəsində ÜST-nin məqsədləri üçün əhəmiyyətli təsirə malikdir. Danışıqlar prosesinin yekunlaşması və ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının yekdilliklə qəbul edilməsi ictimai səhiyyənin inkişafında ən mühüm elementlərdən biridir və səhiyyə sahəsində, Səhiyyə Assambleyasının qətnamələrinə tam uyğun şəkildə qurulan beynəlxalq əməkdaşlığın yeni hüquqi parametrlərini müəyyənləşdirir.

"Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası"na dair Azərbaycan Respublikasının Bəyanatı

1. Azərbaycan Respublikası bəyan edir ki, bu Konvensiyadan irəli gələn heç bir hüquq və öhdəliyi və ya müddəanı Ermənistan Respublikasına münasibətdə tətbiq etməyəcəkdir.

2. Azərbaycan Respublikası bu Konvensiyanın 27-ci Maddəsinin 2-ci bəndinə uyğun olaraq bəyan edir ki, həmin Maddənin 1-ci bəndinə müvafiq olaraq, onun tətbiqi və təfsiri ilə bağlı Azərbaycan Respublikası ilə istənilən digər Tərəf arasında yarana biləcək hər hansı mübahisə danışıqlar və digər diplomatik vasitələr yolu ilə həll edilə bilmədikdə, Azərbaycan Respublikası ilə həmin Tərəf arasında arbitraj yolu ilə həll oluna bilər.

Azərbaycan Respublikasında Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Rafi Oyl EfZeİ və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2005-ci il 1 iyul tarixli 875 nömrəli Sərəncamına uyğun olaraq, 2005-ci il avqustun 16-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Birləşmiş Ərəb Əmirliklərinin Rafi Oyl EfZeİ ("Rafi Oyl") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmadığını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Rafi Oyl EfZeİ və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 avqust tarixli 161 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olur. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№997-IIQ

Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№998-IIQ

Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№999-IIQ

Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№1000-IIQ

Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№1001-IIQ

Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2005-ci il

№1002-IIQ

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Energetika Departamenti arasında nüvə və digər radioaktiv materialların qanunsuz dövriyyəsinin qarşısının alınmasında əməkdaşlığa dair İcra Razılaşması"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Energetika Departamenti arasında nüvə və digər radioaktiv materialların qanunsuz dövriyyəsinin qarşısının alınmasında əməkdaşlığa dair İcra Razılaşması"nı imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən İcra Razılaşmasını imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 sentyabr 2005-ci il

№ 1017

"Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları arasında gələcək əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları arasında gələcək əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 sentyabr 2005-ci il

№1020

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının "Tamojni" Agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının dərinləşdirilməsi sahəsində qarşılıqlı Anlaşma Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının "Tamojni" Agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının dərinləşdirilməsi sahəsində qarşılıqlı Anlaşma Protokolu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 sentyabr 2005-ci il

№1021

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 sentyabr 2005-ci il

№1022

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramına (2005-2007-ci illər) dəstək layihəsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramına (2005-2007-ci illər) dəstək layihəsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə BMT-nin İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 sentyabr 2005-ci il

№1023

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Günəşli Neft Yatağında Səmt Qazının Utilizasiyası Layihəsi"nin hazırlanması üçün Yaponiya Qrantı üzrə Məktub-Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Günəşli Neft Yatağında Səmt Qazının Utilizasiyası Layihəsi"nin hazırlanması üçün Yaponiya Qrantı üzrə Məktub-Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Ağa Əmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Ağa Əmi oğlu Əliyevə verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2005-ci il

№1025

"Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Finlandiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2005-ci il

№ 1026

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Kommünikenin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 2005-ci il iyunun 30-da Bakı şəhərində imzalanmış Birgə Kommünike təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1006-IIQ

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Kommünike

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyip Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə 2005-ci il 29-30 iyun tarixlərində Azərbaycan Respublikasında rəsmi səfərdə oldu.

Dostluq şəraitində keçmiş səfər çərçivəsində Azərbaycan Respublikası Prezidenti və Türkiyə Respublikasının Baş naziri siyasi təmasları və qarşılıqlı fəaliyyəti bundan sonra da səmərəli şəkildə inkişaf etdirəcəklərini və strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəklərini, siyasi, iqtisadi, sosial sahələrdə və təhlükəsizlik məsələlərində zəruri, qarşılıqlı fəaliyyət mexanizmləri yaradacaqlarını və təkmilləşdirəcəklərini təsdiq etdilər.

Tərəflər müasir dövrdə hüququn aliliyi, demokratiya, insan hüquqları və açıq cəmiyyət kimi universal dəyərlərin prioritetliyinin və beynəlxalq birliyə inteqrasiyanın vacibliyini dərk edərək, bu dəyərlərin qorunaraq irəliyə aparılması istiqamətində qətiyyətli olduqlarını qeyd etdilər.

Türkiyə tərəfi, bununla əlaqədar, Azərbaycanda davam edən demokratikləşmə, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərinin yer alması prosesinə göstərdiyi möhkəm dəstəyini ifadə edərək, bu sahədə atılan adamların vacibliyini qeyd etmişdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi baxımından önəmli olduğunu bildirərək, demokratik institutların formalaşmasında və fəaliyyətində təcrübə mübadiləsini həyata keçirəcəklərini qeyd etdilər.

Tərəflər hər iki ölkənin təhlükəsizliyinin təmini maraqlarına cavab verən və beynəlxalq öhdəliklərinə zidd olmayan ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığı möhkəmləndirəcəklərini təsdiq etdilər.

Tərəflər iki dövlət arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq səviyyəsinin onların dinamik surətdə inkişaf edən bazar iqtisadiyyatının potensial və imkanlarına tam şəkildə cavab verməsi üçün əlavə tədbirlər həyata keçirilməsini vurğuladılar.

Tərəflər Uzunmüddətli İqtisadi Əməkdaşlıq Sazişinin İcra Planı layihəsinin sona çatdırılması ilə əlaqədar fəaliyyəti davam etdirmələrinə dair razılığa gəldilər.

Tərəflər bu çərçivədə iki ölkə arasındakı iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsində Azərbaycan-Türkiyə Birgə İqtisadi Komissiyasının əhəmiyyətini qeyd edərək, sözügedən Komissiyanın daha səmərəli olması qərarına gəldilər.

Tərəflər eyni zamanda ikitərəfli ticarətin daha da inkişaf etdirilməsini təmin etmək məqsədilə nəqliyyatın asanlaşdırılmasının vacibliyini vurğulayaraq, bu sahədə əməkdaşlığın sürətləndirilməsinə dair razılığa gəldilər.

Tərəflər Naxçıvan Muxtar Respublikasının iqtisadi baxımdan gücləndirilməsinə istiqamətlənən əməkdaşlığa xüsusi əhəmiyyət verdiklərini qeyd etdilər.

Hər iki tərəf kiçik və orta müəssisələrin fəaliyyətinə lazımi dəstək veril-məsini xüsusi şəkildə nəzərə alaraq, iki ölkənin dövlət və özəl müəssisələri və maliyyə-bank idarələri arasında əməkdaşlıq üçün əlverişli şərait yaradılmasının davam etdirilməsinə ehtiyac olduğunu bildirdi.

Tərəflər iki ölkənin özəl sektor müəssisələri arasında dialoqun gücləndirilməsini təmin etmək məqsədilə özəl sektordakı qurumlar arasında əlaqələrin institutlaşdırılmasına və öz nəzdində iki ölkə iş adamlarını birləşdirəcək müştərək palatalar birliyinin təsis edilməsinə yönəldilən addımları dəstəkləməyə qərar verdilər.

Tərəflər beynəlxalq hüququn əsas prinsipləri sayılan ərazi bütövlüyünə hörmət və sərhədlərin zor işlətməklə dəyişdirilməməsi prinsiplərinin Ermənistan tərəfindən pozulmasını pisləyərək, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının tezliklə və qeyd-şərtsiz azad edilməsinin, qaçqınların və məcburi köçkünlərin doğma yerlərinə qayıtmasının təmin edilməsinə dair tələblərini bir daha bildirdilər.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən Minsk Qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini bir daha qeyd etdilər.

Tərəflər Avropa İttifaqının, Avropa Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində səylərini alqışladılar, onların fəaliyyətinin münaqişənin həll olunması prosesinə müsbət təsir göstərəcəyinə inandıqlarını bildirdilər.

Tərəflər Cənubi Qafqazdakı sabitlik və əməkdaşlığa maneə törədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və tez bir zamanda həllinin zəruriliyini bir daha ifadə etdilər.

Tərəflər Kiprdə beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənən hərtərəfli həlli nəzərdə tutan razılığın həyata keçirilməməsindən və nadir bir fürsətin əldən verilməsindən təəssüfləndiklərini bildirdilər. Tərəflər Kipr türklərinin cəsarətli mövqeyini məmnunluqla qəbul etdiklərini və Birləşmiş Millətlər Təşkilatının Baş katibinin məruzəsində qeyd olunduğu kimi, onların təcrid olunmasına yönəlmiş maneə və sədlərin aradan qaldırılması istiqamətində səylərin dəstəklənməsinin vacibliyinə inandıqlarını bildirdilər.

Tərəflər Avro-Atlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı və Azərbaycanın təqdim etdiyi "Fərdi tərəfdaşlıq üzrə əməliyyatlar planı" ilə əlaqədar qarşılıqlı sıx fəaliyyəti dəstəklədiklərini bildirərək, belə proqramların regional təhlükəsizliyin və sabitliyin möhkəmlən-dirilməsində mühüm rol oynadığı baxımından NATO və Avropa təhlükəsizlik sistemi strukturları ilə ikitərəfli və çoxtərəfli kon-

tekstdə əməkdaşlığa böyük əhəmiyyət verdilər.

Tərəflər Avropanın qonşuluq siyasətinin Cənubi Qafqazda sülh, sabitlik və əmin-amanlığın bərpa olunmasına töhfə verəcəyi fikri ilə razılaşdılar.

Tərəflər eyni zamanda bu siyasətin Azərbaycanın, o cümlədən bütün Cənubi Qafqaz dövlətlərinin Avropaya inteqrasiyasına müsbət təsir göstərəcəyini məmnunluqla qeyd etdilər, bu prosesin müəyyən etdiyi müasir dəyər və ideyalara bağlı olduqlarını təsdiq edərək, bu müştərək dəyərlər zəminində birlikdə fəaliyyət göstərəcəklərini bəyan etdilər.

Tərəflər mövcud problemləri və münaqişələri həll edərək, regiondakı bütün dövlətlərin iştirakı ilə Cənubi Qafqaz və Xəzər hövzəsinin sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonası olmasına hərtərəfli səy göstərəcəklərini vurğuladılar.

Tərəflər səbəbi və kim tərəfindən törədilməsindən asılı olmayaraq, hər cür terror aktını qətiyyətlə pisləd iklərini təsdiq edərək, terrorçuluqla mübarizənin ümumi səylər və beynəlxalq əməkdaşlıq əsasında aparılması zərurəti-nə əmin olduqlarını ifadə edərək, terrorçuluqla mübarizədə əməkdaşlığı inkişaf etdirmə istiqamətində qətiyyətli olduqlarını bir daha qeyd etdilər.

Tərəflər mütəşəkkil cinayətkarlıq, korrupsiya, qanunsuz miqrasiya, insan alveri, qeyri-qanuni maliyyə əməliyyatları, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, zəhərli kimyəvi maddələrin, silahların, partlayıcı vasitələrin qanunsuz dövriyyəsi, hava quldurluğu və qaçaqmalçılıqla mübarizədə əməkdaşlığın zəruri olduğunu bir daha qeyd etdilər.

Tərəflər beynəlxalq təşkilatlarda təmsilçilik çərçivəsində aralarında ənənəvi hal almış əməkdaşlıqdan məmnun olduqlarını ifadə etdilər.

Türkiyə tərəfi bu çərçivədə 2009-2010-cu illər üzrə BMT Təhlükəsizlik Şurasına müvəqqəti üzvlük namizədliyinə Azərbaycan tərəfindən göstərilən dəstəyə görə öz minnətdarlığını bildirdi və öz növbəsində Azərbaycanın namizədliyini 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvlüyünə dəstəkləyəcəyini qeyd etdi.

Türkiyə tərəfi, eyni zamanda, Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qəbul olunmasını dəstəkləyərək, onun bu istiqamətdə atdığı addımları məmnunluqla vurğuladı.

Azərbaycan tərəfi Azərbaycanda iqtisadi islahatların nəticələrini və bu sahədə əldə olunmuş inkişaf meyillərini, habelə yoxsulluğun azaldılması proqramının həyata keçirilməsini bildirdi və Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin dərinləşməsi haqqında məlumat verdi. Türkiyə tərəfi Azərbaycanda həyata keçirilən islahatları məmnunluqla ifadə edərək, hökumətin iqtisadi inkişafın təmin edilməsinə yönəldilmiş səylərini dəstəklədiyini bildirdi.

Tərəflər TRACECA və İNOQEYT proqramlarının, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin müvəffəqiyyətlə inkişaf etdirilməsi üçün sıx əməkdaşlığın əhəmiyyətini vurğuladılar.

Tərəflər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində həyata keçirilən əməkdaşlıqdan məmnunluq ifadə edərək, sözügedən sıx əməkdaşlığın davam etdirilməsinə dair razılığa gəldilər.

Tərəflər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri layihələrinin həyata keçirilməsinin beynəlxalq əhəmiyyətini qeyd edərək, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin istismarının cari ildə başlanması ümidi və inamı ilə neft kəmərinə ilk neftin 25 may 2005-ci ildə doldurulmasını məmnunluqla qeyd etdilər.

Tərəflər, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsində Qazaxıstanın tezliklə iştirakı ilə əlaqədar səylərini dəstəklədiklərini vurğuladılar.

Tərəflər ətraf mühitin qorunmasının təmin edilməsinə yönələn birgə tədbirlərə əlverişli şəraitin yaradılması zərurətini bir daha qeyd etdilər.

Tərəflər mədəniyyət, elm, təhsil və səhiyyə sahələrində əməkdaşlığın genişlənməsi üçün əlavə tədbirlərin görülməsi zərurətini bildirdilər, hər iki ölkənin elm, ədəbiyyat və incəsənət xadimləri və digər mütəxəssisləri və kütləvi informasiya vasitələri arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsinin vacibliyini vurğuladılar.

Tərəflər turizm, gənclər və tələbələr, həmkarlar təşkilatları arasında əməkdaşlığın yaradılmasını və genişləndirilməsini məmnunluqla alqışladılar.

Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Baş naziri əminliklərini bildirdilər ki, qarşılıqlı etimad ruhunda həm ikitərəfli münasibətlər sahəsində, həm də beynəlxalq səviyyədə sıx əməkdaşlıq hər iki xalqın və dövlətin maraqlarına cavab verir, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Bu Birgə Kommünike Bakı şəhərində 30 iyun 2005-ci il tarixində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
İLHAM ƏLİYEV	*RƏCƏB TAYYİP ƏRDOĞAN*

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında" 2005-ci il iyunun 30-da Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1007-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti iki ölkə arasında iqtisadi və sosial əməkdaşlığın inkişaf etdirilməsi üçün razılığa gəlmişlər. Əməkdaşlıq Proqramı Azərbaycan Respublikası adından İqtisadi İnkişaf Nazirliyi və Türkiyə Respublikası adından Türkiyə Respublikası Baş Nazirinin Aparatı Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyi tərəfindən koordinasiya ediləcəkdir.

Türkiyə Respublikası Hökuməti Azərbaycan Respublikasının dövlət və özəl təşkilatlarına, layihə-smeta işləri daxil olmaqla, texniki yardım göstərəcək və təlim təşkil edəcəkdir. Tərəflər aşağıda göstərilən sahələrdə layihənin müəyyən edilməsi və hazırlanması üçün mütəxəssislər təyin edəcəklər. Adı çəkilən sahələr aşağıda göstərilən məsələləri əhatə edəcək, lakin bunlarla məhdudlaşmayacaqdır:

1. Enerji
2. İnfrastruktur (nəqliyyat, telekommunikasiya sistemləri və s.)
3. Özəlləşdirmə, bazar iqtisadiyyatına keçid dövründə reabilitasiya proqramları
4. Maliyyə sistemi
5. Kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı
6. Sənaye obyektlərinin yenidən qurulması
7. Kiçik və orta müəssisələr
8. Yerli idarəetmə orqanları
9. Turizm
10. Səhiyyə
11. Ekologiya
12. Təhsil, sosial və mədəni sahələrdə əməkdaşlıq
13. Layihənin baxılması və satın alınması
14. Beynəlxalq təşkilatlarla (Dünya Bankı, BMT və s.) əlaqələr
15. Marketinq və xarici ticarət

Türkiyə Respublikasının öhdəlikləri:

a) Layihə və proqramların həyata keçirilməsində istifadə olunacaq bir proqram koordinasiya ofisinin (PKO) təşkili, fərdi kompüterlərin və digər ofis avadanlığının təmin olunması;

b) PKO üçün yerli personal daxil olmaqla ehtiyac duyulan ofis personalının işə qəbul edilməsi, maaşların ödənilməsi;

c) sahə üzrə işlərdə istifadədən ötrü PKO üçün nəqliyyat vasitələrinin satın alınması və icarəyə götürülməsi;

d) türk mütəxəssislərinin maaşlarının və beynəlxalq xətlərdə nəqliyyat xərclərinin ödənilməsi;

e) layihə-smeta işlərinin maliyyələşdirilməsi;

f) texniki yardım layihələrinin və təlim proqramlarının birgə maliyyələşdirilməsi;

g) xarici yardımların koordinasiya olunması üçün məsləhətçilərlə təmin etmə;

h) informasiya təminatı və informasiya sistemlərinin qurulması üçün dəstək verilməsi;

i) azərbaycanlı mütəxəssislərə Türkiyədə işlədikləri müddətdə Türkiyədəki xəstəxanalarda tibbi xidmətlərin göstərilməsi.

Azərbaycan Respublikasının öhdəlikləri:

a) Azərbaycan-Türkiyə mütəxəssis qrupları tərəfindən layihələrin müəyyən edilməsi, planlaşdırılması və başa çatdırılması zamanı bütün informasiya tələbatının ən münasib şəkildə ödənilməsi;

b) Azərbaycan mütəxəssislərinin xərclərinin ödənilməsi;

c) PKO üçün münasib ofis yerinin müəyyən edilməsi;

d) PKO-nun su, elektrik, qaz və istiliklə təmin edilməsi;

e) PKO-nun rəsmi qeydiyyatdan keçməsi işlərinə kömək göstərilməsi;

f) tibbi xidmət sahəsində TİKA personalı və mütəxəssisləri üçün Nazirlər Kabinetinə nəzərdə tutulan imkanların yaradılması;

g) Azərbaycanda olduqları müddətdə TİKA Proqramı Koordinatoruna digər beynəlxalq təşkilatların nümayəndələri ilə eyni statusun verilməsi və digər hüquqlardan istifadə imkanlarının təmin edilməsi;

h) Azərbaycanda olduqları müddətdə TİKA Proqramı Koordinatoruna və ailə üzvlərinə, bənzər beynəlxalq təşkilatların nümayəndələri və ailə üzvlərinə nəzərdə tutulan eyni imtiyazlardan eyni şərtlər əsasında istifadə imkanlarının təmin edilməsi;

i) TİKA tərəfindən Azərbaycan Respublikasına yardım məqsədilə və ya PKO-nun təşkilində istifadə etmək üçün Azərbaycana gətiriləcək bütün malların gömrük vergisindən, əlavə dəyər vergisindən və bütün rüsumlardan azad edilməsi.

Bu Protokol çərçivəsində hazırlanacaq layihə və proqramların təfərrüatı və tabe olacaq əsaslar iki tərəfin koordinasiya bölmələri, TİKA və İqtisadi İnkişaf Nazirliyinin də iştirak edəcəyi müqavilələrdə göstəriləcəkdir.

Bu Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Protokol bir il müddətinə bağlanılır. Tərəflərdən biri diplomatik kanallar vasitəsilə Protokolun qüvvəsinin başa çatmasına 1 (bir) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi 1 (bir) il müddətinə uzadılacaqdır.

Bu Protokol Bakı şəhərində 30 iyun 2005-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və

türk dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*BEŞİR ALATAY*
Baş nazirin müavini	*Dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında" 2005-ci il iyunun 30-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1008-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti,

iki dövlət arasında tarixən formalaşmış qardaşlıq münasibətlərini nəzərə alaraq,

elmi və mədəni əməkdaşlığın və mübadilənin xalqlar arasında qarşılıqlı anlaşmaya kömək göstərdiyinə, həmçinin dövlətlərarası əlaqələrin möhkəmlənməsinə təsir göstərdiyinə əmin olaraq,

elm, ədəbiyyat və incəsənət əsərlərindən istifadə etməklə mədəni sərvətlərin qarşılıqlı mübadiləsi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə çalışaraq,

milli mədəni potensialın formalaşmasında, beynəlxalq mədəni mübadilədə, həmçinin bərabər hüquqlu dövlətlərarası ticarət-iqtisadi və elmi-texniki əlaqələrin inkişaf etdirilməsində müəlliflik hüququ və əlaqəli hüquqların müasir rolunu nəzərə alaraq,

bu məqsədlə müəlliflərin və əlaqəli hüquqlara malik olanların hüquqlarının qorunması üçün qarşılıqlı, əlverişli şəraitin yaradılmasının vacibliyini dərk edərək,

qarşılıqlı münasibətləri inkişaf etdirmək istəyini rəhbər tutaraq və Tərəflərin hər ikisinin iştirakçısı olduğu "Ədəbi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası" na (1971-ci il Paris aktı) əlavə olaraq,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Tərəflərdən hər biri digər Tərəfin fiziki və hüquqi şəxslərinə və onların hüquqi varislərinə məxsus əsərlərə və əlaqəli hüquqların obyektlərinə, ilk dərc olunma yerindən asılı olmayaraq, müəlliflik hüququnu və əlaqəli hüquqları tanıyır. Tərəflər həmin hüquqların qorunmasını daxili qanunvericiliyin yaratdığı əsaslarla təmin edirlər.

Maddə 2

Tərəflər bu Sazişə və üzvü olduqları və ya olacaqları digər beynəlxalq müqavilələrə uyğun olaraq, qarşılıqlı fayda və bərabərlik əsasında elm, ədəbiyyat və incəsənət əsərlərinə olan hüquqların qorunması və istifadəsi sahə-sində əməkdaşlığı həyata keçirir və inkişaf etdirirlər.

Maddə 3

Tərəflər digər Tərəfin vətəndaşları və hüquqi şəxsləri tərəfindən yaradılmış elm, ədəbiyyat və incəsənət əsərlərindən öz ərazilərində istifadəni təşviq edirlər.

Maddə 4

Tərəflərin əməkdaşlığı:

müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinə olan hüquqların qorunması və istifadəsi ilə bağlı məsələlərin tənzimlənməsinə;

müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində milli qanun-vericiliyin uyğunlaşdırılmasına;

müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində informasiya, normativ aktlar və digər sənədlər, həmçinin təcrübə və mütəxəssis mübadiləsinə yönəldiləcək.

Maddə 5

Tərəflər qarşılıqlı üzv olduqları "Ədəbi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası"ndan (1971-ci il Paris aktı) irəli gələn öhdəliklərinin əhəmiyyətini təsdiq edir, həmçinin qarşılıqlı olaraq digər Tərəfin fiziki və hüquqi şəxslərinin müəlliflik hüququ və əlaqəli hüquqlarının tanınmasına və qorunmasına münasibətdə ikitərəfli müqavilə ilə hər hansı üçüncü Tərəfə verdiyindən az olmayan əlverişli rejim təqdim olunmasını təmin edirlər.

Maddə 6

5-ci maddənin əlverişli rejim üzrə müddəaları tərəflərin qarşılıqlı səmərəlilik əsasında hər hansı üçüncü Tərəfə verdiyi imtiyazlara münasibətdə tətbiq olunmur.

Maddə 7

Tərəflər bundan sonra da müəlliflik hüququ və əlaqəli hüquqların "Əbədi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası"nın, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qanunsuz təkrar istehsalından qorunması haqqında Konvensiyasının, İfaçıların, fonoqram istehsalçılarının yayım-təşkilatlarının hüquqlarının qorunması haqqında Roma Konvensiyasının tə-

ləbləri səviyyəsində qorunmasının zəruriliyini təsdiq edir və milli qanunvericilik aktlarının müvafiq beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılması üçün tədbirlər görəcəklər.

Maddə 8

Bu Sazişin tətbiqindən irəli gələn bütün ödəniş və hesablaşmalar Tərəflərin hər birinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq sərbəst dönərli valyuta ilə həyata keçiriləcək, lakin müvafiq hüquq sahibinin arzusu ilə ödəniş və hesablaşmalar ödənişi aparan Tərəfin milli valyutası ilə aparıla bilər.

Maddə 9

Tərəflər öz ölkələrinin bu Sazişin əməli tətbiqi üçün əhəmiyyət kəsb edən qanunları və digər normativ hüquqi aktları barədə bir-birinə məlumat verəcəklər.

Maddə 10

Müəlliflik hüquqlarının yaranması, məzmunu və onlara xitam verilməsi ərazisində bu hüquqların istifadəsi, yaxud pozulması faktının müəyyən edildiyi Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 11

Bu Sazişin həyata keçirilməsi gedişində Tərəflərin bir-birinə göndərəcəyi bütün sənədlər Azərbaycan və türk dillərindən birində göndərilir.

Maddə 12

Bu Sazişin həyata keçirilməsi üçün aşağıdakı orqanlar məsuldurlar:

Azərbaycan Respublikasında - Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi;

Türkiyə Respublikasında - Mədəniyyət və Turizm Nazirliyi.

Müvafiq orqanlar arasında əməkdaşlığın qayda və şərtləri onlar arasında bağlanmış xüsusi protokollarla müəyyən edilir.

Maddə 13

Bu Sazişdən irəli gələn və ya onun yerinə yetirilməsi ilə əlaqədar məsələlər üzrə fikir ayrılığının yarandığı halda Tərəflərin nümayəndələri müvafiq məsləhətləşmələr keçirəcək və bu fikir ayrılıqlarının tənzimlənməsi üçün zəruri səylər göstərəcəklər.

Maddə 14

Bu Saziş müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində digər dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlıqda Tərəflərin iştirakına mane olmur.

Maddə 15

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Həmin protokollar bu Sazişin 16-cı maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 16

Bu Saziş Tərəflərin öz dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin digər Tərəfdən alındığı tarixdən qüvvəyə minir və beş il müddətində qüvvədə qalır.

Əgər Tərəflərdən biri hər növbəti müddətin başa çatmasından altı ay əvvəl Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bakı şəhərində, 30 iyun 2005-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan və türk dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABİD ŞƏRİFOV	*BEŞİR ALATAY*
Baş nazirin müavini	*Dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2005-ci il iyunun 30-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1009-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq), onların müvafiq ərazilərindən gələn (idxal), yaxud keçən (tranzit) diri heyvanların və heyvan mənşəli məhsulların dövriyyəsinin sürətləndirilməsini arzulayaraq,

heyvanların və insanların sağlamlığını qorumaq və yoluxucu heyvan xəstəliklərinin, eləcə də yararsız məhsulların ölkə ərazisinə daxil olmasının qarşısını almaq öhdəliyini qeyd edərək,

baytarlıq sahəsində ikitərəfli texniki əməkdaşlığın inkişafını təmin etmək məqsədilə,

beynəlxalq sazişlərdən və konvensiyalardan irəli gələn öhdəliklərinə xələl gətirmədən aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

1. Diri heyvanların və heyvan mənşəli məhsulların (bundan sonra "yük" adlandırılacaq) idxalı və tranzitinə aşağıdakı şərtlərdən asılı olaraq icazə verilir:

a) idxal edən ölkənin, yaxud tranzit ölkənin müvafiq baytarlıq tələb və şərtlərinə uyğun;

b) icazə, yük göndərişindən əvvəl, idxal edən ölkənin, yaxud müvafiq olaraq tranzit ölkənin səlahiyyətli orqanları tərəfindən verilir;

c) yüklər türk, Azərbaycan və ya ingilis dilində tərtib edilməklə idxal edən (yaxud müvafiq olaraq tranzit) ölkənin tələblərinə uyğun Baytarlıq Sertifikatları ilə müşayiət olunur.

2. 1-ci bəndin müddəalarının həyata keçirilməsi məqsədilə Razılığa gələn Tərəflər aşağıdakılar üzrə öhdəlik götürürlər:

a) yüklərin onların ərazisinə daxil olmasını (yaxud onların ərazisindən tranzit keçməsini) nizamlamaq üçün baytarlıq şərtləri haqqında bir-birini məlumatlandırmaq;

b) yüklərin idxalına, yaxud onların ərazisindən tranzit keçməsinə tətbiq olunan Baytarlıq Sertifikatları nümunələrinin mübadiləsini həyata keçirmək və onlarda baş verən dəyişikliklər barədə bir-birinə dərhal məlumatlar vermək.

Maddə 2

1. Əgər sərhəd və ya son qəbul məntəqəsində yükün Baytarlıq Sertifikatında nəzərdə tutulan şərtlərində uyğunsuzluq aşkar edilmişsə, o halda yükü idxal edən Razılığa gələn Tərəfin müvafiq orqanları özlərinin milli qanunvericiliyi və qaydalarına uyğun tədbirlər tətbiq edə bilərlər.

2. 1-ci bənddə göstərilmiş vəziyyətin aşkar edildiyi halda, idxal edən Razılığa gələn Tərəfin səlahiyyətli orqanları yük göndərən Razılığa gələn Tərəfin müvafiq orqanlarını baş vermiş uyğunsuzluq və tətbiq olunan tədbirlər barədə lazımi qaydada məlumatlandıracaqlar.

Maddə 3

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları aşağıdakılar üzrə öhdəlik götürürlər:

a) özlərinin müvafiq ərazilərində baş verən və barəsində mütləq məlumat verilməsi vacib olan xəstəliklərə, xüsusilə də ziyana məruz qalmış regionların adları və kodları, eləcə də yoluxmuş heyvanların sayı və növlərinə dair Aylıq Hesabatların mübadiləsini həyata keçirmək. Aylıq Hesabatlar elektron vasitəsilə, ya elektron poçt, ya da internet vasitəsilə ötürülə bilər;

b) Beynəlxalq Epizootiya Bürosunun (BEB) A Siyahısına daxil olan hər hansı yoluxucu xəstəliyin yayılması barədə, eləcə də bu xəstəliyin mənşəyi barədə ilk açıqlama verildikdən sonra bir-birinə dərhal yazılı surətdə məlumat vermək;

c) heyvanları bu yoluxucu xəstəliklərdən mühafizə etmək üçün görülən qoruyucu və nəzarət tədbirlərinə dair məlumat mübadiləsi həyata keçirmək.

2. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bununla yanaşı aşağıdakılar üzrə öhdəlik götürürlər:

a) FAO və BEB/Aİ/FAO Üçtərəfli Qrupunun tövsiyələri çərçivəsində yoluxucu xəstəliklərə nəzarət məqsədilə birgə əməkdaşlığı və texniki layihələri təşviq etmək;

b) transsərhəd heyvan xəstəliklərinin qarşısının alınması və onlara nəzarət məqsədilə özlərinin sayıqlığını artırmaq və öz səylərini, eləcə də ehtiyat qüvvələrini cəmləmək.

Maddə 4

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları baytarlıq sahəsində ikitərəfli və çoxtərəfli regional əməkdaşlığı xüsusilə aşağıdakı vasitələrlə təşviq edəcəklər:

a) baytarlıq sahəsinə aid olan təlimatların, peşə ilə əlaqədar nəşrlərin, yaxud elmi nəşrlərin mübadiləsi;

b) heyvan mənşəli məhsullar üzrə özlərinin cari monitorinq planlarının, eləcə də bu planların həyata keçirilməsindən əldə olunmuş illik nəticələrin mübadiləsi;

c) qarşılıqlı maraq doğuran heyvan və insan sağlamlığı məsələlərinin araşdırılmasında və öyrənilməsində iştirak edən elmi tədqiqat institutları və diaqnostika laboratoriyaları arasında əməkdaşlığın sadələşdirilməsi;

d) yoluxucu heyvan xəstəliklərinin qarşısının alınması və nəzarəti sahələrində qarşılıqlı texniki yardımın və təcrübə mübadiləsinin genişləndirilməsi;

e) təxirəsalınmaz hallarda və Razılığa gələn Tərəflərdən birinin sorğusuna əsasən, diaqnostika üsullarının tətbiqi sahəsində təcrübə mübadiləsi ilə yanaşı, sınaqların və ya diaqnostikanın aparılması məqsədilə patogenlərin növlərinin mübadiləsinin həyata keçirilməsi;

f) baytarlıq xidmətlərinin təşkili və vəzifələri, ixracat və sertifikatlaşdırılma prosedurları, xəstəliklərin aşkar olunması və bu barədə məlumatların verilməsi prosedurları, heyvanların sağlamlığının vəziyyəti və informasiya sistemi sahələrində qarşılıqlı anlaşma və etibarlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə bir-birinin milli baytar mütəxəssisləri mübadiləsinin həyata keçirilməsi;

g) Tərəflər üçün əhəmiyyətli və qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunması məqsədilə mütəxəssislərin hər il planlaşdırılmış görüşlərinin təşkil olunması, həmçinin zərurət yarandıqda və Razılığa gələn Tərəflərdən birinin yazılı müraciəti olduqda, epizootiya törədən yoluxucu xəstəliklərin qarşısının alınması və ona nəzarət edilməsi məqsədilə həyata keçirilən tədbirlərin əlaqələndirilməsi üçün baş baytar rəsmilərinin fövqəladə görüşlərinin keçirilməsi.

2. 1-ci bənddə və xüsusilə (f) və (g) yarımbəndlərində qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclər aşağıdakı yarımbəndlərdə göstərilən qaydalara uyğun olaraq ödəniləcək:

a) 1-ci bəndin (f) yarımbəndində qeyd olunan mütəxəssislərin səfəri təklif edən Razılığa gələn Tərəfin rəsmi dəvəti əsasında olduqda, təşkilati xərcləri, həmçinin səfər edən mütəxəssislərin nəqliyyat və yerləşdirilmə xərclərini onları qəbul edən Razılığa gələn Tərəf ödəyəcək;

1-ci bəndin (f) yarımbəndində qeyd olunan mütəxəssislərin səfəri onları göndərən Razılığa gələn Tərəfin rəsmi müraciəti əsasında olduqda, səfərlə bağlı təşkilati xərcləri qəbul edən Razılığa gələn Tərəf ödəyəcək, səfər edən mütəxəssislərin nəqliyyat və yerləşdirilmə xərclərini isə onları səfərə göndərən Razılığa gələn Tərəf ödəyəcək;

b) 1-ci bəndin (g) yarımbəndində qeyd olunan görüşlər qarşılıqlı razılıq əsasında təşkil olunacaq və görüşün təşkilati xərclərini qəbul edən Razılığa gələn Tərəf ödəyəcək, səfər edən mütəxəssislərin yerləşdirilmə və yemək xərclərini onların mənsub olduqları Razılığa gələn Tərəf ödəyəcək.

Maddə 5

Sazişin həyata keçirilməsi məqsədilə, Razılığa gələn Tərəflərin milli səlahiyyətli orqanları aşağıdakılardır:

a) Azərbaycan Respublikası üçün - Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq şöbəsi, Bakı;

b) Türkiyə Respublikası üçün - Mühafizə və Nəzarət Baş İdarəsi, Kənd Təsərrüfatı və Kənd Məsələləri üzrə Nazirlik (Tarım və Köyişleri Bakanlığı), Ankara.

Maddə 6

Sazişin həyata keçirilməsindən irəli gələn mübahisələr, ilk növbədə, Razılığa gələn Tərəflərin qeyd olunan milli səlahiyyətli orqanlarının nümayəndələri tərəfindən həll ediləcək.

Həll olunmayan mübahisəli məsələlər diplomatik kanallar vasitəsilə həll olunacaq.

Maddə 7

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə istənilən əlavə və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayn-ayrı protokollar formasında rəsmiləşdirilir.

Maddə 8

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Razılığa gələn Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonra otuzuncu gün qüvvəyə minir.

Bu Saziş 1 il müddətinə bağlanılır və müvafiq qüvvədə olma müddətinin bitməsinə 2 ay qalmış Razılığa gələn Tərəflərdən biri diplomatik kanallar vasitəsilə yazılı şəkildə onu ləğv etməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 1 il müddətinə uzadılır.

Bu Saziş Bakı şəhərində, 30 iyun 2005-ci ildə üç əsl nüsxədə, hər biri Azərbaycan, türk və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İSMƏT ABASOV
Kənd təsərrüfatı naziri

TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

MEHMET AYDIN
Dövlət naziri

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" 2005-ci il aprelin 21-də Kişineu şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1011-IIQ

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

BMT-nin insan hüquqları sahəsində əsas sənədlərinə və Beynəlxalq Əmək Təşkilatı çərçivəsində işlənmiş prinsiplərə tərəfdar olduqlarından çıxış edərək,

Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi sahəsində hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıdakı terminlər göstərilən mənanı daşıyır:

"gediş Tərəfi" - işlə təmin edən Tərəfi dövlətinin ərazisinə işə düzəlmək məqsədilə gedən vətəndaşların mənsub olduğu Tərəfin dövləti;

"işlə təmin edən Tərəf - gediş Tərəfi vətəndaşlarının əmək müqaviləsi (kontraktı) əsasında öz ərazisində işə düzəlmələrinə icazə verən Tərəfin dövləti;

"əməkçi miqrant" - Tərəflərdən birinin dövlətinin ərazisində daimi yaşayan və vətəndaşı olmadığı və daimi yaşamadığı digər Tərəfin dövlətinin ərazisində qanuni əsaslarla qalaraq, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan şəxs;

"ailə üzvü" - əməkçi miqrantla nikahda olan şəxs, həmçinin onun himayəsində olan uşaqları və işlə təmin edən Tərəfin qanunvericiliyinə müvafiq olaraq ailə üzvü sayılan digər şəxslər;

"işəgötürən" - mülkiyyət formasından, fəaliyyət növündən və sahə mənsubiyyətindən asılı olmayaraq qanunvericiliklə müəyyən olunmuş qaydada muzdlu əməkdən istifadə edən müəssisə, idarə və ya təşkilat, yaxud onlar tərəfindən səlahiyyət verilmiş qurum və ya fiziki şəxs;

"ezam edilən əməkçi" - müəyyən işin yerinə yetirilməsi üçün işəgötürən tərəfindən digər Tərəfin dövləti ərazisinə ezam olunmuş, Tərəflərin birinin dövlətinin vətəndaşı;

"təcrübə keçən" - Tərəf dövlətinin birinin vətəndaşı olan əsas peşə hazırlığını almış və ikitərəfli sazişlərə müvafiq olaraq, peşə hazırlığını təkmilləşdirmək və təcrübə qazanmaq məqsədilə digər Tərəfin dövlətinin ərazisinə göndərilən məzun.

Maddə 2

Bu Saziş əməkçi miqrantlara və onların ailə üzvlərinə şamil edilir. Bu Saziş tətbiq edilmir:

- qaçqınlara;
- qısa müddətə yarışlara, qastrollara və s. gedən idmançılara, artistlərə və digər yaradıcı peşə sahibləri olan şəxslərə;
- dənizçilərə;
- təhsil almaq məqsədilə gəlmiş şəxslərə;
- müddəti üç aydan çox çəkməyən ezamiyyətdə olan şəxslərə;
- təcrübə keçənlərə;
- diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşlarına;
- dövlət qeydiyyatından keçmiş dini təşkilat və cəmiyyətlərdə dini fəaliyyətlə məşğul olan şəxslərə;
- Tərəflərin dövlətlərinin ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən pofessor-müəllim heyətinə, mühazirəçilərə və ali təhsil müəssisələrində elmi tədqiqat işləri aparan mütəxəssislərə.

Maddə 3

Bu Sazişin müddəalarının yerinə yetirilməsində Tərəfləri təmsil edən səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası tərəfindən - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Moldova Respublikası tərəfindən - Miqrasiya Milli Bürosudur.

Bu Sazişin müddəalarının tətbiqi ilə bağlı ortaya çıxan bütün məsələlər səlahiyyətli orqanlar arasında ikitərəfli məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 4

Milli əmək bazarındakı vəziyyətdən asılı olaraq və müvafiq ikitərəfli sazişlər əsasında hər bir Tərəfin dövləti öz ərazisində yeni əməkçi miqrantların işlə təmin olunmasını məhdudlaşdıra bilər.

Maddə 5

Tərəflər əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarına hörmətlə yanaşmağı və onların hüquqlarının müdafiəsini təmin etməyi, cinsinə, yaşına, irqinə, dilinə, etnik və sosial mənşəyinə, dini və siyasi baxışlarına, vətəndaşlığına, mülkiyyət və ailə vəziyyətinə və eləcə də digər əlamətlərə görə istənilən formada ayrı-seçkiliyə yol verməmək öhdəliyini öz üzərinə götürürlər.

Maddə 6

Əməkçi miqrantın işlə təmin edən Tərəfin ərazisinə gəlməsi, onların əmək fəaliyyəti, qalması və qayıtması işlə təmin edən Tərəfin bu məsələləri tənzimləyən mövcud qanunvericiliyinə və ikitərəfli hökumətlərarası Sazişlərə uyğun həyata keçirilir.

Maddə 7

Əməkçi miqrantların əmək fəaliyyəti işlə təmin edən Tərəfin milli qanunvericiliyinə uyğun olaraq, işəgötürənlə bağlanmış əmək müqaviləsi (kontraktı) əsasında həyata keçirilir.

Tövsiyə olunur ki, əmək müqaviləsində (kontraktında) Tərəflərin öhdəliklərinə dair işəgötürən və əməkçi miqrant haqqında əsas məlumatlar, əməkçi miqrantın işə düzəldiyi peşə/ixtisas, işin xarakteri, əmək şəraiti və əmək haqqının ödənilməsi, iş vaxtının və istirahət vaxtının müddəti, yaşayış şəraiti, nəqliyyat xərclərinin ödənilməsi qaydaları, tibbi sığorta və istehsalatda bədbəxt hadisələrdən sığorta, əmək və istehsalat mübahisələrinin həll edilməsi üsulları, əmək müqaviləsinin (kontraktının) müddəti və onun ləğv edilməsi şərtləri haqqında məlumatlar əks etdirilməlidir.

İşəgötürənlər, yalnız işlə təmin edən Tərəfin mövcud qanunvericiliyinə uyğun verilmiş işə düzəlmə icazəsi olan əməkçi miqrantları işə qəbul etmək hüququna malikdir.

Maddə 8

Bu Saziş qüvvədən düşdüyü halda, onun əmək müqavilələrinə (kontraktlarına) aid olan müddəaları əməkçi miqrantlarla işəgötürənlər arasında bağlanmış əmək müqavilələrinin (kontraktlarının) müddəti başa çatanadək qüvvədə qalır.

Maddə 9

Əmək müqaviləsində (kontraktında) başqa hallar nəzərdə tutulmadıqda, əməkçi miqrantın daimi yaşadığı yerdən işlə təmin edən Tərəfə getməsi və geriyə qayıtması ilə bağlı nəqliyyat xərcləri, eləcə də yerdəyişmə zamanı xəstəlik və ya zəruri stasionar müalicə xərcləri işəgötürən tərəfindən ödənilir.

Əmək müqaviləsində (kontraktında) başqa hallar nəzərdə tutulmadıqda, əmək müqaviləsi (kontraktı) əməkçi miqrantın təşəbbüsü ilə ləğv edildikdə yuxarıda qeyd olunan bütün xərclər əməkçi miqrant tərəfindən ödənilir.

Maddə 10

Əməkçi miqrantlar işlə təmin edən Tərəfin qanunvericiliyi ilə müəyyən olunmuş hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirirlər, eləcə də tibbi, mədəni, idman, müalicə və digər müəssisələrin xidmətlərindən istifadə edirlər.

Maddə 11

Əməkçi miqrantlar əmək şəraiti, işçilər tərəfindən ödənilən vergi, rüsum və yığımlara münasibətdə işlə təmin edən Tərəfin qanunverici və ya inzibati müddəaları, eləcə də kollektiv müqavilələri və ya ənənələrinə uyğun milli işçilər üçün nəzərdə tutulan qaydadan az əlverişli olmayan rejimdən istifadə edirlər.

Maddə 12

Əmək müqaviləsində (kontraktında) başqa hallar nəzərdə tutulmadıqda, işəgötürən əməkçi miqrantları və onların ailə üzvlərini müvafiq sanitar tələblərə cavab verən münasib yaşayış sahəsi ilə təmin edir.

Maddə 13

Əməkçi miqrantlar işlə təmin edən Tərəfin milli qanunvericiliyi ilə nəzərdə tutulan şərtlərlə sosial təminat (tibbi yardım, xəstəliyə görə müavinət, hamiləliyə və doğuşa görə müavinət, istehsalatda bədbəxt hadisələrə və peşə xəstəliyinə görə müavinət, dəfn üçün müavinət) hüququna malikdirlər.

Maddə 14

İşəgötürən, əməkçi miqrantların işlə təmin edən Tərəfin vətəndaşlarının hüquqları ilə bərabər əməyin mühafizəsi hüququna zəmanət verir.

Əmək öhdəliklərini yerinə yetirərkən aldığı xəsarətə, peşə xəstəliyi və digər sağlamlığın pozulması halları nəticəsində əməkçi miqranta dəymiş zərərin ödənilməsi, işlə təmin edən Tərəfin mövcud qanunvericiliyinə uyğun olaraq, həyata keçirilir.

Maddə 15

Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, müəyyən güzəştlərə əsas verən staj da daxil olmaqla əmək stajını, həmçinin əməkçi miqrantın əmək fəaliyyəti müddətində əldə etdiyi ixtisası üzrə əmək stajını qarşılıqlı olaraq tanıyırlar.

Əməkçi miqrant işlə təmin edən Tərəfin ərazisini birdəfəlik tərk etdikdə işəgötürən ona əmək fəaliyyətinin müddəti və həmin dövr üçün əməyin ödənilməsi, eləcə də sığorta haqlarının ödənişi dövrləri barədə arayış verir.

Maddə 16

Əməkçi miqrantların pensiya təminatı ilə bağlı məsələlər Tərəflər arasında ayrıca saziş ilə tənzimlənəcəkdir.

Maddə 17

Əməkçi miqrantlar və onların ailə üzvləri milli işçilər üçün nəzərdə tutulan eyni əsas və şərtlərlə ümumi və peşə təhsili, peşə hazırlığı hüququna malikdirlər; onlara işlə təmin edən Tərəfin müvafiq ali tədris müəssisələrinə qəbulu tənzimləyən ümumi qaydalara uyğun olaraq ali təhsil almaq imkanı yaradılır.

Maddə 18

Tərəflərin dövlətlərinin qanunvericiliyi ilə müəyyən olunmuş qaydada verilmiş diplomları, sertifikatları, digər təhsil və ixtisas dərəcəsi haqqında dövlət sənədlərini Tərəflər qarşılıqlı olaraq tanıyırlar.

Maddə 19

Əməkçi miqrantlar tərəfindən işlə təmin edən Tərəfin ərazisinə əmlakın gətirilməsi və onun gediş Tərəfinə qaytarılması, həmçinin işlə təmin edən Tərəfin ərazisində qazanılmış vəsaitlər ilə əldə edilmiş malların çıxarılması Tərəflərin hər birinin dövlətində müəyyən edilmiş gömrük qaydalarına uyğun gömrük rüsumunu ödəmədən həyata keçirilir.

Maddə 20

Tərəflərin birinin ərazisində yaşayan əməkçi miqrant və onun ailə üzvləri bu Sazişin predmeti olan hər hansı bir məsələ ilə əlaqədar digər Tərəfin aidiyyəti orqanlarına birbaşa və ya yaşayış yerindəki müvafiq hakimiyyət orqanları vasitəsilə müraciət edə bilər.

Bir Tərəfin aidiyyəti orqanının sorğusu əsasında digər Tərəfin aidiyyəti orqanı milli qanunvericiliyə uyğun olaraq, arxiv materialları da daxil olmaqla, bu Sazişin yerinə yetirilməsi ilə bağlı zəruri sənədləri təqdim edir.

Maddə 21

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla müvafiq qaydada rəsmiləşdirilən və bu Sazişin 22-ci maddəsində nəzərdə tutulan müddəalara uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Tərəflər arasında bu Sazişin tətbiqi və təfsiri ilə bağlı yaranmış bütün mübahisələr və fikir ayrılıqları məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcək.

Maddə 22

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin qüvvədə olması müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş avtomatik olaraq növbəti birillik müddətlərə uzadılır.

Bu Saziş Kişineu şəhərində 21 aprel 2005-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ANDREY STRATAN*
Xarici işlər naziri	*Baş nazirinin müavini, xarici işlər naziri*

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Baytarlıq-Sanitariya Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2005-ci il aprelin 21-də Kişineu şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Baytarlıq-Sanitariya Konvensiyası" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1012-IIQ

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Baytarlıq-Sanitariya Konvensiyası

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti,

Azərbaycan - Moldova beynəlxalq əlaqələrini inkişaf etdirmək və baytarlıq sahəsində əməkdaşlığı dərinləşdirmək istəyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Konvensiyanın yerinə yetirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsini həyata keçirən Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikasından - Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətidir;

Moldova Respublikasından - Kənd Təsərrüfatı və Yeyinti Sənayesi Nazirliyinin Baş Baytarlıq Təbabəti İdarəsi və Dövlət Müfəttişliyidir.

Maddə 2

Tərəflər arasında əməkdaşlıq yoluxucu xəstəliklərin törədicilərinin keçiricisi ola bilən heyvanların, heyvan mənşəli məhsul və xammalın, yem və digər malların idxalı, ixracı

və tranziti zamanı ərazilərin epizootiyadan qorunması zərurətindən irəli gəlir. Bu məqsədlə:

1. Tərəflər beynəlxalq Epizootik Büronun siyahısında nəzərdə tutulan xəstəliklərin, qeyri-sağlam məntəqəsini göstərməklə, baş verməsi, onda olan xəstə heyvanların növü və miqdarı, xəstəliyin gedişi formaları, infeksiyanın ehtimal olunan yoluxma yolları və törədicinin tipi, həmçinin xəstəliyin yayılmasının qarşısını almaq və ləğv etmək üçün görülən tədbirlər barədə bir-birini məlumatlandırmaq öhdəliyini öz üzərinə götürürlər.

2. Tərəflər insan və heyvan sağlamlığı üçün təhlükəli olan antropozoonoz xəstəliklərin baş verməsi, heyvanlarda, yaxud heyvan mənşəli məhsullarda bioloji əlavələrin, kimyəvi maddələrin və mexaniki qarışıqların olması barədə qarşılıqlı olaraq məlumat vermək öhdəliyini öz üzərinə götürürlər.

3. Tərəflər, zərurət yarandığı təqdirdə, heyvanlarda baş vermiş xəstəliyin diaqnostikasında qarşılıqlı kömək göstərir, qüvvədə olan beynəlxalq qaydalara riayət etməklə bakteriya və virus ştamlarının qarşılıqlı mübadiləsini aparırlar.

Maddə 3

1. Bu Konvensiyada "heyvanlar" adı altında aşağıdakılar anlaşılmalıdır:

- təkdırnaqlılar (at, eşşək, qatır və s.);
- cütdırnaqlı ev və vəhşi heyvanlar (iri buynuzlu heyvanlar, qoyunlar, keçilər, donuzlar, dəvələr və s.);
- ev və vəhşi gəmiricilər (ev və çöl dovşanları, siçovullar, hind donuzları və s.);
- ev quşları (toyuqlar, hind toyuqları, qazlar, ördəklər, firəng toyuğu və s.);
- dekorativ quşlar (qırqovul, kəklik, meşə xoruzu və s.);
- ekzotik quş və heyvanlar (tutuquşular, meymunlar və s.);
- arılar;
- balıqlar, ilbizlər, xərçəngkimilər, digər onurğasızlar, tısbağalar, qurbağalar, ipəkqurdları.

2. Bu Konvensiyada "heyvanların doğum-törəmə materialları" adı altında toxum, yumurta hüceyrələri, ziqotlar və embrionlar, mayalanmış kürü anlaşılmalıdır.

3. Bu Konvensiyada "heyvan mənşəli məhsullar" adı altında aşağıdakılar anlaşılmalıdır:

- işlənilməmiş halda heyvan mənşəli xammal;
- heyvan mənşəli qida məhsulları, qida üçün istifadə olunan əlavə məhsullar (içalat, başlayaq) və hazır heyvandarlıq məhsulları;
- ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, bal və s.;
- qida üçün istifadə olunmayan heyvan mənşəli məhsullar.

4. Bu Konvensiyada "yem" anlayışı altında, tərkibində toksiki maddə olmayan və heyvanların yemlənməsi üçün istifadə edilə bilən bitki, heyvan, mineral, mikrobioloji, kimyəvi və digər mənşəli bütün yemlər anlaşılmalıdır.

5. Bu Konvensiyada göstərilməyən heyvanlar, heyvanların doğub-törəmə materialları, heyvan mənşəli məhsullar və yem ilə bağlı məsələlər hər konkret halda Tərəflərin səlahiyyətli orqanlarının rəhbərliyi tərəfindən tənzimlənir.

Maddə 4

Tərəflərin səlahiyyətli orqanları heyvanların yoluxucu xəstəlikləri ilə mübarizəsinə və profilaktikasına dair qüvvədə olan təlimatlar barədə qarşılıqlı məlumat verməlidirlər, idxal, ixrac və tranzit edilən heyvan və heyvan mənşəli məhsullara, yemlərə və dövlət baytarlıq xidmətinin nəzarətində olan di-gər yüklərə baytarlıq-sanitariya tələbləri barədə, eləcə də böyük iqtisadi itkilərlə nəticələnə biləcək yoluxmayan xəstəliklər, o cümlədən toksiki və radioaktiv maddələrin istifadəsi nəticəsində əmələ gələn xəstəliklərə qarşı tətbiq edilən tədbirlər barədə informasiya mübadiləsi etməlidirlər.

Bu Konvensiya çərçivəsində Tərəflər, yoluxma təhlükəsi olmadığı hallarda, tranzitlə daşınan heyvan mənşəli məhsulları baytarlıq nəzarətindən azad edirlər.

Maddə 5

Tərəflərin səlahiyyətli orqanları baytarlıq sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə:

1. Baytarlıq təbabəti fəaliyyəti ilə əlaqədar normativ aktlar və digər xüsusi informasiya, habelə baytarlıq təbabəti sahəsində xüsusi ədəbiyyat və dövri nəşrlərin mübadiləsini edirlər.

2. Baytarlıq təbabəti fəaliyyətinin təkmilləşdirilməsi üzrə təcrübənin və biliklərin mübadiləsi, baytar həkimlərinin, elmi işçilərin peşəkarlıq dərəcəsini artırmaq və baytar mütəxəssislərinin qarşılıqlı səfərləri üçün əlverişli şərait yaradırlar.

3. Tərəflərin dövlətlərinin ərazilərində istehsal olunan baytarlıq preparatlarının (dərmanlar, parazit əleyhinə, immunobioloji və diaqnostik vasitələr) ticarət mübadiləsinə, həmçinin birgə baytarlıq istehsal və ticarət müəssisələrinin yaradılmasına yardım göstərirlər.

Maddə 6

1. Konvensiyanın 4-cü və 5-ci maddələrində göstərilən sənədlərin mübadiləsi üzrə xərclər sənədi göndərən Tərəfin hesabına ödənilir.

2. Mütəxəssislər mübadiləsi Tərəflərin səlahiyyətli orqanlarının qarşılıqlı razılığı əsasında həyata keçirilir. Əgər Tərəflər başqa cür razılığa gəlməyiblərsə, səfərlərlə bağlı bütün xərclər ezamiyyətə göndərən Tərəfin hesabına ödənilir.

Maddə 7

Tərəflər yoluxucu, parazitar və antropozoonoz xəstəliklərin daşıyıcısı ola biləcək heyvanların, heyvan mənşəli məhsulların, yemlərin və digər malların idxalı, ixracı və tranziti üzrə ticarət sövdələşməsində tətbiq edilən Beynəlxalq Epizootik Büronun Beynəlxalq Baytarlıq Məcəlləsinin müddəalarına uyğun xüsusi baytarlıq-sanitariya qaydaları və qarşılıqlı razılaşdırılmış tələblərinin işlənilməsini öz səlahiyyətli orqanlarına həvalə edirlər.

Tərəflərin dövlətlərinin baytarlıq təbabəti xidmətlərinin rəhbərləri bu Konvensiyanın 4-cü və 5-ci maddələrində göstərilən zəruri məlumatların mübadiləsi üçün birbaşa əla-

qə yarada, yaxud ortaya çıxan problemlər üzrə məsləhətləşmələrin aparılması və birgə profilaktiki tədbirlərin hazırlanması üçün görüşlər təşkil edə bilərlər.

Maddə 8

Tərəflər heyvanların yoluxucu xəstəliklərinin, həmçinin antropozoonozların törədicilərinin daşıyıcısı olan heyvanların, heyvan mənşəli xammal və məhsulların, yemlərin və digər malların idxalı, ixracı və tranziti zamanı milli qanunvericilik normalarını rəhbər tuturlar.

Maddə 9

Baytarlıq sertifikatları Beynəlxalq Epizootik Büronun Beynəlxalq Baytarlıq Məcəlləsinə uyğun olmalıdır və dövlət baytarlıq xidmətinin mütəxəssisi tərəfindən iki dildə - ixrac edən ölkənin dilində və Tərəflərin səlahiyyətli orqanları ilə razılaşdırılmış dildə doldurulur.

Maddə 10

Əgər Tərəflərin birinin dövlətinin ərazisində Beynəlxalq Epizootik Büronun siyahısında göstərilən xəstəliklərdən biri baş versə, digər Tərəf həmin dövlətdən xəstəlik daşıyıcısı ola bilən heyvanların, heyvan mənşəli məhsul və xammalın, bioloji preparatların, yemlərin və digər materialların idxalı və tranzitini məhdudlaşdıra, yaxud dərhal dayandıra bilər və bu barədə həmin Tərəfin səlahiyyətli orqanına məlumat verir.

Maddə 11

Əgər sərhəd baytarlıq baxışı zamanı heyvanlar, heyvan mənşəli məhsullar və yemlər olan bağlama və ya nəqliyyat vasitəsi baytarlıq sertifikatında göstərilənlərə uyğun gəlmirsə və baytarlıq-sanitariya tələblərinə cavab vermirsə, idxal edən ölkənin səlahiyyətli baytarlıq orqanları ixrac edən ölkənin səlahiyyətli baytarlıq orqanlarına bu barədə məlumat verir və qüvvədə olan baytarlıq sahəsində qanunvericiliyə uyğun olaraq, öz ərazisini infeksion və invazion xəstəliklərdən, həmçinin antropozoonozlardan qorumaq məqsədilə tədbirlər görürlər.

Maddə 12

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Konvensiyaya, onun ayrılmaz hissəsi olan ayrı-ayrı Protokollarla müvafiq qaydada rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər. Həmin Protokollar bu Konvensiyanın 14-cü maddəsində nəzərdə tutulan prosedura uyğun olaraq qüvvəyə minir.

Maddə 13

Bu Konvensiya Tərəflərin iştirak etdikləri beynəlxalq müqavilələrlə müəyyən olunmuş hüquqi münasibətlərə və öhdəliklərə təsir etmir.

Maddə 14

Bu Konvensiya onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Konvensiya 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə 6 (altı) ay qalmış Konvensiyanın qüvvəsini ləğv etmək niyyətində olduğu haqqında digər Tərəfə yazılı bildiriş göndərməzsə, Konvensiyanın qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Kişineu şəhərində 21 aprel 2005-ci il tarixində hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanıb və bütün mətnlər eyni qüvvəyə malikdir.

Konvensiyanın müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
İSMƏT ABASOV	*ANATOLİ QORODENKO*
Kənd təsərrüfatı naziri	*Kənd təsərrüfatı və yeyinti sənayesi naziri*

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında" 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1013-IIQ

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə

Bundan sonra "Ali Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Qazaxıstan Respublikası,

onların xalqları arasında tarixən yaranmış əlaqələrə, dostluq münasibətlərinə və mehriban ünsiyyət ənənələrinə arxalanaraq,

Ali Razılığa gələn Tərəflər arasında qardaşlıq, dostluq və mehriban qonşuluq əlaqələrinin möhkəmləndirilməsinin hər iki dövlətin xalqlarının köklü maraqlarına cavab verdiyini, sülh və təhlükəsizlik işinə xidmət etdiyini hesab edərək,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin, Helsinki Yekun Aktının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Təşkilatın digər sənədlərinin məqsəd və prinsiplərinə öz bağlılığını təsdiq edərək,

onların dövlət suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, mübahisələrin dinc həlli, insan hüquqlarına və əsas azadlıqlarına hörmət, öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri, habelə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş digər normaları əsasında dövlətlərarası münasibətləri hərtərəfli möhkəmləndirmək qətiyyətlərini təsdiq edərək,

iki ölkənin iqtisadi əməkdaşlığının dərinləşdirilməsini, onun sonrakı inkişafı üçün əlverişli şəraitin yaradılmasını, bütün mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin qurulmasını zəruri hesab edərək,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar, mədəni və digər sahələrdəki ikitərəfli əməkdaşlığa XXI əsrdə yeni keyfiyyət vermək və onun hüquqi bazasını möhkəmləndirmək məqsədilə,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Ali Razılığa gələn Tərəflər öz münasibətlərini bərabərlik, qarşılıqlı etimad, strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq əsasında qurarlar.

Maddə 2

Ali Razılığa gələn Tərəflər dövlətlərarası münasibətlərdə güc tətbiq etməkdən və ya güclə hədələməkdən çəkinmək öhdəliyini təsdiq edir, hərbi ittifaqlara daxil olmamağı və ya dövlətlərin hər hansı bir qruplaşmalarında, habelə digər Ali Razılığa gələn Tərəfə qarşı yönəlmiş əməliyyatlarda iştirak etməmək öhdəliyini təsdiq edirlər.

Ali Razılığa gələn Tərəflərdən birinin mülahizələrinə əsasən, üçüncü dövlətlər tərəfindən hərbi təcavüz təhlükəsi təşkil edən vəziyyət yarandıqda, Ali Razılığa gələn Tərəflər onun dinc yolla həllinə yardım edən tədbirlər görmək məqsədilə bir-biri ilə təxirə salmadan, istər ikitərəfli əsaslarla, istərsə də üzvü olduqları beynəlxalq təşkilatlar çərçivəsində müvafiq məsləhətləşmələr keçirirlər.

Ali Razılığa gələn Tərəflər öz ərazisinin, rabitə sistemlərinin və digər infrastrukturunun üçüncü dövlətlər tərəfindən digər Ali Razılığa gələn Tərəfə qarşı hərbi təcavüzün və ya digər ədavətli fəaliyyətin hazırlanması və ya tətbiqi məqsədilə istifadə edilməsinə icazə verməmək öhdəliyini öz üzərlərinə götürürlər.

Maddə 3

Ali Razılığa gələn Tərəflər regionda sülhü möhkəmləndirmək, sabitliyi və təhlükəsizliyi artırmaq məqsədilə qarşılıqlı əlaqə saxlayırlar.

Ali Razılığa gələn Tərəflər dövlətlərarası münasibətlərdə güc tətbiq etməkdən və ya güclə hədələməkdən çəkinmək öhdəliyini təsdiq edərək, dövlət sərhədlərinin toxunulmazlığını tanıyırlar.

Ali Razılığa gələn Tərəflər onların müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə olan təhlükələrin qarşısının alınması məsələlərində bir-birinə hərtərəfli dəstək və qarşılıqlı yardım göstərirlər.

Maddə 4

Ali Razılığa gələn Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və əlaqələri genişləndirir, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə öz mövqelərini əlaqələndirmək üçün məsləhətləşmələr keçirirlər.

Ali Razılığa gələn Tərəflər kollektiv təhlükəsizliyin möhkəmləndirilməsinə, habelə BMT-nin, ATƏT-in sülhməramlı rolunun gücləndirilməsinə və regional münaqişələrin və Ali Razılığa gələn Tərəflərin maraqlarına toxunan digər halların tənzimlənməsi mexanizmlərinin səmərəliliyini artırmağa səy göstərir, lazım gəldikdə birgə və ya razılaşdırılmış tədbirlərin həyata keçirilməsi məqsədilə bu sahələrdə öz mövqelərini əlaqələndirirlər.

Ali Razılığa gələn Tərəflər regional münaqişələrin beynəlxalq hüququn hamılıqla tanınmış normalarına və xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına riayət olunması və bunların təmin edilməsi əsasında tənzimlənməsinə yardım etmək üçün səy göstərirlər.

Maddə 5

Ali Razılığa gələn Tərəflərdən hər biri, Ali Razılığa gələn Tərəflərin vətəndaşlığına mənsubiyyətlə əlaqədar olan hallar istisna olmaqla, özünün vətəndaşlarına təqdim etdiyi əsaslarla və eyni həcmdə hüquq və azadlıqları onun ərazisində yaşayan digər Ali Razılığa gələn Tərəfin vətəndaşlarına, onların milli mənsubiyyətindən, dini etiqadından və ya digər fərqlərdən asılı olmayaraq, təqdim edir.

Ali Razılığa gələn Tərəflər digər Ali Razılığa gələn Tərəfin ərazisində yaşayan vətəndaşlarının hüquqlarının müdafiəsini təmin etmək üçün zəruri olan ayrı-ayrı sazişlər bağlayacaqlar.

Maddə 6

Ali Razılığa gələn Tərəflər bir-birinə münasibətdə iqtisadi əməkdaşlığın bütün sahələrində ən əlverişli rejimin və ya milli rejimin təmin edilməsi üzrə zəruri tədbirlər görəcək və həmin əməkdaşlığın həyata keçirilməsi üzrə şəraitin pisləşməsinə yönələn tədbirlər görməyəcəklər.

Hər bir Ali Razılığa gələn Tərəf digər Ali Razılığa gələn Tərəfi onun hüququna və qanuni maraqlarına toxuna biləcək iqtisadi qərarlar haqqında əvvəlcədən məlumatlandırır və digər Razılığa gələn Tərəfin iqtisadi vəziyyətinin sabitliyini pozan tədbirlərin həyata keçirilməsindən çəkinir.

Maddə 7

Ali Razılığa gələn Tərəflər uzunmüddətli perspektivləri nəzərə alaraq və qarşılıqlı mənfəət əsasında ikitərəfli ticari-iqtisadi münasibətlərin, elm, mədəniyyət, təhsil, texnologiyalar, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində əlaqələrin inkişafına və möhkəmləndirilməsinə səy göstərirlər.

Bu məqsədlə Ali Razılığa gələn Tərəflər hər iki ölkə arasında malların, xidmətlərin və kapitalın azad yerdəyişməsinə tədricən keçmək üçün zəruri hüquqi, iqtisadi, maliyyə və ticarət şəraiti yaradacaqlar.

Ali Razılığa gələn Tərəflər ilk növbədə sənaye, ətraf mühitin mühafizəsi, kənd təsərrüfatı, nəqliyyat, turizm, rabitə, telekommunikasiya və energetika sahəsində olan əməkdaşlığı möhkəmləndirirlər.

Maddə 8

Ali Razılığa gələn Tərəflər energetika, nəqliyyat, informatika və rabitə sistemlərinin, o cümlədən peyk rabitəsinin və telekommunikasiyanın idarə edilməsi sahəsində, həmin sahələrdə komplekslərin və vahid sistemlərin inkişafına səy göstərərək, əməkdaşlığın inkişafına xüsusi diqqət yetirirlər.

Ali Razılığa gələn Tərəflər Azərbaycan Respublikasında və Qazaxıstan Respublikasında çıxarılan neftin və qazın beynəlxalq bazarlara çatdırılması üçün istifadə edilə biləcək etibarlı və təhlükəsiz ixrac marşrutlarının yaradılmasını dəstəkləyəcək və bununla əlaqədar neft-qaz nəqli sistemlərinin səmərəliliyinin artırılması üzrə birgə səyləri davam etdirəcəklər.

Maddə 9

Ali Razılığa gələn Tərəflər öz dövlətlərinin ərazilərində öz sərnişinlərinin və hər növ yüklərin avtomobil, dəmir yolu, hava, boru və digər nəqliyyat növləri ilə daşınması və azad tranziti üçün əlverişli şəraitin qarşılıqlı təmin edilməsinə təminat verir və göstərilən sahələrdə əməkdaşlıq üçün əlverişli olmayan şəraitin yaradılmasına yönəlmiş tədbirlərin görülməsindən çəkinirlər.

Maddə 10

Ali Razılığa gələn Tərəflər iqtisadi, elmi, texniki və mədəniyyət sahələrində mütəmadi məsləhətləşmələri, məlumat və təcrübə mübadiləsini təşviq edir, habelə bütün səviyyələrdə bu məqsədlərlə əlaqələrin genişləndirilməsini dəstəkləyirlər.

Ali Razılığa gələn Tərəflər birgə maliyyə-sənaye qruplarının, xoldinqlərin və lizinq şirkətlərinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirlər. Ali Razılığa gələn Tərəflər istehsal, investisiya, bank və kommersiya sahələrində milli kapitalların mütərəqqi formalarının inkişafına səy göstərir, qarşılıqlı investisiya qoyuluşu üçün əlverişli şərait təmin edirlər.

Ali Razılığa gələn Tərəflər öz milli qanunvericiliyinə uyğun olaraq, digər Ali Razılığa gələn Tərəfin fiziki və hüquqi şəxsləri üçün öz ərazisində sahibkarlıq və digər təsərrüfat fəaliyyəti üçün əlverişli şərait təmin edirlər.

Ali Razılığa gələn Tərəflər qarşılıqlı investisiyaları təşviq edir və bu məqsədlə bağlanmış razılaşmalar əsasında onların qorunmasını təmin edəcəklər.

Maddə 11

Ali Razılığa gələn Tərəflərdən hər biri öz ərazisində digər Ali Razılığa gələn Tərəfin fiziki və hüquqi şəxslərinin mülkiyyət hüquqlarının və əmlakının qorunmasına təminat verir.

Maddə 12

Ali Razılığa gələn Tərəflər milli təhlükəsizlik məsələlərində və hərbi sahədə əməkdaşlıq edir, ayrı-ayrı razılaşmalar əsasında hər iki dövlətin müvafiq rəsmiləri arasında əlaqələrə səy göstərir və hərbi-texniki sahədə qarşılıqlı fəaliyyət göstərirlər.

Maddə 13

Ali Razılığa gələn Tərəflər hər iki ölkənin mədəniyyət və təhsil müəssisələri ilə əlaqələri, habelə mütəxəssislər mübadiləsini təşviq edirlər.

Ali Razılığa gələn Tərəflərdən hər biri öz vətəndaşlarına digər Ali Razılığa gələn Tərəfin dilinin öyrənilməsinə imkan yaradır, mədəniyyəti, sənət əsərləri, ədəbiyyatı və mətbu nəşrləri ilə tanış olmağa, o cümlədən özünün təhsil müəssisələrində tədris edilməsinə səy göstərir.

Ali Razılığa gələn Tərəf arxiv və tarixi sənədlərin digər Ali Razılığa gələn Tərəfin mütəxəssisləri tərəfindən öyrənilməsi və tədqiqi üçün tanış olmaq hüququ təqdim edir.

Maddə 14

Ali Razılığa gələn Tərəflər Azərbaycan Respublikasının ərazisində yaşayan qazaxların və Qazaxıstan Respublikasının ərazisində yaşayan azərbaycanlıların milli mədəniyyətini və dilini qoruyub saxlamaq və inkişaf etdirmək hüququnu təmin edir, habelə bu sahədə əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 15

Ali Razılığa gələn Tərəflər elm və texnika sahəsində, əsaslı tədqiqatların həyata keçirilməsində, kosmik sahəsi də daxil olmaqla, birgə proqram və işləmələrin reallaşmasında əməkdaşlığı inkişaf etdirir, fərdi razılaşmalar əsasında elmi-istehsalat kollektivlərinin yaradılmasına və fəaliyyətinə səy göstərirlər.

Maddə 16

Ali Razılığa gələn Tərəflər əhalinin sağlamlığının mühafizəsi, tibb elminin və təcrübəsinin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işində sıx əməkdaşlıq edir, digər Ali Razılığa gələn Tərəfin əhalisinin müalicəsi və tövsiyəvi yardım alması üçün özünün tibb müəssisələrindən fay-dalanmaq və istifadə etmək hüququnu təmin edirlər.

Maddə 17

Ali Razılığa gələn Tərəflər ekoloji təhlükəsizliyin təmin edilməsinə, bu sahədə beynəlxalq müqavilələrə uyğun hərəkət edərək, prioritet əhəmiyyət verirlər.

Ali Razılığa gələn Tərəflər ətraf mühitin çirklənməsinin qarşısını almaq və təbiətdən rasional istifadəni təmin etmək üçün zəruri tədbirlər görürlər. Onlar ekoloji qəzaların və təbii mühitə antropogen təsirin, o cümlədən transsərhəd baxımından nəticələri ilə mübarizə sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Ali Razılığa gələn Tərəflər Xəzər dənizinin ekoloji sisteminin bərpa edilməsi işində səyləri cəmləşdirir və əlaqələndirir, bu sahədə beynəlxalq və xüsusilə regional proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərirlər.

Maddə 18

Ali Razılığa gələn Tərəflər onların hakimiyyətlərinin qanunverici və icra qolları, o cümlədən şəhərlər, vilayətlər, rayonlar və digər inzibati ərazi vahidləri arasında əmək-

daşlığı təşviq edir, hər iki dövlətin vətəndaşları arasında əlaqələrə mümkün qədər səy göstərirlər.

Maddə 19

Ali Razılığa gələn Tərəflər terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və psixotrop maddələrin, onların analoqlarının və prekursorlarının qanunsuz dövriyyəsi, silah qaçaqmalçılığı, mədəni dəyərlərin qanunsuz satışı və sərhəddən keçirilməsi, iqtisadi və maliyyə fəaliyyəti sahəsində cinayətlərin, qeyri-qanuni fəaliyyət nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılması, digər təhlükəli növ cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq edirlər.

Ali Razılığa gələn Tərəflər beynəlxalq hüququn prinsip və normalarına əsaslanaraq, mülki aviasiya fəaliyyətinə qeyri-qanuni müdaxilənin qarşısının alınması üzrə iş həyata keçirirlər.

Maddə 20

Bu Müqavilə üçüncü dövlətlərə qarşı yönəlməyib və Ali Razılığa gələn Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hər hansı hüquq və öhdəliklərinə heç bir şəkildə təsir etmir.

Maddə 21

Bu Müqavilə BMT Nizamnaməsinin 102-ci maddəsinə müvafiq olaraq BMT-nin Katibliyində qeydiyyata alınmalıdır.

Maddə 22

Bu Müqavilənin müddəalarını həyata keçirmək məqsədilə Ali Razılığa gələn Tərəflər lazım gəldikdə ayrı-ayrı razılaşmalar bağlayacaqlar.

Maddə 23

Bu Müqavilənin müddəalarının həyata keçirilməsi zamanı yarana biləcək mübahisələri və fikir ayrılıqlarını Ali Razılığa gələn Tərəflər danışıqlar və məsləhətləşmələr vasitəsilə həll edəcəklər.

Maddə 24

Qarşılıqlı razılığa əsasən Ali Razılığa gələn Tərəflər bu Müqaviləyə onun ayrılmaz hissəsi olan və bu Müqavilənin 26-cı maddəsinə müvafiq olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən düzəlişlər və əlavələr edə bilərlər.

Maddə 25

Bu Müqavilə qüvvəyə minəndən sonra Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasındakı münasibətlərdə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında 16 sentyabr 1996-cı il tarixli Müqavilə öz qüvvəsini itirir.

Maddə 26

Bu Müqavilə ratifikasiya edilməlidir və ratifikasiya fərmanları mübadilə edildiyi gündən qüvvəyə minəcək.

Bu Müqavilə qeyri-müəyyən müddətə bağlanılır. Bu Müqavilə Ali Razılığa gələn Tərəflərdən biri digər Ali Razılığa gələn Tərəfin onun qüvvəsini ləğv etmək niyyəti haqqında müvafiq yazılı bildirişini aldığı tarixdən altı ay sonra öz qüvvəsini itirir.

Bakı şəhərində 24 may 2005-ci il tarixində hər biri Azərbaycan, qazax və rus dillərində iki əsl nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Müqavilənin müddəalarının təfsiri məqsədilə Ali Razılığa gələn Tərəflər rus dilindəki mətndən istifadə edirlər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*NURSULTAN NAZARBAYEV*

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında" 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1014-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın vacibliyinə əmin olaraq,

narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və onlardan sui-istifadə hallarına daim artan meyillərindən narahat olaraq,

terrorçuluqla birgə mübarizə aparmaq istəyində olduqlarını təsdiq edərək,

qanunsuz miqrasiya və iqtisadiyyat sahəsində cinayətkarlıqla mübarizədə səmərəli tədbirlərin görülməsi niyyətində olduqlarını bəyan edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, Tərəflərin dövlətlərinin ərazisində törədilən və ya törədilməsinə hazırlıq görülən mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, terrorçuluqla mübarizə sahəsində əməkdaşlığı həyata keçirirlər.

Maddə 2

Terrorçuluğun bütün təzahürləri ilə mübarizə məqsədilə, Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə, həmçinin bu Sazişin müddəalarına əsasən aşağıdakı sahələr üzrə mübadilə aparır və fəaliyyət göstərirlər:

1. planlaşdırılan və törədilən terror aktları, terrorçu təşkilatlar və qruplaşmalar, həmçinin bu cinayətlərdə iştirak edən şəxslər, belə cinayətlərin forma və metodları və istifadə olunan vasitələr haqqında informasiya, habelə terrorçuluqla mübarizədə və Tərəflərin dövlətlərinin ictimai və dövlət təhlükəsizliyinə təhdid yaradan cinayətlərin qarşısının alınması üçün zəruri olan məlumat mübadiləsi;

2. terrorçu təşkilatlara və terrorçu fəaliyyətə aidiyyəti olan şəxslərə göstərilən dəstək, o cümlədən maliyyələşdirmə mənbələri haqqında informasiya mübadiləsi;

3. silah, döyüş sursatı, hərbi texnika, partlayıcı və zəhərləyici maddələrin, nüvə və radioaktiv materialların qanunsuz alveri ilə məşğul olan şəxslər və təşkilatlar haqqında, habelə onların Tərəflərin dövlətlərinin ərazisində yerdəyişməsi kanalları barədə informasiya mübadiləsi;

4. Tərəflərdən birinin sorğusuna əsasən terror xarakterli cinayətlərin xəbərdar olunmasına, aşkarlanmasına, qarşısının alınmasına yönəlmiş əməliyyat axtarış tədbirlərinin keçirilməsi;

5. terrorçuluqla mübarizə, terror təzahürlərinə qarşı əks-təsir fəaliyyətinin forma və metodlarına dair təcrübə mübadiləsi məsələləri üzrə birgə işçi görüşlərin və məsləhətləşmələrin keçirilməsi.

Maddə 3

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq, narkoxassəli bitkilərin qanunsuz əkilib-becərilməsinin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz daşınmasının və istifadə edilməsinin, onların istehsalı məqsədilə istifadə olunan alətlərin və ya avadanlığın qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə aşağıdakı tədbirləri görürlər:

1. narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə cəlb edilmiş şəxslər, həmin şəxslərin gizli sığınacaqları, nəqliyyat vasitələri və iş üsulları, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların mənşəyi və təyinatı haqqında məlumatlar, həmçinin narkotik vasitələr, psixotrop maddələr və prekursorlarla bağlı cinayətlərin xəbərdar olunması və qarşısının alınması üçün zəruri olan digər məlumat mübadiləsi;

2. narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin metodları barədə məlumat mübadiləsi;

3. narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınma marşrutları haqqında məlumat mübadiləsi;

4. narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların ayrı-ayrı növləri üzrə aparılmış kimyəvi ekspertizaların nəticələrinin bir-birinin sərəncamına təqdim edilməsi;

5. bu sahədə mümkün qanun pozuntuları hallarına xüsusi diqqət yetirməklə, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanuni dövriyyəsinə nəzarət üzrə təcrübə mübadiləsi;

6. narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınması üzrə razılaşdırılmış tədbirlər.

Maddə 4

Cinayətkarlığın, xüsusilə mütəşəkkil cinayətkarlığın aşkarlanması, aradan qaldırılması, qarşısının alınması və səviyyəsinin azaldılmasında əməkdaşlığı həyata keçirərək, Tərəflər aşağıdakı tədbirləri görürlər:

1. mütəşəkkil cinayətkar fəaliyyətə cəlb edilmiş şəxslər, cinayətkarların əlaqələri, mütəşəkkil cinayətkar qrupların strukturu, ayrı-ayrı cinayətkarlar və mütəşəkkil cinayətkar qrupların əlaqələri, cinayət işləri üzrə faktlar (xüsusilə cinayətin törədilmə vaxtı, yeri və üsulu haqqında), cinayətlərin tövsifi və növləri, görülmüş tədbirlər haqqında, o cümlədən bu cür cinayətlərin xəbərdar edilməsi və ya qarşısının alınması üçün işə aidiyyəti olan hər hansı digər detallar haqqında məlumat mübadiləsi;

2. bir Tərəfin sorğusu əsasında, sorğu edilən Tərəfin dövlətinin milli qanunvericiliyində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin həyata keçirilməsi;

3. beynəlxalq cinayətkarlığın törədilmə metodları və yeni formaları sahəsində məlumat və təcrübə mübadiləsi;

4. özlərinin kriminalistik və kriminoloji və işə aid digər kriminal təhqiqatların nəticələrinin mübadiləsi. Özlərinin istintaq üzrə təcrübələri və iş metodları və avadanlıqlarının tətbiqi haqqında, onların təkmilləşdirilməsi məqsədilə bir-birini qarşılıqlı surətdə məlumatlandırırlar;

5. mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi məqsədilə ixtisasartırma üçün mütəxəssislərin qarşılıqlı təcrübə keçmə ezamiyyətlərini həyata keçirir, kriminalistik, kriminoloji və məhkəmə tibb ekspertizası sahəsində təcrübə və elmi nailiyyətlər mübadiləsini həyata keçirirlər;

6. zəruri hallarda mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə birgə tədbirlər həyata keçirir, həmin tədbirlərin hazırlanması və reallaşdırılması üçün işçi görüşlər keçirirlər.

Maddə 5

Bundan əlavə, Tərəflərin əməkdaşlığı aşağıda göstərilən sahələri də əhatə edir:

1. qanunsuz əldə edilmiş gəlirlərin, yaxud əmlakın leqallaşdırılması, həmçinin qanunsuz maliyyə əməliyyatları ilə mübarizədə əməkdaşlıq;

2. bu Sazişdə qeyd edilən cinayətkar əməllərlə mübarizə sahəsində normativ hüquqi aktların mübadiləsi;

3. cinayətkar fəaliyyət nəticəsində əldə edilmiş qanunsuz gəlirlər haqqında məlumat mübadiləsi;

4. qeyri-qanuni miqrasiya ilə mübarizə sahəsində təcrübə və normativ hüquqi aktların, habelə Tərəflərin dövlətlərinin ərazisində əcnəbilərin qalma (yaşama) qaydalarını tənzimləyən normativ hüquqi aktların mübadiləsi;

5. insan alveri ilə mübarizə sahəsində, o cümlədən qanunsuz miqrasiyanın təşkilində əlaqəli olan hüquqi və fiziki şəxslərə və miqrantların müəyyən olunmuş keçirilmə kanallarına dair digər Tərəf üçün zəruri olan məlumat mübadiləsi.

Maddə 6

1. Bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə bütün əlaqələr bilavasitə Tərəflərin dövlətlərinin mərkəzi səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

2. Bu Sazişin yerinə yetirilməsi üçün Tərəflərin dövlətlərinin mərkəzi səlahiyyətli orqanları aşağıdakılardır:

1) Azərbaycan tərəfindən:

Daxili İşlər Nazirliyi,

Baş Prokurorluq,

Ədliyyə Nazirliyi,

Milli Təhlükəsizlik Nazirliyi,

Azərbaycan Respublikasının narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası,

Dövlət Gömrük Komitəsi,

Dövlət Sərhəd Xidməti;

2) Qazaxıstan tərəfindən:

Daxili İşlər Nazirliyi,

Baş Prokurorluq,

Milli Təhlükəsizlik Komitəsi,

Maliyyə Nazirliyi,

Ədliyyə Nazirliyi,

Qazaxıstan Respublikasının iqtisadiyyat və korrupsiya cinayətləri ilə mübarizə üzrə Agentliyi (maliyyə polisi).

3. Tərəflərin dövlətlərinin mərkəzi səlahiyyətli orqanları öz dövlətlərinin milli qanunvericiliyi çərçivəsində bir-biri ilə bilavasitə əməkdaşlıq edir və öz əməkdaşlığının müvafiq sahələrini və formalarını ayrıca Protokollarla müəyyənləşdirə bilərlər.

4. Tərəflərdən hər biri mərkəzi səlahiyyətli orqanların siyahısında baş verən dəyişikliklər barədə digər Tərəfi diplomatik kanallar vasitəsilə vaxtında məlumatlandırır.

Maddə 7

1. Bu Sazişlə nəzərdə tutulan informasiya mübadiləsi və fəaliyyətin həyata keçirilməsi haqqında sorğular Tərəflərin dövlətlərinin mərkəzi səlahiyyətli orqanlarına yazılı surətdə göndərilir. Sorğu aşağıdakılarla müşayiət edilir:

sorğu edən orqanı, habelə sorğu edilən orqanı müəyyənləşdirən əsaslandırılmış ifadə;

yardım üçün sorğunun verilməsinə əsas olan cinayət işinin təsviri;

sorğunun məzmunu, habelə onun icrası üçün zəruri olan məlumatlar.

Təxirəsalınmaz hallarda Tərəflərin dövlətlərinin mərkəzi səlahiyyətli orqanları 10 gün ərzində rəsmən yazılı surətdə təsdiq edilməli olan şifahi sorğularla müraciət etməyə haqlıdır.

2. Əgər sorğu edən Tərəf sorğuda əks etdirilmiş məlumatın kifayət olmadığını hesab edərsə, o, əlavə məlumatı sorğu edə bilər. Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları sorğuların icrasını təxirə salmadan təmin edirlər.

3. Sorğunun icrası zamanı Sorğu edilən Tərəfin qanunvericiliyi tətbiq olunur.

Maddə 8

Tərəflər, əməkdaşlıq çərçivəsində təqdim olunan şəxsi məlumatların qorunması məqsədilə, öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı şərtlərə riayət edirlər:

1. sorğu edən Tərəf şəxsi məlumatları yalnız sorğu edilən Tərəfin müəyyən etdiyi məqsəd və şərtlər əsasında istifadə edir;

2. sorğu edilən Tərəfin sorğusuna əsasən, sorğu edən Tərəf çatdırılmış şəxsi məlumatların istifadə olunması və bununla əlaqədar əldə edilmiş nəticələr barədə məlumat təqdim edir;

3. şəxsi məlumatlar müstəsna olaraq, bu Sazişin 6-cı maddəsində nəzərdə tutulan və həmin Sazişdə göstərilən cinayətlərə qarşı mübarizəni həyata keçirən mərkəzi səlahiyyətli orqanlara göndərilə bilər. Şəxsi məlumatlar digər dövlət orqanlarına yalnız sorğu edilən orqanın yazılı razılığı əsasında ötürülə bilər;

4. sorğu edilən Tərəf verilməsi nəzərdə tutulan şəxsi məlumatların düzgünlüyünə, habelə onların verilməsinin zəruriliyinə əmin olmalıdır. Bununla belə, digər Tərəfin dövlətinin milli qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara əsasən, şəxsi məlumatların çatdırılması üçün məhdudiyyətlərə riayət olunmalıdır. Düzgün olmayan və ya məhdudiyyət altına düşən şəxsi məlumatların göndərildiyi sübuta yetirildikdə, sorğu edən Tərəf dərhal bu barədə məlumatlandırılır. Bu halda o, zəruri düzəlişlər aparır və ya məhdudiyyət altına düşən şəxsi məlumatları dərhal məhv edir;

5. sorğu edilən Tərəfin dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq, marağı olan şəxsin xahişi ilə onun barəsində təqdim olunmuş şəxsi məlumatların verilməsi haqqında arayış və onların istifadə məqsədləri təqdim oluna bilər;

6. sorğu edilən Tərəf şəxsi məlumatları göndərərkən, öz dövlətinin milli qanunvericiliyinə uyğun olaraq, həmin şəxsi məlumatların məhv olunması üçün son müddətləri müəyyən edir. Bununla belə, çatdırılmış şəxsi məlumatlar onlara ehtiyac qalmadığı təqdir-

də məhv edilir. Hər bir Tərəf qəbul edilmiş şəxsi məlumatların məhv olunması və belə məhv etmənin əsası barədə

digər Tərəfi dərhal məlumatlandırır. Bu Saziş qüvvədən düşdüyü halda qəbul edilmiş şəxsi məlumatlar məhv edilir;

7. hər bir Tərəf şəxsi məlumatların göndərilməsinin, qəbul olunmasının və məhv edilməsinin qeydiyyatını aparır;

8. Tərəflər qəbul edilmiş şəxsi məlumatları icazəsiz istifadədən, dəyişdirilmədən və dərc edilmədən mühafizə edir.

Maddə 9

1. Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq, Tərəflər bu Sazişin yerinə yetirilməsi məqsədilə aparılan mübadilə nəticəsində qəbul olunan bütün məlumatların qorunmasına təlimat verirlər. Təqdim edən Tərəfin müəyyən etdiyi qorunma dərəcəsi dəyişdirilə bilməz.

2. Bu Sazişə əsasən təqdim olunmuş sənədlər, məlumatlar, texniki avadanlıqlar üçüncü dövlətə yalnız sorğu edilən Tərəfin yazılı razılığı əsasında verilə bilər.

Maddə 10

1. Sorğunun icrası sorğu edilən Tərəfin suverenliyinə, təhlükəsizliyinə zərər yetirə və ya milli qanunvericiliyi ilə ziddiyyət təşkil edərsə, sorğu edilən Tərəf sorğunun icrasından tam və ya qismən imtina edə bilər.

2. Sorğunun icrasından imtina edildikdə və ya onun qismən icra olunduğu halda sorğu edən Tərəf, imtinanın və ya qismən icranın səbəbləri göstərilməklə, yazılı məlumatlandırılır.

Maddə 11

1. Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, bu Sazişin yerinə yetirilməsindən irəli gələn xərcləri özləri ödəyirlər.

2. Lazım gəldikdə, Tərəflər bu Sazişdən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün birgə xərcləri, hər bir konkret halda qarşılıqlı məqbul hesab edilən razılaşmalarla rəsmiləşdirilməklə, özləri ödəyirlər.

Maddə 12

1. Tərəflər bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə birgə komissiya təsis edə bilərlər. Komissiyanın tərkibi barədə Tərəflər bir-birini diplomatik kanallarla məlumatlandırır.

2. Birgə komissiyanın iclasları, zəruri hallarda, növbə ilə Tərəflərin dövlətlərinin ərazisində keçiriləcəkdir.

Maddə 13

Tərəflər bu Saziş çərçivəsində əməkdaşlığı həyata keçirərkən rus dilində olan mətndən istifadə edəcəklər.

Maddə 14

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı yaranan mübahisələr və fikir ayrılıqlarını Tərəflər danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 15

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan və 17-ci maddədə nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla tərtib edilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 16

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 17

1. Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri onun ləğv edilməsi niyyəti barədə yazılı şəkildə bildiriş aldığı tarixdən etibarən altı aylıq müddət başa çatana qədər qüvvədə qalır.

Bakı şəhərində 24 may 2005-ci il tarixində hər biri Azərbaycan, qazax və rus dillərində eyni qüvvəyə malik olan iki nüsxədə imzalanmışdır.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətni əsas götürürlər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
RAMİL USUBOV *Daxili işlər naziri*	*ZAUTBEK TURİSBEKOV* *Daxili işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Latviya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1030

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Latviya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1031

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Latviya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1032

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" 2005-ci il avqustun 15-də Riqa şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2005-ci il

№1017-IIQ

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi,

Şimali Atlantika Müqaviləsi iştirakçısı olan dövlətlər və "Sülh naminə Tərəfdaşlıq" Proqramında İştirak edən digər Dövlətlər arasında onların Silahlı Qüvvələrinin Statusuna dair 19 iyun 1995-ci il tarixində Brüsseldə imzalanmış Sazişi (NATO/SNT SOFA), eləcə də Şimali Atlantika Müqaviləsi iştirakçısı olan dövlətlər və "Sülh naminə Tərəfdaşlıq" Proqramında İştirak edən digər Dövlətlər arasında onların Silahlı Qüvvələrinin Statusuna dair Sazişə 19 dekabr 1997-ci ildə imzalanmış Əlavə Protokolu nəzərə alaraq,

Müdafiə Nazirlikləri arasında BMT Nizamnaməsinin mahiyyəti və ruhunda qarşılıqlı əlaqələri möhkəmləndirmək arzusu ilə çıxış edərək,

hər iki dövlətin Müdafiə Nazirlikləri və Silahlı Qüvvələri arasında əməkdaşlıq vasitəsilə qarşılıqlı etimad mühitinin yaradılmasını nəzərdə tutaraq,

müdafiə sahəsində ikitərəfli əməkdaşlıq fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi və praktiki mexanizmlərin yaradılmasını arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Sazişin məqsədi Tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq, o cümlədən Tərəflərin qəbul etdikləri əməkdaşlıq proqramlarının həyata keçirilməsi üçün ümumi və praktiki çərçivənin təmin edilməsidir.

Maddə 2

Əməkdaşlıq sahələri

2.1. Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələri əhatə edir:

- NATO və SNT çərçivəsində keçirilən tədbirlərdə iştirakla bağlı təcrübə mübadiləsi;
- çoxmillətli hərbi hissələrin formalaşdırılması və fəaliyyət göstərməsi ilə bağlı məsələlər üzrə təcrübə mübadiləsi;
- silahlı qüvvələrə demokratik nəzarət;
- müdafiə siyasəti və strategiya;
- müdafiənin planlaşdırılması və büdcənin qurulması;
- komandanlıq, idarəetmə və rabitə;
- beynəlxalq sülhü dəstəkləmə və humanitar əməliyyatlar;
- ətraf mühitlə bağlı məsələlər və çirklənməyə nəzarət;
- mülki fövqəladə planlaşdırma və mülki-hərbi əməkdaşlıq;
- maddi-texniki təminat;
- hərbi quruculuq, hərbi islahat və Silahlı Qüvvələrin idarə olunması sahəsində təcrübə mübadiləsi;
- hərbi-texniki, hərbi-elmi və hərbi-hüquqi;
- hərbi təhsil və kadrların yenidən hazırlanması;
- qarşılıqlı maraq doğuran digər sahələr.

2.2. Yuxarıda göstərilən sahələrdə xüsusi əməkdaşlıq proqramlarının reallaşdırılması məqsədilə Tərəflər ayrıca sazişlər imzalaya bilərlər.

Maddə 3

Əməkdaşlığın formaları

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

- rəsmi ziyarətlər və işçi görüşləri;
- təcrübə mübadiləsi və məsləhətləşmələr;
- təlim layihələrində, təkmilləşdirmə kurslarında iştirak;
- hərbi təlimlərdə birgə iştirak;
- konfranslarda və seminarlarda iştirak;
- qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi.

Maddə 4

Planlaşdırma və idarəetmə

4.1. Tərəflər bu Saziş əsasında müdafiə sahəsində ikitərəfli əməkdaşlığın illik planına daxil edilməsi üçün hər il oktyabr ayının 15-dək təkliflər mübadiləsi

edəcəklər. Razılaşdırılmadan sonra Plan Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən hər ilin 1 dekabr tarixinədək növbəti il üçün imzalanacaqdır.

4.2. Hər bir Tərəf bu Saziş çərçivəsində imzalanmış illik əməkdaşlıq planında nəzərdə tutulan tədbirlər üzrə əlaqələndirici şəxsi təyin edəcəkdir.

Maddə 5

Maliyyə məsələləri

5.1. Səfər edən Tərəf Qəbul edən Tərəfin dövlətinin ərazisinə və geriyə səfər xərclərini, eləcə də yolda çəkilən xərcləri və sığorta haqqını ödəyir.

5.2. Qəbul edən Tərəf öz dövlətinin ərazisində nəqliyyat, yaşayış və qida xərclərini ödəyir.

5.3. Qəbul edən Tərəf təcili tibbi yardım və stomatoloji xərcləri ödəyir.

Digər tibbi və stomatoloji xidmətlərin xərclərini Səfər edən Tərəf ödəyəcəkdir.

Bu ümumi qarşılılıq prinsipi dəstəkləyici heyət (məsələn, sürücülər və tərcüməçilər) də daxil olmaqla on nəfərdən artıq üzvü olan qruplara şamil edilməyəcəkdir. Bu qruplara şamil ediləcək maliyyə prosedurları Tərəflər arasında hər bir konkret halda bağlanılacaq qarşılıqlı razılaşma ilə müəyyənləşdiriləcəkdir.

Maddə 6

Hüquqi məsələlər və iddialar

6.1. NATOSNT SOFA-nın müddəalarına müvafiq olaraq, Tərəflər özlərinin şəxsi heyəti üzərində cinayət və inzibati hüquq icraatını həyata keçirəcəklər.

6.2. İddialara NATOSNT SOFA-nın müddəalarına uyğun olaraq baxılacaqdır.

6.3. Tərəflər 4-cü Maddədə qeyd olunmuş əlaqələndirici şəxslər vasitəsilə iddiaların aid olduğu şəxslərlə məlumat mübadiləsi aparacaqlar.

Maddə 7

Məlumat mübadiləsi

7.1. Bu Sazişin həyata keçirilməsi ilə bağlı məlumat mübadiləsi diplomatik kanallar vasitəsilə və ya birbaşa Tərəflər arasında aparılacaqdır.

7.2. Tərəflər bu Sazişə müvafiq olaraq əməkdaşlıq çərçivəsində əldə etdikləri məxfi məlumatı icazəsiz açıqlanmadan mühafizə etmək üçün bütün zəruri tədbirləri görəcəklər. Belə məlumatın açıqlanması yalnız onun mənbəyi olan Tərəfin razılığı ilə ola bilər.

Maddə 8

Qüvvəyə minmə, qüvvədə olma müddəti, sazişdən çıxma, düzəlişlər, mübahisələrin həlli

8.1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alınması tarixindən qüvvəyə minir.

8.2. Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri Sazişin müddətinin bitməsi tarixindən 6 (altı) ay əvvəl bu Sazişdən çıxmaq niyyəti barədə yazılı şəkildə digər Tərəfə bildirməzsə, Saziş avtomatik olaraq növbəti 5 (beş) illik müddətə uzadılacaqdır.

8.3. Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və düzəlişlər edilə bilər. Həmin protokollar bu Sazişin 8.1-ci Maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

8.4. Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı bütün mübahisələr yalnız Tərəflər arasında ikitərəfli məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu Saziş Riqa şəhərində 15 avqust 2005-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətn üstün tutulacaqdı.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	LATVİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
SƏFƏR ƏBİYEV	*EİNARS REPSE*
Müdafiə naziri	*Müdafiə naziri*

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E.Z.Kərimovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Emil Zülfüqar oğlu Kərimov iqamətgahı Roma şəhərində ol-maqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2005-ci il

№1035

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Latviya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Latviya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Latviya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2005-ci il

№1037

Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2005-ci il

№1039

Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilmə-si haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2005-ci il

№1040

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2005-ci il

№1042

Beynəlxalq İnkişaf Assosiasiyasının əlavə resurslarına dair Öhdəlik Sənədini ("Resurslara əlavələr: on dördüncü əlavə ödəmə") imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Beynəlxalq İnkişaf Assosiasiyasının əlavə resurslarına dair Öhdəlik Sənədini ("Resurslara əlavələr: on dördüncü əlavə ödəmə") Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Öhdəlik Sənədini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2005-ci il

№1043

"Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri"nin birinci abzasında "ikizolaqlı" sözü "üçzolaqlı" sözü ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 20 oktyabr 2005-ci il

№192

Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikasının "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Kredit haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikasının "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Kredit haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 oktyabr 2005-ci il

№1056

Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikası və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Zəmanət haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Zəmanət haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamının 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 oktyabr 2005-ci il

№1057

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının vahid xarici siyasət xəttinin həyata keçirilmə-sini təmin etmək məqsədilə və Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçı-

van Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqə-dar iştirakını nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasın-dakı İdarəsi yaradılsın.

2. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasın-dakı İdarəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respub-likasındakı İdarəsinin fəaliyyətinin maliyyələşdirilməsi ilə əlaqədar 2005-ci il üçün dövlət büdcəsindən və 2006-cı il və növbəti illər üçün dövlət büdcəsi layihələrində vəsaitin ayrılmasını nəzərdə tutsun;

3.2. bu Fərmanın icrasını təmin etmək üçün digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmanın icra-sını təmin etmək üçün zəruri olan məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətin-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasın-dakı İdarəsinin inzibati bina ilə təmin edilməsi üçün zəruri olan tədbirləri görsün və bu Fərmanın icrasını təmin etmək üçün digər məsələləri həll etsin.

6. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№307

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 31 oktyabr tarixli 307 nömrəli Fərmanı ilə Təsdiq Edilmişdir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi haqqında Əsasnamə

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasın-dakı İdarəsi (bundan sonra - İdarə) Azərbaycan Respublikasının həmsərhəd və digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasi-bətlərinin genişlənməsini və Naxçıvan Muxtar Respublikasının bu münasibətlərdə iştı-rakını nəzərə alaraq, Azərbaycan Respublikasının vahid xarici siyasət xəttinin həyata keçirilməsini və bununla əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respubli-kasında fasiləsiz və ardıcıl həyata keçirilməsini təmin etmək məqsədilə yaradılmışdır.

2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Diplomatik

xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, Nazirliyin normativ hüquqi aktlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

3. İdarə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri, habelə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən hüquqi şəxslərlə və yaşayan fiziki şəxslərlə, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici dövlətlərin konsulluqları, beynəlxalq təşkilatların nümayəndəlikləri (bundan sonra - xarici nümayəndəliklər) ilə qarşılıqlı əlaqədə fəaliyyətini həyata keçirir.

4. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikasının iştirakı Nazirlik ilə razılaşdırmaqla və əlaqələndirməklə, zəruri hallarda isə İdarənin və (və ya) Nazirliyin digər struktur bölməsinin iştirakı ilə həyata keçirilir.

5. İdarənin yerləşdiyi binanın üzərində və onun ərazisində Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi" yazısı olan lövhə vurulur.

6. İdarə qanunvericiliyə müvafiq olaraq sərəncamında olan dövlət əmlakına, bank və xəzinə hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

7. İdarənin fəaliyyətinin maliyyələşdirilməsi dövlət büdcəsi hesabına həyata keçirilir.

8. İdarə Naxçıvan şəhərində yerləşir.

II. İdarənin Əsas Vəzifələri

9. İdarənin əsas vəzifələri aşağıdakılardır:

9.1. Azərbaycan Respublikasının vahid xarici siyasi xəttinin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;

9.2. Azərbaycan Respublikasının vahid xarici siyasi xəttinin Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə bağlı Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində iştirak etdikdə, həyata keçirilməsini təmin etmək və bu məqsədlə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanlarının fəaliyyətini istiqamətləndirmək, əlaqələndirmək və müvafiq münasibətlərdə bilavasitə iştirak etmək;

9.3. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə bağlı

xarici dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişafına kömək göstərmək;

9.4. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində müvafiq saziş layihələrinin hazırlanmasında, danışıqların hazırlanmasında və (və ya) aparılmasında iştirak etmək və kömək göstərmək, bu zaman Azərbaycan Respublikasının mənafelərinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına riayət edilməsinə nəzarəti həyata keçirmək;

9.5. Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının xarici əmək miqrasiyası və Naxçıvan Muxtar Respublikasında xarici işçi qüvvəsinin istifadəsi ilə bağlı Nazirliyin səlahiyyətinə aid edilmiş məsələlərin həllində qanunvericiliyə müvafiq olaraq iştirak etmək;

9.6. Azərbaycan Respublikasının dövlət protokolunu Naxçıvan Muxtar Respublikasında təmin etmək;

9.7. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində iştirakı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanlarının razılaşdırılmış fəaliyyətinin təmin edilməsində iştirak etmək və Nazirliklə qarşılıqlı əlaqələrini təmin etmək;

9.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

III. İdarənin Əsas Funksiyaları

10. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

10.1. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklərlə münasibətlərdə Nazirliyi təmsil edir;

10.2. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklərin Azərbaycan Respublikasının qanunvericiliyindən, eləcə də Azərbaycan Respublikasının və xarici dövlətlərin və beynəlxalq təşkilatların iştirak etdikləri beynəlxalq müqavilələrdən irəli gələn vəzifələrinin tam həcmdə yerinə yetirilməsi üçün tədbirlər görür;

10.3. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında sazişlərin bağlanması, icrası,

ləğv edilməsi və qüvvəsinin dayandırılması barədə təkliflər hazırlayır və müəyyən olunmuş qaydada Nazirliyə təqdim edir;

10.4. Azərbaycan Respublikasının xarici və daxili siyasəti, tarixi, sosial-iqtisadi və mədəni həyatı haqqında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəlikləri rəsmi məlumatlandırır;

10.5. Naxçıvan Muxtar Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarını və bələdiyyələrini, həmçinin kütləvi informasiya vasitələrini Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti haqqında məlumatlandırır.

10.6. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində xarici dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlər sahəsində Nazirlik ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələndirmənin təkmilləşdirilməsinə dair təkliflər verir və Nazirlik tərəfindən müəyyən edilmiş tədbirlərin həyata keçirilməsində iştirak edir;

10.7. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikasının Nazirliklə razılaşdırmaqla xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla Nazirliyin iştirakı ilə danışıqların aparılmasını təşkil edir;

10.8. Naxçıvan Muxtar Respublikasında keçirilən beynəlxalq xarakterli tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak edir və müvafiq işlərin aparılmasını əlaqələndirir;

10.9. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklərin fəaliyyətinə kömək göstərir, öz səlahiyyətləri daxilində onlara xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarət edir;

10.10. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklər, beynəlxalq təşkilatlar, xarici dövlətlərin müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələri ilə əlaqələrinin yaradılmasında və həyata keçirilməsində kömək göstərir;

10.11. Azərbaycan Respublikasındakı xarici nümayəndəliklərin Naxçıvan Muxtar Respublikasında öz funksiya və vəzifələrinin yerinə yetirilməsində kömək göstərir;

10.12. Naxçıvan Muxtar Respublikasında diplomatik və konsul imtiyaz və immunitetlərinə riayət olunması üzərində nəzarəti həyata keçirir;

10.13. qanunvericiliklə müəyyən edilmiş qaydada müxtəlif kateqoriyalı vizalar verir və konsul leqallaşdırmasını həyata keçirir;

10.14. öz səlahiyyətləri daxilində müəyyən edilmiş qaydada notariat əməliyyatları həyata keçirir;

10.15. qanunvericilikdə nəzərdə tutulmuş qaydada Nazirliyi məlumatlandırmaqla xidməti pasportlar verir və Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq diplomatik pasportların verilməsi üçün Nazirlik qarşısında vəsatət qaldırır;

10.16. Naxçıvan Muxtar Respublikasında olan hüquqi şəxslərin dəvəti ilə Azərbaycan Respublikasına gələcək əcnəbilərə viza verilməsi barədə Nazirlik ilə razılaşdırmaqla konsulluqlara tapşırıq verir;

10.17. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin qanuni mənafelərinin müdafiəsi üçün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklər qarşısında məsələ qaldırır;

10.18. Azərbaycan Respublikasının xarici dövlətlərlə mülki, cinayət və digər məsələlər üzrə işlərə dair qarşılıqlı hüquqi yardımın Naxçıvan Muxtar Respublikasında göstərilməsi ilə əlaqədar Nazirliyin səlahiyyətlərinə aid edilmiş məsələlərin həllində iştirak edir və kömək göstərir;

10.19. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici nümayəndəliklərin əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin qeydiyyatını aparır;

10.20. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasında konsulluq xidmətlərini həyata keçirir;

10.21. qanunvericilikdə müəyyən edilmiş digər funksiyaları yerinə yetirir.

IV. İdarənin Hüquqları

11. İdarə öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

11.1. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində münasibətlərin yaradılması, danışıqların hazırlanması və (və ya) aparılması barədə Nazirliyi məlumatlandırmaq, müvafiq işlərin aparılmasında, habelə saziş layihələrinin hazırlanmasında iştirak etmək, onların Azərbaycan Respublikasının mənafelərinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olması üzərində nəzarəti həyata keçirmək;

11.2. öz səlahiyyətlərinə aid edilmiş məsələlərlə əlaqədar Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarından, habelə yerli icra hakimiyyəti orqanlarından və bələdiyyələrindən, fiziki və hüquqi şəxslərdən müəyyən edilmiş qaydada arayışlar və məlumatlar almaq;

11.3. öz səlahiyyətlərinə aid edilmiş məsələlərlə əlaqədar zəruri işçi qrupları yaratmaq, habelə müşavirələr keçirmək;

11.4. öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada bülletenlər və digər məcmuələr buraxmaq;

11.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. İdarənin Fəaliyyətinin Təşkili

12. İdarənin fəaliyyətinə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təqdimatı ilə Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən İdarənin rəhbəri həyata keçirir.[1]

13. İdarənin rəhbəri İdarəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və onun funksiyalarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

14. İdarənin rəhbərinin Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən bir müavini vardır.

15. İdarənin rəhbəri:

15.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

15.2. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasının iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə əlaqədar Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda, qaydada və səlahiyyətlər daxilində Naxçıvan Muxtar Respublikasının səlahiyyətli orqanlarının müvafiq münasibətlərinin yaradılmasında, danışıqlarının hazırlanmasında və (və ya) aparılmasında bilavasitə iştirak edir və Nazirliyi təmsil edir;

15.3. Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanları, habelə xarici nümayəndəliklər ilə qarşılıqlı münasibətlərdə Nazirliyi təmsil edir.

15.4. İdarənin strukturu, işçilərinin say həddi və xərclər smetası barədə təklifləri hazırlayıb Nazirliyə təqdim edir;

15.5. öz səlahiyyətləri daxilində İdarənin fəaliyyətinə dair icrası məcbur olan əmrlər, sərəncamlar, göstərişlər verir;

15.6. öz səlahiyyətləri daxilində İdarədə normativ hüquqi aktların icrasını təşkil edir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir.

16. İdarənin rəhbəri olmadıqda və ya vəzifələrini icra edə bilmədikdə, onu İdarənin rəhbərinin müavini Nazirliyi məlumatlandırmaqla əvəz edir.

17. İdarənin strukturu, işçilərinin say həddi və xərclər smetası Nazirliyin strukturu, işçilərinin say həddi və xərclər smetası daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilir. İdarədə diplomatik xidmət keçmə Azərbaycan Respublikasının dövlət qulluğu və diplomatik xidmət haqqında qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir. İdarədə qulluqla bağlı məsələlər Nazirlik tərəfindən həll edilir.

18. İdarənin işi Nazirliklə əlaqələndirməklə, Nazirliyin tapşırıqları nəzərə alınmaqla tərtib olunan illik plan üzrə təşkil olunur. İdarənin illik planı müəyyən edilmiş qaydada

Nazirlik tərəfindən təsdiq olunur.

İstifadə Olunmuş Mənbə Sənədlərin Siyahısı

1. 22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman ("Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 1013)

Fərmana Edilmiş Dəyişiklik və Əlavələrin siyahısı

[1] 22 noyabr 2005-ci il tarixli 318 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman ("Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 1013) ilə 12-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

12. İdarənin fəaliyyətinə rəhbərliyi Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən İdarənin rəhbəri həyata keçirir.

Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Niderland Krallığımda (Amsterdam şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1069

Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərin-də) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin fəaliyyətinin təmi-

natı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1070

Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1071

Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1072

Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1073

Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nü-

mayəndəliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1074

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1075

Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1076

Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1077

Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1078

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 oktyabr 2005-ci il

№1079

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəliyinin başçısı Y. T. Əliyevin iqamətgahı Nyu-York şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kuba Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəliyinin başçısı Yaşar Teymur oğlu Əliyev iqamətgahı Nyu-York şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kuba Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 noyabr 2005-ci il

№1085

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E. Z. Kərimovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Emil Zülfüqar oğlu Kərimov iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 noyabr 2005-ci il

№ 1086

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rabitə rəisi-Baş Qərargah rəisinin müavini general-mayor Fazil Adil oğlu Aşumova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rabitə rəisi-Baş Qərargah rəisinin müavini general-mayor Fazil Adil oğlu Aşumova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2005-ci il

№1087

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında məcburi köçkünlər üçün sosial infrastruktur obyektlərinin tikintisi layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında məcburi köçkünlər üçün sosial infrastruktur obyektlərinin tikintisi layi-

həsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi" ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamının 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2005-ci il

№1089

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 31 yanvar tarixli 6 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi ilə bağlı xərc normalarının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 31 yanvar tarixli 6 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"na əlavənin 3.1-ci bəndində "120000" rəqəmi "135000" rəqəmi ilə və 3.2-ci bəndində "80000" rəqəmi "100000" rəqəmi ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 9 noyabr 2005-ci il

№ 204

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 fevral tarixli 23 nömrəli qərarı ilə təsdiq edilmiş "Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi Qaydaları"na əlavə edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 oktyabr tarixli 1042 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 fevral tarixli 23 nömrəli qərarı ilə təsdiq edilmiş "Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi Qaydaları"nın 3-cü bəndində "nümayəndəliklərində" sözündən sonra "və konsulluqlarında" sözləri əlavə edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 14 noyabr 2005-ci il

№ 208

E. E. Süleymanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elin Emin oğlu Süleymanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 noyabr 2005-ci il

№1096

E. E. Süleymanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Elin Emin oğlu Süleymanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 noyabr 2005-ci il

№1097

"Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Kənd təsərrüfatı məhsulu istehsalçılarının müasir kənd təsərrüfatı texnikası və avadanlıqları ilə təmin edilməsi məsələlərinin tənzimlənməsi, habelə "Aqrotexservis" şəbəkələrinin yaradılmasının dəstəklənməsi məqsədilə Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi barədə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Hökuməti arasında imzalanmış Notalar Mübadiləsinə əsasən ərzaq məhsulları istehsalının artırılması məqsədilə 2005-ci il oktyabrın 1-nə Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantların hesabına alınıb respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının icarəyə verilməsindən və satışından Tərəfdaşlıq Fonduna yığılmış, habelə Tərəfdaşlıq Fondunun hesabına 2004-2005-ci illərdə alınmış texnikanın icarəyə verilməsindən və satışından toplanan vəsaitlərin hesabına "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, Notalar Mübadiləsinin 7-ci bəndinə və Yaponiya Hökumətinin Azərbaycandakı Səfirliyinin 2005-ci il 5 avqust tarixli 304-05 nömrəli Notasına uyğun olaraq kənd təsərrüfatı texnikasının alınıb respublikaya gətirilməsi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Tərəfdaşlıq Fondunun hesabına alınıb respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından toplanan vəsaitlərin təkrar istifadəsi üçün Azərbaycan Respublikasının Beynəlxalq Bankında xüsusi depozit hesabının (Dövriyyə Hesabının) açılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Hökuməti arasında 2005-ci il 9 mart tarixində imzalanmış Notalar Mübadiləsinə əsasən Yaponiya Hökuməti tərəfindən 2005-ci il üçün ayrılmış 200 mln. iyen qrant vəsaiti hesabına respublikaya gətiriləcək 25 ədəd taxılyığan kombaynların və bundan sonra alınacaq kənd təsərrüfatı texnikasının "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə mövcud qanunvericiliyə müvafiq qaydada lizinqə verilməsini və ya lizinq yolu ilə satılmasını təmin etsin.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 15 noyabr 2005-ci il

№210

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci il 15 noyabr tarixli 210 nömrəli qərarı ilə
Təsdiq Edilmişdir

Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları

1. Bu Qaydalar respublikanın regionlarında "Aqrotexservis" müəssisələrinin yaradılmasının dəstəklənməsi və onların kənd təsərrüfatı texnikası ilə təmin olunması məqsədilə Tərəfdaşlıq Fonduna və Dövriyyə Hesabına toplanmış vəsaitlər hesabına Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə alınacaq kənd təsərrüfatı texnikasının lizinqə verilməsini və ya lizinq yolu ilə satılmasını müəyyən edir.

2. Tərəfdaşlıq Fondunun və Dövriyyə Hesabının vəsaitlərinin təkrar istifadəsi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə razılaşdırılmaq üçün təqdim etdiyi maliyyələşdirmə Proqramına (layihənin həyata keçirilməsi üzrə hesabat) əsasən mövcud qanunvericiliyin tələblərinə uyğun qaydada təmin edilir.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə Tərəfdaşlıq Fondunun vəsaitləri hesabına alınmış kənd təsərrüfatı texnikasının lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından əldə olunan vəsaitlərin təkrar istifadə olunması üçün onların Dövriyyə Hesabına köçürülməsini təmin edir.

4. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Tərəfdaşlıq Fondunun və Dövriyyə Hesabının vəsaitləri hesabına alınmış kənd təsərrüfatı texnikasının lizinqə verilməsini və ya lizinq yolu ilə satılmasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun surətdə təmin edir.

5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Tərəfdaşlıq Fondunun və Dövriyyə Hesabının vəsaiti hesabına alınmış kənd təsərrüfatı texnikasının fiziki və hüquqi şəxslər tərəfindən səmərəli istifa-

də edilməsinə nəzarəti həyata keçirir və icarə haqlarının vaxtında yığılmasını təmin edirlər.

6. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə icarə haqlarının yığılması və Dövriyyə Hesabına köçürülməsi barədə hər rübün 1-ci ongünlüyündə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim edir.

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qruplarda tapşırıqlar yerinə yetirdiyi zaman xidmət müddətinin güzəştli hesabla pensiya təyin edilməsi, hərbi rütbələrin verilməsi, xidmət illərinə görə əlavə faiz hesablanması üçün xidmət illərinə əlavə olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 183 nömrəli qərarına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 oktyabr tarixli 302 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qruplarda tapşırıqlar yerinə yetirdiyi zaman xidmət müddətinin güzəştli hesabla pensiya təyin edilməsi, hərbi rütbələrin verilməsi, xidmət illərinə görə əlavə faiz hesablanması üçün xidmət illərinə əlavə olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 183 nömrəli qərarının adında və 1-ci bəndində "güzəştli hesabla pensiya təyin edilməsi" sözləri "pensiya məbləğinin hesablanması" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 183 nömrəli qərarı ilə təsdiq edilmiş "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qruplarda tapşırıqlar yerinə yetirdiyi zaman xidmət müddətinin güzəştli hesabla pensiya təyin edilməsi, hərbi rütbələrin verilməsi, xidmət illərinə görə əlavə faiz hesablanması üçün xidmət illərinə əlavə olunması Qaydası"nın adında və 1-ci bəndində "güzəştli hesabla pensiya təyin edilməsi" sözləri "pensiya məbləğinin hesablanması" sözləri ilə, 5-ci bəndində "Pensiya təyin olunan" sözləri "Pensiyanın məbləği hesablanan" sözləri ilə əvəz edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 15 noyabr 2005-ci il

№211

2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqında Saziş" üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 2005-ci il 20 sentyabr tarixli 984-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu, 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş"in 3.2-ci bəndinin müddəalarını nəzərə alaraq qərara alıram:

1. 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş"in 3.2-ci bəndinin müddəalarını nəzərə alaraq Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin 3.2-ci bəndinin müddəalarını nəzərə alaraq Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin təyin edilməsi barədə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş"in depozitarisi olan İran

İslam Respublikasını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2006-cı il

№1102

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Dağıstan Respublikası Hökuməti arasında sərhədyanı ticarət və nəqliyyat təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Dağıstan Respublikası Hökuməti arasında sərhədyanı ticarət və nəqliyyat təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1103

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il sentyabrın 9-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1104

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Kənd Təsərrüfatı Siyasəti və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Kənd Təsərrüfatı Siyasəti və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1105

Azərbaycan Respublikası Hökuməti və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında "Fermer təsərrüfatlarının informasiya və monitorinq sisteminin qurulmasına kömək göstərilməsi" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Azərbaycan arasında "Fermer təsərrüfatlarının informasiya və monitorinq sisteminin qurulmasına kömək göstərilməsi" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abbasova verilməsi barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatına (FAO) müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1106

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında borc təxirəsalma Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında borc təxirəsalma Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1107

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Kənd Ətraf Mühit Layihəsi), Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd Ətraf Mühit Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi və Azərbaycan Respublikası ilə Qlobal Ekoloji Fondun icraçı təşkilatı kimi çıxış edən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Qlobal Ekoloji Fondun Trast Fondunun Qrantı üzrə Saziş"i (Kənd Ətraf Mühit Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Kənd Ətraf Mühit Layihəsi), Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd Ətraf Mühit Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi və Azərbaycan Respublikası ilə Qlobal Ekoloji Fondun icraçı təşkilatı kimi çıxış edən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Qlobal Ekoloji Fondun Trast Fondunun Qrantı üzrə Saziş"i (Kənd Ətraf Mühit Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2005-ci il

№1108

"Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya sektorunun institusional gücləndirilməsi üçün Texniki Yardım haqqında Məktub"u Azərbaycan Respublikası Hökuməti, "Şəhər su təchizatı və kanalizasiya layihəsi" üzrə "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Xüsusi Əməliyyatlar)" və "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Adi Əməliyyatlar)" Azərbaycan Respublikası adından, "Asiya İnkişaf Bankı və "Azərsu" Səhmdar Cəmiyyəti arasında Layihə haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya sektorunun institusional gücləndirilməsi üçün Texniki Yardım haqqında Məktub"u Azərbaycan Respublikası Hökuməti, "Şəhər su təchizatı və kanalizasiya layihəsi" üzrə "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Xüsusi Əməliyyatlar)" və "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Adi Əməliyyatlar)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. "Asiya İnkişaf Bankı və "Azərsu" Səhmdar Cəmiyyəti arasında Layihə haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərsu" Səhmdar Cəmiyyətinin prezidenti Oqtay Sabir oğlu Əsədova verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktubu Azərbaycan Respublikası Hökuməti adından və sazişləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə və bu Sazişin 2-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərsu" Səhmdar Cəmiyyətinin prezidenti Oqtay Sabir oğlu Əsədova verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2005-ci il

№1116

"Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında Samur-Abşeron irriqasiya sistemi layihəsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında Samur-Abşeron irriqasiya sistemi layihəsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə OPEK Beynəlxalq İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 noyabr 2005-ci il

№1123

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında şəbəkə təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında şəbəkə təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə İtaliya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 noyabr 2005-ci il

№1125

"Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında Bank nəzarəti sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il sentyabrın 7-də imzalanmış "Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında Bank nəzarəti sahəsində Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 dekabr 2005-ci il

№1130

Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında Bank nəzarəti sahəsində Anlaşma Memorandumu

Giriş

Türkiyə Cümhuriyyətinin və Azərbaycan Respublikasının bank nəzarəti orqanları öz ölkələrində müvafiq səlahiyyətləri yerinə yetirmək və maliyyə institutlarının təhlükəsiz və sağlam fəaliyyətini təmin etmək məqsədilə nəzarət məlumatlarının mübadiləsi üçün aşağıdakılar barədə anlaşma əldə etdilər.

Türkiyə və Azərbaycan Respublikasının bank nəzarəti orqanları qarşılıqlı anlaşma və inam əsasında öz yurisdiksiyalarındakı əcnəbi qurumlara nəzarətin həyata keçirilməsi üçün əməkdaşlıq etməyə hazır olduqlarını bu Anlaşma vasitəsilə bildirirlər. Türkiyə və Azərbaycan Respublikasının bank nəzarəti orqanları mütəmadi nəzarət prosedurları üzrə əməkdaşlıq etmək, əcnəbi qurumlarla bağlı nəzarət məsələləri üzrə müvafiq məlumatları biri-birinə vaxtlıvaxtında və çevik əsasda açıqlamaq və təmin etmək üçün bütün mümkün imkanlarından istifadə etməlidirlər.

1. Anlayışlar

Bu Anlaşma Memorandumunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

"Türkiyənin Nəzarət orqanı" və "müvafiq orqanı" - Türkiyə Cümhuriyyətinin Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi və onun qərar qəbul edən orqanı kimi Bank Tənzimlənməsi və Nəzarəti Şurasıdır.

"Azərbaycan Respublikasının Nəzarət orqanı" və "müvafiq orqanı" Azərbaycan Respublikasının Milli Bankıdır.

"Maliyyə institutları" - banklarla məhdudlaşmır, bu anlaşmanı imzalayan nəzarət orqanları tərəfindən tənzimlənən və nəzarət olunan bütün digər maliyyə institutlarını da əhatə edə bilər.

"Əcnəbi qurum" - müvafiq qanunvericiliyə əsasən konsolidasiya olunmuş əsasda nəzarət olunan filial, nümayəndəlik, törəmə və ya hər hansı digər qurumdur.

"Yurisdiksiya" - nəzarət orqanının qanunvericiliyinin şamil edildiyi ərazidir.

"Xarici Nəzarət Orqanı" - Əcnəbi Qurumun təsis olunduğu ölkənin müvafiq nəzarət orqanıdır.

"Yerli Nəzarət Orqanı" - Əcnəbi Qurumun baş ofisinin və ya ana (əsas) müəssisəsinin təsis edildiyi ölkənin müvafiq nəzarət orqanıdır.

"Müraciət olunan orqan" - yardımın xahiş edildiyi nəzarət orqanıdır "Müraciət edən orqan" - yardım üçün müraciət edən nəzarət orqanıdır.

2. Məlumat Mübadiləsi

2.1. Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikasının Müvafiq Orqanları öz milli sərhədlərindən kənarda fəaliyyət göstərən maliyyə institutları üzərində effektli konsolidasiya olunmuş nəzarətin aparılması üçün məlumat mübadiləsinin həyata keçirilməsini qəbul edir.

2.2. Məlumat mübadiləsi əcnəbi qurumun cari fəaliyyətinə nəzarət, müvafiq bank nəzarəti orqanının icazəsinin predmeti olan səhmdarların strukturunda dəyişikliklər, yeni əcnəbi qurumun yaradılması ilə bağlı lisenziya və icazənin verilməsi, həmçinin lisenziyanın ləğv edilməsi prosesində əlaqələrin yaradılmasını və məlumat mübadiləsini ehtiva etməlidir.

2.3. Lisenziyaların və icazələrin verilməsi prosesi ilə bağlı aşağıdakı fəaliyyətlər həyata keçirilir:

2.3.1. Əcnəbi yurisdiksiyada əcnəbi qurumun təsis olunması ərizəsi haqqında xarici nəzarət orqanı tərəfindən gecikdirilmədən yerli nəzarət orqanına məlumatın verilməsi;

2.3.2. Tələb olunduğu halda, yerli nəzarət orqanı xarici nəzarət orqanına ərizəçi maliyyə institutunun yerli ölkənin bank qanunvericiliyinin və qaydalarının tələblərinə riayət edib-etməməsi, həmçinin inzibati strukturu və daxili nəzarət sistemlərini müvafiq qaydada idarə etmək qabiliyyəti haqqında məlumatların verilməsi;

2.3.3. Yerli nəzarət orqanı özünün tənzimləmə və nəzarət sistemi, ərizəçi maliyyə institutuna münasibətdə həyata keçiriləcək konsolidasiya olunmuş nəzarət barədə xarici nəzarət orqanına məlumat verir. Eyni qaydada xarici nəzarət orqanı həyata keçiriləcək nəzarətin çərçivəsi və xüsusi razılaşma tələb edə biləcək hər hansı xüsusi amil haqqında məlumat verir;

2.3.4. Xarici və yerli nəzarət orqanları əcnəbi qurumun nəzərdə tutulmuş inzibatçılarının və müvafiq səhmdarlarının məqbulluq və lazımi keyfiyyətlərə malik olması haqqında qanunvericiliklə icazə verilən və məqsədəuyğun olan səviyyədə məlumat mübadiləsini aparır.

2.4. Əcnəbi qurumun fəaliyyətinə nəzarətlə bağlı hər iki nəzarətçi aşağıdakı tədbirləri həyata keçirir:

2.4.1. Əcnəbi qurumun cari əməliyyatları üzrə mühüm hadisələrin və nəzarət məsələləri ilə əlaqədar məlumatların digər tərəfə təqdim edilməsi;

2.4.2. Öz müvafiq nəzarət sistemi barədə məlumatın təqdim edilməsi haqqında müraciətlərin cavablandırılması, milli nəzarət sistemində, xüsusilə əcnəbi qurumun fəaliyyətinə təsir edən ciddi dəyişikliklər barədə qarşılıqlı əsasda məlumat mübadiləsinin həyata keçirilməsi;

2.4.3. Əcnəbi qurumun sabit fəaliyyətinə təhlükə yarada biləcək hər hansı hadisə haqında məlumatın digər tərəfə təqdim olunması;

2.4.4. Əcnəbi quruma qarşı inzibati cərimələrin və ya hər hansı digər təsir (sanksiya) tədbirlərinin tətbiqi barədə məlumatın digər tərəfə təqdim olunması;

2.4.5. Nəzarət prosesinə kömək edə biləcək digər müvafiq məlumatların ötürülməsi prosesinin asanlaşdırılması.

2.5. Yeni əcnəbi qurumun fəaliyyətə başlaması və ya səhmdarların strukturunda baş verən dəyişikliklərlə bağlı nəzarət orqanları bir-birini məlumatlandırır.

2.6. Lisenziya ləğv edildiyi halda hər iki nəzarət orqanı bir-birini xəbərdar edir və bunun səbəblərini açıqlayır.

3. Yoxlamalar

3.1. Türkiyə və Azərbaycan Respublikasının nəzarət orqanları razılaşır ki, əcnəbi qurumda yoxlamaların həyata keçirilməsinə yardım etmək üçün qarşılıqlı əməkdaşlıq xüsusilə vacibdir.

3.2. Yerli nəzarət orqanı əcnəbi qurumun yoxlanılması və müvafiq yoxlama planı, eləcə də öz adından yoxlamanın həyata keçirilməsi üçün müəyyən hallarda və nəzarət orqanları arasında qarşılıqlı razılıq olduqda müstəqil audit şirkətin təyin olunması planı, yoxlamanın məqsədi, çərçivəsi və gözlənilən müddəti, həmçinin yoxlamanı həyata keçirənlərin adı haqqında xarici nəzarət orqanına məlumat verir.

3.3. Yerli nəzarət orqanı tərəfindən əcnəbi qurumda yoxlamalar xarici nəzarət orqanının yazılı razılığı ilə həyata keçirilir.

3.4. Yerli nəzarət orqanı xarici ölkədəki bütün yoxlamaları xarici nəzarət orqanının iştirakı ilə həyata keçirir.

3.5. Yoxlamadan sonra nəzarət orqanları nəticələrlə əlaqədar fikir mübadiləsi aparır. Yerli nəzarət orqanı yoxlama hesabatlarını yekunlaşdırdıqda yekun hesabatın xülasəsini xarici nəzarət orqanına təqdim edir.

4. Məlumat və Yoxlamalar Üzrə Müraciətlər

4.1. Müraciət olunan nəzarət orqanı müvafiq yazılı xahişin alınmasından sonra, müraciət edən nəzarət orqanının ölkəsində fəaliyyət göstərən maliyyə institutunun əcnəbi qurumu ilə bağlı tələb olunan məlumatı təqdim edir və ya yoxlamanın keçirilməsi xahişini yerinə yetirir.

4.2. Müraciətə əsas yaradan nəzarət məsələsinə aid hallar istisna olunmaqla, tələb olunan məlumat əsasən müştərilərin hesabları barədə məlumatları ehtiva etmir. Əgər yuxarıdakı istisna halı reallaşarsa, belə müştəri hesabı haqqında məlumat yığılır və qanunla müəyyənləşdirilmiş dərəcədə müraciət olunan nəzarət orqanının özü tərəfindən təqdim olunur.

4.3. Məlumat üçün müraciətlər yazılı şəkildə təqdim olunur. Eyni zamanda nəzarət orqanı təcili fəaliyyətin həyata keçirilməsini zəruri hesab edirsə, sözügedən müraciətlər sonradan yazılı şəkildə təsdiq olunmaq şərtilə hər hansı digər formada təqdim oluna bilər.

4.4. Nəzarət orqanında digər nəzarət orqanının tənzimləmə və nəzarət funksiyalarının yerinə yetirilməsinə yardım edə biləcək məlumat olduqda, müraciət olmadan könüllülük əsasında məlumat digər tərəfə ötürülə bilər.

5. Məlumatları Qorunması

5.1. Məlumat mübadiləsi məlumatların açıqlanmasının məhdudlaşdırılması da daxil olmaqla, müvafiq normativ hüquqi aktlara uyğun həyata keçirilir.

5.2. Digər nəzarət orqanından daxil olan hər hansı məxfi məlumat yalnız bank nəzarəti məqsədləri üçün istifadə olunur.

5.3. Nəzarətçi digər tərəfdən əldə olunmuş sənədləri və alınmış məlumatı müvafiq qanunla müəyyənləşdirilmiş qaydada məxfi saxlayır. Eyni zamanda nəzarət orqanının əməkdaşları öz vəzifələrinin icrası zamanı əldə etdikləri bütün məlumatları qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məxfi saxlayırlar.

5.4. Tərəflər arasında sorğu əsasında əldə edilən sənədlər və məlumatlar yalnız tərəflərin qanunvericiliyi ilə səlahiyyəti olan şəxslərə digər nəzarət orqanına bu barədə əvvəlcədən məlumat verildikdən sonra açıqlana bilər.

6. Cari ilə Əlaqələndirmə

6.1. Türkiyənin və Azərbaycan Respublikasının nəzarət orqanları məlumat məqsədli səfərlər və əməkdaşların mübadiləsi yolu ilə münasibətlərini inkişaf etdirə bilərlər.

6.2. Bundan əlavə, hər iki dövlətin nəzarət orqanları nəzarətçilərinin iştirakı və dəstəyi ilə kadrların inkişafı proqramlarını təşkil edə, həmçinin hər iki döv-

lətdə sağlam nəzarət təcrübəsini gücləndirə bilər.

6.3. Türkiyə və Azərbaycan Respublikasının nəzarət orqanları nəzarət məsələlərini müzakirə etmək məqsədilə imkan daxilində tez-tez görüşlər keçirir.

7. Digər Müddəalar

7.1. Bu Anlaşma Memorandumu göstərilən çərçivədə işgüzar əlaqələrin genişləndirilməsi məqsədini daşımaqla onları məhdudlaşdırmır.

7.2. Nəzarət orqanları qarşılıqlı razılıq əsasında və müvafiq səbəbləri yazılı şəkildə göstərərək bu Anlaşma Memorandumuna dəyişikliklər edə bilərlər.

7.3. Əgər nəzarət orqanı məlumatın verilməsi və ya yoxlamaların keçirilməsi haqqında müraciəti yerinə yetirməkdən imtina etsə, o, Müraciət Edən Orqanı belə addımın səbəbləri haqqında gecikdirilmədən məlumatlandırır.

7.4. Müraciət Edən Nəzarət Orqanının bu Saziş üzrə yardım xahişi cavablandırılarkən ciddi xərclərə məruz qalacağı aydınlaşarsa, tərəflər belə müraciətin cavablanmasından əvvəl xərclərin bölüşdürülməsinin çərçivəsini müəyyənləşdirir.

7.5. Saziş tərəflərin lazımi ölkədaxili prosedurlarının başa çatması barədə xəbərdar edilməsi ilə qüvvəyə minir və bank nəzarəti orqanlarından birinin digər bank nəzarəti orqanının iştirakdan imtina etmək istədiyi barədə qabaqcadan yazılı surətdə xəbərdar etməsinədək fəaliyyət göstərir. Bu halda Saziş xəbərdarlığın alındığı gündən başlayaraq 30 gün ərzində fəaliyyətini davam etdirir. Göstərilən xəbərdarlığın tarixinədək yardımın göstərilməsi barədə göndərilmiş sorğulara bu Sazişin şərtlərinə uyğun olaraq bank nəzarəti orqanları tərəfindən baxılır.

7.6. Bu Sazişə xitam verildiyi halda alınan məlumatların məxfiliyi qorunur.

7.7. Hər iki nəzarət orqanı bu Sazişin müddəalarının yerinə yetirilməsi üçün əlaqələndirici şəxslər təyin edir.

7.8. Bu Saziş üç dildə tərtib olunur: türk, Azərbaycan və ingilis. Mətnlər arasında uyğunsuzluq meydana çıxarsa, ingilis dilində olan versiyasına üstünlük verilir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN	TÜRKİYƏ RESPUBLİKASI TƏRƏFİNDƏN
ELMAN RÜSTƏMOV	*YUSİF ZİYA ÖNDƏR*
Milli Bankı İdarə Heyətinin sədri	*Bank Tənzimləməsi və Nəzarəti Agentliyi İdarə Heyətinin üzvü*

"Azərbaycan Respublikası Hökuməti, Asiya İnkişaf Bankı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Şəhərlər Alyansının Azərbaycanda şəhər və regional inkişaf strategiyalarına dair Proqramı üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti, Asiya İnkişaf Bankı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Şəhərlər Alyansının Azərbaycanda şəhər və regional inkişaf strategiyalarına dair Proqramı üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Asiya İnkişaf Bankına və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 dekabr 2005-ci il

№1132

Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Resipient") və Kreditanştalt für Videraufbau, Frankfurt am Main ("KfW") arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini və həmin Müqaviləyə dair Xüsusi Razılaşmanı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Resipient") və Kreditanştalt für Videraufbau, Frankfurt am Main ("KfW") arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "SamurYalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Resipient") və Kreditanştalt für Videraufbau, Frankfurt am Main ("KfW") arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "SamurYalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsinə dair Xüsusi Razılaşmanı imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova və Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Maliyyələşdirmə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova və 2-ci bəndində göstərilən Xüsusi Razılaşmanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova və Azərbaycan Respublikasının sənaye və energetika naziri Məcid Zahid oğlu Kərimova verilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 dekabr 2005-ci il

№1133

2005-ci il oktyabrın 16-da Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ərəb Dövlətləri Liqasının Baş Katibliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il oktyabrın 16-da Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ərəb Dövlətləri Liqasının Baş Katibliyi arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2005-ci il

№1135

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ərəb Dövlətləri Liqasının Baş Katibliyi arasında Anlaşma Memorandumu

Preambula

Aşağıda "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ərəb Dövlətləri Liqasının Baş Katibliyi, öz aralarındakı siyasi dialoqu və birgə əməkdaşlığı inkişaf etdirmək məqsədilə

tarixi əlaqələrdən və qarşılıqlı rəğbətdən çıxış edərək, Azərbaycan Respublikası ilə Ərəb Dövlətləri Liqası arasındakı siyasi, iqtisadi və mədəniyyət sahələrindəki münasibətlərin inkişaf etdirilməsinin regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin qorunmasına xidmət edəcəyini nəzərə alaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Ərəb Dövlətləri Liqasının Nizamnaməsi çərçivəsində münasibətlərini və əməkdaşlığı inkişaf etdirməyə dair qarşılıqlı məqsədlərini bir daha təsdiq edərək, beynəlxalq hüquq normalarını əsas tutaraq, qarşılıqlı maraq kəsb edən mövzular ətrafında müntəzəm şəkildə məsləhətləşmə zərurətini bir daha dəstəkləyərək, aşağıda qeyd olunanlar barəsində razılığa gəldilər:

Birinci: siyasi sahədə əməkdaşlıq:

1. Müxtəlif sahələrdəki dostluq münasibətlərini gücləndirmək və dərinləşdirmək məqsədilə Tərəflər siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirəcək, səy göstərərək özlərinin tətbiq etdiyi nizamnamələr və daxili qanunlar çərçivəsində münasibətlərini gücləndirmək və ən yüksək səviyyəyə qaldırmaq üçün çalışacaqlar.

2. Tərəflər arasındakı siyasi dialoqun məqsədi:

Qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlərin müzakirəsi.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində, BMT-nin ixtisaslaşdırılmış Agentlikləri və digər beynəlxalq təşkilatlar vasitəsilə əməkdaşlığın fəallaşdırılması.

Siyasət, elm və mədəniyyət sahələrinə aid məlumat mübadiləsi.

3. "Yuxarıda qeyd olunan məqsədlərə nail olunması üçün Tərəflər aşağıdakıları həyata keçirəcəklər:

Beynəlxalq və regional problemlərə, beynəlxalq münasibətlərdəki müasir tendensiyalara, dünya və beynəlxalq müstəvidəki sabitliyə dair fikir mübadiləsi.

Tərəflər arasındakı ayrıca razılaşmalara əsasən siyasi, iqtisadi və mədəniyyət toplantıları və forumlarının təşkili üçün birgə yardımın göstərilməsi.

Müvafiq şəraitə və Tərəflərin razılaşmalarına uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin toplantıları çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri ilə Ərəb Dövlətləri Liqasının Baş katibi arasında illik görüşün keçirilməsi.

Yuxarıda qeyd olunan məqsədlərin və mexanizmlərin həyata keçirilməsi yollarının araşdırılması məqsədilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Liqa Baş Katibliyinin vəzifəli şəxsləri arasında səfərlər mübadiləsi, bütün bunların həyata keçirilməsi ilə bağlı və bu barədə məsləhətləşmə aparıb lazımi göstərişlərin verilməsi məqsədilə Azərbaycan Respublikasının xarici işlər naziri və Ərəb Dövlətləri Liqasının Baş katibinə təkliflərin təqdim olunması.

İkinci: iqtisadi sahədə əməkdaşlıq:

Birgə iqtisadi məqsədlər və mənafelərin əldə olunması naminə, ticarət və kapital qoyuluşu dinamikasının fəallaşdırılması üçün lazımi təşəbbüslərin irəli sürülməsi məqsədilə, özəl sektorla bağlı sənaye layihələrinin təşkili üçün imkanların yaradılması məqsədilə, ərəb ölkələrində və Azərbaycanda ticarət sərgilərinin təşkil olunması üçün Tərəflər öz iş adamları və ticarət palataları arasında toplantılar və forumlar keçirilməsini təşviq edəcəklər.

Üçüncü: mədəniyyət sahəsində əməkdaşlıq:

Bütün bunları ikitərəfli müstəvidə, həmçinin beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq və əlaqələndirmə prinsipi əsasında həyata keçirmək üçün Tərəflər mədəniyyət sahəsində birgə təşəbbüslərin qəbul edilməsi, sivilizasiyalar və mədəniyyətlər arasın-

dakı dialoqla bağlı təşəbbüslərin dəstəklənməsi, elmi və akademik əməkdaşlığın tətbiqi məqsədilə səy göstərərək çalışacaqlar.

Dördüncü: dəyişiklik:

Tərəflərin razılığı əsasında bu Memorandumа dəyişiklik edilə bilər.

Beşinci: Qüvvəyə minmə:

Bu Memorandum Tərəflərin onu imzaladıqları tarixdən qüvvəyə minir.

Bu Memorandum Qahirə şəhərində 2005-ci il 16 oktyabr tarixində iki nüsxədə, eyni qüvvəyə malik olan Azərbaycan və ərəb dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ƏRƏB DÖVLƏTLƏRİ LİQASI ADINDAN
ELMAR MƏMMƏDYAROV	*AMR MUSA*
Xarici işlər naziri	*Baş katib*

"Təbii və texnogen xarakterli fəlakətlər baş verərkən fövqəladə yardım göstərilməsi və fövqəladə vəziyyətlərin ləğv edilməsi zamanı əməkdaşlıq haqqında" Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) iştirakçısı olan dövlətlərin Hökumətləri arasında Sazişə Əlavə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Təbii və texnogen xarakterli fəlakətlər baş verərkən fövqəladə yardım göstərilməsi və fövqəladə vəziyyətlərin ləğv edilməsi zamanı əməkdaşlıq haqqında" Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) iştirakçısı olan dövlətlərin Hökumətləri arasında Sazişə Əlavə Protokolu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Ukraynada və Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tələt Müseyib oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əlavə Protokolu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Ukraynada və Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tələt Müseyib oğlu Əliyevə verilməsi barədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2005-ci il

№1137

2004-cü il oktyabrın 28-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 28-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Dəyişikliklərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2005-ci il

№1152

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər

2 yanvar 2004-cü il tarixli "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş"in (bundan sonra "Saziş" adlandırılacaq) VII Maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi (MN) Sazişə aşağıdakı dəyişikliklərin edilməsi barədə razılığa gəldilər:

1. III Maddəni "on milyon ABŞ dolları"nı sözlərini "iyirmi milyon ABŞ dolları"nı sözləri ilə əvəz edərək dəyişdirmək.

2. V Maddəni aşağıdakı yeni 5-ci və 6-cı bəndləri əlavə etməklə dəyişdirmək:

"5) Sazişə əsasən Amerika Birləşmiş Ştatlarının heç bir məxfi məlumatı və Azərbaycan Respublikasının heç bir məxfi dövlət məlumatı mübadilə edilməyəcəkdir.

6) NK və ya onun səlahiyyətli icraedici qurumu MN-ə, ABŞ Hökuməti tərəfindən təmin edilən monitorinq və müəyyənedici avadanlıq və texnologiyadan və ya ABŞ Hökuməti tərəfindən təmin edilən hər hansı bir digər maddə, cihazlar və ya ekspertizadan istifadə edilərək kütləvi qırğın silahları ilə bağlı maddələrin müəyyənləşdirilməsi və ya müsadirə edilməsi haqqında xəbəri və bu barədə əldə edilən hər bir məlumatı zamanında xəbər verəcəkdir. KQS barəsindəki hadisələr haqqında belə xəbərdarlığın və məlumatın bildirilməsinin zamanı və üsulları MN və NK arasında və ya onun səlahiyyətli icraedici qurumu arasında İcra Sazişində razılaşdırılacaqdır".

Bu Dəyişikliklər Tərəflərin imzaladığı tarixdən qüvvəyə minir və Sazişin müddətində

qüvvədə qalacaqdır. Sazişin ləğv edilməsindən asılı olmayaraq, V Maddənin 5-ci bəndi Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında 1999-cu il sentyabrın 28-də imzalanan Sazişin qüvvədə olduğu müddətdə tətbiqi davam edəcəkdir.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər lazımi qaydada səlahiyyətli olaraq bu Sazişi imzaladılar.

Bakı şəhərində 2004-cü il sentyabrın 29-da və Vaşinqton şəhərində 2004-cü il oktyabrın 28-də hər biri Azərbaycan və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası müdafiə nazirinin müavini general-leytenant Çingiz Mustafa oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası müdafiə nazirinin müavini general-leytenant Çingiz Mustafa oğlu Məmmədova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2005-ci il

№1153

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi ilə qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin xarici dövlətlərin parlamentləri ilə əlaqələr üzrə aşağıdakı tərkibdə işçi qrupları yaradılsın:

1. Azərbaycan - Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Kazımov Mirkazım Məhəmməd oğlu - qrupun rəhbəri,
2. Abbasov Aqil Məhəmməd oğlu,
3. Abbasova Lalə Gülbaba qızı,
4. Aslanov Novruzəli Davud oğlu.

2. Azərbaycan - Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əliyev Cəlal Əlirza oğlu - qrupun rəhbəri,
2. Abdullayev Hüseyn Abbas oğlu,
3. Hacıyev Şəmsəddin Hümmət oğlu,
4. Heydərov Fəttah Səməd oğlu,
5. Həsənova Məlahət İbrahim qızı,
6. İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu,
7. Əliyev Adil Abış oğlu,
8. Əhmədov Vahid Qazməmməd oğlu,
9. Xəlilov Rüstəm Gülabba oğlu,
10. Mollazadə Asim Nazim oğlu,
11. Mustafayev Fazil Qəzənfər oğlu,
12. Orucov Zahid Məhərrəm oğlu,
13. Rzayev Rövşən Şükür oğlu,
14. Zabelin Mixail Yuryeviç.

3. Azərbaycan - Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əliyeva Mehriban Arif qızı - qrupun rəhbəri,
2. Əmiraslanov Azər Kamal oğlu,
3. Hacıyeva Gültəkin Yunis qızı,
4. Xəlilov Dünyamin Zakir oğlu,
5. Xudiyev Nizami Mənaf oğlu,
6. Məmmədxanov Anar Camali oğlu,
7. Məhərrəmov Abel Məmmədəli oğlu,
8. Mollazadə Asim Nazim oğlu,
9. Novruzov Siyavuş Dünyamalı oğlu,
10. Seyidov Səməd İsmayıl oğlu,

11. Talıbov Vasif Yusif oğlu.

4. Azərbaycan - Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Xəlilov Rüstəm Gülabba oğlu - qrupun rəhbəri,
2. Abramov Yevda Sasunoviç,
3. Hacıyeva Gültəkin Yunis qızı,
4. Kazımov Mirkazım Məhəmməd oğlu.

5. Azərbaycan - Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. İsmayılov İmamverdi İbiş oğlu - qrupun rəhbəri,
2. Əhmədov Gülhüseyn Əliəhməd oğlu,
3. Əliyev Vasif İzzət oğlu,
4. Hacıyev İsmayıl Muxtar oğlu,
5. Məmmədov İlham Kazım oğlu.

6. Azərbaycan - Avstriya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Qurbanov Cavid Qənbər oğlu - qrupun rəhbəri,
2. Abıyev Ağacan Qulam oğlu,
3. Hacıyev Sabir Kamal oğlu,
4. Heydərov Fəttah Səməd oğlu,
5. Hətəmov Sevindik Hacağa oğlu,
6. İbrahimov Eldar Rza oğlu,
7. Qurbanov Eyvaz Daşdəmir oğlu.

7. Azərbaycan - Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Süleymanov Tahir Süleyman oğlu - qrupun rəhbəri,
2. Əhmədov Əli Cavad oğlu,
3. Xudiyev Nizami Mənaf oğlu,
4. Məmmədov Elman Camal oğlu,
5. Rəhimzadə Arif Qafar oğlu.

8. Azərbaycan - Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Həsənquliyev Qüdrət Müzəffər oğlu - qrupun rəhbəri,
2. Cavadov Ərəstun Nurəddin oğlu,
3. Muradov Fuad Rauf oğlu,
4. Orucov Zahid Məhərrəm oğlu,
5. Zeynalov Fərrux Məmmədnəbi oğlu.

9. Azərbaycan - Birləşmiş Ərəb Əmirlikləri parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Novruzov Siyavuş Dünyamalı oğlu - qrupun rəhbəri,
2. Abbasov Aydın Abbas oğlu,
3. Əsədullayev Çingiz Rauf oğlu,
4. Həbibbəyli İsa Əkbər oğlu,
5. İsgəndərov Nizami Zaman oğlu,
6. Naibov-Əylisli Əkrəm Nəcəf oğlu.

10. Azərbaycan - Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Hüseynov Əli Məhəmməd oğlu - qrupun rəhbəri,
2. Abbasova Lalə Gülbaba qızı,
3. Abıyev Ağacan Qulam oğlu,
4. Əliyev Rauf Asif oğlu,
5. Məmmədov Elman Camal oğlu,
6. Məmmədov Elton Arzuman oğlu.

11. Azərbaycan - Bosniya-Hersoqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Qurbanlı Mübariz Qəhrəman oğlu - qrupun rəhbəri,
2. Əhmədov Gülhüseyn Əliəhməd oğlu,
3. Hüseynov Rafael Baba oğlu,
4. Məmmədov Nazim Hüseyn oğlu.

12. Azərbaycan - Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əsədullayev Çingiz Rauf oğlu - qrupun rəhbəri,
2. Abbasov Aydın Abbas oğlu,
3. Abdullayev Rövnəq İbrahim oğlu,
4. Aslanova Rəbiyyət Nurullah qızı,
5. Mirələmov Hüseynbala Fazil oğlu,
6. Rəcəbli Hadi Musa oğlu,
7. Rəhimzadə Arif Qafar oğlu,
8. Süleymanov Tahir Süleyman oğlu.

13. Azərbaycan - Braziliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Ağazadə İqbal Fehruz oğlu - qrupun rəhbəri,
2. Cavadov Ərəstun Nurəddin oğlu,
3. Mirzəzadə Aydın Böyükkişi oğlu,

4. Quliyev Musa İsa oğlu.

14. Azərbaycan - Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Seyidov Səməd İsmayıl oğlu - qrupun rəhbəri,
2. Əhmədova Gülər Mikayıl qızı,
3. Kərimli Azər Şəmşid oğlu,
4. Qurbanov Cavid Qənbər oğlu.

15. Azərbaycan - Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əhmədov Əli Cavad oğlu - qrupun rəhbəri,
2. Əhmədov Əhəd Abbas oğlu,
3. Əhmədov Gülhüseyn Əliəhməd oğlu,
4. Hacıyev İsmayıl Muxtar oğlu,
5. Kazımlı Xanhüseyn Hüseynağa oğlu,
6. Məsimli Əli Əhməd oğlu,
7. Novruzov Siyavuş Dünyamalı oğlu.

16. Azərbaycan - Danimarka parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əmiraslanov Azər Kamal oğlu - qrupun rəhbəri,
2. Aslanov Novruzəli Davud oğlu,
3. Quliyev Rüfət Atakişi oğlu,
4. Məmmədova Həvva İsa qızı.

17. Azərbaycan - Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Məmmədxanov Anar Camali oğlu - qrupun rəhbəri,
2. Hüseynov Əli Məhəmməd oğlu,
3. Qənbərov Miri Əhəd oğlu,
4. Şükürov Məjlum Şükür oğlu.

18. Azərbaycan - Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Quliyev Musa İsa oğlu - qrupun rəhbəri,
2. Abıyev Əhəd Mikayıl oğlu,
3. Hüseynov Əli Məhəmməd oğlu,
4. Qəribov Fərhad Həsən oğlu.

19. Azərbaycan - Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Vəkilov Vaqif Səməd oğlu - qrupun rəhbəri,
2. Hətəmov Sevindik Hacağa oğlu,
3. Məmmədov Vidadi Yunis oğlu,

4. Mirzəzadə Aydın Böyükkişi oğlu.

20. Azərbaycan - Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əhmədova Gülər Mikayıl qızı - qrupun rəhbəri,
2. Abbasov Aqil Məhəmməd oğlu,
3. Axundova Elmira Hüseyn qızı,
4. Ələsgərov Murtuz Nəcəf oğlu,
5. Quliyev Azay Əjdər oğlu,
6. Məmmədov Elman Camal oğlu,
7. Möhbalıyev Səttar Suliddin oğlu,
8. Talıbov Vasif Yusif oğlu.

21. Azərbaycan - Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Paşayeva Qənirə Ələsgər qızı - qrupun rəhbəri,
2. Abdullayev Rövnəq Abbas oğlu,
3. Həsənov Aydın Xanhüseyn oğlu,
4. Quliyev Azay Əjdər oğlu,
5. Musayev Madər Ələsgər oğlu.

22. Azərbaycan - Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Xanlarova Zeynəb Yəhya qızı - qrupun rəhbəri,
2. Abıyev Əhəd Mikayıl oğlu,
3. Quliyev Rüfət Atakişi oğlu,
4. Muradov Fuad Rauf oğlu.

23. Azərbaycan - Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Mahmudov Yaqub Mikayıl oğlu - qrupun rəhbəri,
2. Əhmədov Vahid Qazməmməd oğlu,
3. Məmmədov İlham Kazım oğlu,
4. Məsimli Əli Əhməd oğlu.

24. Azərbaycan - İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əliyev Bəxtiyar Həmzə oğlu - qrupun rəhbəri,
2. Abbasov Aydın Abbas oğlu,
3. Əsədullayev Çingiz Rauf oğlu,
4. Məmmədov Nazim Hüseyn oğlu.

25. Azərbaycan - İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əhmədov Gülhüseyn Əliəhməd oğlu - qrupun rəhbəri,

2. Ağazadə İqbal Fehruz oğlu,
3. Quliyeva Aynur Camal qızı,
4. Şahverdiyev Astan Nuşrəvan oğlu.

26. Azərbaycan - İran parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Talıbov Vasif Yusif oğlu - qrupun rəhbəri,
2. Hacıyev Şəmsəddin Hümmət oğlu,
3. İbrahimov Eldar Rza oğlu,
4. Musayev Madər Ələsgər oğlu,
5. Rüstəmxanlı Sabir Xudu oğlu.

27. Azərbaycan - İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Abramov Yevda Sasunoviç - qrupun rəhbəri,
2. Abbasova Lalə Gülbaba qızı,
3. Məmmədov Səfər Musa oğlu,
4. Vəkilov Vaqif Səməd oğlu.

28. Azərbaycan - İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Ağamalı Fəzail Rəhim oğlu - qrupun rəhbəri,
2. Hüseynov Rafael Baba oğlu,
3. Kərimli Azər Şəmşid oğlu,
4. Məhərrəmov Abel Məmmədəli oğlu,
5. Naibov-Əylisli Əkrəm Nəcəf oğlu,
6. Səmədzadə Ziyad Əliabbas oğlu.

29. Azərbaycan - İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Günəşov Xəlilbəy Günəş oğlu - qrupun rəhbəri,
2. Ağamalı Fəzail Rəhim oğlu,
3. Hüseynov Rafael Baba oğlu,
4. Məmmədov Vidadi Yunis oğlu,
5. Məmmədova Həvva İsa qızı,
6. Məmmədov İlham Kazım oğlu.

30. Azərbaycan - İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Məmmədov Elton Arzuman oğlu - qrupun rəhbəri,
2. Əliyev Bəxtiyar Həmzə oğlu,
3. Əliyev Rauf Asif oğlu,
4. Məmmədov Elman Camal oğlu,

5. Məsimli Əli Əhməd oğlu.

31. Azərbaycan - İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Kərimli Azər Şəmşid oğlu - qrupun rəhbəri,
2. Əhmədov Əli Cavad oğlu,
3. Günəşov Xəlilbəy Günəş oğlu,
4. Həsənquliyev Qüdrət Müzəffər oğlu,
5. Hüseynov Rafael Baba oğlu,
6. Quliyev Eldar Allahyar oğlu,
7. Quliyev Rüfət Atakişi oğlu,
8. Mahmudov Yaqub Mikayıl oğlu,
9. Paşazadə Cavanşir Hümmət oğlu.

32. Azərbaycan - Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Rüstəmxanlı Sabir Xudu oğlu - qrupun rəhbəri,
2. İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu,
3. Qənbərov Miri Əhəd oğlu,
4. Qurbanlı Mübariz Qəhrəman oğlu.

33. Azərbaycan - Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Quliyev Eldar Allahyar oğlu - qrupun rəhbəri,
2. Əliyev Rauf Asif oğlu,
3. Heydərov Fəttah Səməd oğlu,
4. Rəcəbli Hadi Musa oğlu,
5. Zabelin Mixail Yuryeviç.

34. Azərbaycan - Kuba parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Abıyev Ağacan Qulam oğlu - qrupun rəhbəri,
2. Abramov Yevda Sasunoviç,
3. Aslanov Novruzəli Davud oğlu,
4. Məmmədov İlham Kazım oğlu.

35. Azərbaycan - Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Abıyev Əhəd Mikayıl oğlu - qrupun rəhbəri,
2. Axundova Elmira Hüseyn qızı,
3. Cəfərov Nizami Qulu oğlu,
4. Qurbanlı Mübariz Qəhrəman oğlu.

36. Azərbaycan - Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Qəribov Fərhad Həsən oğlu - qrupun rəhbəri,
2. Cəfərov Nizami Qulu oğlu,
3. Quliyev Musa İsa oğlu,
4. Quliyeva Aynur Camal qızı,
5. Məmmədov Vidadi Yunis oğlu,
6. Seyidov Səməd İsmayıl oğlu.

37. Azərbaycan - Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Rzayev Tahir Musa oğlu - qrupun rəhbəri,
2. Abdullayev Əkrəm Kamal oğlu,
3. Məmmədov Vidadi Yunis oğlu,
4. Mustafayev Fazil Qəzənfər oğlu.

38. Azərbaycan - Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Məmmədov Səfər Musa oğlu - qrupun rəhbəri,
2. Cəfərov Nizami Qulu oğlu,
3. Əliyev Rauf Asif oğlu,
4. Vəkilov Vaqif Səməd oğlu.

39. Azərbaycan - Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Hacıyeva Gültəkin Yunis qızı - qrupun rəhbəri,
2. Abbasov Aydın Abbas oğlu,
3. Abdullayev Hüseyn Abbas oğlu,
4. Əsədullayev Çingiz Rauf oğlu,
5. Xəlilov Dünyamin Zakir oğlu,
6. Quliyev Eldar Allahyar oğlu.

40. Azərbaycan - Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu- qrupun rəhbəri,
2. Quliyev Musa İsa oğlu,
3. Mirələmov Hüseynbala Fazil oğlu,
4. Rəcəbli Hadi Musa oğlu,
5. Zabelin Mixail Yuryevic.

41. Azərbaycan - Liviya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Baxşəliyeva Gövhər Baxşəli qızı - qrupun rəhbəri,
2. Əliyeva Jalə Fazil qızı,

3. Həsənova Məlahət İbrahim qızı,
4. Şükürov Məjlum Şükür oğlu.

42. Azərbaycan - Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Axundova Elmira Hüseyn qızı - qrupun rəhbəri,
2. Abbasov Aydın Abbas oğlu,
3. Cavadov Ərəstun Nurəddin oğlu,
4. Hacıyev Sabir Kamal oğlu,
5. Məmmədov Elman Camal oğlu,

43. Azərbaycan - Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Kazımlı Xanhüseyn Hüseynağa oğlu - qrupun rəhbəri,
2. Hətəmov Sevindik Hacağa oğlu,
3. Qurbanov Eyvaz Daşdəmir oğlu,
4. Mirzəzadə Aydın Böyükkişi oğlu.

44. Azərbaycan - Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Mollazadə Asim Nazim oğlu - qrupun rəhbəri,
2. Əliyev Vasif İzzət oğlu,
3. Hacıyev Sabir Kamal oğlu,
4. Naibov-Əylisli Əkrəm Nəcəf oğlu.

45. Azərbaycan - Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Muradov Fuad Rauf oğlu - qrupun rəhbəri,
2. Kazımov Mirkazım Məhəmməd oğlu,
3. Məmmədov Səfər Musa oğlu,
4. Mustafayev Fazil Qəzənfər oğlu.

46. Azərbaycan - Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Quliyev Ülvi Zahid oğlu - qrupun rəhbəri,
2. Abbasov Aqil Məhəmməd oğlu,
3. Əhmədov Əhəd Abbas oğlu,

47. Azərbaycan - Mərakeş parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Həsənov Aydın Xanhüseyn oğlu - qrupun rəhbəri,
2. Aslanova Rəbiyyət Nurullah qızı,
3. Xanlarova Zeynəb Yəhya qızı,
4. Xəlilov Dünyamin Zakir oğlu,
5. Novruzov Siyavuş Dünyamalı oğlu.

48. Azərbaycan - Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Qənbərov Miri Əhəd oğlu - qrupun rəhbəri,
2. Baxşəliyeva Gövhər Baxşəli qızı,
3. Qurbanov Cavid Qənbər oğlu,
4. Məmmədov Elton Arzuman oğlu.

49. Azərbaycan - Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Aslanova Rəbiyyət Nurullah qızı - qrupun rəhbəri,
2. Həsənquliyev Qüdrət Müzəffər oğlu,
3. Möhbalıyev Səttar Suliddin oğlu,
4. Mustafayev Fazil Qəzənfər oğlu.

50. Azərbaycan - Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əliyev Adil Abış oğlu - qrupun rəhbəri,
2. Abdullayev Hüseyn Abbas oğlu,
3. Məmmədov Nazim Hüseyn oğlu,
4. Süleymanov Tahir Süleyman oğlu,
5. Şahverdiyev Astan Nuşrəvan oğlu.

51. Azərbaycan - Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Abdullayev Rövnəq İbrahim oğlu - qrupun rəhbəri,
2. Baxşəliyeva Gövhər Baxşəli qızı,
3. Quliyeva Aynur Camal qızı,
4. Rzayev Tahir Musa oğlu.

52. Azərbaycan - Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Orucov Zahid Məhərrəm oğlu - qrupun rəhbəri,
2. Əhmədov Əhəd Abbas oğlu,
3. İbrahimov Eldar Rza oğlu,
4. Mahmudov Yaqub Mikayıl oğlu,
5. Məmmədova Həvva İsa qızı,
6. Rüstəmxanlı Sabir Xudu oğlu.

53. Azərbaycan - Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. İbrahimov Eldar Rza oğlu - qrupun rəhbəri,
2. Həbibbəyli İsa Əkbər oğlu,
3. Həsənov Aydın Xanhüseyn oğlu,
4. Quliyev Musa İsa oğlu,

5. Novruzov Siyavuş Dünyamalı oğlu,
6. Paşazadə Cavanşir Hümmət oğlu,
7. Rzayev Tahir Musa oğlu.

54. Azərbaycan - Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Möhbalıyev Səttar Suliddin oğlu - qrupun rəhbəri,
2. Abıyev Ağacan Qulam oğlu,
3. Hacıyev Sabir Kamal oğlu,
4. Quliyev Eldar Allahyar oğlu.

55. Azərbaycan - Portuqaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Abdullayev Əkrəm Kamal oğlu - qrupun rəhbəri,
2. Abıyev Əhəd Mikayıl oğlu,
3. Hətəmov Sevindik Hacağa oğlu,
4. Səmədzadə Ziyad Əliabbas oğlu.

56. Azərbaycan - Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Quliyev Azay Əjdər oğlu - qrupun rəhbəri,
2. Hacıyev İsmayıl Muxtar oğlu,
3. Həbibbəyli İsa Əkbər oğlu,
4. Kazımov Mirkazım Məhəmməd oğlu.

57. Azərbaycan - Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Rəhimzadə Arif Qafar oğlu - qrupun rəhbəri,
2. Abdullayev Hüseyn Abbas oğlu,
3. Abdullayev Rövnəq İbrahim oğlu,
4. Abıyev Ağacan Qulam oğlu,
5. Abramov Yevda Sasunoviç,
6. Axundova Elmira Hüseyn qızı,
7. Əhmədov Əhəd Abbas oğlu,
8. Əhmədov Vahid Qazməmməd oğlu,
9. Əliyev Adil Abış oğlu,
10. Əliyeva Mehriban Arif qızı,
11. Günəşov Xəlilbəy Günəş oğlu,
12. Hacıyev Sabir Kamal oğlu,
13. İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu,
14. Məmmədxanov Anar Camali oğlu,

15. Məmmədov Elton Arzuman oğlu,
16. Mirələmov Hüseynbala Fazil oğlu,
17. Zabelin Mixail Yuryeviç.

58. Azərbaycan - Serbiya və Çernoqoriya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Həsənova Məlahət İbrahim qızı - qrupun rəhbəri,
2. Cavadov Ərəstun Nurəddin oğlu,
3. Mollazadə Asim Nazim oğlu,
4. Şahverdiyev Astan Nuşrəvan oğlu.

59. Azərbaycan - Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Heydərov Fəttah Səməd oğlu - qrupun rəhbəri,
2. Abbasova Lalə Gülbaba qızı,
3. Əhmədova Gülər Mikayıl qızı,
4. Əmiraslanov Azər Kamal oğlu,
5. Ələsgərov Murtuz Nəcəf oğlu,
6. İsmayılov İmamverdi İbiş oğlu,
7. Kazımlı Xanhüseyn Hüseynağa oğlu,
8. Musayev Madər Ələsgər oğlu,
9. Seyidov Səməd İsmayıl oğlu.

60. Azərbaycan - Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Hacıyev Şəmsəddin Hümmət oğlu - qrupun rəhbəri,
2. Axundova Elmira Hüseyn qızı,
3. Əliyeva Jalə Fazil qızı,
4. Qurbanov Cavid Qənbər oğlu.

61. Azərbaycan - Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Səmədzadə Ziyad Əliabbas oğlu - qrupun rəhbəri,
2. Ağamalı Fəzail Rəhim oğlu,
3. Xəlilov Dünyamin Zakir oğlu,
4. İsgəndərov Nizami Zaman oğlu,
5. Quliyev Azay Əjdər oğlu.

62. Azərbaycan - Suriya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Paşazadə Cavanşir Hümmət oğlu - qrupun rəhbəri,
2. Əliyev Vasif İzzət oğlu,

3. Həsənova Məlahət İbrahim qızı,
4. Qəribov Fərhad Həsən oğlu,
5. Səmədzadə Ziyad Əliabbas oğlu.

63. Azərbaycan - Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Naibov-Əylisli Əkrəm Nəcəf oğlu - qrupun rəhbəri,
2. Abdullayev Əkrəm Kamal oğlu,
3. Aslanov Novruzəli Davud oğlu,
4. Musayev Madər Ələsgər oğlu.

64. Azərbaycan - Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Əliyev Rauf Asif oğlu - qrupun rəhbəri,
2. Abdullayev Əkrəm Kamal oğlu,
3. Əsədullayev Çingiz Rauf oğlu,
4. Qəribov Fərhad Həsən oğlu.

65. Azərbaycan - Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Cəfərov Nizami Qulu oğlu - qrupun rəhbəri,
2. Abbasov Aqil Məhəmməd oğlu,
3. Abdullayev Əkrəm Kamal oğlu,
4. Ağazadə İqbal Fehruz oğlu,
5. Əhmədova Gülər Mikayıl qızı,
6. Ələsgərov Murtuz Nəcəf oğlu,
7. Əliyeva Jalə Fazil qızı,
8. Əliyeva Mehriban Arif qızı,
9. Hacıyev İsmayıl Muxtar oğlu,
10. Həsənova Məlahət İbrahim qızı,
11. Xanlarova Zeynəb Yəhya qızı,
12. Xəlilov Rüstəm Gülabba oğlu,
13. Xudiyev Nizami Mənaf oğlu,
14. İsgəndərov Nizami Zaman oğlu,
15. Qəribov Fərhad Həsən oğlu,
16. Paşayeva Qənirə Ələsgər qızı,
17. Rzayev Rövşən Şükür oğlu,
18. Zeynalov Fərrux Məmmədnəbi oğlu.

66. Azərbaycan - Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Şahverdiyev Astan Nuşrəvan oğlu – qrupun rəhbəri,
2. Aslanova Rəbiyyət Nurullah qızı,
3. Əhmədov Vahid Qazməmməd oğlu,
4. Məhərrəmov Abel Məmmədəli oğlu.

67. Azərbaycan - Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Zeynalov Fərrux Məmmədnəbi oğlu - qrupun rəhbəri,
2. Əliyev Adil Abış oğlu,
3. Hacıyev Şəmsəddin Hümmət oğlu,
4. Həbibbəyli İsa Əkbər oğlu,
5. Hüseynov Əli Məhəmməd oğlu,
6. Kərimli Azər Şəmşid oğlu,
7. Quliyev Rüfət Atakişi oğlu,
8. Quliyev Ülvi Zahid oğlu,
9. Qurbanov Eyvaz Daşdəmir oğlu,
10. Məmmədov Nazim Hüseyn oğlu,
11. Məsimli Əli Əhməd oğlu,
12. Paşazadə Cavanşir Hümmət oğlu,
13. Rzayev Tahir Musa oğlu,
14. Rzayev Rövşən Şükür oğlu.

68. Azərbaycan - Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Məhərrəmov Abel Məmmədəli oğlu - qrupun rəhbəri,
2. İsmayılov İmamverdi İbiş oğlu,
3. Hüseynov Əli Məhəmməd oğlu,
4. Quliyev Ülvi Zahid oğlu,
5. Quliyeva Aynur Camal qızı,
6. Paşayeva Qənirə Ələsgər qızı.

69. Azərbaycan - Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

1. Rəcəbli Hadi Musa oğlu - qrupun rəhbəri,
2. Əliyev Bəxtiyar Həmzə oğlu,
3. İsgəndərov Nizami Zaman oğlu,
4. Mirələmov Hüseynbala Fazil oğlu,
5. Şükürov Məjlum Şükür oğlu.

O. ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 13 dekabr 2005-ci il

№ 21-IIIQR

R.A.Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramiz Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2005-ci il

№1168

R.H.Rizayevin Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramiz Həsənqulu oğlu Rizayev Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2005-ci il

№1179

2005-ci il avqustun 26-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il avqustun 26-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən 2 saylı Düzəlişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2005-ci il

№1180

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında Kütləvi Qırğın Silahlarının Yayılmasının Qarşısının Alınmasında Əməkdaşlığa dair 2 yanvar 2004-cü il tarixli Sazişin (bundan sonra "Saziş") VII Maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi (MN) Sazişə aşağıda göstərilən düzəlişlərin edilməsinə dair razılığa gəldilər:

1. III Maddədə, "İyirmi Milyon ABŞ Dolları" sözləri "Otuz Beş Milyon ABŞ Dolları" sözləri ilə əvəz edilsin.

2. IV Maddənin ikinci cümləsi çıxarılaraq aşağıdakı yeni cümlə daxil edilsin:

"Bu Sazişin şərtləri, həmin tədbirlər əsasında, Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən təmin edilən hər hansı bir yardıma və belə tədbirlərin tətbiq edilməsi üçün tələb olunan bütün fəaliyyətlərə və heyətə şamil olunur".

Bu Düzəliş imzalandığı andan qüvvəyə minir və Sazişin tətbiq edildiyi müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyət almış aşağıdakı şəxslər bu Düzəlişi imzaladılar.

Bakıda 2005-ci il avqust ayının 1-ci günündə və Vaşinqtonda 2005-ci il avqust ayının 26-cı günündə Azərbaycan və ingilis dillərində mətnləri eyni dərəcədə autentik olan iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük atteşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin funksiyalarının həyata keçirilməsinin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən dövlətlərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrini (gömrük attaşelərini) təyin etmək səlahiyyəti verilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələri (gömrük attaşeləri) Azərbaycan Respublikasının həmin xarici dövlətlərdəki səfirliklərinə, onların bu səfirliklərin strukturlarına və ştat cədvəllərinə daxil edilməməsi şərti ilə ezam olunurlar.

3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələri (gömrük attaşeləri) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ayrılmış dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) fəaliyyətinin təmin olunması ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini həll etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn məsələləri həll etsin.

6. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2005-ci il

№331

Qara Dəniz Ticarət və İnkişaf Bankının səkkizinci illik toplantısının və Qara Dəniz Biznes Forumunun Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qara Dəniz Ticarət və İnkişaf Bankının 2005-ci il iyunun 5-də keçirilmiş yeddinci illik toplantısında Bankın Ali İdarəetmə orqanı olan Müdirlər Şurasına sədrliyin Azərbaycan Respublikasına keçdiyini, bu toplantıda qəbul edilən qərara uyğun olaraq Bakı şəhərində 2006-cı il iyunun 11-də Bankın səkkizinci illik toplantısının və iyunun 12-də Qara Dəniz Biznes Forumunun keçiriləcəyini nəzərə alaraq, həmin tədbirlərin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Qara Dəniz Ticarət və İnkişaf Bankının səkkizinci illik toplantısının 2006-cı il iyunun 11-də və Qara Dəniz Biznes Forumunun 2006-cı il iyunun 12-də Bakı şəhərində keçiriləcəyini nəzərə alaraq, toplantının və forumun hazırlanmasını və keçirilməsini təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri (Qara Dəniz Ticarət və İnkişaf Bankının Müdirlər Şurasında Azərbaycan Respublikasından müdir)

Təşkilat Komitəsinin sədr müavini

Samir Şərifov	- Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru (Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikasını təmsil edən direktor)

Təşkilat Komitəsinin üzvləri

Mikayıl Cabbarov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Mahmud Məmməd-Quliyev	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azər Bayramov	- Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Natiq Əmirov	- Azərbaycan Respublikası vergilər nazirinin müavini
Teymur Mehdiyev	- Azərbaycan Respublikası gənclər, idman və turizm nazirinin müavini
Ədalət Vəliyev	- Azərbaycan Respublikası mədəniyyət nazirinin muavini
Səfər Mehdiyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini
Niyazi Hacıyev	- Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəis müavini
Çingiz Əliyev	- "Azərbaycan Hava Yolları" Dövlət Konserninin idarə rəisi

2. Bu sərəncamın 1-ci bəndinə əsasən yaradılmış Təşkilat Komitəsi toplantının və forumun keçirilməsi ilə bağlı tədbirlər planı hazırlasın və onun yerinə yetirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 dekabr 2005-ci il

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında" 2005-ci il iyulun 20-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2005-ci il

№ 24-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq), 3 may 1992-ci ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında təhsil, tədris, ixtisaslaşdırma xidmətləri, texniki və elmi əməkdaşlıq Sazişi"nin müddəalarını nəzərə alaraq, mövcud dostluq və qardaşlıq münasibətlərini gücləndirmək, tərəflər arasında mövcud ikitərəfli əlaqələri möhkəmləndirmək və əməkdaşlığı inkişaf etdirmək arzusu ilə, xəritəçilik sahəsində əməkdaşlıq qurmaq və inkişaf etdirmək barədə anlaşmış və aşağıda göstərilən prinsip və şərtlər çərçivəsində razılaşmışlar.

Maddə I

Məqsəd

Bu Sazişin məqsədi Tərəflər arasında, öz milli qanunvericilikləri ilə müəyyən olunan səlahiyyətlər çərçivəsində, qarşılıqlı fayda və qarşılılıq əsaslarına görə xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq yaratmaq və həyata keçirməkdir.

Maddə II

Əhatə etdiyi sahə

Bu Saziş IV Maddədə müəyyən olunan əməkdaşlıq sahələrində, barəsində razılıq əldə olunan fəaliyyətlər üçün həyata keçiriləcək heyət, məlumat və təcrübə mübadiləsinə dair əsasları və prinsipləri əhatə edir.

Maddə III

İzahlar (Tərifllər)

1. "Coğrafi Məlumat" termini analoji və ya rəqəmli vəziyyətdəki quru və hava xəritələri, geodezi məlumatlar, rəqəmli coğrafi məlumatlar, reproduksiya (təkrar istehsal) materialları, aerofotoşəkillər və peyk təsvirləri, kartoqrafik məhsul kataloqları, coğrafi yer adları kataloqları, texniki təlimat və nəşrlər deməkdir.

2. "Göndərən Tərəf" bu Sazişin tətbiqi üçün Qəbul Edən Tərəfin ərazilərinə (torpaqlarına) heyət və material göndərən tərəf deməkdir.

3. "Qəbul Edən Tərəf" bu Sazişin tətbiqi üçün Göndərən Tərəfin heyət və materiallarını öz ölkəsində saxlayan tərəf deməkdir.

4. "Heyət" bu Sazişin məqsədləri üçün digər tərəfin ölkəsində olan heyət deməkdir.

5. "Yaxınları" Heyətin öz qanunvericiliyi ilə baxmaq öhdəliyi olan həyat yoldaşı və övladları deməkdir.

Maddə IV

Əməkdaşlıq sahələri

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlığın həyata keçirilməsinə səy göstərəcəklər:

1. Məxfilik dərəcəsi Azərbaycanda "XİDMƏTİ İSTİFADƏ ÜÇÜN", Türkiyədə "TASNİF DiŞi" olan coğrafi məlumatların mübadiləsi.

2. Tərəflərin səlahiyyətli orqanlarının icazəsinin təmin olunması şərtilə, "MƏXFİ" məxfilik dərəcəsi olan coğrafi məlumatların mübadiləsi.

3. Xəritəçilik sahəsində müştərək layihələrin həyata keçirilməsi.

4. Xəritəçilik sahəsində məlumat və eksperiment mübadiləsi, texniki yardımın təmin edilməsi.

5. Xəritəçilik sahəsində qarşılıqlı surətdə müəyyən ediləcək mövzularda təhsil verilməsi və kursların təşkil edilməsi.

Maddə V

Əməkdaşlığın əsasları

1. Tərəflər bu Sazişin məqsədlərinə uyğun olaraq əməkdaşlıq fəaliyyətlərinin həyata keçirilməsini, müşahidə edilməsini, inkişaf etdirilməsini və ortaya çıxa biləcək uyğunsuzluqların yerində və vaxtında həll edilməsini təmin etmək məqsədilə lazımi tədbirlər həyata keçirəcəklər.

2. Əməkdaşlıq Tərəflərin qarşılıqlı fayda və razılıq əsaslarına görə həyata keçiriləcək.

3. Tərəflər bu Sazişin IV maddəsində müəyyən olunan əməkdaşlıq sahələrinə dair təfərrüatları Tətbiq Etmə Protokolları vasitəsilə həyata keçirəcəklər.

4. Tətbiq Etmə Protokolları Azərbaycan Respublikası Hökuməti adından Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Türkiyə Respublikası Hökuməti adından Milli Müdafiə Nazirliyinin Xəritə Baş Komandanlığı tərəfindən birlikdə hazırlanacaq.

5. Qeyd olunan Tətbiq Etmə Protokolları bu Sazişin maddələrinə zidd olan müddəaları ehtiva etməyəcək.

6. Tərəflər arasında hər səviyyədə qarşılıqlı səfərlər həyata keçiriləcək.

Maddə VI

Coğrafi məlumatların təhlükəsizliyi və müəlliflik hüququ

1. Coğrafi məlumat və rəqəmlər mübadilə edildikdə, alan Tərəf təmin edən Tərəfin çoxaltma, təkrarlama, nəşr, müəlliflik hüququ və əldə etmə səlahiyyəti ilə bağlı şərt olaraq irəli sürdüyü bütün məhdudiyyətə əməl etməyi və bunun kimi təhlükəsizlik qaydalarına, təmin edən Tərəfin qoyduğu şəkildə, riayət etməyi öhdəliyinə götürür.

2. Coğrafi məlumat və rəqəmlər mübadiləsi hər hansı bir üçüncü tərəfə verilməyəcək və bu Sazişin məqsədlərinə uyğun olaraq, sadəcə hər iki ölkənin hökumət vəzifələrində istifadə ediləcək. Bu qaydadan istisna üçün məlumatları təmin edən Tərəfin əvvəlcədən yazılı icazəsi istəniləcək.

Maddə VII

Hüquqi məsələlər

1. Hər iki ölkədə iş icra edəcək heyət və yaxınları Qəbul Edən Tərəfin qüvvədə olan qanunvericiliyinə riayət edəcəklər.

2. Göndərən Tərəf heyətinin və yaxınlarının bir-birilərinin şəxsinə və ya malına və ya Göndərən Tərəfin malına və təhlükəsizliyinə qarşı işlənən qanun pozuntuları ilə zərər və ziyan baxımından mühakimə etmə səlahiyyətinə malik olacaq. Göstərilən bu hallar xaricində Qəbul Edən Tərəf cəza və hüquqi mühakimə etmə səlahiyyətinə də malikdir.

Maddə VIII

Maliyyə məsələləri

Bu Sazişin əhatə etdiyi fəaliyyətlərlə bağlı maliyyə məsələləri bu Sazişə uyğun olaraq qəbul ediləcək Tətbiq Etmə Protokollarında tam təfərrüatı ilə göstəriləcək.

Maddə IX

Tərəflərin digər beynəlxalq sazişlərdən irəli gələn öhdəlikləri

Bu Sazişin müddəaları hər iki ölkənin tərəf olduğu digər beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərinə təsir etməyəcək və digər dövlətlərin maraqlarına, təhlükəsizliklərinə və ərazi bütövlüklərinə qarşı istifadə olunmayacaq.

Maddə X

Uyğunsuzluqların həll edilməsi

Bu Sazişin şərhi və tətbiqinə dair hər hansı bir uyğunsuzluq ortaya çıxdığı halda, Tərəflər bu məsələni ən qısa müddətdə birlikdə təşkil edəcəkləri bir komissiya daxilində görüşlər yolu ilə və ya razılaşacaqları başqa bir üsulla həll edəcəklər. Uyğunsuzluğun həll edilməsi məqsədilə üçüncü bir şəxs və ya təşkilata və ya hakimə müraciət olunmayacaq. Uyğunsuzluq 90 gün ərzində həll edilməzsə, Tərəflərdən hər hansı biri 30 gün əvvəl yazılı şəkildə bildirmək şərti ilə bu Sazişi ləğv edə biləcək.

Maddə XI

Dəyişiklik və yenidən baxma

1. Tərəflərdən hər biri lazım bildiyi halda, bu Sazişdə dəyişiklik edilməsini və ya ona yenidən baxılmasını yazılı şəkildə təklif edə bilər. Bu halda dəyişiklik və yenidən baxmağa dair görüşlər 90 gün ərzində təşkil ediləcək.

2. Razılaşdırılacaq dəyişikliklər bu Sazişin XIII maddəsinin hökmlərinə uyğun olaraq qüvvəyə minəcək.

3. Üç ay ərzində görüşlər nəticə verməzsə, Tərəflərdən hər hansı biri 30 gün əvvəl yazılı şəkildə bildirmək şərtilə bu Sazişi ləğv edə biləcək.

Maddə XII

Qüvvədə qalma müddəti və ləğv olunma

1. Bu Sazişin müddəti beş ildir. Qüvvədə qalma müddətinin sonra çatdığı tarixdən əvvəl

altı ay ərzində Tərəflərdən birinin yazılı olaraq ləğv etməyi bildirmədiyi halda bu Sazişin qüvvədə qalma müddəti hər dəfə bir il uzadılacaq.

2. Bu Saziş qüvvəsini itirdiyi halda, bu Sazişə uyğun olaraq qəbul edilmiş Tətbiq Etmə Protokolları da öz qüvvəsini itirir, ancaq icrası davam edən layihələr tamamlanacaq.

3. Bu Sazişin ləğvi Saziş çərçivəsində verilmiş zəmanətlərin etibarlılığına xələl gətirmir.

Maddə XIII

Təsdiq və qüvvəyə minmə

Bu Saziş imzalandıqdan sonra hər iki Tərəfin hüquqi dövlətdaxili prosedurlarına uyğun olaraq təsdiq edildiyini bildirən notaların mübadilə edildiyi tarixdən qüvvəyə minəcək.

Maddə XIV

Mətn və imza

1. Bu Saziş hər biri eyni dərəcədə etibarlı olmaqla Azərbaycan və türk dillərində hazırlanmışdır.

2. Bu Saziş hər iki Dövlətin aşağıda adları olan səlahiyyətli nümayəndələri tərəfindən 20 iyul 2005-ci il tarixində Bakıda imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
QƏRİB MƏMMƏDOV	*TÜMG ALİ FUAT SARAÇ*
Dövlət Torpaq və Xəritəçəkmə Xəritə Komitəsinin sədri	*Baş komandanı*

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avro-Atlantik inteqrasiya sahəsində əməkdaşlıq haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avro-Atlantik inteqrasiya sahəsində əməkdaşlıq haqqında" 2005-ci il sentyabrın 23-də Sofiya şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2005-ci il

№ 27-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avro-Atlantik inteqrasiya sahəsində əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti, 29 iyun 1995-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə"yə uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində, Avropa Şurası və digər beynəlxalq təşkilatlar və regional forumlarda əməkdaşlığın yüksək səviyyədə olduğunu və müsbət nəticələr verdiyini bildirilərək, Avropa və Avro-Atlantik inteqrasiya sahəsində qarşılıqlı maraq doğuran sahələrdə əlaqələrin bundan sonra daha da yüksək inkişafına dəstək vermək və davamlı əməkdaşlığın gücləndirilməsi məqsədilə, Azərbaycan Respublikası ilə Avropa İştisadi Birliyi və onun üzv dövlətləri arasında imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi və Bolqarıstan Respublikası ilə Avropa İqtisadi Birliyi və onun üzv dövlətləri arasında imzalanmış Avropa Sazişini nəzərə alaraq, Azərbaycan Respublikasının Avro-Atlantik strukturlara inteqrasiyaya səy göstərdiyini və Bolqarıstan Respublikasının Şimali Atlantika Müqaviləsi Təşkilatına qəbul olunmasını qeyd edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlığın davam etdirilməsinə hazır olduqlarını və Cənubi Qafqazda münaqişələrin sülh yolu ilə həllində ATƏT-in rolunun artırılmasında əllərindən gələni əsirgəməyəcəklərini vurğuladılar.

Tərəflər Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlığın uğurlu inkişafını nəzərdə tutan Avropa və Avro-Atlantik inteqrasiya sahəsində qarşılıqlı əməkdaşlığı təşviq edəcək və Azərbaycan Respublikasının Avro-Atlantik strukturalara inteqrasiyası təşəbbüsünə dəstək göstərəcəklər.

Maddə 2

Tərəflər Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan Respublikası üçün imkanların tam istifadəsinə yönələcək fəaliyyətləri təkmilləşdirmək məqsədilə əməkdaşlıq edəcəklər.

Maddə 3

Tərəflər Avropa inteqrasiyası sahəsində, xüsusilə aşağıda göstərilən sahələrdə əməkdaşlıq edəcəklər:

1. İnstitusional quruculuq yolu ilə institusional strukturun gücləndirilməsi, yəni qanunun tətbiqinin, həmçinin dövlət məmurlarının hazırlanması və onların Avropa inteqrasiyası sahəsində ixtisas qabiliyyətlərinin artırılmasının təmin edilməsi;

2. Geniş ictimaiyyətin Avropa İttifaqı prosesi və Avropa inteqrasiyası haqqında məlumatlandırılması;

3. Hər iki Tərəfin Avropa inteqrasiyası sahəsində əldə etdikləri nailiyyətlərin birgə

məsləhətləşmələr, konfranslar, təşəbbüslər və başqa tədbirlərin həyata keçirilməsi ilə geniş ictimaiyyətə çatdırılması.

Maddə 4

Tərəflər viza siyasəti, sərhəd nəzarəti və miqrasiya sahəsində əməkdaşlıq edəcəklər. Əməkdaşlıq məsləhətləşmələr, əlaqələndirmə, texniki və inzibati yardım edilməsi yolu ilə aşağıdakı məqsədlər üçün həyata keçirilməlidir:

1. Qüvvədə olan qanunvericilik və təcrübələrə dair məlumat mübadiləsi;

2. Viza siyasəti, sənədlərin yoxlanılması və sərhəd nəzarəti sahələrində məlumat sistemlərinin yaradılması;

3. Sənədlərin yoxlanılmasında fiziki və texniki təhlükəsizlik;

4. Yuxarıda göstərilən sahələrdə çalışan mütəxəssislərin təlim keçməsi.

Maddə 5

Tərəflər Avro-Atlantik tərəfdaşlığın gücləndirilməsinə və Azərbaycan Respublikasının Fərdi Fəaliyyət Planının həyata keçirilməsinə kömək göstərmək məqsədilə birgə fəaliyyət göstərəcəklər. Bu əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

1. Avro-Atlantik tərəfdaşlıq və Avro-Atlantik və regional təhlükəsizlik sahələrində qarşılıqlı maraq doğuran digər məsələlərə dair müntəzəm birgə məsləhətləşmələrin aparılması;

2. Avro-Atlantik inteqrasiya məsələlərində milli əlaqələndirməyə dair institusional tədbirlərin gücləndirilməsi;

3. Avro-Atlantik inteqrasiya məqsədləri üçün inzibati bacarığın artırılması və milli işçi heyətlərinin təlimi;

4. Təhlükəsizlik və müdafiə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi;

5. Geniş ictimaiyyətin beynəlxalq təhlükəsizlik və Avro-Atlantik inteqrasiya sahəsində məlumatlandırılması;

6. Bu sahələrdə fəaliyyət göstərən QHT-lər arasında əməkdaşlığın təşviq edilməsi.

Maddə 6

Tərəflər öz münasibətlərində aşağıdakı vasitə və üsulları yerinə yetirməklə 2-ci, 3-cü, 4-cü və 5-ci maddələrdə müəyyən edilən sahələrdə əməkdaşlıq edəcəklər:

1. Avropa və Avro-Atlantik inteqrasiya sahəsində Tərəflər arasında məlumat və təcrübə mübadiləsinin aparılması və əməkdaşlığın artırılması;

2. Hər iki Tərəfin ekspert və rəsmilərinin iştirakı ilə keçirilən görüşlər, konfranslar, dəyirmi masalar və müxtəlif forumlar kimi birgə tədbirlərin təşkili.

3. Seminarlar, kurslar və təcrübələrin təşkili yolu ilə Avropa və Avro-Atlantik inteqrasiya mövzularında təlimlərin keçirilməsi və Tərəflərdən hər hansı birinin təşkil etdiyi beynəlxalq və milli seminar və kurslarda hər iki Tərəfdən olan mütəxəssislərin iştirakının təşviq edilməsi;

4. Hər iki ölkənin müvafiq institutlarında çalışan dövlət rəsmilərinin cəlb olunması ilə birgə təşəbbüslərin inkişafı;

5. Hər iki Tərəfin mövcud imkanlarını nəzərə alaraq qarşılıqlı maraq doğuran sahələrdə mütəxəssislərin mübadiləsi.

Maddə 7

Tərəflər bu Memorandumun həyata keçirilməsi üçün illik planlar hazırlaya bilərlər.

Maddə 8

Hər bir Tərəf mövcud milli qanunvericiliyinə uyğun olaraq qarşılıqlı əməkdaşlığın nəticələrini hər iki Tərəflə buna bənzər qarşılıqlı müqaviləsi olan üçüncü Tərəfə təqdim edə bilər.

Maddə 9

Bu Memorandumun heç bir maddəsi Tərəflər arasında imzalanmış digər mövcud və ya gələcək beynəlxalq sazişlərə xələl gətirməməlidir. Bu Memorandum digər hər hansı beynəlxalq sazişə əsasən Tərəflərin hüquq və öhdəliklərinə təsir etmir. Hər bir Tərəf özünün milli hüquqi və inzibati müddəalarına və öz səlahiyyət və mövcud ehtiyatlarına müvafiq olaraq bu Memorandumu həyata keçirəcək.

Maddə 1 0

Bu Memorandum imzalandığı gündən qüvvəyə minəcək.

Maddə 11

Bu Memorandum üç il müddətinə qüvvədə qalacaq. Memorandumun müddəti qarşılıqlı yazılı razılaşma əsasında uzadıla bilər.

Maddə 12

Bu Memoranduma düzəlişlər və əlavələr Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında edilə bilər

Maddə 13

Bu Memorandumun müddəti bitdikdən sonra, Tərəflər başqa razılığa gəlmədiyi təqdirdə, onun müddəalarının tətbiqi, qüvvədə olan layihə və əlaqələr başa çatdırılanadək davam etdiriləcəkdir.

Bu Memorandum Sofiya şəhərində 23 sentyabr 2005-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, bolqar və ingilis dillərində tərtib olunmuş, bütün mətnlər autentikdir. Sənədin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*YEVGENİYA KOVDANOVA*
Xarici işlər naziri	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında" 2005-ci il sentyabrın 23-də Sofiya şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2005-ci il

№28-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti və Bolqarıstan Respublikasının Hökuməti, iki dövlət arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi və əməkdaşlığın möhkəmləndirilməsi istəyini rəhbər tutaraq, hər iki dövlətin vətəndaşlarının Azərbaycan Respublikası və Bolqarıstan Respublikası ərazisinə giriş, çıxış, tranzit və müvəqqəti qalma məsələlərini tənzimləmək məqsədinə əsaslanaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Razılığa gələn Tərəfin birinin vətəndaşları viza ilə və hazırkı Sazişin əlavəsində əks olunmuş etibarlı sənədlərdən biri mövcud olduqda, bu Sazişin 4 və 5-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə daxil olur, tranzitlə keçir, qalır və tərk edir.

2. Razılığa gələn Tərəflərdən birinin vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq sərnişin nəqliyyatı üçün açıq olan dövlət sərhədlərindəki buraxılış məntəqələri vasitəsilə daxil olur və oranı tərk edirlər.

3. Əgər bu Sazişdə başqa hallar nəzərdə tutulmayıbsa, əcnəbilərin girişi, qalması və çıxışı qaydaları Razılığa gələn hər iki Tərəfin daxili qanunvericiliyi ilə müəyyən olunur.

Maddə 2

1. Razılığa gələn Tərəflərdən birinin vətəndaşları Razılığa gələn digər Tərəfin ərazisinə daxil olarkən bu dövlətin qanunlarına riayət etməlidirlər.

2. Razılığa gələn Tərəflərin vətəndaşları bu Sazişin müddəalarını və ya Razılığa gələn Tərəflərin hər hansı birinin ərazisinə gəlmə qaydalarını pozduqda qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 3

Razılığa gələn Tərəflərin vətəndaşları viza almaq üçün Razılığa gələn digər Tərəfin diplomatik və ya konsulluq nümayəndəliyinə müəyyən olunmuş qaydada rəsmiləşdirilmiş və qəbul edən dövlətin müvafiq hüquqi və fiziki şəxslərindən alınan dəvətnaməni təqdim etməlidirlər.

Maddə 4

1. Razılığa gələn Tərəflərin dövlətlərinin etibarlı diplomatik və xidməti pasportlara malik olan vətəndaşları mənfəət gətirən fəaliyyətlə məşğul olmaq hüququ olmadan, ilk giriş tarixindən hesablanaraq 6 (altı) ay çərçivəsində 90 (doxsan) gündən çox olmayan müddət ərzində Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil ola, tranzitlə keçə, qala və oranı tərk edə bilərlər.

2. 1-ci bənddə göstərilən müddətdən daha uzun müddətə qalmaq üçün Razılığa gələn Tərəflərin vətəndaşları viza almalıdırlar.

Maddə 5

1. Razılığa gələn Tərəflərin etibarlı diplomatik pasportlara malik olan və Razılığa gələn digər Tərəfin ərazisində yerləşən diplomatik və ya konsul nümayəndəliklərində, beynəlxalq təşkilatlarda və ticarət nümayəndəliklərində əməkdaş qismində akkreditə olunan vətəndaşları onların rəsmi statusunu təsdiq edən sənəd əsasında bütün akkreditasiya müddəti ərzində, Razılığa gələn digər Tərəfin ərazisinə vizasız daxil ola, orada qala və oranı tərk edə bilərlər.

Bu əməkdaşların təyinatı haqqında göndərən dövlət diplomatik kanallar vasitəsilə Razılığa gələn digər Tərəfi əvvəlcədən xəbərdar edir.

2. Razılığa gələn Tərəflərin diplomatik pasporta malik olmayan və Razılığa gələn digər Tərəfin ərazisində yerləşən diplomatik və ya konsul nümayəndəliklərinin, beynəlxalq təşkilatların və ya ticarət nümayəndəliklərinin əməkdaşı olan vətəndaşları bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş hüquqlardan istifadə edirlər və həmin şəxslər qəbul edən dövlətin ərazisinə ilk giriş günündən hesablanan 6 (altı) ay ərzində 90 (doxsan) gün müddətinə pulsuz birdəfəlik viza alırlar.

3. 1-ci və 2-ci maddələrin qeyd olunan müddəaları şəxslərin rəsmi gəlmə müddəti ərzində onlarla birgə yaşayan və diplomatik və ya xidməti pasportlara malik olan ailə üzvlərinə də şamil edilir.

4. 3-cü bənddə göstərilən şəxslər olduqları ölkədə kommersiya və ya əmək fəaliyyəti ilə məşğul ola bilməzlər.

Maddə 6

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları qarşılıqlı əsaslarla aşağıda qeyd olunan şəxslərə hər biri 90 (doxsan) gün olmaqla 1 (bir) illik müddətə pulsuz çoxdəfəli giriş vizaları verirlər:

a) ikitərəfli razılaşma əsasında Razılığa gələn Tərəflərin ərazisindən avtomobil nəqliyyatı ilə sərnişinlərin və yüklərin daşınması üçün müntəzəm səfərlər edən şəxslərə;

b) ikitərəfli razılaşma əsasında Razılığa gələn Tərəflərin ərazisindən üçüncü ölkələrə sərnişin və yüklərin müntəzəm beynəlxalq daşınmasını həyata keçirən şəxslərə.

Maddə 7

1. Razılığa gələn Tərəflərdən hər biri ictimai qaydaya, milli təhlükəsizliyə və ictimai sağlamlığa təhlükə törədə bilən Razılığa gələn digər Tərəfin vətəndaşlarını səbəbi göstərilmədən öz ərazisinə buraxmaqdan imtina edə bilərlər.

2. Razılığa gələn Tərəflər müvafiq tərəfin qanunvericiliyinə uyğun olaraq öz ölkələrinin ərazilərdən çıxışı məhdudlaşdırılmış şəxslərin, onların gedişinə mane olan hallar aradan qaldırılanadək üçüncü dövlətə keçmələrinin qarşısının alınması üçün tədbirlər görürlər.

Maddə 8

Razılığa gələn Tərəflərin xarici işlər nazirlikləri bu Sazişin imzalanmasından sonra onun qüvvəyə minməsinə ən azı 30 (otuz) gündən gec olmayaraq, bu Sazişin məqsədləri üçün və ya bu Sazişə əlavədə əks olunmuş etibarlı sənədlərin nümunələrini diplomatik kanallar vasitəsilə mübadilə edirlər, həmçinin yeni pasportların dövriyyəyə buraxılmasına ən azı 30 (otuz) gün qalmış bir-birilərinə həmin pasportların nümunələrini və onların dövriyyəyə daxil edilməsi qaydaları haqqında məlumat verirlər.

Maddə 9

1. Razılığa gələn Tərəflərin vətəndaşları Razılığa gələn digər Tərəfin ərazisinə daxil olmağa və orada qalmağa imkan verən pasportu və ya digər etibarlı sənədi itirdikdə bu barədə dərhal qəbul edən Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarına məlumat verməli və onlar da öz növbəsində heç bir rüsum almadan həmin şəxsləri müraciətlərini təsdiq edən sənədlə təmin etməlidirlər.

2. Bu maddənin 1-ci bəndində göstərilən hallarda, Razılığa gələn Tərəflərdən birinin Razılığa gələn digər Tərəfin ərazisində diplomatik və ya konsul nümayəndəliyi olmadıqda, qəbul edən Razılığa gələn Tərəfin səlahiyyətli orqanları Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanları ilə razılaşdıqdan sonra bu şəxslərə qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq onun sərhədlərini tərk etməyə imkan verən yeni keçid sənədi verirlər.

3. Vətəndaşın məxsus olduğu dövlətin diplomatik və ya konsul nümayəndəliyi itirilmiş sənədin əvəzinə həmin şəxsə onun pasportunu müvəqqəti əvəz edən sənəd verir. Həmin vətəndaş qəbul edən dövlətin ərazisini onun qanunvericiliyinə uyğun olaraq tərk edir.

Maddə 10

Bu Sazişin tətbiqi prosesində mübahisə və fikir ayrılığı yarandığı təqdirdə Razılığa gələn Tərəflər onları danışıqlar və diplomatik kanallarla aparılan məsləhətləşmələr vasitəsilə həll edəcəklər.

Maddə 11

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında ayrıca protokolla rəsmiləşdirilən və onun ayrılmaz hissəsi olan və bu Sazişin 13-cü maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 12

1. Razılığa gələn Tərəflərdən hər biri müstəsna hallarda, milli təhlükəsizlik, ictimai qayda və sağlamlıq maraqları naminə bu Sazişin qüvvəsini müvəqqəti olaraq tam və ya qismən dayandıra bilər. Sazişin dayandırılması dərhal qüvvəyə minir.

2. Bu maddənin 1-ci bəndinə uyğun tədbirlər həyata keçirən Razılığa gələn Tərəf diplomatik kanallar vasitəsilə 24 (iyirmi dörd) saatdan gec olmayaraq mümkün qədər qısa müddət ərzində bu tədbirlər barədə və müvafiq olaraq onların ləğvi barədə Razılığa gələn digər Tərəfə məlumat verməlidir.

Maddə 13

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı gündən sonra 30-cu (otuz) gün qüvvəyə minir.

2. Razılığa gələn Tərəflərdən hər hansı biri Razılığa gələn digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə hazırkı Sazişin qüvvəsini dayandıra bilər. Saziş belə bildirişin alındığı tarixdən 60 (altmış) gün sonra qüvvəsini itirir.

3. Şengen Müqaviləsinin Bolqarıstan Respublikasına münasibətdə qüvvəyə minməsindən sonra bu Sazişə yenidən baxılacaqdır.

Sofiya şəhərində 23 sentyabr 2005-ci ildə Azərbaycan, bolqar və rus dillərində iki əsl nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının tətbiqində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BOLQARISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*LYUBOMİR KÜÇÜKOV*
Xarici işlər naziri	*Xarici işlər nazirinin müavini*

Əlavə

Bu Sazişin məqsədləri üçün aşağıdakı sənədlər etibarlı sayılır:

1. Azərbaycan Respublikasının vətəndaşları üçün:

a) Diplomatik pasport;

b) Xidməti pasport;

c) Ümumvətəndaş pasportu;

ç) Dənizçi pasportu (gəmidə tutduğu vəzifəsi və ondan çıxarışla);

e) Azərbaycan Respublikasına qayıdış üçün şəhadətnamə.

2. Bolqarıstan Respublikasının vətəndaşları üçün:

a) Pasport;

b) Diplomatik pasport;

c) Xidməti pasport;

ç) Dənizçi pasportu;

e) Bolqarıstan Respublikasına qayıdış üçün müvəqqəti sənəd.

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin 2005-ci il sentyabrın 23-də Sofiya şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2005-ci il

№26-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikası Prezidenti və Bolqarıstan Respublikası Prezidenti, İkitərəfli əlaqələrin vəziyyəti və perspektivi, eləcə də Azərbaycan Respublikası və Bolqarıstan Respublikasının beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətinin əsas məsələlərini müzakirə etdikdən sonra;

Azərbaycan-bolqar əməkdaşlığının fəallaşması və dərinləşməsi üçün 2004-cü ilin 7-8 oktyabr tarixlərində Bolqarıstan Respublikası Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfərinin əhəmiyyətini qeyd edərək;

Bütün səviyyələrdə müntəzəm siyasi dialoqu dəstəkləməyə və iqtisadi, sosial, humanitar, gənclər, turizm, idman, hərbi-texniki əməkdaşlıq, ekologiya və digər sahələrdə əlaqələrin dərinləşdirilməsinə hazır olduqlarını təsdiq edərək;

İki dövlətin ümumi xarici siyasət prioritetlərini məmnunluqla qeyd edərək, Avropa və Avro-Atlantik inteqrasiyası sahəsində əməkdaşlığın dərinləşdirilməsinə çağıraraq;

İki dövlət arasında müqavilə-hüquqi bazanın bundan sonra da möhkəmləndirilməsinin vacibliyini qeyd edərək;

Azərbaycanda və Bolqarıstanda vətəndaş cəmiyyətinin demokratikləşməsi və bazar iqtisadiyyatının möhkəmləndirilməsinə, qanunun aliliyi, insan hüquq və əsas azadlıqlarının müdafiəsi və təminatı kimi müasir dünyanın prioritet universal dəyərlərinə öz bağlılıqlarını vurğulayaraq;

Hər iki dövlətin marağı daxilində, ikitərəfli və beynəlxalq əməkdaşlığın gələcəkdə qarşılıqlı inam ruhunda dərinləşməsinin regional, ümumavropa və dünya səviyyəsində sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəyinə əmin olaraq, aşağıdakıları bəyan edirlər:

Azərbaycan Respublikası Prezidenti və Bolqarıstan Respublikası Prezidenti Azərbaycan və Bolqarıstan parlamentləri arasında əməkdaşlığın fəallaşdırılmasını alqışlayırlar.

Prezidentlər iki ölkə arasında onların dinamik inkişaf edən iqtisadiyyatlarının həcminə və potensialına tam uyğun olan ticari, iqtisadi və elmi-texniki əməkdaşlığın lazımi səviyyəyə çatmasına nail olmaq üçün əlavə tədbirlərin görülməsini dəstəkləyirlər.

Prezidentlər ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə AzərbaycanBolqarıstan birgə komissiyasının fəaliyyətinə və bu Komissiyanın 6-7 oktyabr 2004-cü ildə Bakı şəhərində keçirilmiş ikinci iclasının qərarlarının həyata keçirilməsinə böyük əhəmiyyət verirlər.

Prezidentlər iki ölkə arasında səmərəli iqtisadi layihələrin həyata keçirilməsi, kiçik və orta müəssisələrin fəaliyyətlərinin gücləndirilməsi, dövlət və özəl müəssisələr arasında əməkdaşlıq üçün əlverişli şəraitin təmin edilməsi və onların birliklərinin yaradılması, maliyyə və bank strukturları arasında, həmçinin hər iki ölkənin turist firmaları və təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsinə kömək göstərməyə hazır olduqlarını vurğulayırlar.

Prezidentlər mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə, ikitərəfli sənədlərin imzalanması da daxil olmaqla, əlavə tədbirlər görməyə çağırırlar. Prezidentlər hər iki ölkənin elm, təhsil, ədəbiyyat, incəsənət və digər sahələrin nümayəndələri arasında, kütləvi informasiya vasitələri, gənclər, tələbələr və həmkarlar ittifaqları arasında əlaqələrin genişləndirilməsinə dəstək verəcəklər.

Prezidentlər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli əməkdaşlıqdan, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin, İNOGATE proqramının həyata keçirilməsindən məmnun olduqlarını bildirir, həmçinin Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihəsinin və TRACECA nəqliyyat dəhlizinin 8 saylı Avropa nəqliyyat dəhlizi xətti ilə davam etdirilməsinin artan əhəmiyyətini qeyd edirlər.

Bolqarıstan tərəfi Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qoşulmasını dəstəkləyir.

İki dövlətin başçıları terrorizmin bütün forma və təzahürlərini pisləyir və bu qlobal təhlükəyə qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın güclənməsini alqışlayırlar. Prezidentlər mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, qeyri-qanuni miqrasiyaya, insan alverinə, çirkli pulların yuyulmasına, narkotiklərin, psixotrop maddələrin və prekursorların, kimyəvi toksik maddələrin, yüngül odlu silahların, hərbi sursatların, partlayıcı maddələrin qanunsuz dövriyyəsinə, hava quldurluğu və eyni zamanda kütləvi qırğın silahlarının və onun daşınma vasitələrinin yayılmasına qarşı mübarizə sahəsində səmərəli ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsini dəstəkləyirlər.

Hər iki dövlət başçısı Avropa Qonşuluq Siyasətinin Azərbaycanın, o cümlədən Cənubi

Qafqazın digər dövlətlərinin Avropa İttifaqına yaxınlaşmasına müsbət təsir etməsindən məmnun olduqlarını qeyd edirlər. Prezidentlər bu prosesə cəlb olunduqlarını təsdiq edərək bu sahədə birgə fəaliyyəti təşviq etməyə hazır olduqlarını bəyan edirlər. Prezidentlər həmçinin Avropa Qonşuluq Siyasətinin əməkdaşlığın inkişafına, sülhün və sabitliyin qorunmasına, o cümlədən Cənubi Qafqazda dövlətlərin inkişafına kömək edəcəyinə əmin olduqlarını bildirirlər.

Prezidentlər Avropa inteqrasiya prosesinə töhfə kimi regionda münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, BMT Nizamnaməsi və ATƏT-in başlıca sənədlərinə uyğun olaraq sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar.

Hər iki Prezident Avro-Atlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində birgə fəaliyyəti və Azərbaycanın təqdim etdiyi Fərdi Əməkdaşlıq haqqında Fəaliyyət Planını dəstəklədiklərini ifadə edirlər. Hər iki dövlət başçısı Avro-Atlantik strukturların regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində vacib rolunu nəzərə alaraq, bu çərçivədə ikitərəfli və çoxtərəfli əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Bu kontekstdə, Prezidentlər ATƏT-in Minsk Qrupu çərçivəsində və onun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd edirlər.

Azərbaycan Respublikası Prezidenti və Bolqarıstan Respublikası Prezidenti hazırkı Birgə Bəyannamənin Azərbaycan-Bolqarıstan əməkdaşlığına xüsusi təkan verəcəyinə əmin olduqlarını bildirirlər.

Sofiya şəhərində 23 sentyabr 2005-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, bolqar və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*GEORGİ PIRVANOV*

"Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2005-ci il

№1203

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndinə uyğun olaraq, "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin təyin edilməsi barədə Beynəlxalq Dəniz Təşkilatının Baş Katibinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2005-ci il

№1205

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında sənədləri imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında aşağıda göstərilən sənədləri imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin:

1.1. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Misir Ərəb Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Misir Ərəb Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə və əczaçılıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədləri imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2005-ci il

№1206

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Misir Ərəb Respublikasının Xarici Ticarət və Sənaye Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Misir Ərəb Respublikasının Xarici Ticarət və Sənaye Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2005-ci il

№1207

BMT-nin Uşaq hüquqları Komitəsinin 2006-cı il yanvarın 9-27-də Cenevrə şəhərində keçiriləcək 41-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin 2-ci və 3-cü dövri hesabatlarının müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. BMT-nin Uşaq hüquqları Komitəsinin 2006-cı il yanvarın 9-27-də Cenevrə şəhərində keçiriləcək 41-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin 2-ci və 3-cü dövri hesabatlarının müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Nümayəndə heyətinin başçısı

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Nümayəndə heyətinin üzvləri:

Rüstəm Usubov - Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Tahir Budaqov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər, idman və turizm nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2005-ci il

№1210

2005-ci il noyabrın 30-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il noyabrın 30-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2005-ci il

№1213

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Birləşmiş Millətlər Təşkilatının digər sənədlərinə uyğun olaraq, hər iki dövlət və öz xalqları arasında mövcud olan dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsinə çalışaraq, qarşılıqlı fəaliyyət və qarşılıqlı fayda prinsiplərinə əsaslanan əlaqələrini genişləndirmək məqsədilə əməkdaşlığın yeni formalarının təşviqi və inkişaf etdirilməsi arzusunda olaraq, hər iki Tərəf üçün maraq kəsb edən məsələlərə dair müxtəlif səviyyələrdə dialoqun əhəmiyyətini və faydasını, Avropa və Asiya təhlükəsizlik proseslərində, habelə beynəlxalq təşkilatlar və görüşlər çərçivəsində fəal əməkdaşlığın zəruriliyini vurğulayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki Tərəf üçün maraq kəsb edən ikitərəfli əlaqələri və beynəlxalq məsələləri müzakirə etmək məqsədilə məsləhətləşmələr keçirəcəklər.

Həmin məsləhətləşmələr növbə ilə Bakıda və Seulda, yaxud beynəlxalq görüşlərdə keçiriləcəkdir. Nümayəndə heyətinin tərkibi, məsləhətləşmələrin gündəliyi və tarixləri diplomatik kanallar vasitəsilə birgə razılaşdırılacaqdır.

Maddə 2

Məsləhətləşmələr xüsusilə aşağıdakı məsələləri əhatə edə bilər:

a) qlobal məsələlər və beynəlxalq əlaqələrin ümumi inkişafı, xüsusilə Birləşmiş Millətlər Təşkilatına və digər beynəlxalq və regional təşkilatlara aid olan məsələlər;

b) ikitərəfli siyasi, iqtisadi, mədəni əməkdaşlığa və hər iki dövlətin xalqları arasında əlaqələrin təşviqinə aid olan məsələlər;

c) Avropa və Asiya təhlükəsizliyi, münaqişələrin həlli və qlobal inteqrasiya proseslərinin inkişafı məsələləri;

d) ikitərəfli sazişlərin tətbiq edilməsinə dair məlumat mübadiləsi, eləcə də Azərbaycan-Koreya əlaqələrinin inkişafını təşviq etmək üçün yeni üsulların işlənib hazırlanması; və e) Tərəflərin birgə razılaşdıra biləcəyi digər məsələlər.

Maddə 3

Tərəflər müvafiq regional və funksional idarələri arasında əməkdaşlığı və dostluq əlaqələrini təşviq edəcək və stajçıların mübadiləsi və xüsusi kursların keçirilməsi vasitəsilə diplomatlar arasında təcrübə mübadiləsi və birbaşa əlaqələrin qurulması üçün əlverişli şərait yaradacaqlar.

Maddə 4

Hər iki Tərəfin nümayəndələri beynəlxalq konfranslarda və görüşlərdə, habelə üçüncü ölkələrdə, Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq təşkilatlarda akkreditə

olunmuş diplomatik missiyaları vasitəsilə hər iki Tərəf üçün maraq kəsb edən məsələlərə dair məsləhətləşmələr keçirəcəklər.

Maddə 5

Bu Protokolun tətbiqi və ya təfsiri ilə bağlı yaranan hər hansı mübahisə diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 6

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və üçillik müddət ərzində qüvvədə qalır. Tərəflərdən hər hansı biri müvafiq müddətin başa çatmasına üç ay qalmış digər Tərəfə bildiriş göndərməklə onun qüvvəsini ləğv etməzsə, Protokolun qüvvəsi avtomatik olaraq növbəti üçillik müddətlərə uzadılacaqdır.

Seul şəhərində 2005-ci il noyabrın 30-da iki əsl nüsxədə hər biri Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Onun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN	KOREYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRLİYİ TƏRƏFİNDƏN
ELMAR MƏMMƏDYAROV	*PAN Gİ-MUN*
Xarici işlər naziri	*Xarici işlər və ticarət naziri*

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında 2005-2009-cu illər üçün Ölkə Proqramı üzrə Fəaliyyət Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında 2005-2009-cu illər üçün Ölkə Proqramı üzrə Fəaliyyət Planı"nı Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin İlyas oğlu Əfəndiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Ölkə Proqramı üzrə Fəaliyyət Planını Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin İlyas oğlu Əfəndiyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fonduna (YUNİSEF-ə) müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2005-ci il

№1212

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 6

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında sərhədyanı ticarət sahəsində əməkdaşlığa dair Memorandum 6

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti arasında Anlaşma Memorandumu 8

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol-Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum . 10

Azərbaycan Respublikası və İran İslam Respublikası dəmir yolları arasında əməkdaşlıq haqqında Protokol 12

"İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC (Borcalan) arasında İmişli - Əli Bayramlı - Astara EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsi 13

İran İslam Respublikası İxracatın İnkişafı Bankı tərəfindən Azərbaycan Respublikasında Bakı-Astara avtomobil yolunun bir hissəsinin maliyyələşdirilməsinə dair Anlaşma Memorandumu 23

2004-cü il dekabrın 8-də Bakı şəhərində imzalanmış "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 24

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlayışma Memorandomu (AM) 25

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidrotexnika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 28

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 28

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 28

"Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29

"Azərbaycan Dövlət Dəmir Yolu və İran İslam Respublikası Dəmir Yolu arasında qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 14 saylı Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 30

"Azərbaycan Respublikasının Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərinə dair səlahiyyətlərin həyata keçirilməsi haqqında" Sazişin qüvvədə olma müddətinin uzadılması barədə Protokolu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 30

BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 2005-ci il fevralın 21-dən martın 11-dək Cenevrə şəhərində keçiriləcək 66-cı sessiyasında Birləşmiş Millətlər Təşkilatının "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin üçüncü dövri məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 31

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "2005-ci il üçün Gender Münasibətlərinə dair Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat"ın hazırlanması layihəsi üzrə Məktub Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 31

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti adından çıxış edən Natexis Banques Populaires arasında Kredit Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 32

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişaf Təşkilatı arasında Əməkdaşlıq üzrə Çərçivə Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidenti Sərəncamı 32

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Sazişi (2003-2004)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 33

2004-cü il oktyabrın 7-də Buxarest şəhərində imzalanmış "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın birinci iclasının Protokolu"nun və "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 33

"Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın birinci iclasının Protokolu 34

Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyanın təşkili və fəaliyyəti üzrə Əsasnamə 46

E. H. Zeynalova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 50

E.H.Zeynalovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 50

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Səfiri E. O. Əmirbəyovun eyni zamanda Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda (Vatikan Dövlətində) Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 50

Azərbaycan Respublikası ilə Rumıniya arasında 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 51

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rumıniya Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş 51

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 54

Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 56

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rumıniya Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol 59

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Rumıniya Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş 61

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Rumıniya Televiziya Qurumu arasında Əməkdaşlıq Sazişi 62

2004-cü il oktyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 65

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş 65

Azərbaycan Respublikası ilə Qatar Dövləti arasında 2004-cü il noyabrın 30-da Doha şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 66

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Saziş 66

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu 68

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 70

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qatar Dövlətinin Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu 71

2004-cü il dekabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 72

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 73

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qazaxıstan Respublikasının Baş Prokurorluğu arasın-da əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 77

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatı və aradan qaldırılması üzrə qarşılıqlı inzibati yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 78

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 78

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin bərpası sahəsində əməkdaşlığa dair Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 79

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İtaliya Milli Mətbuat Birliyi Agentliyi (ANSA) arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 79

"Bakı Şəhər İcra Hakimiyyəti və Roma şəhəri Meriyası arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 79

"Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti və "RAİ" İtaliya Radio-Televiziya Şirkəti arasında Əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 80

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və İtaliya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 80

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 81

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 81

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 88

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş 88

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 91

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 91

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 96

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 96

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 98

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi 99

"Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 101

Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 101

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ticarət Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 108

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ticarət Sazişi 108

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 112

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş 113

"Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 117

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş 117

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında 25 avqust 2004-cü il tarixli Sazişin Protokolu 138

"Çexiya Respublikasının, Estoniya Respublikasının, Kipr Respublikasının, Macarıstan Respublikasının, Latviya Respublikasının, Litva Respublikasının, Malta Respublikasının, Polşa Respublikasının, Sloveniya Respublikasının və Slovakiya Respublikasının Avropa İttifaqına qoşulmasını nəzərə alaraq, bir tərəfdən Azərbaycan Respublikası və digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlığı təsis edən tərəfdaşlıq və əməkdaşlıq Sazişinin" Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 141

"Çexiya Respublikasının, Estoniya Respublikasının, Kipr Respublikasının, Macarıstan Respublikasının, Latviya Respublikasının, Litva Respublikasının, Malta Respublikasının, Polşa Respublikasının, Sloveniya Respublikasının və Slovakiya Respublikasının Avropa İttifaqına qoşulmasını nəzərə alaraq, bir tərəfdən Azərbaycan Respublikası və digər

tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlığı təsis edən tərəfdaşlıq və əməkdaşlıq Sazişinin" Protokolu 141

"Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 143

Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının eni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş 143

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 147

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında Saziş 148

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 151

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş 151

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 158

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş 158

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 165

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş 165

"Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 167

Bioloji müxtəliflik haqqında Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu .. 168

Bilavasitə ərzaq, yaxud yem kimi və ya emal üçün istifadə edilməsi nəzərdə tutulan dəyişdirilmiş canlı orqanizmlərə dair prosedur 173

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 191

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi ... 191

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 194

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş 194

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 198

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 199

"Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 207

Azərbaycan Respublikası Hökuməti və Qatar Dövləti Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş 207

"Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə dəyişiklik və əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 209

Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 210

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 210

Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsin-də iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 211

F. N. İsmayılova Fövqəladə və Səlahiyyətli Səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 211

F. N. İsmayılovun Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 212

A. F. Süleymanova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 212

A. F. Süleymanovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 212

Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu İ. N. Yaqubovun eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 213

Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsinin inkişafı üçün Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 213

Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 213

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 214

Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 214

Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 214

Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 215

V. İ. Sadıqovun Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 215

Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F. N. İsmayılovun, eyni zamanda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 216

"Azərbaycan Respublikası və Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında Borc Sazişini (Şimal-Şərq İnkişaf Layihəsi)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 216

Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 217

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 217

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında iqtisadi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 217

"Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 218

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikası Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 218

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 219

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 219

"Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Sazişini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 220

2004-cü il noyabrın 11-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 220

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş ... 221

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti nümayəndə heyətlərinin danışıqlarının Protokolu 224

2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında "Əməkdaşlıq haqqında Saziş"in nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 227

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında Əməkdaşlıq haqqında Saziş 227

2004-cü il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 229

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis əməkdaşlarının təlimi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığa dair Protokol 229

2004-cü il aprelin 25-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 231

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 231

2005-ci il yanvarın 9-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 236

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə Memorandum 236

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 2005-ci il yanvarın 26-da Tehran şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 244

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında Anlaşma Memorandumu 245

İran İslam Respublikasına məxsus olan sənət əsərlərinin Azərbaycan Respublikası Hökuməti tərəfindən İran İslam Respublikası Hökumətinə təhvil verilməsi haqqında Protokol 246

Azərbaycan Respublikası Maliyyə Nazirliyi və İran İslam Respublikası İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 247

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 248

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq Memorandumu 251

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 255

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu 255

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında 2004-cü il dekabrın 16-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 256

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol №1 257

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 2 259

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol № 3 261

"Azərbaycan Respublikasının Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş"in icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 263

"Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"nun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 264

Azərbaycan Respublikasının İspaniya Krallığında (Madrid şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 265

Azərbaycan Respublikasının İsveç Krallığında (Stokholm şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 265

Azərbaycan Respublikasının Çex Respublikasında (Praqa şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 266

Azərbaycan Respublikasının Argentina Respublikasında (Buenos-Ayres şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 266

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında (Amman şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 267

Azərbaycan Respublikasının Moldova Respublikasında (Kişinyov şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 267

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşa Respublikası Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 268

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 269

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 269

"Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 270

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin "Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən milli səlahiyyətli orqan təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 270

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiyada nəzərdə tutulmuş səlahiyyətli orqan təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 271

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 271

"Azərbaycan Respublikası Beynəlxalq Bankı ilə Türkiyənin İxracat-Kredit Bankı arasında Borcun ödənilməsi müddətinin yenidən rəsmiləşdirilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 271

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında" 1997-ci il 3 iyul tarixli Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 272

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişə Protokol 272

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişin Protokoluna 1 saylı Əlavə 273

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci il tarixli Sazişin Protokoluna 2 saylı Əlavə 273

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 274

Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında Memorandum 274

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əvəzsiz yardım (qrant) haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 277

Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında əvəzsiz yardım (qrant) haqqında Memorandum 278

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 280

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 280

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 280

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 281

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 281

"Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Aviasiya Administrasiyaları arasında əməkdaşlıq haqqında Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 282

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Misir Ərəb Respublikasının Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Proqram"ı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 282

"Yeni Asiya-Afrika Strateji Tərəfdaşlığı haqqında Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

"Azadlıqdan məhrum etməyə məhkum olunmuşların cəzanın qalan hissəsini çəkmək üçün təhvil verilməsi haqqında Konvensiya" üzrə səlahiyyətli orqanın təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 284

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında baytarlıq-sanitariya Konvensiyası"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 284

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 285

"İEİB" İran Eksport İnkişaf Bankı və "Azərenerji" ASC "Borcalan" arasında "İmişli-Əli Bayramlı-Astara" EVX-lərin və yarımstansiyaların layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin zəmanəti ilə İran Eksport Zəmanət Fondu ("İEZF") tərəfindən sığortalanan Maliyyə Müqaviləsinə dəyişikliklərin edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 285

"GUÖAM iştirakçı dövlətlərinin Ticarət-Sənaye Palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 286

"GUÖAM iştirakçı dövlətlərinin Səhiyyə Nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 286

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 287

Azərbaycan Respublikasının Qatar Dövlətində (Doha şəhərində) səfirliyinin fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 287

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında 2005-ci il fevralın 24-25-də Roma şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 288

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İtaliya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 288

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair Bəyannamə 290

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında Mədəniyyət abidələrinin qorunması və inventarlaşdırılması sahəsində əməkdaşlığa dair Bəyannamə 291

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə İtaliya Respublikasının RAİ Radio-Televiziyası arasında əməkdaşlığa dair Saziş 292

AzərTAc və ANSA xəbər agentlikləri arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında Saziş 294

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Roma Şəhər Meriyası (İtaliya Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol 296

Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri F.İ.Qurbanovun eyni zamanda Azərbaycan Respublikasının Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 297

Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Kaspian Enerci Qrup Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu 297

Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, AZEN Oyl Kompani Bi.Vi. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu 299

Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Nobl Skay Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu 300

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 302

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* 302

"Azərbaycan Respublikası Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi"nə dair Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında Notanı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 303

"Azərbaycan Respublikası Hökuməti və *Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı* arasında Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə Kredit Sazişi'ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 303

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 304

"İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 304

İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya 304

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 315

Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Saziş 315

"Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 326

Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 326

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya (CITES) və həmin Konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" Qətnaməsinə qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 332

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Maliyyə Xidmətlərinin İnkişafı Layihəsi) imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 332

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) və Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında "Layihə Sazişi"ni (Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 333

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) arasında Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) barədə Stokholm Konvensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 333

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentini Sərəncamı 334

"Azərbaycan Respublikası və Təşkilatçı və Agent qismində çıxış edən Çexiya İxrac Bankı arasında "Bakı-Rusiya Federasiyasının dövlət sərhədi avtomobil yolunun yenidən qurulması layihəsi"nin maliyyələşdirilməsinə dair Kredit Müqaviləsi"ni, "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında Azərbaycan Respublikasının müəyyən öhdəliklərinə dair Çərçivə Təminatı"nı və "Azərbaycan Respublikası adından Maliyyə Nazirliyi və Çexiya İxrac Bankı arasında Haqq Məktubu"nu imzalamaq *səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* 334

"Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 335

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 335

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında 1997-ci il 10 iyun tarixli Sazişə əlavə və düzəlişlərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 336

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırma sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 336

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 337

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 337

"Azərbaycan Respublikası Hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında Saziş" üzrə Azərbaycan Respublikası tərəfindən əlaqələndirici şəxs təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 338

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında Xaçmaz yarımstansiyası və elektrik verilişi xətti layihəsində istifadə edilməsi məqsədilə Bank adından və Bankın agenti qismində çıxış edən Azərbaycan Respublikası Hökumətinin 330/1 l0kv-luq yarımstansiyanın alınması üçün səlahiyyətləndirilməsinə və Azərbaycan Respublikası Hökumətinə satılmasına dair Müddətli Satış Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 338

Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 339

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 965 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 342

"Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 966 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 342

2005-ci il fevralın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 343

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol .. 343

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında 2005-ci il martın 17-də Pekin şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 344

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 345

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş 346

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin Xalq Respublikasının İnformasiya Sənayesi Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu 347

Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə texniki dəstəyi haqqında Memorandum 348

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında Protokol 349

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Çin Mərkəzi Televiziyası arasında Əməkdaşlıq Saziş 351

2005-ci il aprelin 4-də Məsqət şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 353

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Anlaşma Memorandumu 354

2005-ci il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 355

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 355

"Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə"nin nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 357

Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə 357

Azərbaycan Respublikasını təmsil edən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Kreditanştalt für Videraufbau (KfW) Bankı arasında "Tədqiqatlar və Mütəxəssislər Fondu-III" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini, həmin Müqavilə üzrə Xüsusi Razılaşmanı və Həvalə Müqaviləsini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 358

"Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının aviasiya hakimiyyəti orqanları arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 358

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 359

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında Birgə Bəyannamə 359

"Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 363

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslim etmə haqqında Müqavilə 363

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 369

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 373

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 379

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş 379

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 395

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş 395

"Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında informasiya-mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 396

Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında informasiya-mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş 396

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı . 401

Avropa Şurasının Parlament Assambleyasına Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti 401

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və onun Protokolunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Narkotiklərə nəzarət sahəsində regional əməkdaşlıq haqqında qarşılıqlı anlaşma Memorandumunun iştirakçı ölkələrində (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistan) narkotiklərə nəzarət üzrə hüquq mühafizə fəaliyyəti sahəsində interaktiv kompüterləşmiş təlim" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403

2004-cü il noyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 404

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün İnkişaf Fondu arasında "Qanunvericilik və siyasət çərçivəsində qadın hüquqları və gender bərabərliyinin dəstəklənməsinə dair Anlaşma Məktubu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 404

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" Sazişin (2003-2004-cü illər üzrə) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 405

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş 405

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri F.N.Bağırovun iqamətgahı Qahirə şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 407

"Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB") Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsini və Ödəniş Zəmanətini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 408

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Texniki Əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 408

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 409

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 409

Azərbaycan Respublikasında Suraxanı neft-qaz yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 410

T. M. Əliyevin Azərbaycan Respublikasının Moldova Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 410

"Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə balıq və digər dəniz məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 411

2005-ci il aprelin 14-də İstanbul şəhərində imzalanmış "Azərbaycan-Türkiyə hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu"nun nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 411

Azərbaycan - Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu 412

"İqtisadi Əməkdaşlıq Təşkilatının üzv-dövlətləri arasında investisiyaların təşviqi və qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 420

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün iştirak vasitəsilə uzunmüddətli davamlı inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi üzrə Texniki Yardıma dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 420

"Azərenerji" ASC ilə Almaniya Federativ Respublikasının Bayerische Landesbank ("Bayern LB"), Fransa Respublikasının BNP Paribas ("BNPP") və Societe Generale (SocGen) banklarından ibarət Birləşmiş Aparıcı Təşkilatçılar Sindikatı arasında, Agent qismində "Bayern LB" olmaqla, 500 MVt-lıq Sumqayıt Buxar Qaz Qurğusunun tikintisinə dair Maliyyə Müqaviləsinin və Ödəniş Zəmanətinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 421

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 421

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Sərəncamı 422

2005-ci il mayın 16-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 422

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş 423

2005-ci il iyunun 6-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 426

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 426

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 427

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Polşanın Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum 427

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Varşava Şəhəri (Polşa Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında Protokol 429

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Polşa Respublikası iqtisadi işlər və əmək naziri arasında əmək bazarı sahəsində əməkdaşlıq haqqında Memorandum 430

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında kənd təsərrüfatı və aqro-ərzaq emalı sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu 431

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2005-ci il aprelin 13-də İslamabad şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 432

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 433

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş 436

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Pakistan İslam Respublikasının Maliyyə nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 437

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Pakistan İslam Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Protokol 439

Azərbaycan Respublikasının Aviasiya hakimiyyəti və Pakistan İslam Respublikasının Aviasiya hakimiyyəti arasında Anlaşma Memorandumu 440

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Pakistan İslam Respublikasının Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 442

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 443

M. N. Əliyevin Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 443

M. N. Əliyevin Azərbaycan Respublikasının İspaniya Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 444

Z. A. Həşimovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 444

Z. A. Həşimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 444

A. T. Hüseynə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 445

A. T. Hüseynin Azərbaycan Respublikasının Yaponiyada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 445

2005-ci il iyunun 6-da Vaşinqtonda imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 445

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş 446

Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 449

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 450

İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftara və ya cəzalandırmaya qarşı Konvensiyaya Fakultativ Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 451

"Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 452

"Azərbaycan Hava Yolları" Dövlət Konserni tərəfindən 4 ədəd Airbus A 319 təyyarəsinin alınması ilə əlaqədar hər bir təyyarə üzrə Sənədlər Toplusunu imzalamaq səlahiyyətlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 452

H. M. Sadıqovun Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 453

P. O. Şahbazova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

P. O. Şahbazovun Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin xarici işlər nazirlərinin 33-cü konfransının Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 455

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 457

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 458

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Saziş"i (Yoxsulluğun Azaldılmasına Yardım Krediti) imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 460

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Elektron Hökumət Satınalmalarının Gücləndirilməsi üçün İnstitusional İnkişaf Fondunun Qrantı üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 460

Azərbaycan Respublikasında Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı .. 461

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 461

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 462

Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş 462

"Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 465

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Nəqliyyat Sektorunun İnkişafı Strategiyası layihəsinə dair Məktub-Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 466

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Ticarətin və Nəqliyyatın Dəstəklənməsi Layihəsi"nin hazırlanması üçün Siyasət və İnsan Resurslarının İnkişaf Etdirilməsinə dair Qrant üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 466

Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Bakı-Samur layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 467

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 467

İ. Ə. Hacıyevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 467

İ. Ə. Hacıyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 468

2005-ci il iyulun 14-də Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 468

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Avstriya Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında polis fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş 468

Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 473

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2005-ci il mayın 24-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 474

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 475

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 10 iyun 1997-ci il tarixli Neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Sazişə dəyişikliyin edilməsi haqqında Protokol 477

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş 478

YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 480

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin turizm nazirlərinin beşinci konfransının Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 482

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 2005-ci il aprelin 21-də Kişineu şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 483

Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 483

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Teleradio-Moldova" İctimai Şirkəti arasında əməkdaşlıq haqqında Saziş 485

"Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 568 nömrəli Sərəncamına əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 488

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında məlumat mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 488

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında" Sazişə qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 489

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş 489

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında "Layihə Sazişinin (Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsinin) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 495

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu arasında Layihə Sazişi (Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsi) 495

Satınalma və Məsləhətçilərin Xidmətləri 500

İcra Proqramı 502

"Tütünə qarşı mübarizə haqqında" ÜST-nin Çərçivə Konvensiyasına qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 503

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası 503

Əlavə I: WHA 56.1 - Tütünə Qarşı Mübarizə Haqqında ÜST-nin Çərçivə Konvensiyası 527

Əlavə 2: TMÇK-nın Hazırlanması Tarixi 529

"Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası"na dair Azərbaycan Respublikasının Bəyanatı 532

Azərbaycan Respublikasında Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Rafi Oyl EfZel və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu 532

Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 534

Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 534

Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 534

Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 535

Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 535

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Energetika Departamenti arasında nüvə və digər radioaktiv materialların qanunsuz dövriyyəsinin qarşısının alınmasında əməkdaşlığa dair İcra Razılaşması"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 535

"Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları arasında gələcək əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 536

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının "Tamojni" Agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının dərinləşdirilməsi sahəsində qarşılıqlı Anlaşma Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 536

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 537

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramına (2005-2007-ci illər) dəstək layihəsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 537

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Azərbaycan: Günəşli Neft Yatağında Səmt Qazının Utilizasiyası Layihəsi"nin hazırlanması üçün Yaponiya Qrantı üzrə Məktub-Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 538

"Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 538

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Kommünikenin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 539

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Kommünike 539

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 542

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol 543

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 545

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş 545

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 548

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş 548

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 552

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Moldova Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Moldova Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş 552

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Baytarlıq-Sanitariya Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 557

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında Baytarlıq-Sanitariya Konvensiyası 557

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 561

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə 561

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 567

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında terrorçuluq, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, mütəşəkkil və digər növ cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında Saziş 567

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 573

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 574

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 574

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 575

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş 575

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E.Z.Kərimovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının San Marino Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 578

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Latviya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 578

Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 579

Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilmə-si haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 579

"Diplomatik xidmət haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 580

Beynəlxalq İnkişaf Assosiasiyasının əlavə resurslarına dair Öhdəlik Sənədini ("Resurslara əlavələr: on dördüncü əlavə ödəmə") imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 581

"Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 581

Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikasının "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Kredit haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 582

Elektrik Ötürücü Sistemi Layihəsi üzrə Azərbaycan Respublikası və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Zəmanət haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 582

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 582

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi haqqında Əsasnamə 583

Azərbaycan Respublikasının Niderland Krallığında (Amsterdam şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 589

Azərbaycan Respublikasının Xorvatiya Respublikasında (Zaqreb şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 589

Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 590

Azərbaycan Respublikasının Mərakeş Krallığında (Rabat şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 590

Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 591

Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 591

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 592

Azərbaycan Respublikasının Koreya Respublikasında (Seul şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 592

Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 593

Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 593

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 594

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəliyinin başçısı Y. T. Əliyevin iqamətgahı Nyu-York şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kuba Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 594

Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E. Z. Kərimovun iqamətgahı Roma şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Malta Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 595

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 595

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında məcburi köçkünlər üçün sosial infrastruktur obyektlərinin tikintisi layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 595

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 31 yanvar tarixli 6 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 596

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 fevral tarixli 23 nömrəli qərarı ilə təsdiq edilmiş "Diplomatik rütbəyə görə vəzifə maaşına əlavələrin verilməsi Qaydaları"na əlavə edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 597

E. E. Süleymanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 597

E. E. Süleymanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 597

"Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 598

Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları 599

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri əməkdaşlarının xarici dövlətlərin xüsusi xidmət orqanlarında və təşkilatlarında, həmçinin cinayətkar qruplarda tapşırıqlar yerinə yetirdiyi zaman xidmət müddətinin güzəştli hesabla pensiya təyin edilməsi, hərbi rütbələrin verilməsi, xidmət illərinə görə əlavə faiz hesablanması üçün xidmət illərinə əlavə olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 183 nömrəli qərarına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 600

2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqında Saziş" üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 601

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyasının Dağıstan Respublikası Hökuməti arasında sərhədyanı ticarət və nəqliyyat təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 601

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Borcun Restrukturizasiyası Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 602

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Kənd Təsərrüfatı Siyasəti və Meşəçilik Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 602

Azərbaycan Respublikası Hökuməti və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında "Fermer təsərrüfatlarının informasiya və monitorinq sisteminin qurulmasına kömək göstərilməsi" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 603

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında borc təxirəsalma Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 603

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf krediti haqqında Saziş"i (Kənd Ətraf Mühit Layihəsi), Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd Ətraf Mühit Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi və Azərbaycan Respublikası ilə Qlobal Ekoloji Fondun icraçı təşkilatı kimi çıxış edən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında "Qlobal Ekoloji Fondun Trast Fondunun Qrantı üzrə Saziş"i (Kənd Ətraf Mühit Layihəsi) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 604

"Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya sektorunun institusional gücləndirilməsi üçün Texniki Yardım haqqında Məktub"u Azərbaycan Respublikası Hökuməti, "Şəhər su təchizatı və kanalizasiya layihəsi" üzrə "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Xüsusi Əməliyyatlar)" və "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Kredit haqqında Sazişi (Adi Əməliyyatlar)" Azərbaycan Respublikası adından, "Asiya İnkişaf Bankı və "Azərsu" Səhmdar Cəmiyyəti arasında Layihə haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 604

"Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında Samur-Abşeron irriqasiya sistemi layihəsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 605

"Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti arasında şəbəkə təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 605

"Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında Bank nəzarəti sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 606

Azərbaycan Respublikası Milli Bankı ilə Türkiyə Bank Tənzimlənməsi və Nəzarəti Agentliyi arasında Bank nəzarəti sahəsində Anlaşma Memorandumu 606

"Azərbaycan Respublikası Hökuməti, Asiya İnkişaf Bankı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Şəhərlər Alyansının Azərbaycanda şəhər və regional inkişaf strategiyalarına dair Proqramı üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 611

Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Resipient") və Kreditanştalt für Videraufbau, Frankfurt am Main ("KfW") arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsini və həmin Müqaviləyə dair Xüsusi Razılaşmanı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 611

2005-ci il oktyabrın 16-da Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ərəb Dövlətləri Liqasının Baş Katibliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 612

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ərəb Dövlətləri Liqasının Baş Katibliyi arasında Anlaşma Memorandumu 612

"Təbii və texnogen xarakterli fəlakətlər baş verərkən fövqəladə yardım göstərilməsi və fövqəladə vəziyyətlərin ləğv edilməsi zamanı əməkdaşlıq haqqında" Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) iştirakçısı olan dövlətlərin Hökumətləri arasında Sazişə Əlavə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 614

2004-cü il oktyabrın 28-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 615

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər 615

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 616

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 616

R.A.Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

R.H.Rizayevin Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

2005-ci il avqustun 26-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 2 saylı Düzəliş 632

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük atteşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 632

Qara Dəniz Ticarət və İnkişaf Bankının səkkizinci illik toplantısının və Qara Dəniz Biznes Forumunun Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 633

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 634

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında Saziş 635

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avro-Atlantik inteqrasiya sahəsində əməkdaşlıq haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Qanunu 638

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avro-Atlantik inteqrasiya sahəsində əməkdaşlıq haqqında Memorandum 639

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 642

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında Saziş 642

Əlavə 645

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 646

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi 646

"Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 648

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 649

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında sənədləri imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 649

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Misir Ərəb Respublikasının Xarici Ticarət və Sənaye Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 650

BMT-nin Uşaq hüquqları Komitəsinin 2006-cı il yanvarın 9-27-də Cenevrə şəhərində keçiriləcək 41-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında Konvensiyası" ilə bağlı Azərbaycan Respublikası Hökumətinin 2-ci və 3-cü dövri hesabatlarının müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 650

2005-ci il noyabrın 30-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 651

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Koreya Respublikası Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol 652

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (YUNİSEF) arasında 2005-2009-cu illər üçün Ölkə Proqramı üzrə Fəaliyyət Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 653

MÜNDƏRİCAT 654

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir : 15.05.2009
Çapa imzalanmışdır : 22.05.2009
Format : 70x100 1/16
Fiziki ç.v. : 43
Tirajı : 500